HƏCƏR HÜSEYNOVA

DİALEKTOLOGİYA

Mühazirə mətnləri
(Dərs vəsaiti)

Bakı Avrasiya Universiteti Elmi Şurasının
19.12.2023-cü il tarixli
EŞ04-11/23saylı
protokoluna əsasən, dərs
vəsaiti kimi dərc edilmişdir.

BAKI-2023

Elmi redaktor: **prof. M. Hüseynova**

Rəyçilər: **prof. E. Ezizov**
prof. M.Məmmədli
prof. İ.Bayramov
b/m. Sevinc Talıbova

HƏCƏR HÜSEYNOVA. "Dialektologiya". Mühazirə mətnləri (Dərs vəsaiti). Bakı–2023, 556 s.

Annotasiya: *Vəsaitdə Azərbaycan dialektlərinin tədqiqi tarixindən bəhs edilmiş, həmin istiqamətdə araşdırmalar aparmış görkəmli tədqiqatçıların fəaliyyəti haqqında məlumat verilmişdir. Müxtəlif dialektoloqların dilimizin şivələrinin təsnifatı istiqamətində fikirləri təqdim edilmiş, həmin təsnifatlara münasibət bildirilmişdir.*

Vəsaitin yeniliklərindən biri də ondan ibarətdir ki, sonda Müasir Azərbaycan dilinin müxtəlif dialektlərinə dair mətn nümunələri verilmişdir. Görkəmli dialektoloqların həyat və fəaliyyətini əks etdirən oçerklərin verilməsi metodiki vəsaitin müsbət cəhətlərindəndir.

Vəsaitdə mövzuların möhkəmləndirilməsi məqsədilə ümumi çalışmalar və test tapşırıqları da təqdim edilmişdir. Tələbələrin hazırladıqları dialektoloji sözlük vəsaitin sonuna əlavə edilmişdir. Vəsaitdən ali və orta məktəb müəllimləri,bu sahə ilə maraqlanan tədqiqatçılar, ümumiyyətlə, hər bir vətəndaş istifadə edə bilər.

GİRİŞ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 aprel 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın 6.3.5. bəndində Azərbaycan dilinin müxtəlif dialekt və şivələrinin müasir dövrün tələblərinə uyğun olaraq tədqiqinin təmin edilməsi məsələsi də nəzərdə tutulmuşdur.

"Dövlət Proqramı"nda nəzərdə tutulmuş həmin bəndin həyata keçirilməsi istiqamətində həm dilçilik nöqteyi-nəzərindən, həm tarixi, həm də strateji baxımdan əhəmiyyətli olan Qarabağ ərazisinin dialekt sisteminin müasir dövrün tələblərinə uyğun olaraq tədqiq edilməsi müasir dilçiliyin ən aktual məsələlərindən biridir.

Hər hansı bir dilin leksik sistemi, leksik-semantik və leksik tematik söz qruplarının birliyindən yaranmış semantik mühitini özündə əks etdirir. Həmin söz layları ümumi semantik cəhətlərinə və ya əşyanın təsnif edildiyi spesifik cəhətlərə əsasən, fərqləndirilən leksik vahidləri özündə ehtiva edir. Dildə mövcud olan sözlər mənsub olduğu dilin bir-biri ilə kontaktda olan nominativ sisteminə daxil olur.

Təqdim edilmiş vəsaitdə leksik söz qatlarından biri – dialekt sözləri Azərbaycan dilinin, xüsusilə də, Təbriz, Borçalı, Qarabağ, Dərbənd şivələrinin materialları əsasında

təqdim edilmişdir ki, bu da müasir dilçiliyin aktual problemlərin- dəndir.

Məlumdur ki, innovativ struktura malik olan dialekt leksikasında müntəzəm olaraq yeni keyfiyyətlər müşahidə edilir. Areal dilçilikdə innovasiyaları tədqiq edən İ.Şmidt həmin innovasiyaların eyni mərkəzdən yayıldığı qənaətinə gəlmişdir. Dilin dialekt sistemində bərpa edilən, müəyyən edilən innovasiyaları, dialekt vahidlərinin omonimliyi, sinonimliyi və antonimliyi, məcazilik dərəcələri, etnoqrafik və terminoloji dialektizmlər intensiv olaraq dilçilik tədqiqatlarında tədqiqat obyektinə çevrilməli, onların semantik sferasında baş verən dəyişmələr izlənməlidir.

Dilin tarixini, arxaik dil vahidlərini özündə daha çox qoruyub saxlayan dialektlərin areal tədqiqi, müxtəlif bölgələr üzrə dialektlər arasında oxşar və fərqli cəhətlərin müəyyən edilməsi istiqamətində dilçilik elmi üçün dəyərli elmi faktların meydana çıxmasına səbəb olur və belə araşdırmaların aparılması müasir dilçiliyimizin aktual məsələlərindən biridir.

Leksik-semantik qruplardan biri olan şivə sözləri haqqında dildə linqvist-dialektoloqlar tərəfindən müxtəlif tədqiqatlar aparılmış, dəyərli monoqrafiyalar yazılmışdır.

Artıq bütün dünyaya məlumdur ki, Azərbaycan torpaqlarının 30 il erməni tapdağı altında qalmış ərazilərini qırx dörd günlük əks-hücum əməliyyatları nəticəsində azad edilmişdir. Lakin həmin ərazilər maddi və mənəvi cəhətdən talanmış vəziyyətdədir. Erməni təcavüzkarları 30 il ərzində Azərbaycan torpaqlarından yerli əhalinin qovulmasına nail

olmuş, sürətli şəkildə coğrafi məkanlarımızın adları ermənileşdirilmişdir, qədim abidələrimiz məhv edilmişdir. Əslində bu, çoxdan başlanmış bir prosesin yekunu olmuşdur. Coğrafi adlarımızı silməklə ermənilər tarixi silməyə nail ola bilmədilər. Çünki həmin tarixi əks etdirən milli və əcnəbi alimlərin, tədqiqatçıların, coğrafiyaşünasların yazdıqları mənbələr vardır. Hazırda biz həmin mənbələrə əsaslanaraq, əsl adları dəyişdirilərək ermənileşdirilən ərazilərimizin dil xüsusiyyətlərinin, dialekt vahidlərinin öyrənilməsi, tədqiqi məsələləri ilə daha ciddi məşğul olmalıyıq. Bu, hər bir azərbaycanlının, xüsusilə, də hər bir dilçinin vətəndaşlıq borcu, eyni zamanda işin aktuallığını təmin edən ən mühüm cəhətlərdən biridir.

Dialekt vahidləri dialektologiya elmi çərçivəsində müxtəlif cəhətlərdən tədqiq edilmişdir. Mənsub olduğu dillərin lüğət tərkiblərində xüsusi leksik və tematik qrup təşkil edən dialektizmlər həm ayrılıqda, həm də digər söz qrupları ilə əlaqəli şəkildə, eyni zamanda müxtəlif zonalar üzrə linqvistik təhlillərin obyektinə çevrilmişdir.

Dialektlərin tədqiqinin, gənc nəslə tədrisinin aktuallığı həm də ondan ibarətdir ki, Azərbaycan dilində dialektal leksikanın linqvokulturoloji xarakteristikası müxtəlif parametrlər əsasında müəyyən edilmişdir. Eyni zamanda, Təbriz, Dərbənd, Qarabağ dialekt leksikasının semantik, funksional cəhətləri, omonimliyi, sinonimliyi, antonimliyi, terminoloji, xüsusiyyətləri və digər cəhətləri vəsaitə daxil edilmişdir. Qeyd etmək lazımdır ki, tədqiqata cəlb edilən

Azərbaycan dili şivələrində bu qrupa daxil olan sözlərin böyük tarixi keçmişi vardır.

Eyni zamanda, Azərbaycanın bütün ərazlərinin dialektoloji materialının toplanması, dialektoloji atlasının, lüğətinin hazırlanması məsələsi də qarşıda duran vacib problemlərdəndir. Mövzunun aktuallığı həm də ondan ibarətdir ki, linqvistlərin obrazlılıq probleminə, obrazlılıq yaradan vasitələrə həm sistematik şəkildə, həm də ayrılıqda tədqiqinə, dialektizmlərin iştirakı ilə düzələn məcazlara marağını təmin edir. Hələ Azərbaycan dilində ədəbi-bədii nümunələrdə dialektizm tərkibli obrazlılıq yaradan vasitələr araşdırılmamışdır.

Güman edirik ki, insan həyatının bütün sahələrinə nüfuz edən dialektizmlər və onların törəmələri linqvokul-turoloqların, linqvofolkloristlərin tədqiqat obyektinə çevriləcəkdir.

ŞİVƏLƏRİN AREALLIĞI. DİALEKTLƏRDƏ – QARABAĞ ŞİVƏLƏRİNDƏ QORUNAN QƏDİM TÜRK ELEMENTLƏRİ

Azərbaycan dili tarixən çox geniş bir ərazidə ünsiyyət vasitəsi kimi mühüm bir funksiyanı yerinə yetirərək öz mövcud sərhədlərindən uzaqlarda da ünsiyyətə xidmət etmişdir. X əsr ərəb coğrafiyaşünas-səyyahı İbn Havqəl Qafqazı gəzdikdən sonra Azərbaycan, Aran və Ermənistanın ümumi xəritəsini çəkmiş, bütövlükdə Xəzərin sahilboyu əraziləri də daxil olmaqla həmin sahəni Azərbaycan, xəritəni

isə “Azərbaycan xəritəsi” adlandırmışdır. Bunun birinci səbəbi ərəb istilasından sonra həmin ərazinin vahid canişinlik tərəfindən idarə edilməsi olsa da, ikinci mühüm cəhət həmin ərazilərdə coğrafiyaşünas alimin eşitdiyi – yerli əhalinin danışıq dili idi.

Azərbaycan dili həmin dövrdə Qafqazda aparıcı ünsiyyət vasitəsi olmuşdur. Bu məsələ ilə əlaqədar M.Ergin belə bir fikirdə olmuşdur ki, Azərbaycan dili Doğu Anadolu, Güney Qafqaziyyə və Qafqaz Azərbaycanı, İran Azərbaycanı, Kərkük və İraq-Suriya türkləri bölgələrini əhatə etmişdir[1].

İstər ərazi cəhətdən yaxın və istərsə də uzaq olan ölkələrdə azərbaycanlıların yayılması eyni zamanda dilimizin şivələrinin həmin areallarda yayılmasına, inkişafına səbəb olmuşdur. Keçmiş SSRİ ərazisinə daxil olan ölkələrdən başqa, İran, İraq, Türkiyə və Əfqanıstan, Dağıstan, Gürcüstan və Ermənistan kimi ölkələrdə də dilimiz və bu dilin daşıyıcıları mövcud olmuşdur. Belə demək daha doğru olar ki, son sadalanan ölkələrin hər birinin müəyyən hissəsi elə Azərbaycanın tarixi əraziləri olmuşdur.

“Azərbaycan dili haqqında qısa oçerklər” kitabında[2] həmin məsələyə toxunan Z.Budaqova azərbaycanlıların keçmiş SSRİ ərazisindən kənarda məskunlaşması və dilimizin bu ərazilərdə ünsiyyətə xidmət etməsi fikrini

[1] M.Ergin. Azəri türkcəsi. İstanbul. 1981//s.42
[2] Budaqova Z. Azərbaycan dili haqqında qısa oçerklər. Bakı: Елм.1982. 186 s.

söyləmiş və bunu ölkədə baş verən ümumi inkişafla əlaqələndirərək, tarixi prosesin nəticəsi olaraq Azərbaycanın bölgədə böyük nüfuzu ilə bağlamışdır. Kitabda Azərbaycan dili və onun şivələri haqqında bəzi spesifik cəhətlər ümumiləşdirilmiş şəkildə təqdim edilmiş, müəllif dilimizin strukturu, əsas cəhətləri haqda şəxsi fikir və mülahizələrini əks etdirmişdir[1].

Azərbaycan dilinin dialekt və şivələrinin təsnifi məsələsi tarixən mübahisəli olmuş, bir çox dialektoloqlar dialekt və şivələri müxtəlif şəkillərdə təsnif etmişlər. Bu sahədə M.Şirəliyevin, A.Hüseynovun, B.Rüstəmovun, Dörferin, S.Talıbxanbəylinin, Əmirpurun, Dilaçarın və başqalarının təsnifatlarını qeyd etmək mümkündür. Təsnifatlar çox olsa da, bir cəhəti nəzərə almaq lazımdır ki, bütün təsnifatlar M.Şirəliyevin təsnifatına əsaslanmışdır. Diqqət mərkəzində olan ərazilərdən biri Qarabağ ərazisidir və əksər hallarda Qarabağ şivələri Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələrinə aid edilmişdir.

Azərbaycanın qədim tarixi yurd yerlərindən biri olan Qarabağın adı ilk tarixi mənbələrdə 1300 il bundan öncə – VII əsrdə işlənmişdir[2].

Ərazi qədim insan məskənlərindən biri olduğu üçün qədim türk sözləri də bu dialektdə mümkün qədər çoxdur. Yəni qədim yazılı mənbələrdə işlənmiş bir sıra türk mənşəli

[1] Будагова З. Азербайджанский язык. Краткий очерк. Баку: Елм.1982//s.28-36

[2] Əbu Həyyan Əl-Əndəlusi. Kitab əl-idrak li-lisan əl-ətrak. Bakı: Azərnəşr. 1992. 115 səh.//s.28

söz və ifadələr müasir ədəbi dilimiz üçün arxaikləşsə də, Qarabağ şivələrində öz varlığını qoruyub saxlamış-reliktləşmişdir.

Məlumdur ki, insan cəmiyyəti zaman-zaman inkişaf etdikcə ictimai mühit də dəyişir. Dildə yeni sözlərin yaranması, digər dillərdən yeni söz və ifadələrin keçməsi, bəzi sözlərin arxaikləşərək dildən çıxması, yeni məna kəsb etməsi- semantik sferasının dəyişməsi, inkişafı kimi linqvistik proseslər, cəmiyyətin zamanın tələbinə çevrilir. Azərbaycan dili min illər ərzində baş verən inkişaf nəticəsində formalaşmış, dilimizin fonetik, leksik, qrammatik sistemində dəyişiliklər baş vermiş, inkişaf etmiş, zənginləşmiş, nəticədə ölkəmizdə və ölkəmizdən kənarda (Doğu Anadolu, İrak-Kərkük, İran Azərbaycanı, Əfqanıstan və s.) ünsiyyət vasitəsi- nə çevrilmişdir.

Dilimizin formalaşmasında, əsasən, oğuz dil elementləri dayansa da, qismən qıpçaq, səlcuq, uyğur elementlərinə də rast gəlinir. Çünki oğuz dil elementləri bu dillərin sırasında aborigenliyini qoruyub saxlasa da, digər türkdilli tayfaların bəzi dil elementləri onun tərkibində qalmış və dilimizin müxtəlif dialektlərində arxaik vahidlər kimi indi də işlənməkdədir. Azərbaycan dilində qədim şumer, akkad, xett dili əlamətlərinə rast gəlinir ki, həmin cəhətlər dilimizin üç-dörd min illər öncə formalaşdığına bir işarədir. Azərbaycan dilinin dialekt və şivələrinin V-VIII əsrə aid yazılı mənbələrlə müqayisəsindən belə bir qənaətə gəlmək olur ki, həmin yazılı mətnlərin dilindəki sözlərin

böyük bir hissəsi danışıq dilində və şivələrdə işlənməkdədir. Onların bir çoxunda isə areallıq da müşahidə edilir.

Dialektoloji tədqiqatların bir qismində arxaik leksik vahidlərin dialekt və şivələrdə tədqiqi, müqayisəsi də areal dialekt vahidlərinin müəyyənləşdirilməsi istiqamətində olduqca əhəmiyyətlidir. Buna görə də dialektlərdə qorunub saxlanılan arxaik ünsürlər həm qədim yazılı mətnlərdə, həm klassik ədəbi nümunələrdə, həm də dialektlərdə paralel şəkildə öyrənilməlidir.

Dialekt və şivələrimizdə arxaik leksikanın öyrənilməsinə həsr edilmiş fundamental bir tədqiqat Ş.Yunusova tərəfindən aparılmış, onun bu sahədəki fikir və mülahizələri "Azərbaycan dili dialekt və şivələrində arxaizmlər" (Bakı. 2005) əsərində öz ifadəsini tapmışdır. Namizədlik disertasiyası səviyyəsində dilimizin müxtəlif dialekt və şivələrində arxaik leksika müqayisəli şəkildə araşdırılmışdır.

Məlumdur ki, tarixi inkişaf boyunca dilin ən çox dəyişikliyə uğrayan hissəsi dilin leksik sistemidir. Dialekt və şivələrin leksik sistemində baş verən dəyişiliklər, milli və alınma dil vahidləri, arxaizmlər, omonim, sinonim, antonim və digər sözlər leksik-semantik qruplar sistemli şəkildə tədqiq edilərsə, dilin ümumi mənzərəsi aydın şəkildə meydana çıxar.

Qarabağ dialekt və şivələrində bir çox leksik-semantik, leksik-tematik qruplar var ki, biz onların areallığı ilə qarşılaşırıq. Onlar bəzən cüzi məna dəyişikliyi ilə, cüzi

fonetik dəyişmələrlə, bəzən də heç bir dəyişiklik olmadan digər dialekt və şivələrdə də işlənməkdədir.

Qarabağ şivələrində işlənən areal dil vahidlərinə aşağıdakıları nümunə göstərə bilərik:

Ağıl – mal, qoyun saxlanan yerdir. Eyni fonetik tərkibdə və eyni semantikada Zəngilan (Bala, malları sal ağıla) və Şirvan (Ağıl çox möhkəm tikilmişdi) şivələrində işlədilir.[1]

Həmin söz "Kitabi-Dədə Qorqud"da (Ağılın qapısını bərkitdi)[2] Kaşğari M. Divani luğat-it-türk. Dörd cildə/Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər, Bakı, «Ozan», II c., 2006, 400 s., Mahmud Qaşqarlıda; Qədim türk lüğətində, qədim türk yazılı abidələrində, V.Radlovun lüğətində də eyni fonetik tərkibdə və eyni mənada qeyd edilmişdir[3] .

Qarabağ dialekt və şivələrində ***al*** **– s**özü həm omonim, həm də arxaizm səciyyəsi daşımaqla yanaşı, həm də müxtəlif dialektlərdə, şivələrdə arealları mövcuddur. Bakı, Bərdə, Qazax, Tovuz şivəlrində "yalan, hiylə"

---

[1] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 568s.//s.14

[2] Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, "Öndər nəşriyyatı", 2004, 376 s.//s.265

[3]Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, "Öndər nəşriyyatı", 2004, 376 s.//Kaşğari M. Divani luğat-it-türk. Dörd cilddə/Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər, Bakı, «Ozan», II c., 2006, 400 s.

Радлов В.В. Опыт словаря тюркских наречий. Т.1-4, СП6. 1893. Ч1, 968 с. С.471

Atalay B. "Divanü luğat it türk". İstanbul. 1939-1943. 5 c. 462 s.

mənasında hal-hazırda yenə işlənməkdədir. Ağdam şivəsində "al dil", Gədəbəy şivəsində "alağız" (ikiüzlü), Şamaxı şivəsində "alağızzıx" (xəbərçilik), mənalarında işlədilir [6. s. 10].[1]. Bu söz Orxon – Yenisey abidələrində, "Kitabi-Dədə Qorqud"da, "Oğuznamələr"in dilində və klassik ədəbiyyatda intensiv şəkildə işlənmişdir.

Eyni zamanda, müasir Azərbaycan ədəbi dilində işlənən *aldatmaq* sözü "hiylə, yalan" mənası ilə semantik cəhətdən bağlı olan "al" sözü əsasında formalaşmışdır.

Aş – sözü Qərb qrup dialekt və şivələrində *aş* şəklində yemək mənasında işlədilmişdir. Lakin dilin tarixi inkişafı zamanı sözün semantikasında daralma baş vermiş, aş sözü yalnız bir Azərbaycan xörəyinin (plov) adı kimi sabitləşmişdir. Demək olar ki, dilimizin bir çox dialektlərində eyni mənanı qoruyub saxlayır:

aş: isim.

1. Xörək, yemək, bişmiş. Aşın sıyıqlığı dənin azlığındandır. (Ata. sözü). Bəzi yerlərdə təsadüf olunur aşa, ətə. (M.Ə.Sabir); 2. Plov. Südlü aş. Çığırtmalı aş. Lobyalı aş. Qiyməli aş; 3. Un, düyü, yarma və s.-dən bişirilən sıyıq xörək; horra.

Aş bişirmək (məcazi mənada) məs. – tələ qurmaq. Bütün bu hallar bu gün [Məşədi Kazım Ağanın] mənim üçün bir "aş bişirdiyini" göstərirdi. M.S.Ordubadi.

[1] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 568s.//s.19

Az (acıq) aşın duzu deyil – çox hiyləgər, bic, araqarışdı- ran adam haqqında. Arvad azacıq aşın duzu deyil (Ə.Əbülhəsən). Əli aşından da olmaq, Vəli aşından da – əli hər şeydən çıxmaq, avara qalmaq. Harada aş, orada baş – heç bir zəhmət çəkmədən, hazıra gəlib çıxan adam haqqında[1].

F.Cəlilovun fikrincə, "şumer mifologiyasında buğda tanrısının adı "Aş" olmuşdur ki, bu da sözün müasir mənası ilə üst-üstə düşür. F.Cəlilov dilimizdəki "xaşıl//xəşil, xaş; Balakən şivəsindəki bozbaş – sözlərinin eyni mənşəli olması qənaətində olmuşdur.[2]

"Kitabi-Dədə Qorqud": Səgrək-Gəlməz isəm Ayğur atım boğazlayub, aşun vergil[3]; folklorda: "Azacıq aşım, ağrımaz başım" atalar sözünün tərkibində və s.

Bu söz qərb qrupu şivələrində dovğa sözünün sinonimi olan ayranaşı, qatığaşı, əriştəaşı yemək adlarında da rastlanır (informator. Gəncə: Z.Talıbova.70 yaş).

Qərb dialekt və şivələrində ***bağır*** – sözü bəzən qara ciyər, bəzən sinə mənasında işlənmişdir. Qazax, Gəncə şivələrində (Bağrım çatdadı; Qoyunun bağrınnan kavaf yidix′) və klassik ədəbiyyatda işlənmişdir:

Əlqissə, mürəttəb oldu bir bağ,

---

[1] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 566 s.//s.149

[2] Cəlilov F.A. Azərbaycan türklərinin islamaqədərki tarixi. Doqquz bitik/I bitik, Bakı. Ağrıdağ, 2014. 368 s./s.13

[3] Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, "Öndər nəşriyyatı", 2004, 376 s.//s.112

Hər laləsi bağrı üzrə yüz dağ. (Füzuli)

Bağır sözü Əbu Həyyanın lüğətində, "Kitabi-Dədə Qorqud"da, "Dastani-Əhməd Hərami"də də işlənmişdir.

Bəlgə//belgü – qız evinə oğlan evindən göndərilən kiçik nişan. Sözün geniş arealları müşahidə edilmişdir. Daha çox Qərb dialekt və şivələrində (Qazax, Gəncə, Bərdə, Yevlax, Kəlbəcər, Şuşa və s.) bir şeyi unutmamaq üçün qoyulan nişanə mənasında işlənməkdədir. Ağdam şivəsində də eyni mənada işlənir: "bu yerə bəlgə qoymaq lazımdır".[1]

Bu sözün bəlləmək//bəlli etmək feilindən törəməsi ehtimalı vardır. Sözün müxtəlif mənaları ifadə etməsindən bəhs edən S.Behbudov onun on üç mənasını qeyd etmişdir[2].

Nişan qoymaq mənasında bəlgə sözü M.Kaşqarlıda, "Qədim türk sözləri lüğətində", Orxon-Yenisey yazılarında da işlənmişdir. Sözün Əbu Həyyanın "Lüğət"ində qeyd olunan "üzə çıxmaq, aşkar olmaq, bəlli etmək" mənası müasir türk ədəbi dilində indi də işlədilməkdədir.

Dışarı – sözü "dış" sözündən və qədim yönlük hal formasını bildirən arı//qarı morfemindən ibarətdir. Azərbaycan dilində arxaikləşsə də, Türkiyə türkcəsində bu gün də öz işləkliyini qoruyub saxlayır. Dilimizin Qərb qrup dialekt və şivələrində aktiv işlənir. Ağdam şivəsində *dışğarı* fonetik variantında işlənən sözün "dışqarı" (Borçalı), tişarı (Şuşa) və s. variantlarda arealları da mövcuddur. "KDQ" da

[1] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 568s //s.50

[2] Behbudov S. Azərbaycan dilinin Zəngilan şivəsi. Fil elm.nam dis.407 səh. Bakı:1966.//s.24

sözün taş variantı işlənmişdir: "*İç oğuzla Taş oğuzasi olub Beyrək öldügi boy"bəyan edər.*

Müasir dilimiz üçün arxaikləşmiş ***ənik*** – sözü canavarın, itin balası mənasında bir çox şivələrdə işlənir. Sözün arealları Qazax, Bərdə, Meğri, Zəngilan, Tovuz, Çənbərək şivələrində daha çox itin balası mənasında işlədilir. Məsələn; Uşaqları qoyma əniynən oynasın (Zəngilan).[1]

"Oğuznamə"lərdə ənik sözü "qurd balası"[2]; "Kitabi-Dədə Qorqud"da "aslan balası"[3]; Əbu Həyyanın "Lüğəti"ndə isə, ümumiyyətlə, "yırtıcı heyvanın balası"[4] mənalarında işlənmişdir.

"Azərbaycan dilinin dialektoloji lüğəti"ndə Ağdam, Göyçay, Naxçıvan, Şamaxı şivələrində ***ərdəm*** sözünün qüvvət, hünər, güc, cəsarət mənalarında işləndiyi qeyd olunur: Bu oğlana şişlik olsun ərdəmlidir[5]. "Kitabi-Dədə Qorqud" mətnlərində də eyni mənada ərən, ərdəm sözlərindən istifadə edilmişdir:

1) Qanı dediyim bəy ***ərənlər***?

---

[1]Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 568s //s.162

[2] Əlizadə S. Oğuznamə. Bakı:Yazıçı. 1987.227 səh.//s.144

[3] Zeynalov F. S.Əlizadə. "Kitabi-Dədə Qorqud". Bakı:Yazıçı. 1988. 265 səh.//s.106

[4] Əbu Həyyan Əl-Əndəlusi. Kitab əl-idrak li-lisan əl-ətrak. Bakı: Azərnəşr. 1992. 115 səh.//s.22

[5] Zeynalov F. S.Əlizadə. "Kitabi-Dədə Qorqud". Bakı:Yazıçı. 1988. 265 səh.//s.38

Dünya mənim deyənlər.[1]

2) Ər igidin, ***ər*** comərdin ozan bilür.[2]

3) Hey Dirsə xan, beglik vergil bu oğlana
Taxt vergil ***ərdəmlidir.***[3]

Ərdəm sözünün ər (ərən-cəmdə) sözündən yarandığı aydın şəkildə görünməkdədir. Göründüyü kimi, bu sözün də semantik sferasında daralma baş vermiş və müasir mərhələdə "***ər***" sözü yalnız həyat yoldaşı mənasında qorunub saxlanmışdır.

Azərbaycan dilinin dialektoloji lüğətində ərdəm sözünün dilimizin müxtəlif şivələrində yaxın mənaları qeydə alınmışdır: Ərdəm:

1) İmişli, Naxçıvan şivələrində "hünər, bacarıq" mənasında. Nümunə: Ərdəmi gəlmək – hünəri çatmaq mənasında. İş ərdəm isser (İmişli)[4];

2) Qax şivəsində boy-buxun mənasında: Nümunə: Habı boyu batmış ərdəminnən utanmır heş (Qax).[5]

Zəngilan şivəsində "quzu saxlanan yer" mənasında işlənən ***güz*** sözü "güzdəg" (payız yeri); "güzəm" (payızda qırxılan qoyun yunu) şəklində Sabirabad, Bakı, Şirvan,

[1] http://anl.az/el/latin_qrafikasi/axe/kd-q.pdf//s.51
[2] Yenə orada.//s.21
[3] http://anl.az/el/latin_qrafikasi/axe/kd-q.pd//s.27
[4] https://obastan.com/az/dict/dialect/word/561725%C6%8FRD%C6%8F
[5] Yenə orada.

Quba, Biləsuvar, Naxçıvan şivələrində də işlənməkdədir. Qazax şivəsində payızlıq otlaq yeri ***küzdəx'*** adlanır.[1]

Göründüyü kimi, geniş arelda işlənən ***"güz"*** sözü yalnız payız fəslinin adını deyil, həmin fəsillə bağlı digər mənaları da ifadə etmişdir. Yalnız dilimizin dialektlərində deyil, sözün areallarına bir çox türk dillərində: qumıq, qaraqalpaq, balkar, qaraim, qazax, noqay, uyğur, tatar və s. rast gəlinir. "Tofa dialektində bu sözün *küş* varıantı işlənməkdədir. A.Şerbak sözün praforması kimi küş sözünü əsas götürür. "Kitabi-Dədə Qorqud" dastanlarında sözün "güzin"-payızda formasına da rast gəlinir. Məsələn, bir yazın, bir güzin buğdayla buğrayı savaşdırarlardı"[2].

Oğru mənalı "***xırsız***" arxaizmi osmanlı türkcəsində müasir dövrdə işlək olsa da, Azərbaycan ədəbi dili üçün arxaikləşmişdir. Lakin tarixi linqvistik xüsusiyətlərin qorunub saxlandığı dialektlərdə, o cümlədən Cəbrayıl, Ağdam, Zəngilan şivəsində işlənməkdədir. Dialektizmin areallarına "güclü, kobud, qanmaz, qüvvətli mənalarında Şamaxı, Naxçıvan, Quba, Oğuz, Qazax, Tovuz və s. şivələrdə rast gəlinir: Balanəmət xırsız olub (Şamaxı d.).[3]

[1] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 568s //s.191

[2] Yunusova Ş. Azərbaycan dili dialekt və şivələrində arxaizmlər. Nam.dis., Sumqayıt, 2005, 154 səh.//s.54

[3] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 568s //s.224

Eyni fonetik tərkibdə, eyni semantikada "xırsız" sözünə "Kitabi-Dədə Qorqud"da və klassik ədəbiyyat nümunələrində rast gəlmək mümkündür:

Gələn xırsızları qorqudan,

Qorquduban şəmatəsilə ürküdən!.[1]

Qarağı//karağı sözü kor, pis görən mənasında bəzən "qarav" qəlibində bir çox dialektlərdə, Qarabağ dialektinin Yevlax şivəsində (Qarav adamlar gecə pis görürlər) işlədilir. Areallarına Şəmkir, Bərdə, Zəngilan şivələrində də rast gəlinir.

Dava-dalaş, mübahisə mənalı "qovğa" sözü Qarabağ dialekti üçün xarakterikdir. Sözün qovmaq feilindən yaranması ehtimal edilir. Klassik ədəbiyyatda işlək olmuşdur:

Mənim köprüm yanında bu qovğa nədir?[2]

Qarabağ şivələri üçün xarakterik olan ***"qurumsu"*** (qanı kəsmək üçün istifadə edilən parça yanığı, kül) sözünün arealına Qazax şivəsində də rast gəlinir. Həmin söz hazırda xalq təbabətində geniş istifadə olunur. Demək, arxaikləşmiş leksik vahidin dildə yenidən fəallaşması prosesi getmişdir. Məsələn; Qurumsı qanı tez kəsər.[3]

"Kitabi-Dədə Qorqud" abidəsində də "qurumsu" sözü eyni fonetik tərkibdə işlənmişdir: O, "dəxi kəpənəgindən

[1] http://anl.az/el/latin_qrafikasi/axe/kd-q.pd//s.45
[2] http://anl.az/el/latin_qrafikasi/axe/kd-q.pd//s.79
[3] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 568s.//s.317

qurumsu edib yarasına basdı”.[1] Bu cümlədə işlədilən “qurumsu” sözündə qurum komponenti – yaraya basmaq üçün yandırılan əski parçasından alınan kül mənasını ifadə etmişdir, -su şəkilçisinin isə bənzətmə əlaməti kimi işlədilməsi ehtimal edilir. Aparılan müqayisədən də göründüyü kimi, həm abidənin dilində, həm də Qərb qrup dialekt və şivələrimizdə “*qurumsu*” sözü eyni mənanı ifadə etmişdir.

Qarabağ dialektinin Yevlax şivəsində işlənən ***“öykə”*** (acıq, hirs, həyəcan, sinə) dialektizminə Gədəbəy, Qazax, Tovuz, Ordubad, Zəngilan, hətta Zaqatala şivəsində rast gəlinir: 1) *Yaman öykəlidir haa*!; 2) Quzuyu yayda qışdaxda saxlasan, öfkəsi tamam yanajax.[2] Həmin sözə “Kitabi-Dədə Qorqud”da və Əbu Həyyanın lüğətində rast gəlinir.

“Sığır” sözü – inək, maral, keyik, meşə heyvanı mənasında Qarabağ dialektinin Ağdam şivəsində, eləcə də Göyçay, İsmayıllı, Şuşa şivələrində işlənməkdədir. Lakin bəzi şivələrdə (Şuşa ş.) “sığır” sözü daha çox inək mənasında işlədilir. Kürdəmir rayonu ərazisində eyniköklü Sığırlı toponimi mövcuddur. Sığırçın ornitoniminin də bu sözlə eyni mənşəli olması ehtimal olunur[3].

Bəzi dialektlərdə “sığırçı” sözü naxırçı mənasında işlənməkdədir. V.Radlovun lüğətində sığır sözünün inək

[1] http://anl.az/el/latin_qrafikasi/axe/kd-q.pdf//s.158
[2] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:“Şərq-Qərb”, 2007. 568s //s.389
[3] Yunusova Ş. Azərbaycan dili dialekt və şivələrində arxaizmlər. Nam.dis., Sumqayıt, 2005, 154 səh.//s.62

mənası, eyni zamanda inəyin saxlandığı yer mənası göstərilmişdir[1].

Diqqət yetirəndə belə bir cəhətin şahidi oluruq ki, göstərilən leksik vahidlərin bir çoxu müasir ədəbi dilimiz üçün arxaikləşsə də, Qarabağ şivələrində öz işləkliyini davam etdirən sözlər sırasındadır.

Müasir Azərbaycan ədəbi dili üçün arxaikləşmiş, "təqsir, günah" mənalı ***"suç"*** sözü Cəbrayıl, Gədəbəy, Tovuz, Zaqatala şivələrində də işlənir. "Kitabi-Dədə Qorqud"da, "Dastani-Əhməd Hərami"də rast gəlinmişdir. Ümumiyyətlə, bədii ədəbiyyatda poetizm kimi *suç* sözünə tez-tez rast gəlirik: *Bu suçdan özgə kim, verübən canu tən sana*[2].

Da:mi//damı (Quba, Şamaxı,Sabirabad,Ağsu, Şuşa). 1. cəhənnəm; 2.əzab. Bizim yerrər hərdən hələ isdi uladu ki, lap da:mi kimi (Quba) – şəklində izah edilən Tamu//damu sözü- cəhənnəm, əzab-əziyyət mənasını ifadə edir. Qarabağ dialektinin Füzuli şivəsində həmin mənada; Şuşa şivəsində, eyni zamanda Göyçay keçid şivəsində isə "isti", "əzab" mənalarında işlədilir. Klassik ədəbiyyatda intensiv şəkildə işlənmişdir:

Fani cahanın sevgisi damu odudur yandırır
Qac ol qarıdan, ey konul, aldanma zulfu xalına
(Nəsimi).

---

[1] Радлов В.В. Опыт словаря тюркских наречий. Т.1-4, СП6. 1893. Ч1, 968 с. С.471//s.618

[2] XIII-XVI əsrlər /Azərbaycan şeri: 20 cilddə. III c. Bakı: Elm.1983. 544səh.//s.544

“Kitabi-Dədə Qorqud” dastanının dilində keyik, soy, sağış (məhşər), yazı, damu, tanıq, bəbək, irmək, sayrımaq (oxumaq), işırmaq və s. sözlərə rast gəlirik və bu sözlərin çağdaş dilimizdə, daha doğrusu, dilimizin dialektlərində işləkliyini bu günə qədər davam etdirir.

XIV-XVI əsrlərin yaradıcılıq nümunələrində işlək olan “səgirtmək, səgrimək, səgritmək” feilləri müasir dövrdə xalq dilində “səyrimək, səkmək” fonetik variantlarında, əsasən, quşlara aid “oxumaq” feilinin sinonimi kimi işlədilir; səyriyir, yəni “oxuyur”. Bir çox hallarda “səgrimək” feilinin atla əlaqədar olaraq işləndiyini görürük: deməli, XVI əsr xalq dilində atın hərəkəti, yerişi ilə əlaqədar olaraq həmin feil işlək olmuşdur. Beləliklə, xalq dilinə yaxından bələd olan şairin həmin feili ədəbi dilə gətirməsi ilə növbəti dəfə ədəbi dilin xalq dili zəminində zənginləşdirilməsi prosesinin şahidi oluruq. XV əsrdə Ş.İ.Xətainin dilində bu feilin “sayramaq” fonetik tərkibində, “oxumaq, ötmək” mənalarında mövcud olması, M.Kaşğarinin “Lüğət”-ində, “Kitabi-Dədə Qorqud” dastanında da eyni şəkildə özünü göstərməsi barədə məlumatlar vardır[1].

Füzuli rayonunda və digər qərb şivələrində “səyrimək” sözü gözün üst qapağının əsməsi, titrəməsi mənasında da işlənməkdədir. El arasında deyərlər ki, gözün səyriyirsə, üstünə qırmızı sap qoy, xeyirliyə olsun.

[1] Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları, Bakı, 1978//s.92-93

M.Cavadova qeyd edir ki, bu feil Azərbaycan dilinin dialekt və şivələrində həm mənaca, həm də fonetik tərkibcə dəyişikliyə uğramış şəkildə qalmışdır. Qazax, Qarabağ şivələrində Tovuz, Kəlbəcər rayon şivələrində daha çox təsadüf olunan həmin feil səyrimək şəklində toyuğun yumurtlamadan qabaq xüsusi səs çıxarması, qaqqıldaması, vurnuxması (toyuğa aiddir) mənalarında işlənir[1]. V.V.Radlovun, L.Z.Budaqovun lüğətlərində sözün "səgirdmək", "səgirtmək" şəklində, səyirmək, oxumaq mənalarında işləndiyi göstərilir[2].

Sərpmək – titrəmək, yellənmək; Vay əgərçi tezcik çıxıb, sərpib ləçək, salsan niqab, Hiç şək yox, kim səni görcək olur aləm xərab[3]. Füzulinin dilində bu feil, əsasən, "yellənmək, titrəmək, əsmək" mənalarında işlənib. Şair öz lirik qəhrəmanının tərifini yüksək məharətlə təsvir edərkən belə xalq dilinə müraciət etmiş, gözəlin başındakı yaylığını tərpətməsini, əsdirməsini də gözələ məxsus bir əlamət kimi göz önündə canlandırmaq məqsədilə "sərpmək" feilinin xalq dilində mövcud olmuş semantik məna çalarından istifadə etmişdir.

---

[1] Budaqova Z. Azərbaycan dili haqqında qısa oçerklər. Bakı: Elm.1982. 186 s.//s.93

[2] Əliyeva S. Məhəmməd Füzulinin Azərbaycan –türk divanında tam arxaikləşmiş feillər. Dil tarixi və dialektologiya məsələləri. "Tədqiqlər", 2008, №3-4//s.179

[3] Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. I, II, III, IV c. Bakı, 2005. 600-700s.//s.342

Sərpmək feili şairin dilində kəsb etdiyi mənada bu gün ədəbi dilimizdə qismən asemantikləşmiş, başqa mənada işlənərək, əsasən də, insanın bədən üzvlərinin, qolun, ayağın, boynun, çiynin müəyyən qeyri-adi hərəkəti nəticəsində öz adi vəziyyətindən çıxaraq ağrıması,bu üzvlərin məhz sərpməsi ilə izah olunur; boynum sərpib, çiynim sərpdi və s. Sərpmək feilinin Füzuli dilindəki titrəmək, yellənmək semantikası bu gün üçün arxaikləşmişdir.

Yaqmaq//yaxmaq – yandırmaq, alovlandırmaq; Nə yaqırsan oxun, ey atəşi-dil, vəsl günü, Bizə hicran gecəsi şəmi-şəbistandır bu[1].

Anadilli qəzəllərdə işlənmiş "yaqmaq" feili "alovlandırmaq, yandırmaq" mənalarında "Kitabi-Dədə Qorqud" dastanında və Nəsiminin dilində də rastlanmışdır:

Qazan bəy gördi ki, kafir qatı yaxlandı"[2];

Ey gözüm nuru, gözümdən getmə, iraq olma kim,
Canımı yaqdı fəraqın, gözümü giryan edər.

(Nəsimi)

Yaxmaq feilinin Ş.İ.Xətainin dilində, türk dili abidələrində, eləcə də Xətaidən əvvəlki və sonrakı dövrün ədəbi dilində "yandırmaq" mənasında geniş şəkildə işləndiyi qeyd edilmişdir[3]. Müasir Azərbaycan ədəbi dilində yaxmaq

[1] Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. I, II, III, IV c. Bakı, 2005. 600-700s.//s.262

[2] Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, "Öndər nəşriyyatı", 2004, 376 s.//s.18

[3] Budaqova Z. Azərbaycan dili haqqında qısa oçerklər. Bakı: Елм.1982. 186 s.//s.92

feilinin müstəqil forması arxaikləşmişdir. Lakin həm ədəbi dildə, həm də xalq dilində ümumişlək sözlərdən olan "yandırıb-yaxmaq", "oda yaxmaq", "könlünü yaxmaq" ifadələrinin tərkibində ***"yaq"*** kökünü görmək mümkündür. ***Yaxmaq*** fonetik variantı da Füzuli dilində "yaqmaq" variantında işlənmişdir:

Yaqma hirs oduna qurun-yaşın,
Həzər et ki, xətərdədir başın (Füzuli).

Bir cəhəti də qeyd etmək lazımdır ki, Füzulinin şeirlərində arxaik "yaqmaq" feili, "yandırmaq" feili ilə yanaşı işlənərək sinonimik sıra əmələ gətirir:

Gələn navəklərin bir-bir yaqıb qoymaz bulam zövqin,
Məni hirman oduna yandıran suzi dərunumdur .

(Füzuli)

M.Füzulinin dilində yanmaq//yaxmaq feillərinin tam qarşılığı kimi "***tütüşmək"*** feili də işlənir:

Tütüşdü qəm oduna şad gördüyün könlüm,
Müqəyyəd oldu ol azad gördüyün könlüm![1].

Azərbaycan klassik ədəbiyyatında tütüşmək//tutuşmaq feili çox vaxt yandırmaq feili ilə yanaşı işlənir və hərəkəti semantik cəhətdən qüvvətləndirməyə xidmət edir.

Bununla belə, bəzi hallarda həmin feilin müstəqil olaraq yandırmaq, yanmaq semantikası da özünü göstərir. Türkoloqların fikrincə, burada "ş" – (-ış,-iş,-uş,-üş)

[1] Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. I, II, III, IV c. Bakı, 2005. 600-700s.//s.231

elementinin ilkin mənası, müasir dövrdə sabitləşdiyi kimi, növ yaratmaq yox, intensivlik yaratmaq olmuşdur. Azərbaycan klassiklərinin dilində, habelə Azərbaycan folklor abidələrində işlənmiş tütüşmək feilindəki -ş növ şəkilçisi deyil, hərəkətin fasiləsiz icrasını, təkrarlanmasını bildirir".[1]

Zənnimizcə, -ş şəkilçisinin bu funksiyasına əsaslanaraq demək olar ki, bəhs olunan şəkilçi ilə feilin davamlılıq tərzi formalaşmışdır. Türk dillərində, eləcə də Azərbaycan dilində feillərdə tərz kateqoriyası problemi həllini tapmasa da, onun elementlərini bir çox şəkilçilərdə, zaman şəkilçilərində, feili bağlama, feili sifət şəkilçilərində görmək mümkündür.

Yenmək – enmək, aşağı enmək:

Qandürür kim, dəmbədəm gözdən yenib, örtər tənim,
Dəşti-qəm Məcnuniyəm, mən qandanü, qanda libas?[2]

Yenmək – qalib gəlmək mənasında yenə də klassik ədəbiyyatda işlənmişdir. Səgridir cilvəyə ol səməndin yeneməz, Kim onu görsə, fəğan etməyə kəndin yeneməz.[3] Yenmək feilinin II misrada iki mənası müşahidə edilir. Birinci "sürüşüb tən boyu aşağı düşmək, enmək" mənasında, ikincisi "qalib gələ bilmək" mənasında. "Yenmək" feili qədim türk sözləri lüğətində "yen" formasında, "qələbə

[1] Mehdiyeva S. Folklor abidələrinin linqvo-poetik tədqiqi. Bakı, 2003//s.123
[2] Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. I, II, III, IV c. Bakı, 2005. 600-700s.//s.158
[3] Yenə orada.//s.147

çalmaq” mənasında (er, ani ,yendi) mövcuddur.[1] Yenmək feili Müasir Azərbaycan ədəbi dilində arxaikləşsə də, bəzi söz və ifadələrin tərkibində qorunub saxlanmışdır: yenilməz ordu, yenilməz vüqar və s.

Qarabağ dialektinin Bərdə, Ağdam şivəsində sırğa mənasında işlənən ***“tana”*** sözünün arealları Gəncə, Gədəbəy, Goranboy, Tovuz, Qazax şivələrində də mövcuddur.[2] Məsələn; Balajanın qulağınnan tanası tüşüf, itif (Gəncə).

Tapdamaq//tapdalamaq sözündən törəməsi ehtimal edilən və “ayaqaltı, kandar mənalı” “tap, tapu” sözü Qarabağın Füzuli şivəsində, paralelləri isə Cəbrayıl, Goranboy, Tərtər, Şəmkir şivələrində, əsasən, “kiçik düzənlik” mənasında işlənir. Areal arxaik dialektizmdir. Məsələn; Naxırı tapda otararsan (Cəbrayıl).[3]

Səs salmaq, heyvanı qorxutmaq üçün istifadə edilən xüsusi qurğunun adı – “*taraqqa*” sözü Qarabağ dialektinin müxtəlif şivələrində, eyni zamanda Ordubad şivəsində işlənməkdədir. Məs.: Bayramda taraqqa atardıx.[4]

“Kitabi-Dədə Qorqud” dastanında taraqqa sözü yalnız bir boyda “Bəkil oğlu Əmranın boyu”nda işlənmişdir:

---

[1] Древнетюркский Словарь, Л., «Наука», 1969, 676 s.//s.256

[2] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:“Şərq-Qərb”, 2007. 568s.//s.480

[3] Yenə orada.//s.480

[4] Yenə orada.//s.481

Təkur aydır: Yüz adam seçilün, taraqqa çatladın, oğlanı qorqudun.[1]

Cəbrayıl, Bərdə, Tərtər və digər şivələrdə qismən rast glinən ***"tirə"*** (nəsil, soy, oğul-uşaq) sözünün areallarına Sabirabad, Qazax, Şuşa və digər şivələrdə də təsadüf edilir. Tirə sözü törəmək sözündəndir və eyni mənanı qoruyub saxlayır.[2]

Qarabağ dialektinin Bərdə, Yevlax, Füzuli şivələrində işlənən ***"tuğ"*** leksik dialektizmi "bayraq, ələm" mənasında Şəki, Laçın, Qubadlı, Oğuz, Gəncə və s. şivələrdə işlənməkdədir.[3]

Tələ mənası bildirən ***tuşaq//tuzaq*** leksemi Qarabağ şivələrində və paralel olaraq İmişli, Kürdəmir, Mingəçevir şivələrində işlənir. Osmanlı türkcəsində də bu sözdən eyni mənada istifadə edilmişdir: *Tuzağa düşürdülər*.[4]

Ş.Yunusova *tuzaq* sözünü "tuşaq" sözünün variantı hesab etmişdir.

Müasir Türkiyə türkcəsində "tuzaq" sözü eyni semantikada, eyni fonetik tərkibdə işlənməkdədir: Çocuu tuzaa tüşürmüşlər [ATV xəbər. 20sentyabr, 2016].

---

[1] Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, "Öndər nəşriyyatı", 2004, 376 s.//

[2] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 568s.//s.498

[3] Yenə orada.//s.506

[4] Yunusova Ş. Azərbaycan dili dialekt və şivələrində arxaizmlər. Nam.dis., Sumqayıt, 2005, 154 səh.

İstək, arzu, ümid mənalı ***"um"*** sözünə Qarabağın Ağdam, Cəbrayıl, Zəngilan şivələrində, eyni zamanda Gəncə, Şəki, Qazax, Gədəbəy, Zaqatala və s. şivələrdə rast gəlinir. Sözün arxaik "um" komponentinə müasir dilimizdə, dialektlərimizdə işlənən "umu-küsü" sözünün "ummaq" feilinin tərkibində rast gəlirik.

Ülüş sözü hissə, pay mənasını bildirir. *Ülüç* variantında Ağcabədi şivəsində işlənməkdədir. Eyni zamanda Ağdam, Şuşa, Kürdəmir, Salyan, Quba şivələri üçün də xarakterikdir. Sözün fonetik dəyişməsi olan "pay-püş" ifadəsi isə dilimizin, demək olar ki, bütün dialektlərində işlənir. Qarabağ dialektində "pay-pülüş//pay-püş şəklində işlədilir: *Rayonnan bir az pay-püş göndəriblər*.

Sözün arealları Sabirabad şivəsində *ülüş,* Ağcabədi şivəsində isə *ülüç* variantlarında işlədilir.[1]

Qarabağın Bərdə, Yevlax şivələrində işlənən ***"yaban"*** (çöl, səhra) leksik dialektizminin arealına Laçın şivələrində də rast gəlinir. Çöl, səhra mənasında *"yazı"* sözünə Zəngilan şivəsində, areallarına isə Qazax, Şamaxı, Ordubad, Şahbuz, Muğan qrupu şivələrində təsadüf edilir. Klassik və müasir ədəbi mətnlərdə də işlənməkdədir: Qarayazı meşəsi (Qazax), Giləzi (Xızı) adlarında arxaik mənalı "yazı" sözü qorunub saxlanmışdır.

Qarabağ şivələrində "hər cür yemiş" mənasında işlənən ***"yemiş"*** sözünə Şuşa, Şamaxı şivələrində rast

[1] Yunusova Ş. Azərbaycan dili dialekt və şivələrində arxaizmlər. Nam.dis., Sumqayıt, 2005, 154 səh.//s.520

gəlinir.[1] Bu leksik vahid müasir dilimizdə və bir çox dialektlərdə, Gəncə, Göranboy, Bakı və s. "yer-yemiş" ifadəsinin tərkibində mühafizə edilmişdir. Qərbi Azərbaycanın Zərgərbasan şivəsində bayramlarda hazırlanan hədiyyə paya bayram yemişi deyilmişdir [informator]. Qarabağ dialekt və şivələrinin leksik vahidlərində-adlarda müşahidə etdiyimiz areallığı, milli cəhətləri özündə daha çox əks etdirən feillərdə də müşahidə edə bilirik.

[1] Yunusova Ş. Azərbaycan dili dialekt və şivələrində arxaizmlər. Nam.dis., Sumqayıt, 2005, 154 səh.//s.547

QARABAĞ DİALEKTİ HAQQINDA

Qarabağ dialekt leksikasının semantik, funksional cəhətləri, omonimliyi, sinonimliyi, antonimliyi, terminoloji, xüsusiyyətləri və digər cəhətləri müxtəlif istiqamətlərdən araşdırmaya cəlb edilmişdir. Azərbaycan dilinin Qarabağ şivələrində bu qrupa daxil olan sözlərin böyük tarixi keçmişi vardır.

Azərbaycan dilinin Qarabağ şivələrində leksik faktların struktur-semantik xüsusiyyətləri və etnolinqvistik təhlili, sözlərin məna qrupları, frazeoloji fondun koqnitiv təhlili kimi məsələlər diqqət mərkəzində olmuş, sistemli şəkildə tədqiq edilmişdir.

Eyni zamanda, Azərbaycanın bütün ərazlərinin dialektoloji materialının toplanması, dialektoloji atlasının, lüğətinin hazırlanması məsələsi də qarşıda duran vacib problemlərdən hesab edilə bilər. Eyni zamanda linqvistlərin obrazlılıq probleminə, obrazlılıq yaradan vasitələrə həm sistematik şəkildə, həm də ayrılıqda tədqiqinə, dialektizmlərin iştirakı ilə düzələn məcazların öyrənilməsi cəhətdən mühüm əhəmiyyət daşıyır. Hələ Azərbaycan dilində ədəbi nümunələrdə dialektizm tərkibli obrazlılıq yaradan vasitələr araşdırılmamışdır.

Güman edirik ki, insan həyatının bütün sahələrinə nüfuz edən dialektizmlər və onların törəmələri linqvokul-turoloqların, linqvofolkloristlərin tədqiqat obyektinə çevriləcəkdir.

Qarabağ ərazisinə daxil edilən bölgələrin-rayonların iqtisadi–coğrafi mövqeyi, təsərrüfat həyatındakı inkişaf şivələrin daimi inkişafına, zənginləşməsinə təkan vermişdir. Belə bir yüksək inkişafın nəticəsidir ki, XVIII əsr Azərbaycan ədəbi dilinin əsasında həmin dövrdə yüksək inkişafı ilə Azərbaycanın digər bölgələrindən seçilən Qarabağın şivələri dayanmışdır.

Qarabağ bölgəsinin ictimai-siyasi vəziyyəti və etnik tərkibi haqqında

Azərbaycanın qədim tarixi keçmişi olan ərazilərindən biri kimi Qarabağı gözəl təbiəti, təbii sərvətləri, gözəl səsli insanları, belə gözəl səsi formalaşdıran buz bulaqları, təmiz havası və digər xüsusiyyətləri başqa ərazilərdən fərqləndirir.

Qarabağ ərazisinin qədim tarixə malik olduğunu isbat edən tarixi faktlar mövcuddur. Ərazinin qədimliyini sübut edən tarixi dəlillər, Qarabağın tarixindən bəhs edən mənbələr, eyni zamanda dil elementləri vardır ki, onlar zaman- zaman linqvistik tədqiqatların obyektinə çevrilmiş, çox fərqli istiqamətlərdən araşdırılmış, Azərbaycan dilinin digər dialekt və şivələri ilə, digər türk dilləri və ağızları (dialektləri) ilə müqayisəli şəkildə təhlilə cəlb edilmişdir.

Qarabağın mövcudluğu, tarixi keçmişi haqqında dəlillərə dair istənilən qədər bədii əsər, yazılı mənbə, nümunə, məlumat tapmaq mümkündür. Belə nümunələrdən A.Bakıxanovun “Gülüstani-İrəm” (1841), Mirzə Camal Cavanşirin “Qarabağ tarixi” (1847), Əhməd bəy Cavanşirin

“Qarabağ xanlığının 1747-1805-ci illərdə siyasi mövcudiyyəti” əsəri (1883), Mirzə Yusif Qarabağinin “Tarixi-safi” (1855), Mir Mehdi Xəzaninin “Qarabağ tarixi” (1866) və s. əsərləri misal göstərmək mümkündür. Bu sırada “Qarabağnamələr” göstərilən mənbələr arasında daha çox strateji, linqvistik və tarixi əhəmiyyəti ilə seçilir. Bəs, görəsən, Qarabağnamələr necə yaranmışdır? Qarabağnamələrin yaranmasına da elə Qarabağ münaqişələri səbəb olmuşdur desək, yanılmarıq. XX əsrin sonlarında mövcud münaqişələrlə bağlı Qarabağa bütün dünyada marağın artması ilə əlaqədar olaraq Qarabağ haqqında yazılan əsərlər A.Fərzəliyev, N. Axundov tərəfindən toplanaraq “Qarabağna- mələr” (2 kitab) adı altında nəşr edilmişdir.

Qarabağın həm coğrafiyası, tarixi, etnik tərkibi, həm də ayrı-ayrı Qarabağ xanları tərəfindən tikilən memarlıq abidələri haqqında müfəssəl məlumatlara “Qarabağnamələr”də rast gəlmək mümkündür. Lakin Qarabağ ərazisində əhalinin etnik tərkibi haqqında məlumatlar daha çox osmanlılar tərəfindən tərtib edilmiş “müfəssəl dəftərlərdə” əks edilmişdir.

Qeyd etdiyimiz kimi, Qarabağın tarixini, ictimai-siyasi mövqeyini öyrənmək üçün kifayət qədər mənbə vardır. Belə mənbələr həm Azərbaycanda, həm də Azərbaycanın sərhədləri xaricində mövcuddur. Lakin Fransada mühacirət həyatı yaşayan Ceyhun Hacıbəylinin XX əsrin birinci yarısında fransız dilində çap etdirdiyi bir

əsəri həmin mənbələr arasında daha böyük əhəmiyyət kəsb edir. C.Hacıbəylinin görkəmli türkoloq A.N.Samoyloviçin məsləhəti və köməyi ilə yazdığı və 1933-cü ildə Fransada çap olunmuş "Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)" əsəri öz tarixi əhəmiyyəti ilə seçilir.

Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" (Bakı. 1841) əsərində Qarabağla bağlı xüsusi məqamlara toxunulmuşdur. Əsər haqqında F.Qasımzadə yazmışdır ki, bir çox tarixçilər, o cümlədən M.Adıgözəl bəy, M.M.Xəzani və başqaları Qarabağla əlaqədar əsər yazarkən Bakıxanovun bu əsərindən tarixi mənbə kimi istifadə etmişlər. Dorn və Brosse kimi şərqşünasların yüksək qiymətləndirdiyi, Azərbaycan elmində mühüm əhəmiyyət olan bir əsər kimi Bakıxanovun "Gülüstani-İrəm" əsərinin müasir və gələcək tarix elmimizin inkişafında müstəsna rolu olmuşdur.

Ömrünün müəyyən hissəsini Qarabağda yaşayan Mirzə Adıgözəl bəy özünün "Qarabağnamə" adlı əsərinin yazılma səbəbi haqqında söyləmişdir ki, əraziyə hakim təyin edilən rus generalı Kolyubakinin oğlu Mixailin tarixi öyrənməyə böyük marağı olmuşdur. O, M.Adıgözəl bəydən xahiş etmişdir ki, Qarabağın, Şuşanın tarixi haqqında ona məlumat versin. Bundan sonra M.Adıgözəl bəy buranın tarixini müxtəsər şəkildə yazmağı qərara almış və çox dəyərli, tarixi bir əsər - "Qarabağnamə" meydana gəlmişdir.

Qarabağ ərazisinin əyalətlərin inzibati bölgüsü barədə Türkiyə Cumhuriyyətinin İstanbul şəhərində arxivdə saxlanılan, İ.Mehmetin tərtib etdiyi "Gəncə-Qarabağ

vilayətinin icmal dəftəri”ndən və “Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri”ndən ən səhih məlumatları almaq olar.[1]

Yuxarıda adlarını göstərdiyimiz mənbələrin tapılmasında, tərcümə edilməsində H.Məmmədovun böyük xidmətləri olmuşdur. Qarabağın tarixi haqqında, ayrı-ayrı şəxslərin mülkləri əsasında yaranan vilayətlərin təsviri barədə məlumatlara şərqşünas alim İ.P.Petruşevskinin əsərlərində də rast gəlmək mümkündür. Petruşevski öz əsərində göstər-mişdir ki, Qarabağ əraziləri erməni məlikləri tərəfindən idarə edilirmiş. Bu müddəa bir çox əsassız fikirlərin yaranmasına səbəb olmuş, ermənilərin Qarabağ iddiası da məhz burdan qaynaqlanmışdır. Sözsüz ki, həmin iddianın əsassız olduğunu isbat edən tarixi mənbələr, tarixi faktlar vardır.

Tarixi həqiqətləri əks etdirən mənbələrdən məlum olur ki, ilk mələk-dizaq məliyi Qarabağa Loridən gələn Yeqan olmuşdur. Nadir şah onun guya sadiq olduğunu (bütün tarixi faktlar, mənbələr isə ermənilərin hər zaman satqın olduğunu söylədiyi halda. – H.H.), xidmətlərini mükafatlandırmaq üçün burada ona məliklik vermişdir. Yəni Nadir şahın hakimiyyəti dövründə Yeqana, Vərəndə məliyinə, Qarabağda məliklik verilmişdir. Əslində həmin

[1] Bayramov A.,Bayramova A. Ağbaba şivəsi sözlüyü, Sumqayıt, 2014, 280s.// Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları, Bakı, 1978

məliklər erməni olmamış, Qriqoryan dininə ibadət edən şəxslər olmuşlar. "Erməni məlikləri" ifadəsi də buradan qaynaqlanmışdır. Nadir şahın hakimiyyəti dövründə Qarabağ da daxil olmaqla İrəvandan Dərbəndədək olan bütün ərazi Azərbaycan adlanmışdır.[1]

Bütün bunlara baxmayaraq, tarixçi Q.Qeybullayev ermənilərə rəvac verən həmin fikirləri təkzib edən faktlarla bu hərəkata qarşı çıxmışdır. Əslində Qarabağda əhalinin "ağvan" adlandırılması fikrinə münasibət bildirən alim yazmışdır ki, XVIII əsrin əvvəllərində (1702-1728) o zaman katalikos Yesayi Celalian "Ağvan ölkəsinin qısa tarixi" adlı bir əsər yazmışdır ki, həmin əsərdə heç bir yerdə ölkənin ermənilərə mənsubluğu xatırlanmır. Kilsə tərəfdarlarını da xristian olduqları üçün "özümüzünkülər" adlandırmışdır. Müəllif tarixçi Moisey Xorenatsini "atamız" adlandırmışdır. Hər xoşladıqları şeyi özəlləşdirməyə, mənimsəməyə çalışan ermənilər isə bu cür ifadələrdən istifadə etmiş, etnik mənşə birliyi kimi qəbul etmiş və beyinlərində "Böyük Ermənistan", "Dənizdən dənizə Ermənistan" xülyası yaratmış, gələcək nəsillərin beynini belə bir əsassız ideya ilə zəhərləmişlər.

Qarabağda – məlikliklərdə yaşayan əhalinin erməni olması haqda məlumata nə obyektiv erməni müəlliflərinin əsərlərində (P.T.Arutunyan), nə də R.Göyüşovun, X.D.Xəlilovun və başqalarının əsərlərində – heç bir yerdə

[1] Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. I, II, III, IV c. Bakı, 2005. 600-700s.//s.133

rast gəlinmir. Həmin ərazilər tarixən azərbaycanlılara məxsus olmuş, azərbaycanlı türklər ərazinin aborigenləri olmuşlar. Tarixi mənbələri araşdırdıqdan sonra bizim gəldiyimiz qənaət belədir ki, tarixən Qarabağda azərbaycanlılar – Azərbaycan türkləri məskunlaşmış, öz dədə-baba yurdlarını yadellilərin hücumlarından qorumuş, buranın mədəniyyətini, dilini, təsərrüfat həyatını formalaşdırmışlar.

Bölgənin azərbaycanlı türklərə mənsub olduğunu isbat edən mühüm faktorlardan biri də bu ərazidə daşlaşmış tariximiz, yer-yurd adları – toponimlərdir. Qarabağın coğrafi məkanlarının adlandırılmasında, Azərbaycanın bütün bölgələrində olduğu kimi, çox az miqdarda əcnəbi söz və ifadələrdən (fars, ərəb, rus və s.) istifadə edilmişsə də, onomastik leksikanın əsas hissəsi türk mənşəli sözlərlə ifadə edilmiş toponimlərdir.

Qarabağın tarixini, Qacarlar tayfasının idarəçiliyini araşdırmaq üçün tarixi mənbələr sırasında O.Ə.Əfəndiyevin, N.Axundovun fikirlərini də bilmək maraqlıdır. Məlum olur ki, Səfəvilər dövlətinin özəyini Azərbaycan təşkil etmişdir. Azərbaycanın ayrılmaz bir hissəsi olan Qarabağ bəylərbəyliyi də həmin dövlətin tərkibinə daxil olmuşdur.

Mənbələrdən məlum olur ki, Qarabağ coğrafi adı ilk dəfə 1284-cü ildə Rəşidəddinin yazılarında qeydə alınmışdır. Qarabağ türk mənşəli toponim olaraq tayfa, nəsil mənası bildirmiş, erkən orta əsrlərdə Albaniya dövlətinin Uti və Arsax vilayətlərinin tərkibində olmuş, sonralar, daha

doğrusu, ərəb işğalından sonra Uti Aran, Arsax isə aqvan adlandırılmışdır. Burada işlədilən və ermənilərin erməni sözü olduğunu iddia etdikləri "Arsax//Artsax" isə erməni mənşəli deyil. R.Allahverdiyev Artsax sözünün iran mənşəli olduğunu söyləmiş, mənasını "dünyanın qərb tərəfi" kimi izah etmişdir.[1] L.N. Qumilyov isə bu sözün tərkibindəki "sak, asak" komponentini əsas götürərək "sirli xalq" kimi izah etmişdir.[2] Lakin Qumilyov sözün əvvəlindəki "ər" komponentinin türk mənşəli ola biləcəyini də inkar etməmişdir. Biz də o fikirlə razılaşırıq ki, Arsax sözünün türk mənşəli olması və "ər saklar" mənasını ifadə etməsi fikri daha doğrudur. Toponimin nə əski, nə də müasir erməni dilində izah edilməsi isə mümkündür.

Q.Qeybullayev Qarabağ adını türk mənşəli hesab etmişdir. Tarixi faktlar da onu söyləyir ki, monqol-türk qəbilələrinin bu ərazilərə gəlməsi, hülakilərin hakimiyyəti dövründə Qarabağ adı sözü gedən ərazilərə verilmişdir.

Qarabağ toponiminin izahına çox müxtəlif variantlarda rast gəlmək olur:

1. Qara bağ-qara sözü rəng mənasında.

2. Şimal-qərb bağı mənasında.

3. Qara sözünün "çox", "böyük, "geniş" mənalarına əsaslansaq, "böyük bağ", "geniş bağ" mənasında.[3] Burada

[1] https://ru.wikipedia.org/wiki/Arçax

[2] Yenə orada.

[3] Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı, 1999, 584 s.//s.124-126

bir cəhətə diqqət yetirmək lazımdır ki, Qarabağ sözünün "böyük bağ" mənasında işlənməsi fikri də bir qədər özünü doğrultmur. Məlumdur ki, toponimiyada belə bir xüsusiyyət vardır ki, coğrafi obyektlərin adlandırılmasında "böyük" sözü işlənirsə, onun qarşılığı kimi "kiçik" sözünün də işləndiyi ikinci qarşı tərəf, "birinci" sözü varsa, "ikinci" sözünün; "yeni" sözü varsa, "köhnə" sözünün də işləndiyi ikinci bir toponim mütləq mövcud olur. Məsələn; Təzə Günəşli – Köhnə Günəşli; Təzə Əhmədli – Köhnə Əhmədli; Birinci Şıxlı – İkinci Şıxlı və s. Amma görürük ki, Qarabağ adında bu xüsusiyyət müşahidə edilmir. Yəni əgər Qarabağ toponimi "Böyük bağ" mənsında işlənibsə, onun "Kiçik bağ" mənasını verən ikinci tərəfi olmalı idi.

4. Qarabağ-sıx, qalın meşəlik ərazi və s.

5. Qarabağ- adının etnosla əlaqədar olması.

Ə.Məmmədovun fikrinə görə isə, məntiqi cəhətdən yanaşıldıqda, azərbaycanlılar Arazdan cənubda mövcud olan dağı Qaradağ, şimaldakını isə Qarabağ adlandırmışlar. Qara sözü burada coğrafi cəhət mənasında başa düşülür. Lakin "qara" komponentli adlar Azərbaycanın bütün səmtlərində mövcuddur. Qara sözünün bu adın tərkibində coğrafi cəhət mənasında işlənməsi o qədər inandırıcı görünmür.[1]

Biz də belə fikirlə razılaşırıq ki, bir çox Azərbaycan-türk mənşəli toponimlərdə olduğu kimi, Qarabağ toponimi də tayfa adı ilə əlaqəli olan etnotoponimdir. Bunu Qarabağ

[1] Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı, 1999, 584 s.//s.125

adının arealları da sübut edir. Mənbələrdən məlum olduğu kimi, Qarabağda Qarabağı əyalətinin, İranda Şiraz yaxınlığında Qarabağ bölgəsinin, Kabul və Pişəvar arasında Qarabağ mahalının olması, bu toponimin müxtəlif bölgələrdə areallarının mövcudluğu sonuncu fikrin doğru olmasını isbat edən amillərdir. Eyni zamanda H.Məmmədovun Qarabağ adının türkdilli peçeneq-kəngərli tayfalarından birinin adı olması fikri də dediyimizi təsdiq edir. Belə bir tayfanın Naxçıvanda məskunlaşması fikri də həmin adın etnotoponim olmasını təsdiqləyən əlamətlərdir.[1]

Qarabağ haqqında mülahizələri daha da genişləndirmək olar. Çünki qədim mənbələrdə, bir çox tarixçi-coğrafiyaşünas alimlərin tədqiqatlarında, köhnə xəritələrdə özünə yer almış Qarabağ bölgəsi kiçik bir ərazi olmamış, böyük bir mahalı əhatə etmiş, geniş areallığa malik olmuş, hətta bəzi erməni tədqiqatçıları (S.Lisisian) bu sözün türk dilləri baxımından izah edilə biləcəyi fikrini söyəmişlər.

Ərazinin bir qədər mübahisəli toponimlərindən biri olan Arsax adının ermənileşdirilməsi fikri doğru deyil. Ermənilər bu sözün yalnız fonetik-zahiri görünüşünə əsaslanaraq erməni mənşəli olduğunu söyləsələr də, adın onlarla heç bir əlaqəsi yoxdur. Türk mənşəli olan Arsax sözünün "ər" (igid, cəsur) və "sak" (türk tayfa adı) komponentlərindən düzəldiyini heç bir qeyd-şərtsiz qəbul etmək mümkündür.

[1] Amanoğlu G. E. Naxçıvan ağızları söz varlığı, "Kültür Ajans Yayınları", Ankara, 2010, 95 s.//s.104

“Gəncə-Qarabağ əyalətinin icmal dəftəri”ndə Qarabağda bir neçə tayfanın adı çəkilir ki, bunlara Cavanşir, Otuziki, Ətyeməzli, Püsyan, Kəbirli, Kəngərli, Qaraçorlu və başqalarını nümunə göstərmək olar. Göründüyü kimi, həmin tayfaların da ermənilərlə heç bir əlaqəsi yoxdur. Dediklərimizdən alınan əsas nəticə ondan ibarətdir ki, Qarabağ Azərbaycanın tarixi məkanlarından biridir, istər tarixi, ictimai-siyasi, istərsə də dil mənsubiyyəti baxımından onu digər Azərbaycan-türk mənşəli sözlərdən təcrid etmək olmaz.

Qarabağa aid ərazidə olan Azıx mağarası ən qədim insanların yaşayış məskəni kimi qəbul edilmişdir. Bu yaşayış məskəni Azərbaycanın, o cümlədən Qarabağın, Aralıq dənizi hövzəsi və Şərqi Afrika ilə yanaşı, ilk insan məskənlərindən biri olduğunu sübut edir.

Bundan başqa Qarabağ ərazilərinin qədim insan məskənlərindən olmasını isbat edən, oxunmasını gözləyən yazılı kitabələr də mövcuddur. Belə kitabələrdən biri 2020-ci ildə, 44 günlük II Qarabağ müharibəsi zamanı *N* – rayonu (*Abidə tədqiq edilmədiyi üçün onu təhlükələrdən qorumaq məqsədilə rayonun adını məxfi saxlamağı məqsədəuyğun bildik.* – H.H.) ərazisində müəyyən edilmiş böyük daş kitabədir. Əslində 90-cı illərdə həmin kitabə ilk dəfə müəyyən edilmiş, şəkli çəkilmişdir. Lakin I Qarabağ savaşının başlaması ilə işlər yarımçıq qalmışdır. Ermənilərin nəzarətinə keçən ərazidə olduğu üçün həmin daş kitabə tədqiqatçıların diqqətindən kənarda qalmışdır. II Qarabağ

savaşı zamanı ADPU-nun məzunu olmuş əsgər Səxavət Astanov yaralandığı zaman yoldaşları onu tibb işçilərinin götürə biləcəyi bir yedə, köhnə bir daşın yanında gizlətmişlər.



Şəkil 1.

Əsgər özünə gəldikdən sonra daşın üzərindəki yazılar onun diqqətini cəlb etmiş və diqqətlə izlədikdən sonra müəyyən etmişdir ki, bu yazılar-işarələr tələbəlik illərində onlara Qədim türk yazılı abidələrinin dili fənnini tədris edən prof. H.Hüseynovanın öyrətdiyi qədim türk əlifbası ilə yazılmışdır. Orxon və ya uyğur yazılarıdır.



Şəkil 2.

Ümid edirik ki, tezliklə həmin yazılar alimlərimiz tərəfindən araşdırılacaq, bir çox sirlərin üstü açılacaqdır.

XVIII yüzilin sonları – XIX yüzilin başlanğıcında Rusiyanın Cənubi Qafqazda, o cümlədən Azərbaycanda işğalçılıq fəaliyyəti xeyli güclənmişdi. İbrahimxəlil xanla Rusiyanın Qafqazdakı qoşunlarının komandanı P.D.Sisianov 1802-1806-cı illər arasında Kürəkçayda bağlanan müqavilədə də Qarabağ xanlığı müsəlman – Azərbaycan torpağı kimi Rusiyaya daxil edildi. Qarabağın həm dağlıq, həm də aran hissəsinin Azərbaycan türklərinə məxsus olduğunu sübut edən ən mötəbər sənədlərdən biri də tarixi reallığı əks etdirən Kürəkçay müqaviləsi olmuşdur. [1]

1846-cı il inzibati-ərazi bölgüsü zamanı Şuşa qəzası yeni yaradılmış Şamaxı quberniyasına (1859-cu ildən Bakı) tabe oldu. 1867-ci ildə Yelizavetpol (Gəncə) quberniyası yaradıldıqda Şuşa qəzası onun tərkibinə verilmiş və ərazisi bölünərək burada daha üç qəza – Zəngəzur, Cavanşir və Cəbrayıl qəzaları da təşkil olunmuşdur. Bunun nəticəsində Şuşa qəzası da vahid inzibati-siyasi idarəsini itirir. Belə bir inzibati ərazi bölgüsü xüsusi məqsədlə həyata keçirilmişdir. Aparılan islahatlar ermənilərin idarə sistemində daha geniş təmsil edilməsinə hərtərəfli imkanlar açmışdır. Çarizm Şimali Azərbaycan torpaqlarını işğal etdikcə, bu torpaqlarda möhkəmlənmək üçün həm də əhalinin ermənileşdirilməsi siyasətini də həyata keçirmişdir.

[1] http://www. azadliq. az/ xeber/95310/qarabag-geyimleri-kitab-kataloqu-nun-teqdimati.

1828-ci il Türkmənçay müqaviləsindən sonra bu hal daha müntəzəm və məqsədyönlü xarakter alır. Ermənilərin İrandan Şimali Azərbaycana köçürülməsi həmin müqavilənin XV maddəsi ilə təsdiq olunmuşdu. 1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlı imperi- yasından da ermənilərin yenicə işğal olunmuş Şimali Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilməyə başlayır. Ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri Qarabağ ərazisi idi. Bu anlaşma ilə 84 min erməni Qarabağ və ətraf rayonlara köçürülmüşdür. Rəsmi məlumatlara əsasən, 1828-1830-cu illər arasında, yəni cəmi 2 il ərzində, Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan 1825-1826-cı il tarixləri arasında 18 min, 1828-dən sonra 50 min, Osmanlı imperiyasından isə 84 min erməni köçürüldü. Qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə onların sayı 200 mini ötmüşdü. Köçürülmədən sonra Qarabağın etnik tərkibində ermənilərin sayı artmağa başladı. Ən üzücü məqam odur ki, bu köçlər nəticəsində Çar I Nikolay İrəvan və Naxçıvan xanlığı torpaqlarında yeni bir erməni bölgəsi qurdu.[1]

Söylədiklərimiz Qarabağın tarixi-coğrafi durumu, etnik tərkibi haqda yığcam məlumatı əks etdirir. Bütün bu cəhətlər, bölgədə müşahidə edilən inkişaf, özünəməxsusluq həm də bölgənin leksikasında, lüğət tərkibində özünü göstərmişdir. Qarabağ şivələrinin leksikasını leksik-semantik

[1] http://www. azadliq. az/ xeber/95310/qarabag-geyimleri-kitab-kataloqu-nun-teqdimati

cəhətdən bir neçə qrupa ayırıb araşdırmaq ən münasib üsul ola bilər. Bunu nəzərə alaraq biz həmin leksik fondu etnoqrafik və terminoloji leksika başlıqları altında təqdim etməyi planlaşdırırıq.

DİALEKTAL LEKSİKANIN ETNOQRAFİK LAYI

Yuxarıda qeyd etdiyimiz kimi, dialektoloji tədqiqatların aparılması zamanı əhalinin etnik tərkibinin nəzərə alınması əsas məsələlərdən biridir. Dialekt və şivələrimizin etnolinqvistik istiqamətdə araşdırılması ölkəmizin ərazisində qədimdən türk tayfalarının məskunlaşdığı şəraiti və paralel şəkildə həmin tayfaların tarixinin öyrənilməsini ehtiva edir.

Etnolinqvistik tədqiqatlar həm dialektlərimizdə mühafizə edilən qədim türk tayfa elementlərinin aşkar edilməsinə, həm də türk etnoslarının miqrasiyasının müəyyənləşdirilməsinə yardımçı olur. Tarixi mənbələrdən məlumdur ki, Azərbaycanda tarixən türkdilli xalqlar məskunlaşmış və onlar da xalqımızın təşəkkülündə iştirak etmişlər. İki antropofizioloji mərhələdə iştirak edən türk tayfaları xalqımızın etnik təkamülündə mühüm rol oynamışlar.

Tarixi mənbələrin bir qismi türk etnoslarının əraziyə gəlişini eramızın beşinci əsrinə aid etsə də, ta qədim dövrlərdən bu məkanda prototürklərin məskunlaşdığını iddia edən faktlar da vardır. Çünki X-XI əsrlərdə əraziyə gələn oğuz və qıpçaqlar yerli əhali-azərbaycanlılar tərəfindən

sıxışdırılmış, artıq V-VI əsrdə formalaşmış hazır dil mühiti ilə qarşılaşmışlar.

Qədim hunlardan başlayaraq türk etnoslarının tarixi, miqrasiyaları, dili və s. haqda məlumatları başqa dillərə aid mənbələrdən almaq mümkündür. Çünki qədim hunlara, xəzərlərə məxsus olan yazılar zəmanəmizə qədər gəlib çatmamışdır. Buna görə də türklərə aid edilən ilk yazı nümunələri Orxon-Yenisey daş kitabələri hesab edilir.

Azərbaycan – Qafqaz ərazisi və buranın yerli sakinləri olan türk etnoslarının tarixi, mədəniyyəti, dili, yazısı, etnoqrafiyası haqqında ən mükəmməl mənbə isə "Kitabi-Dədə Qorqud" dastanıdır. Qarabağ şivələrinə dair yuxarıda verdiyimiz bəzi leksik-semantik dil faktlarının çox cüzi zahiri dəyişiliklərlə həmin dastanda işləndiyindən bəhs etmişdik.

E.Əzizovun araşdırmalarında Qarabağ bölgəsinə daxil olan ərazilərdə hansı tayfaların məskunlaşması haqqında məlumat verilir: Şuşada bayat, baharlı və kəngərlilər; Zəngəzurda xalac; Cəbrayılda imrəli və s.[1]

Qeyd etmək olar ki, beş min il ərzində (XVIII əsrə qədər) Azərbaycan ərazisinə gələn, burada məskunlaşan və ya ərazidən keçib gedən türk etnoslarının ədəbi dilimizin və dialektlərimizin formalaşmasında böyük rolu olmuşdur.

Bu cəhətdən Azərbaycanın strateji ərazilərindən olan Qarabağın da etnik tərkibinə nəzər salmaq mühümdür.

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.//s.24

XVIII əsrin əvvəllərinə qədər Qarabağın etnik tərkibi və əhalinin sayı haqqında dəqiq məlumatlar olmamışdır. Bu barədə ancaq o dövr tarixçilərinin əsərlərinə istinad edərək fikir söyləmək mümkündür. Bu tarixçilər də, əsasən, erməni mənşəli olublar. Onların yazdıqları əsərlərin də əksəriyyəti ermənilər tərəfindən tərcümə olunduğundan, tarixi faktlar onların arzu və istəklərinə uyğun olaraq dəyişdirilib, saxtalaşdırılıb. Buna görə həmin dövrün dövlət fərman və sərəncamlarından mənbə kimi istifadə edilməsi doğru nəticə verə bilər. Ərazidə əhalinin etnik durumu ilə bağlı əsas rəsmi qaynaq 1725-1727-ci illərdə Osmanlı dövlətinin Cənubi Qafqazı tam nəzarətə götürdükdən sonra, onun burada müfəssəl vergi toplamaq məqsədilə tərtib etdiyi siyahılardır. Naxçıvan, Gəncə-Qarabağ və İrəvanla bağlı ayrı-ayrı dəftərlər tərtib olunub. Xanlıqlar dövrünə qədər Qarabağ və Gəncə bir-birindən ayrı olmamış, Gəncə uzun müddət Qarabağ bəylərbəyliyinin mərkəzi hesab edilmişdir.

Qarabağ ərazisi cənubda Arazdan şimalda Murova, Salvartı dağlarına söykənmişdir. Osmanlıların dəftərlərində Qarabağ-Gəncə bölgəsini bir yerdə verilmiş, ərazinin sərhəddi isə Qazağa uzanmışdır. Qarabağ nahiyəsi daha sonralar yaranmış, xanlığın tərkibinə iyirmi nahiyə daxil edilmişdir. Bu nahiyələrdə dörd yüz otuz bir kəndin olması ehtimal edilir. Mənbələrdə kəndlərin iki yüz əlli beşi müsəlman-azərbaycanlı kəndi, yüz altmış altısı qeyri-müsəlman kəndi, onu isə qarışıq kənd kimi göstərilmişdir. Kəndlərin, təxminən, qırx beş faizi boş kənd kimi təqdim

edilmişdir ki, həmin cəhəti nəzərə alsaq, kəndlərin sayının dörd yüz otuz bir deyil, yeddi yüzdən çox olmasını söyləyə bilərik. Demək, həmin kəndlər tarixən azərbaycanlıların yaşadığı və sonralar boşaldılmış kəndlərdir.[1]

Bu ərazilərə Osmanlıların yürüşləri zamanı ermənilər mövqelərini dəyişmişlər. I Pyotrun tərəfində olan ermənilər daha sonra rusların onları xilas edə bilməyəcəyini fikirləşib, türklərə yaxınlaşmışlar. Səfəvilər dövründə, tarixi mənbələrdə göstərilir ki, ordunun tərkibi müsəlmanlardan təşkil olunmuşdur. Türk – müsəlmanların bir-birinə qarşı döyüşdüyü Osmanlı–Səfəvi müharibələrində osmanlıların Qarabağı işğalı zamanı miqrasiya edənlər, əsasən, müsəlman türklər olmuşlar. Ərazinin xristian əhalisinin dövlət işlərinə cəlb olunmaması səbəbindən onlar Osmanlı dövləti üçün qorxulu deyildilər.

Osmanlılar Gəncə şəhərini ələ keçirəndə şəhərin boş olması səbəbindən Şəmkir yaxınlığındakı Kilsəkənd adlı kənddən ermənilərin bir hissəsini Gəncəyə köçürmüşlər. Osmanlıların vergi dəftərlərində boş göstərilən kəndlər bu cür boşalmış kəndlər olmuşdur ki, sonradan həmin kəndlərdə ermənilər məskunlaşmışlar. Bu isə onu söyləməyə əsas verir ki, ərazidə əhalinin mütləq əksəriyyəti müsəlman türklər, azərbaycanlılar olmuşlar.[2]

[1] http://www. azadliq. az/ xeber/95310/qarabag-geyimleri-kitab-kataloqu-nun-teqdimati.
[2] www.kaspi.az.-30. X.2018

Bu dəftərlərdə bir maraqlı cəhət də var ki, osmanlılar əhalinin türk qismini türk kimi, kürdləri kürd kimi təqdim etmiş və heç bir yerdə erməni mənşəli əhali qeydə alınmamışdır. Sadəcə, bəzi yerlərdə "qeyri-müsəlmanlar" (çox güman ki, bunlar da xristian albanlar olmuşlar) ifadəsi işlədilib. Gəncə haqqında yazılarda erməni kəndləri qeyd edilsə də, Qarabağla bağlı belə bir məlumat yoxdur.

Q.Qeybullayevin "Qarabağ" monoqrafiyasında Qarabağ məlikliklərinin rəhbərlərinin adlarında erməni adlarına rast gəlinmir. Məsələn, Şahnəzər, Usub, Ulubab, Cümşüd və s. Bu adlar erməni adları deyil. Görünür ki, onlar da sonradan xristianlığa cəlb edilmişlər. Əhalisinin guya erməni olması göstərilən kəndlərin adlarının da, demək olar ki, böyük hissəsinin adı türk mənşəli olmuşdur.

Azərbaycanlılardan ibarət əhalinin sayının azalması prosesi Rusiya işğalından sonrakı dövrlərin sənədlərindən əldə edilən məlumatlardır. Yalnız bircə faktı göstərmək olar ki, Naxçıvan ərazisində sovet hakimiyyətinə qədər dörd min altı yüz altmış ailə olmuş, sonra onların sayı iki min yeddi yüz yetmişə enmişdir. İrəvanda isə bu nisbət daha kəskin şəkildə özünü göstərmişdir.

Erməni əhalinin Azərbaycan ərazilərinə, eləcə də Qarabağa köçürülməsinin əsas səbəbi ondan ibarət olmuşdur ki, yerli əhali olan azərbaycanlılar dini cəhətdən müsəlman, millət olaraq türk olmuşlar və ruslarla heç bir genetik, dini yaxınlıq olmamışdır. Yerli aborigen əhali Osmanlı türklərə və müsəlman ölkəsinə-İrana daha artıq meyil göstərmişlər.

Tarixi mənbələrdə o da qeyd edilmişdir ki, hələ Gülüstan müqaviləsi imzalananda ermənilərin bu ərazilərə köçürülməsi aktuallaşmamışdı. Azərbaycanlıların çıxarıldıqları ərazilərə, dədə-baba torpaqlarına geri qaytarılması fikri də olmuşdur. Tarixi Türkmənçay müqaviləsi imzalandıqda hələ Qarabağda on minə qədər azərbaycanlının yaşadığı faktı general Yermolovun çar I Aleksandra yazdığı dörd mart min səkkiz yüz on yeddi tarixli raportunda öz ifadəsini tapmışdır. Bu rəqəm min səkkiz yüz on ikinci ildə otuz mindən çox olmuşdur. Bu isə çar hökuməti üçün real təhlükə idi. Təqribən iyirmi beş minə yaxın azərbaycanlı əhali o zaman İrana köçməyə məcbur olmuşdur. Bununla da Qarabağ xanlığı ləğv edilmişdi. O zaman dörd minə qədər azərbaycanlının ruslar tərəfindən geri qaytarılması da rusların xüsusi məqsədinə xidmət edirdi. Hökumət onlardan Qarabağ ərazisində iqtisadiyyatı inkişaf etdirmək məqsədilə istifadə etmək istəyirdi.

Bundan sonra Rusiya (1826-1828) yenə özünə yaxın bildiyi, dini cəhətdən özünə yaxın olan, onun maraqlarına uyğun gələn kazakları buraya yerləşdirmək istəsə də, Qriboyedovun məsləhəti ilə ermənilərin köçürülməsi daha münasib bilindi. Çünki ermənilər həm İrana, həm də Türkiyəyə dəfələrlə xəyanət etmiş və həmin ölkələrdə qalmaları onlar üçün təhlükəli idi. Ermənilərin Naxçıvanda və İrəvanda yerləşdirilməsi isə Azərbaycanın Türkiyə ilə birbaşa əlaqəsinin kəsilməsi məqsədi daşıyırdı. Eyni zamanda Azərbaycanın müxtəlif bölgələrində ruslara qarşı

etirazlar, üsyanlar baş versə də, Naxçıvanda, Qarabağda, İrəvanda bu cəhətdən sakitlik idi. Buna görə də ermənilər üçün daha etibarlı yer hesab edilirdi.

Erməni əsilli bəzi fırıldaqçıların saxta sənədlərlə özlərini Qarabağın yerli əhalisi adlandırması faktları da olmuşdur ki, həmin ermənilər özlərini Qarabağ atlarının sahibi adlandırmışlar. Atları mənimsəyib rus əsgərlərinə verməklə özlərinə etibar qazanırdılar. Azərbaycanlı əsilzadələrin narazılığını isə Rusiyaya qarşı üsyan kimi dəyərləndirir və ermənilərin bu ərazilərə köçürülməsini sürətləndirirdilər. 1828-30-cu illərdə bu siyasətin nəticəsi olaraq 130 min erməni Azərbaycana köçürüldü.[1]

Əhalinin etnik tərkibinin bütün dövrlərdə, əsasən, türklərdən ibarət olması həmin dialektin leksik tərkibində-etnoqrafik leksikada öz dolğun ifadəsini tapır. Xalq öz milli dəyərlərini, etnokulturoloji xüsusiyyətlərini qoruyur, onlara həmişə sadiq qalır. Qarabağ zaman-zaman savaşlara meydan olsa da, xalq öz milli özünəməxsusluğunu qoruyub saxlamış, folklorunda, dialekt leksikasında mühafizə etmişdir. Biz şərti olaraq Qarabağ şivələrinin leksikasını iki qrupda təqdim etməyi məqsədəuyğun hesab edirik: 1) Qarabağ şivələrinin etnoqrafik leksikası; 2) Qarabağ şivələrinin terminoloji leksikası.

[1] http://www. azadliq. az/ xeber/95310/qarabag-geyimleri-kitab-kataloqu-nun-teqdimati.

QARABAĞ DİALEKTİNİN ETNOQRAFİK LEKSİKASI

Qarabağ əhalisinin etnik-mədəni xüsusiyyətləri tarixi qaynaqlarda qorunmaqdadır. Bu qaynaqlar sırasına yemək adları, geyim adları, xalq təbabəti leksikası, məişət leksikası,oyun adları, mərasim leksikası,folklor, təsərrüfat leksikası:heyvandarlıq, əkinçilik, bostançılıq və s. daxildir.

Etnoqrafik leksikada dil daşıyıcılarının, demək olar ki, bütün səciyyəvi cəhətləri öz əksini tapır. Etnoqrafik leksikanın vasitəsilə mənsub olduğu xalqın milli-etnik cəhətlərini, ərazinin coğrafi şəraitini, təsərrüfat məşğuliyyətini, adət-ənənələrini, inam və etiqadlarını və s. öyrənmək mümkündür. Qarabağ şivələrinin leksik sistemində etnoqrafik leksikanı bir neçə istiqamətdə öyrənmək məqsədəuyğundur.

ETNOQRAFİK DİALEKTİZMLƏR.

QARABAĞ MƏTBƏXİ

Hər bir ərazinin, bölgənin adət-ənənəsi, təsərrüfatı, iqliminə uyğun olaraq yetişdirdikləri kənd təsərrüfatı məhsulları və s. bir-birindən fərqlənir. Həmin fərqlər əhalinin qidalanmasında, qida rasionunun tərkibində öz ifadəsini tapır. Çünki insanlar iqlim şəraitinə, coğrafi bölgəyə uyğun olan heyvanları yetişdirir, uyğun bitkilər

becərdilir və onlara uyğun olan qida və geyim növləri hazırlamaqla məşğul olurlar.

Dəniz sahilində yerləşən ərazilərdə əhali daha çox dəniz məhsulları ilə, quşçuluqla məşul olunan ərazilərdə ev quşları ilə, heyvandarlıqla məşğul olunan ərazilərdə isə insanlar iri və xırdabuynuzlu heyvanların əti ilə qidalanmış, həmin məhsullardan hazırlanmış yeməklərə önəm vermişlər. Bu cəhətdən də tarixən həmin yeməklərin müxtəlif səciyyəvi növləri yaranmışdır.

Qarabağın mətbəxi Azərbaycan mətbəxinin bir tərkib hissəsi olsa da, bəzi yemək çeşidləri fərqlidir. Bu yemək növləri və onların adları Qarabağ şivələrində mühafizə edilib saxlanmaqdadır. Qarabağın ən çox məşhur olan yeməkləri aşağıdakılardır:

1. Xörək adları: kəlləpaça, cız-bız, əriştə, axtaçilov, alçalı qovurma, turşuqovurmalı plov, ali müsəmma plov, səbzi plov, çolpalı plov, qiyməli plov, südlü plov, şüyüdlü plov, yarpaq dolması, kələm dolması, badımcan dolması, bozartma, quzu bozartması, balba, xəngəl, xəşil, boyanalı aş, əvəlikli aş, lobyalı aş, qatıqlı aş, qırxbuğumlu aş, şeştrəngli aş, qəlya, pencər qovurma, göy kətəsi, qaysava, umac, südlü aş, ayranlı aş, canına çəkmə//hoppaca, qaysava və s.

Sadaladığımız xörək adlarının bir hissəsi Azərbaycanın digər bölgələrində də hazırlanan milli yeməklərdir. Biz burada yalnız Qarabağ ərazisində hazırlanan bir neçə spesifik xörəyi qeyd etmək istərdik:

1) **Qovurma//qo:urma** – arxaik yemək adlarından olub, demək olar ki, Azərbaycanın bütün ərazilərində hazırlanır. Bəzi tərkib elementlərinə və hazırlanma qaydasına görə fərqlənir. Yeməyin adına gəldikdə isə söz tarixən fonetik deformasiyaya uğramış: kaqurmak//kakurmak sözündən törəmişdir.[1]

V.Radlovun lüğətində həmin söz kavurdak//kavurma şəklində qeyd olunub.[2] V.Radlov kitabda həmin sözün "qovrulmuş buğda, ya da arpa" mənasını da qeyd etmişdir. "Kitabi-Dədə Qorqud" boylarında işlənmiş "Ətindən qara qaurma edib qırq bəg qızına ilətün.[3] Azərbaycan dilinin yalnız Qarabağ-qərb dialekt və şivələrində deyil, digər dialektlərində də "qavurma, qavırma (cənub d.), qourma (Gəncə d.), qö:yrma və s. variantlarda işlənməkdədir.[4]

Füzuli şivəsində bu yeməyin adı "qavırma" şəklində tələffüz edilir və "Kitabi-Dədə Qorqud"da işləndiyi kimi, "qara qavırma" adlanır. Sözün "qavırma" fonetik variantına Cənub dialektində – Naxçıvan şivəsində də rast gəlirik. Eyni kökdən törəyən "qavırqa//qourma" çərəzi də Füzuli şivəsində və digər Qərb şivələrində geniş yayılmışdır. Füzuli

[1] Amanoğlu G. E. Naxçıvan ağızları söz varlığı, "Kültür Ajans Yayınları", Ankara, 2010, 95 s.//s.32

[2] Радлов В.В. Опыт словаря тюркских наречий. Т.1-4, СП6. 1893. Ч1, 968 с.//s.471

[3] Allahverdiyev E. Qarabağ dialektinin Əfşar şivəsi, fil. elm. namzədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 1995, 30 s.//s.

[4] Abbasova R. Azərbaycan dilinin Qubadlı şivələri, Bakı:"Çinar-Çap",2006, 204 s//s.

rayonu ərazisində Novruz bayramında, xüsusilə də ilaxır son çərşənbədə buğda və qanqul çətənəsinin birlikdə qovrulmasına "qavırqa" deyilir (N.Məmmədova. 68 yaş – Füzuli sakini).

2) "Kitabi-Dədə Qorqud"da da rast gəldiyimiz **qıyma//qiymə** sözü Qarabağ dialektinin Yevlax şivəsində "xırda döyülmüş ətdən hazırlanmış xörək" mənasında işlədilir.[1]

Sözün tərkibindəki qıy (maq) feili "yazığı gəlmək, yox etmək, üyütmək və s." mənaları ifadə etmiş (Məs.; cavan canıma qıyma, cəllad-H.H.), xörəyin adında da "əti xırdala- maq, yox etmək" mənasını ehtiva edir. Türk dilində "kiy", Azərbaycan dilində qiy(mə)//qıy(ma) sözlərində eyni mənanı ifadə edir.

3) **Əriştə** xörək adı dilimizin izahlı lüğətində fars mənşəli söz kimi təqdim edilmişdir. Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" əsərində bu sözə uyğun "eləşgə" sözünə rast gəlirik ki, onun da mənası "ət ilə birlikdə xaşlanmış xəmir" xörəyi mənasındadır. Əriştə kulinariya termininin "qiymə, kəsmə, omaç/umac/ocmac, tutmac" kimi sinonim variantlarının olması da ehtimal edilir.[2]

Lakin bizim fikrimizcə, bu fikir o qədər də ağlabatan deyil, çünki həmin adda olan yeməklər hamısı xəmirdən hazırlansa da, fərqli yeməklərdir. Yəni əriştə deyib, umac

[1] Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. I, II, III, IV c. Bakı, 2005. 600-700s.//s.497

[2] Musaoğlu M. Azərbaycan dilinin dialektoloji lüğəti. Ankara. 2003.//s.48

bişirmək düzgün deyil. Bunlar bir-birindən fərqli yeməklərin adlarıdır. Ehtimal etmək olar ki, omaç sözünün arxetipi ovmaq//ovmaç//omaç//umaç şəklində bərpa edilə bilər. Belə bir tarixi inkişaf "v" samitinin düşməsi və o>u əvəzlənməsi nətisində mümkün ola bilən linqvistik prosesdir.

4. Azərbaycanın bütün bölgələri üçün xarakterik olan milli yemək növü "**kabab**" sözü fonetik əvəzlənmələrlə Qarabağ şivələrində "kavaf" (b→v; b→f) şəklində işlədilməkdədir. Adətən, şişdə hazırlandığı üçün bu yemək növü bəzən "Kitabi-Dədə Qorqud"da olduğu kimi, ***şişlix'*** //şişdix´ adlandırılır. Hətta bəzi hallarda kababı şişdə deyil, tavada, qaz sobasının içində, təndirdə də bişirirlər. Qarabağın bəzi şivələrində qazanda bişən variantı "tava kababı", Gəncə şivəsində isə "taskabab" və ya "qazan kotleti" də adlandırılır.

Bir cəhəti qeyd etmək yerinə düşər: tarixən "**aş**" sözü bütün yemək növlərinin ümumi adı kimi işlənmiş arxaik sözdür. Hətta aşın bişirildiyi yer "aşxana", onu hazırlayanlar isə "aşpaz" adlandırılmışdır. Zaman keçdikcə sözün semantik sferası daralmış, yalnız düyüdən hazırlanan milli xörəyin "plov"un adını bildirmişdir. Lakin yuxarıda göstərdiyimiz Qarabağ xörəklərinin adlarına nəzər yetirəndə görürük ki, həmin dialekt daşıyıcılarının dilində *aş* müxtəlif tərkibli sulu yeməklərin adında qalmış, plov isə düyüdən hazırlanan xörəyin adını bildirmişdir. Eyni zamanda plovun çox müxtəlif çeşidlərinə bu ərazidə rast gəlinir ki, onlar

paralel şəkildə bir çox dialekt və şivələrdə, areal olaraq digər türk xalqlarında da mövcuddur.

5. **Axtaçilov**: Axtaçilov plov növlərindən biridir. Düyü yuyulur, qaynadılır. Süzülməsinə az qalmış qabaqcadan yuyulub hazırlanmış axta zoğal qazana tökülür, düyü ilə 2-3 dəqiqə qaynadılıb süzülür. Qazmaq hazırlanır. Sonra süzülmüş düyü də onun üstünə tökülərək dəmə qoyulur. Süfrəyə verilərkən yanında badımcan dolması və ya göyərtili kükü, həmçinin sarımsaqlı qatıq da qoyulur.

Qarabağ bölgəsinin mətbəxində, xüsusilə sulu yeməklərin tərkibində axta zoğaldan geniş istifadə olunur. Hətta axtalanmış zoğal qış üçün tədarük edilir. Axta sözünə M.P.Vaqifin şeirlərində rast gəlirik.

Allaha bizmişik naşükür bəndə,
Bir söz desəm dəxi qoymazlar kəndə.
Xalq batıb noğla, şəkərə, qəndə,
Bizim evdə **axta zoğal** da yoxdur (M.P.Vaqif).

Ömrünün çox hissəsini Qarabağda yaşayan Vaqifin şeirlərinin dilində Qarabağa dair bu və ya digər şivə sözlərin işlənməsi təbiidir. Lakin onu da qeyd etmək yerinə düşər ki, *axta* sözü Azərbaycanın digər şivələrində də intensiv işlənən leksik vahid – kulinariya terminidir. Giləmeyvənin (zoğalın) axtalanması onun tumunun çıxarılması deməkdir. Lakin heyvandarlıq termini kimi də işlədilərək başqa məna ifadə edir. Məsələn, axtalanmış at. Heyvandarlıqla məşğul olan bütün regionlarda həmin heyvandarlıq terminindən istifadə edilir.

6. **Ali müsəmma plov**: düyü duzlu suda qaynadılıb yarımhazır vəziyyətə çatdırılır, süzülür, yağlanır, bir hissəsinə zəfəran vurulur, qazmaq hazırlanır və dəmə qoyulur. Aş qarası hazırlamaq üçün qoyun əti doğranıb az suda bişirilir və qızardılır. Daha sonra əti yağda qızardılmış soğan, albuxara, zəfəran şirəsi, darçın və az miqdarda ət suyu əlavə edilərək öz buğunda bişirilir. Düyü təpəcik şəklində qaba çəkilir, üstünə zəfəran şirəsi vurulmuş düyü tökülür, yanına aş qarası qoyaraq süfrəyə verilir. Bu yemək növünə həm Qarabağın, demək olar ki, bütün rayonlarında, Ağdamda, Bərdədə, Yevlaxda və s. həm də Azərbaycanın bir çox bölgələrində rast gəlinir.

7. **Boyanalı aş**: boyana bitkisi ilə hazırlanan plov növüdür. Boyana bitkisi xırda-xırda doğranır yuyulur, düyü qaynayanda süzməyə az qalmış boyana tökülür, qarışdırılır,süzülür, qazana yağ tökülür, dağ olanda quzu əti düzülür və üzərinə düyü və boyana əlavə edilir. Düyünün üzərində oyuq düzəldilir, yumurta vurulur və dəmə qoyulur.

8. **Qırxbuğumlu aş**: Düyü qaynadılır. Qaynadılan zaman qırxbuğum əlavə edilir. Sonra qazanın dibinə qoyun əti düzülərək, üzərinə qırxbuğumlu düyü tökülür və yağ əlavə edib dəmə qoyulur. Bu yemək növündən Ağdam süfrəsində daha çox istifadə edilir.

9. **Şeştrəngli aş:** Bir neçə cür, fərqli rənglərə malik tərəvəzin qatılması ilə bişirilən aş növüdür. Qarabağın hər yerində deyil, yalnız Ağdamın bəzi kəndlərində bişirilir. Tərəvəzlərin rənginə əsaslanaraq şeştrəngli adlandırılır.

Şeştrəngli sözü fars dilinə məxsus şeşt-altı və rəngli sözlərinin birləşməsindən yaranmış, ikikomponentli, mürəkkəb quruluşlu leksik vahiddir. Fars mənşəli alınma kulinariya terminidir.

10. **Canına çəkmə**: Qoyun əti noxudla birlikdə qaynadılır. Bişirdikdən sonra içərisinə yumru düyü tökülür. Suyu çəkilib yağa düşənə qədər bişirilir. Bişənə yaxın zoğal və ya zoğal axtası tökülür.

11**. Qatıqlı aş**: 3 stəkan düyü duzlu suda bişirilir. Bişənə yaxın onun içərisinə 6 dəstə pərpətöyün göyərtisi doğranıb tökülür. Qatışmamış halda sinilərə tökülüb soyudulur. 2 kq qatığa 3 diş sarımsaq vurularaq qatılaşmış düyü və göyərtinin üzərinə əlavə edilib qarışdırılır. Zövqə görə pərpətöyün əvəzinə şüyüd, dağ keşnişi, keşniş və nanə vurula bilər. Bu yemək yay fəslində hazırlanır.

Qatıqlı aş adında "aş" sözünün yuxarıda qeyd etdiyimiz tarixi qədim mənasına rast gəlirik. Burada artıq düyü ilə hazırlanan xörək növü deyil, ümumiyyətlə, xörəkdən söhbət gedir. Aş sözünün geniş mənasını ehtiva edir. "Aş" komponenti çox güman ki, "aşpaz", "ayranaşı" və digər kulinariya terminlərinin komponenti kimi də çıxış edir.

12. **Qəlya:** Quzu əti bişirilir.Yağa düşəndə bişmiş şabalıd, gavalı turşusu, heyva doğranıb əlavə olunur. Daha sonra zəfəran, darçın, duz, istiot əlavə edilir.

13. **Qaysava:** Əridilmiş yağa çəyirdəkləri çıxarılmış xurma, qaysı, əncir mürəbbəsi vurulur. Meyvələr yumşalana qədər bişirilib, üzərinə darçın səpilib süfrəyə verilir.

Qaysavanın hazırlanmasında əncir, ərik kimi şirin meyvələrə üstünlük verilir. Lakin daha çox ərik, qaysı//qeysi uyğun olduğu üçün bu yeməyin qeysava//qaysava adını almasını ehtimal etmək doğru olar. Qaysava sözünə Aşıq Ələsgərin dilində də rast gəlirik:

Göyçənin qonağa çoxdu hörməti;
Qaysava, qayğanaq verir ləzzəti,
Plov, dolma, kabab, əmliyin əti...
İnsaf elə, tək motaldan danışma! (Aşıq Ələsgər).

Aşıq Ələsgərdən verdiyimiz nümunədə bir bəndin daxilində Azərbaycan mətbəxini bəzəyən bir neçə milli yeməyin adı verilmişdir. Bunlardan biri isə yuxarıda haqqında danışdığımız "qaysava" yemək adıdır. Şairin Göyçənin məşhur plovu, dolması, kababı ilə yanaşı, qaysavanın adını çəkməsi onu söyləməyə əsas verir ki, istər Azərbaycanın digər bölgələrində, istərsə də Qarabağ ərazisində *qaysava* məşhur, sevilən yeməklərdən biri olmuşdur.

Xalq deyimlərində - atalar sözlərində qaysava sözünə rast gəlinməsi isə bu yemək növünün xalqa daha qədimdən məlum olduğunu ehtiva edir:

Axmaq itin qaydasıdır, qaysavadan pay umar// Axmaq köpək qaysavadan pay umar.

Qaysava yeməyi daha çox şirin meyvələrdən, əncir mürəbbəsi və ya tumu çıxarılmış xurmadan hazırlanır və daha çox səhər yeməyi kimi süfrəyə verilir.

14.**Əmənkömənci** və ya balma bitkisindən hazırlanan yemək növü vardır. Əsasən, Ağdam mətbəxində hazırlanır. Əmənkömənci-balma, nanə, keşniş, şüyüd və s. göyərtilərin doğranaraq yağ-soğan və düyü ilə ət suyunda bişirilməsidir.

15. **Şalampur** adlı yemək növü də məşhurdur. Sümüklü qoyun əti qazana düzülür, üzərinə, pomidor, soğan, acı və şirin bibər düzülür, 1 stəkan su əlavə edilir və öz buğunda bişirilir.

16. **Gicitkən** qovurması – gicitkən pencəri yuyulur, doğranır, bol yağ-soğança ilə qovrulur. Hazır olduqda üzərinə yumurta vurulur. Yeməyin adında hazırlandığı bitki növünün adı və arxaik qovurma termini işlənmişdir, II növ ismi birləşmə quruluşundadır.

Qarabağ mətbəxində qoyun və mal ətindən qovurma, qəvli, dolma, yəxni, bozbaş, xaş, kəlləpaça, saciçi, cız-bız, şorbalar və müxtəlif plovlar bişirilir.

Qarabağ ərazisi üçün xarakterik xörək növləri olduğu kimi, səciyyəvi şirniyyat, içki və soyuq yeməklər də vardır.

Azərbaycan əski türklərin yaşayış yerlərindən biri olmuşdur. Ərazidə müxtəlif bölgələrdə iqlimindən asılı olaraq yerli şəraitə uyğun təsərrüfatla məşğul olmuş və ona uyğun da qida məhsulları hazırlamışlar. Azərbaycanın ayrılmaz parçası olan Qarabağ da zəngin yemək çeşidləri ilə fərqlənir. Həmin yemək çeşidlərinin adlarının bir çoxu digər bölgələrdə və digər türk dillərində də işlənməkdədir.

Qarabağ ərazisi üçün xarakterik xörək növləri olduğu kimi, səciyyəvi şirniyyat, içki və soyuq yeməklər də vardır.

II. İçki növləri:

1) Atlama – qatığın içinə su və bir az duz əlavə edilməklə hazırlanan sərinləşdirici içki növüdür (Qarabağ dialekti – Yevlax şivəsi). Gədəbəy şivəsində bu söz atılama variantında işlədilir.[1] Hesab etmək olar ki, qatığın üzərinə suyun tökülüb çalxalanması, atılması nəticəsində hazırlandığı üçün atılama//atlama adını almışdır. Bu kulinariya terminində atmaq//atılmaq komponentinin olması göz qabağındadır.

2) Ovdux – bu da atlama kimi hazırlanır, lakin qatığa sudan başqa, göyərti və xiyar da əlavə edilir. Ovdux sözünün areallarına qərb bölgəsinin diğər dialektlərində də (Gəncə dia. – avdıx; Tovuz şivəsində isə ovdux//oydux//oyduz; avdıx şəklində Cənub d. Naxçıvan şivəsində) işlədilir. Ovmaq//ovmax sözündən əmələ gəldiyini ehtimal etmək olar.

3) Ayran – sözü də həm ümumilikdə Qərb bölgəsində, həm də bəzi digər dialektlərdə işlənməkdədir. Əsasən yayda sərinləşdirici içki novü kimi istifadə edilir. Ayran da qatıqdan, sudan və bir az duzdan hazırlanır. Bu sözə "Kitabi-Dədə Qorqud" un dilində də rast gəlirik:

Gəlinə ayıran demədim mən Dədə Qorqud,
Ayrana doyuran demədim mən Dədə Qorqud.[2]

[1] Musaoğlu M. Azərbaycan dilinin dialektoloji lüğəti. Ankara. 2003.//s.43
[2] Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, "Öndər nəşriyyatı", 2004, 376 s.//s.164

Monqolların da bu sözdən sərinləşdirici içki adı kimi istifadə edildiyi fikrinə Radlovun lüğətində rast gəlinir. Radlov "ayran" sözünü acırğan sözü ilə əlaqələndirmiş, "*acırğan*" sözünü "turş" mənasında izah etmişdir.[1] Qatıqdan hazırlandığı üçün həmin məna özünü doğruldur. Ayran sözü də bununla əlaqələndirilə bilir. Acırğan komponenti qatığın su ilə açılması kimi də izah edilə bilər.

Göstərdiyimiz içki növlərinin üçü də qatıqdan və sudan hazırlansa da, bəzi əlavələrlə, hətta dadı ilə bir-birindən fərqlənir. Əsasən, qızmar yay günləri içilməsi nəzərdə tutulur.

III. Şirniyyat növləri: Qarabağ bölgəsinə məxsus yeməklər, şirniyyatlar, soyuq yeməklər və içkilər ümumilikdə Azərbaycan mətbəxinin zənginləşməsində böyük rol oynamışdır. Məşhur Qarabağ kətəsi,Bərdə nanı və digər şirniyyat növləri bu qəbildəndir.

IV.Soyuq yeməklər: Kətə-Qarabağ mətbəxində kətənin xüsusi yeri vardır. Həm göyərti, həm də ətlə bişirilir. Qarabağ mətbəxində kətənin xüsusi yeri var. Qızardılmış və qaynadılmış çay balığından soyuq yemək növü kimi istifadə olunur.

Bunlardan başqa, Qarabağ şivələrində doğrama// qatıq doğraması adlı soyuq yemək, yarı sərinləşdirici qida növü də vardır. Əsasən, yay aylarında, isti günlərdə hazırlanır. Füzuli şivəsində *qatıq doğraması, süd doğraması*

[1] Радлов В.В. Опыт словаря тюркских наречий. Т.1-4, СП6. 1893. Ч1, 968 с. С.471//s.52

kimi növləri vardır. Dilimizin digər şivələrində, Goranboy, Gəncə, Qazax, Tovuz və digər qərb şivələrində doğrama//doğramac variantlarına təsadüf edilir. Hazırlanması üçün qatığa və südə çörək doğranılır, qatıqdan hazırlandıqda zövqə görə içərisinə göyərti, xiyar, soğan, duz, istiot vurulur.

Qarabağ mətbəxində qurudulmuş meyvələr geniş istifadə olunur. Onlardan xoşab, plov, şorba, ət xörəklərinin hazırlanmasında istifadə olunur və çərəz kimi süfrəyə verilir. Qarabağ mətbəxində cad, ət qutabı, fəsəli, kətə, şəkərbura, paxlava, quymaq, halva, qurabiyə, şorqoğalı, dovğa, kababın müxtəlif növləri və s. yeməklər bişirilir.[1]

Qarabağ şivələrində yemək mədəniyyətini təmsil edən adlara nəzər yetirək. Bəzi tədqiqatlarda Qarabağ dialektinə aid olan qida məhsullarının adları çörək adları, xörək adları, şirniyyat adları, ağartı məhsullarinin adları və s. kimi təsnif edilmişdir.[2]

Həmin sözlər Qarabağ bölgəsinin digər şivələrində də işlənməkdədir. Bəzi sözlərə nəzər salaq: çörəx′//əpbəx′; lavaş//yuxa; fətir//kömbə; kökə və s. çörək adları; Sütdaş, ərişdə, qovurma, pörtdəmə, bozartma, qiymə, kəlləpaça, bozbaş, soyutma və s. xörək adları; atlama, bulama, qurut, dələmə və s. ağartı adları da işlənməkdədir.

[1] http://www. azadliq. az/ xeber/95310/qarabag-geyimleri-kitab-kataloqu-nun-teqdimati.

[2] Həsənova N. Azərbaycan dilinin Yevlax şivələrinin leksikası, nam.dis., Bakı, 2010, 140 s.//s.37-44

Çörək məzmunlu *əpbəx′* sözü qədim türk lüğətində epmak//etmak və Kaşğarinin lüğətində əbək, əpmək, ətmək[1] kimi göstərilmişdir.

Klassik ədəbiyyatda, Nəsiminin əsərlərində də eyni şəkildə işlənmişdir:

Ana nə şərbətü məcun gərək, nə əppəgü aş.[2]

Müasir dövrdə bir çox dialektizmlər kimi, *əpbəx′* sözü də türk ədəbi dilində "əkmək" şəklində işlədilir: əkmək parası, əkmək arası və s. birləşmələrin tərkibində iştirak edir. Bəzi Qərb şivələrində (Gəncə) çörək mənasında "əpbəx′ " sözü bu gün də işlənməkdədir.

Qarabağ dialektinə daxil olan bir çox şivələrdə ***yavan*** adlı ərzaq növü olmuşdur.Yavana şor, yağ, pendir, qatıq və s. daxil edilmişdir.[3] Həmin sözün əsasında Qarabağ şivələrində "yavannıx" sözü formalaşmışdır. Yavan sözünün paralellərinə qərb şivələrində çörəyin təkbaşına yeyilməsi (çörəyin heç bir əlavə qida olmadan yeyilməsi) mənasında rast gəlinir. Məsələn: Uşağa bax ey, çörəyi yavan-yavan nətə:r ye:r (Qazax d.).

Hər bir xalqın ümumi mədəniyyətinin mühüm bir hissəsini süfrə mədəniyyəti təşkil edir. Qarabağ şivələrində bu sahənin rəngarəngliyi, yeməklərin, içki və şirniyyatların

[1] Kaşğari M. Divani luğat-it-türk. Dörd cildə/Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər, Bakı, «Ozan», II c., 2006, 400 s.//s.136-164
[2] XIII-XVI əsrlər /Azərbaycan şeri: 20 cilddə.III c. Bakı: Elm.1983. 544 s.//s.87
[3] Həsənova N. Azərbaycan dilinin Yevlax şivələrinin leksikası, nam.dis., Bakı, 2010, 140 s.//s.40

çoxçeşidliyi həmin ərazidə yaşayan xalqın, həmin ərazinin təbiətinin zənginliyi ilə səciyyələnir. Eyni zamanda dünyanın kulinariya sistemində xüsusi yeri olan Azərbaycan mətbəxinin ayrılmaz bir parçasını ehtiva edir.

GEYİM ADLARI

Məlum məsələdir ki, hər bir ərazinin, bölgənin öz iqliminə, adət-ənənəsinə görə də geyim tərzi də vardır. Azərbaycanın müxtəlif bölgələrinin dialektləri, şivəlri öyrənilərkən həmin bölgələrin geyim adlarından da bəhs olunur. Qarabağ şivələri və şivələrindən danışarkən bu istiqaməti nəzərə almaq lazımdır. Çünki Qarabağ ərazisi tarixən olduqca zəngin təbiətə, mədəniyyətə malik olmuş, qədim geyim nümunələri ilə də seçilmişdir. Ərazinin geyim adlarını qadın geyimləri, kişi geyimləri və ortaq geyim adları olaraq üç bölmədə təqdim etmək məqsədəuyğun olar:

1) Qarabağ qadınlarının geyimləri;

2) Qarabağ kişilərinin geyimləri;

3) Ortaq geyilən geyimlər.

Göstərilən geyim növlərini a) baş geyimləri; b) bədən geyimləri kimi təsnif etmək mümkündür.

I. Qarabağ qadınlarının geyimləri:

Baş geyimləri: ləçəx′, yaylıx, şal, qiyqaş, çalma, dingə, kalağey və s.

1. **Ləçəx′**: ağdan, çitdən, ipəkdən və s.-dən üçkünc qadın baş örtüyü: Nəhayət, [Gövhər] ləçəyini açıb qulaqlarının və qaşının üstündən çəkdi (Ə.Əbülhəsən).

2. **Yaylıx:** a) yüngül baş örtüsüdür. Daha çox Azərbaycan Yay aylarında qadınlar, qız-gəlinlər başlarına bağlayırlar. b) cib dəsmalı mənasında da, demək olar ki, bir çox dialekt və şivələrdə işlənir.

3. **Qiyqaş**: Üçkünc yüngül baş örtüyü. Bu mənanı Salyanda alınnıx, Tovuzda başçəkis//qulağaltı, Şəkidə xınabənt, Qazaxda qiyqaş sözləri ifadə edir. Əyri, çəp, yanakı, çəpəki sifətindən əmələ gəlməsi mümkündür. Sözün Azərbaycanca-rusca lüğətdə izahı 3 formada verilmişdir: 1. косо, искоса, наискось-əyri; 2. косой, кривой-əyri; 3. треугольная косынка.[1] Göründüyü kimi, bunların hər üçü bir-biri ilə əlaqədar mənaları bildirir. Yuxarıda göstərdiyimiz birinci mənaya uyğun gəlir.

4) **Dingə**: isim, qadın baş geyimi.

Dingə I. *(*Cəbrayıl, Cənubi Azərbaycan, Şamaxı):1. hündür yer, təpə (Cəbra- yıl, Cənubi Azərbaycan). – Dingədə çoban qoyun otarırdı (Cəbrayıl); – Öyin qabağı dingədi (Cənubi Azərbaycan); 2. camaatın söhbət üçün toplaşdığı yer (Şamaxı). – Dingədə gör kimlər var?[2]

Dingə II. (Çənbərək, Gəncə, Qazax, Şəmkir) 1. kiçik qoz ağacı (Gəncə, Qazax). – Qalxozun zəmisinin qırağındakı kollıxda bir dingə var (Gəncə)

2. kötük, kəsilmiş ağacın kötüyü (Çənbərək, Şəmkir). – Meşəbəyi dingələrin hamısına möhür vuruf

[1] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 566 s.
[2] Yenə orada.

(Şəmkir);–Aşağıkı butağı dingədən kəs, quruyuf (Çənbərək).[1]

Dingə III. (Borçalı, Gəncə, Hamamlı, Kürdəmir, Qazax, Ordubad, Saatlı, Şamaxı) – 1. başa bağlanan bəzək geyimi (Gəncə, Qazax, Ordubad, Şamaxı). – Başımın dingəsi açılıb (Şamaxı); – Bu gəlinin dingəsi də var (Ordubad)

2. çələng (Borçalı, Hamamlı, Kürdəmir, Qazax). – Dingə dəːrmi saxnax kimi olur (Hamamlı); – Dingəni qadınlar başdarına yumru qoːrdular, sancax taxırdılar belə (Qazax); – Dingiyi qojalar qoymaz, cəhillər qoyar (Borçalı).[2]

Verilmiş izahatdan da belə bir nəticəyə gəlmək olur ki, dingə sözü olduqca aktiv şəkildə, Azərbaycanın bir çox bölgələrində işlədilməkdədir, arealları və paralelləri vardır.

Bədən geyimləri: köynəx′, tuman, on iki taxdalıx tuman, arxalıx, don, qofda, genbalax, dizdix′, cüpbə və s.

1) Köynək – isim: 1. Bədənin yuxarı hissəsinə geyilən yüngül geyim.

2) Köynək – 1. рубашка, сорочка; 2. внутренний слой кокона (azərbaycanca-rusca lüğət).

3) Köynəx’ – (Ağdaş, Mingəçevir, Şəki)

[1] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:“Şərq-Qərb”, 2007. 566 s.
[2] Yenə orada.

1. baramaqurdunun üstündəki nazik pərdə (Şəki). – Qurdun üsdündə ciğara kimi qalır, una diyillər köynəx’ 2. Buğdanın nazik qabığı (Ağ- daş); – Bu buğdanın köynəyi var.[1]

Ehtimal etmək olar ki, elə köynək sözünün semantikası buradan qaynaqlanmışdır.

4) Genbalaq (sif.): Balaqları gen, enli olan. Genbalaq şalvar. Bu geyim növün- dən həm qadınlar, həm də kişilər istifadə etmişlər. Məsələn; Molla Qasımın əynində genbalaq, ağ kətandan lifəli yalınqat tumanı var idi (H.Sarabski).[2] Bu söz həm izahlı lüğətdə, həm də dialektoloji lüğətdə eyni cür izah edilmişdir.

5) Cübbə is. [ər.] Keçmişdə: üstdən geyilən uzun ətəkli, enli, düyməsiz geyim; Cübbə сущ. этногр. джуббе; мантия (длинная широкая одежда в виде плаща). Cübbə geyinmək (geymək) носить мантию, джуббе (Azərbaycanca-rusca lüğət); Cübbə is. [ər.] Keçmişdə: üstdən geyilən uzun ətəkli, enli, düyməsiz geyim. Qocalarımız, cavanlarımız uzun börk qoyardılar, təpəçuxa və cübbə geyərdilər.

Ə.Qəmküsar. [Vəzir Xacə Məsuda:] -Buyur, tez mənim qırmızı cübbəmi versinlər, kəhər atımı yəhərləsinlər, eşitdinmi? (M.F.Axundzadə.)

[1] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:“Şərq-Qərb”, 2007. 566 s.
[2] Yenə orada.

Uzun tirmə cübbə geymiş məmurlar [vəliəhdi] əhatə etmişlər (P.Makulu).[1]

6) Qofda – bir çox dialekt və şivələrimizdə işlənən bu sözü bəzən xalq arasında *kofta* sözü rus mənşəli söz kimi qəbul edilsə də, əslində qofta//kofta sözləri qədim türk mənşəli qaftan//kaftan sözündəndir.

"Kitabi-Dədə Qorqud"da işlənmişdir. Məsələn; *Beyrəyin al qana bulanmış kaftanını sən gətirmədinmi?*[2]

Bu söz əslində türk dilindən rus dilinə keçmişdir. Sonralar ədəbi dilimiz üçün arxaikləşmiş, fonetik dəyişikliyə uğrayaraq, işləkliyi artaraq yenidən rus dilindən Azərbaycan dilinə qayıtmış və bu günədək intensiv şəkildə bütün dialekt və şivələrdə işlənməkdədir: qaftan→ kaftan→qofta→kofta

7) Çəfkən//çəpkən//çəpgən – qadınların geyindikləri üst qış geyimidir.

II. Qarabağ kişilərinin geyimləri:

Baş geyimləri: papax: motal papax, qaragül papax, buxara papax, şiş papax, araxcın, şafqa və s.

Bədən geyimlərinə arxalıx, kürk, cüpbə,gödəx′cə, çuxa, yapıncı, setrə, şalvar və digər geyimləri nümunə göstərmək olar. Kişi geyim adlarından bəzilərinə diqqət yetirək.

---

[1] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 566 s.

[2] Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, "Öndər nəşriyyatı", 2004, 376 s.//s.138

Arxalıq – сущ. архалук (старинная мужская одежда). İpək arxalıq – шёлковый архалук (Azərbaycanca-rusca lüğət). Arxalıq- архалук (короткий бешмет).

Arxalıq – is. köhn. Yaxası düyməli, belibüzməli, yabüzməsiz üstpaltar. [Tubu:] Bilmirəm, bu bir arxalıq nə olubdur ki, budur, beş gündür onu tikib qurtara bilmirsən (Ə.Haqverdiyev). Kişi arxalıq, çuxanı atıb, kostyum, qalstuk geymişdi, papağı çıxarıb fəs qoymuşdu. (B.Talıblı). [Tahirzadə] sərin xəzri alnına toxunanda arxalığının yaxasını açıb, dərindən nəfəs aldı. Mir Cəlal.[1]

Yapıncı. (İsim) Basılmış keçi yunundan (keçədən) hazırlanan plaşa oxşar qolsuz, uzun, enli geyim. Qarabağın dağlıq ərazilərində, qış aylarında daha çox istifadə edilir. **Yapıncı –** бурка, епанча.[2]

III. Həm qadınların, həm də kişilərin istifadə etdiyi geyim növləri: Belə geyim növlərinə şalvar,cüpbə, köynək və s. misal göstərmək mümkündür.

"Cüpbə" geyim növü yuxarıda izah edilmişdir. Qadınların geydikləri şalvar növü isə bir qədər gen parçadan hazırlanaraq həm rahat hərəkəti, həm də isti havalarda sərinliyi təmin etmək məqsədi daşımışdır.

Yuxarıda söylənilənlərdən belə bir qənaətə gəlmək mümkündür ki, Qarabağ şivələrinin leksik sistemi mənsub

[1] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 566 s.
[2] Yenə orada.

olduğu ərazinin tarixi-mədəni inkişafının nəticəsi olaraq olduqca zəngin dil xüsusiyyətlərinə malikdir.

"Qarabağ geyimləri" kitab-kataloqu (Bakı. 2016): F. Vəliyev və G. Abdulovanın müəllifi olduğu kitab-kataloqda ilk dəfə çöl-etnoqrafik materiallar, arxiv sənədləri, muzey kolleksiyaları, ailə saxlanclarında qorunan fotoşəkillər əsasında XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ tarixi-etnoqrafik bölgəsinin əhalisinin geyim mədəniyyəti, onun təsnifatı, məhəlli-lokal xüsusiyyətləri, əyani-vizual görüntüləri və tarixi-etnoqrafik tədqiqi, həmçinin dövrün sosial-siyasi və iqtisadi-mədəni hadisələrinin geyim mədəniyyətinə təsiri məsələləri öz əksini tapıb.

Kataloqda xalq geyimlərinin ayrılmaz tərkib hissəsi olan və geyimləri tamamlayan bəzək elementləri (zərgərlik nümunələri, geyimə bənd edilən tikmə-hörmə bəzəklər və s.) də kataloqlaşdırılıb, onların elmi dəyəri müəyyən olunub.[1]

Qarabağın bəzi geyim növləri bu ərazidən bəhs edilən bədii əsərlərdə də qorunub saxlanılır. Belə əsərlərdən biri M.F.Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" əsəridir. Məlumdur ki, əsərdə Qarabağın miladi təqvimi ilə min iki yüz altmış üçüncü ildə mövcud olan vəziyyətini təsvir edilir. Müsyö Jordanın qonaq olduğu Hatəmxan ağanın dili ilə Axundov bəzi geyim növlərini, adət-ənənəni oxucuya çatdırmağa nail olmuşdur. Məsələn;

[1] http://www. azadliq. az/ xeber/95310/qarabag-geyimleri-kitab-kataloqu-nun-teqdimati.

“Bizdə hər adət və xasiyyət var isə, əksi Paris əhlindədir. Məsələn, biz əlimizə həna qoyarıq, firənglər qoymazlar, biz başımızı qırxarıq, onlar başlarına tük qoyarlar, biz papaqlı oturarıq, onlar başıaçıq oturarlar, biz başmaq, onlar çəkmə geyərlər, biz aşkara peşkəş alarıq, onlar gizli alarlar, biz hər zada inanarıq, onlar heç zada inanmazlar…” (M.F.Axundov).

İkinci cəhət ondan ibarətdir ki, M.F.Axundov tarixi şəxsiyyət, nəbatat alimi olan Müsyö Jordanı (XIX əsr) Qarabağa gətirməklə onun dili ilə ərazinin qeyri-adi təbiəti, dərman bitkiləri və s. haqqında məlumat verir: Müsyö Jordan dağları, çölləri gəzərək bitkiləri toplayıb, onların quruluşunu, morfologiyasını araşdırır, tibbi-müalicəvi əhəmiyyətini aşkar edir.

Tədqiqat nəticəsində Müsyö Jordan müəyyənləşdirir ki, bir çox başqa alimlərin yalnız Alp dağlarında, Amerika və Afrikada yetişdiyini güman etdikləri dərman bitkilərinin çoxu Azərbaycanda bitir... Azərbaycan-Qarabağ torpağı çox bərəkətlidir: onun çölləri, yaylaqları nadir bitkilərlə zəngindir. İstifadəsiz qalan bu bitkiləri toplayıb öyrənmək, xalqa mənfəət gətirmək lazımdır. Bu problem müasir dövr üçün də öz aktuallığını qoruyub saxlamaqdadır.

Demək, yalnızdadlı yeməklər, zəngin mətbəxi, geyim növləri ilə yanaşı, ərazi həm də bitkiləri ilə dünyada məşhur olmuş, əsrlərlə öncə Avropanın diqqətini bu regiona cəlb etmişdir.

XALQ TƏBABƏTİ LEKSİKASI

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qarabağ ərazisində də tarixən ta bu günlərə qədər xalq təbabəti üsullarından geniş istifadə edilmişdir. Tibbin hələ tam inkişaf etmədiyi, dava-dərmanın az olduğu bir dövrdə insanlar öz zəkaları və Allahın insanlara bəxş etdiyi otlar, bitkilər vasitəsilə xəstəliklərdən qorunmağa çalışmışlar. Həmin xəstəliklərdən bəzilərini qeyd etmək olar: qızdırma, pişməcə, öskürək, sarılıq, irinli yaralar, saç tökülməsi, qızılca, göy öskürək və s.

Göstərdiyimiz xəstəliklərin adlarını təbabətə aid terminlər olaraq dəyərləndirmək daha döğru olar. Onların çoxu Qarabağ dialektinin ayrı-ayrı şivələrində işlənməkdədir. Bəzi tədqiqatlarda şivə leksikasını araşdırarkən təbabətlə bağlı sözləri iki qrupa ayırmışlar:

1. insan xəstəlikləri ilə bağlı sözlər;
2. heyvan xəstəlikləri ilə bağlı sözlər.[1]

İnsanlarda rast gəlinən aşağıdakı xəstəliklər qeyd olunmuşdur:

Qarabasma – qədim türk dillərində qara sözünün mənfi mənada "pis, zülmət" mənalarından yaranmışdır.[2] Sözün eyni mənada və eyni fonetik variantı Türkmən dilində də işlədilir.

[1] Həsənova N. Azərbaycan dilinin Yevlax şivələrinin leksikası, nam.dis., Bakı, 2010, 140 s.//s.32
[2] Древнетюркский Словарь, Л., «Наука», 1969, 676 s.//s.423

Qaysax sözü Qarabağ dialektinin bir çox şivələrndə işlənir: Yaranın üsdü qaysaxlıyıf (Yevlax d.).[1]

Qaysaq sözü qasnaq sözündəndir. Azərbaycan dilinin dialektoloji lüğətində aşağıdakı mənaları qeyd edilmişdir.

Eyni zamanda dilimizin bir çox dialektlərində işlənməkdədir.

1. Qasnaq- sağalmaq üzrə olan yaranın üzündə əmələ gələn qabıq, köz. Yaranın qasnağını qoparmaq//Yaş torpaq quruduğu zaman üzündə əmələ gələn nazik, kövrək təbəqə. Torpaq qasnaq bağlamışdır.

2. Ələk, xəlbir və s. bu kimi şeylərə keçirilən çənbər. Yarasının qasnağını qoparmaq – bax yarasını təzələmək ("yara"da).

Füzuli şivəsində qaysax sözü *qavasax* fonetik variantında işlədilir. Dialektlərdə qaysax sözü suvarılan yerin quruması zamanı da işlədilir. Sözün tərkibindəki "qaysaq, qas, qaz" komponenti qədim türk dili lüğətlərində "qabıq" mənasında qeydə alınmışdır.[2]

Təpitmə - məlhəm kimi istifadə edilir. yaranı, bədənin zədədən şişən hissəsinin üzərinə qoyulur, adətən, xəmirdən-undan hazırlanır. Şişin çəkilməsinə, ağrını azaldılmasına kömək edir. "Kitabi-Dədə Qorqud"da "qurumaq", "suyu

[1] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 566 s.//s.132

[2] Древнетюркский Словарь, Л., «Наука», 1969, 676 s.//s.423

çəkmək”//“suyu çəkilmək” mənalarında işlənmişdir: *Böylə digəc Qaracıq Çobanın acığı tutdu, dodaqları təpsidi*.[1]

Eyni zamanda Qərb şivələrində (Gəncə, Qazax və s.) yuyulub sərilmiş paltar haqqında da eyni termindən istifadə edilir: Ay qız, paltarları yığsana, təpiyifdi. Deyəsən, yağış yağacaq (informator: Bağırova Minayə 80 yaş).

Bəzi şivələrdə bu sözün fərqli mənalarına da rast gəlinir:

1. Xəngəl bişirmək üçün hazırlanmış lavaş-təpitmə;

2. Süddən kəsilmək, südünü qurutmaq-təpməx′ və s. Bəzən tədqiqatçılar bu sözü “ bədənin çıxıq, sınıq yerinə qoyulan isti xəmir” kimi də izah edir və söz kökünün səs təqlidi yolu ilə yarandığını əsaslandırmağa çalışırlar.[2] Bizcə, bu fikir ağlabatan deyil. Qədim türk dilləri lüğətində “tep” feilinin təpikləmək mənası da verilmişdir.[3]

Sözün “hopmaq, özünə çəkmək” kimi mənaları da vardır, bizcə, bu fikir daha məqsədəuyğundur.[4] Məsələn; Şəridəki paltarlar təpiyifdi, yığ gətir (Yevlax, Gəncə, Goranboy və s.).

Qantəpər bitkisinin adında da təpmək feilinin olduğu ehtimal edilmişdir. Lakin bizim fikrimizcə, bu fikir o qədər də inandırıcı görünmür. Çünki tibb də qantəpər bitkisindən

[1] Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, “Öndər nəşriyyatı”, 2004, 376 s.//s.49
[2] Cəfərova A. Azərbaycan xalq təbabəti terminləri. nam.dis. B.1994//s.133
[3] Древнетюркский Словарь, Л., «Наука», 1969, 676 s.//s.552
[4] Həsənova N. Azərbaycan dilinin Yevlax şivələrinin leksikası, nam.dis., Bakı, 2010, 140 s.//s.32

qanı qurutmaq üçün deyil, qanı durultmaq məqsədilə istifadə edilir. Bitkinin adında qan qurudan deyil, qan yaradan mənası daha uyğundur.

Təpimək, təpitmə sözləri Azərbaycan dilinin Qərb dialekt və şivələrində geniş areallığı olan xalq təbabəti terminləridir.[1]

Bundan başqa Füzuli şivəsində "təpmək" feili "təpbəx" fonetik variantında "doldurmaq, qazmaq (yer) – şumlamaq mənalarında işlədilməkdədir. Məsələn; Həsən həyətdə yer təpir (İnformator: Nəcəfov Möhtərəm 78 yaş).

Dilimizin, demək olar ki, bütün dialektlərində, şivələrində "*qarqara etmək"* təbabət terminində eyni semantikada və eyni zahiri tərkibdə rast gəlirik. Əsasən, boğaz, ağız, diş xəstəlikləri zamanı geniş istifadə olunur. Bəzən "yaxalamq" sözü ilə əvəzlənir. Məsələn; *Uşağın boğazı gəlmişmiş, anası qarqara eliyif (Qarabağ d.) Ağız apar uşağa qarqara elə, elə yazıxdı, qızdırması tüşsün (Gəncə d.) və s.*

Qarqara sözünün təqlid yolu ilə yaranması ehtimal edilə bilər. Qədim türk sözləri lüğətində *qar* feilinin "boğulma, boğazda bir şey qalma" mənası göstərilmişdir.[2]

Bir mühüm cəhəti də qeyd etmək yerinə düşər ki, bir çoxlarına allergiya adlandırılan xəstəliyin dilimizdə işlənən ekvivalenti məlum olmasa da, Füzuli şivəsində onun adı

[1] www.folklor.az/arasdirmalar/nubar-hekimov
[2] Древнетюркский Словарь, Л., «Наука», 1969, 676 s.//s.422

“məxmərəx'” şəklində işlədilir. Məsələn: *Yumurtadan az ye məxmərəx' olarsan* (Füzuli şivəsində).

Dialektlərdə xalq təbabətindən bəhs edərkən yalnız insanlarla bağlı xəstəliklər deyil, heyvandarlıq inkişaf edən ərazilərdə heyvan xəstəlikləri ilə əlaqədar yaranmış təbabət terminlərindən də danışmaq lazım gəlir. Buraya: çor, qarayara, dabaq, cələ (şiş xəstəliyi), qaradalaq, öfgə, qarayanız, yaman, dilbaş, şirə, şər//çərrəmə, dənətüşmə və s. aid etmək olar. Məlumdur ki, göstərilən heyvan xəstəliklərinin adları dilimizin bir çox dialekt və şivələrində eyni şəkildə işlədilir.

MƏİŞƏT LEKSİKASI

Qədim mədəni köklərə malik olan Azərbaycan xalqı, eyni zamanda müxtəlif bölgələr üzrə məişət leksikasının zənginliyi ilə də seçilir. Çünki məişət leksikası xalqın yarandığı ilk gündən yaranıb, xalqla birlikdə inkişaf edir, təkmilləşir. Bu leksik fonda xalqın məişətdə işlətdiyi əşyaların adları, ev avadanlıqlarının adları, bəzək əşyaları və s. daxildir. Həmin sözlərinin mənalarının, etimologiyasının izahı onların hansı məqsədlə işləndiyini meydana çıxarmağa imkan verir.

Dilçiliyimizdə müxtəlif bölgələrin dialekt leksikası öyrənilərkən məişət leksikası da qismən araşdırılmış, müxtəlif bölgülər əsasında təqdim edilmişdir. Qarabağ ərazilərində işlənmiş və hazırda işlənməkdə olan məişət-

dialekt leksikasını istifadə dairəsini nəzərə alaraq aşağıdakı şəkildə təqdim etmək olar:

1. Ev avadanlıqlarının adları: sandıx, dilo, dilo pərdəsi, rəf (Füzuli şiv.); darax, davankeş (bütün dialektlərdə); yorğan, döşəx′, yasdıx, döşəx′çə, yüx′ yeri, yüx′ pərdəsi və s. (Yevlax, Füzuli və s. s.) və s.

Ev avadanlıqları sırasında mətbəx əşyaları da diqqəti cəlb edir: manqal, maşa, şiş, tuğ süpürgə, xəkəndaz, təhnə, tavax, simavar, balta, kötüx′, nehrə və s. Ev avadanlıqlarının adlarına diqqət yetirdikdə məlum olur ki, onların əksəriyyəti dilimizin bir çox dialekt və şivələrində eyni şəkildə, bəzən də çox kiçik fonetik dəyişmələrlə işlənməkdədir.

Mətbəxdə işlədilən qab-qacaq adları da olduqca rəngarəngdir: səhəx′, ağzıgər, çöyjə//çöjə (Füzuli, Bəydilli) masqura(Bəydilli, Xalxal, Xankəndi), döyrə, ləyən,ləyənçə, nimçə, quyruxlu (Qm, Bəyd.), qətdoğrayan, qətdan, bulut, podnus//potunus, sapılca (İsmayıllı,Bəydilli), oxloy, ərsin, dördəyax, teşt, tiyan, həvəydəstə (Mirbəşir,Füzuli) və s.

Yuxarıda sadaladığımız ev əşyalarından bəziləri qədim tarixə malikdir. Məsələn; ***sərniç*** sözünə M.Kaşğarinin lüğətində "dəvə dərisindən düzəldilmiş su tuluğu, ağacdan oyulmuş qab" mənasında rast gəlirik.[1] Sərnic iki qulplu ağzı gen qab mənasında qərb bölgəsinin digər şivələrində də işlədilir.

[1] Kaşğari M. Divani luğat-it-türk. Dörd cildə/Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər, Bakı, «Ozan», I c., 2006, 512 s.//s.444

Cürtdəx', bardax sözlərinin izahına Ə. Dəmirçizadə "50 söz" (Bakı 1968) kitabında belə açıqlama gətirmişdir. *Cürtdəx'*//cürdə*x'* dilimizdə səhəng adlanan su qabı ilə eynidir. Lakin bəzi bölgələrdə *səhəng* ölçüsünə görə *cürtdəx'dən* bir az böyük su qabıdır. Kitabda bardaq sözünün türk mənşəli ***"bor + daq"*** komponentlərindən düzəlməsi fikri söylənilir. Mənası "mey qabı" kimi izah edilir: bordaq//bardaq.[1]

Qarabağ dialektinin Əfşar şivəsində məişətlə əlaqədar işlənən sözlər də maraqlı dil xüsusiyyətlərinə malikdir. Burada da əsas yeri mətbəxlə bağlı olan sözlər tutur: *sırfa, duax, yuxayayan, şiş, maşa, dəhrə, nehrə, boşqaf, qaşıx, təhnə, qumquma(su qabı), süzgə çətəni-aşsüzən* və s. Əfşar şivəsində ev avadanlıqlarına yasdıx, mütəkgə, mələfə, so:rux, xalça, nimdər, kilit, haçar və s. sözlər nümunə ola bilər.[2]

Məişət leksikasında qida və xörək adları da xüsusi yer tutur. Süfrə mədəniyyəti mənsub olduğu xalqın ümumi mədəniyyətinin önəmli tərkib hissələrindən biridir. Həmin fonda daxil olan sözlər dialekt-şivə leksikasında daha çox qorunub saxlanmışdır. Bunlardan yuxarıda bəhs edilmişdir.

[1] Ə. Dəmirçizadə. "50 söz", Bakı.1968.//s.54
[2] Allahverdiyev E. Qarabağ dialektinin Əfşar şivəsi, fil. elm. namzədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 1995, 217s.//s.142

OYUN ADLARI

Dilin leksik sistemində digər söz layları kimi, əskidən böyüklər və ya uşaqlar tərəfindən oynanılan oyunların adları da xüsusi bir qrup təşkil edir. Lakin bu sözlər digər leksik qruplara nisbətən bir qədər məhduddur. Eyni zamanda Qarabağ Azərbaycanın ayrılmaz bir bölgəsi olduğu üçün həmin ərazinin dialektal leksikasının bir parçası olan oyun adlarını də digər bölgələrimizdən təcrid edilmiş şəkildə öyrənmək doğru olmaz. Ağdam, Füzuli, Yevlax, Xankəndi və s. Qarabağ şivələrində rast gəlinən aşağıdakı sözləri-oyun adlarına diqqət edək: *artıma, birheydi, helləmə, gözbağlıca, cızagirmə, siçan-pişix', gəlin-gəlin, aşığ-aşıx, gizlinqaç// gizlən-paç, nək-tək, mərə//qığmərə, dirədöymə, çiling-ağac, mətəqorudu, yeddi daş* və s.

Dirədöymə oyun adı eyni şəkildə Borçalı şivəsində, şimalda isə Qax rayonu şivələrində işlənmişdir.[1]

Qeyd olunmuş gizlənqaç oyun adına dilimizin digər şivələrində gizdənqaç//gizdənpaç//gizdin qaç və başqa variantlarda da təsadüf edilmişdir. Lakin oyunun təşkili və keçirilməsi ilə bağlı heç bir ciddi fərq müşahidə edilmir. "Gizlənpaç"oyununun adı bölgələrə görə bir az dəyişir. Muğan bölgəsində "gizlinqaç, qaçgizlən, gizlənqaç" variantlarında; Naxçıvanda gizlənparç, gizdələnparç, gildirimparç şəklində; Şimal-qərb rayonlarında yeşinbac,

[1] Həsənova N. Azərbaycan dilinin Yevlax şivələrinin leksikası, nam.dis., Bakı, 2010, 140 s.//s.48

yeşinbaba, yeşinbabaş və s. variantlarda; Oğuz rayonunda çapbakal formasında işlənsə də, eyni oyunun adını bildirir. Anandolu ləhcəsində bu oyunun adı "saklanbac" kimi işlədilməkdədir. Fərq yalnız ondan ibarətdir ki, Azərbaycanda ilk tapılan oyunçu oyunu uduzmuş sayılır. Anadoluda isə son tapılan oyunçu uduzur və növbəti mərhələdə gözlərini qapayıb oyunçuları tapmaqla cəzalandırılır (informator: İslamova Dilarə 65 yaş).

Qarabağ bölgəsində uşaqlar arasında "ənzəli// eşşəkbeli" adlı oyun növü də geniş yayılmışdır. Əsasən, oğlanlar tərəfindən oynanılmışdır. Aparıcının əlində gizlətdiyi çöpü tapa bilməyən uşaq uduzmuş sayılır, belini əyərək əllərini dizlərinə qoyur. Digər uşaqlar "ənzəli" deyərək onun belinin üstündən o biri tərəfə tullanırlar. Bu cəhətinə görə oyun "eşşəkbeli" də adlanır.

Beşdaş Azərbaycan ərazisində geniş yayılmış oyun növüdür, xüsusilə də bayram günlərində, bayramqabağı uşaqlar və gənclər arasında oynanılır. Evcik-evcik oyunu isə, əsasən, otaq şəraitində, həyətdə kiçik yaşlı qızlar arasında oynanılmışdır. Müşahidə edərkən məlum olur ki, qızlar öz evlərində gördükləri qayda-qanunları bu oyun zamanı nümayiş etdirirlər.

Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, tarixən formalaşaraq bu günümüzə qədər gəlib çıxan oyun növləri və digər kateqoriyadan olan leksik vahidlər oyunların keçirilməsi qaydaları və s. əgər indi toplanmazsa, ölkəşünaslıq kitablarında əksini tapmazsa, bir neçə ildən

sonra onları toplayıb nəşr etdirmək də qeyri-mümkün olacaq. Çünki yaşadığımız, elm və texnikanın sürətlə inkişaf etdiyi dövrdə hadisələrin sürətli axını artıq həmin dil vahidlərinin, etnoqrafik terminlərin unudulmasına zəmin yaratmışdır.

MƏRASİM LEKSİKASI

Məlumdur ki, hər bir xalqın həyatında müxtəlif mərasimlər həyata keçirilir. Toy, nişan, yas mərasimləri xalqın həyatının ayrılmaz bir hissəsidir. Eyni zamanda müxtəlif mərasimlər bölgələrdə müxtəlif şəkillərdə təşkil edildiyi üçün müxtəlif mərasim leksikasının yaranmasına da səbəb olmuşdur. Bütün bunları nəzərə alaraq mərasim leksikasını nisbi şəkildə aşağıdakı kimi təsnif edə bilərik:

1) Yas mərasimləri ilə bağlı olan sözlər;

2) Toy, nişan və elçiliklə bağlı olan sözlər;

3) Adqoyma ilə bağlı olan sözlər və s.

Xeyrat, ehsan, cənazə, yuat yeri, molla, ajal, kəfən, tabut, meyit, məzar, qavır, qavır yeri, mürdəşir, üç, yeddi, qırx, cumaxşamı, qara bayram, halva və s. Göründüyü kimi, verilmiş yas mərasimi sözləri digər bölgələrimizdə rast gəldiyimiz sözlərdir. Bölgədə ölünün qalan paltarları "andır" termini ilə ifadə edilir. Eyni mənada və eyni formada bu söz Cəbrayıl şivəsində, həmin mənada işlədilən so:xa//soyxa sözünə Tovuz şivəsində, Cəlilabad şivəsində rast gəlinir. Ölünün paltarı Füzuli şivəsində, Şəmkir ağızlarında

“mirət//merət//mərət” variantlarında işlədilməkdədir (informator: Nağdalıyeva Zibeydə 75 yaş).

Toy-nişan mərasimləri üçün işlədilən: *elçi, başdıx, sütpulu, şirinçay, cehiz, gəlinnix', toy, şabaş, toybəyi, xına, xınayaxdı, parça, parçapiçini, nazik (şirin çörək), sağdış, soldış, bəytərifi, yengə, boygördü, üzəçıxdı* və s. terminlər müşahidə edilmişdir.

Qarabağ toylarını fərqləndirən başlıca əlamətlərdən biri burada (Bakı və Şirvanda olduğu kimi) muğama geniş yer verilməsidir. Toy əhli oynamaqdan, şənlənməkdən daha çox muğama qulaq asmağı sevir. Bir az oynayıb yorulduqdan sonra ara verib muğama qulaq asılır.

Qarabağ toylarında gəlin toy mağarına gətirilmir. Ümumiyyətlə, məclis yalnız kişilər üçün qurulur, qadınlar toy mağarına gecə, yemək mərasimi bitdikdən sonra gəlirlər. Əfsus ki, müasir dövrdə həmin adətlərin bir çoxu unudulmaqda, yeniləri ilə əvəz olunmaqdadır.

Gəlin evindən əşya oğurlamaq da Qarabağ bölgəsində yayılmış adətlərdəndir. Toy alayı oğlan evinə tərəf yönələn kimi, qız evindən "oğurlanmış" əşyalar ətrafdakılara göstərilir. Bu özünəməxsus adətin başqa adları "şeyoğurluğu", "xəspuşluq", "xəkrizdəmə" (Ağdam, Füzuli, Şuşa, Tərtər), "çıpıtma" (Cəbrayıl), "xırsızlıq", "sirqət"dir. Bəzi yerlərdə isə qızın anası çörək əvəzinə gəlinə bir çimdik ocaq külü verir[1]

[1] http://www. azadliq. az/ xeber/95310/qarabag-geyimleri-kitab-kataloqunun-teqdimati.

Qarabağ şivələrində mərasim leksikasına aid "bəlgə" sözü işlənməkdədir. *Bəlgə* qız evinin razılığı alındıqdan sonra qıza oğlan evindən göndərilən kiçik nişan kimi izah edilir. Bu söz həm Qarabağ şivələrindən Bərdə, Yevlax, Şuşa şivələrində, həm də bəzi Qərb qrup dialekt və şivələrində - Qazax, Gəncə, Göranboy şivələrində eyni mənada işlənməkdədir. Sözün ikinci mənası qonşu torpaq sahələrinə, biçənəklərə onları bir-birindən ayırmaq üçün vurulan nişanədir. "Bəlgə" sözü Ağdam şivəsində əkin sahələrinin sərhədlərini müəyyən edən xətt mənasında işlənməkdədir.[1]

"Azərbaycan dili şivələrinin omonimlər lüğəti"ndə bəlgə sözünün müxtəlif mənaları qeyd edilmişdir.[2] Sözün arxetipinin bir şeyə nişan qoymaq//nişanlamaq//bəlli etmək mənalarında işlənən "bəlləmək//bəlli etmək" feilinin olması fikri daha inandırıcıdır.

QARABAĞ ŞİVƏLƏRİNİN TERMİNOLOJİ LEKSİKASI: TƏSƏRRÜFAT LEKSİKASI- HEYVANDARLIQ, ƏKİNÇİLİK, BOSTANÇILIQ LEKSİKASI

Hər hansı bir dilin lüğət tərkibinin önəmli bir hissəsini konkret sahələrə aid edilən, məhdud işlənmə

[1] Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:"Şərq-Qərb", 2007. 566 s.//s.42

[2] Behbudov S. M. "Azərbaycan dili şivələrinin frazeologiya lüğəti", Bakı, "Elm və təhsil", 2011, 292 s.//s.24

dairəsinə daxil olan, ümumişlək olmayan termin səciyyəli sözlər təşkil edir. Konkret sahələri əhatə edən sözlər bu cəhətinə görə müxtəlif semantik qruplarda ümumiləşdirilir. Qarabağ şivələrində də eyni mənzərənin şahidi oluruq. Yəni ərazinin təsərrüfat leksikasının termin səciyyəli sözlərini bir neçə qrupa bölmək doğru olar:

1) heyvandarlıq terminləri;

2) əkinçilik və bostançılıq terminləri və s.

Coğrafi cəhətdən faydalı ərazilərə malik olan Azərbaycan torpaqları bərəkətli, əhalisi isə işlək olmuşdur.Yerli əhali yaşadığı ərazinin iqliminə, torpağın məhsuldarlığına uyğun olaraq öz təsərrüfatını yaratmışdır. Bəzi bölgələrdə tarixən formalaşmış, əkinçilik, bəzi yerlərdə heyvandarlıq, pambıqçılıq, üzümçülük, çayçılıq və s. geniş inkişaf etmişdir. Həmin sahələr öz daxilində də müəyyən qədər parçalanaraq istər heyvandarlıqda, istərsə də bitkiçilikdə ən uyğun olan növlər, sortlar yetişdirilmişdir.

Qarabağ ərazisi də təsərrüfat etibarilə zəngin bölgələrdən biridir. Buranın əhalisi də daim təsərrüfatla məşğul olmuş, heyvandarlığın müxtəlif sahələrini yaratmışlar ki, onlardan biri də qoyunçuluqdur. İstər-istəməz hər hansı bir sahə inkişaf etməyə başlayırsa, həmin ərazidə bu sahə ilə əlaqədar leksik, sintaktik vahidlər də yaranıb formalaşmağa başlayır ki, elə dialektləri, bölgələri bir-birindən fərqləndirən cəhətlərdən biri də budur. Yəni qoyunçuluğun inkişafı ilə əlaqədar Qarabağ şivələrinin

leksikasında bu sahəni əks etdirən terminlər də formalaşmışdır.

Rayonun iqtisadiyyatı ilə bağlı olaraq müəyyən terminlərin yayılmasının sərhədlərini müəyyən etmək çətindir. Çünki Azərbaycanın iqlim şəraiti və s. bir çox yerlərdə həm maldarlıq, həm əkinçilik, həm də bağçılıqla məşğul olmağa imkan vermişdir. Buna görə də bağçılığa, ya da maldarlığa aid terminləri yalnız bir rayona aid etmək düzgün deyil. Həmin terminlərin müəyyən hissəsinə paralel olaraq başqa rayonlarda da təsadüf edilir".[1]

Bir cəhətə də fikir vermək lazımdır ki, bəzən ədəbi dildə rast gəlmədiyimiz bir zootermin dialektlərdə işlənə bilir. Ya da ədəbi dildə bir şəkildə mövcud olan zoonimin dialektlərdə fərqli variantları meydana çıxır. Bu, əsəsən, həmin heyvanın və ya quşun həmin ərazidə məskunlaşması, yerli əhaliyə məlum olması və adlandırılması ilə bağlı ola bilər.

Buğra – zoonimi dialektlərdə döllük dəvəni adlandırmaq məqsədilə işlədilir.[2] Sözün paralelləri Qarabağ dialektinin Füzuli şivəsində *buğra* variantında, Qazax, Borçalı, İmişli şivələrində yenə *buğra*, Salyan şivəsində *bığır* variantında ("üçyaşar erkək dəvə" mənasında) rast

[1] Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı "Şərq-Qərb", 2008, 416 səh.//s.338

[2] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.//s.120

gəlinir. Həmin söz "Kitabi-Dədə Qorqud"da da işlənmişdir: *Atdan-ayğır, dəvədən buğra, qoyundan qoç öldürgil*.[1]

Regionun heyvandarlıq terminləri sırasında *düyə, dana, kəl və s.* heyvan adları da geniş şəkildə işlənərək ərazidə həmin heyvanların yetişdirildiyini, insanların məşğuliyyətini, bu yerlərin təbiətinin heyvandarlıq üçün münasib olduğunu söyləməyə əsas verir. Bu cür ifadələrlə əlaqədar xalq arasında bədii nümunələr, holavarlar, sayaçı sözlər, yanıltmaclar da yaranır. Məsələn, Göy düyə, gömgöy düyə, dümgöy düyə -kimi yanıltmaclar və digər nümunələr deyiklərimizə sübutdur.

Saqar dialektizmi *"ağ alınlı təpəl qoç* (Qazax, Borçalı, Gədəbəy) saqqar şəklində də işlənir. Sonkur// sunkur//şunkar- və digər variantlarda işlənən bu söz "şahin" kimi tanıdığımız vəhşi quşun adıdır.[2] Türk dillərinin yazılı abidələrində şahin quşunun adı beş sözlə ifadə edilmişdir: şunkar//laçın//toğan//çağrı//keküк. Qarabağ şivələrindən Ağdam, Bərdə və s. ağızlarda daha çox laçın, şahin adlarına rast gəlinir.

Həmin adlardan üçü Azərbaycan dilində işlənmişdir: laçın//alıcı quş mənasında həm ədəbi dildə, həm dialektlərdə; şunqar//şahin şəklində qərb dialektlərimizdə; şonqar//şahin növü kimi Cənubi Azərbaycan ərazisində; doğan//ov quşu variantında isə Şuşa danışığında işlənmişdir.

[1] Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, "Öndər nəşriyyatı", 2004, 376 s.//s.256
[2] Древнетюркский Словарь, Л., «Наука», 1969, 676 s.//s.508

“Kitabi-Dədə Qorqud”da sunqur; bəzi folklor nümunələrində, xalq dastanlarında şonqar şəklində işlənmişdir.[1]

Tədqiq etdiyimiz Qarabağ şivələri, məlum olduğu kimi, bir neçə rayonu əhatə edir. Burada daha çox inkişaf edən təsərrüfat sahəsi isə ***qoyunçuluqdur.*** Bu sahə ilə bağlı olan sözləri müxtəlif tədqiqat işlərində qoyunçuluqla bağlı terminlər adlandırırlar. Biz də qoyunçuluqla əlaqədar işlənən sözləri ənənəvi olaraq qoyun-çuluq terminləri adlandırmağı məqsədəuyğun bilirik. Məlumdur ki, heyvandarlıqda yetişdirilən heyvanların cinsinə, yaşına, yetişdirilmə məqsədinə, rənginə və digər əlamətlərinə görə adlandırılması təcrübəsi mövcuddur.

Qarabağ şivələrində də eyni halın şahidi oluruq. Yevlax şivəsində: 1) *cinsinə görə* qoyun adlarından: merinos, herix′, balvas və s. işlədilir. Merinos-boyu gödək, yunu az olan qoyunlardır; herix′iri, gözəçarpan qoyun cinsidir; balvas- uzunquyruqlu qoyunun adıdır;qırım -az yunlu, gödək boylu qoyun cinsi və s. Bunlardan bəziləri mənşəyinə görə alınma olsa da, əksər hissəsi leksik dialektizmlərdir: qırım, herix′ və s. Herix′ sözünün mənası tezyetişən kimi izah edilir.[2]

Ənix′ – sözü də Qarabağ dialekt və şivələrində işlədilən heyvandarlıq terminidir. Canavarın, itin balası

[1] Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, “Öndər nəşriyyatı”, 2004, 376 s.//s.229
[2] http://anl.az/el/latin_qrafikasi/axe/kd-q.pdf

mənasında işlədilir. Bərdə, Füzuli, Ağdam və s. şivələr üçün aktivdir: *Uşaxlar əniynən oyneyillər*.[1]

Ənik sözünə "itin balası" mənasında Qazax şivəsində də rast gəlinir. Qədim "Oğuznamələrdə (qurd ənigi), "Kitabi-Dədə Qorqud"da (aslan ənigi) və klassik ədəbiyyatda ənik sözü işlənmişdir.

Sığır – sözü meşə heyvanı, maral, keyik, hətta inək mənalarında Qarabağ şivələrindən Ağdam, Cəbrayıl şivələrində işlədilir. "Kitabi-Dədə Qorqud"da da sözün cüyür və inək mənasına rast gəlinmişdir: Nümunə: *Gördü kim, oğrı köpək, yekə tana evini bir-birinə qatmış, tauq komasına, sığır tamına dönmüş*.[2]

Qarabağ şivələrində, əsasən, inək mənasına üstünlük verilmiş, əhalinin meşə heyvanları deyil, maldarlığı ilə əlaqələndirilmişdir.

2) *Yaşına görə* işlənən qoyun adları: əmlix′, toğlu, erkəx′, şişəx′, öyək, tarxdiş və s.[3]

Əmlix′ sözü əmmək feili ilə bağlıdır.[4]

Toğlu altı aylıq quzu; *erkəx′* bir yaşı tamam olmuş toğlu; *şişiəx′*iki yaşlı erkək toğlu; şişəx′ iki yaşlı və bir qarın doğmuş dişi toğlu mənasında da işlədilən qoyunçuluq

[1] https://obastan.com/az/dict/dialect/word/561725%C6% 8FRD%C6%8F
[2] Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, "Öndər nəşriyyatı", 2004, 376 s.//s.33
[3] Həsənova N. Azərbaycan dilinin Yevlax şivələrinin leksikası, nam.dis., Bakı, 2010, 140 s.//s.23
[4] Щербак А.М. Названия домашних и диких животных в тюркских языках. Историческое развитие лексики тюркских языков).Москва. АН. СССР.1961. с.82-172.//s.83

terminidir. Qazax dilində "*şişi*" ana deməkdir. Ehtimal ki, bu sözlərin yaxınlığı var, eyni kökdən qaynaqlanır və araşdırılmaya ehtiyacı vardır.

Öyək sözünə klassik ədəbiyyatda da rast gəlinir. "Koroğlu" dastanında "Həmzənin Qıratı qaçırması" qolunda Koroğlunun dilində işlənmişdir: öyəc (buruq qoç).

Qırat keçəl Həmzənin əlinə keçəndən sonra Koroğlu Qıratın əvəzsiz bir nemət olduğunu başa düşdü və üzünü keçəl Həmzəyə tutub dedi:

Əylən deyim Qıratın qiymətini,
Səksən min sərkərdə mala da vermə!
Səksən min ağ tüklü qəmər *öyəcə,*
Səksən min xəzinə pula da vermə! (Koroğlu)

Qarabağ şivələrində qoyunçuluqla bağlı işlədilən terminləri İ.Quliyev iki istiqamətdə təsnif etmişdir:

1) Cinsinə və yaşına görə verilən adlar;

2) Dişi və ya erkək olmasına görə verilən adlar: toğlu, əmlix′, erkəx′, kərpə, erkəx′ şişəx′, qaradiş, əyəc[1], dızman, dişi əmlix′, ana qoyun və s.[2]

Qarabağın əfşar şivəsində heyvandarlığa aid sözlər leksik sistemdə xüsusi yer tutur. Bunun əsas səbəbi isə əhalinin həyatında heyvandarlığın mühüm yer tutmasıdır. Əfşar şivəsində bəzi heyvandarlıq terminlərinə nəzər salaq:

[1] Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, "Öndər nəşriyyatı", 2004, 376 s.//s.82
[2] Yenə orada.//s.191

1) yaşına, cinsinə və rənginə görə iribuynuzlu heyvan adları: camış, inəx′, kəl, öküz, kəlçə, düyə(iki yaşlı dişi inək balası), dana(biryaşar inək balası), balax (camış balası), buzoy və s.

2) yaşına, cinsinə və əlamətinə görə at, dəvə, eşşək adları: at, dəvə, eşşəx′//uzunqulaq, day (iki yaşlı erkək at balası), maydan (dişi at), ayğır(erkək at), dayça (bir yaşa qədər at balası), nər (erkək dəvə), haçama (ikihürgüclü dəvə) və s.[1]

Yevlax şivəsində işlənən heyvandarlıqla əlaqədar terminlərdən biri də "baharbənd" terminidir ki, onun da mənası tövlənin qarşısında kənarları açıq olan, isti havalarda heyvanların dincəlməsi üçün nəzərdə tutulan yerdir (informator: Mustafa Əliyev 65 yaş).

Atçılıq sahəsinin inkişafı baxımından Qarabağ yalnız Azərbaycanda deyil, eyni zamanda bütün Qafqazda əsas yerlərdən birini tutur.

Qarabağ atları Azərbaycanın Qarabağ ərazisində yetiş dirilmiş və geniş yayılmış dağ minik at cinsidir.

XVII-XVIII əsrlərdə Qarabağ xanlığında bu at cinsi daha da təkmilləşdirilmişdir.

Qarabağ atları Asiya və Qafqazda ən qədim at cinsi hesab edilir.

Eradan əvvəl I əsrdə Mannada atçılıq geniş inkişaf etmiş, dövlətin süqutundan sonra yaranan Midiyada,

[1] Allahverdiyev E. Qarabağ dialektinin Əfşar şivəsi, nam.dis. Bakı, 1995//s.94

Albaniyada, Azərbaycanda da davam etmişdir. Eradan əvvəl IV əsrdə Heredotun məlumatlarına görə, Midiyada Nesey ərazisində - Xəzər dənizinin cənub-qərbində iri cüssəli, güclü və yaraşıqlı atlar yetişdirilmişdir. Həmin atların Qarabağ atlarının nəsli olması ehtimal olunur. Bəzən də yanlış mülahizələr yürüdülmüş, Qarabağ atlarının digər növlərdən, fars və ya ərəb atlarından törədiyi fikri də yayılmışdır. Məlum məsələdir ki, tarixən Azərbaycana müxtəlif ölkələrin yürüşləri olmuş, ərəblər, farslar, monqollar süvari qoşunları ilə bu ərazilərə hücum etmişlər.

Qarabağ atlarının təkmilləşdirilməsində ərəb atlarından istifadə edilmişdirsə də, bu atların yüksək xarakterik keyfiyyətləri də nəzərə alınmış, gəlmə atlara böyük təsiri olmuşdur. Tarixdə altmış min qızılı Qarabağ atının Ərəbistana aparılması faktı da vardır.[1]

Hələ ərəb atlarının xüsusi cins atlar kimi mövcud olmadığı bir dövrdə Qarabağ atları mövcud olmuş, qədim rəsm əsərlərində, xalçaçılıqda, miniatürlərdə öz ifadəsini tapmışdır. Bütün bunları nəzərə alaraq demək olar ki, Qarabağ atları yerli Azərbaycan atları əsasında böyük bir inkişaf yolu keçərək formalaşmış, qarabağlıların ərazinin relyefini,təbiətini və s. nəzərə alaraq yüzillər boyu apardığı uyğun xalq seleksiyası nəticəsində formalaşmış at növüdür.

Qarabağ şivələrində ***əkinçilik*** və ***bostançılıq*** sahələri də tarixən insanların məşğuliyyətinin əsas hissəsini təşkil etmiş, bu sahələrlə bağlı söz və ifadələr yaranmışdır. Əfşar

[1] https://ru.wikipedia.org/wiki/Arçax

şivəsində işlənən: *xış, kotan, boyundurux, orax, dımrıx//dırmıx, xəlvir, xırman, çalma//dəryaz, köçəl (döyülmüş taxılın içində qalan sünbüllər), vəl, xora (özü bitən taxıl), barmaxcıl (biçin zamanı barmağa geyilən dəri və ya ağac alət)* və s. bu qəbildəndir.

Bu şivədə alma, armıt, iydə, nar, şöytəli (şaftalı), heyva, tut, üzüm (ağ üzüm, qara üzüm) və digər meyvə adlarına; qarpız, yemiş, boranı, turp, badımcan, istiot, xiyar, loyva//lovya, maş, yelpənəx′ (xiyar), keşniş, şüyüt, pamidor//tamat və s. bostan bitkisi və tərəvəz adlarına rast gəlinir[1] ki, onlar tədqiq etdiyimiz şivələrin bostançılıq terminləri sırasındadır və Azərbaycanın diğər bölgələrində də işlədilir.

Ağcabədi rayon şivəsi termin səciyyəli sözlərlə zəngindir. Bu cəhətinə görə şivə ədəbi dildən fərqlənir. İ.Quliyev Ağcabədi rayon şivəsini tədqiq edərkən onu iki istiqamətdə araşdırmağı məqsədəuyğun bilmişdir: a) termin səciyyəli sözlər; b) termin səciyyəsi daşımayan sözlər. Müəllif termin səciyyəli sözlərə kənd təsərrüfatında istifadə edilən alət adları: *xiş, ərəbə//arava//harava, vəl, dəryaz, kərki, alaxkeş, kirdabel(iridişli bıçqı), çalou (xırda daş,qum üçün bel), külüx′* (yer qazımaq üçün dəmir alət) və s. daxil etmişdir.[2]

[1] Allahverdiyev E. Qarabağ dialektinin Əfşar şivəsi, nam.dissertasiyanın avtoreferatı. Bakı, 1995, 30 s.//s.15

[2] Quliyev İ. Azərbaycan dilinin Ağcabədi rayonu şivələri.Bakı.1978, 186 s.//s.86

Bundan sonra tədqiqatçı furqona, arabaya, kənd təsərrüfatı alətlərinin hissələrinə məxsus əşyaların adlarını təqdim etmişdir.

Termin səciyyəli sözlərin ikinci qisminə əkinçiliklə bağlı olan sözləri: *taxda (iki arx arasında qalan sahə), cırna (əkin zamanı çıxan çör-çöp), cəngə (əl içi qədər biçi- lən taxıl)* və s. aid etmişdir.[1]

İ.Quliyev taxılın yetişməsi ilə bağlı termin səciyyəli sözləri, suvarma ilə bağlı terminləri, bostan-tərəvəz bitkilərinin adları, baramaçılıqla bağlı terminləri, bağçılıqla bağlı terminləri və s. ayrı-ayrı qruplarda ümumiləşdirərək təqdim etmişdir.

Qarabağ "Qırmızı kitab"a düşmüş nadir bitkilərin vətənidir: Hirkan şümşadı – pirkal, Qafqaz xədicəgülü, komarov birəotusu, gözəl təkəsaqqal, məxməri gərməşov, adi şabalıd, Qarabağ dağ laləsi, sağsağan gülxətmisi və s. Dünyanın nadir bitkilərindən sayılan xarıbülbül gülü yalnız Qarabağda – Şuşada bitir.

Keçmişdə Qarabağ bölgəsində termin səciyyəli "qaradam" ("ev damı", "torpaq dam"), "bağdadi" və "tağbənd" ev tipləri geniş yayılmışdır.

Qarabağ xalçaçılıq məktəbi də bütün dünyada məşhur olmuşdur. Burada müxtəlif çeşnili xalçalar – "Ləmbərani", "Çələbi", "Açma-yumma", "Balıq", "Buynuz", "Qarabağ",

[1] Quliyev İ. Azərbaycan dilinin Ağcabədi rayonu şivələri.Bakı.1978, 186 s.//s.86

“Bərdə”, “Ləçəktürünc” xüsusilə fərqlənir.[1] Göstərilən söz və ifadələr Qarabağ dialekt zonasına daxil olan rayonların dialektal leksikasına aid olan terminoloji sözlərdir.

Məlumdur ki, terminlərin əhatə dairəsi olduqca genişdir. Yuxarıda göstərilənlərdən əlavə, bu leksik təbəqəyə tayfa, nəsil bildirən, qohumluq bildirən, ölçü, çəki mənasında işlənən və s. sözləri də daxil etmək mümkündür: tirə, oymax, məhlə, binə kimi nəsil bildirən sözlər; ata, xala, nənə//ninə, ciji, baba, nəvə, nəticə, bajanax, baldız, qaynata, qaynənə, qayın kimi qohumluq bildirən sözlər; xış, cəhrə, kiriş, tağalax, qulax kimi əşya adları bildirən sözlər; ərşin, qarış, misqal, qulaş, çəpəx′, pərsəx′ və s. ölçü, çəki bildirən sözlər deyilənlərə nümunə ola bilər.[2]

Dilimizin bütün dialekt və şivələrində olduğu kimi, Qarabağ şivələri qeyri-termin səciyyəli sözlərlə də zəngindir.

[1] Qarabağ: folklor da bir tarixdir V kitab (Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri). Bakı, “Elm və təhsil”, 2012, 468 s.//s.126

[2] Quliyev İ. Azərbaycan dilinin Ağcabədi rayonu şivələri.Bakı.1978. 186 s.//s.178

MÜHAZİRƏ MƏTNLƏRİ

I MÖVZU

“DİALEKTOLOGİYA” FƏNNİ HAQQINDA ÜMUMİ MƏLUMAT. DİALEKTOLOGİYA FƏNNİNİN OBYEKTİ , MƏQSƏDİ, VƏZİFƏLƏRİ, ƏLAQƏLƏRİ, ƏSAS ANLAYIŞLARI. AZƏRBAYCAN DİALEKTOLOGİYASININ TARİXİNDƏN

PLAN:

1. **Azərbaycan dialektologiyası haqqında ümumi məlumat.**
2. **Elmin obyekti, digər elmlərlə əlaqəsi.**
3. **Dil və dialektlər. Fənnin qarşısında duran vəzifələr**
4. **Azərbaycan dialektologiyasının tarixindən.**

1.1. Azərbaycan dialektologiyası haqqında ümumi məlumat

Hər bir xalqa, millətə məxsus doğma dil, ana dili, milli dil mövcuddur. Bu dil xalqla birlikdə inkişaf edir, dəyişir. Cəmiyyətdə baş verən bütün dəyişikliklər dildə öz əksini tapır. Dilin fonetik, leksik, qrammatik sistemində əks olunur. Bu dil öz daxilində bir neçə təbəqəyə bölünür: danışıq dili, ədəbi dil,dialekt, şivə və s.

Dialekt və şivələr haqqında müəyyən qədər təsəvvürümüz var. Lakin Azərbaycan dialektlərinin tədqiqi,

təsnifi, xarakterik xüsusiyyətləri haqqında geniş, ətraflı məlumatı dialektologiya fənnindən öyrənəcəyik. Hər hansı bir elm tədris olunarkən, ilk növbədə, onun obyekti, digər elmlərlə əlaqəsi, tədqiqat metodları və digər məsələlər öyrənilir. Dialektologiyanın digər dilçilik şöbələri ilə əlaqəsinin mühüm əhəmiyyəti vardır. Çünki qədim türk yazılı abidələrinin, daş kitabələrin mətnlərində bu günümüz üçün arxaikləşmiş dil vahidləri vardır. Həmin vahidlərin bir çoxu dialektlərdə bu gün də işlənməkdədir. Dilçilik ictimai elmlər sırasında elmi-nəzəri mövqeyə malik olan bir sahədir. Burada dilin tarixi qolu-ədəbi dil və danışıq dili müqayisəli şəkildə öyrənilir.

Danışıq dilinin bir sahəsi olan dialektologiya öz nəzəri həllini dilçilikdə tapır. Dialektoloji vahidləri tədqiq edərkən dialektoloji tədqiqat metodlarından istifadə edilir. Dialektoloji tədqiqatların üç növü var:

1. təsviri
2. müqayisəli
3. tarixi

Azərbaycan dialektologiyası haqqında XIX əsrin sonlarında bəzi fikirlər söylənsə də, elmi fundamental əsərlər (təsviri xarakterli olsa da), əsasən, XX əsrin 30-40 illərində yaranmağa başlamışdır. Bununla yanaşı, yazılmış yüzlərlə elmi-metodiki məqalə, dərs vəsaiti və dərslik dialektologiyanın, onun məzmun və mündəricəsinin zənginləşməsinə səbəb olmuşdur. Dialektoloji tədqiqatlar prosesində nəzəri və praktik istiqamətlərə, elmi prinsiplərə, dilçiliyin metod və

üsullarına xüsusi yer verilmişdir. Lakin dialektoloji obyekt tamamilə tədqiqata cəlb edilməmişdir. Bəzən də faktlara formal cəhətdən yanaşılmış, dialekt və şivələr araşdırılarkən əhalinin etnik tərkibi nəzərə alınmamışdır. Bəzi hallarda dilin sistemi və quruluşu diqqətdən kənarda qalmış, bu da qüsurlara gətirib çıxarmışdır.

Dialektologiyanın tədqiqat obyekti dialektlərdir. Dialektlərin öyrənilməsi sahəsində Azərbaycan dilçiliyinin qarşısında bir sıra mühüm vəzifələr durur:

1. Dialektoloji tədqiqatlarda dilçiliyin müasir metodlarından tətbiq edilməlidir.

2. Dialektoloji tədqiqatlarda sistemli şəkildə əvvəl səs, sonra söz və cümlə tədqiq edilməlidir.

3. Dialektoloji tədqiqatlar həm Şimali, həm Cənubi Azərbaycanda, həm də qonşu və qonşu olmayan ölkələrin ərazisində, yəni Gürcüstanda, İran, İraq və s. yerlərdə aparılmalıdır.

Türk dillərinin Oğuz qrupuna daxil olan Azərbaycan dili kökü etibarilə qədim tarixə malikdir. Tarixi ədəbiyyatlarda Azərbaycan xalqının və onun dilinin mənşəyi haqqında ziddiyətli fıkirlər olmuş, bəzən azərbaycanlılar dilini dəyişmiş bir xalq, dilimiz isə gəlmə dil hesab edilmişdir. Azərbaycan xalqının formalaşması haqqında **o dövrdə** əsas qənaət belə olmuşdur:

Atropatenanın və Qafqaz Albaniyasının qədim yerli tayfaları (mannalılar, kaduslar, midiyalılar və s.) azərbaycanlıların etnogenezisində müəyyənedici rola malik

olmuşdur. Sonra onlara əsrlər boyu müxtəlif etnik qruplar, kimmerlər, hunlar, xəzərlər, oğuzlar, monqollar və s. irandilli və türkdilli tayfalar qarışmış və bu xalq formalaşmışdır. Azərbaycan xalqının formalaşması, əsasən, XI-XII əsrlərdə başa çatmışdır. Azərbaycan xalqının formalaşması haqqında həmin konsepsiyaya görə guya yerli əhalinin dili gəlmələrin dili ilə əvəz olunmuşdur.

Azərbaycan dialektlərinin öyrənilməsi elə Azərbaycan dili tarixinin öyrənilməsi deməkdir. Azərbaycan etnoqrafiyasında mövcud olan dialektlər qədim türk tayfa dilləri əsasında təşəkkül tapmış yüz illər boyu müxtəlif qohum tayfalarla əlaqədə onların ictimai-siyasi aurası genişlənmiş, özünəməxsus dil xüsusiyyətləri sabitləşmiş, mükəmməl qanunauyğunluqlar şəklində olmuşdur.

1.2. Elmin obyekti, digər elmlərlə əlaqəsi

Azərbaycan dilçiliyində də dünya dilçiliyində olduğu kimi, dialektlər coğrafi bölgü prinsiplərinə əsasən, şimal, şərq, cənub, qərb dialekt və şivələrinə bölünür. Bu dialekt və şivələrin tarixi inkişafının öyrənilməsi həmin qrupların öz arasında, müasir Azərbaycan dili ilə dil tarixi arasında oxşarlıq və fərqli cəhətlərin müəyyən edilməsi dilimizin eyni zamanda, xalqımızın tarixinin öyrənilməsi deməkdir. Elə bu cəhətinə görə dialektologiyanın həmin elmlərlə əlaqəsinin öyrənilməsinin əhəmiyyəti böyükdür:

I. Dil tarixi ilə əlaqəsi: Məlumdur ki, ümumxalq dili ədəbi dildən əvvəl mövcud olmuş, mənsub olduğu xalqın

adət-ənənəsini, tarixini, etiqadını əks etdirmişdir. Dilin inkişafında baş verən ən mühüm fonetik, leksik, qrammatik dəyişikliklər qədim yazılı abidələrdə və bəzi dialektlərdə qalır. Bu cəhət həmin fənləri bir-birilə bağlayır. "Kitabi-Dədə Qorqud"da varmaq"- ayrım şivəsində; "yazı" sözü qədim yazılarda və Qərb şivələrində və s.

II Qədim abidələrin dili fənni ilə əlaqəsi. Qədim abidələrin dilini öyrənməklə həmin vahidlər meydana çıxır.

Dialektologiya özünəməxsus obyekti, vəzifələri, mövzusu olan tədqiqat üsulları ilə seçilən xüsusi dilçilik sahəsi kimi hələ gəncdir. Azərbaycan dialektlərinin tarixi istiqamətdə öyrənilməsi tarixi dialektologiyanın yaranmasına səbəb olmuşdur. Lakin tarixi dialektologiyanın nəzəri məsələləri, metodikası və digər bir çox məsələlər hələ tamamilə öyrənilməmişdir. Dilçilik tarixi baxımından tarixi dialektologiyanın xüsusi əhəmiyyətə malik olduğunu E.Əzizov "Azərbaycan dilinin tarixi dialektologiyası" (1999) adlı dərs vəsaitində xüsusilə qeyd etmişdir. O, da dialektləri tarixi köklərə əsaslanaraq tədqiq etmişdir.

E.Əzizov da belə bir fikirdə olmuşdur ki, dilin dialekt bölünməsi – üzvlənməsi onun inkişafında meydana çıxan innovasiya hallarının müəyyənləşdirilməsi etnogenezis probleminin, eləcə də konkret bir dilin başqa yaxın dillərlə ortaq və fərqli xüsusiyyətlərinin geniş və hərtərəfli təhlili tarixi dialektoloji tədqiqat nəticəsində mümkündür.

İnnovasiya dedikdə dildə ilkin formalarını dəyişmiş dil faktları nəzərdə tutulur. Tarixi dialektologiyanın ədəbi dil

tarixi üçün əhəmiyyətindən onların əlaqəsindən danışarkən bəhs etmişik. Bu əlaqə haqqında V.Vinoqradov yazırdı: "Tarixi-dialektoloji araşdırmasız nə rus dilinin xalq əsası haqda məsələnin, nə onun canlı xalq şivələrilə bağlı olan müxtəlif üslublarının formalaşması və tarixi haqqında məsələni, nə rus ədəbi dilinin tarixi fonetikası, tarixi qrammatikası və tarixi leksikologiyasının çoxsaylı, rəngarəng və qeyri-tipik problemlərini tam şəkildə aydınlaşdırmaq olmaz".[1] Bu fikir bütün dillərə aiddir. Dialektlərin tarixini öyrəndikcə ədəbi dilin mənzərəsi daha aydın, bütöv şəkildə görünür.

Ədəbi dil normalarının müəyyənləşməsində, formalaşmasında dialektlərin əhəmiyyətli rolu tarixi dialektologiya vasitəsilə öyrənilir. Tarixi dialektologiya dialektlərin strukturunu tarixi inkişafda öyrənir. Bu isə bizi dialektlərin bir nöqtədə birləşəcəyi kök dilə-ana dilə yaxınlaşdırır. Dialektoloji araşdırmalar zamanı dilin dialekt bölünməsi, əmələ gələn yeni dialektlər, ya da məhv olan dialekt variantları meydana çıxır. Tarixi dialektologiya dillərin tarixi inkişafını öyrənməklə yanaşı, bəzi ekstralinqvistik faktları, tarixi nəticələri, arxeologiya, etnoqrafiya, ictimai və mədəni tarixi tədqiqata cəlb edir. Rus alimi Serebrennikov tarixi dialektologiyanın 2 mühüm problemini göstərmişdir:

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

1. Kök dil dialektlərinin yayılma areallarının öyrənilməsi.

2. Konkret bir dilin qədim dialekt üzvlənməsinin aşkar edilməsi.

A.Axundova görə, konkret bir dilin tarixi dialektologiyası üçün mühüm problemlərdən biri, müəyyən bir dilin dialektlərə ayrılması ilə ümumxalq dilinin münasibəti məsələsidir.T.Hacıyev göstərirdi ki, dialektlərin tarixini öyrənərkən xalqın etnik tərkibinin öyrənilməsi məsələsi də tarixi dialektologiyanın əsas problemlərindən biridir.

Bütün bu cəhətləri nəzərə alaraq deyə bilərik ki, dialektologiyanın iki növü vardır:

1. Ümumi dialektologiya
2. Xüsusi dialektologiya

Ümumi dialektologiya bütün dünya dillərinin dialektoloji problemlərini öyrənir, xüsusi dialektologiya isə yalnız bir dilin və ya qohum dillərin dialektal xüsusiyyətlərini öyrənir. Elmi ədəbiyyatlarda dialektologiya nəzəri və tətbiqi olaraq iki yerə bölünür. Nəzəri dialektologiya dialektologiyanın nəzəri problemlərini, tədqiqat üsullarını və metodlarını öyrənir. Tətbiqi dialektologiya isə praktik tədqiqat məsələlərini öyrənir: burada orfoepik, orfoqrafik məsələlər, dialektoloji lüğətlərin tərtibi, atlasların tərtibi və s. məsələlər əks olunur.

Bütün elm sahələrində olduğu kimi, tarixi dialektologiyanın bir sıra mühüm vəzifələri vardır:

1. dilin dialekt üzvlənməsinin xarakterini aşkar etmək;

2. dialekt əlamətlərinin etnolinqvistik əsasını müəyyən etmək;

3. dialekt sistemlərinin qarşılıqlı əlaqəsinin tarixini aydınlaşdırmaq;

4. innovasiyaların yaranması və inkişafını öyrənmək və s.

Dil daim inkişafda olduğu üçün dialektlər də inkişaf edir, yeni keyfiyyətlər yaranır. Dialektlərdə mövcud olan oxşarlıqlar innovasiyalar adlanır. İnnovasiyalar 2 yerə bölünür:

1. mühüm;
2. qeyri-mühüm.

Mühüm innovasiyalar yalnız bir dildə və ya bir dil ailəsində mövcud olur. Məsələn; dialektlərdə ahəng qanunu kimi.

Qeyri-mühüm innovasiyalar isə bir çox dillərdə yayılır. Dillərin qohumluq dərəcəsi müəyyən edilərkən yalnız mühüm innovasiyalar nəzərə alınmalıdır.

Dialektlərin tarixi istiqamətdə öyrənilməsi 2 yolla aparılır:

1. həqiqi tarixi üsul- qədim yazılı abidələr əsasında;
2. müqayisəli- tarixi üsul- yazılı abidələr olmadan.

Deməli, yazılı abidələr və müasir şivələr tarixi dialektologiya üçün əsas mənbədir. Dilçilik coğrafiyası, onomastika, etnik tarix, folklor və s.

Tarixi dillərin materialları tarixi dialektologiya üçün mənbə ola bilər. Yazılı abidələrdə müəyyən qədər yazıldığı

dövrün dialekt əlamətləri saxlanılır. Lakin ədəbi dil normaları dəyişkən olduğu üçün həmin dialektlərin də bəzisinin xarakteri dəyişə bilir. Ola bilər ki, hər hansı bir dövrdə dialektoloji qəbul edilən vahid başqa bir dövrdə ədəbi dil vahidinə çevrilə bilər və ya əksinə. Çünki arxaikləşmə və özləşmə kimi proseslər ədəbi dildə mövcuddur.

1.3. Dil və dialektlər. Dialektologiyanın qarşısında duran vəzifələr

Ədəbi dilin inkişafında müxtəlif dövrlərdə müxtəlif dialektlər ədəbi dilin əsasında dayanmışlar. Məsələn, XIII-XIVəsrlərdə Şirvan dialekti, XV-XVII əsrlər -də Təbriz dialekti, XVIII əsrdə Qarabağ, XIX-XX əsrlərdə isə bütün dialekt nümunələrini özündə əks etdirən Bakı dialekti Azərbaycan ədəbi dilinin əsasında dayanmışdır. Tofiq Hacıyev bu xüsusda yazır: "Azərbaycan ədəbi dili XIX əsrə qədər cənub dialektinə, XIX əsrdən sonra isə ədəbi dil normalarına söykənmişdir. Yazılı ədəbiyyatda elə sözlərlə qarşılaşırıq ki, onları intuativ olaraq dialekt söz adlandırırlar. Məsələn, surfa- süfrə və s."

Folklor nümunələri, xalq yaradıcılığı dialektal xüsusiyyətləri daha çox özündə saxlayır, lakin daha az tədqiq edilmişdir. Folklor nümunələrində bəzi intonasiya, ritm, qafiyə xatirinə dil vahidlərinin arxaik formalarından istifadə olunur.

Azərbaycan dilinin tarixi dialektologiyasının yaradılması fikri ilk dəfə türk dillərinin dialektologiyası məsələləri üzrə III məhəlli müşavirədə irəli sürülmüşdür. Cahangirov bu müşavirədə demişdir ki, ğlkəmizdə dialektologiyanın bu sahəsi ilə hələ heç kim məşğul olmamışdır. Halbuki klassiklərimizin əsərlərində dialekt və şivələrə aid zəngin material vardır. Onların aydınlaşdırılmasından mükəmməl dil, tarixi dialektologiya yarana bilər.

1.4. Dialektologiyanın mövzusu, əsas anlayışları və vəzifələri

Dialektologiya dilçilikdə bu və ya digər bir dilin dialektlərini (ləhcələrini, şivələrini) öyrənən bölmədir. Bu fənnin tədrisində əsas məqsəd tələbələri dialektologiyanın ümumi məsələləri və Azərbaycan dili dialektlərinin fonetik, qrammatik və leksik xüsusiyyətləri ilə tanış etməkdir.

Dialekt anlayışı altında dilçilikdə dilin məhdud ərazidə işlədilən növü nəzərdə tutulur. Dialekt bütün dilə xas olan əlamətlərlə yanaşı, eyni zamanda özünəməxsus xüsusiyyətləri ilə səciyyələnir. **Dialektlər məhəlli** və **sosial olmaqla** fərqlənir. Məhəlli dialekt dil mövcudluğunun ərazicə məhdud formasıdır. Məhəlli dialektin spesifik fonetik, qrammatik və leksik xüsusiyyətləri olur. Bunlar ümumxalq dilinin qrammatik quruluşuna və əsas lüğət fonduna uyğun olur, bəzən də ondan fərqlənir. Məhəlli dialekt fərqlərinin əmələ gəlməsi müəyyən səbəblərlə bağlı olur. Ünsiyyətdə müəyyən hədlərin olması (fiziki-coğrafi

amil, inzibati bölgü, ətraf ərazini birləşdirən mərkəzlər), özgə dil mühiti, substrat təsir və s. dialekt fərqlərinin əmələ gəlməsinə şərait yaradır. Dialekt fərqlərinin yaranmasında ərazi amili aparıcı olur.

Sosial dialekt dedikdə, əhalinin müəyyən ictimai və peşə qruplarının nitqi nəzərdə tutulur. Dildə yaşa, cinsə, təhsilə, peşəyə və ictimai mənşəyə görə nitq fərqləri ola bilər. Sosial dialektlər məhəlli dialektlərdən fərqlənir. Əgər məhəlli dialektlər bır-birindən dilin müxtəlıf səviyyələrinə xas olan faktlarla fərqlənırsə, sosial dialektlər yalnız lüğəvi xüsusiyyətləri-sözləri, bəzi frazeoloji birləşmələri, xüsusi terminologiyası ilə səciyyələnir. Peşə dilləri, jarqon və arqo dilin sosial variantlarıdır.

Dialektologiyanın əsas anlayışları və terminləri bunlardır: şivə, şivələr qrupu, ləhcə, dialekt, keçid (aralıq) şivə, qarışıq şivə və izoqloss.

Şivə dilin dialekt bölünməsinin ən kiçik vahididir. O, bir və ya bir neçə yaşayış məntəqəsi sakinlərinin nitqində meydana çıxır. Əsas dil xüsusiyyətləri yaxın və ümumi olan bir neçə şivə şivələr qrupunu əmələ gətirir. Ləhcə dilin dialekt bölünməsinin ən böyük vahididir. Dilin tərkib hissəsi kimi çıxış edən ləhcə bir neçə şivələr qrupunun məcmusudur. Dialekt termini məhdud ərazidə işlədilən ünsiyyət formasının adıdır. Bu termin yerinə görə şivə, şivələr qrupu və ləhcə mənalarında işlədilir. **Keçid şivə** termin kimi həm eyni bir dilin ərazi cəhətdən əlaqədə olan iki dialektinin sərhəd zonasındakı şivələrə, həm də iki

qohum dilin sərhədində yerləşmiş şivələrə aid edilir. **Qarışıq şivə** qohum dilin sərhədində yerləşmiş şivələrə və bir dilin təkcə ərazi cəhətdən əlaqədə olan şivələrinin deyil, eyni zamanda ərazi cəhətdən əlaqədə olmayan şivələrinin təsirinə məruz qalmış şivələrə deyilir. Azərbaycan dilinin şimal-qərb şivələri (Şəki, Oğuz, Qax, Zaqatala, Balakən) qarışıq xarakterlidir. Eyni dilin ərazi cəhətdən əlaqədə olan iki dialektinin aralıq zonasında yerləşmiş şivələrini isə **aralıq şivə** adlandırmaq daha doğrudur. Respublikamızın Ağdaş, Göyçay, Ucar, Zərdab, Cəlilabad, Cəbrayıl və Qubadlı rayonlarının ərazisində keçid (aralıq) xarakterli şivələr yerləşir.

İzoqloss (yunanca «eyni dil» deməkdir) - coğrafı xəritədə bu və ya digər dil hadisəsinin yayılma sərhədini göstərən xətdir. Müasir dialektologiyada izoqloss termini müxtəlif dialektlərin eyni dil xüsusiyyəti mənasında da işlədilir.

Dialektologiya, birinci növbədə, dil tarixinin öyrənilməsi üçün əhəmiyyətlidir. Dialektlər dil tarixinin canlı arxivi hesab olunur. Dialektləri öyrənmədən mükəmməl dil tarixi kursu yaratmaq mümkün deyil, çünki vaxtilə dilin tarixində işlənmiş bir çox xüsusiyyətlər (səslər, şəkilçilər, sözlər) müasir ədəbi dildə saxlanmadığı halda, şivələrdə mühafizə olunur. Dilin tarixində fonetik və morfoloji sistemlərdə baş vermiş bəzi dəyişmələrin inkişafını izləmək baxımından da dialektologiyanın nəticələri əhəmiyyətlidir. Məsələn, qədim türkcədəki **ini**

"kiçik qardaş" sözü ədəbi dildə arxaikləşsə də, şivələrdə (Şəki, Qax, Balakən, Zaqatala) “qayın” mənasında mühafizə olunmuşdur.

Dialekt faktları etnik tarixin öyrənilməsində əsas mənbələrdən sayılır. Şivələrimizdə oğuz, qıpçaq və uyğur mənşəli xüsusiyyətlər tarixən həmin ərazilərdə eyni türk tayfalarının məskunlaşmasını bir daha təsdiqləyir.

Dialektologiya Azərbaycan dilinin tədrisi baxımından da əhəmiyyətlidir. Orta məktəblərdə Azərbaycan dili və ədəbiyyatı fənlərinin tədrisində əsas məqsəd şagirdlərə orfoqrafik və orfoepik normaları öyrətmək, onların şifahi nitq mədəniyyətini inkişaf etdirməkdir. Filoloq müəllimlər şagirdlərin yaradıcı yazılarında və nitqindəki dialekt xüsusiyyətlərini müəyyən edib, onlara izah etməlidirlər. Bədii ədəbiyyatın tam başa düşülməsi baxımından dialektologi- yanın əhəmiyyəti böyükdür.

Bədii əsərlərdə işlənən dialekt sözlərinə **dialektizm** deyilir. Şair və yazıçılar yerli məişəti təsvir edərkən, surətlərin nitqini fərdiləşdirərkən dialektizmlərdən istifadə edirlər. Dialektizmlər müxtəlif formalarda təzahür edir:

1) Fonetik dialektizmlər (qarğundey//qarğıdalı),

2) Morfoloji dialektizmlər (gedıbəni-gedıbənnəri),

3) Leksik dialektizmlər (gülbəsər «xiyar»),

4) Semantik dialektızmlər (ərik «yabanı alça» Quba şivəsində).

Dialektologiya etnik tarix, etnoqrafiya və folklorşünaslıq elmləri ilə əlaqəli şəkildə inkişaf edir.

Dillər öz tarixi inkişafında bir neçə mərhələdən keçir: tayfa dilləri, xalq dilləri, milli dillər. Dilin inkişafının ilkin mərhələsində dil və dialekt bir-birindən fərqlənmir. Tayfa dili öz ictimai vəzifəsini yalnız bir tayfanın dialekti kimi yerinə yetirir. Cəmiyyətin inkişafının müəyyən mərhələsində müxtəlif tayfa dilləri əsasında xalq dili formalaşır. Xalq dilinin yayıldığı ərazidə feodal dağınıqlığının mövcud olması dilin məhəlli növü üçün şərait yaradır. Konkret faktlar əsasında müəyyən olunmuşdur ki, müasir dialektlərin sərhədləri çox hallarda, orta əsr feodal əraziləri ilə üst-üstə düşür. Deməli, məhəlli dialektlər feodal dağınıqlığı dövründə yaranır; lakin bəzi tayfa dilləri xalq dilinin tərkibində öz inkişafını davam etdirir.

Dilçilik ədəbiyyatında dialektlərin əmələ gəlməsinin iki əsas yolu göstərilir:

I. Eynimənşəli tayfa dilləri vahid xalq dili yarandıqdan sonra öz müstəqilliyini itirir, inkişafını eyni bir dilin müxtəlif şivələri kimi davam etdirir;

II. Vahid xalq dili müxtəlif dilxarici amillərin təsiri ilə öz müstəqilliyini itirir və müxtəlif şivələrə bölünür. Azərbaycan dilinin dialekt sistemi vahid bir dilin bölünməsi yolu ilə deyil, əsasən, bu və ya digər tayfa dili elementlərinin müəyyən coğrafı şəraitdə saxlanması yolu ilə yaranmışdır.

Dialektologiyanın iki mühüm vəzifəsi var:

1. Müxtəlif şivələrin sistemli təsviri;

2. Dil hadisələrinin məhəlli cəhətdən yayılmasının müəyyənləşdirilməsi.

Bu vəzifələr təsviri dialektologiya və dilçilik coğrafiyası metodları ilə yerinə yetirilir. Dialektoloji ədəbiyyatda təsviri dialektologiya metodu daha çox "monoqrafık tədqiqat" adı ilə məşhurdur. Monoqrafik təsvir konkret bir şivə və ya yekcins şivələr qrupu üzərində aparıla bilər.

Azərbaycan dili şivələrinin tədqiqi 1956-cı ildə çap olunmuş "Azərbaycan dili şivələrinin monoqrafık tədqiqinə dair proqram" əsasında aparılmışdır. Proqramda şıvələrin fonetik, qrammatik, leksik xüsusiyyətləri öz əksini tapmışdır. Dialektlərin təsviri metodla öyrənilməsində dilçinin müstəqil müşahidəsinə, anket üsuluna və başqasının qeydlərinə əsaslanmaq olar. Bunların içərisində ən səmərəlisi dilçinin müstəqil müşahidə üsuludur. Müstəqil müşahidə aparmaqla şivələrin təsviri həm fərdi, həm də ekspedisiya yolu ilə həyata keçirilə bilər. Dialektoloji mətnlərdə fonetik transkripsiyaya riayət edilməli, materiallar sənədləşdirilməlidir.

Dialekt fərqləri müxtəlif xarakterli olur. Dilçilik ədəbiyyatında onların iki növü göstərilir: qarşıyaqoyulan və qarşıyaqoyulmayan fərqlər. Qarşıyaqoyulan fərqlər dedikdə, iki müxtəlif dialektdə qarşılıqlı olaraq bir-birini istisna edən faktlar nəzərdə tutulur. Məsələn, ədəbi dildə və qərb ləhcəsində (Qazax, Gəncə, Qarabağ və s.) sözün birinci hecasında işlənən a saitinə (qayış, qayçı), Naxçıvan qrupu şivələrində ə saiti (qəyiş, qəyçi), Bakı şivəsində e saiti (qeyiş, qeyçi) uyğun gəlir. Qarşıya qoyulmayan fərqlər daha

çox leksikada bir və ya bir neçə şivədə müşahidə edilir. Məsələn, *dəzgə* sözü Quba şivəsində "pusqu" mənasında, *səmrə* sözü isə Qax və Zaqatala şivələrində "duman" mənasında işlənməkdədir.

Müasir dilçilikdə geniş şəkildə istifadə olunan metodlardan biri dilçilik coğrafiyasıdır. Dilçilik coğrafiyasının əsas vəzifəsi dil hadisələrinin məkanca yerləşməsini və bu yerləşmədən irəli gələn problemləri həll etməkdir. Bu metodun vasitəsilə dil hadisələrinin (səslər, qrammatik formalar, sözlər) coğrafi cəhətdən yayılması və onların sərhədləri xəritələrlə müəyyənləşdirilir. Dilçilik coğrafiyasının üstünlüklərindən biri əyanilikdir, xəritə müəyyən bir dil hadisəsinin yerini və sərhədlərini aydın şəkildə göstərir. Metodun əsas məqsədi dilin inkişaf yollarının və qanunauyğunluqlarının izahını vermək, bu və ya digər xüsusiyyətlərin nə üçün ərazidə əmələ gəlməsini və saxlanmasını şərh etmək, tarixin, etnoqrafiyanın və fiziki coğrafiyanın faktlarını tədqiqata cəlb etməklə müəyyən ərazidə dilin inkişafının bütöv mənzərəsini vermək, konkret dialektin meydana çıxmasının və mövcud olmasının səbəblərini, eləcə də milli dilin yayıldığı ərazidə dialektlərin qarşılıqlı münasibətini aydınlaşdırmaqdır.

Dialektlərin dilçilik coğrafiyası metodu ilə öyrənilməsi dialektoloji atlasın tərtibi ilə başlanır. Bu proses üç əsas mərhələdən keçir:

I. Dil materialının toplanması və xəritə üçün işlənib hazırlanması;

II. Dil hadisələrinin xəritələrə köçürülməsi;

III. Xəritələrin şərhi.

“Azərbaycan dilinin dialektoloji atlası” 1990-cı ildə çap olunmuş və 128 xəritədən ibarətdir. Atlasda 409 yaşayış məntəqəsindən toplanmış materialdan istifadə olunmuş xəritələrdən 43-ü fonetikaya, 31-i morfologiyaya, 4-ü sintaksisə, 50-si leksikaya həsr edilmişdir.



Dialektoloji atlasda şivələrin ədəbi dilə uyğun xüsusiyyətləri qara dairələrlə dialekt fərqləri isə qırmızı, göy, yaşıl dairə və üçbucaqlarla verilmişdir ki, bu da ədəbi dillə dialektlərin münasibətini aydın şəkildə göstərir.

Tarixi dialektologiya dialektləri tarixi baxımdan öyrənən yeni dilçilik sahəsidir. Tarixi dialektologiya dilin ümumi sistemindəki başlıca dialekt fərqlərinin əmələ gəlməsini və inkişafını, dialekt əlamətlərinin etnik mənsubiyyətini, dialekt sisteminin qarşılıqlı təsir tarixini və innovasiyaları öyrənməli, dilin dialekt bölünməsinin

xarakterini aşkar etməlidir. Yazılı abidələr və müasir şivələr tarixi dialektologiyanın əsas mənbələridir. Bunlarla yanaşı, dilçilik coğrafiyası, onomastika, etnik tarix və folklor da tarixi dialektologiya üçün mənbə sayılır.

1.5. Azərbaycan dialektologiyasının tarixindən

Azərbaycan dili şivələri haqqında ilk məlumata M.Kazımbəyin "Türk-tatar dilinin qrammatikası" kitabında təsadüf edilir. M.Kazımbəy Azərbaycan dili feillərindən danışarkən Dərbənd şivəsində işlənən indiki zaman formasına aid nümunə vermişdir: sevedem, sevesen, sevedi, sevedik, sevesiz, sevedilər. Bundan sonra K. Foyun 1903 və 1904-cü illərdə Berlində çap olunmuş "Cənub türkcəsinin səciyyəsinə dair Azərbaycan etüdləri" adlı iki məqaləsində Təbriz, Urmiya, qismən də Ərzurum şivələrinin xüsusiyyətlərini araşdırmışdır.

Azərbaycan dili şivələrinin sistemli şəkildə öyrənilməsinə XX əsrin əvvəllərindən başlanmışdır. Bu dövrdə N. İ. Aşmarinin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Onun rəhbərliyi ilə 1930-31-ci illərdə "Azərbaycan-türk xalq şivələri lüğəti"nin I cildinin birinci (A hərfi) və ikinci buraxılışı (B hərfi) çap olunmuşdur. 1926-cı ildə N.Aşmarinin "Nuxa şəhəri türk xalq şivələrinin ümumi xülasəsi" əsəri çap olunur ki, bu, Azərbaycan dili şivələrinə dair ilk monoqrafik tədqiqatdır. Həmin il İ.Həsənovun "Gəncə şivəsində mənsubiyyət şəkilçisiz isimlərin hallanması" adlı kitabı da nəşr olunur. İ.Həsənov 1928-ci

ildə Qazax şivəsinə dair material toplamış, həmin şivənin fonetik xüsusiyyətlərini araşdırmış "Azərbaycan-türk dilində ləhcələr haqqında" (1935) əsər yazmışdır.

1933-cü ildə Parisdə C.Hacıbəylinin "Qarabağ dialekti və fokloru" kitabı çap olunur. Həmin illərdə S.Talıbxanbəylinin, "Azərbaycan yurd bilgisi" məcmuəsində (sayı: 13, 14, 17, 19-20) "Qarabağ-İstanbul şivələrinin sövtiyyat cəhətdən müqayisəsi" məqaləsi nəşr edilir. SSRİ Elmlər Akademıyasının Azərbaycan filialının ekspedisiyası 1933-cü ildə Şamaxı, 1934-cü ildə Quba, 1935-ci ildə Zaqatala-Qax şivələrini tədqiq edir. Ə.Babazadə üçcildlik "Ayrım dialekti monoqrafıyasını yazır" (1941).

Azərbaycan dialektologiyasının inkişafının bütöv bir mərhələsi M. Şirəliyevin adı ilə bağlıdır. O, 1938-40-cı illərdə "Bakı dialekti" adlı əsərini yazmışdır. Görkəmli dialektoloqun Azərbaycan xalq şivələrini öyrənmək sahəsindəki fəaliyyəti onun "Azərbaycan dialektologiyası" (1962, 1968) adlı dərs vəsaitində ümumiləşdirilmişdir.

XX yüzilliyin 40-cı illərindən Azərbaycan dili şivələri kollektiv və fərdi yolla öyrənilməyə başlayır. AMEA-nın dialektoloqları 1946-49-cu illərdə Muğan qrupu şivələrini, 1950-55-ci illərdə Naxçıvan şivələrini, 1956-58-ci illərdə qərb ləhcəsini (Qazax, Ağstafa, Tovuz, Borçalı) ekspedisiya yolu ilə öyrənmişlər. Monoqrafiik tədqiqatda fərdi yoldan da geniş ıstifadə olunmuşdur. Bakı (M.Şirəliyev), Quba (R.Rüstəmov), Şəki (M.İslamov),

Tovuz (H.Cəfərov), Ağdam (P.Ağayev), Füzuli (İ.Məmmədov) və s. şivələr fərdi yolla tədqiq olunmuşdur.

Azərbaycan dialektologiyasında problemlər üzrə ümumiləşdirici araşdırmalar da aparılmışdır. Bu cəhətdən R.Rüstəmovun feilə, A.Vəliyevin keçid şivələrə, M.İslamovun əvəzliyə, M. Cəfərzadənin dialekt sintaksisinə, E.Əzizovun ahəng qanunu və tarixi dialektologiyaya, B.Əhmədovun söz yaradıcılığına, M.Məmmədlinin ismin qrammatik kateqoriyalarına həsr olunmuş tədqiqatları Azərbaycan dilçiliyini daha da zənginləşdirmişdir.

XX yüzilliyin ortalarından başlayaraq dialektoloji tədqiqatlar 3 istiqamətdə aparılır:

1) Şivələrin monoqrafik öyrənilməsi;

2) Dialektoloji atlas üzərində iş;

3) Dialektoloji lüğətin tərtibi. Şivələrin monoqrafik tədqiqi uğurla davam etdirilir.

Son dövrlərdə Lerik (G.Binnətova), Yardımlı (Ş.Məmmədov), Qubadlı (R. Abbasova) şivələri fərdi yolla araşdırılmışdır.

Azərbaycan dilinin respublikamızdan xaricdə olan şivələri də zaman-zaman tədqiqat obyekti olmuşdur. Dilimizin Kərkük (Q.Paşayev), Çənbərək və Karvansaray (Ş.Kərimov), Təbriz (M.Məmmədov), Böyük Qarakilsə (Q.Bağırov), Mehri (Ə.Əliyev), Zəngibasar (F.Babayev), Basarkeçər (Z.Vəliyev) şivələri tədqiq edilmişdir. Dərbənd şivəsi və İraq-türkman ləhcəsi Dilçilik İnstitutunun dialektoloqları tərəfindən geniş şəkildə araşdırılmışdır.

XX yüzilliyin sonlarından başlayaraq dialektlərın tarixi istiqamətdə tədqiqi genişlənir. Türkologiyada ilk dəfə E.Əzizovun tədqiqatları ilə Azərbaycan dilinin tarixi dialektologiyası müstəqil dilçilik sahəsi kimi təşəkkül tapmışdır. Dialektlərin tarixi inkişafı Ə. Tanrıverdiyevin ("Kitabi-Dədə Qorqud və qərb ləhcəsi"), Q.Məmmədovanın ("Nəsiminin dili və Azərbaycan dili şivələri"), dialektlərlə ədəbi dilin əlaqəsi N.Qazıyevanın ("Azərbaycan ədəbi dili normalarının formalaşmasında dialektlərin rolu") və başqalarının tədqiqatlarında öz əksini tapmışdır.

Qarabağ dialekti həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Həmin ərazidə yerləşən şivələr fərdi və monoqrafik yolla öyrənilmişdir. C.Hacıbəylinin "Qarabağ dialekti və folkloru" (Qafqaz Azərbaycanı) əsəri 1933-cü ildə Fransada çap olunmuş, bu əraziyə aid yazılmış ilk əsərlərdən biridir.

S.Talıbxanbəylinin Türkiyədə "Azərbaycan yurd bilgisi" məcmuəsində 1933-cü ildə nəşr olunmuş silsilə məqalələrində Qarabağ və İstanbul şivələri qarşılaş-dırılmışdır.

Qarabağ bölgəsinə daxil olan Füzuli (İ.Məmmədov), Ağcabədi (İ.Quliyev), Ağdam (P.Ağayev), Cəbrayıl (T.Hacıyev) şivələri namizədlik dissertasiyası səviyyəsində araşdırılmışdır.

Dialektlərin lüğət tərkibinin öyrənilməsi sahəsində də mühüm nailiyyətlər əldə olunmuşdur. Dialekt leksikası ilə bağlı B.Əhmədov, Z.Xasiyev, G.Vəliyeva, K.Quliyeva,

T.Qarayev, Ə.Tahirzadə, İ.Bayramov və başqalarının tədqiqatları vardır.

Dialektlərin lüğətlərinin tərtibinə keçən yüzilliyin əvvəllərindən başlanmışdır.

Görkəmli türkoloq N.İ.Aşmarinin rəhbərliyi ilə toplanmış materiallar əsasında "Azərbaycan türk xalq şivələri lüğəti"nin 1-ci cildi (A hərfi) 1930-cu ildə, 2-ci cildi (B hərfı) 1931-ci ildə çap olunmuşdur. Bu lüğət N.Aşmarin, Ə.Haqverdiyev, A.Zifeld, V.Xuluflu, B.Çoban- zadə və İ.Həsənov tərəfindən çapa hazırlanmışdır.

Tərtibçilər, mümkün olduğu qədər, bütün şivələri əhatə etməyə çalışırdılar. Lüğətdəki nümunələr Azərbaycan, Gürcüstan, Dağıstan və İran ərazilərindəki şivələri əhatə edir. Sözlər latın və ərəb əlifbasında verilmiş, ayrı-ayrı şivələrdəki tələffuz şəkilləri də göstərilmişdir. Sözlərin mənaları Azərbaycan, rus və alman dillərində, cümlə nümunələri latın əlifbası ilə Azərbaycan dilindədir. Yeri gəldikcə, izahlarda atalar sözləri və məsələlər, bayatı, tapmaca, xalq mahnıları, el şairlərinin yaradıcılığından və "Molla Nəsrəddin" jurnalının materiallarından da istifadə olunmuşdur. Lüğətdə sözlərin tematik qruplar cəmlənmişdir; rənginə, cinsinə və yerişinə görə 90 at adı (kəmər, qurdboz, pərəqulaq, yezidi, dəmirboz, donuz boyun, doyşan bud, sokkur, topuq vuran, xaldar və s.), alçanın 10 adı (donbıl, fındıq, kəzvin, lal, lavaşana, paraxodu, peyvənd, turş), almanın 17 adı (anton, bal, bizoyburnu, candəri, cibir, cırhacı, çakkal, kalvin, karpız, qızıləhmədi, molla, muşq,

qəpəqil və s.), bəzi sözlərin məcazi mənaları (“arpa-buğda-oğlan-qız”; “anrı-bəri- xırdavat və s.) üç dildə nümunələrlə izah olunmuşdur.

“Azərbaycan dilinin dialektoloji lüğəti”nin 1964-cü ildə nəşr olunmuş nüsxəsi 6.300 sözü əhatə edir. Lüğətdəki sözlər respublikamızdan əlavə, İran, Dağıstan, Gürcüstan və Qərbi Azərbaycan bölgələrindən toplanmışdır. Baş sözlər tələffuz formalarında verilmiş, işləndiyi şivələr ixtisarla qeyd edilmişdir. Sözlərin semantik qrupları xüsusi işarə ilə göstərilmişdir. Hər sözün arealı müəyyənləşdirilmiş, mənaları Azərbaycan və rus dillərində verilmişdir.

“Azərbaycan dilinin dialektoloji lüğəti” 1999-cu ildə Ankarada Türk Dil Qurumu tərəfindən çap olunmuşdur. Lüğət 2 cilddən ibarət olub, 20 min sözü əhatə edir. Lüğətdə Azərbaycan ədəbi dilində işlənməyən, şivələrdə işlənən, fonetik tərkibcə ədəbi dildəki ilə eyni, mənaca ya tam fərqli, ya da əlavə mənası olan sözlər öz əksini tapmışdır. Çoxmənalı və omonim sözlərin işləndiyi şivələr xüsusi qeyd oıunmuş, əksər sözlərin mənaları cümlələrlə izah edilmişdir. Məsələn, lüğətdə “xır” sözünün müxtəlif şivələrdə 8 məna (çəltik ləki, tamam, çınqıl, paxıl, vint, bostan ləki, xırda) ifadə etməsi konkret nümunələrə əsaslandırılaraq izah edilmişdir.

2007-ci ildə dialektoloji lüğət təkmilləşmiş şəkildə Bakıda çap olunmuşdur. Bu lügət əvvəl çap olunmuş lüğətlərdən söz ehtiyatının zənginliyi ilə fərqlənir; çin

sözünün 6 mənası göstərilir (düz, qoyunun dizi ilə topuğu arasındakı sümük, sıra, xalça üçün əyrilmiş ip, oraq, kərə).

Dialektoloji lüğətin 1964-cü il nəşrində həmin sözün bir mənası, 1999-cu il Ankara nəşrində 4 mənası qeyd olunmuşdur. "Bir" sözünün vasitəsilə yaranmış 30-a yaxın birləşmə verilmişdir: bir burum, bir çala, bir çilo "dəfə" bir çini "on qəpik", bir dilimə "birbaşa", bır qırnıx "bir az" və s.

Lüğətdə şivələrin qədim türk leksik qatı da toplanmışdır. Ədəbi dildə arxaikləşən, şivələrdə işləkliyini saxlayan qədim türk sözləri söz yaradıcılığında da fəal iştirak edir. Məsələn, güz "payız" sözündən güzdex′ "payız otu", güzdəx′ "payızda qoyun, quzu saxlanan yer, yaz otu, payız yunu, payızda yetişən xiyar", güzdüx′ "payızlıq taxıl", güzəm "payızda qırxılan yun" güzü "payızlıq şum" və s. sözlər əmələ gəlmişdir.

2003-cü ildə S. Behbudovun "Azərbaycan dili şivələrinin omonimlər lüğəti" və 2011-ci ildə "Frazeoloji lüğət (dialekt materialları əsasında)" çap olunmuşdur.

Azərbaycan dialektologiyasının ən mühüm naliyyətlərindən biri dialektoloji atlasın tərtibidir. Atlas üzərində iş 1958-ci ildə başlanmış, 1975-cı ildə başa çatmışdır. 128 xəritədən ibarət "Azərbaycan dilinin dialektoloji atlası" 1990-ci ildə nəşr olunmuşdur. Atlasın tərtibi üçün 1958-ci ildə "Azərbaycan dilinin dialektoloji atlasının tərtibi üçün toplanan materialların proqramı" (tərtibçilər M.Şirəliyev və R.Rüstəmov) hazırlandı və çap

edildi. Proqramda dilçiliyin fonetika, qrammatika və leksika bölmələrinə aid 197 izoqloss müəyyən olundu. Dilçiliyin bu sahəsi ilə bağlı türkologiyada təcrübə olmadığından dialektoloqlar ən çox tədqiq edilən şimal-şərq ləhcəsinin atlasını hazırladılar. 1965-ci ildə tamamlanmış bu atlas 50 xəritədən ibarətdir (tərtibçiləri M. İslamov, T. Həmzəyev, R. Kərimov). Ümumi atlasın hazırlanması üçün Azərbaycan Respublikasının 500-dən artıq yaşayış məntəqəsindən material toplanmışdır. Hər rayonun dörd coğrafı cəhəti (şimal, cənub, şərq, qərb) nəzərə alınmaqla 7-12 kəndi material üçün obyekt seçilmişdir. Lakin texniki səbəblərə görə, atlasda 409 yaşayış məntəqəsinin materialından istifadə olunmuşdur. Dil faktları xəritələrə müəyyən qanunauyğunluq əsasında köçürülmüş, bütün xəritələrdə ədəbi dil norması qara rəngli dairəciklə, dialekt fərqləri qırmızı, göy, yaşıl, sarı dairə və üçbucaqla işarələnmişdir. Atlasın bəzi xəritələrində izoqlossun mövcud olmadığı məntəqələrin yeri boş buraxılmışdır. Dialekt faktlarının aydın və dəqiq olmasın göstərmək üçün atlasa material toplanmış rayon, kənd və qəsəbələrin adları, illəri, suallara cavab verən şəxslər və materialı toplayan alimlərin siyahısı, yaşayış məntəqələrinin xəritələrdəki nömrələri, proqram, siyasi-inzibati və fiziki xəritə, açar-xəritə əlavə olunmuşdur.

Müasir dövrdə dialektoloji tədqiqatların sistemli şəkildə aparılması da dilimizin tarixinə diqqətin artırılmasının əsas göstəricilərindəndir. Son dövrdə

Azərbycan dilçiliyində dialektologiyanın tədqiqi istiqamətində aşağıdakı əsərləri qeyd etmək vacibdir.

Ağamusa Axundov, Q.Kazımov, Q.Paşayev, M.Mahmudov, S.Behbudov tərəfindən "İraq-Türkman ləhcəsi" əsəri (Bakı: Elm. 2004. 422 səh.) nəşr edilmişdir. Həmin monoqrafiyada İraq ərazisində yaşayan soydaşlarımızın şivə xüsusiyyətləri tədqiq edilmişdir. Kitabda İraq-türkman ləhcəsinin fonetik, leksik, qrammatik cəhətləri, leksik sistemi tədqiq olunmuşdur.

Roza Abbasovanın "Azərbaycan dilinin Qubadlı şivələri" (Bakı: Çinar-Çap. 2006. 204 səh.) kitabında dilimizin Qubadlı şivələrinin fonetik, leksik və qrammatik cəhətləri tədqiqata cəlb edilmiş, səciyyəvi cəhətlər qədim yazılı mətnlərlə, qohum türk dilləri ilə, dilimizin digər şivələri ilə müqayisəli şəkildə araşdırılmış. Oxşar və fərqli xüsusiyyətlər aşkar edilmişdir.

Güntəkin Binnətovanın "Azərbaycan dilinin Lerik rayonu şivələri" (Bakı: Nurlan. Bakı, 2007 176 səh.) kitabında isə dilimizin Lerik rayonu şivələri sistemli şəkildə araşdırılmışdır. Lerik şivələrinin Azərbaycan dili çivələri içərisində yeri, digər şivələrlə, eyni zamanda ədəbi dillə oxşar və fərqli cəhətləri müəyyənləşdirilmişdir. Dilimizin şivələrinin ayrı-ayrılıqda tədqiqi ümumilikdə dilimizin tarixi inkişafı bir daha izləmək baxımından olduqca əhəmiyyətlidir.

A.Axundovun, Q.Kazımovun, M.Mahmudovun, A.Behbudovun "Azərbaycan dilinin Dərbənd dialekti"

(Bakı: Elm. 2009. 448 səh.) əsərində Dərbənd dialektinin fonetik, leksik, qrammatik cəhətləri təqdim edilmiş, bunlar qədim yazılarımızın dili ilə, digər dialekt və şivələrin dil xüsusiyyətləri ilə müqayisəli şəkildə təhlilə cəlb edilmişdir.

Həmin monoqrafiyada İraq ərazisində yaşayan soydaşlarımızın şivə xüsusiyyətləri tədqiq edilmişdir. Kitabda İraq-türkman ləhcəsinin fonetik, leksik, qrammatik cəhətləri, leksik sistemi tədqiq olunmuşdur.

İlahə Qurbanovanın "Azərbaycan dili dialekt və şivələrinin etnolinqvistik təhlili" (Bakı: Bilik, 2014 240 səh.) adlı monoqrafiyası müasir dilçiliyin ən aktual və problematik məsələlərindən birinə etnolinqvistik araşdırmalara həsr olunmuşdur. Qeyd edə bilərik ki, Azərbavcan dili dialekt və şivələri ilk dəfə hu qədər geniş aspektdə etnolinqvistik tədqiqata cəlb olunmuşdur.

A.Əlizadə, K.Abdulla, İ.Həbibbəyli, T.Kərimli, İ.Hacıyev, N.Cəfərov, Ə.Quliyev, N.Məmmədli "Azərbaycan dilinin Naxçıvan dialektoloji lüğəti"ni (Bakı: 2017. 304 səh.) hazırlamışlar.

"Azərbaycan dilinin Naxçıvan dialektoloji lüğəti" müasir tələblərə cavab verən ilk lüğətlərdən biri kimi, bu şivələrdə işlənən və ədəbi dildən fərlənən leksik, fonetik və qrammatik vahidləri əhatə edir. Lüğətdə beş minə qədər söz və ifadə əks olunmuşdur. Lüğət xalqımızın dilini, digər türk dilləri ilə əlaqələrini, tarixi-coğrafi mövqeyini, söykökünü, Müasir Azərbaycan ədəbi dilinin zənginləşməsində Naxçıvan şivələrinin rolunu müəyyən etmək üçün

əhəmiyyətlidir. Eyni zamanda Türk dillərinin tarixi-etimoloji lüğətlərin hazırlanmasında böyük əhəmiyyət kəsb edir.

Tofiq Hacıyevin "Cəbrayıl şivəsi" əsəri (Bakı: Elm: Elm. 2018. 408 səh.) müəllifin "Azərbaycan dilinin Cəbrayıl şivəsi" mövzusunda müdafiə etdiyi dissertasiyanı əhatə edir. Həmin dissertasiyada tədqiqatçı alim ilk dəfə olaraq, Azərbaycan dialektologiyasına "keçid şivəsi" terminini gətirmiş, ifadənin anlamını izah etmiş, Cəbrayıl şivəsinin keçid xarakterli olduğunu söyləmişdir.

Alimin fikirlərinə görə, qərb və cənub ləhcələrinin sərhədləri Cəbrayıl şivəsində birləşir. Ona görə də Cəbrayıl şivəsində hər iki ləhcənin elementləri özünü göstərir. T.Hacıyevin araşdırmalarından sonra dialektologiyada kiçid şivə termini intensiv olaraq işlənməyə başlanmışdır.

Könül Səmədovanın "Ortaq türkcədə işlənən qıpçaq mənşəli sözlər və və Azərbaycan dilində arealları" ("M.Kağarlı: Divani lüğət-it türk" əsərində qıpçaq mənşəli sözlər. Codeks Kumanikus: folklor nümunələri.Tanrıya dua, atalar sözləri və 47 bilməcə. Bakı. 2019-cu il, 312 səh.) adlı monoqrafiyası işıq üzü görmüşdür. Monoqrafiyada ortaq türkcədə işlədilən qıpçaq mənşəli sözlər, onların müasir qıpçaq dil qrupunda və Azərbaycan ədəbi dililə dialektlərində arealları tədqiq edilmişdir. Lüğətdə həmçinin M.Kağarlının "Divani lüğət-it türk" əsərində verilmiş qıpçaq mənşəli sözlərin izahı təqdim edilmişdir. Qıpçaqların ana kitabı olan "Kodeks Kumani- kus" geniş məlumat və əsərdəki folklor nümunələ rindən 47 tapmaca, Tanrıya dua-

andiçmələr azərbycancaya tərcümə edilərək oxuculara təqdim edilmişdir.

Qüdsiyyə Qəmbərovanın "Azərbaycan dilinin Neftçala rayon şivələri" (Bakı: Savad. 2020. 296 səh.) adlı monoqrafiyası Azərbaycan dilinin Muğan qrupu şivələrinə daxil olan Neftçala rayon şivələrinin səciyyəvi xüsusiyyətlərinin tədqiqinə həsr edilmişdir. Kitab ön söz, giriş, iki fəsil və şivənin dil xüsusiyyətlərinə aid bədii mətnlərdən ibarətdir. Ön sözdə Neftçala rayonunun fiziki və iqtisadi coğrafiyası elmi-publisistik üslubda təqdim olunur. Girişdə Neftçala rayon şivəsinin Azərbaycan dialekt sistemində yeri və tədqiqat tarixindən müfəssəl şəkildə bəhs olunur. I fəsildə Neftçala rayon şivələrinin fonetik, morfoloji, sintaktik və leksik səciyyəviliyini əks etdirən konkret məsələlər işıqlandırılır. II fəsildə rayon şivələrinin, təxminən, 4500 sözdən ibarət lüğəti verilmişdir. Mətnlər bölməsində informatorların söylədiyi şivəyə məxsus spesifik mövzular və səciyyəvi şivə əlamətlərinin əks olunması nəzərə alınmışdır.

Qüdsiyyə Qəmbərovanın "Azərbaycan dili dialekt vəşivələrinin xalq təbabəti leksikası" (Bakı: Elm və təhsil. 2022. 312 səh.) kitabında Azərbaycan və ingilis dillərində dilimizin şivələrinin xalq təbabəti leksikası diaxron metodla, tarixi-müqayisəli tədqiqata cəlb edilmişdir.Əsər ön söz, mövzuya aid elmi araşdır malar, sözlük, ədəbiyyat hissəsi, informatorların siyahı sı və əlavələrdən ibarətdir. Sözlük hissəsində şivələrin xalq təbabət leksikasının izahlı-ikidilli

lüğətində sözlə rin nitq hissələrinə mənsubluğu, ingilis dilində qarşılığı da təqdim edilmişdir.

K.İmamquliyeva, M.Məmmədli, K.Quliyeva, Q.Qəmbərova, S.Şərifova, G.Binnətovanın "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası" (Bakı: Elm və təhsil. 2022) adlı kitab dörd dildə- Azərbaycan, türk, rus, ingilis dillərində tərtib edilmişdir. "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası" kitabında Qarabağ dialekti və Şərqi Zəngəzur şivələrinə aid minə yaxın yaşayış məntəqəsinin altı yüz doxsan ikisi kodlaşdırılmışdır. Atlas-kitabda 278 xəritə, hər bir xəritə haqqında izahlı şərh, atlasın tərtibi zamanı istifdə edilmiş proqram, yaşayış məntəqələrinin və informatorların siyahısı, disk yazıları, əraziyə aid foto-şəkillər, təbiət mənzərələri, erməni vandalizminin nəticəsində uçurulmuş, məhv edilmiş tarixi abidələr, I və II Qarabağ müharibəsini, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətini və onun uzaqgörən siyasətinin nəticəsi olan tarixi qələbəmizi əks etdirən şəkillər əks olunmuşdur.

Azərbaycan dili dialekt və şivələrində qohumluq münasibətləri bildirən sözlərin leksik-semantik xüsusiyyətləri də araşdırılmışdır. AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru **Kübra Quliyevanın "Azərbaycan dili dialekt və şivələrində qohumluq münasibətləri bildirən sözlərin leksik-semantik xüsusiyyətləri"** (Bakı: Elm və təhsil. **2022**. 140 səh) adlı monoqrafiyasında dialekt və

şivələrdə işlənən qohumluq münasibətləri bildirən sözlərdən bəhs edilib, onlardan bir qisminin fonetik fərqliliklərinin səbəbləri araşdırılıb, leksik-semantik baxımdan diferensiallaşması, fərqlilikləri göstərilib, bir sıra sözlərin etimoloji izahı, qadın və kişi xətti üzrə işlənmə və inkişaf formaları, müasir dövrdə bölgələrdə qorunub saxlandığı formalar və lüğəti verilmişdir (https://science.gov.az/az/ news/open/20101)

II MÖVZU

ÜMUMXALQ DİLİ, ƏRAZİ DİALEKTLƏRİ, ƏDƏBİ DİL

PLAN:

1. **Ümumxalq dilinin tərkib hissələri**
2. **Xalq danışıq dili, milli dil**
3. **Ədəbi dil və onun xüsusiyyətləri**
4. **Dialekt və şivələr**

2.1. Ümumxalq dilinin tərkib hissələri

Hər bir xalqa mənsub olan, onunla birgə yaşayan, inkişaf edən, bəzən hətta, xalqla birlikdə məhv olan dil, milli dil- ümumxalq dilidir. Ümumxalq dili bu cəhətləri özündə əks etdirən bir neçə qrupa bölünür:

1. Ölü və canlı dil
2. Qədim və müasir dil

Müasir dövrdə işlənən, fəaliyyət göstərən dillər canlı dillər xalqla birlikdə tarix səhnəsindən silinən dillər ölü dillər adlanır.

Əlavə şifahi məlumat.

2.2 Xalq danışıq dili, milli dil

Deməli, hər bir dilin inkişafı onun mənsub olduğu xalqın inkişafından çox asılıdır və həmin xalqın milli dili adlanır. Milli dillər öz daxilində bir neçə qrupa ayrılır:

1. Ədəbi dil- Ümumxalq dilinin cilalanmış, normaya salınmış formasıdır. Ədəbi dil 2 yerə bölünür:
   a) şifahi
   b) yazılı

Əlavə şifahi məlumat verilir.

2.3. Ədəbi dil və onun xüsusiyyətləri

Xalq danışıq dili, adından da göründüyü kimi, xalq arasında ünsiyyətə xidmət edir. Əsasən şifahi formada təzahür edir. Xalq danışıq dilində fonetik, leksik, qrammatik normalar pozula bilir. Müxtəlif bölgələr üzrə müşahidə apardıqda əhalinin dilində bir çox fərqlərin olduğu meydana çıxır. Həmin fərqlər isə dialekt və şivələrin yaranmasına səbəb olur. Məsələn, ədəbi dildə təsirlik hal şəkilçisi nı4-atanı, ananı, qapını qərb şivələrində-ayrım şivəsində təsirlik halda -nı4 əvəzinə -y işlənir. Məs: qapını-qapıyı. Şərq dialektlərində (Bakı) təsirlik halda n-v əvəzlənməsi baş verir.

2.4. Dialekt və şivələr

Dialekt və şivələr. Dialektlər məhəlli danışıq formasıdır. Dünya dilçiliyində dialektlər coğrafı prinsip əsasında cəhətlərə görə qruplaşdırılır və Azərbaycan dilçiliyində də eyni prinsip əsas götürülmüşdür:

1. Şimal 3. Cənub
2. Şərq 4. Qərb

Azərbaycan dilinin dialektlərinin təsnifatı ilə bağlı müxtəlif fikirlər meydana çıxmışdır. Elbrus Əzizov Azərbaycan dilçiliyində yüksək qiymətləndirilən "Azərbaycan dilinin tarixi dialektologiyası" (B. 1999) əsərində F.Köçərlinin, Fuad Köprülünün, M.Şirəliyevin, Rüstəmovun, Azər Hüseynovun və başqalarının Azərbaycan Dili şivələri onlann təsnifatı haqqında fikirlərinə münasibət bildirmişdir. Adlarını qeyd etdiyimiz alimlərdən başqa Azərbaycan dialektləri haqqında ilk məlumatlara Mirzə Kazımbəyin "Обшая грамматика турецко-татарского языка" əsərində də rast gəlinir. Mirzə Kazımbəy əsərdə Azərbaycanın şimal və cənub hissələri arasındakı fərqi görmək üçün feilin sadə və mürəkkəb formalarını, feil zamanlarının düzəldilməsi qaydalarını, vacib şəklinin düzəlməsi yollarını müqayisə etmişdir. Göstərmişdir ki, Cənubi Azərbaycanda-Təbriz dialektində II şəxsin təkində feillər "gəlirsə" və ya "geliren" şəklində və III şəxsdə isə "gelir" və ya "geliri" formasında işlənə bilir. M.Şirəlıyev Azərbaycan dilinin şivələrini bir neçə dəfə təsnif etmişdir. Onun sonuncu təsnifi aşağıdakı kimidir:

1. Şərq qrupu dialekt və şivələri- Bakı, Quba, Şamaxı dialektləri, Muğan qrupu və Lənkəran şivəsi.

2. Qərb dialekt və şivələri- Qazax, Qarabağ, Gəncə dialektləri, Ayrım şivəsi.

3. Şimal qrupu dialekt və şivələri- Nuxa (Şəki)dialekti, Zaqatala, Qax şivəsi.

4. Cənub qrupu dialekt və şivələri- Naxçıvan, Ordubad, Təbriz dialektləri, İrəvan şivəsi.

M. Şirəliyevin bu bölgüsü haqqında E.Əzizov yazır: "Şirəliyevin bu təsnifatı Azərbaycan dilçiliyinin inkişafının müəyyən bir mərhələsində məqbuldur. Bütünlükdə bu bölgü Azərbaycan dilinin dialekt bölünməsinin izahı baxımından bir sıra qüsurlara malikdir. Qüsurlardan biri budur ki, Şirəliyev Cənub qrupuna Cənubi Azərbaycannın yalnız Təbriz dialektini daxil etmişdir".

E.Əzizov Azərbaycan şivələrini aşağıdakı kimi təsnif etmişdir:

1. Cənub ləhcəsi – Təbriz, Ərdəbil, Lənkəran, Urmiya, Naxçıvan.

2. Qərb ləhcəsi (Orta ləhcə) - Qarabağ, Qazax, Borçalı, Ayrım şivəsi- Gədəbəy, Daşkəsən, Kəlbəcər.

3. Şimal-şərq ləhcəsi- Şamaxı, Bakı, Quba, Dərbənd

4. Şimal-qərb ləhcəsi-Şəki, Oğuz, Qax, Zaqatala, Balakən.

Dialekt və şivələrimizdə, bu gün də fəal şəkildə işlənən formalar var ki, onIara yalnız yazılı abidələrin dilində rast gəlinir. Tofiq Hacıyev yazır: “Yerlik hal şəkilçisinin yönlük hal məzmunu verməsi, saitlə bitən isimlərin təsirlik halda “y” qəbul etməsi, mənsubiyyət şəkilçili sözlərin hallanmasında “v” ünsürünün işlənməsi və s. faktların leksika nümunələrinin tarixi fonetika

hadisələrinin müasir şivələrimizdə yaşaması tarixi qrammatika üçün mötəbər tədris dayaqlarıdır.

Azərbaycan şifahi və yazılı ədəbi dilimizin bünövrəsi sayılan "Kitabi- Dədə Qorqud"da:

1. "a" saitinin uzun tələffuzü (bağlayın-bağla:n). Qazax, Borçalı, Ağcabədi şivələrində əhali də mövcuddur. Məs: qaya-[qa:], qayçı- [qa:çı]

2. "ə" saitinin uzanması həm yazılı abidələrdə, klassik ədəbiyyatda və eyni şəkildə Qazax, Qarabağ şivəsində işlənir. Məs: Füzulidə "əgər" sözü (ə: r) kimi tələffüz olunur.

3. "ö" saitinin uzanması-"Kitabi-Dədə Qorqud"da və Qazax, Borçalı şivəsində müşahidə edilir. Məs: döyür-(dö: r)

Bunlardan başqa, digər səs əvəzlənmələrinə də həm qədim yazılı abidələrimizdə, həm də dialekt və şivələrdə intensiv şəkildə rast gəlirik.

*Evə tapşırıq vermək olar: "Kitabi Dədə Qorqud" dastanında digər fonetik xüsusiyyətlərə aid nümunələr çeçmək.

III MÖVZU

AZƏRBAYCAN DİALEKTLƏRİNİN TƏDQİQİ TARİXİNDƏN

Hər bir xalqa, millətə məxsus doğma dil, ana dili, milli dil mövcuddur. Cəmiyyətdə baş verən bütün dəyişiklikləri özündə əks etdirən bu dil xalqla birlikdə inkişaf edir, dəyişir, təkmilləşir. İnkişaf və dəyişmələr dilin fonetik, leksik, qrammatik sistemində öz ifadəsini tapır. Ana dili öz daxilində bir neçə təbəqəyə bölünür: danışıq dili, ədəbi dil, dialekt, şivə və s.

İnsanların dialekt və şivələr haqqında müəyyən qədər təsəvvürü olsa da, Azərbaycan dialektlərinin tədqiqi, təsnifi, xarakterik xüsusiyyətləri haqqında geniş, ətraflı və sistematik məlumatı dialektoloji tədqiqatlar vasitəsilə öyrənmək mümkündür.

Dilimizin dialektlərinin öyrənilməsinin mühüm əhəmiyyəti vardır. Çünki qədim türk yazılı abidələrinin, daş kitabələrin mətnlərində bu günümüz üçün arxaikləşmiş olan dil vahidləri bu gün müxtəlif dialektlərdə yaşamaqdadır.

Diçiliyin dialektologiya şöbəsi ictimai elmlər sırasında elmi-nəzəri mövqeyə malik olan bir sahədir. Burada dilin tarixi qolu danışıq dili-dialekt və şivələr, ədəbi dillə dialektlər arasındakı kontakt və digər məsələlər öyrənilir. Dialektoloji vahidləri tədqiq edərkən dialektoloji tədqiqat metodlarından, yəni dilçilik metod və üsullarından istifadə edilir. Dialektoloji

tədqiqatların, məlum olduğu kimi, üç əsas növü var: təsviri, müqayisəli, tarixi.

Azərbaycan dialektologiyası haqqında XIX əsrin sonlarında bəzi fikirlər söylənilsə də, elmi fundamental əsərlər (təsviri xarakterli olsa da), əsasən, XX əsrin 30-40 illərində yaranmağa başlamışdır. Eyni zamanda, dialektologiyanın məzmun və mündəricəsinin zənginləşməsində bu dövrdə yazılmış yüzlərlə elmi-metodiki məqalə, dərs vəsaiti və dərsliklərin mühüm rolu olmuşdur. Dialektoioji tədqiqatlar prosesində nəzəri və praktik istiqamətlərə elmi prinsiplərə, dilçiliyin metod və üsullarına xüsusi diqqət yetirilmişdir. Onu da qeyd etmək lazımdır ki, bütün bunlara baxmayaraq, dialektoloji obyekt hələ tamamilə tədqiqata cəlb edilməmişdir. Bəzi hallarda faktlara formal cəhətdən yanaşılmışdır. Dialekt daşıyıcısı olan əhalinin etnik tərkibinin nəzərə alınmaması, hətta bəzi hallarda dilin sisteminin və quruluşunun diqqətdən kənarda qalması dialektoloji araşdırmalarda yanlış nəticələrə gəlinməsinə səbəb olmuşdur.

Bu sahədə uğurların əldə edilməsi üçün, dilimizin dialekt və şivələrinin müasir tədqiqat üsulları ilə öyrənilməsi istiqamətində müasir Azərbaycan dilçiliyinin qarşısında bir sıra mühüm vəzifələr durur. Dialektoloji tədqiqatlar zamanı müasir dilçilik metodları tətbiq edilməlidir. Dialektolji araşdırmalarda sistemli şəkildə əvvəl dialektin fonetikası, fonologiyası, sonra leksik sistemi, daha sonra isə cümlə, mətn sistemi tədqiq edilməlidir. Dilimizin dialektlərinin geniş yayılma arealına malik olduğunu nəzərə alaraq tədqiqatların

Şimali və Cənubi Azərbaycanda, qonşu və qonşu olmayan ölkələrin ərazilərində, Gürcüstanda, İranda, İraqda və digər yerlərdə aparılması təmin edilməlidir.

Türk dillərinin Oğuz qrupuna daxil olan Azərbaycan dili kökü etibarilə qədim tarixə malikdir. Tarixi ədəbiyyatlarda Azərbaycan xalqının və onun dilinin mənşəyi haqqında ziddiyətli fıkirlər olmuş, bəzən azərbaycanlılar dilini dəyişmiş bir xalq, dilimiz isə gəlmə dil hesab edilmişdir. Azərbaycan xalqının formalaşması haqqında o dövrdə əsas qənaət belə olmuşdur: "Atropatenanın və Qafqaz Albaniyasının qədim yerli tayfaları (mannalılar, kadusilər, midiyalılar və s.) azərbaycanlıların etnogenezisində müəyyənedici rola malik olmuşdur. Sonra onlara əsrlər boyu müxtəlif etnik qruplar, kimmerlər, hunlar, xəzərlər, oğuzlar, monqollar və s. irandilli və türkdilli tayfalar qaynayıb-qarışmış və bu xalq formalaşmışdır. Azərbaycan xalqının formalaşması, əsasən, XI-XII əsrlərdə başa çatmışdır. Azərbaycan xalqının formalaşması haqqında həmin konsepsiyaya görə guya yerli əhalinin dili gəlmələrin dili ilə əvəz olunmuşdur".[1]

Azərbaycan dialektlərinin öyrənilməsi xalqın tarixinin, eləcə də, Azərbaycan dilinin tarixinin öyrənilməsi deməkdir. Azərbaycan etnolinqvistikasında mövcud olan dialektlər qədim türk tayfa dilləri əsasında təşəkkül tapmış, yüz illər boyu müxtəlif qohum tayfalarla əlaqədə onların ictimai-siyasi

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

aurası genişlənmiş, özünəməxsus dil xüsusiyyətləri sabitləşmiş, mükəmməl qanunauyğunluqlara çevrilmişdir ki, bu dillər arasındakı sıx bağlılığı inkar etmək mümkün deyil.

Azərbaycan dilçiliyində də dünya dilçiliyində olduğu kimi, dialektlər coğrafı bölgü prinsiplərinə əsasən, şimal, şərq, cənub, qərb dialekt və şivələrinə bölünmüş- dür. Qarabağ dialekti və şivələrinin tarixi inkişafının izlənilməsi və öyrənilməsi, müasir Azərbaycan dili ilə dil tarixi arasında oxşarlıqların və fərqli cəhətlərin müəyyən edilməsi dilimizin, eyni zamanda xalqımızın, xüsusilə də, həmin ərazidə əhalinin keçmiş tarixinin öyrənilməsinə gətirib çıxarır.

Məlumdur ki, ümumxalq dili ədəbi dildən əvvəl mövcud olmuş, mənsub olduğu xalqın adət-ənənəsini, tarixini, etiqadını və digər cəhətləri əks etdirmişdir. Dilin inkişafında baş verən ən mühüm fonetik,leksik, qrammatik dəyişikliklər yalnız qədim yazılı abidələrdə və bəzi dialektlərdə mühafizə edilməkdədir. Qədim türk yazılı abidələrinin dilini öyrənərkən həmin dil vahidləri meydana çıxır.

Dialektologiya özünəməxsus obyekti, vəzifələri, mövzusu olan tədqiqat üsulları ilə seçilən xüsusi dilçilik sahəsi kimi müxtəlif istiqamətlərdən tədqiq edilsə də, hadisələrə müasir yanaşma baxımından, eyni zamanda, Qarabağ ərazisinin müəyyən hissəsinin ermənilər tərəfindən işğal edildiyini nəzərə alsaq,bu dialektin və ona daxil olan şivələrin yenidən tədqiq edilməyə ehtiyacı vardır. Azərbaycan dialektlərinin tarixi istiqamətdə öyrənilməsi tarixi dialektologiyanın yaranmasına səbəb olmuşdur. Lakin tarixi

dialektologiyanın nəzəri məsələləri, metodikası və digər bir çox məsələlər hələ tamamilə öyrənilməmişdir. Dilçilik tarixi baxımından tarixi dialektologiyanın xüsusi əhəmiyyətə malik olduğunu E. Əzizov "Azərbaycan dilinin tarixi dialektologiyası" (Bakı.1999//Yeni nəşri: Bakı. "Elm və təhsil". 2016) adlı dərs vəsaitində xüsusilə qeyd etmişdir. O da dialektləri tarixi köklərə əsaslanaraq tədqiq etmişdir.

E.Əzizov yazırdı: "Dilin dialekt bölünməsi-üzvlənməsi onun inkişafında meydana çıxan innovasiya hallarının müəyyənləşdirilməsi etnogenezis probleminin, eləcə də, konkret bir dilin başqa yaxın dillərlə ortaq və fərqli xüsusiyyətlərinin geniş və hərtərəfli təhlili tarixi dialektoloji tədqiqat nəticəsində mümkündür.[1]

Tarixi dialektologiyanın ədəbi dil tarixi üçün böyük əhəmiyyəti vardır. "Tarixi-dialektoloji araşdırmasız nə rus dilinin xalq əsası haqda məsələnin, nə onun canlı xalq şivələrilə bağlı olan müxtəlif üslublarının formalaşması və tarixi haqqında məsələni, nə rus ədəbi dilinin tarixi fonetikası, tarixi qrammatikası və tarixi leksikologiyasının çoxsaylı, rəngarəng və qeyri-tipik problemlərini tam şəkildə aydınlaşdırmaq olar".[2]

Bu fikir bütün dillərə aiddir. Ədəbi dilin ümumi mənzərəsi aydın, bütöv, tam şəkildə yalnız dialektləri öyrəndikcə meydana çıxır.

---

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.
[2] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

Tarixi dialektologiya vasitəsilə ədəbi dil normalarının müəyyən edilməsi, formalaşması məsələlərində dialektlərin əhəmiyyətli rolunun olması sübut edilmişdir. Eyni zamanda tarixi dialektologiya dialektlərin strukturunu tarixi inkişafda öyrənən bir sahədir. Dialektlərin bir ana dildən, kök dildən törəməsi fikrini söyləməyə əsas verir. Dialektoloji araşdırmalar zamanı dilin dialekt bölünməsi, əmələ gələn yeni dialektlər, ya da arxaikləşmiş dialekt variantları meydana çıxır. Tarixi dialektologiya dillərin tarixi inkişafını öyrənməklə yanaşı, bəzi ekstralinqvistik faktları, tarixi nəticələri, arxeologiya, etnoqrafiya, ictimai və mədəni tarixi tədqiqata cəlb edir. Rus alimi B.A.Serebrennikov tarixi dialektologiyanın iki mühüm problemini göstərmişdir: 1. Kök dil dialektlərinin yayılma areallarının öyrənilməsi; 2. Konkret bir dilin qədim dialekt üzvlənməsinin aşkar edilməsi.[1]

A.Axundova görə konkret bir dilin tarixi dialektologiyası üçün mühüm problemlərdən biri, müəyyən bir dilin dialektlərə ayrılması ilə ümumxalq dilinin münasibəti məsələsidir.[2] T.Hacıyev göstərirdi ki, dialektlərin tarixini öyrənərkən xalqın etnik tərkibinin öyrənilməsi məsələsi də tarixi dialektologiyanın əsas problemlərindən biridir.[3]

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.
[2] Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. I, II, III, IV c. Bakı, 2005. 600-700s.
[3] Hacıyev T. Azərbaycan dilinin Cəbrayıl şivəsi, nam. dis., Bakı, 1967, 436 s.

Bütün elm sahələrində olduğu kimi, tarixi dialektologiyanın bir sıra mühüm vəzifələri vardır: dilin dialekt üzvlənməsinin xarakterini aşkar etmək; dialekt əlamətlərinin etnolinqvistik əsasını müəyyən etmək; dialekt sistemlərinin qarşılıqlı əlaqəsinin tarixini aydınlaşdırmaq; innovasiyaların yaranması və inkişafını öyrənmək və s.[1]

Dil daim inkişafda olduğu üçün dialektlər də inkişaf edir, yeni keyfiyyətlər yaranır. Dialektlərdə mövcud olan ilkin formasını dəyişmiş dil faktları-innovasiyalar mühüm və qeyri-mühüm olaraq iki yerə bölünür.

Mühüm innovasiyalar yalnız bir dildə və ya bir dil ailəsində mövcud olur. Məsələn: dialektlərdə ahəng qanunu kimi. Qeyri-mühüm innovasiyalar isə bir çox dillərdə yayılır. Dillərin qohumluq dərəcəsi müəyyən edilərkən yalnız mühüm innovasiyalar nəzərə alınmalıdır. Dialektlərin tarixi istiqamətdə öyrənilməsi 2 yolla aparılır:

1. Həqiqi tarixi üsul-qədim yazılı abidələr əsasında;
2. Müqayisəli-tarixi üsul-yazılı abidələr olmadan.[2]

Demək olar ki, folklor nümunələri, yazılı abidələr, klassik ədəbiyyat və müasir şivələr tarixi dialektologiya üçün əsas mənbə rolunu oynayır. Dilçilik coğrafiyasına, onomastikaya, etnik tarixə, folklora aid edilən bütün materiallar tarixi dialektologiya üçün mənbə ola bilər. Yazılı abidələrdə müəyyən qədər yazıldığı dövrün dialekt əlamətləri,

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.
[2] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

dil-üslub xüsusiyyətləri qorunub saxlanılır. Lakin ədəbi dil normaları dəyişkən olduğu üçün həmin dialektlərin də bəzisinin xarakteri dəyişə bilər. Ola bilər ki, hər hansı bir dövrdə dialektolji dil vahidi kimi qəbul edilən vahid başqa bir dövrdə ədəbi dil vahidinə çevrilsin və ya əksinə. Bu da, öz növbəsində, ədəbi dildə mövcud olan arxaikləşmə və özləşmə kimi proseslərin nəticəsində mümkün ola bilir.

Məlumdur ki, tarixi inkişaf prosesində müxtəlif dövrlərdə müxtəlif dialektlər ədəbi dilin əsasında dayanmışdır. Məsələn, XIII-XIV əsrlərdə Şirvan dialekti, XV-XVII əsrlərdə Təbriz diaIekti, XVIII əsrdə Qarabağ, XIX-XX əsrlərdə və XXI əsrin əvvəllərində isə bütün dialekt xüsusiyyətlərini özündə əks etdirən Bakı-Şamaxı dialekti Azərbaycan ədəbi dilinin əsasında dayanmışdır. T. Hacıyev bu xüsusda yazır: "Azərbaycan ədəbi dili XIX əsrə qədər cənub dialektinə, XIX əsrdən sonra isə ədəbi dil normalarına söykənmişdir. Yazılı ədəbiyyatda elə sözlərlə qarşılaşırıq ki, onları intuativ olaraq dialekt söz adlandırırlar. Məsələn, surfa-süfrə və s.".[1]

Hər bir xalqa məxsus olan folklor nümunələri, xalq yaradıcılığı, ağız ədəbiyyatı dilin dialektal xüsusiyyətlərini özündə daha çox əks etdirir. Buna baxmayaraq, bu sahə daha az tədqiq edilmişdir. Folklor nümunələrində bəzi intonasiya, ritm, qafiyə xatirinə dil vahidlərinin arxaik formalarından, ya da dialektik ünsürlərdən, innovasiyalardan istifadə

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

olunmuşdur. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, tarixi dialektologiyanın yaranması zərurətdən irəli gələn bir məsələdir.

Azərbaycan dilinin tarixi dialektologiyasının yaradılması fıkri ilk dəfə türk dillərinin dialektologiyası məsələləri üzrə III məhəlli müşavirədə (Bakı, 24-28 noyabr 1960-cı il) irəli sürülmüşdür. "Bizdə dialektologiyanın bu sahəsi ilə heç kim məşğul olmur. Halbuki klassiklərimizin əsərlərində dialekt və şivələrə aid zəngin material vardır. Onların aydınlaşdırılmasından mükəmməl dil, tarixi dialektologiya yarana bilər".[1]

Dialektologiya dilçilikdə bu və ya digər bir dilin dialektlərini (ləhcələrini, şivələrini) öyrənən bölmədir. Bu sahənin əsas vəzifəsi dialektologiyanın ümumi məsələləri və Azərbaycan dili dialektlərinin fonetik, qrammatik və leksik xüsusiyyətlərini, onların areallarını, paralellərini və digər məsələləri öyrənməkdir.

Şivə, şivələr qrupu, ləhcə, dialekt, keçid (aralıq) şivə, qarışıq şivə və izoqloss kimi terminlər dialektologiyanın əsas anlayışları və terminləridir.

Dialekt termini yunanca danışıq şivə mənasını verən bölünməzlik xarakterinə malik olan termindir. Bu terminlə həm şivəni, həm şivə qrupunu, həm də ləhcəni ifadə etmək olar. Rus dilçiləri L. Zaxarova və digərləri əsas dialekt birləşmələri kimi, yalnız ləhcə və şivələrin qruplarını qəbul

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

edirdilər. S.Renikov da bu qənaətdə idi ki, dil bölünməsinin ən böyük vahidi ləhcə, ən kiçik vahidi şivədir. Köməkçi vahid kimi "dialekt zonası" kimi termini də işlədilir. Dialekt zonası ləhcənin daxilində bir neçə şivə qrupunu əhatə edir: ləhcə←dialekt ←şivə.

Dilin dialekt bölünməsinin ən kiçik vahidi hesab edilən şivələr bir və ya bir neçə yaşayış məntəqəsi əhalisinin danışığında müşahidə edilir və dil xüsusiyyətlərinə görə oxşarlıqları olan bir neçə şivə birləşərək şivələr qrupunu əmələ gətirir.

Şivədən fərqli olaraq bir neçə şivə qrupunun məcmusundan yaranan ləhcə dilin dialekt bölünməsinin ən böyük vahidi hesab edilir. Dialekt termininin də məhdud ərazidə işlədilməsi cəhətini nəzərə alaraq deyə bilərik ki, həmin termin yerinə görə şivə, şivələr qrupu və ləhcə mənalarında işlədilməkdədir.

Hər hansı bir dilin ərazi cəhətdən əlaqədə olan iki dialektinin sərhəd zonasındakı və ya qohum dillərin sərhədində yerləşmiş şivələr haqqında keçid şivə termini işlədilir. Qarışıq şivə keçid şivədən fərqli olaraq yalnız qohum dilin sərhədində yerləşmiş şivələri və ya bir dilin təkcə ərazi cəhətdən kontaktda olan şivələrini deyil, eyni zamanda, ərazi cəhətdən əlaqədə olmayan şivələrinin təsirinə məruz qalmış şivələr əhatə edir. Bu baxımdan Azərbaycan dilinin qarışıq xarakterli şimal-qərb şivələrini (Şəki, Oğuz, Qax, Zaqatala, Balakən) nümunə göstərmək mümkündür. Aralıq şivə deyərkən eyni dilin ərazi cəhətdən əlaqədə, kontaktda olan iki

dialektinin aralıq zonasında yerləşmiş şivələr nəzərdə tutulur. Keçid (aralıq) xarakterli şivələr respublikamızın əsasən Ağdaş, Göyçay, Ucar, Zərdab, Cəlilabad, Cəbrayıl və Qubadlı rayonlarının ərazilərində yerləşir. Dialektologiyada intensiv işlənmə qabiliyyətinə malik olan izoqloss termini (yunanca, "eyni dil" deməkdir) – coğrafı xəritədə bu və ya digər dil hadisəsinin yayılma arealını göstərən xətt kimi izah edilir və müxtəlif dialektlərin eyni dil xüsusiyyəti mənasında da işlədilir.

Dialektologiyanın öyrənilməsi dialektin mənsub olduğu xalqın ictimai-siyasi tarixinin, etnik tərkibinin, eyni zamanda, dil tarixinin öyrənilməsi üçün vacibdir.

Həm də qeyd etmək lazımdır ki, dil tarixinin canlı arxivi hesab edilən dialektləri öyrənmədən müəkəmməl dil tarixi kursu yaratmaq mümkün deyil. Bu, onunla əlaqədardır ki, zaman-zaman dildə işlənmiş bir çox cəhətlər – fonetik vahidlər, leksemlər, kök və budaq morfemlər müasir ədəbi dil üçün arxaikləşdiyi halda, şivələrdə mühafızə olunur və intensiv olaraq işlənməkdədir.

Dilin tarixində fonetik və morfoloji sistemlərdə baş vermiş dəyişikliklərin inkişafını izləmək baxımından da dialektologiyanın nəticələri olduqca dəqiq və əhəmiyyətlidir. Məsələn, qədim türkcədəki "**ini** – kiçik qardaş" sözü ədəbi dildə arxaikləşsə də, şivələrdə - Şəki, Qax, Balakən, Zaqatala şivələrində "qayın" mənasında mühafızə olunmuşdur:



Qeyd: Bu sxemdə ox işarəsi ilə göstərilən xətt yuxarıda qeyd etdiyimiz izoqloss nümunəsidir və *ini* sözünün xətti yayılma arealını göstərir.

Dilimizin şivələrində oğuz, qıpçaq və uyğur mənşəli xüsusiyyətlər tarixən həmin ərazilərdə eyni türk tayfalarının məskunlaşması fikrini təsdiq edən dəlillərdir ki, onların təsdiqi yenə məhz dialektoloji araşdırmalar nəticəsində mümkündür.

Dillər öz tarixi inkişafında bir neçə mərhələdən keçir: tayfa dilləri, xalq dilləri, milli dillər. Dilin inkişafının ilkin mərhələsində dil və dialekt bir-birindən fərqlənmir. Tayfa dili öz ictimai vəzifəsini yalnız bir tayfanın dialekti kimi yerinə yetirir. Cəmiyyətin inkişafının müəyyən mərhələsində müxtəlif tayfa dilləri əsasında xalq dili formalaşır. Xalq dilinin yayıldığı ərazidə feodal dağınıqlarının mövcud olması dilin məhəlli növü üçün şərait yaradır. Konkret faktlar əsasında müəyyən olunmuşdur ki, müasir dialektlərin sərhədləri çox hallarda, orta əsr feodal əraziləri ilə üst-üstə düşür. Deməli, məhəlli dialektlər feodal dağınıqlığı dövründə yaranır, lakin bəzi tayfa dilləri xalq dilinin tərkibində öz inkişafını davam etdirir.

Dilçilik ədəbiyyatında dialektlərin əmələ gəlməsinin iki əsas yolu göstərilir:

I. Eynimənşəli tayfa dilləri vahid xalq dili yarandıqdan sonra öz müstəqilliyini itirir, inkişafını eyni bir dilin müxtəlif şivələri kimi davam etdirir;

II. Vahid xalq dili müxtəlif dilxarici amillərin təsiri ilə öz müstəqilliyini itirir və müxtəlif şivələrə bölünür. Azərbaycan dilinin dialekt sistemi vahid bir dilin bölünməsi yolu ilə deyil, əsasən, bu və ya digər tayfa dili elementlərinin müəyyən coğrafı şəraitdə saxlanması yolu ilə yaranmışdır.[1]

Dialektologiyanın iki əsas vəzifəsi var:

1. Müxtəlif şivələrin sistemli təsviri;

2. Dil hadisələrinin məhəlli cəhətdən yayılmasının müəyyənləşdirilməsi.

Bu vəzifələr təsviri dialektologiya və dilçilik coğrafıyası metodları ilə yerinə yetirilir. Dialektoloji ədəbiyyatda təsviri dialektologiya metodu həm də "monoqrafik tədqiqat" metodu kimi qəbul edilir. Monoqrafik təsvir konkret bir şivə və ya yekcins şivələr qrupu üzərində aparıla bilər.[2]

Azərbaycan dili şivələrinin tədqiqi 1956-cı ildə çap olunmuş "Azərbaycan dili şivələrinin monoqrafik tədqiqinə dair proqram"əsasında aparılmışdır. Proqramda şivələrin fonetik, qrammatik, leksik xüsusiyyətləri öz əksini tapmışdır. Dialektlərin təsviri metodla öyrənilməsində dilçinin müstəqil müşahidəsinə, anket üsuluna və başqasının qeydlərinə əsaslanmaq olar. Bunların içərisində ən səmərəlisi dilçinin

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.
[2] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

müstəqil müşahidə üsuludur. Müstəqil müşahidə aparmaqla şivələrin təsviri həm fərdi, həm də ekspedisiya yolu ilə həyata keçirilə bilər. Dialektoloji mətnlərdə fonetik transkripsiyaya riayət edilməli, materiallar sənədləşdirilməlidir.

Dialekt fərqləri müxtəlif xarakterli olur. Dilçilik ədəbiyyatında onların 2 növü göstərilir: qarşıyaqoyulan və qarşıyaqoyulmayan fərqlər. Qarşıyaqoyulan fərqlər dedikdə, iki müxtəlif dialektdə qarşılıqlı olaraq bir-birini istisna edən faktlar nəzərdə tutulur. Məsələn, ədəbi dildə və qərb ləhcəsində (Qazax, Gəncə, Qarabağ və s.) sözün birinci hecasında işlənən a saitinə (qayış, qayçı), Naxçıvan qrupu şivələrində ə saiti (qəyiş, qəyçi), Bakı şivəsində e saiti (qeyiş, qeyçi) uyğun gəlir. Qarşıya qoyulmayan fərqlər daha çox leksikada bir və ya bir neçə şivədə müşahidə edilir. Məsələn, *dəzgə* sözü Quba şivəsində "pusqu" mənasında, *səmrə* sözü isə Qax və Zaqatala şivələrində "duman" mənasında işlənməkdədir.[1]

Müasir dilçilikdə geniş şəkildə istifadə olunan metodlardan biri dilçilik coğrafıyasıdır. Dilçilik coğrafıyasının əsas vəzifəsi dil hadisələrinin məkanca yerləşməsini və bu yerləşmədən irəli gələn problemləri həll etməkdir. Bu metodun vasitəsilə dil hadisələrinin (səslər, qrammatik formalar, sözlər) coğrafi cəhətdən yayılması və onların sərhədləri xəritələrlə müəyyənləşdirilir. Dilçilik coğrafıyasının üstünlüklərindən biri əyanilikdir, xəritə

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

müəyyən bir dil hadisəsinin yerini və sərhədlərini aydın şəkildə göstərir. Metodun əsas məqsədi dilin inkişaf yollarının və qanunauyğunluqlarının izahını vermək, bu və ya digər xüsusiyyətlərin nə üçün ərazidə əmələ gəlməsini və saxlanmasını şərh etmək, tarixin, etnoqrafiyanın və fiziki coğrafiyanın faktlarını tədqiqata cəlb etməklə müəyyən ərazidə dilin inkişafının bütöv mənzərəsini vermək, konkret dialektin meydana çıxmasının və mövcud olmasının səbəblərini, eləcə də milli dilin yayıldığı ərazidə dialektlərin qarşılıqlı münasibətini aydınlaşdırmaqdır.

Dialektlərin dilçilik coğrafiyası metodu ilə öyrənilməsi dialektoloji atlasın tərtibi ilə başlanır. Bu prosesin üç mərhələsi vardır:

1) Dil materialının toplanması və xəritə üçün işlənib hazırlanması;
2) Dil hadisələrinin xəritələrə köçürülməsi;
3) Xəritələrin şərhi.[1]

Dialektlərin tədqiqi prosesində tarixi mənbələr kimi, xəritələrin rolu əvəzedilməzdir.

Azərbaycan dili şivələri haqqında məlumata M.Kazımbəyin "Türk-tatar dilinin qrammatikası" kitabında təsadüf edilir. M.Kazımbəy Azərbaycan dili feillərindən danışarkən Dərbənd şivəsində işlənən indiki zaman formasına aid nümunələr vermişdir: sevedem, sevesen, sevedi, sevedik, sevesiz, sevedilər.

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

Mirzə Kazımbəy əsərdə Azərbaycanın şimal və cənub hissələri arasındakı fərqi görmək üçün feilin sadə və mürəkkəb formalarını; feil zamanlarının düzəldilməsi qaydalarını, vacib şəklinin düzəlməsi yollarını müqayisə etmişdir. Göstərmişdir ki, Cənubi Azərbaycanda - Təbriz dialektində II şəxsin təkində feillər "gəlirsə" və ya "geliren" şəklində və III şəxsdə isə "gelir" və ya "geliri" formasında işlənə bilir.[1]

Bundan sonra K. Foyun və N.Aşmarinin tədqiqatlarını qeyd etmək mühümdür.

Azərbaycan dili şivələrinin sistemli şəkildə öyrənilməsinə XX əsrin əvvəllərindən başlanmışdır. Bu dövrdə N.İ.Aşmarinin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Onun rəhbərliyi ilə 1930-31-ci illərdə "Azərbaycan-türk xalq şivələri lüğəti" I cildinin birinci (A hərfi) və ikinci buraxılışı (B hərfi) çap olunmuşdur. 1926-cı ildə N.Aşmarinin "Nuxa şəhəri türk xalq şivələrinin ümumi xülasəsi" əsəri çap olunur ki, bu, Azərbaycan dili şivələrinə dair ilk monoqrafik tədqiqatdır.

Həmin il İ.Həsənovun "Gəncə şivəsində mənsubiyyət şəkilçisiz isimlərin hallanması" adlı kitabı da nəşr olunmuşdur. İ.Həsənov 1928-ci ildə Qazax şivəsinə dair material toplamış, həmin şivənin fonetik xüsusiyyətlərini araşdırmış "Azərbaycan-türk dilində ləhcələr haqqında" (1935) adlı əsər yazmışdır. 1933-cü ildə Parisdə

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

C.Hacıbəylinin “Qarabağ dialekti və fokloru” kitabı çap olunur. Həmin illərdə S.Talıbxanbəylinin, “Azərbaycan yurd bilgisi” məcmuəsində (sayı: 13, 14, 17, 19, 20) “Qarabağ-İstanbul şivələrinin sövtiyyat cəhətdən müqayisəsi” məqaləsi nəşr edilir. SSRİ Elmlər Akademıyasının Azərbaycan filialının ekspedisiyası 1933-cü ildə Şamaxı, 1934-cü ildə Quba, 1935-ci ildə Zaqatala-Qax şivələrini tədqiq edir. Ə.Babazadə üçcildlik 1941-ci ildə “Ayrım dialekti” monoqrafiyasını yazır.

Qarabağ dialekti həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Dialektoloji monoqrafiyalarda, dissertasiyalarda qarabağlıların nitqindən müqayisə məqsədi ilə istifadə edilmişdir. Həmin dialektə daxil olan şivələr fərdi və monoqrafik yolla tədqiq olunmuşdur. Bu baxımdan C.Hacıbəylinin görkəmli türkoloq A.N.Samoyloviçin məsləhəti və köməyi ilə yazdığı və 1933-cü ildə “Aziatik” jurnalında çap edilən “Qarabağ dialekti və folkloru” (“La Dialecte et la folk-lore du Karabagh”) adlı dərin məzmunlu məqaləsi böyük tarixi əhəmiyyət kəsb edir.

Əsər, əsasən, Qarabağ ərazisindən toplanmış folklor nümunələrindən ibarət olsa da, “Giriş”də dialektin fonetik xüsusiyyətləri barədə qısa məlumat verilmişdir. Yerli əhalinin tələffüzünə yaxından bələd olan müəllif Qarabağ dialektini Fransanın cənub dialekti ilə müqayisə etmişdir. Məsələn, C.Hacıbəyli Qarabağ dialektinin Azərbaycan ədəbi dilindən və başqa dialekt və şivələrindən fərqini göstərmək üçün “gəlibdir” feilinin ədəbi dildə “gəlibdir”, Qarabağda

“gəlifdi”, Bakıda və Şamaxıda “gəlibdü”, Şəkidə “gəlitdi”, Quba və Dərbənddə “gələtdi” şəklində işləndiyini, “gedibdir” feilinin də həmin qaydada tələffüz olunduğunu qeyd etmişdir. Qarabağ dialektinin səciyyəvi xüsusiyyətlərindən bəhs edərkən C.Hacıbəyli bir neçə cəhəti diqqətə çatdırmışdır:

1) Bəzi hərflərdə vurğunun yerini dəyişdirməklə “v” “f” kimi, işlənir. Məsələn, gəlib – [gəlif] və s.

2) Ayrı-ayrı hərfləri nəzərə çatdırmaqla edilən dəyişiliklərdir. Məsələn, Qarabağda “mana, sana” sözləri başqa regionlarda “mənə, sənə” kimi tələffüz edilir.

3) Son hərf əvvəlinci hərf ilə birləşdirilir. Məsələn, ora gedib → ora gedif → ore:ydif şəklində işlədilir.[1]

C.Hacıbəylinin araşdırmasından belə bir nəticə çıxır ki, üçüncü cəhət yalnız kəndlərdə yaşayan əhalinin dilində işlədilir və müəllif bəzi adamların dilində sözlərin tələffüzü zamanı ədəbi dil qaydalarına əməl edildiyini də vurğulamışdır.

Ön sözdə müəllif yazmışdır: “Qarabağda keçirdiyim günlər zamanı mən öz tədqiqatlarımı tamamlayırdım. Lakin müharibənin və sonradan inqilabın nəticələri mənə öz toplumu sistemləşdirməyə və bitirməyə mane oldu, şərqşünaslıqdan uzaqlaşdırdı”.[2]

[1] Köçərli F. C.Hacıbəylinin ömründən yarpaqlar. Mədəniyyət qəzeti. Bakı. 1995. Yanvar. s.3

[2] www.kaspi.az. – 30.X.2018

Topluda Qarabağ dialektinə dair bəzi məsələlərə də toxunan C.Hacıbəyli yazırdı: “Qarabağ dialekti səslənməsinə görə çox zəngin , formasına görə çox cazibədardır. Fransanın cənub dialekti Fransa üçün necədirsə, Qarabağ dialekti də Azərbaycan üçün elədir”.[1]

Qarabağ dialekti zəngin lüğət tərkibinə malikdir. Burada xalqımızın qədim adət-ənənələri, keçmiş ictimai quruluş, həyat, məişət, ailə və təsərrüfatla bağlı saysız-hesabsız sözlər işlənir. C. Hacıbəyli dialektin leksikasına aid topladığı sözləri aşağıdakı kimi qruplaşdırmışdır:

1. Müraciət formaları: əmi, dayı, əmioğlu, dayıoğlu, xala, xalaoğlu, bəy, ağa.

2. Ailə üzvlərinin adları: ata, dədə, ağa, ana, nənə, məmə, oğul, qız, qardaş, baxsı, dayı, mama (bibi), nəvə, nəticə, kötükcə, ulubaba və s.

3. Uşaq sözləri: hoppadannan, ə-ə, bəci, cici, məmə, dədə.

4. At adları: Şahmar, Yelmar, Çafqın, Toxmax, Meymun, Qaşqa, Köhlən.

5. İt adları: Alabaş, Qarabaş, Bozdar, Topuş, Xallı, Axdar, Ambır, Sambır, Qaflan və s.[2]

C.Hacıbəylinin fransız dilində çap olunmuş “Qarabağ dialekti və folkloru” kitabı filologiya elmləri namizədi B.Ağayevin tərcüməsində Bakıda nəşr olunmuşdur.

[1] www.kaspi.az.–30.X.2018
[2] www.kaspi.az.–30.X.2018

Azərbaycan dialektologiyasının inkişafının bütöv bir mərhələsi M.Şirəliyevin adı ilə bağlıdır. O, 1938-40-cı illərdə "Bakı dialekti" adlı əsərini yazmışdır. Görkəmli dialektoloqun Azərbaycan xalq şivələrini öyrənmək sahəsindəki fəaliyyəti onun "Azərbaycan dialektologiyası" (1962, 1968) adlı dərs vəsaitində ümumiləşdirilmişdir.

XX yüzilliyin 40-cı illərindən Azərbaycan dili şivələri kollektiv və fərdi yolla öyrənilməyə başlamışdır. AMEA tərəfindən təşkil edilmiş ekspedisiyaya daxil olan dialektoloqlar 1946-49-cu illərdə Muğan qrupu şivələrini, 1950-55-ci illərdə Naxçıvan şivələrini, 1956-58-ci illərdə qərb ləhcəsini (Qazax, Ağstafa, Tovuz, Borçalı) ekspedisiya yolu ilə öyrənmişlər. Monoqrafik tədqiqatda fərdi yoldan da geniş istifadə olunmuşdur. Bakı (M.Şirəliyev), Quba (R.Rüstəmov), Şəki (M.İslamov), Tovuz (H.Cəfərov), Ağdam (P.Ağayev), Füzuli (İ.Məmmədov) və s. şivələr fərdi yolla tədqiq olunmuşdur.

Azərbaycan dialektologiyasının ən mühüm naliyyətlərindən biri dialektoloji atlasın tərtibidir. Atlas üzərində iş 1958-ci ildə başlanmış, yetmişinci illərdə başa çatmışdır. Müstəqillik illərində ölkə ərazisinin müxtəlif ərazilərinə aid dialektoloji atlaslar tərtib edilməkdədir. Naxçıvan dialektoloji atlası da buna nümunədir (Bakı. 2019).

Azərbaycan dialektologiyasında dialektoloji problemlər üzrə ümumiləşdirici araşdırmalar da aparılmışdır. Bu cəhətdən R.Rüstəmovun feilə, A.Vəliyevin keçid şivələrə, M.İslamovun əvəzliyə, M.Cəfərzadənin dialekt sintaksisinə,

E.Əzizovun ahəng qanunu və tarixi dialektologiyaya, B.Əhmədovun söz yaradıcılığına, M.Məmmədlinin ismin qrammatik kateqoriyalarına həsr olunmuş tədqiqatları Azərbaycan dilçiliyini daha da zənginləşdirmişdir.

XX yüzilliyin ortalarından başlayaraq dialektoloji tədqiqatlar 3 istiqamətdə aparılmışdır:

1) Şivələrin monoqrafik öyrənilməsi;

2) Dialektoloji atlas üzərində iş;

3)Dialektoloji lüğətlərin tərtibi.

Şivələrin monoqrafik tədqiqi uğurla davam etdirilir. Son dövrlərdə Lerik (G.Binnətova), Yardımlı (Ş.Məmmədov), Qubadlı (R.Abbasova) şivələri fərdi yolla araşdırılmışdır.

Azərbaycan dilinin respublikamızdan kənarda olan şivələri də zaman-zaman tədqiqat obyekti olmuşdur. Dilimizin Kərkük (Q.Paşayev), Çənbərək və Karvansaray (Ş.Kərimov), Təbriz (M.Məmmədov), Böyük Qarakilsə (Q.Bağırov), Meğri (Ə.Əliyev), Zəngibasar (F.Babayev), Basarkeçər (Z.Vəliyev) şivələri tədqiq edilmişdir. Dərbənd şivəsi və İraq türkman ləhcəsi Dilçilik İnstitutunun dialektoloqları tərəfindən geniş şəkildə araşdırılmışdır.

XX yüzilliyin sonlarından başlayaraq dialektlərın tarixi istiqamətdə tədqiqi genişlənir. Türkologiyada ilk dəfə E.Əzizovun tədqiqatları ilə Azərbaycan dilinin tarixi dialektologiyası müstəqil dilçilik sahəsi kimi təşəkkül tapmışdır. Dialektlərin tarixi inkişafı Ə. Tanrıverdiyev (“Kitabi-Dədə Qorqud və qərb ləhcəsi”), Q.Məmmədova (“Nəsiminin dili və Azərbaycan dili şivələri”), dialektlərlə

ədəbi dilin əlaqəsi N.Qazıyevanın (“Azərbaycan ədəbi dili normalarının formalaşmasında dialektlərin rolu”) tədqiqatlarında öz əksini tapmışdır.

Dialekt və şivələrimizdə, o cümlədən, Qarabağ dialektində mövcud olan bir çox əlamətlər Türkiyə türkcəsində ədəbi dil səviyyəsindədir. Azərbaycan və Türkiyə şivələrinin tarixi-müqayisəli şəkildə tədqiqi bu dillərin mənşəyinin araşdırılmasında mühüm əhəmiyyətə malikdir.

S.Talıbxanbəylinin Türkiyədə "Azərbaycan yurd bilgisi" məcmuəsində 1933-cü ildə nəşr olunmuş silsilə məqalələrində Qarabağ və İstanbul şivələri qarşılaşdırılmışdır.

Qarabağ bölgəsinə daxil olan Füzuli (İ.Məmmədov), Ağcabədi (İ.Quliyev), Ağdam (P.Ağayev), Cəbrayıl (T.Hacıyev), Yevlax (Həsənova H.) şivələri müxtəlif istiqamətlərdən namizədlik dissertasiyası səviyyəsində araşdırılmışdır.

Dialektlərin lüğət tərkibinin öyrənilməsi sahəsində də mühüm nailiyyətlər əldə olunmuşdur. Dilimizin dialekt leksikası ilə bağlı B.Əhmədovun, Z.Xasiyevin, G.Vəliyevanın, K.Quliyevanın, T.Qarayevin, Ə.Tahirzadənin, İ.Bayramovun və b. tədqiqatları vardır.

Dialektlərin lüğətinin tərtibinə keçən yüzilliyin əvvəllərindən başlanmışdır. Görkəmli türkoloq N.İ.Aşmarinin rəhbərliyi ilə toplanmış materiallar əsasında “Azərbaycan türk xalq şivələri lüğəti”nin 1-ci cildi (A hərfi) 1930-cu ildə, 2-ci cildi (B hərfi) 1931-ci ildə çap olunmuşdur. Bu lüğət N.Aşmarin, Ə.Haqverdiyev, A.Zifeld, V.Xuluflu,

B.Çobanzadə və İ.Həsənov tərəfindən çapa hazırlanmışdır. Tərtibçilər mümkün olduğu qədər bütün şivələri əhatə etməyə çalışırdılar. Lüğətdəki nümunələr Azərbaycan, Gürcüstan, Dağıstan və İran ərazilərindəki şivələri əhatə edir. Sözlər latın və ərəb əlifbasında verilmiş, ayrı-ayrı şivələrdəki tələffüz şəkilləri də göstərilmişdir. Sözlərin mənaları Azərbaycan, rus və alman dillərində, cümlə nümunələr latın əlifbası ilə Azərbaycan dilindədir. Yeri gəldikcə, izahlarda atalar sözləri və məsələlər, bayatı, tapmaca, xalq mahnıları, el şairlərinin yaradıcılığından və "Molla Nəsrəddin" jurnalının materiallarından da istifadə olunmuşdur. Lüğətdə sözlərin tematik qrupları cəmlənmişdir; rənginə, cinsinə və yerişinə görə 90 at adı (kəmər, qurdboz, pərəqulaq, yezidi, dəmirboz, donuz boyun, doyşan bud, sokkur, topuq vuran, xaldar və s.), alçanın 10 adı (donbıl, fındıq, kəzvin, lal, lavaşana, paraxodu, peyvənd, turş), almanın 17 adı (anton, bal, bizoyburnu, candəri, cibir, cırhacı, çakkal, kalvin, karpız, qızıləhmədi, molla, muşq, qəpəqil və s.), bəzi sözlərin məcazi mənaları (arpa-buğda "oğlan-qız"; anrı-bəri "xırdavat"; ayaq "yoxsul" və s.) üç dildə nümunələrlə izah olunmuşdur.[1]

"Azərbaycan dilinin dialektoloji lüğəti"nin 1964-cü ildə nəşr olunmuş nüsxəsi 6.300 sözü əhatə edir. Lüğətdəki sözlər respublikamızdan əlavə, İran, Dağıstan, Gürcüstan və Qərbi Azərbaycan bölgələrindən toplanmışdır. Baş sözlər tələffüz formalarında verilmiş, işləndiyi şivələr ixtisarla qeyd edilmişdir. Sözlərin semantik qrupları xüsusi işarə ilə

[1] www.kaspi.az.–30.X.2018

göstərilmişdir. Hər sözün arealı müəyyənləşdirilmiş, mənaları Azərbaycan və rus dillərində verilmişdir.

128 xəritədən ibarət "Azərbaycan dilinin dialektoloji atlası" 1990-ci ildə nəşr olunmuşdur. Atlasın tərtibi üçün 1958-ci ildə "Azərbaycan dilinin dialektoloji atlasının tərtibi üçün toplanan materialların proqramı" adlı çalışma (tərtibçilər M.Şirəliyev və R.Rüstəmov) hazırlandı və çap edildi. Proqramda dilçiliyin fonetika, qrammatika və leksika bölmələrinə aid 197 izoqloss müəyyən olundu. Dilçiliyin bu sahəsi ilə bağlı türkologiyada təcrübə olmadığından dialektoloqlar ən çox tədqiq edilən şimal-şərq ləhcəsinin atlasını hazırladılar. 1965-ci ildə tamamlanmış bu atlas 50 xəritədən ibarət olmuşdur (tərtibçiləri: M.İslamov, T.Həmzəyev, R.Kərimov).

Ümumi atlasın hazırlanması üçün Azərbaycan Respublikasının 500-dən artıq yaşayış məntəqəsindən material toplanmışdır. Hər rayonun dörd coğrafi cəhəti (şimal, cənub, şərq, qərb) nəzərə alınmaqla 7-12 kəndi material üçün obyekt seçilmişdir. Lakin texniki səbəblərə görə, atlasda 409 yaşayış məntəqəsinin materialından istifadə olunmuşdur. Dil faktları xəritələrə müəyyən qanunauyğunluq əsasında köçürülmüş, bütün xəritələrdə ədəbi dil norması qara rəngli dairəciklə, dialekt fərqləri qırmızı, göy, yaşıl, sarı dairə və üçbucaqla işarələnmişdir. Atlasın bəzi xəritələrində izoqlossun mövcud olmadığı məntəqələrin yeri boş buraxılmışdır. Dialekt faktlarının aydın və dəqiq olmasını göstərmək üçün atlasa material toplanmış rayon, kənd və qəsəbələrin adları, illəri,

suallara cavab verən şəxslər və materialı toplayan alimlərin siyahısı, yaşayış məntəqələrinin xəritələrdəki nömrələri, proqram, siyasi-inzibati və fiziki xəritə, açar-xəritə əlavə olunmuşdur.

"Azərbaycan dilinin dialektoloji lüğəti" 1999-cu ildə Ankarada Türk Dil Qurumu tərəfindən də çap olunmuşdur. Lüğət 2 cilddən ibarət olub, 20 min sözü əhatə edir. Lüğətdə Azərbaycan ədəbi dilində işlənməyən, şivələrdə işlənən, fonetik tərkibcə ədəbi dildəki ilə eyni, mənaca ya tam fərqli, ya da əlavə mənası olan sözlər öz əksini tapmışdır. Çoxmənalı və omonim sözlərin işləndiyi şivələr xüsusi qeyd olunmuş, əksər sözlərin mənaları cümlələrlə izah edilmişdir. Məsələn, lüğətdə "xır"sözünün müxtəlif şivələrdə 8 məna (çəltik ləki, tamam, çınqıl, paxıl, vint, bostan ləki, xırda) ifadə etməsi konkret nümunələrə əsaslanır.

2003-cü ildə S.Behbudovun "Azərbaycan dili şivələrinin omonimlər lüğəti" və 2011-ci ildə "Frazeoloji lüğət (dialekt materialları əsasında)" çap olunmuşdur.

2007-ci ildə dialektoloji lüğət təkmilləşmiş şəkildə Bakıda çap olunmuşdur. Lüğət 28 min sözdən ibarətdir. Sözlərin mənası yalnız Azərbaycan dilindədir. Lüğətdə dilimizin Azərbaycan Respublikası (66 şivə), Gürcüstan (7 şivə), Dağıstan (2 şivə), Ermənistan (14 şivə) və İran (5 şivə) ərazilərindəki əksər şivələrin materialları öz əksini tapmışdır. Burada ədəbi dildə işlənməyən, mənaca tam fərqli və ya əlavə mənası olan sözlər, çoxmənalı sözlər, omonimlər, sinonimlər, frazeoloji ifadələr əhatə olunur. Ədəbi dildən fonetik cəhətdən

fərqlənən sözlər də baş söz kimi verilir. Məsələn.: aluc (Quba) – alça və s.[1]

Bu lügət əvvəl çap olunmuş lüğətlərdən söz ehtiyatının zənginliyi ilə fərqlənir, çin sözünün 6 mənası göstərilir (düz, qoyunun dizi ilə topuğu arasındakı sümük, sıra, xalça üçün əyrilmiş ip, oraq, kərə).

Dialektoloji lüğətin 1964-cü il nəşrində həmin sözün bir mənası, 1999-cu il Ankara nəşrində 4 mənası qeyd olunmuşdur. "Bir" sözünün vasitəsilə yaranmış 30-a yaxın birləşmə verilmişdir: bir burum, bir çala, bir çilo "dəfə", bir çini "on qəpik", bir dilimə "birbaşa", bır qırnıx "bir az" və s. Lüğətdə şivələrin qədim türk leksik qatı da toplanmışdır. Ədəbi dildə arxaikləşən, şivələrdə işləkliyini saxlayan qədim türk sözləri söz yaradıcılığında da fəal iştirak edir. Məsələn, ***güz*** "payız" sözündən güzdex "payız otu", ***güzdəx*** "payızda qoyun, quzu saxlanan yer, yaz otu, payız yunu, payızda yetişən xiyar", ***güzdüx*** "payızzıx taxıl", ***güzəm*** "payızda qırxılan yun", güzü "payızlıq şum" və s. sözlər əmələ gəlmişdir.

Prof. A.Qurbanovun elmi yaradıcılığında da müntəzəm olaraq dilimizin dialektlərinə münasibət bildirilmiş, həmin fəaliyyətin nəticəsi olaraq "Cucikənd şivəsi" (Bakı. 2001) əsəri meydana çıxmışdır. Daha sonra alim əsər üzərində yenidən işləmiş, 2007- ci ildə ikinci dəfə nəşr etdirmişdir.

[1] Behbudov S. M. "Azərbaycan dili şivələrinin frazeologiya lüğəti", Bakı, "Elm və təhsil", 2011, 292 s.

Tanınmış dilçi-alim, dialektoloq professor E.Əzizovun tədqiqatlarında dialektoloji problemlərə müntəzəm olaraq fikir bildirilir. Alimin əsərlərində əsas yer alan məsələlərdən biri tarixi dialektologiya məsələləri olmuşdur. E.Əzizovun "Azərbaycan dilinin tarixi dialektologiyası" (Bakı. 2016) əsəri Azərbaycanda dilçiliyin inkişafı istiqamətində nəşr edilən ən uğurlu işlərdən biridir. Kitabda Azərbaycan dili tarixi dialektologiyasının mövzusu, mənbələri, tədqiqat üsulları müəyyənləşdirilmiş, Azərbaycan dilinin tarixi kökləri, dildə dialekt fərqlərinin yaranması və dilin dialekt bölünməsi tarixi faktlar əsasında araşdırılmışdır.

Metodik vəsait kimi təqdim edilmiş bu kitabda V.V.Vinoqradov, K.V.Qorşkova, B.A.Serebrennikov kimi dilçilərin fikirlərinə istinad edən E.Əzizov, haqlı olaraq, T.Hacıyevin: "...dialektlərin tarixi öyrənilərkən xalqın etnik tarixinin aydınlaşdırılması tarixi dialektologiyanın yaradılmasının tərkib hissələrindən biridir" fikrini əsas götürmüş və bu prosesin dialektlərin öyrənilməsində ən mühüm həlqəni təşkil etdiyini vurğulamışdır.[1]

E.Əzizov belə nəticəyə gəlmişdir ki, Azərbaycan dilinin əsas ləhcələri tarixi-coğrafi ərazi çərçivəsində Kürdən şimala olan ərazinin şimal-şərq hissəsində (şimal-şərq ləhcəsi); Qərbdə Kür və Araz çayları arasındakı ərazidə (qərb ləhcəsi); cənubda – Cənubi Azərbaycan, Naxçıvan, İrəvan və Lənkəran regionlarında (cənub ləhcəsi) formalaşmışdır.

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

Şimal, qərb qismən də cənub şivə əlamətlərini və substrat elementləri özündə birləşdirən Şəki-Zaqatala regionunun şivələri (şimal-qərb şivələri) qarışıq şivələrdir. Kür çayından şimalda Ağdaş, Göyçay, Ucar, Zərdab rayonlarının, cənub-şərqdə Cəlilabad, Biləsuvar rayonlarının, nisbətən cənub-qərbdə Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının ərazilərdə əsas ləhcələr arasında keçid şivələr yerləşir.[1]

2017-ci ilin noyabr ayında uzunmüddətli axtarış və tədqiqatların nəticəsi olaraq meydana gəlmiş "Azərbaycan dili Naxçıvan dialektoloji atlası" (Bakı: "Elm və təhsil". 2015) işıq üzü gördü.

Atlasın tərtibi istiqamətində çalışmalar 2015-ci ildən başlasa da, atlas-kitab 2017-ci ilin dekabr ayında oxucuların, dilçilərin istifadəsinə verildi. Bu möhtəşəm hadisə həm dilçi-dialektoloqların, həm də geniş oxucu kütləsinin böyük sevincinə səbəb oldu. Dörd dildə, olduqca nəfis şəkildə çap edilən dialektoloji atlasla yanaşı, Naxçıvan dialektoloji lüğəti və proqram da oxuyuculara təqdim edildi.

Kitaba yazılan ön sözdə deyilir ki, Naxçıvan dilinin dialekt və şivələrinin geniş tədqiqinə 1950-ci illərdən başlanılmışdır. EA-nın ekspedisiya qrupu Naxçıvanın 60-a yaxın yaşayış məntəqəsində olmuş, dialektoloji material toplamışlar. Nəticədə "Azərbaycan dilinin Naxçıvan qrupu dialekt və şivələri" monoqrafiyası (Bakı. 1962) nəşr edilmişdir. Kitabda 5000-ə yaxın söz və ifadə qeyd

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

olunmuşdur. 250-yə qədər xəritə, elektron lüğət (disk) və proqram da lüğətə əlavə edilmişdir. Bundan sonra tədricən Azərbaycanın digər bölgələrinin də dialektoloji lüğətlərinin toplanıb nəşr edilməsi nəzərdə tutulmuşdur.

Dialektoloji müşahidə zamanı tədqiqatçıların diqqətini öncə yerli əhalinin danışığındakı səslər, onların uzun, qısa və burun variantları, sözlərin tərkibindəki səslərin yerdəyişməsi cəlb edir. Müxtəlif növlü folklor nümunələrində yerli tələffüz formaları saxlanmışdır ki, bu da dialektin bəzi morfoloji xüsusiyyətləri barədə aydın təsəvvür yaradır.

Azərbaycan dilçiliyində dialektoloji sistemin öyrənilməsi istiqamətində daim tədqiqatlar aparılmış və bu gün də aparılmaqdadır. "Azərbaycan dilinin Ağcabədi rayonu şivə- ləri" (İ.Quliyev. Bakı: 1973); Qarabağ dialektinin əfşar şivəsi" (E.Allahverdiyev. Bakı: 1995); "Axısqa türklərinin dili" (İ.Kazımov. Bakı: 2002); "Oğuz qrupu türk dillərində qohumluq terminləri" (A.Yunusov. Bakı: 2008); "Azərbaycan dilinin Yevlax şivələrinin leksikası" (N.Həsənova. Bakı: 2010) və digər bu kimi namizədlik və doktorluq dissertasiyalarının uğurla müdafiəsi dilçiliyin bu sahəsinə diqqətin olduğunu isbat edir. Bu tədqiqatlar bir daha göstərir ki, dialektoloji araşdırmalara xüsusi ehtiyac var və dilçiliyin inkişafı, tariximizi əks etdirən dil faktlarının qorunması üçün böyük əhəmiyyət kəsb edir.

Qarabağ dialektində ədəbi dilə, digər dialekt və şivələrə oxşar xüsusiyyətlərlə yanaşı, dilimizin tarixi inkişaf mərhələlərində işlək olmuş bir sıra qədim xüsusiyyətlər də

qorunub saxlanmışdır. Bu gün dialekt və şivələrimizdə, o cümlədən, Qarabağ dialektində mövcud olan bir çox əlamətlər Türkiyə türkcəsində ədəbi dil səviyyəsindədir. Azərbaycan və Türkiyə şivələrinin tarixi-müqayisəli şəkildə tədqiqi bu dillərin mənşəyinin araşdırılmasında mühüm əhəmiyyətə malikdir. Bu məqsədlə S.Talıbxanbəylinin Türkiyədə nəşr olunan "Azərbaycan yurd bilgisi" jurnalında 1933-cü ildə çap olunmuş silsilə məqalələrində Qarabağ və İstanbul şivələrinin özünəməxsus xüsusiyyətləri qarşılaşdırılmışdır.

Qarabağ dialektinə daxil olan Ağcabədi və Füzuli şivələri ayrılıqda tədqiqatçılar tərəfindən öyrənilmişdir. İ.Məmmədov "Azərbaycan dilinin Qaryagin (Füzuli) rayonu şivələri", İ.Quliyev isə "Azərbaycan dilinin Ağcabədi rayonu şivələri" mövzusunda namizədlik dissertasiyaları müdafiə etmişlər. Hər iki dissertasiyada şivələrin ədəbi dillə oxşar və fərqli cəhətləri, spesifik xüsusiyyətləri qədim yazılı abidələrin materialları ilə müqayisəli şəkildə araşdırılmışdır.

Qarabağ şivələri ilk dəfə mükəmməl formada Azərbaycan Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun dialektoloqları tərəfindən tədqiq olunmuşdur. 1966-68-ci illərdə həmin əraziyə dəfələrlə elmi ekspedisiyalar təşkil olunmuş, şivələrin hər birinin fonetik, qrammatik və leksik xüsusiyyətləri aşkara çıxarılmışdır. Tədqiqatları ümumiləşdirən monoqrafiyadan aydın olur ki, dialektdə Orxon-Yenisey abidələri, "Kitabi-Dədə Qorqud", eləcə də digər qədim türk yazılı abidələrinin dili ilə səsləşən

leksik vahidlər geniş yayılmışdır. Müəlliflər hər bir maraqlı faktın işlənmə tarixini və yayılma arealını müəyyənləşdirmişlər. Monoqrafiyanın "Əlavə" bölməsində tədqiqatçıların fikirlərini təsdiqləyən dialektoloji mətnlər və ən çox işlənən sözlərin lüğəti öz əksini tapmışdır.

Təəssüf ki, bu monoqrafiya indiyə qədər çap olunmamışdır. Lakin alimlər ruhdan düşməmiş, "Azərbaycan dilinin Dağlıq Qarabağ şivələri" monoqrafiyası üzərində işi də başa çatdırmışlar. Dialektologiya mövzusunda yazılmış monoqrafiyaların, dissertasiyaların illərlə arxivdə yatıb qalması dialektoloji əsərlərin nəşrinə biganəlikdən irəli gəlmişdir. Son illər Respublika Prezidentinin sərəncamı (Bakı. 2013) ilə müəyyən edilmiş Dövlət proqramının həyata keçirilməsi nəticəsində dilçiliyin digər sahələri ilə yanaşı, dialektoloji tədqiqatlara da start verilmiş, yarımçıq qalan işlərin icrası sürətləndirilmişdir. Son dövrdə nəşr edilən İ.Bayramovun "Azərbaycan dialektologiyasının əsasları" (Bakı. 2015), "Azərbaycan dili şivələrinin fonetikası" (Bakı. 2016), E.Əzizovun "Azərbaycan dilinin tarixi dialektolo- giyası" (Bakı. 2016); "Azərbaycan dilinin Naxçıvan dialektoloji lüğəti" (Bakı. 2017) və s. kimi əsərlər buna nümunə ola bilər.

Belə əsərlərdən biri də AMEA-nın nəşri olan "Qarabağ: folklor da bir tarixdir" (Bakı. 2013) kitabıdır. Kitabın V və VI cildləri sırf Qarabağın ağız ədəbiyyatına, folklor nümunələrinə həsr edilmiş və çox böyük zəhmətin nəticəsidir. Kitabın V cildində Qarabağın Bərdə. Füzuli,

Şuşa, Ağdam, Zəngilan rayonlarından toplanmış mifoloji mətnlər, rəvayətlər, bu ərazilərdə yerləşən pirlər, türbələr, tayfa və nəsillər, tarixi şəxsiyyətlər, etnoqrafik mətnlər, hətta nağıllar belə öz ifadəsini tapmışdır. VI cilddə isə Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanmış materiallar öz ifadəsini tapmışdır.

Qeyd* Qarabağ dialekti haqqında əvvəldə geniş məlumat verilmişdir.

IV MÖVZU

AZƏRBAYCAN XALQININ VƏ DİLİNİN FORMALAŞMASINDA İŞTİRAK ETMİŞ TAYFALAR

Xalqımızın formalaşması haqqında sovet dövründən belə bir fikir formalaşmışdır: Atropatenanın və Qafqaz Albaniyasının qədim tayfaları olan mannalılar. Midiyalıların bir hissəsi, kaduslar, albanlar və s. xalqımızın etnogenezisində rol oynamışlar.

Daha sonra bu ərazilərə soxulmuş kimmerlər, skiflər, hunlaroğuzlar, monqollar və s. İrandilli, türkdilli qruplar əhalinin tərkibinə qarışmışdır.

Bu konsepsiyaya görə "Azərbaycan tarixi" kitabında yazılan qənaət belədir: "Bəzi xalqlarda olduğu kimi, yerli əhalinin dilinin gəlmələrin dili ilə əvəz olunması Azərbaycanda da baş vermişdir". Bu doğru fikir deyil.

Dilçilikdə formalaşan doğru qənaət belədir ki, dilimiz Azərbaycana hazır gətirilməyib. Gəlmələrin dili deyil, uzun tarixi proses nəticəsində formalaşmış bir türk dilidir.


Altay
türk
monqol
tunqus
mancur
koreya
yapon
oğuz
qıpçaq
qarluk
bulqar
tukyuy
Azərbay can
türk
türkmən
qaqauz

Azərbaycan dilinin formalaşması

1. Ə.Dəmirçizadə:

1) X-XI əsrlərdə təşəkkül tapmışdır;

2) VII-X əsrlərdə formalaşmışdır;

3) VII-IX əsrlərdə;

4) V-IX əsrlərdə tam halda formalaşmışdır.

2. Ə.Rəhimov:

1) Azərbaycan dili səcuqların Qafqaza gəlməsindən əvvəl mövcud olmuşdur;

2) V-VI əsrlərdə bu coğrafiyada məskunlaşmış tayfalar arasında ünsiyyət vasitəsi olmuşdur.

3. T.Hacıyev:

1) VII-VIII əsrlərdə formalaşmış;

2)V-VI əsrlərdə formalaşmış.

4. Q.Voroşil:

1) IV-V əsrlər

2) VII əsr.

5. V. Aslanov:

"Kitabi-Dədə Qorqud"un dili II-VI əsrlər qədim Azərbaycan dilidir.

Xalqın və dilin adı

Dilimizin adı müxtəlif səbəblərdən dəyişdirilmiş, uzun müddət "türki", "türk dili", "türkcə", "Azərbaycan türkcəsi" və s. adlandırılmışdır.

Əslində tarixi mənbələrə əsaslansaq, ağqoyunlu və qaraqoyunlu tayfa ittifaqlarına daxil olan bütün tayfalar özlərini ***türkmən*** adlandırmışlar.

Kərkük türkmanları özlərini də, bizi də yenə türkman adlandırırlar. Onların özlərinin və dillərinin bizim dilimizdən heç bir əsaslı fərqi yoxdur.

Ə.Dəmirçizadə: "XV-XVIII əsrlərdə türki və qızılbaş ifadələri azərilər mənasında işlənmişdir. Həmin dövrdə osmanlı türkcəsi rumi adlandırılırdı".

Hazırda:

Gürcülər bizə "tatari"; osetinlər "türk"; Gürcüstan yunanları "turkos"; qaraçay-balkarlar "türkli"; ləzgilər "türk" adlandırırlar.

- çeçenlər: ***qezalo***
- avarlar: ***padar***
- saxurlar: ***muğal***
- Dərbəndin tərəkəmə kəndlərində: ***həmşəri*** və ***qacar.***

Göründüyü kimi, "qezalo, muğal, həmşəri" adlarından başqa. Qalan bütün adlar türk tayfaları ilə əlaqəlidir.

Qeyd: **qezalo** sözünün çeçen dilində ***"tatar"*** mənasında işlənməsi məlumdur.

Azərbaycan dilinin formalaşmasından bəhs olunarkən nədənsə Azərbaycan əhalisinin türkləşməsi məsələsi Azərbaycan dilinin yerli dil olması faktına qarşı qoyulur. Fikrimizcə, "türkləşməni" Azərbaycan dilinin gəlmə bir dil kimi formalaşması mənasında yox, Azərbaycan dilinin Azərbaycan ərazisində yaşamış müxtəlif xalqlar arasında ümumi ünsiyyət vasitəsinə çevrilməsi, Azərbaycan dilinin təsir dairəsinin genişlənməsi faktı kimi başa düşmək

lazımdır. Gəlmə türk tayfaları yerli əhaliyə nəinki öz dilini verirdi, əksinə, onların öz dili yerli türkcəyə uyğunlaşırdı. Deməli, dilin tarixində elə bir dövr yaranır ki, əvvəllər adacıqlar şəklində mövcud olmuş yerli türk tayfa dilləri tarixən həmin ərazidə məskun olmuş və ya sonradan gəlmiş müxtəlif etnoslar (qohum və ya qeyri-qohum) üzərində qələbə çalır, Azərbaycan dili geniş bir ərazidə əhali arasında ünsiyyət vasitəsinə çevrilir. Bu prosesdə bəzi yerli və gəlmə dillər assimilyasiya olunur, lakin tamamilə yox olub getmir, ya məhdud dairədə ünsiyyət vasitəsi olur (udin və tat dilləri kimi), ya da məğlub olan dil (məsələn, ərəb dili) qalib dildə öz izini saxlayır. Əgər doğrudan da azərbaycanlılar (Azərbaycan türkləri) mənşəcə qeyri-türk olsa idi, Azərbaycan dili yalnız gəlmə türk tayfalarının dili hesabına formalaşsa idi, onda bu dildə assimilyasiyaya uğramış yerli dillərin izləri özünü göstərməli idi. Bəlli olduğu kimi, müasir Azərbaycan dilinin nə fonetik sistemində, nə də qrammatik quruluşunda indiyədək yad izə təsadüf olunmuşdur.

Azərbaycan dilçisi Voroşil Qukasyan "Azərbaycan dilinin təşəkkül tarixinə dair qeydlər" məqaləsində 1979-cu ildə nəşr olunmuş "Azərbaycan tarixi" kitabını (20) nəzərdə tutaraq yazır ki, "xatırlatdığımız kitabın müəlliflərinin dedikləri "Azərbaycan yerli əhalisinin dilcə türkləşməsi" ("языковая тюркизация коренного населения Азербайджана") prosesi ümumxalq Azərbaycan dili formalaşandan sonra başlandığı üçün indiyədək də davam edir. Məhz buna görə də Azərbaycan ərazisində türkdilli

qəbilələrlə yanaşı mövcud olmuş İrandilli və Qafqazdilli qəbilələr indiyədək ana dillərini mühafizə edib saxlamışlar”.[1]

Dil faktları, dil tarixçilərinin qənaətləri və bu sahədə aparılmış etnolinqvistik araşdırmalar Azərbaycan dilinin formalaşması tarixi ilə əlaqədar yanlış fikirləri rədd edir. Ə.Dəmirçizadənin, M.Şirəliyevin, M.Rəhimovun, T.Hacıyevin, V.Aslanovun və başqalarının tədqiqatlarında Azərbaycan xalq dilinin formalaşması məsələsi zəngin tarixi-linqvistik faktlar əsasında şərh olunmuşdur. Azərbaycan dili etnik mənşəyinə görə təmiz türk mənşəli olub özündə heç bir qeyri-türk əlaməti əks etdirmir. Azərbaycan dilinin təşəkkülü isə XI əsrdən əvvəl başlamışdır. Bu müddəa artıq 30-cu illərdən Azərbaycan dilçiliyində sübut olunmaqdadır. 1930-cu ildə çap olunmuş “Azərbaycan türk xalq şivələri lüğəti”nin ön sözündə Azərbaycan türk dilinin osmanlı dilindən əvvəl formalaşdığı göstərilmişdir.[2]

Ə.Dəmirçizadə ümumxalq Azərbaycan dilinin formalaşması tarixini müxtəlif illərdə müxtəlif dövrlərə aid etmişdir. O, 1958-ci ildə bu məsələ ilə əlaqədar olaraq yazmışdır: “X-XI əsrlərdə azərbaycanlılar arasında ümumi və kütləvi halda işlənilən və hamı tərəfindən anlaşılan dil nə alban tayfa dilləridir, nə oğuz tayfa dilidir, nə də qıpçaq; bu

[1] Qukasyan V.L. Azərbaycan dilinin təşəkkül tarixinə dair qeydlər //Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, 1983, s.35-62

[2] Azərbaycan tarixi. 3 cilddə. 1-ci cild. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1961.

dil məhz bu dövrdə artıq tam halda ümumxalq dili kimi təşəkkül tapmış olan Azərbaycan dilidir".

Sonralar Ə.Dəmirçizadə Azərbaycan dilinin təşəkkül dövrünü VII-X əsrlərə, VII-IX əsrlərə aid etmişdir.[1]

Müəllif özünün son tədqiqatında ümumxalq Azərbaycan dilinin V-IX əsrlərdə tam halda formalaşıb sabitləşdiyini göstərmişdir.[2]

M.Rəhimov ümumxalq Azərbaycan danışıq dili haqqında aşağıdakı nəticələrə gəlmişdir:

"Azərbaycan ərazisindəki İran və Qafqaz dillərində ümumi qədim türk elementlərinin olması, Qafqazın toponimikasında, qədim erməni mənbələrində və XI-XII əsrlərin farsdilli əsərlərində xeyli miqdarda qədim türkizmlər, eləcə də bir sıra başqa faktlar (ərəb tarixi mənbələri və s.) ehtimal etməyə imkan verir:

1) Azərbaycan (türk) dili Azərbaycan ərazisində səlcuqların Qafqaza gəlməsindən xeyli əvvəl fəaliyyət göstərmişdir;

2) Hələ eramızın V-VI əsrlərində ümumxalq Azərbaycan danışıq dili o vaxt Azərbaycan ərazisində məskun olan çoxsaylı tayfalar və xalqlar, müxtəlif Qafqaz

[1] Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. 1-ci hissə. Bakı: Maarif, 1979.
[2] Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. 1-ci hissə. Bakı: Maarif, 1979.

dillərində danışanlar arasında ümumi ünsiyyət vasitəsi olmuşdur”.[1]

Azərbaycan xalq dilinin formalaşması məsələsi T.Hacıyev tərəfindən də araşdırılmışdır.

O, əvvəllər türk mənşəli ümumxalq Azərbaycan dilinin VII-VIII əsrlərdə formalaşması fikrində olsa da[2], sonralar bu prosesin V-VI əsrlərdə baş verməsi qənaətinə gəlmişdir.[3]

Q.Voroşil 1981-ci ildə nəşr etdirdiyi məqaləsində Azərbaycan dilinin ən geci IV-V əsrlərdən mövcud olması barədə fikir söyləmiş, sonrakı tədqiqatında isə ümumxalq Azərbaycan danışıq dilin ən geci VII əsrdə formalaşdığını göstərmişdir: “Beləliklə, ən geci VII əsrin sonlarında vahid Azərbaycan xalqının formalaşması ilə əlaqədar olaraq ümumxalq Azərbaycan dili də meydana gəlir. Lakin bu dil əvvəlki əsrlərdə də ümumünsiyyət vasitəsi idi.

Azərbaycanın, demək olar ki, hər yerində kompakt şəkildə yaşamış Azərbaycandilli qəbilə və tayfalar özlərini V əsrdə də bir dildə danışan xalq kimi hiss etdikləri üçün qonşu xalqların, xüsusilə Zaqafqaziyadakı və Dağıstandakı

[1] Рагимов М.Ш. Значение неродственных языков на территории Азербайджана в сравнительно-историческом изучении тюркских языков огузской группы // Сов. тюркология, 1971, №2, с.50- 58.
[2] Hacıyev T. Azərbaycan ədəbi dili tarixi (Təşəkkül dövrü). Bakı: ADU nəşri, 1976, 156 s.
[3] Hacıyev T.İ., Vəliyev K.N. Azərbaycan dili tarixi. Oçerklər və materiallar. Bakı: Maarif, 1983

türkdilli qəbilə və tayfaların siyasi-ictimai və mədəni həyatında fəal iştirak edirdilər".[1]

V.Aslanovun fikrincə, "Kitabi-Dədə Qorqud"un dili bir çox hallarda II-VI əsrlər qədim Azərbaycan dilini əks etdirir.[2]

F.Zeynalov Azərbaycan dilinin formalaşmasını IV-VII əsrlərə aid edir.[3]

M.Şirəliyevə görə, Azərbaycan dili IV-V əsrlərdə Azərbaycan ərazisində oğuz və qıpçaq tayfalarının dilləri əsasında formalaşmışdır.[4]

Göründüyü kimi, dilçi alimlərin gəldikləri nəticələrə görə, Azərbaycan dilinin formalaşması prosesi əsasən IV-IX əsrlər arasında baş vermişdir.

Azərbaycan dilinin müxtəlif türk tayfa dilləri əsasında formalaşdığını dilimizin adlandırma şəkilləri və qonşu xalqların azərbaycanlılara verdikləri adlar aydın şəkildə göstərir. Azərbaycan dilinin uzun müddət "türki", "türk dili", "türkcə", "Azərbaycan türkcəsi" adları ilə tanındığı məlumdur.

"Sovet tarix ensiklopediyası"nda göstərilir ki, ayrımlar, qarapalpaqlar, padarlar, şahsevənlər, qaradağlılar,

---

[1] Hacıyev T.İ., Vəliyev K.N. Azərbaycan dili tarixi. Oçerklər və materiallar. Bakı: Maarif, 1983

[2] Aslanov V. XII əsrəqədərki Azərbaycan dili // Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, 1983, s. 73-83.

[3] Zeynalov F. Azərbaycan dilinin mənşəyi məsələsinə dair//Azərbaycan filologiyası məsələsi. II buraxılış. Bakı: Elm, 1984, s.22-30.

[4] Ширалиев М.Ш. Закономерности развития азербайджанского языка // Сов. тюркология, 1985, №5, с.3-8

əfşarlar və s. azərbaycanlıların tarixən formalaşmış etnoqrafik qruplarıdır.[1]

S.İ.Bruk İranda müqəddəm, dümbal, qaraçorlu, muğanlı, bayat və cavanşir tayfa adlarını saxlamış əhalini də azərbaycanlıların etnoqrafik qrupları hesab edir.[2]

Ə.Dəmirçizadə Azərbaycan dilinin əsas mənbələrini belə müəyyənləşdirir: "Türk dilləri ailəsinin qərb qrupuna mənsub olan dillərin, o cümlədən Azərbaycan dilinin əsas mənbələri isə eramızdan əvvəl və eramızın birinci min ili dövründə Xəzər dənizinin şərqində, şimalında, qərbində, cənubunda, ümumən Qafqazda məskən salmış sak-skif, qas-qaspi-qassit-xəzər, sabırsuvar, hun-qun, türk-törək, ğuz-oğuz, qıpçaq-qıfçax adları ilə tanınan qəbilə və tayfaların dilləri olmuşdur".[3]

Müasir türklər (Türkiyə türkləri) irqə görə yevropeiddir.[4] Qədim salnamələrə görə, qıpçaqlar da mavigözlü, sarışın yevropeid olmuşlar.[5]

---

[1] Трофимова А.Г. Азербайджанцы//Советская историческая энциклопедия. Т.1. М., 1961, с.265-266

[2] Брук С.И. Население мира. Этнодемографический справочник. М.: Наука, 1986

[3] Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. 1-ci hissə. Bakı: Maarif, 1979.

[4] Ермеев Д.Е. На стыке Азии и Европы. Очерки о Турции и турках. М.: Наука, 1980.

[5] Шаниязов К.Ш. К этнической истории узбекского народа (Историко этнографическое исследование на материалах кипчакского компонента). Ташкент: Фан, 1974

Tədqiqat göstərir ki, azərbaycanlılarının fiziki tipinin formalaşmasında iki yevropeid antropoloji tip iştirak etmişdir.[1]

R.Qasımova belə bir nəticəyə gəlmişdir ki, "İran azərbaycanlıları fiziki əlamətlərinin xüsusiyyətlərinə görə, sovet azərbaycanlılarına çox yaxındırlar. Hər iki qrup Kaspi antropoloji tipinin əlamətləri ilə xarakterizə edilir".[2]

Deməli, antropoloji nəticələrə görə, Azərbaycan dilinin köklərini bu dildə danışan xalqın əsas kütləsinin məskun olduğu ərazidə – Cənubi Azərbaycanda və Qafqazda axtarmaq lazımdır.

Eramızdan əvvəl XIV əsrdə Assuriya mixi yazılarında Urmiya gölü rayonunda turikkilər qeydə alınmışdır. Yenə eramızdan əvvəlki birinci minilliyin başlanğıcında Urartu mixi yazılarında Azərbaycan ərazisində Urartu dili qaydasına uyğun olaraq turixi adlanan əhalinin yaşadığı vilayət qeyd olunmuşdur.[3]

[1] Aslanov V. XII əsrəqədərki Azərbaycan dili // Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, 1983, s. 73-83.
[2] Касимова Р.М. К изучению антропологии иранских азербайджанцев // Азербайджанский этнографический сборник. Вып. III. Баку: Элм, 1977, с.212-217.
[3] Ямпольский З.И. Древнейшие сведения о тюрках в зоне Азербайджана // Уч. зап. Азерб. гос. ун-та, сер. яз. и лит., 1966, №2, с.62-64.

Qaraqalpaqların etnogenezində iştirak etmiş muyten adlı tayfanın eramızdan əvvəl II-I minillikdə cənub-qərbdən Urmiya gölü ətrafından köçdüyü müəyyənləşdirilmişdir. [1]

Antik müəlliflər Mela və Plininin məlumatlarına görə, 44-cü ilə qədər, iki min il bundan əvvəl Dərbənd keçidinin yaxınlığında – Şirvan və Mil otlaqlarında türklər yaşayırdılar.[2]

Türk etnonimi Herodotda tirk, Melada turk, Plinidə tirk şəkillərində işlənmişdir.[3] Eramızdan əvvəlki minilliklərdə İran yaylasının cənub-qərbində elamlılar yaşamışlar. Onların dilində meşa sözü müasir Azərbaycan dilindəki mənada ("meşə") işlənmişdir.[4] Bu uyğunluq təsadüfi sayılmamalı, Elam dili ilə Azərbaycanın prototürk etnoslarının dili arasında müəyyən bir əlaqə ilə (dil əlaqəsi) şərtlənməlidir. Həm də maraqlıdır ki, türk dilləri içərisində meşə sözü "meşə" mənasında yalnız Azərbaycan dilində işlənir. Türk və qaqauz dillərində meşə sözü "palıd" mənasını bildirir. Saka adlanan tayfaların müəyyən bir hissəsinin dilinin Azərbaycan dilinin mənbələrindən

[1] Насыров Д.С. Становление каракалпакского общенародного разговорного языка и его диалектная система. Нукус-Казань: Каракалпакстан, 1976

[2] Ямпольский З.И. Древнейшие сведения о тюрках в зоне Азербайджана // Уч. зап. Азерб. гос. ун-та, сер. яз. и лит., 1966, №2, с.62-64.

[3] Ямпольский З.И. О тюрках V века до нашей эры // Уч. зап. Азерб. гос. ун-та, сер. яз. и лит., 1970, №5-6, с.10-13.

[4] Ямпольский З.И. Древнейшие сведения о тюрках в зоне Азербайджана // Уч. зап. Азерб. гос. ун-та, сер. яз. и лит., 1966, №2, с.62-64.

olduğunu da ehtimal etmək olar. Antropoloq V.Alekseyev belə nəticəyə gəlmişdir ki, "türk xalqlarının və dillərinin mənbələrini xeyli əvvəllərdə, eramızın başlanğıcında və yaxud hətta xeyli əvvəllərdə skif zamanında axtarmaq lazımdır".[1]

Saka və massagetlərin Orta Asiya xalqlarının, xüsusilə türkmənlərin və qazaxların etnogenezində müəyyən rol oynadıqları elmi ədəbiyyatda göstərilmişdir. Skiflər özlərinə saka deyirdilər (Bizcə, onların adı sak kimi deyil, saka şəklində yazılmalıdır). Müasir elmi ədəbiyyatda saka termini altında Orta Asiyanın şərq rayonlarının və Şərqi Türküstanın qədim İrandilli tayfaları nəzərdə tutulur. Ancaq saka termini tez-tez geniş mənada işlədilərək, ümumiyyətlə, müxtəlif regionlarda yaşamış skiflərə aid edilir. Hazırda tarix ədəbiyyatında sakaların (skiflərin) İrandilli olması fikri hakim mövqedədir, lakin bununla yanaşı, qədimdən saka adı ilə tanınan tayfaların müəyyən bir hissəsinin türklərdən ibarət olması haqqında fikir də mövcud olmuşdur. Hələ Bizans tarixçisi Menandr (VI əsr) türklərin qədimdə saka adlandığını göstərmişdir. Yenə həmin dövrdə yaşamış F.Simokatta Qafqazda və şimalda yaşayan skifləri türk hesab etmişdir. VII əsrə aid "Erməni coğrafiyası"nda Skifiya Apaxtark (yəni "Türk") kimi izah olunmuşdur.[2]

---

[1] Alekseyev V. Türk xalqlarının əcdadları. Rus dilindən tərcümə. Azərbaycan məktəbi, 1971, №8, s. 51-57.

[2] Тер-Мкртичян Л.Х. Армянские источники о Средней Азии V-VII вв. М.: Наука, 1979.

X.Cuğaetsi (XVIII əsr) Asiya Skifiyasını Apaxtark, yəni "Türk" adlandırmışdır.[1]

Skiflərin İrandilli olmasını (şübhəsiz ki, onların içərisində İrandillilər də var idi) əsaslandırmağa çalışanların əsas sübutu skif çarları adlarının etimoloji təhlilinə istinad olunmasıdır. Bəllidir ki, etimologiya müəyyən dərəcədə fərziyyə ilə bağlı olan bir elm sahəsidir və müəyyən bir etimologiyaya əks olan fikir də söyləmək olar. Skifşünaslıqda belə hallar mövcuddur. Məsələn, Tarqitayın oğullarının adlarını (Lipoksay, Arpoksay, Kolaksay) tədqiqatçılar İran dili ilə əlaqələndirməyə çalışmışlar.

Vaxtilə V.İ.Abayev sakalarda maralın totem olduğunu fərz edərək saka etnoniminin "maral" (osetincə: saq) mənasında olduğunu göstərmişdir. Bir çox tədqiqatlarda belə bir meyil nəzərə çarpır ki, guya skif sözlərinin məlum etimologiyaları artıq sakaların dil mənsubiyyəti məsələsini həll etmişdir. Halbuki bəzi skifşünaslar (B.A.Litvinski, H.V.Beyli) V.İ.Abayevin saka etnoniminə verdiyi izahla razılaşmırlar.

Hindistanın dövlət xadimi Cəvahirləl Nehru sakalar haqqında yazır: "Saklar iri köçəri türk tayfalarındandı".[2]

Deyilənlərdən aydın olur ki, sakalar Azərbaycanda yaşamış ən qədim tayfalardandır. Onlar mannalıların müttəfiqi olmuş, alban ittifaqında iştirak etmişdilər.

[1] Тер-Мкртичян Л.Х. Армянские источники о Средней Азии VIII-XVIII вв. М.: Наука, 1985.
[2] Nehru C. Ümumdünya tarixinə nəzər. Bakı: Gənclik, 1986.

Sakaların Azərbaycan xalqının etnogenezində müəyyən rolu olmuşdur. Tarixçilər Şərqi Zaqafqaziyada saka tayfa adının toponimikada saxlandığını göstərirlər. Uti ölkəsindəki Şakaşen (Şikaşen – sakaların sakin olduqları yer) vilayətinin adı saka etnonimi ilə bağlıdır. Ermənistanın rayonlarından birində bütünlükdə saka adlanan skiflər yerləşmişdi. Ermənistan ərazisindəki bəzi toponimlər sakaların yadigarıdır; məsələn, Razdan (çay və dərə adı). Bəzi erməni tarixçilərinin məlumatlarına görə, Artsax vilayətində Şikakar ("skiflər qayası") adlı yer vardı.[1] Şikakar sözünün iki hissədən ibarət olduğuna şübhə yoxdur: Şika (şaka-saka) və kar. "Qədim türk lüğəti"ndə kar sözünün "qolun yuxarı hissəsi" mənası var.[2] Şikakar toponimi "saka diki (qayası)" mənasını verir. Muğan çölü daxil olmaqla Arazın cənubunu və şimalını əhatə edən düzənlik ərazinin Balasakan adlanması e.ə. III əsrdən məlumdur. Balasakan toponimində saka etnoniminin əks olunduğu ehtimal edilir. Azərbaycandakı Şəki şəhərinin, Ermənistanın Sisyan rayonundakı Şəki kəndinin adları, habelə Türkiyənin Qars əyalətindəki Şəki toponimi saka (şaka) etnonimi ilə bağlı olaraq yaranmışdır. Saka etnonimi türk xalqlarında saxlanmışdır. Bu etnonim yakutların özlərinə verdikləri saxa adı ilə uyğun gəlir. Bundan başqa, qazaxlarda şaqa, özbəklərdə şakay, şekey, qırğızlarda sake, saka,

[1] Техов Б.В. Скифы и Центральный Кавказ в VII-VI вв. до н.э. М.: Наука, 1980.
[2] Древнетюркский словарь. Л.: Наука, 1969

türkmənlərdə şaklar, xakaslarda sağay etnonimləri qeydə alınmışdır. Qədim peçeneq dilində saka sözü "paya, dirək" mənasını ifadə etmişdir.[1]

Yuxarıda qeyd etdik ki, tarix ədəbiyyatında Makedoniyalı İsgəndərin dövründən qabaq Kür və Araz çayları arasındakı ərazidə yaşayan sakaların (skiflərin, sakasenlərin) Turan tayfasına mənsubluğu barədə məlumat var. Turan – tur tayfasının yaşadığı yer deməkdir. "Avesta"nın XVII yaştında "itiyerişli ata sahib olan" epiteti ilə tur tayfasının adı çəkilir."

Gürcü salnamələrində Kür çayının sahilində yaşamış buntürklərlə bağlı məlumat saxlanmışdır. "Kartlinin müraciəti" xronikasında (VII-IX əsrlər) Makedoniyalı İsgəndərin Gürcüstana əfsanəvi yürüşündən danışılarkən Kürün axarı boyunca ətrafı ilə birlikdə dörd şəhərdə yaşayan sərt buntürklər və xaldeylilər tərəfindən köçürüldükdən sonra Zanavada yerləşmiş honlar xatırlanır. Tədqiqat göstərir ki, buntürklər Kartlidə Makedoniyalı İsgəndərə qədər və hətta Yerusəlimin dağılmasınadək (e.ə. 586-cı ilə qədər) yaşamışlar.

Buntürk etnoniminin mənasının aydınlaşdırılması bu adı daşıyan tayfa ilə əlaqədar mövcud təsəvvürün genişlənməsinə kömək edə bilər. "Kartlinin müraciəti" xronikasını gürcü dilindən rus dilinə tərcümə edən Y.S.Takayşvili buntürk sözünün bun hissəsinin gürcü sözü

[1] Баскаков Н.А. Тюркские языки. М.: Изд-во восточной литературы, 1960.

olmadığını və buntürkün “nizəli türklər” mənasını verdiyini göstərmişdir. N.Y.Marr buntürk termini ilə əlaqədar olaraq bir neçə dəfə fikir söyləmiş və onu “əsl türk”, “təmiz türk” kimi izah etmişdir. L.M.Meliksetbek bu izaha etiraz edərək həmin termini huntürk kimi bərpa etmişdir. Buntürk etnoniminin bun hissəsini türk mənşəli hesab edən Azərbaycan tədqiqatçıları bu adın “türk nəsli, türk soyu” (M.Seyidov), “əsas türklər, özül türklər” (E.Əlibəyzadə), “qəmli türk” (S.Əliyarov) mənalarını göstərmişlər. T.Hacıyev də bun sözünün “əsas, kök” mənasında olması qənaətinə gəlmişdir (“Azərbaycan”, 1988, №8, s.161).

E.Əlibəyzadə buntürkü “əsas türk”, “özül türk” kimi izah edərkən “Qədim türk lüğəti”ndəki bun (əsas, özül) sözünə əsaslanır.[1] Buntürk və qalın oğuz adlarının birinci tərəflərini (bun, qalın) eyni mənanı ifadə edən sinonim sözlər hesab etmək olar.

Eramızın əvvəllərində Azərbaycanda getmiş etnik proseslərdə hunların mühüm rolu olmuşdur. Azərbaycan dilinin formalaşmasında ilk mühüm mərhələ də hun mərhələsi hesab oluna bilər. Həm də təkcə Azərbaycan dilinin deyil, ümumiyyətlə, türk dillərinin formalaşmasında hunların oynadıqları rola görə, türk dillərinin tarixində hun dövrü (e.ə. III əsrdən eramızın V əsrinədək) müəyyən edilir, hərbi hun və şərqi hun olmaqla türk dilləri iki budağa

[1] Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı.1999.

ayrılır.[1] Hunların ərazisi 24 hissəyə bölünür və buna uyğun olaraq 24 hərbi başçı olurdu. 24 hərbi başçının hakimiyyəti altında olan əraziyə Çin termini ilə qo (dövlət) deyilirdi. Başçılar adətən şanyüyün oğulları və yaxın qohumları olur, yalnız şanyüyün özü tərəfindən təyin olunurdular.[2] Oğuzların İç Oğuz və Taş Oğuz olmaqla iki qola ayrıldıqları məlumdur. Hunlar da oğuzlar kimi iki böyük qoldan ibarət idi: iç hun və daş hun.

Xaylandur etnonimi ilə əlaqədar olaraq qeyd edir ki, erməni mənbələrində xaylendurk şəklində yazılan sözün sonundakı durk hissəsi türk deməkdir.[3] Voroşil Qukasyan Yeğişenin əsərinin bu etnonimi əyləntürk (haylantürk) kimi verir və onun "oturaq türk" mənasında olduğunu göstərir.[4]

T.Hacıyev haylantürk etnoniminin haylan hissəsi ilə əlaqədar olaraq yazır ki, "indi şivələrimizdə "qoçaq", "qızğın" mənasında dəli – haylan sözü var. Burada "dəli" ("Koroğlu" dəliləri ilə müqayisə edin) və "haylan" sinonimdir" ("Azərbaycan", 1988, №8, s.162).

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, xaylandur etnonimi haylantürk sözünün dəyişmiş şəklidir.

---

[1] Баскаков Н.А. Тюркские языки. М.: Изд-во восточной литературы, 1960.

[2] История народов Восточной и Центральной Азии с древнейших времен до наших дней. М.: Наука, главная редакция восточной литературы, 1986.

[3] Togan A. Zeki Velidi. Azerbaycan//İslam Ansiklopedisi. C.2. İstanbul, 1970, s.91-118.

[4] Гукасян В.Л. Об одной древнетюркской письменности // Сов. тюркология, 1981, №5, с.76-84.

Türk dillərində söz əvvəlindəki h səsi sonradan meydana çıxmışdır (türk dillərinin sözlərində başlanğıc h samiti ya protetik səsdir, ya da başqa bir samitin dəyişmiş şəklidir).

Belə olan halda xaylandur (haylantürk) etnoniminin birinci tərəfini aylan - feili ilə əlaqələndirmək olar. Türk dillərində "***aylan"***- feilinin "dönmək, hərlənmək, dolanmaq" mənası var. Aylanmağ sözü "gəzib-dolanmaq, hərlənmək, dönmək" mənalarında Azərbaycan dilinin Quba, Dərbənd şivələrində geniş şəkildə işlənir (Dərbənd şivəsində bu feilin eylan şəkli də var). Haylantürk "gəzib dolanan türk", yəni köçəri türk deməkdir. Bu məna hunların həyat tərzinə çox uyğun gəlir. Belə hesab etmək olar ki, xaylandur (haylantürk) tayfası hunların tərkibindəki türk etnik qruplarından biri olmuşdur.

Eftalitlər və abdallar ağ hunlar hesab olunur. Eftalitlərin adı Bizans mənbələrində abdela şəklindədir. Fikrimizcə, eftal adı abdal-abdel etnoniminin fonetik dəyişikliyə uğramış formasıdır. Zəkəriyyə Ritor (VI əsr) Şimali Qafqazda Hun vilayətində yaşayan tayfalar içərisində abdellərin də adını çəkmişdir. Başqırdlar, qaraqalpaqlar, azərbaycanlılar, türkmənlər və qazaxlar arasında abdal adlı tayfa olmuşdur. Azərbaycan toponimiyasında abdal etnonimi ilə bağlı olan oykonimlər var: Abdal k. (Ağdam və Tovuz rayonlarında), Abdallı k. (Oğuz r.), Çoban Abdallı k. (Göygöl r.). İndiki Laçın şəhərinin də keçmiş adı Abdallar olmuşdur. Azərbaycan dilində abdal sözünün "sərsəri, avara, dərbədər" mənasında işlənməsi də diqqəti cəlb edir.

Hunların tərkibindəki güclü tayfalardan biri kəngərlər olmuşdur. Ptolomey (II əsr) Qafqaz Albaniyasının şəhərləri və kəndləri siyahısında kanqər və kənqar tayfa adı ilə bağlı olan Qanqaranın adını çəkir.[1]

Peçeneqlərin Azərbaycan ərazisinə IX-X əsrlərdə gəlmələri barədə tarixi məlumat var.[2] Bir sıra peçeneq etnonimləri (beçenek, ertim, küerçi, çur, xopon<kaban) Azərbaycan toponimiyasında öz izini saxlamışdır: Biçənək kəndi, Biçənək aşırımı (Naxçıvan MR), Yardımlı qəsəbə (Yardımlı r.), Gögərçi qışlaq (keçmiş Cavad qəzasında), Göyərçin Veysəlli (Cəbrayıl r.), Göyərçin dağı (Cəbrayıl r.), Qapanlı k. (Tərtər rayonunda 4 kənd), Qapanlı düzü (Tərtər r.), Qafan r. (Ermənistan Respublikası). Peçeneqlərin dilində işlənmiş biçe "xanım" qohumluq termini[3] Azərbaycan dilinin Bərdə və Şəki şivələrində də müşahidə edilir: biçə "əmi və ya dayı arvadı".

Bulqar, suvar, ağacəri, xəzər kimi qədim türk etnoslarının Azərbaycanda yaşaması coğrafi adlarla təsdiq olunur. Bulqarların çakar, kuvyar, esegel kimi tayfa adları müəyyən fonetik dəyişikliklərlə Çaxırlı (İmişli, Masallı, Cəbrayıl, Göyçay rayonlarında), Xubyarlı (İmişli, Cəbrayıl

[1] Алиев К. Этюды о населении древнего Азербайджана // К проблеме этногенеза азербайджанского народа. Баку: Элм, 1984, с.40- 68.
[2] Гейбуллаев Г.А. Топонимия Азербайджана (Историко-этнографическое исследоване). Баку: Элм, 1986.
[3] Насыров Д.С. Становление каракалпакского общенародного разговорного языка и его диалектная система. Нукус-Казань: Каракалпакстан, 1976

rayonlarında), Əzgilli (Beyləqan, Göygöl, Zaqatala rayonlarında) oykonimlərində saxlanmışdır (Müqayisə et: çakar>çaxır, kuvyar>xubyar, esegel>əzgil).

Suvar etnonimi də bir sıra toponimlərdə əks olunmuşdur: Biləsuvar – Azərbaycan Respublikası ilə İran arasında sərhəd bölgəsində xarabalıqları qalmış kənd, Biləsuvar təpəsi (Biləsuvar r.), Suvar dərəsi, Suvarlar məhəlləsi (Şəki rayonu – Baş Küngüt kəndi). Tovuz rayonundakı Ağacəri dağının adı isə ağacəri etnonimi ilə bağlıdır. Azərbaycan tarixində xəzər problemi mühüm yer tutur. Xəzərlər Azərbaycanın şimal hissəsinin bir sıra vilayətlərinə 150 ilədək sahiblik etmişlər.[1] M.Xoranatsidə (V əsr) xəzərlər ilk dəfə 193-213-cü illər arasında xatırlanır. "Ermənistan tarixi"ndə göstərilir ki, erməni çarı Vağarşakın vaxtında "xəzər və basil dəstələri öz çarı Vnasep Surxanın başçılığı altında Cor qapısından gələrək Kürü keçib onun ətrafına səpələndilər". A.Zəki Vəlidi Toqan barsulaları borçalılar – burçalılar hesab edir və onların Gəncə ilə Tiflis arasında Kür çayının cənubunda yaşadıqlarını göstərir.[2]

IV əsrin axırında Azərbaycana gələn hunlar içərisində Şimali Qafqazda və Volqanın aşağı axarında sakin olan xəzərlər də var idi.[3] Xəzərlərin bir qolu "çox döyüşkən xalq" kimi tanınan sabirlər (sabərlər) idi. Sabirlər 503-cü

[1] История Азербайджана. Под. ред. Дж.Б.Гулиева. Баку: Элм, 1979.
[2] Togan A. Zeki Velidi. Azerbaycan//İslam Ansiklopedisi. C.2. İstanbul, 1970, s.91-118.
[3] Azərbaycan tarixi. 3 cilddə. 1-ci cild. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1961.

ildə Qafqazın cənubuna keçmişdilər. Onların başçısı Ambazuk 508-ci ildə Azərbaycanda sasanilərdən Qubadla vuruşmuşdu.

Xəzərlər 627-628-ci illərdə bütün Zaqafqaziyanı işğal etmişdilər.[1]

VI əsrdə savirlərin və xəzərlərin basqınından sonra XII əsrin əvvəllərində Şərqi Gürcüstanda işlədilən altı dildən biri xazaruli adlanırdı.[2]

Etnoslarla əlaqədar geniş məlumatı E.Əzizovun "Azərbaycan dilinin tarixi dialektologiyası" (Bakı. 1999) kitabından almaq olar.

[1] История Азербайджана. Под. ред. Дж.Б.Гулиева. Баку: Элм, 1979.
[2] Гукасян В.Л. Об азербайджанско-грузинских языковых контактах // Сов. тюркология, 1980, №4, с.22-33.

V MÖVZU

AZƏRBAYCAN DİLİNDƏ DİALEKTOLOJİ FƏRQLƏRİN YARANMASI VƏ İNKİŞAFI

PLAN:

1. **Türk dilləri sistemində Azərbaycan dilinin yeri**
2. **Azərbaycan dialektlərinin əsas xüsusiyyətləri**
3. **Cənub ləhcəsinin əsas xüsusiyyətləri**
4. **Şimal-qərb ləhcəsinin xüsusiyyətləri**
5. **Qərb ləhcəsinin əsas xüsusiyyətləri**
6. **Borçalı dialekti**
7. **Şimali-Şərq ləhcəsinin əsas xüsusiyyətləri**
8. **Dərbənd dialekti**

5.1. Türk dilləri sistemində Azərbaycan dilinin yeri

Azərbaycan, türk, türkmən, qaqauz dilləri Oğuz qrupuna daxildir. Onların fonetik sistemində qrammatik quruluşunda və lüğət tərkibindəki bir sıra səciyyəvi xüsusiyyətilərinə görə digər türk dillərindən fərqlənir.

1. Azərbaycan dilində 9 sait səs var. Saitlərin ilkin uzanması hadisəsi yalnız türkmən dilində müvcuddur.

2. Türkmən dilində açıq saitlərin ardıcıllığı olduğu halda Azərbaycan dilində yoxdur. Bu hadisəyə qaqauz və türk dillərində də rast gəlinir.

3. Türkmən dilində bol, ol digər dillərdən Azərbaycan, türk və qaqauz da isə ol (III şəxs təkdə) işlənir.

4. Azərbaycan dilində ədəbi dildə diş arası c, z samitləri türkmən dilində eynən c, z variantlarında işlənir. Şəxs əvəzliyində I şəxsin təki Azərbaycan dilində mən, türkmən dilində men şəklində işlənir.

5. Türk və qaqauz dilində m səsi b ilə əvəzlənir. Məs.: men – ben.

6. Türk və qaqauz dillərində sözün əvvəlində dilarxası k (ka) samiti Azərbaycan və türkmən dillərində dilarxası q samiti ilə əvəzlənir: kız – qız.

7. Türk, türkmən və qaqauz dillərində sözün ortasında və sonunda dilarxası k (ka) samiti Azərbaycan dilində x ilə əvəzlənir: akşam – axşam.

8. Türkmən dilində söz əvvəlində kipləşən b samiti əvəzinə Azərbaycan, türk və qaqauz dillərində v işlənir: ber – ver.

9. Azərbaycan və Türkmən dillərində söz əvvəlində x samiti türk və qaqauz dillərində h samiti ilə əvəzlənir. Məs: xəbər – haber

10. Toprak, yaprak, köprü, kiprik sözləri (türk, Türkmən, Qaqauz) Azərbaycan dilində torpaq, yarpaq, körpü, kiprik kimi işlənir. Metateza baş verir.

11. Feilin indiki zaman Azərbaycan dilində -ır[4], türk dilində -yor, türkmən dilində isə -yar[2] kimi işlənir: aliyər – gəliyər. Qaqauz dilində indiki zaman -er şəkilçisi ilə düzəlir.

12. İsmin təsirlik halında saitlə bitən sözlər Azərbaycan və Türkmən dillərində -nı[4], Türk və Qaqauz da isə -yı[4] şəkilçisi ilə işlənir: qapını – qapıyı.

13. -ır[4] və -ar[2] Azərbaycan dilində müxtəlif zamanları bildirdiyi halda, türk dilində daha geniş zamanı ifadə edir.

14. Azərbaycan dilində digər oğuz dillərindən fərqli olaraq feilin lazım şəkli (-ası[2]) lazım şəkli var.

Bu kimi əlamətlər ədəbi dillərə aiddir. Lakin Azərbaycan dilinin digər Oğuz dilləri ilə ortaq olan bəzi əlamətləri şivələrdə yaşayır:

1) Azərbaycan dilinin Dmanisi (Başkeçid) şivəsində saitlərin ilkin (pratürk) uzanmasının izi qalmışdır: [çö:l], [gö:l], [dö:rt] və s.

2) Qərb ləhcəsinin Qazax, Borçalı şivəsində feilin indiki zamanında dilarxası açıq saitlərin ardıcıllığı göstərilir: olur – olor, qorxur – qorxor, görür – görör, doldurur – doldoror və s.

3) Qazax, Çənbərək, Karvansaray şivələrində ədəbi dildəki d samitinin mövqeyində dişarası z samitinə təsadüf edilir: qədim – qəzim, odun – ozun, od – oz, (Qazax), Sazıx, gezir, yaz (Çənbərək, Karvansaray) və s.

4) Söz əvvəlində dilarxası, kar k (ka) samiti bəzi şivələrdə saxlanılır: kuş, kutu (Qazax, Marneuli), kifil (Tovuz, Marneuli), kutu, kiş (Çənbərək, Karvansaray), kifil, kuş, kısır (Şərur) və s.

5) Söz əvvəlində dilarxası, novlu, kar x samitinin mövqeyində türk dilində olduğu kimi, h – boğaz samitinin işlənməsinə Ordubad və Yardımlı şivələrində təsadüf edilir: horuz, hırman, hurcun, hala (Ordubad), harman, hurcun, hıyar, hasta (Yardımlı).

6) Naxçıvan, Şahbuz, Şərur, Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli şivələrində -ov variantı -av ilə əvəz edilir. Məs.: dovşan – davşan, yovşan – yavşan, qovala – qavala və s.

7) Ayrım, Şəmkir, Tovuz, Qazax və Borçalı şivələrində, qismən də Şərur, Sədərək, Kəlbəcər, Cəbrayıl, Zəngilan, Bakı və Salyanın bəzi kənd şivələrində ismin təsirlik halında saitlə qurtaran sözlər –yı[4] şəkilçisi qəbul edir: qapıyı, dəriyi, quzuyu, sürüyü (Qazax), almeyı/almayı, qonşuyu, kişiyi (Ayrım) və s.

8) Ayrım şivəsində şəxs kateqoriyasının və nəqli keçmiş zamanın I və II şəxsin təkində şəxs şəkilçiləri türk dilində olduğu kimi qapalı saitlə işlənir: həkimim, həkimsin, almışım, gəlmişim və s.

9) Qaqauz dilində işlənən -er indiki zaman şəkilçisi Azərbaycan dilinin qərb şivələrində dodaqlanmayan saitli fellərə artırılır: aler, gəler, (Qazax, Tovuz, Marneuli). Türk dilindəki -yor şəkilçisi isə qərb şivələrində u, ü saitləri ilə bitən fellərdə saitlər ahənginə uyğun olaraq -yor, -yör şəklində işlənir: oxuyor, toxuyor, sürüyor (Qazax).

10) Türk dilindəki -yor şəkilçisi Qərb şivələrində u, ü saitləri ilə bitən feillərdə saitin ahənginə uyğun olaraq yor – yör şəklində işlənir: oxuyor – sürüyor.

Göründüyü kimi, Azərbaycan dili öz əlamətləri ilə gah türk və qaqauz dillərinə, gah da türkmən dilinə qarşı dayanır. Həmin oxşar və fərqli cəhətlər ədəbi dil və dialektlər arasında özünü göstərir. Yəni türk ədəbi dilinə aid bir xüsusiyyət Azərbaycan dialektində və ya əksinə özünü göstərir. Azərbaycan dili tarixən geniş bir ərazidə ünsiyyət vasitəsi olmuşdur. Yayılma coğrafiyası Azərbaycan sərhədlərindən geniş olmuşdur.

X əsr ərəb coğrafıyaşünası Havqəl Azərbaycanın və Qafqazın başqa yerlərini gəzdikdən sonra Azərbaycan Aran və Ermənistanın ümumi xəritəsini çəkmiş və onu Azərbaycan xəritəsi adlandırmışdır. Xəzər dənizinin xəritəsini tərtib etniş Dərbəndədək bütün ərazini Azərbaycan adlandırmışdır. Bu cəhətə ərəb müəlliflərində tez-tez rast gəlinmişdir.

Muharrem Ergin Azərbaycan dilinin arealını belə müəyyənləşdirmişdir: "Azəri sahəsi dil coğrafiyası baxımından doğu Anadolu, Güney Qafqaziya və Qoydaz Azərbaycanı, İran Azərbaycanı, Kərkük və İraq Suriya bölgələri əhatə edir. M.Şirəliyev və Z.Budaqova Azərbaycan dillərinin keçmiş SSRİ-dən xaricdə əsasən İranda, Türkiyədə, İraqda və Əfqanıstanda istifadə olunduğunu göstərirdilər.

5.2. Azərbaycan dili dialektlərinin əsas xüsusiyyətləri

Azərbaycan dilində şivə fərqlərini ilk dəfə F.Köçərli, F.Köprülü və S.Talıbxanbəyli müəyyənləşdirmişlər. Şivələr

müxtəlif illərdə M. Şirəliyev. R.Rüstəmov, A.Hüseynov, M. Əmirpur və E.Əzizov tərəfindən təsnif cdılmışdir. Uzun illər dialektoloji tədqiqatlar M. Şirəliyevin bölgüsü əsasında aparılmışdır. Elbrus Əzizovun bölgüsündə isə bəzı şivələrin mövqeyi izoqluslar əsasında müəyyən edilmişdir.

Müasir Azərbaycan dilində tarixən 3 əsas ləhcəni-(cənub, qərb, şimal-şərq) qovuşması nəticəsində formalaşmışdır. Bu ləhcələrin əlamətlərinin bir-birinə təsiri nəticəsində əsas ləhcələr arasında keçid tipli şivələr əmələ gəlmişdir. Qarışıq səciyyəli olduğundan onları ayrıca ləhcə adlandırmaq düzgün deyil. Azərbaycan dili şivələrinin təsnifi üçün tayfa əlamətləri deyil, məhəlli prinsip əsas götürülmüşdür.

Məhəlli əlamətlərin yaranmasına fiziki, coğrafı və tarixi cəhətlər səbəb olmuşdur. IX-X əsrlərdə belə səbəblər yaranmışdır. XI əsrdən başlayaraq Dərbənddən Kür çayına qədər olan ərazidə Şirvanşahlar dövləti; Kür və Araz arasında Şəddadilər, Naxçıvan şahlığı, Arazdan cənubda isə Rəvvadilər dövləti yaranmışdır.

Əsas dialektlər 3 başlıca regionda – Naxçıvan, Arazın sol sahili və Muğandan cənubda *cənub ləhcəsi*, Kür və Araz çayları arasında ərazinin qərb və cənub-qərb hissəsində *qərb ləhcəsi* (orta ləhcə), Kürdən şimalda olan ərazinin şimal-şərqində *şimal-şərq ləhcəsi* artıq XVIII əsrə qədər formalaşmışdır.

Azərbaycanın şimal-şərb hissəsində dağlıq ərazidə qarışıq tipli şivələr (şimal-qərb şivələri), Kür çayından

şimalda və Qarabağın cənub-qərb sərhədlərində (Arazdan şimalda) və Muğan zonasında aralıq şivələr yaranmışdır.

XI-XII əsrə qədər formalaşan Şirvanşahlar, Atabəylər, Hulakilər, Cəlairlər, Qaraqoyunlular, Ağqoyunlular Səfəvilər dövründə qarışmış və müəyyənləşmə prosesi keçmiş XVI əsrdə Səfəvilər dövlətinin inzibati ərazi bölgüsü Azərbaycan dillərinin ənənəvi məhəlli diferensasiyasını (ayrılığını) möhkəmləndirir. Bu dövrdə Azərbaycanda 13 bəylərbəyliyi vardı onların 4-ü Azərbaycan ərazisini əhatə edirdi:

1. Şirvan bəylərbəyliyi,
2. Qarabağ (Gəncə) bəyliyi.
3. Çuxursəd bəyliyi
4. Təbriz və ya Azərbaycan bəyliyi.

Bu cür ərazi bölgü prosesi XVII əsrə qədər davam etmişdir. XVIII əsrin II yarısında Azərbaycanda həm xanlıq və sultanlıqların yaranması məhəlli dialekt əlamətlərinin inkişafını daha da gücləndirdi. XVIII əsrdə Azərbaycanın cənubunda Arazdan cənubda 8 xanlıq – Təbriz, Marağa, Urmiya, Ərdəbil, Qarabağ, Sərab, Xoy, Maku; Kür və Araz çayları arasındakı ərazidə Naxçıvan, İrəvan, Gəncə; Şirvanda Şamaxı; Şimal-qərbdə Şəki; Abşeron yarımadasında Bakı; Şimal-şərqdə Quba, Dərbənd; Kürlə Arazın qovuşduğu yerdə Cavad; Xəzərin cənub-qərb hissəsində Talış xanlığı; Qutqaşen, Qəbələ, Ərəş, Salyan, Qazax, Şəmsəddin sultanlıqları (Elbrus Əzizov səh.184), Car-

Balakən icması yaradılmışdı. Quba və Talış xanlıqları hələ XVII əsrin sonlarından mövcud idi.

Tarixi coğrafı səbəblərə görə Azərbaycan dilinin keçid dili, aralıq şivələri başlıca olaraq şimal-qərbdə Şəki, Zaqatala regionunda Kür və Araz çaylarının sol sahilində – Muğan zonasında formalaşmışdır. Azərbaycan dilinin əsas ləhcələrinin və ayrı-ayrı şivələrinin formalaşmasında coğrafi- fiziki sədlər, inzibati bölgülər ətraf əhalini birləşdirən mərkəzlər, əhalinin köçməsi, digər amillər mühüm rol oynamışdır.

Azərbaycan dilinin ləhcələri fonetik, qrammatik və leksik cəhətdən bir sıra fərqli xüsusiyyətlərə malikdir. Azərbaycan dialektlərinin əsas xüsusiyyətləri.

5.3. Cənub dialekt və şivələrinin xüsusiyyətləri

Cənub ləhcəsi Cənubi Azərbaycan, Naxçıvan və Lənkəran regionlarını əhatə edir və bir sıra şivə qruplarına ayrılır: 1) Təbriz, 2) Ərdəbil, 3) Urmiya, 4) Naxçıvan, 5) Lənkəran və s.

Bu ləhcənin səciyyəvi xüsusiyyətləri:

1) Sözün birinci hecasında a→ə dəyişməsi: qərə, qərdəş.

2) Sözün ilk hecasında e→ə dəyişməsi: əv, vər, səvgi.

3) İncə saitlərin ahənginin pozulması: əkinçılıx, gedax, görax.

4) av//ov, əv//öv səs birləşmələrinin işlənməsi: avçı//ovçı, qavala//qovala, bənəvşə//bənövşə, kösəv//kösöv.

5) Velyar [ŋ] səsinin düşməsi ilə burun saitlərinin əmələ gəlməsi: əluä, adıä, gözü.

6) Söz ortasmda [y] səsinin mövqeyində [v] səsinin işlənməsi: gövərti, sovux, gövərçin və s.

7) Çoxhecalı sözlərin sonunda b→p dəyişməsi: çorap, baxıp, bilip.

8) ç→n: dəyişməsi: nay, nəmən.

9) k→ç dəyişməsi: keçi//çeçi, küçə//çüçə.

10) g→c dəyişməsi: gəl//cəl, gül//cül.

11) İndiki zamanda -ır[4] şəkilçisi ilə yanaşı -iy, -ey, - ı, -i, -r şəkilçilərinin işlənməsi: aliyəm, aley, gedisən, alı, tanır və s.

12) Feilin şərt şəklinin II şəxsin cəmində [-sä:z], [-sə:z] şəkilçisinin işlənməsi: [alsä:z], [gəlsə:z].

13) Cümlənin xəbərində güclü şəkildə uzanan tonun, intonasiyanın özünü göstərməsi.

Cənub ləhcəsi üçün səciyyəvi olan sözlər:

üzüm ağacı – mev, möv, xov; qarğıdalı – məkə, məkəbuğda; döşək ağı – mələfə; əl-üz dəsmalı – təlis; nəlbəki – zir; çayın xəkəsi – tilif və s.

5.4. Şimal-qərb dialekt və şivələrinin xüsusiyyətləri

Qarışıq tipli **şimal-qərb şivələri (Şəki, Oğuz, Qax, Zaqatala, Balakən)** şivələri bir sıra yerli əlamətlərlə yanaşı (şimal xüsusiyyətləri, substrat elementlər), Azərbaycan dilinin cənub və qərb ləhcələri üçün səciyyəvi olan

xüsusiyyətlərə də malikdir. Bu şivələri aralıq şivələrdən fərqləndirən cəhət onların ərazi baxımından cənub ləhcəsi ilə birbaşa əlaqədə olmaması və Qafqaz dil mühitində yerləşməsidir. Şimal-qərb şivələrinin fonetik və qrammatik xüsusiyyətləri:

1) Saitlərin burun variantlarının işlənməsi: sözuä, gözuä, dədä.

2) Saitlərin qalınlaşması: ə→a, ü→u, ö→o: gal, uçun, oz, okuz.

3) Sözün ilk hecasında ə→e dəyişməsi: bey, et, tezə, eyləş.

4) Sözün ilk hecasmda e→ə dəyişməsi: vər, əlçi, vərgi.

5) o→a dəyişməsi: av, savux, tavux.

6) Qalın saitlərin ahənginin pozulması: gəlmax, gidax.

7) k→n; dəyişməsi: kar, komur, inak.

8) g→q dəyişməsi: qun, qoq, qor.

9) Alınma sözlərdə f→p dəyişməsi: pəhlə, pənər, pundux.

10) Sözün ortasında və təkhecalı sözlərin sonunda b→v dəyişməsi: çovan, arava, qav, civ.

11) Söz əwəlində q→ğ dəyişməsi: qız/ğız, qonşu/ğonşu, qış/ğış.

12) Söz sonunda b→f dəyişməsi: boşqab//boşqaf, xarab//xaraf, alıb//alıf.

13) Söz ortasında və təkhecalı sözlərin sonunda c→j dəyişməsi: acı//ajı, bacı//bajı, ac//aj, sac//saj.

14) mən, sən əvəzliklərinin yönlük halda ***mağa, sağa*** formalarına təsadüf olunması.

15) ho//hu, honnar, habu, habelə işarə əvəzliklərinin işlənməsi.

16) Nəqli keçmiş zamanın III şəxsində ***-ıtdı, -itdi*** şəkilçilərinin işlənməsi: yazıtdı, gəlitdi.

17) İndiki zamanda durur köməkçi feili ilə düzələn formanın işlənməsi: baxa durur, gələ durur.

18) İndiki zamanda -ıy, -iy, -uy, -üy şəkilçilərinin işlənməsi: alıy, gəliy.

19) Təyini söz birləşmələrinin ikinci tərəfinin bəzən mənsubiyyət şəkilçisiz işlənməsi: meniŋ qız, seniŋ baba.

5.5. Qərb dialekt və şivələrinin xüsusiyyətləri

1) Sözün ilk hecasında [a] səsinin işlənməsi: qara, qardaş, papax.

2) Sözün birinci və ikinci hecalannda [ə] səsinin işlənməsi: [səs], [kəs], [inəx'].

3) Sözün birinci hecasında [o], [ö] səslərinin işlənməsi: [qonax], [odun], [öküz].

4) Damaq ahənginin gözlənilməsi: [ışıx], [ılxı], [ıldırım].

5) Dodaq ahənginin inkişaf etməsi: [doğruyur], [gözdüyür], [olor], [görör].

6) -ov, -öv səs birləşmələrinin [oy], [o:] və [öy], [ö:] şəklində işlənməsi: [doyşan]//[do:şan], [bənöyşə]//[bənö:şə].

7) Velyar [ŋ] səsinin işlənməsi: [təŋəx'], [yaŋax], [aldıŋız].

8) Söz ortasında və sonunda g səsinin y səsinə keçməsi: iyit

9) Söz ortasında və təkhecalı sözlərin sonunda b→v dəyişməsi: bava, çovan.

10) Çoxhecalı sözlərin sonunda b→f dəyişməsi: kitaf, coraf, bilif.

11) Sözün ortasında və təkhecalı sözlərin sonunda [c] səsinin [j] səsinə keçməsi: ajı, bajı, aj.

12) İndiki zamanda -ır[4] şəkilçisi ilə yanaşı, -er, -or, -ör şəkilçisinin işlənməsi: alır, aler, duror, göror və s.

13) Feilin şərt şəklinin II şəxsin cəmində -saŋız, -səŋiz, şəkilçisinin işlənməsi: alsaŋız, gəlsəŋiz.

14) Sual cümlələrinin sual ədatı ilə düzələn növünün inkişafı: Məytəbə getdiŋmi?

15) Bu ləhcə üçün səciyyəvi sözlər: [təŋəx'] (üzüm ağacı), qarğıdalı/qardalı, nəlbəki/nəlvəki və s.

Qərb ləhcəsi üçün xarakterik olan sözlər:

üzüm ağacı – təŋəx′, qarğıdalı – qardalı, əl-üz dəsmalı – məhrəva, döşək ağı – mələfə, nəlbəki – nəlvəki, çayın xəkəsi – kirkə, pəsov

5.6. Borçalı şivə xüsusiyyətləri

Tarixən ictimai-siyasi şərait Azərbaycan türklərinin yaşayış ərazilərini müəyyən etmiş, hazırkı Azərbaycandan daha geniş ərazilərdə məskunlaşmalarına səbəb olmuşdur. Qafqazda azərbaycanlıların sayca çox olması, dilinin ərazinin digər azsaylı xalqlarının dilinə nüfuzu da yerli

aborigenlərin məhz azərbaycanlılar olduğunu deməyə əsas verir.

Azərbaycan dialekt və şivələrinin Azərbaycanda ilk tədqiqatçılarından olan M.Şirəliyev dilimizin şivələrini bir neçə dəfə təsnif etmişdir. Bu təsnifatlarda (1958) Borçalı şivəsi Qazax və ayrım şivələri ilə eyni qrupa – Qərb dialekt və şivələri qrupuna daxil edilmişdir.

1953-cü ildə R.Rüstəmovun "Azərbaycan dialektologiyası" proqramında da Borçalı şivəsi Qərb qrup dialektlərinə daxil edilmişdir.

Türkiyədə Borçalı şivələrin A.Dilaçarın, İranda Əmirpurun təsnifatlarında da Borçalı şivələri bu şəkildə təqdim edilmişdir. Borçalı şivələrinin tədqiqi ilk dəfə Dilçilik İnstitutunda araşdırılmış, bu əraziyə ilk ekspedisiyalar göndərilmişdir. Nəticədə 1967-ci ildə "Azərbaycan dilinin Qərb qrupu dialekt və şivələri" adlı monoqrafiyası çap edilmişdir. Borçalı şivələrinin ilk monoqrafik tədqiqi 1973-cü ildə M.Çobanov tərəfindən (dissertasiya işi kimi) aparılmışdır. Onun "Bolnisi rayonu şivələrinin leksikası" adlı (1997) monoqrafiyası nəşr edilmişdir.

1981-ci ildə T.Qarayev "Gürcüstan SSRİ ərazisinin Azərbaycan şivələrindəki türk-leksik qatının tarixi-linqvistik tədqiqatları" mövzusunda dissertasiya işini müdafiə etmişdir. V.Cangidzenin "Azərbaycan dili Qazax dialektinin Dmanisi şivəsi" (1965) monoqrafiyasını da qeyd etmək lazımdır. Azərbaycan dialektologiyasında ilk dəfə Sədaqət

Əsədovanın “Azərbaycan dilinin Borçalı şivələri” adlı namizədlik dissertasiyasında Bu şivələrin fonetik və qrammatik cəhətləri monoqrafik tədqiqata cəlb edilmişdir.

Aparılmış tədqiqatlardan istifadə edərək Borçalı şivələrinin fonetik, leksik, qrammatik cəhətləri ilə əlaqədar ümumiləşdirilmiş şəkildə aşağıda qeyd edəcəyimiz nəticələrə gəlmək mümkündür.

Ümumi cəhətlərinə görə Qərb qrupu dialekt və şivələrimizə daxil olan Borçalı şivələrində müəyyən qədər bu şivələrdən fərqli məqamlar da vardır. Əsas fonetik cəhətləri aşağıdakılardır:

1. Sağır ŋ samitinin işlənməsi. Məsələn: mənə//maŋa; sənə//saŋa; sözün//sözüŋ və s.

2. Dodaq ahənginin gözlənməsi. Bu şivələrdə ədəbi dildən fərqli olaraq, sözün 2 və 3-cü hecalarında dodaqlanan açıq saitlərin (o,ö) işlənməsi nəticəsində dodaq ahəngi güclü şəkildə mühafizə olunur. Məsələn: oxutdururuq/[oxut-duro:rux], görür//[görö:r] və s.

3. i→ı əvəzlənməsi baş verir. Məsələn: işıq//[ışıx], ismarıc//[ısmarış] və s.

4. Qərb şivələrində görünən assimilyasiyası Borçalı şivələrində də izlənilir: olsun//[ossun]; qalsın//[qassın]; haraya getsə//[ha:naessə] və s.

5. Söz ortasında səs artımı – epenteza. Məsələn: tilsim//[tilisim], qulplu//[quluflu] və s.

6. Söz ortasında l samitinin assimilyasiyası. Məsələn: olsun//[ossun], alsın//[assın], gəlsin//[gəssin] və s.

7. Eləmək feilində l samitinin qoşalaşması. Məsələn: eləmək/[elləməx′], elə/[ellə] və s.

8. İki söz arasında g samitinin düşməsi. Məsələn: işə gedirsən//[işəe:dirsən], mənə görə/[ma:örə], [maŋa:örə] və s.

9. c→j əvəzlənməsi: bacı//[bajı], gələcək//[gələjəx′] və s.

10. q→k əvəzlənməsi. Məsələn: qış//kış, quş//kuş, qıt//kıt və s.

11. t→d əvəzlənməsi. Məs., tərlədim//[dərrədim], tər//[dər], tərlik//[dərrix′] və s. Baskakov və Şirəliyev bu cəhətin qıpçaq dil elementi olduğunu söyləmişlər.

12. p→b əvəzlənməsi. Məsələn: pol//bol, polk//bolk. Bu cəhət Trabzon şivəsində də təsadüf olunmuşdur.

13. q, k, r, l, m, ç samitlərinin qoşalaşaraq işlənməsi – geminatlaşması (Başkeçid ş.): kərə//[kərrə], kiçik//[kiççix′] və s.

Borçalı şivələrində uzun və qısa saitlər, diftonqlar, sait və samit əvəzlənmələri, səs artımı və səs düşümü kimi fonetik hadisələrə rast gəlinir. Saitlərdə ikincili uzanma hadisəsinə də rast gəlinir ki, bu cəhət bəzi şivələrdə yoxdur. Bu cür səs uzanması həm sözün kökündə, həm də şəkilçilərdə müşahidə edilir. Uzun saitin işlənməsi hadisəsi isə dilimizin daha qədim dövrlərində işlənmiş dil hadisəsidir. Bu hadisəyə zəif şəkildə Qazax dialektinin Başkeçid şivəsində rastlanılır.

Borçalı dialektində i saitinin qısa tələffüzü vardır. Məsələn, iki//[^{i}ki], [^{i}şşəx′] və s.

14. öü; ua, üə, oa diftonqlarına çox rast gəlinir. Məsələn, yuva//[yua]; nəvə//[nüə]; oyandı//[oandı] və s. Bu diftonqların yaranmasını Cangidze Dmanisi şivələrində v və s samitlərinin düşməsi ilə izah etmişdir. Y və v samitlərinin düşməsi nəticəsində yaranan diftonqlaşma hadisəsinin E.Əzizov XV-XVI əsrlərdə real fonetik hadisə kimi, innovasiya adlandırmışdır.

15. u→ü əvəzlənməsi: yuyub//[yü:f], guruldadı// [gürüldədi] və s.
16. ə→a əvəzlənməsi. xəbər//[xavar], xəncər//[xancar] və s.
17. i→ı əvəzlənməsi: iraq//[ırax], ispanaq//[ıspanax], ilıq//[ılıx] və s.
18. ü→u əvəzlənməsi: ümid//[umut], qürur//[qurur] və s. Bu hadisə, əsasən, ərəb mənşəli sözlərin 1 və 2-ci hecasında baş verir.
19. ö→o əvəzlənməsi: Ömər//[Omar], növbə//[nobat], tövbə//[tova] və s.
20. u→ı əvəzlənməsi: ulduz//[ildız], bunlar//[bıllar] və s.
21. ü→i əvəzlənməsi: bülbül//[bilbil], bülov//[bilöy] və s.
22. i→ü əvəzlənməsi: bibi//[büvü], bibər//[büvər] və s. Borçalının bir neçə şivəsində (Muğanlı, Sadaxlı, Darvaz ş.) bir neçə sözdə rast gəlinən bu hadisə Naxçıvan, bakı və Muğan qrupu şivələrində daha çox rast gəlinir.
23. a→ı əvəzlənməsi (az işlənir): arabanı//[haravıyı], babanı//[babıyı] və s.

24. ə→e əvəzlənməsi: kəlməni//[kəlmeyi], süzməni//[süzmeyi] və s.
25. i→a əvəzlənməsi. Zəif də olsa, Borçalı şivələrində və türk dilinin Ərzurum şivəsində rast gəlinir. Məs.: sahib//[sahab], Tahir//[Tahar] və s.

Samit artımı hadisəsi

1) h artımı sözün əvvəlində: oraq//[horax], araba//[harava], əlbəttə//[həlvətdə] və s.
2) y artımı sözün əvvəlində: aldatmaq//[yallatmax], alov//[yaloy], piyada//[yayax] (yaya-sözü ilə əlaqəsi) və s.
3) y artımı sözün ortasında: faiz//[fayız], şöbə//[şöybə], bisavad//[beysavad] və s.

Samit düşümü:

1) y samiti söz əvvəlində. Məsələn: Yusif//[Usuf], yumurta//[umurta], yumax//[umax] və s.

2) h samitinin düşməsi. Məsələn: hörmək//[örməx′], hürmək//[ürməx′] və s. F.Zeynalov bu elemntin tarixinin pratürk dövründə olmadığını və sonradan yaranmış öğuz elementi olduğunu söyləmişdir.

3) g samitinin düşməsi. Görə qoşmasında və iki söz arasında müşahidə edilir. Məs.: mənə görə//[maŋaö:rə], evə gəl//[ö:əl].

Borçalı şivələrində dodaq ahəngi daha möhkəmdir. Məsələn, [görör], [oturor] və s. Bəzən ahəngin pozulmasına rastlanılır. Məsələn, alır//aler, gəlir//gəler və s.

Borçalı şivələrinin leksik fondu

1) sadə sifətlər: səliqəli-qoxta, yaxşı-ey, tənbəl-zındı və s.
2) düzəltmə sifətlər: xəsis-qaraçı, deyingən kişi-həfçi və s.
3) mürəkkəb sifətlər: boşboğaz-ağzıvay, qarınqulu-boğazqulu, hövsələsiz-darqursax və s.

Borçalı şivələrinin morfologiyası

Əsas fərqli cəhətlər isimlərin hal, mənsubiyyət və düzəltmə isim yaradan şəkilçilərində özünü göstərir.

1) İsmin təsirlik halı –yı[4] şəklində işlənir. Məsələn, qapını//qapıyı, gecəni//gejeyi, göyərtini//göyərtiyi və s. bu cəhət dilimizin qərb, cənub, qismən şərq qrupu və Kərkük dialektində rast gəlinir.

2) –lar, -lər şəkilçisinin –nar[2], -dar[2], -zar[2] və s. variantları işlənir.

3) –dan[2] çıxışlıq hal şəkilçisinin -nan, -nən şəklində işlənməsi. Məsələn, dünənnən, mənnən, sənnən və s.

4) İsimlərin hal şəkilçilərinin əvəzlənməsinə də rast gəlinir. Məsələn, adlıq halın yerlik halı əvəz etməsi hadisəsi məkan bildirən isimlərdə və saylarda müşahidə edilir. Məsələn: [Qırx beşdə öylənmişəm.]//Qırx beşdə evlənmişəm.

5) Mənsubiyyət şəkilçisi bəzən II növ ismi birləşmələrin ikinci tərəfində iki dəfə artırıla bilir. Məsələn, gəlin gedən günüsü və s.

4) sifətin azaltma dərəcəsinin –rax[2] şəkilçisi ilə düzəlməsi. Məsələn, [xirdarax], [alçarax], [işdirəx′] və s.

5) mən, sən şəxs əvəzlikləri yönlük halda ədəbi dildən fərqli olaraq sağır n – ŋ ilə işlənir: mənə//maŋa, sənə//saŋa və s.

6) necə – sual əvəzliyi hancarı, həncəri, hanjarı formasında nə qədər – sual əvəzliyi nağarta, naxarta, nağartə variantlarında işlənir.

7) sadə, düzəltmə, mürəkkəb quruluşlu feillər işlənir.

Sadə: [budamax]–döymək, [qımıllanmax]–tərpənmək və s.

Düzəltmə feillər -la, -lə şəkilçisi -da, -də, -ra, -rə formasında: [arıtdamax], [bulullamax] – ot tayası düzəltmək; -laş şəkilçisi -raş, -rəş formasında: [uyqurraşmax] – razılaşmaq, [cəlləşməx′] – isbat etmək; -lan[2] şəkilçisi -lam, -ləm şəklində; [öyfələmməx′]; -ıl[4] şəkilçisi [sərpilməx′] – yağışın dayanması və s. şəkilçilərlə düzəlir.

Mürəkkəb feillər [varıf getməx′] – çıxıb getmək, [mətəris verməx′] – dayaq vermək və s.

Feilin indiki zamanı -ır[4] indiki zaman şəkilçisinin -or, -ör, -yor, -yör, -er, şəklində işlənməsi. Məsələn, oxuyor, gəler, biler və s.

Qəti-gələcək zaman -aj, -əj, -ıj, -ij, -oj, -öj, -üy şəkilçiləri ilə formalaşır. Məsələn: gələjey, uçajax.

Marneuli şivəsində II şəxs bu şəkilçinin -aş, -əş, -yaş, -yəş variantı da işlənir. Məsələn; gələşsən, gedəşsən və s.

Zərf düzəldən -qarı (dışqarı), -ca[2] (ustufca, kirimişcə), -di (ikindi/ilkindi), -ama (birəmə, dördəmə) şəkilçilərindən istifadə edilir.

Mürəkkəb zərflər eyni sözün təkrarı (xınca-xınca, dəmgil-dəmgil), ba//va bitişdiricisi ilə (dalvadal, üzvəüz) düzəlir.

Əsas **qoşmalar**: ötəri, savayı, doŋru, -yanə, -anə, -na, -nə çox işləkdir.

Bağlayıcılardan isə -kı[4]//-kin[4], yə, yə də, [onöyrə] – ona görə, [onçün] – onun üçün və s. işlənir.

5.7. Şimal-şərq ləhcəsinin xüsusiyyətləri

1. Sözün birinci hecasında "a"-nın dəyişməsi:

a) a→e qayış – qeyiş, qaysı – qeysi

b) a→o baba – boba, papax – popax

3. Açıq saitlərin qapalılaşması:

a) sözün I və II hecalarında ə→e. Məs: gəldin – geldin və s.

b) sözün I hecasında o→u, ö→ü keçir. Məs: qonaq – qunax, odun – udun

4. Qalın saitlərin ahənginin daha çox pozulması. Məs: anası – anasi, (bacısı – bacısi)

5. "ov" səs birləşməsinin [a] kimi işlənməsi. Məs: dovşan-davşan

6. Velyar ŋ səsinin işlənməməsi.

7. Sözün ortasında və sonunda kipləşən “g” samitinin işlənməsi. Məs: iynə – ignə, düyü – dügü, dügi

8. Söz ortasında və sonunda "b" samitinin işlənməsi. Məs: qab, corab

9. Söz ortasında və sonunda qovuşuq “c” samitinin işlənməsi. Məs: qoca, acı-acı

10. Sual cümlələrin xüsusi intonasiya ilə yaranması. Məs: [getdün?], [Suyu qeynətdü:n?]

11. Bu ləhcə üçün səciyyəvi olan sözlər:

a) üzüm ağacı – meynə
b) qarğıdalı – peyğəmbəri
c) döşək ağı – mələfə
d) əl-üz dəsmalı – dəsmal
e) nəlbəki, çay boşqabı – zir
f) çayın xəkəsi – pıçal, xılt

Azərbaycan dili şivələrində elə hadisələrə də təsadüf edilir ki, onlar yalnız bir ləhcənin deyil, müxtəlif ləhcələrin təsir dairəsində olan şivələrdə yayılır. Məs: a→ə, e , u→ı keçməsi və s. Bunlar həm şimal-şərq, həm də cənub ləhcələrində var. Bu vəziyyət dialektoloqları çaşdırır. Məs: Qubadlıda a→ə əvəzlənməsi şərq xüsusiyyəti kimi verilmişdir ki, bu nə dilçilik, nə də coğrafi baxımdan özünü doğrultmuşdur. Bütün bunları nəzərə alaraq E.Əzizov Azərbaycan dili şivələrini aşağıdakı kimi qruplaşdırmışdır:

1. Cənub ləhcəsi – Cənubi Azərbaycan, Naxçıvan, Lənkəran şivələrini əhatə edir. Burada bir neçə şivə qrupu fərqlənir: Təbriz, Ərdəbil, Lənkəran, Urmiya

2. Qərb ləhcəsi (orta ləhcə) – 3 şivə qrupuna bölünür: Qarabağ-Qazax, Borçalı, Ayrım şivəsi

3. Şimal-şərq ləhcəsi 3 şivə qrupuna ayrılır: Şamaxı-Bakı, Quba, Dərbənd.

Əsas ləhcələrdən başqa Azərbaycan dilində keçid şivələri də formalaşmışdır: keçid-qarışıq-aralıq şivələr.

Qarışıq tipli şimal-qərb şivələri Şəki, Zaqatala şivələrini əhatə edir. Kür çayının sol sahilində Ağdaş, Göyçay, Ucar, Zərdab rayonları ərazisində, cənub-şərqdən isə Cəlilabad, Biləsuvar, cənub-qərbdə Cəbrayıl-Qubadlı zonalarında aralıq şivələr yerləşir. Qarışıq tipli şimal-qərb şivələri (Şəki, Oğuz, Qax, Zaqatala, Balakən) əsas etibarilə yerli əhalinin şivələrilə gəlmələrin dialektlərinin kontantı nəticəsində formalaşmışdır. Bu şivələr bir sıra yerli əlamətlərlə yanaşı Azərbaycan dilinin qərb, cənub ləhcələrini də özündə əks etdirir. Bu şivələr dildə xüsusi ləhcə əmələ gətirmiş və dil xüsusiyyətləri baxımından qarışıq xarakterdədir.

Azərbaycan dilinin şimal-qərb şivələrində izoqlasların dağınıqlığı və rəngarəngliyi müəyyən dərəcədə əhalinin keçməsilə əlaqədar olmuşdur. Azər Hüseynov Şərq ləhcəsində, yəni Bakı şivəsində və Şəki şivəsində özünü göstərən ə→e əvəzlənməsini cənub ləhcəsinin qədim izi hesab edir. Şəki şivəsində "j"-laşmadan danışarkən yazır ki, bu hadisə Qarabağdan Şəki ərazisinə köçmüş və yerlilərlə qarışan əhalinin dialekt əlamətidir. Ümumiyyətlə, Şəki, Qax, Zaqatala, Quba şivələrində cənub ləhcəsinə aid bəzi

əlamətlərin olması tarixən baş vermiş miqrasiyanın nəticəsidə tarixinə görə daha sonrakı təbəqədir.

5.8. Dərbənd dialekti

Acı olsa da, etiraf edək ki, tarixin yaddaşı qısa, insanlar isə unutqan olurlar. Əcəba, indi çoxmu soydaşımız bilir ki, İraqda iki milyondan artıq qardaş-bacımız yaşayır?! Görəsən, çoxmu soydaşımız bilir ki, indi Rusiya Federasiyasının tərkibində olan Dərbənd və Tabasaran rayonlarının 30 kəndində (biz hələ Dərbənd şəhərini demirik) yalnız azərbaycanlılar yaşayırlar?!

B.Tağıyev (1976-1978), S.Behbudov, Ə.Ağayev, Z.Xasiyev (1976-1980), N.Məmmədov (1976-1979), F.Xalıqov (1980), professor Musa İslamovun rəhbərliyi ilə 7 dəfə həmin kəndlərdə dialektoloji ekspedisiyalarda olmuş, toplanan zəngin material əsasında "Azərbaycan dilinin Dərbənd dialekti" adlı tarixi əsər yazmışlar. Lakin bir çox başqa əsərlər kimi, bu əsər də çap üzünə həsrət qalmışdır.

Qeyd: *Belə əsərlərdən biri də "Azərbaycan dilinin Meğri şivəsi"dir. Məlumdur ki, XX əsrin əvvəllərinə qədər bu ərazilər Azərbaycan torpağı olmuş, burada azərbaycanlılar yaşamış, sonralar ermənilərin və himayədarlarının məkrli niyyətləri səbəbilə Azərbaycanı Naxçıvan və Türkiyədən ayrı salmaq üçün həmin yerlər ermənilərə verilmişdir.*

Akademik Məmmədağa Şirəliyevin ən böyük xidmətlərindən biri də Dərbənd dialekti ilə bağlıdır. Alimin

rəhbərlik etdiyi Dialektologiya şöbəsinin əməkdaşları M.İslamov, B.Tağıyev, S.Behbudov, Ə.Ağayev, Z.Xasıyev, N.Məmmədov, F.Xalıqov Sovet sisteminin laxlamağa başladığı 1976-80-ci illər arası 7 (yeddi) dəfə Dağıstanın Dərbənd və Tabasaran rayonlarında dialektoloji ekspedisiyada olmuş, zəngin material toplamışdılar. Ekspedisiyalarda Dərbənd rayonunun 20 kəndindən – Vəlikənd, Zidyan, Padar, Tatlar, Ulutərəkəmə, Dəli Çoban, Molla Xəlil, Qaradağlı və s., Tabasaran rayonunun 9 kəndindən dialektoloji material toplamış, tədqiqat apararaq ortaya "Azərbaycan dilinin Dərbənd dialekti" adlı abidə bir əsər qoymuşlar (Bakı, "Elm", 2009, 448 səh.).

Bilmək maraqlıdır ki, "Azərbaycan dilinin Dərbənd dialekti"ni yaradan və yaşadanlar indi də Dərbənd və Tabasaran rayonunun – 30-dan artıq kəndində yaşayırlar.

Onu da qeyd etmək lazımdır ki, Dərbənd ədəbi mühiti də tədqiq edilib. Tədqiqatçı Dağıstandan olan, Ədəbiyyat İnstitutunun əməkdaşı Mövlud Yarməmmədov olmuşdur.

Dərbənd Aşıq mühiti Məhərrəm Qasımlının rəhbərliyi ilə alimlər qrupu tərəfindən tədqiq edilmişdir. Professor Məhərrəm Qasımlı, Fəxrəddin Qəribsəs və Zeynəb Dərbəndli dəfələrlə Dərbənd və ətraf kəndlərdə olmuş, zəngin material toplamış və "Dərbənd el sənətkarları" (Bakı, 2019, 272 səh.) adlı kitab buraxmışlar.

Dərbənd dialektinin daha çox dilimizin şimal qrup dialektləri ilə ilə yaxınlığını qəbul etsək də, onunla İraq-

türkman ləhcəsi arasında istər fonetik, istər leksik, istərsə də qrammatik cəhətdən oxşar xüsusiyyətlər çoxdur. Bu da təsadüfi deyildir. Əvvələn, ona görə ki, hər iki qərib dialekt Azərbaycan dilinə məxsusdur. İkincisi, Azərbaycan Sovet Ensiklopediyasında (III cild, səh. 418) göstərildiyi kimi, 1509-cu ildə Şah İsmayıl Dərbəndi tutduqdan sonra İraqda məskunlaşan Bayat qəbiləsinin bir hissəsini Dərbəndə köçürmüşdü.

Dərbənd dialektinə dair materiallar Dərbənd rayonunun 21, Tabasaran rayonunun 7 sırf azərbaycanlılar yaşayan kəndindən toplanmışdır. Təkcə kənd adlarında sabitləşən toponim və etnotoponimlər xalqımızın keşməkeşli tarixindən xəbər verən qiymətli faktlardır. Dəliçoban, Qaradağlı, Padar, Tatlar, Ulutərəkəmə, Marağa və s. belələrindəndir.

Yuxarıda göstərdiyimiz kimi, əsər Azərbaycan dialektologiya elminin yaranmasında və inkişafında xidmətləri olan, ömürlərini türkologiya elminin bu sahəsinə həsr edən alimlərimiz – M.İslamov, B.Tağıyev, S.Behbudov, Ə.Ağayev, Z.Xasıyev tərəfindən dialektologiya elminin son nailiyyətləri əsasında yazılmışdır. İlk dəfə olaraq monoqrafik tədqiqə cəlb olunan Dərbənd dialekti üzərində iş "Azərbaycan dili dialekt və şivələrinin monoqrafik tədqiqinə aid proqram"a uyğun olaraq aparılmışdır. Əsəri yazarkən alimlərimiz təsviri, müqayisəli və tarixi-müqayisəli metodlardan istifadə etmişlər.

Bu qiymətli əsəri dialektoloqlarımız fonetika, morfologiya, sintaksis və leksika fəsillərinə bölərək tədqiq etmişlər. Kitabın sonunda tədqiqatçıların gəldikləri qənaətləri təsdiqləyən, yerli şivədə olan mətnlər və lüğət də verilmişdir. Tədqiqat göstərir ki, Dərbənd dialektinin şivələri fonetik, qrammatik və leksik xüsusiyyətlərinə görə Azərbaycan dilinin şimal-şərq (xüsusən Quba-Xaçmaz) və şimal-qərb (xüsusən, Zaqatala-Qax) rayonları şivələrinə uyğun gəlir.

Qədim dil faktları ilə zəngin olan Dərbənd dialektində qıpçaq qrupu türk dillərinə məxsus xüsusiyyətlər üstünlük təşkil edir ki, bu da əsassız deyildir. Tarixçi Nəsəvinin (XIII əsr) məlumatına görə, Cəlaləddin Xarəzmşahın dövründə Dərbənd ətrafına 50 min qıpçaq ailəsi köçmüşdü.

Məlumdur ki, akademik M.Şirəliyevin Azərbaycan dili dialektlərinin öyrənilməsi yolunda ən böyük arzusu Kərkük və Dərbənd dialektlərinə, eləcə də indi Gürcüstana daxil olan Borçalı mahalının şivələrinə dair materialların toplanması və tədqiqi idi. Hər iki dialektin və Borçalı şivələrinin (Borçalıda şivə materialları toplayan ekspedisiyaya şəxsən o özü rəhbərlik edirdi) öyrənilməsinin təşəbbüskarı akademik M.Şirəliyev idi.

Akademik M.Şirəliyevin vətəndaşlıq fəaliyyətinin mənasını, xalqımıza olan dərin məhəbbətini sonralar yaşa dolduqca daha yaxşı anladım və "Azərbaycan dilinin Dərbənd dialekti"ni vərəqlədikcə böyük alimin hissini-

həyəcanını mən də yaşadım. Elm fədaisi, akademik M.Şirəliyevin ruhu şad olsun. Azərbaycan dilinin hər iki qərib dialekti - Kərkük və Dərbənd dialektləri monoqrafik tədqiqata cəlb olunaraq xalqa çatdırılmışdır. Və bu iş uzun müddət akademik M.Şirəliyevin rəhbərlik etdiyi Dilçilik İnstitutunda yerinə yetirilmişdir. Hər iki fundamental elmi-tədqiqat işinin-tarixi abidələrin əbədi-yaşar olacağına şübhə yoxdur.

Azərbaycan dili şivələrinin mövcud bölgüləri içərisində geniş yayılmış təsnifat M.Şirəliyevə məxsusdur. Başqa bölgülərdə də M.Şirəliyevin XX əsrin 40-cı illərində və sonralar verdiyi təsnifatın təsiri özünü göstərir. Əvvəldə qeyd olunduğu kimi, M.Şirəliyevin bölgüsünün qüsurlarından biri dilimizin şivələrini bütünlükdə əks etdirməməsidir. Onun təsnifatı əsasən Azərbaycan Respublikası ərazisindəki şivələri əhatə edir, başqa areallardakı şivələr isə bura ya daxil edilmir, ya da yarımçıq əks olunur.

M.Şirəliyev 1941-ci ildə verdiyi təsnifatda Dərbənd şivəsinə yer verdiyi halda, sonralar bu şivəni bölgüdən çıxarır. Halbuki Dərbənd bölgəsində qədimdən azərbaycanlılar yaşayır və onların şivəsi Azərbaycan dili şivələrinin şimal-şərq ləhcəsinə (M.Şirəliyevin bölgüsündəki şərq qrupuna) uyğun gəlir.

Doğrudur, Dərbənd-Tabasaran şivələrini Azərbaycan dilinin şimal-qərb şivələrinə (əsasən, Zaqatala-Qax) yaxınlaşdıran əlamətlər də var: ho, habu işarə əvəzliklərinin,

menin ata tipli söz birləşmələrinin və s. işlənməsi. Ancaq bütünlükdə Dərbənd–Tabasaran şivələri əsas dil xüsusiyyətləri baxımından şimal-şərq şivələrinin təsir dairəsindədir.

Dərbənd şivəsinin təsnifatdan çıxarılması nəticə etibarilə şivələrin həm şərq, həm də şimal qrupları barədə yanlış təsəvvürün yaranmasına səbəb olmuşdur. Belə ki, şivələrin şimal qrupuna aid edilən xüsusiyyətlərin çoxu əsasən Dərbənd, qismən Quba, Bakı şivələrində yayılmışdır.

Məsələn, ə→e səs dəyişməsi Bakı[1], Quba[2] və Dərbənd (məs.: el, et, ekin, elli, demir, deniz, degirman, serin, tezə) şivələri üçün səciyyəvi olduğu halda, nədənsə bu izoqlos şivələrin şimal qrupuna aid edilmişdir.

ə→e hadisəsi şimal-şərq şivələrinin (Dərbənd, Quba, Bakı) mühüm əlamətidir. Təsadüfi deyil ki, M.Şirəliyev özü "Azərbaycan dilinin dialekt və şivələri" əsərində ə→e hadisəsini şivələrin şimal qrupunu səciyyələndirən əlamətlər sırasından çıxarmışdır.[3]

Ho, habu işarə əvəzlikləri də Dərbənd şivələrində işlənir. Nəqli keçmişin III şəxsində -ıtdı, -itdi şəkilçisinin, indiki zamanda -a (-ə) durur formasının, menin ata tipli söz birləşmələrinin işlənməsi də Dərbənd və Quba şivələrində nəzərə çarpır. Bunlardan başqa, Quba, Qusar, Xaçmaz şivələrində müşahidə edilən o→u (udun, çumağ, quşun),

[1] Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı "Şərq-Qərb", 2008, 416 səh./s.21-22
[2] Yenə orada. s.40
[3] Yenə orada. s.8

ö→ü (güzəl, üküz, üzgə) səs dəyişmələri[1], Quba, Qusar, Xaçmaz, Dəvəçi, Bakı, Şamaxı, Muğan (Ağaməmmədli k.) şivələrində özünü göstərən -adu, -ədü, Quba, Qusar, Xaçmaz şivələrində müşahidə edilən -a (-ə) var indiki zaman formaları[2] Dərbənd-Tabasaran şivələrində daha qabarıqdır.

Bütün bunlarla yanaşı, Dərbənd şivəsinin özünə məxsus xüsusiyyətləri də var ki, bunlar istər şimal-şərq, istərsə də, şimal-qərb şivələri üçün o qədər də səciyyəvi deyildir. Dərbənd-Tabasaran şivələrinin spesifik xüsusiyyətləri həmin şivələri şimal-şərq ləhcəsinin daxilində ayrıca bir şivə qrupu kimi (Dərbənd qrupu) fərqləndirməyə imkan verir:

1. Mənsubiyyət kateqoriyasının II şəxs təkində saitlə bitən isimlərin -v şəkilçisini qəbul etməsi: atuv, nənüv, inegüv.

2. -lar, -lər cəmlik şəkilçisinin fonetik dəyişikliyə uğraması nəticəsində -la, -lə; -na, -nə; -ra, -rə formalarının işlənməsi: doxdurra, moşinnə (Dər., Muğartı), gəlinnə (Tab., Zil), uxusunla, gəlsinlə, çıxutdula (Dər., Tab.), aldilə, diyitdilə, səpəllə, gəlməlidilə, uxusala, gəlsələ (Dər.).

3. Şəxs əvəzliklərinin III şəxs təkinin yönlük halda oniyə//uniyə (v (çovan, arava, qavıx), b→f (xaraf, boşqaf, alıf), v→y (döylət, öylad, kököy), c→j (ajı, bajı, qoja) hadisələrinə təsadüf olunması[3] məhz bununla izah

[1] Azərbaycan dilinin Dərbənd dialekti" Bakı: Elm. 2009. 448 səh.//s.59, 63
[2] Yenə orada. s.157
[3] Yenə orada. s.130

olunmalıdır. Şəki, Oğuz, Qax və Zaqatala şivələrində şimal və qərb xüsusiyyətlərindən başqa, qismən cənub şivələrinə məxsus əlamətlər də nəzərə çarpır:

- e→ə: vər, əlçi, həyif (Ş.), həviş (Q.);
- o→a: av, savux, tavux, qavurma (Q.);
- -ıy indiki zaman şəkilçisi: alıy, biliy (Q., Ş.);
- substrat təsirin izləri: k→[k'] [k'omur] (Q.), [k'omak], [inak] (Zaq.).

Şimal-qərb şivələrinin qarışıq tipdə olmasını göstərən izoqloslardan biri də nəqli keçmişin III şəxsin təkində -ıtdı, -ıbdı; -ıfdı; -ıpdı formalarının işlənməsidir.[1]

Bu şəkilçilərin müxtəlif fonetik tərkibdə olması həmin əraziyə şimal (-ıtdı) və qərb (-ıfdı) şivələrinin təsiri ilə izah oluna bilər.

Dialekt sintaksisinə dair geniş tədqiqat aparmış M.Cəfərzadə belə qənaətə gəlmişdir ki, şivələrin "şimal qrupu şərq, qərb qrupları və Dərbənd dialekti arasında tərəddüd edir. Belə ki, ayrı-ayrı məsələlərdə çox vaxt birinci ilə, gah da ikinci və ya üçüncü ilə birləşir. Həmin qrup daxilində Zaqatala-Qax şivəsi xeyli fərqlənir. Dərbənd dialekti ilə birləşən cəhətlər, adətən həmin şivəyə aid olur".[2] Beləliklə, M.Cəfərzadənin də nəticələri şimal (daha doğrusu, şimal-qərb) şivələrinin qarışıq tipdə olmasını təsdiq edir.

[1] Axundov A., Kazımov Q., Mahmudov M., Behbudov A. Azərbaycan dilinin Dərbənd dialekti Bakı: Elm. 2009 448 səh.//s.155

[2] Cəfərzadə M. Azərbaycan dilinin dialekt sintaksisi, 2016, 380 s.//s.339

Deyilənlər Azərbaycanın şimal-qərb regionunda yayılmış olan qarışıq tipli Şəki, Oğuz, Qax, Zaqatala, Balakən şivələrini müstəqil bir ləhcə kimi ayırmağa haqq vermir. Bu şivələrin əsas xüsusiyyətləri başqa dialektlərlə (dialekt qrupları ilə) qarşı qoyulma yaratmır, onların bir qismi şimal (Dərbənd-Tabasaran) və şimal-şərq (Quba, Bakı), bir qismi qərb (Gəncə, Qarabağ, 300 Borçalı), bir qismi isə cənub şivələrinə xas olan əlamətlərdir. Bəzi elementlər isə Qafqaz dilləri ilə bağlı olan substrat təsir faktıdır.

VI MÖVZU

AZƏRBAYCAN DİALEKTLƏRİNİN TƏSNİFİ MƏSƏLƏLƏRİ

PLAN:

1. **Türk dilləri arasında Azərbaycan dilinin mövqeyi**
2. **Şivələrin təsnifi və müqayisəsi. Əmirpurun, Dilaçarın və başqalarının təsnifi**
3. **Cənubi Azərbaycan şivələri haqqında**

6.1. Türk dilləri arasında Azərbaycan dilinin mövqeyi

Azərbaycan, türk, türkmən və qaqauz dilləri türk dillərinin oğuz qrupunu təşkil edir. Fonetik sistemdə, qrammatik quruluşda və lüğət tərkibindəki bir sıra səciyyəvi xüsusiyyətlərinə görə oğuz dilləri türk dillərinin başqa qruplarından (qıpçaq, bulqar, qarluq) fərqlənir. Oğuz dillərini bir-birinə yaxınlaşdıran cəhətlərlə yanaşı, onları fərqləndirən əlamətlər də mövcuddur. Azərbaycan dilinin digər oğuz dilləri ilə uyğun və fərqli xüsusiyyətlərinin bir qismi ədəbi dillə, digər hıssəsi isə dialektlərlə bağlıdır:

1) Azərbaycan dilinin Dmanisi (Başkeçid) şivəsində saitlərin ilkin (pratürk) uzanmasının izi qalmışdır: [çö:l], [gö:l], [dö:rt].

2) Qərb ləhcəsinin Qazax-Borçalı şivələrində feilin indiki zamanında dodaqlanan açıq saitlərin ardıcıllığı gözlənilir: [olor], [qorxor], [görör], [doldoror] və s.

3) Qazax, Çənbərək, Karvansaray şivələrində ədəbi dildəki d samitinin mövqeyində dişarası z samitinə təsadüf edilir: qədim-qəzim, odun-ozun, od-oz, süd (Qazax), Sazıx, gezir, yazı (Çənbərək, Karvansaray) və s.

4) Söz əvvəlində dilarxası, kar [k']; samiti bəzi şivələrdə saxlanılır: kuş, kutu (Qazax, Marneuli), kifıl (Tovuz, Marneuli), kutu, kiş (Çənbərək, Karvansaray), kuş, kifıl, ksır (Şərur) və s.

5) Söz əvvəlində dilarxası, novlu, kar x samitinin rnovqeyində türk dilində olduğu kimi, h boğaz samitinin işlənməsinə Ordubad və Yardımlı şivələrində təsadüf edilir: horuz, hırman, hurcun, hala (Ordubad), harman, hurcun, hıyar, hasta (Yardımlı)

6) Naxçıvan, Şahbuz, Şərur, Zəngilan, Qubadlı, Cəbrayıl, Füzuli (Qarabulaq) şivələrində av səsbirləşməsi saxlanılır: davşan, yarşan, qavla və s.

7) Ayrım, Şəmkir, Tovuz, Qazax və Borçalı şivələrində, qismən də Şərur, Sədərək, Kəlbəcər, Cəbrayıl, Zəngilan, Bakı və Salyanın bəzi kənd şivələrində ismin təsirlik halında saitlə qurtaran sözlər -yı şəkilçisi qəbul edir: qapıyı, dəriyi, quzuyu, sürüyü (Qazax), almeyı//almayı, qonşuyu, kişiyi (Ayrım) və s.

8) Ayrım şivəsində şəxs kateqoriyasının və nəqli keçmiş zamanm I və II şəxsin təkində şəxs şəkilçiləri türk

dilində olduğu kimi qapalı saitlə işlənir: həkimim, həkimsin, almışım, qəlmişim və s.

9) Qaqauz dilində işlənən -er indiki zaman şəkilçisi Azərbaycan dilinin qərb şivələrində dodaqlanmayan saitli fellərə artırılır: aler, gəler, (Qazax, Tovuz, Marneuli). Türk dilindəki -yor şəkilçisi isə qərb şivələrində u, ü saitləri ilə bitən fellərdə saitlər ahənginə uyğun olaraq -yor, -yör şəklində işlənir: oxuyor, toxuyor, sürüyor (Qazax).

Şivələrin təsnifi dilçiyin mühüm məsələlərindəndir. Bizə məlum olduğuna görə Azərbaycan dili şivələrinin ilk dəfə təsnifatını F.Köçərli müəyyənləşdirmişdir. O, Azərbaycan Türklərinin danışığını 4 şivəyə bölmüşdür:

1) Qarabağ-Qazax əhalisi bir cür;
2) Şəki xalqı başqa cür;
3) Şirvan, Səlyan, Bakı və Quba adamları başqa;
4) İrəvan, Naxçıvan, Xoy, Təbriz, Maku vilayətləri isə başqa şivədə danışırlar;

Ondan sonra Fuad Köprülü şimali və cənubi Azərbaycanda Şəki, Bakı, Gəncə, Qarabağ, Təbriz, Urmiya kökü şivələrinin olduğunu qeyd etmiş. Sürəyya Talıbxanbəyli isə Qarabağ və İstanbul şivələrini müqayisə edərkən Bakı, Gəncə, Qarabağ, Şamaxı, Nuxa, Qazax, Salyan və Lənkəran şivələrini fərqləndirmişdir. Göründüyü kimi I və II bölgüdə Azərbaycan həm şimalı, həm də cənubu, III bölgüdə isə yalnız cənubu nəzərə alınmışdır. Bu bölgülər bütövlükdə Azərbaycan rayonlarını əhatə etməsə də, şivələrin yerləşmə arealları düzgün göstərilmişdir.

Azərbaycan şivələrinin təsnifi ilə ardıcıl olaraq Şirəliyev məşğul olmuşdur. Onun təsnifində əsas cəhət şivələrin coğrafi cəhətdən qruplaşdırılmasıdır. Özünün ilk təsnifatında Şirəliyev Azərbaycan dili şivələrini 5 qrupa bölmüşdür:

1. Şərq qrup dialektləri – Quba, Dərbənd, Bakı, Şamaxı, Salyan, Lənkəran.

2. Qərb qrup dialektləri – Qazax, Borçalı, Ayrım şivəsi.

3. şimal qrup dialektləri – Nuxa (Şəki), Zaqatala, Qutqaşın (Qəbələ).

Müəllif sonralar bu təsnifat üzərində dönə-dönə işləmiş və onu müəyyənləşdirmişdir. 1947-də çap etdirdiyi məqaləsində həmin bölgünü olduğu kimi saxlamış, orta qrup dialektlər əvəzinə "mərkəzi qrup dialektləri" ifadəsini işlətmişdir. Daha sonralar 4 qrup dialekti olduğunu qeyd etmişdir.

I Şərq qrupu – Quba, Bakı, Şamaxı dialektləri,

II Qərb qrupu – Qazax, Gəncə Qarabağ dialektləri, Borçalı, Ayrım şivəsi,

III Şimal qrupu – Nuxa dialektləti Zaqatala, Qutqaşen şivələri,

IV Cənub qrupu –Naxçıvan, Ordubad, Təbriz, Ərdəbil dialektləri, Naraşen, Şahbuz şivələri.

Bu təsnifatda əsas fərq orta qrupu ləğv etmək, Gəncə və Qarabağ şivələrini qərb qrupuna aid etmək olmuşdur. Bölgüdə Dərbənd və Yerevan şivələri təsnifatdan çixarılmışdır. Şirəliyevin "Dilin dialekt üzvlənməsi

problemi" adlı əsərində Azərbaycanın şivələri 4 qrupa bölünmüşdür. Buraya 4 dialekt, 3 keçid şivə qrupu daxildir .

1. Şərq qrupu – Quba, Bakı, Şamaxı dialektləri, Muğan, Lənkəran şivələri.
2. Qərb qrupu – Qazax, Qarabağ, Ayrım şivəsi.
3. Şimal qrupu – Nuxa dialekti, Zaqatala-Qax şivəsi.
4. Cənub qrupu- Naxçıvan, Ordubad, Təbriz dialekti, Yerevan şivəsi.

Keçid şivələr:

1. Şərq və qərb dialekt xüsusiyyətlərini birləşdirən Göyçay şivəsi.
2. Şimal və şərq dialekt xüsusiyyətlərini birləşdirən Ağdaş şivəsi.
3. Cənub və qərb xüsusiyyətlərini birləşdirən Cəbrayıl şivəsi.

Bu bölgüdən sonra Şirəliyevin bölgüsü, əsasən, sabitləşir. O, Azərbaycan dialektologiyası əsərinin II nəşrində keçid şivələri atmış, 4 qrup şivələri saxlamışdır. Daha sonrakı tədqiqatlarında isə keçid şivələrin olduğunu bir daha vurğulamışdır. Şirəliyev "Dil və dialekt problemi" adlı məqaləsində müxtəlif dialekt qruplarının səciyyəvi dil xüsusiyyətlərini vermişdir.

Azərbaycan dilinin dialektləri R.Rüstəmov tərəfindən də təsnif edilmişdir. O, 1953-cü ildə çap etdirdiyi “Azərbaycan dialektologiyası” proqramında dialektləri 4 qrupa bölmüşdür:

1. Şimal qrupu – Nuxa, Qutqaşen, Zaqatala.

2. Şərq qrupu – Bakı, Şamaxı, Quba, Salyan, Lənkəran.

3. Qərb qrupu – Qazax, Gəncə, Qarabağ dialektləri, Ayrım şivəsi.

4. Cənub qrupu – Naxçıvan, Təbriz, Ordubad, Ərdəbil.

R. Rüstəmov əsasən, Quba dialekti ilə, Şirəliyev Bakı dialekti ilə məşğul olmuşdur. Rüstəmov ilk dəfə olaraq Azərbaycan dili şivələrinin şərq, şimal, qərb qrupları arasında keçid təşkil edən aralıq şivələri – Ağdaş, Göyçay şivələrini müəyyənləşdirmişdir. Şirəliyev də öz təsnifatını təkmilləşdirərkən bu bölgüdən istifadə etmişdir.

6.2. Şivələrin təsnifi və müqayisəsi

Müasir Azərbaycan dili tarixən üç əsas ləhcənin (şimal-şərq, qərb, cənub) qovuşması nəticəsində yaranmışdır. Bu ləhcələrin əlamətlərinin qarşılıqlı surətdə bir-birinə keçməsi nəticəsində əsas ləhcələr arasında on keçid (qarışıq, aralıq) tiplı şivələr əmələ gəlmişdir. Müxtəlif ləhcələrin əlamətlərini özündə birləşdirən bu şivələr dil vahidləri baxımından qarışıq səciyyədə olduğundan xüsusi ləhcə əmələ gətirmir.

Azərbaycan dilinin əsas ləhcələri üç başlıca regionda: Kürdən şimalda (şimal-şərq ləhcəsi), Kür və Araz çaylarının arasındakı ərazilərdə (qərb ləhcəsi), Arazın sol sahili

hissəsindən və Muğandan cənubda (cənub ləhcəsi) formalaşmışdır. Azərbaycanın şimal-şərb hissəsində dağlıq ərazidə qarışıq tipli şivələr (şimal-qərb şivələri), Kür çayından şimalda və Qarabağın cənub-qərb sərhədlərində (Arazdan şimalda) və Muğan zonasında aralıq şivələr yaranmışdır.

Azərbaycan dilinin şivələrinin təsnifində A.Hüseynovun da xidmətləri olmuşdur. O, əvvəlcə belə bir fikirdə olmuşdur ki, Azərbaycan dili şivələri 2 qrupdan ibarətdir:

- Qıpçaq əlamətlərini saxlayanlar.
- Oğuz əlamətlərini saxlayanlar.

Müəllif "Azərbaycan dialektologiyası" əsərinin təkmilləşmiş nəşrində 3 ləhcənin adını çəkmişdir: şərq, qərb, cənub.

Bu bölgünü E.Əzizov da qəbul etmişdir. Azərbaycan dili şivələrinin Şirəliyev tərəfindən verilmiş təsnifatı Azərbaycan dilçiliyində hakim mövqedə durur. Bəzi dilçilər bu təsnifatla bağlı mənfi fıkirlərini bildirsələr də, sonradan alim öz təsnifatında heç bir dəyişiklik etməmişdir. Lakin onun bölgüsündəki qüsurlardan biri budur ki, o, Azərbaycan ərazisində3 dialekt qrupu göstərdiyi halda, cənub qrupuna yalnız Təbriz dialektini daxil etmişdi.

Dialektlərin yaranması tarixi bir prosesdir. Azərbaycanın cənubu və şimalı arasında sovet dövründə əlaqələrin zəif olması cənub dialektləri haqqında yanlış fıkirlərin yaranmasına şərait yaradırdı. Buna baxmayaraq,

Cənubi Azərbaycan dialektləri haqqında indi kifayət qədər məlumat vardır. Buna səbəb aşağıdakılardır:

Cənubi Azərbaycandan Şimali Azərbaycana əhalinin köçməsi, Kovalski, Monteil, Dörferr, Dilaçar, Əmirpur və başqalarının Azərbaycan dili şivələri haqda tədqiqat aparması.

Azərbaycan dilinin dialekt və şivələrinin təsnifatı ilə bağlı tarixən müxtəlif fikirlər meydana çıxmışdır. E.Əzizovun Azərbaycan dilçiliyində, xüsusilə də Azərbaycan dialektologiyası tarixində yüksək qiymətləndirilən "Azərbaycan dilinin tarixi dialektologiyası" (Bakı. 1999) əsərində F.Köçərlinin, F.Köprülünün, M.Şirəliyevin, Əmirpurun, S.Talıbxanbəylinin, A.Dilaçarın, R.Rüstəmovun, A. Hüseynovun və başqalarının Azərbaycan dili şivələri, onların təsnifatı haqqında fikirlərinə münasibət bildirmişdir.

Dialektlərimizin təsnifatının dəqiqləşdirilməsi məsələsi müasir Azərbaycan dilçiliyinin mühüm məsələlərindəndir. Bizə məlum olduğuna görə, Azərbaycan dili şivələrinin təsnifatını ilk dəfə F.Köçərli müəyyənləşdirmişdir. O, Azərbaycan türklərinin danışığını 4 şivəyə bölmüşdür:

- Qarabağ-Qazax əhalisi bir cür;
- Şəki xalqı başqa cür;
- Şirvan, Səlyan, Bakı və Quba adamları başqa;

- İrəvan, Naxçıvan, Xoy, Təbriz, Maku vilayətləri isə başqa şivədə danışırlar.[1]

Göründüyü kimi, F.Köçərli birinci qrupda Qarabağ şivələrinin yerini təsbit etmiş, böyük bir ərazinin əhatə etdiyi xalqın danışığının spesifik cəhətlərinin olduğunu diqqətə çatdırmışdır.

Ondan sonra F.Köprülü Şimali və Cənubi Azərbaycanda Şəki, Bakı, Gəncə, Qarabağ, Təbriz, Urmiya şivələrinin olduğunu qeyd etmiş, Sürəyya Talıbxanbəyli isə Qarabağ və İstanbul şivələrini müqayisə edərkən Bakı, Gəncə, Qarabağ, Şamaxı, Nuxa, Qazax, Salyan və Lənkəran şivələrini fərqləndirmişdir. Göründüyü kimi, I və II bölgüdə Azərbaycanın həm şimalı, həm də cənubu, III bölgüdə isə yalnız Azərbaycanın cənubu nəzərə alınmışdır. Bu bölgülər bütövlükdə Azərbaycan rayonlarını əhatə etməsə də, şivələrin yerləşmə arealları düzgün göstərilmişdir. Azərbaycan şivələrinin təsnifi ilə ardıcıl olaraq Şirəliyev məşğul olmuşdur. Onun təsnifində əsas cəhət şivələrin coğrafı cəhətdən qruplaşdırılması olmuşdur. Özünün ilk təsnifatında Şirəliyev Azərbaycan dili şivələrini beş qrupa bölmüşdür:

1. Şərq qrup dialektləri – Quba, Dərbənd, Bakı, Şamaxı, Salyan, Lənkəran.
2. Qərb qrup dialektləri – Qazax, Borçalı, Ayrım şivəsi.

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

3. Şimal qrup dialektləri – Nuxa(Şəki), Zaqatala, Qutqaşın (indiki Qəbələ).

4. Orta qrup dialektləri – Kirovabad (indiki Gəncə), Qarabağ.

5. Cənub qrup dialektləri – Yerevan, Naxçıvan, Ordubad.[1]

Sonralar Şirəliyev bu təsnifat üzərində yenidən işləmiş və dilimizin dialektlərini dörd qrupda ümumiləşdirmişdir. İkinci təsnifatında (1947) digər qrupları saxlasa da, orta qrup dialektlərini "mərkəzi qrup" dialektləri adlandırmışdır. Daha sonralar isə dialektləri 4 qrupa daxil etmişdir:

I Şərq qrupu – Quba , Bakı, Şamaxı dialektləri;

II Qərb qrupu – Qazax, Gəncə Qarabağ dialektləri, Borçalı, Ayrım şivəs;

III Şimal qrupu – Nuxa dialektləti Zaqatala, Qızılqaşlı şivələri;

IV Cənub qrupu – Naxçıvan, Ordubad, Təbriz, Ərdəbil dialektləri, Noraşen, Şahbuz şivələri.[2]

Birinci bölgüdə Qarabağ dialekt və şivələri vizual olaraq əks edilməmiş, ikinci bölgüdə isə Gəncə dialekti ilə birlikdə və Qarabağ şivələri qərb qrupuna aid edilmişdir. Bölgüdə Dərbənd və Yerevan şivələri təsnifatdan

[1] Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı "Şərq-Qərb", 2008, 416 səh.

[2] Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı "Şərq-Qərb", 2008, 416 səh.

çixanlmışdır. Şirəliyevin "Dilin dialekt üzvlənməsi problemi" adlı əsərindədə Azərbaycan dilinin şivələri 4 qrupa bölünmüşdür. Buraya 4 dialekt, 3 keçid şivə qrupu daxil edilmişdir:

- Şərq qrupu – Quba, Bakı, Şamaxı dialektləri, Muğan, Lənkəran şivələri.
- Qərb qrupu – Qazax, Qarabağ, Ayrım şivəsi.
- Şimal qrupu – Nuxa dialekti, Zaqatala- Qax şivəsi.
- Cənub qrupu – Naxçıvan, Ordubad, Təbriz dialekti, Yerevan şivəsi.[1]

Artıq bu təsnifatda görkəmli dialektoloq, alim M.Şirəliyev Qarabağ dialektinin qərb qrupu dialektləri sırasında yerini saxlamışdır. Bu, zənnimizcə, ən doğru variant hesab edilə bilər. Təsnifatda dilimizin keçid şivələri aşağıdakı şəkildə təqdim edilmişdir.

Keçid şivələr:

Şərq və qərb dialekt xüsusiyyətlərini birləşdirən *Göyçay* şivəsi.

Şimal və şərq dialekt xüsusiyyətlərini birləşdirən *Ağdaş* şivəsi.

Cənub və qərb xüsusiyyətlərini birləşdirən *Cəbrayıl* şivəsi.[2]

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.//s.288

[2] Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı "Şərq-Qərb", 2008, 416 səh.

Göstərilən bölgüdən sonra Şirəliyevin təsnifatı, əsasən, sabitləşmişdir. O, "Azərbaycan dialektologiyası" əsərinin II nəşrində keçid şivələri atmış, dörd qrupu isə olduğu kimi saxlamışdır. Daha sonrakı tədqiqatlarında isə keçid şivələrin olduğunu bir daha vurğulamışdır. Şirəliyev "Dil və dialekt problemi" adlı məqaləsində müxtəlif dialekt qruplarının səciyyəvi dil xüsusiyyətlərini müəyyən etmişdir. Şirəliyevin təsnifatında rast gəldiyimiz fərqliliklər onun fəaliyyətinin sovet dövrünə təsadüf etməsi, məsələnin siyasiləşdirilməsi və alimin qarşısına qoyulan maneələr səbəbindən özünü göstərmişdir.

Azərbaycan dilinin dialektləri R.Rüstəmov tərəfindən də təsnif edilmişdir. O, 1953-cü ildə çap etdirdiyi "Azərbaycan dialektologiyası" proqramında dialektləri 4 qrupa bölmüşdür:

Şimal qrupu – Nuxa, Qutqaşen, Zaqatala.

Şərq qrupu – Bakı, Şamaxı, Quba, Salyan, Lənkəran.

Qərb qrupu – Qazax, Gəncə, Qarabağ dialektləri, Ayrım şivəsi.

Cənub qrupu – Naxçıvan, Təbriz, Ordubad, Ərdəbil.[1]

R. Rüstəmov, əsasən, Quba dialektinin, M.Şirəliyev Bakı dialektinin tədqiqi ilə məşğul olmuşlar. Rüstəmov, ilk dəfə olaraq, Azərbərbaycan dili şivələrinin şərq, şimal, qərb qrupları arasında keçid təşkil edən aralıq şivələri – Ağdaş, Göyçay şivələrini müəyyənləşdirmişdir. Təsnifatdan da

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.//s.289

göründüyü kimi, R.Rüstəmovun bölgüsündə də Qarabağ dialekti 3-cü qrupda – qərb qrup dialektləri sırasında yer almışdır [19.s.290]. Artıq burada da Şirəliyevin aparıcı mövqeyi özünü göstərməkdədir.

Şirəliyev öz təsnifatını təkmilləşdirərkən birinci bölgüdə Qarabağ dialektini ayrıca göstərməsə də, sonrakı bölgülərdə Qarabağ dialektini Qərb qrupu dialektlərinin sırasında təqdim etmiş və bir daha dəyişməmişdir.

Azərbaycan dilinin şivələrinin təsnifində A.Hüseynovun da böyük xidmətləri olmuşdur. O, əvvəlcə Azərbaycan dilinin dialekt və şivələrini 2 qrupa aid etmişdir:

- Qıpçaq əlamətlərini saxlayanlar;
- Oğuz əlamətlərini saxlayanlar.[1]

A.Hüseynov "Azərbaycan dlialektologiyası" (Bakı. 1958) əsərinin təkmilləşmiş nəşrində isə üç ləhcənin adını çəkmişdir: şərq, qərb, cənub ləhcələri.

Bölgüdə fərqlərin olmasına baxmayaraq, A.Hüseynov Qarabağ dialekt və şivələrini qərb qrupuna daxil etmişdir.[2] Bu bölgünü E.Əzizov da qəbul etmişdir.

Azərbaycan dili şivələrinin M. Şirəliyev tərəfindən verilmiş təsnifatı Azər-baycan dilçiliyində hakim mövqedə durur. Bəzi dilçilər bu təsnifatla bağlı müxtəlif fıkirlər bildirsələr də, sonradan alim öz təsnifatında heç bir dəyişiklik etməmişdir. Lakin onun bölgüsündə nəzərə çarpan cəhətlərdən biri də budur ki, o, Azərbaycan ərazisində üç

[1] Hüseynov A. Azərbaycan dialektologiyası. Bakı. APİ. 1958. 127 s.
[2] Hüseynov A. Azərbaycan dialektologiyası. Bakı. APİ. 1958. 127 s.

dialekt qrupu göstərdiyi halda, cənub qrupuna yalnız Təbriz dialektini daxil etmişdir.[1]

Məlumdur ki, dialektlərin yaranması uzun sürən tarixi bir prosesin nəticəsidir. Azərbaycanın cənubu və şimalı arasında sovet dövründə əlaqələrin zəif olması cənub dialektləri haqqında yanlış fikirlərin yaranmasına şərait yaratmışdır. Buna baxmayaraq, Cənubi Azərbaycan dialektləri haqqında indi kifayət qədər məlumat vardır. Buna səbəb olan əsas amillərə isə aşağıdakıları nümunə göstərmək mümkündür:

Cənubi Azərbaycandan Şimali Azərbaycana əhalinin köçməsi, miqrasiya.

Kovalski, Monteil, Dörfer, Dilaçar, Əmirpur və başqalarının Azərbaycan dili şivələrinin öyrənilməsi istiqamətində tədqiqatlar aparması.[2]

Dilaçar Azərbaycan dili şivələrini 2 böyük qrupa ayırmışdır: Şimali və Cənubi Azərbaycan ləhcələri.[3]

Birinci Şimali Azərbaycan ləhcələrinə aşağıdakıları daxil etmişdir:

- Şərq qrupu – Quba, Dərbənd, Bakı, Şamaxı, Salyan, Lənkəran;
- Qərb qrupları – Qazax, Borçalı, Gəncə;

[1] Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı "Şərq-Qərb", 2008, 416 səh.
[2] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.//s.285
[3] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.//s.291

- Şimal qrupu – Nuxa, Zaqatala, Qax;
- Cənub qrupu – İrəvan, Ordubad, Naxçıvan;
- Keçid ağızları –Göyçay, Ağdaş, Cəbrayıl;

İkinci Cənubi Azərbaycan ləhcələri:

- Mərkəzdə- Təbriz, Marağa, Türkmənçay;
- Şimalda – Mərənd, Əhər;
- Şimal-qərbdə – Xoy, Maku;
- Şimal-şərqdə – Bəkrabad;
- Şərqdə – Ərdəbil, Xalxal;
- Cənub-şərqdə – Zəncan;
- Cənubda – Şakir, Şainqala;
- Cənub-qərbdə – Sərdəst, Soyukbulaq;
- Qərbdə – Şahbuz.[1]

Dilaçarın bölgüsündə diqqəti cəlb edən cəhət Cənubi Azərbaycan şivələrini doqquz qrupa bölməsidir.Buradan aydın olur ki, Cənubi Azərbaycanda yalnız Təbriz dialekti deyil, digər şivə qrupları da vardır. Dilaçara görə, ən təmiz cənub ləhcəsi Marağa ağzıdır. Bu təsnifatda bir cəhətə də diqqət yetirmək lazım gəlir ki, burada Qarabağ dialekti ayrıca qərb dialekti kimi təqdim edilməyib. Yalnız keçid şivə qismində Cəbrayıl şivəsinin adı qeyd edilib. Fikrimizcə, ərazidə aparıcı mövqeyə malik olan Qarabağ şivələri ayrıca qeyd edilsə, daha doğru olardı.

Əmirpur Azərbaycan dili şivələrini 10 qrupa ayırmağı məqbul hesab etmişdir:

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.//s.292

1. Şərq qrupu – Dərbənd, Bakı,Quba, Şamaxı, Salyan, Lənkəran;

2. Qərb qrupu – Qazax, Ayrım,Borçalı;

3. Şimal qrupu – Zaqatala, Nuxa, Qutqaşen;

4. Cənub qrupu – Yerevan, Naxçıvan,Ordubad;

5. Mərkəz qrupu – Gəncə, Şuşa;

6. Şərqi Anadolu dialekti – Ərzurum;

7. Qaşqay və Eynallı dialekti;

8. Şimali İraq dialekti;

9. Təbriz dialekti;

10. Rezaiyə gölü ətrafı dialekti.[1]

Təqdim etdiyimiz təsnifat da onu söyləməyə əsas verir ki, cənubda Azərbaycan dialektinin təsir dairəsi daha genişdir. Azərbaycan dili şivələrinin bir çox dil xüsusiyyətləri İranın cənub-qərbində, İraqın şimalında (Kərkük) və şərqi Anadoluda müşahidə edilməkdədir. Lakin onu da qeyd etmək lazımdır ki, Əmirpurun təsnifatı digərlərindən fərqlənir. Onun göstərdiyi kimi, Azərbaycanın həm şimalını, həm də cənubunu əhatə edən on qrupda Qarabağ dialektinin adı çəkilməmiş, yalnız Şuşa şivəsi Gəncə şivəsi ilə birlikdə mərkəz qrupuna daxil edilmişdir. Azərbaycanın ictimai-siyasi həyatında Qarabağın rolunu, Azərbaycan ədəbi dilinin, dilimizin lüğət tərkibinin inkişafında və zənginləşməsində rolunu nəzərə alaraq Qarabağ şivələrinin bütün təsnifatlarda yer alması daha

[1] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.//s.292

doğru olardı və bu bir zərurətdir. Çünki həm ərazi baxımından, həm maddi-mənəvi sərvətləri baxımından Qarabağ daim düşmən təqiblərinə məruz qalmışdır.

Saydığımız bölgülər arasında ən geniş yayılanı yenə M.Şirəliyevin bölgüsüdür. Lakin bu bölgüdə alim zaman-zaman dəyişiklik aparmış, müxtəlif səbəblərdən dilimizin bütün şivələri əks olunmamışdır. Bunun əsas səbəblərindən biri odur ki, ictimai-siyasi səbəblərdən Şirəliyev, əsasən, şimali Azərbaycan ərazisini nəzərdə tutmuşdur. M.Şirəliyev 1941-ci il bölgüsündə Dərbənd şivəsinə yer verdiyi halda, sonralar bu şivəni bölgüdən çıxarmışdır. Halbuki Dərbənddə tarixən azərbaycanlılar yaşamış və onların şivəsi Azərbaycanın şimal-şərq dialekt xüsusiyyətlərinə uyğun gəlmişdir. Bəzi hallarda Dərbənd şivəsində "ho", "habu" işarə əvəzliklərinin, "menin, ata" tipli söz birləşmələrinin işlənməsi kimi şimal-qərb şivə əlamətlərinə də rast gəlinir.

M.Şirəliyevin bölgüsündə bəzi şivələrin hansı dialekt qrupuna aid olması aydınlaşmır. Məs.: O, İrəvan (Yerevan) şivəsini Azərbaycan dili şivələrinin cənub qrupuna daxil etmiş və bu şivənin yalnız (Yerevan) rayonu ərazisini əhatə etdiyini göstərmişdir. İndiki qondarma Ermənistanın digər əraziləri – Göyçə, Zəngəzur, Dərələyəz, Pəmbək əraziləri və s. azərbaycanlıların yaşadığı ərazilər olduğu halda, onların şivələri təsnifatdan kənarda qalmışdır. Bu cəhət isə, yuxarıda qeyd etdiyimiz kimi, artıq dil məsələsi deyil, ictimai-siyasi gedişatla əlaqələndirilən bir prosesin nəticəsi ola bilərdi.

İndi Azərbaycanlılar həmin ərazilərdən çıxarılsa da, Azərbaycan dilinin indiki Ermənistan ərazisində mövcud olmuş şivələrini qismən də olsa, təsnif etmək mümkündür. Göyçə-Şəmşəddin, Pəmbək, Loru (Dağ Borçalı) zonalarında yaşamış azərbaycanlıların şivələri Azərbaycan dilinin qərb ləhcəsinin Qazax-Borçalı şivələrinə uyğundur. Zəngəzur-Dərələyəz azərbaycanlılarının şivələri isə dilimizin qərb (orta) və cənub ləhcələri arasında keçid xarakterlidir.[1]

Deyilənlərdən aydın olur ki, dilin dialekt bölünməsinin əsas vahidləri ləhcə və şivələr qrupudur. Yuxarıda göstərilən sxemdəki ardıcıllığı indi alimlərin çoxu qəbul etmir. Dialekt termini daha dar mənada işlədilərək şivələr məcmusu kimi başa düşülür. Azərbaycanda A.Hüseynovun "Azərbaycan dialektologiyası" əsərində ləhcə termini əvəzinə dialekt qrupu termini işlənmişdir. E.Əzizovun fikrincə, "şivə qrupu" işlənsə, daha düzgün olardı.[2] Dilçiliyimizdə yayılmış məlum bölgüləri müqayisə edərək belə bir yekun nəticəyə gəlmək olar ki, Azərbaycan dilində 10 müstəqil dialekt, 5 şivə, 3 keçid şivə vardır.[3]

Şivə dialekt dil mövcudluğunun ərazicə məhdud formasıdır. Dialekt terminini dilin dialekt bölünməsinin xüsusi vahidi kimi işlətmək doğru deyil. Məs: Salyan rayonu

[1] Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı "Şərq-Qərb", 2008, 416 səh.
[2] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.
[3] Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.

şivələri əvvəl şivə, sonra dialekt, daha sonra yenə şivə adlandırılmışdır. M.Şirəliyev öz təsnifatına təkrar olaraq 1983-cü ildə yenidən baxmış və Şerbakın məsləhəti ilə çap etdirmişdir. Şirəliyevin təsnifatında izoqlasların müəyyənləşdirilməsində özünü göstərən əsas nöqsan onların qarşı-qarşıya qoyulan dialektlərdən birində olan cəhətlərin digərində başqa şəkildə özünü göstərməsidir. Son nəticədə E.Əzizov həmin qarşıqoymaları nəzərə alaraq Azərbaycan dilində 3 əsas dialektin olması qənaətinə gəlmişdir:

- Şimal-şərq
- Cənub
- Qərb [19, s. 303].

Bəzi dialektoloqlar Azərbaycan dilinin dialektlərini müəyyənləşdirərkən izoqlas topalarını deyil, ərazidə vaxtilə xanlığın olub-olmaması məsələsini əsas hesab etmişlər. A.Hüseynov bu haqda yazır: "Azərbaycanın harasında xanlıq olmuşsa, orada da xüsusi dialekt axtarmaq, təyin etmək tarixə zidd nəticələr verə bilər. Burada bəzən dialektlə şivəni qarışdırar, müxtəlif dövrlərə məxsus dialekt və şivəni ayırd etməkdə çətinlik çəkə bilərik və söz yox ki, xanlıqlar dövründəki inzibati ərazi bölgüIəri dilimizin məhəlli dialekt əlamətlərinin inkişafina səbəb olmuşdur" [22, s.64].

Lakin inzibati bölgülər dialekt fərqlərinin yaranması üçün əsas səbəb deyil, müxtəlif səbəblərdən biridir. Əsas səbəb isə dil birliyinin müxtəlif qruplaşmalarının bir-birindən təcrid olunması və əlaqənin kəsilməsidir. Təsəvvür etsək ki, dil tarixən dəyişkəndir, onda bir yerdə yaranıb,

sonra tədricən yayılan müxtəlif innovasiyalar yaranır və nəticədə dil birliyinin üzvləri arasında əlaqə çətinləşir.

Dialektlərin sərhədləri çox müxtəlifdir, inzibati bölgüyə uyğun gəlmir. Dilin dialektləri izoqlas topaları əsasında müəyyən edilir. Əslində M.Şirəliyevin bölgüsü digər bölgülərdən çox da fərqlənmirdi. F.Köçərli Azərbaycanda 4 şivəni göstərmiş, Köprülü və Talıbxanbəyli isə mövcud şivələri sadalamış, Şirəliyev isə həmin şivələri coğrafi baxımdan qruplaşdırmış, Azərbaycan dilində 3 keçid şivə göstərmişdir: Ağdaş, Göyçay, Cəbrayıl.

A.Vəliyevin tədqiqatlarına görə Ağdaş keçid şivəsi Ağdaş rayonundan əlavə Qəbələnin cənubunda və Yevlax rayonunun şimal-şərqində;Göyçay keçid şivəsi isə Göyçay, Ucar və Zərdab rayonlarında tamamilə, Kürdəmir, Ağsu rayonlarının qərbində, İsmayıllının cənubunda da işlədilir. Göyçay keçid şivəsində şərq, qərb qismən şimal qrupunun, Ağdaş keçid şivəsində isə şimal və qərb şivələrinin təsiri vardır. Tədqiqat göstərir ki, Ağdaş, Göyçay, Ucar, Cəlilabad, Cəbrayıl və Qubadlı rayonlarında keçid şivələr yerləşir.

Aralıq şivələri, əsasən Kürün sol sahilində, Azərbaycanın cənub rayonlarında yaranmışdır. Aralıq şivələr zolağı əsas ləhcələrin sərhədini göstərir. Qarışıq şivələr təkcə konkret bir dilin dialektlərinin yayıldığı zonada yaranmır. Qarışmağa yaxın qohum dil əhatəsində olan dialektdə də özünü göstərir. Qars zonasında Azərbaycan və türk dili arasında qarışıq xarakterli şivələr var. N.A.Baskakov Qarapapaqların şivəsini qarışıq Azərbaycan-

türk şivəsi adlandırmışdır. Azərilər Qars vilayətində, əsasən, Sürməli çuxurunda Arpaçay qəzasında, Qarsın mərkəzində və bəzi mərkəzə yaxın kəndlərdə yerləşmişlər. Arpaçayda yaşayan azərilərin danışığında türk dili elementləri vardır: ben, şimdi, nasıl və s.

Zəngibasar zonasının Azərbaycan dili şivələrində türk dili sözlərinə təsadüf edilir: baba, sinirli. Şübhə yoxdur ki, İranda da Azərbaycan dilinin keçid şivələri mövcuddur. Deyilənlərdən belə qənaətə gəlmək olur ki, aralıq şivələr ayrı-ayrı şivə qruplarının təmasda olduğu zonada yaranır.

Dilimizin dialektlərinin təsnifi məsələləri ilə bəzi rus və Avropa mütəxəssisləri də məşğul olmuşlar.

İsveçli dilçi-türkoloq Lars Yohanson Azərbaycan dilinin dialektlərini 3 qrupda ümumiləşdirmişdir:

I Şimal dialektləri. Buraya daxildir:

1) Qərb yarımqrupu – Gəncə, Şuşa, Qazax, Qarabağ, Ayrım dialektləri;

2) Şərq yarımqrupu – Dərbənd, Quba, Şamaxı, Bakı, Salyan, Muğan, Lənkəran;

3) Şimal yarımqrupu – Zaqatala, Nuxa, Qutqaşen (indiki Qəbələ) dialektləri;

4) Cənub yarımqrupu – Naxçıvan və Ordubad.

II Cənub qrupu dialektləri. Əsasən, şimal-qərbi İrana aiddir: Təbriz, Urmiya, Quşçu, Xoy, Marağa, Mərənd, Oryantəpə, Türkmənçay, Ərdəbil, Sərab, Miyana, Galugah, Dərgəz, Lütfabad.

III Qərb qrup dialektləri. Buraya Şərqi Anadolu danışığı daxildir.

Alman əsilli altayşünas–türkoloq G.Dörfer Azərbaycan dialektlərini 14 qrupa ayırmağı daha münasib bilmişdir. Bunlar aşağıdakılardır:

1. Şərq qrup: Dərbənd, Quba, Bakı, Şamaxı, Salyan, Lənkəran dialektləri
2. Qərb qrupu: Qazax, Ayrım, Borçalı
3. Şimal qrupu: Zaqatala, Nuxa, Qutqaşen (indiki Qəbələ)
4. Cənub qrupu: İrəvan, Naxçıvan, Ordubad
5. Mərkəzi qrup: Gəncə və Şuşa dialekti
6. Şimali İraq dialektləri
7. Şimal-qərbi İran dialektləri: Təbriz, Rezaiye//Urmiya – Qəzvinədək olan ərazi
8. Cənub-şərqi Xəzər dialekti-Gəlugah
9. Şərqi Anadolu dialekti
10. Qaşqay dialekti
11. Aynalu dialekti
12. Sonqur dialekti
13. Qumun cənubundakı dialektlər
14. Kabil-əfşar dialekti.[1]

Yenə də Dörferin təsnifatında biz Qarabağ dialektinin Şuşa şivəsinin Şirəliyevin təsnifatında rast gəldiyimiz kimi, mərkəzi qrupda təmsil edilməsinin şahidi oluruq.

[1] https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_dilinin_dialektl%C9%99ri

Tədqiqatçı B. Rəsuloğlu Azərbaycan dialektlərini tədqiq edərkən 9 dialekt müəyyənləşdirmişdir:

1. Təbriz dialekti
2. Qarabağ dialekti
3. Yamçı dialekti
4. Uyğur dialekti
5. Marağa dialekti
6. Ərdəbil dialekti
7. Zəncan dialekti
8. Həmədan dialekti
9. Xələc dialekti.[1]

Göründüyü kimi, B.Rəsuloğlunun təsnifatında yalnız Cənubi Azərbaycan dialekt və şivələri təsnifata cəlb edilmişdir. Əslində, bu, bizim fikrimizcə, doğru istiqamət deyil, Azərbaycanın bölünməsi, kiçildilməsi faktı kimi dəyərləndirilə bilər.

Lars Yahonsonun təsnifatında Qarabağ dialekti ənənəvi olaraq Qərb qrup dialektlərinin tərkibində, B.Rəsuloğlunun təsnifatında ikinci qrupda verilmiş, Gerhard Dörferdə isə, fərqli olaraq, bəzi Qarabağ şivələri (Şuşa) mərkəzi qrupda yer alsa da, ümumi Qarabağ dialektinin adı çəkilməmişdir. Bu kimi təsnifatlarda bəzən Qarabağ adının çəkilməməsinin səbəbi elm adamlarını düşündürməyə bilməz. Görəsən, bu da hər hansı bir ictimai-siyasi prosesin, siyasətin nəticəsidir, yoxsa təsadüfdür?

[1] https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_dilinin_dialektl%C9%99ri

Təqdim etdiyimiz təsnifatların müxtəlifliyi bir daha onu sübut edir ki, müasir dilçiliyimizin qarşısında duran mühüm, tarixi əhəmiyyətli dil məsələlərindən biri kimi dialektlərimizin dəqiq, sistemli şəkildə toplanması, tədqiq edilməsi, təsnif edilməsi vacibdir və Çağdaş Azərbaycan dilçiliyinin ən mühüm, heç zaman aktuallığını itirməyən problemlərindən biridir.

6.3. Cənubi Azərbaycan şivələri haqqında

Deyilənlərdən aydın olur ki, dilin dialekt bölünməsinin əsas vahidləri ləhcə və şivələr qrupudur. Yuxarıda göstərilən sxemdəki ardıcıllığı indi alimlərin çoxu qəbul etmir. Dialekt termini daha dar mənada işlədəndə onu şivələr məcmusu kimi başa düşürlər. Azərbaycanda A.Hüseynovun "Azərbaycan dialektologiyası" əsərində ləhcə termini əvəzinə dialekt qrupu termini işlənmişdir. E.Əzizovun fikrincə, "şivə qrupu" işlənsə, daha düzgün olar. Dilçiliyimizdə yayılmış məlum bölgüyə görə Azərbaycanda 10 müstəqil dialekt, 5 şivə, 3 keçid şivə var. Dialekt dil mövcudluğunun ərazicə məhdud formasıdır. Dialekt termini dilin dialekt bölünməsinin xüsusi vahidi kimi işlətmək doğru deyil. Məs.: Salyan rayonu şivələri – əvvəl şivə, sonra dialekt, daha sonra yenə şivə adlandırılmışdır.

M.Şirəliyev öz təsnifatına təkrar olaraq 1983-də yenidən baxmış və Şerbakın vasitəsilə çap etdirmişdir. Şirəliyevin təsnifatında izoqlasların müəyyənləşdirilməsində

özünü göstərən əsas nöqsan onların qarşı qoyulan dialektlərdə öndə olan cəhətlər digərində başqa şəkildə özünü göstərməlidir. Son nəticədə E.Əzizov həmin qarşıqoymaları nəzərə alaraq Azərbaycan dilində 3 əsas dialektin olması qənaətinə gəlmişdir:

1. şimal-şərq
2. cənub
3. qərb

Bəzi dialektoloqlar Azərbaycan dilinin dialektlərini müəyyənləşdirərkən izoqlas topalarına deyil, ərazidə vaxtilə xanlığın olub-olmamasına əsaslanmışlar. A.Hüseynov bu haqda yazır: "Azərbaycanın harasında xanlıq olmuşsa, orada da xüsusi dialekt axtarmaq, təyin etmək tarixə zidd nəticələr verə bilər. Burada biz dialektlə şivəni qarışdırar, müxtəlif dövrlərə məxsus dialekt və şivəni ayırd etməkdə çətinlik çəkər və söz yox ki, xanlıqlar dövründəki inzibati ərazi bölgüIəri dilimizin məhəlli dialekt əlamətlərinin inkişafina səbəb olmuşdur.

Lakin inzibati bölgülər dialekt fərqlərinin yaranması üçün əsas səbəb deyil, müxtəlif səbəblərdəndir. Əsas səbəb isə dil birliyinin müxtəlif qruplaşmalarının bir-birindən təcrid olunması və əlaqənin kəsilməsidir. Bir halda ki, dil tarixən dəyişkəndir, onda bir yerdə yaranıb, sonra tədricən yayılan müxtəlif innovasiyalar yaranıb. Dil birliyinin üzvləri arasında əlaqə çətinləşir. Dialektlərin sərhədləri çox müxtəlif inzibati bölgüyə uyğun gəlmir. Dilin dialektləri izoqlas topaları əsasında müəyyən edilir. Əslində Şirəliyevin

bölgüsü digər bölgülərdən çox da fərqlənmirdi. F.Köçərli Azərbaycanda 4 şivəni göstərmiş, Köprülü və Talıbxanbəyli isə mövcud şivələri sadalamış, Şirəliyev isə həmin şivələri coğrafi baxımdan qruplaşdırmışdır. Şirəliyev Azərbaycan dilində 3 keçid şivə göstərmişdir. (Ağdaş, Göyçay, Cəbrayıl). Vəliyevin tədqiqatlarına görə, Ağdaş keçid şivəsi Ağdaş rayonundan əlavə Qəbələnin cənubunda və Yevlax rayonunun şimal-şərqində; Göyçay keçid şivəsi isə Göyçay, Ucar və Zərdab rayonlarında tamamilə, Kürdəmir, Ağsu rayonlarının qərbində, İsmayıllının cənubunda işlədilir. Göyçay keçid şivəsində şərq, qərb qismən şimal qrupunun, Ağdaş keçid şivəsində isə şimal və qərb şivələrinin təsiri vardır. Tədqiqat göstərir ki, Ağdaş, Göyçay, Ucar, Cəlilabad, Cəbrayıl və Qubadlı rayonlarında keçid şivələr yerləşir. Aralıq şivələri, əsasən, Kürün sol sahilində, Azərbaycanın cənub rayonlarında yaranmışdır. Aralıq şivələr zolağı əsas ləhcələrin sərhədini göstərir. Qarışıq şivələr təkcə konkret bir dilin dialektlərinin yayıldığı zonada yaranmır. Qarışmağa yaxın qohum dil əhatəsində olan dialektlərdə də özünü göstərir. Qars zonasında Azərbaycan və türk dili arasında qarışıq xarakterli şivələr var. Baskakov Qarapapaqların şivəsini qarışıq Azərbaycan-türk şivəsi adlandırmışdır. Azərilər Qars vilayətində, əsasən, Sürməli Çuxurunda, Arpaçay qəzasında, Qarsın mərkəzində və bəzi mərkəzə yaxın kəndlərdə yerləşmişlər. Arpaçayda yaşayan azərbaycanlıların danışığında türk dili elementləri vardır: ben, şimdi, nasıl və s.

Zəngibasar zonasının Azərbaycan dili şivələrində türk dili sözlərinə təsadüf edilir: baba, sinirli və s.

Şübhə yoxdur ki, İranda da Azərbaycan dilinin keçid şivələri mövcuddur. Deyilənlərdən aydın olur ki, aralıq şivələri ayrı-ayrı şivə qruplarının təmasda olduğu zonada yaranır.

Astara, Lənkəran, Lerik, Yardımlı şivələri Cənub ləhcəsinin təsiri altındadır. Bəzi cəhətlərə baxaq:

1. a→ə əvəzlənməsi: ara – ərə, qara – qərə;
2. u→ü əvəzlənməsi: su – sü;
3. u→o əvəzlənməsi: bulaq – bolaq;
4. e→ə əvəzlənməsi: enli – ənli;
5. sait ahənginin qalınlaşma istiqamətində dəyişməsi: gəldin – gəldun;
6. İndiki zamanda er və i şəkilçilərinin işlənməsi: qoyursan – qoyisən.
7. "Soyuq" və "isti" sözlərində mənsubiyyət səkilçisinin işlənməsi: soyuğumdur, istimdir.

Azərbaycan dilinin dialekt bölünməsi dilçiliyin mürəkkəb problemlərindən biridir. Dilimizin yayıldığı bütün areallarda şivələrin indiyədək lazımca öyrənil-məməsi bu məsələnin hər tərəfli izahını çətinləşdirir. Şübhə yoxdur ki, bu istiqamətdə aparılacaq gələcək tədqiqatlar həmin məsələlərin daha dərindən öyrənilməsinə imkan verəcək.

Təbriz dialekti

(Məhərrəm Məmmədli. “Azərbaycan dilinin Təbriz dialekti” əsəri əsasında. Bakı. 2007)

Cənubi Azərbaycanda, tarixən, eyni zamanda müasir dövrdə ədəbi dilə yerli dialektlərin təsiri olmuşdur. Təbriz şivələrinin bir çox cəhətləri ədəbi dilin cənub qolunun əsasında dayanır.Bu baxımdan M.Ə.Möcüz və M.Şəhriyarın əsərlərinin dili ilə Təbriz şivələri arasında oxşarlıqlar çoxdur. M.Məmmədli Təbriz dialektinin səs sistemində müşahidə edilən xarakterik cəhətləri tədqiq etmişdir. Müəyyən edilmişdir ki, Təbriz şivələrində Azərbaycan dilinin cənub şivələri üçün səciyyəvi olan səs hadisələri əsas yerdədir. Bu səs əvəzlənmələri belədir: a→ə, a→e, u→ü, u→ı, u→o, o→a, ı→→u, i→ü, e→ə; k→g, y→g, y→v, x→h və s.

Mühüm cəhətlərdən biri kimi onu qeyd etmək olar ki, türk dillərinin mühüm səciyyəvi cəhəti hesab edilən ahəng qanunu Təbriz dialektində müəyyən dəyişikliyə uğramış, saitlərin ahənginin pozulması bu dialekt üçün əsas xüsusiyyətə çevrilmişdir.

Təbriz qədim Azərbaycanın mərkəzi şəhərlərindəndir. Təbriz dialekti ilə tədqiqatçılardan M.Ergin “Azəri türkcəsi”, alman alimi K.Foy və türk alimi H.Səlimi “Azərbaycan dili”, fransız alimi V.Montel “İran Azərbaycanının türk dialekti”, Dörfer “Azərbaycan türkcəsi”, Əmirpur “İranın Azərbaycan dialekti”, C.Heyət

“Azərbaycan türkcəsi”, “Azəri türkcəsi”, “İran türkcəsi” əsərləri yaranmışdır.

Təbriz dialekti haqqında ilk dəfə M.Kazımbəy məlumat vermişdir. “Obşaya qrammatika tureçko-tatarskoqo yazıka” əsərində Azərbaycanın şimal və cənub dialektlərini müqayisə etmişdir. Şimali Azərbaycandan fərqli olaraq cənubi Azərbaycanda feillər müqayisə edilmiş, Təbriz dialektində indiki zamanın II şəxsin təki “sevirsen”, “seviren”, III şəxsin təkində “sevir”, “seviri” şəklində işlənməsi müşahidə edilmişdir. M.Kazımbəy Təbriz dialektinin fonetik və morfoloji cəhətlərini Ərzurum dialekti ilə müqayisə etmiş, belə nəticəyə gəlmişdir ki, səs əvəzlənmələri, səs artımı, səs yerdəyişməsi hər iki dialektdə bir-birinə uyğundur, a→ə və q→x əvəzlənmələri isə Təbriz dialektində ən geniş yayılmış fonetik xüsusiyyətlərdəndir.

M.Ergin “Azəri türkcəsi” əsərində Şəhriyarın “Heydərbabaya salam” əsərini tədqiq etmiş, əsas dil xüsusiyyətlərini ordan müəyyənləşdirməyə çalışmışdır.

Azərbycan dialektlərinin təsnifi ilə bağlı Əmirpurun fikirlərini yuxarıda (10 qrup) qeyd etmişik. Təbriz dialektinin səciyyəvi fonetik xüsusiyyətləri aşağıdakılardır:

Saitlərin ədəbi dil variantları ilə yanaşı, uzun və qısa tələffüz variantlarının da işlənməsi: a→a:→ã; ö→ö:→õ və s.

1) Bu saitlər b, v, ğ, d, y, g, n, h samitlərinin düşməsi nəticəsində tələffüzündə uzanır. Məsələn; kağız//[ka:z]; ağa//[a:], şikayət//[şika:t]; daha//[da:],

hovuz//[ho:z], kəröüz//[kərö:z], bu gecə//[be:jə], qara göz//[qərə:z] və s.

2) Qısa saitlər: kilid//[kĭlid], pilov//[pĭlo], biyar//[bĭyar], xəzinə//[xəzĭ] və s.

3) Burun saitləri: başına//[başũ̯], atana//[atũ̯], bacınız//[bacĭ̃z] və s.

4) Diftonqlar: yuva//[yua], göyərçin//[göəçin], çuval//[çual], bənövşə//[bənöüşə], yeyəcək//[yeəcəx], söyüt//[söüt] və s.

Sait əvəzlənmələri:

1) **Arxa sıra saitlərinin ön sıra saitləri ilə əvəzlənməsi**:

- a→ə: Təbriz dialektində sözün əvvəlində, ortasında və sonunda rast gəlinir: alov//[ələo:], almas//[ələmas], sal//[səl] (araba), halva//[həlva], daraq//[dərax], paxla//[pəxlə], araba//[ərəbə], fırtına//[fırtınə] və s.
- ı→i: sözün ortasında və sonunda rast gəlinir. Nağıl//[nəğil], qayış//[qəyiş], ağıl//[əğil], acı//[aci], sarı//[sari], qapı//[qapi], bacı//[baci] və s.
- u→ü: bu hadisə bir neçə sözdə müşahidə edilir: kuzə//[küzə], qum//[qüm], uşaq//[üşəx], guruldamaq//[gürüldəmax], bu gün//[büyün], yurd//[yürd], yumaq//[yüməx] sözlərində.
- o→ö: o gün//[öyün], qaytan//[qeytan] və s.

- a→e: qaymax//[qeymax], qayış//[qeyiş] və s. səs əvəzlənmələrinə də rast gəlinir.

2) Ön sıra saitlərinin arxa sıra saitləri ilə əvəzlənməsi:

- i→ı əvəzlənməsi sözün əvvəlində (ilxı//[ılxı], ilıq//[ılıx] və s.) və ortasında (siçan//[sıçan], qiymət//[qıymat], sirr//[sırr] və s.) baş verir.
- ö→o əvəzlənməsi Təbriz dialektində sözün birinci hecasında baş verir: növbə//[no:bə], tövlə//[to:la], tövbə//[to:ba] və s.
- i→a əvəzlənməsi sözün ortasında d, c, z, b, m samitlərindən əvvəl baş verir: cehiz//[cahaz], pomidor//[bamador]; sahib//[sahab] və s.
- i→u əvəzlənməsi, əsasən, sözün ortasında özünü göstərir: divar//[duvar], şimal//[şumal], Yusif//[Yusuf] və s.
- ö→u əvəzlənməsi: xörək//[xurəx′], nökər//[nukər] və s.

3) Arxa sıra saitlərin arxa sıra saitləri ilə əvəzlənməsi

- o→a əvəzlənməsi. Təbriz dialekti, Şimali Azərbaycanda isə, Füzuli (qərb), Quba (alınma sözlərdə) dialektlərində, Muğan qrupu şivələrində (həm milli, həm alınma sözlərdə), həm də Qədim türk yazılı mətnlərində (ona//[ana], ovuc//[avuc]) rast gəlinir. Məsələn: molla//[malla], ov//[av], ovçu//[avçı], samovar//[samavar], tovlamaq//[tavlamax] və s. (Təbriz).

- u→ı əvəzlənməsi. Məsələn; pul//[pıl], boyun//[boyın], noğul//[noğıl], odun//[odın] və s.
- ı→u əvəzlənməsi. Əsasən, sözün birinci və ikinci hecalarında z, m, n, s, x samitlərindən əvvəl baş verir. Məsələn; xatın//[xatun], tısbağa//[tusbağa], sandıq//[sandux], xanım//[xanum] və s.
- ı→u əvəzlənməsi digər türk dillərində də geniş yayılmışdır. Məsələn: ağız//[avuz], ayı//[ayu] (qaraqalpak d.), artık//[artuk] (uyğur d.), qabırğa//[kovurğa] (özbək d.), ayı//[ayu] (qazax d.) və s.
- u→o əvəzlənməsi sözün birinci hecasında baş verir. Məsələn: utanır//[otanır], ulaq//[olax] və s.

4) Ön sıra saitlərinin ön sıra saitləri ilə əvəzlənməsi

- ü→i əvəzlənməsi sözün ortasında və axırında baş verir. Məsələn şüyüd//[şivit], mühüm//[mühim], gümüş//[gümiş], tülkü//[tülki], duyu//[dügi], kürsü//[kürsi], körpü//[körpi] və s.
- i→ü əvəzlənməsi. Naxçıvan şivələrində də rast gəlinən bu hadisə Təbriz dialektində sözün ortasında baş verir. Məs.: bilmək//[bülmax], dimdik//[dümdüx], deyil//[döyül] və s. Eyni hadisəyə qədim yazı nümunələrində, M.Kaşğaridə (bitmək//[bütmək], eri//[erü], deyil//[tegül] və s.), Bakı, Şəki dialektlərində, qərb qrup şivələrində, Cəlilabad şivəsində də rast gəlinir.

- e→ö əvəzlənməsi. Təbriz dialektində o qədər də aktiv deyil. sevən//[sövən], deyil//[döyül], ev//[öy] və s.
- ə→e əvəzlənməsi. Dilimizin şimal qrupu şivələrində və Qazax dialektində rastlanır. Məsələn: pəncərə//[pencərə], sərçə//[serçə], ləçək//[leçəx′] və s.

Bundan başqa Təbriz dialektində ə→i (xəyal//[xiyal], çəmən//[çimən], yəhər//[yihər] və s.), ö→ü (törər//[türər], örpək//[ürpəx′] və s.), e→ə (bu əvəzlənmə türk dillərinin qədim fonetik cəhətidir: meyvə//[mivə], heyvan//[hivan], yenə//[ginə] və s.) və digər səs əvəzlənmələrinə rast gəlinir.

Samitlərin əvəzlənməsi

- t→d əvəzlənməsi: tutmaq//[dutmax], doktor//[döhdür], at//[ad], hörmət//[hörməd] və s.
- k→g əvəzlənməsi: könül//[gö:l], səkkiz//[səkgiz], keçmiş//[geşmiş], keçdi//[geşdi] (Təbriz və Naxçıvan d.) və s.
- f→v əvəzlənməsi. Məsələn: Qafqaz//[Qavqaz], İsfahan//[İsvahan] və s.
- d→t əvəzlənməsi. Təbriz və Naxçıvan, Şəki, Quba, Cəlilabad, Zəngilan və s. şivələrdə rast gəlinir. Məs.: qurd//[qurt], ümid//[ümit], süd//[süt], azad//[azat] və s.
- q→x əvəzlənməsi sözün sonunda baş verir: ayaq//[əyax], fısdıq//[pısdıx], qaçaq//[qaçax] və s.
- z→s əvəzlənməsi. Məsələn: atlaz//[ətlas], palaz//[palas], olmaz//[olmas] və s.
- v→f əvəzlənməsi: məhv//[məf], təhvil//[təfil] və s.

- g→h əvəzlənməsi: tüfəng//[tüfəh], külüng//[külüh], rəng//[rəh] və s.
- c→ş əvəzlənməsi: möhtac//[möhtaş], yamac//[yamaş], ağac//[ağaş] və s.
- x→h və h→x əvəzlənməsi: axşam//[ahşam], baxmaq//bahmax, çıxmaq//çıhmah; hədik//xədik,şah//şax, sabah//[sabax] və s. Bu hadisəyə həm də Ordubad dialektində və Cəbrayılın Harovlu şivəsində rast gəlinir.
- k→ç sözlərin əvvəlində və bəzən ortasında əvəzlənməsi Təbriz dialektinin xarakterik cəhətlərindəndir. Məsələn: kökə//[çöçə], kiçik//[çiçix′] və s.
- p→f əvəzlənməsi bir neçə sözdə rast gəlinir. Məsələn: tapdalamaq//[tafdalamax], tapşırmaq//[tafşırmax] və s.
- f→p əvəzlənməsi: bəzi sözlərdə özünü göstərir. Fısdıq//[fısdıx], kəfkir//[kəpgir], sap//[saf] və s. Bu hadisəyə Zaqatala-Qax şivəsində, digər türk dillərində də rast gəlinir: q→ğ (qürbət//[ğürbət], naqis//[nağıs]); b→v (gəbə//[gəvə], daban//[davan]); g→y (igid//[iyid], əgər//[əyər]); c→j (uc//[uj], güc//[güj]); y→v (göyərçin//[gövərçin], göyərti//[gövərti]); v→y (tövlə//[töylə], yovşan//[yoyşan], bənövşə//[bənöyşə]); v→ğ (ovuşdurmaq//[oğuşdurmax], sövda//[söğda]) və s. səs əvəzlənmələrinə rast gəlinir.

Əsas fonetik hadisələrdən sayılan səs artımı (hökm//[hüküm], metr//[metir], həm//[həmi]); səs düşümü (oraya//[ora], buraya//[bura], danışır//[danşır], qapının//[qapnın] və s.) assimilyasiya, dissimilyasiya, ahəng

qanunu kimi fonetik hadisə və qanunların müxtəlif təzahür formalarına rast gəlinir.

Ahəng qanunu – dodaq ahəngi daha çox gözlənilir. Təbriz dialektini ahəng qanununa həm əməl olunduğu, bəzən də pozulduğu dialektlərə aid etmək olar. Söz köklərində: acı//[aci], ayı//[ayi], daha//[dahi] və s. Şəkilçilərdə: ağacı//[ağaci], qamışı//[qamışi] (təs. hal), malım//[malim], ağzı//[ağzi] (məns. şək.) adamdır//[adamdi], almadı//[almadi] (xəbərlik şək.), yaranır//[yaranir], çağırır//[çağırey]// [çağrey] (ind. zam. şək.) və s.

Təbriz dialektinin morfoloji xüsusiyyətləri:

Morfoloji cəhətlərdə də bəzi məqamlara diqqət edək. İsmin halları: adlıq hal şəkilçisiz; yiyəlik hal -ın[4]; yönlük hal -a[2] ,-ya[2]; təsirlik hal ı-i-nı-ni; yerlik hal –da[2]; çıxışlıq hal -dan[2] şəkilçiləri ilə düzəlir.

Mənsubiyyət şəkilçiləri bir çox hallarda I şəxsin tək və cəmində işlənmir: mənim mallar, bizim qız və s. Bəzən I şəxsin təkində -ın-in-n şəkilçisi işlənir: Məs.: [Mənim bu ***gözin*** o vaxdan xəsdə olufdi.]

II şəxsdə -ın, -in, -un, -ün, işlənir, cəmdə isə -z, -ız, -iz, -uz, -üz; [babaız], [nənəiz] və s. bəzən cəmdə bu şəkilçinin əvvəlinə "y" samiti artırılır: [oğlu:z], [bacı:z], [gözü:z] və s.

Sifətin dərəcələri:

1) Adi: xəsis//[çilis], qara//[qərə], gödək//[güdə] və s.

2)Azaltma dərəcəsi: [-rax[2]], [–rəx′] [tezrax]; [yaxşırax]); -şin (qaraşın//[qərəşin]); -yağız (qarayağız//qərəyə-niz); -so (qarasov//[qərəso], dəlisov//[dəliso]); -ımtıl-umtul (sarımtıl, göyümtül) şəkilçiləri ilə düzəlir.

3) Çoxaltma dərəcəsi – analitik yolla – ***tüt, laf, tox, daha/dahi/da, çoh, zil, düm*** elementləri ilə düzəlir (tünd-qara//tüt qərə, tox narıncı, zil qərə və s.) sintetik yolla sözün əvvəlinə 1-ci hecaya m, p, r, f samitlərini artırmaqla yaranan hissəciklərin birləşməsi yolu ilə (bapbalaca, yepyekə, gömgöy, safsarı).

Saylar: 1-bi, 2-ikki, 3-üş, 4-döt,7-yetti, 11-om bir,10-om, otuz-ottus, 40-qırx, 80-həştad, milyon-milion və s.

Sıra sayları – 1-ci//biriminci; 2-ci//ikiminci; axırıncı// axiriminci.

Əvəzlik – şəxs əvəzlikləri: mən, sən, o, biz//bis (bizzər, sizzər), siz, onlar//olar.

İşarə əvəzlikləri-buna//bına; bunlar//bular; bu//bı, mı, mu; elə, belə-[heləngix′], [helençilix′], [beləngix′]; orada, burada//[oğal], [buğal];

Qayıdış əvəzlikləri: öz və bilə; Özünə qəsd edər//Bilüvə qəsd edər.

Sual əvəzlikləri: kim, nə, nəğədə, necə, nə cür, neçə//neççə; hansı//hansi, hankisi; nə//nəmənə, necə//nec şəklində işlənir.

Feilin zamanları:

Keçmiş zaman – 1) şühudi keçmiş: -dı[4], 2) nəqli keçmiş: -mı, -mi, -mu, -mü; -ıp, -ip, -up, -üp, 3) indiki

zaman: -ı, -i, -u, -ü (qalı, gəli, bili); -a, -ə (gələ, gidə); -iy, -ey (gediy, gəliy); -iri, -ıri (göriri, qalıri).

Qəti gələcək zaman: -acaq, -əcək; əcağ, -əcək;-acax-əcax; (gələcax, görəcax) inkarı isə -mi şəkilçisi ilə düzəlir (düzəlmiyacax, inanmiyacax).

Qeyri-qəti gələcək zaman: -ı, -i, -u, -ü – gələr//gəli, çəkərsiz//çəkisu:z) –ar, -ər (düərux, tikərux, sökərux və s.)

Təbriz dialektləri üçün xarakterik olan sözlər:

1) Ata – ata, baba, dədə, akqa.
2) Ana – nənə, aba.
3) Əmmə – bibi-atanın bacısı.
4) Böyük bacı – ənnə.
5) Qardaş – dadaş, ağadadaş//[a:dadaş].
6) Papaq – börk.
7) Aşsüzən – çəkə.
8) Su qabı – goduş.
9) Tezmək – aradan çıxmaq.
10) Küm – tövlə.

VII MÖVZU

AZƏRBAYCAN DİALEKTLƏRİNİN FONETİK XÜSUSİYYƏTLƏRİ

PLAN.

1. **Dialektlərin əsas fonetik xüsusiyyətləri**
2. **Saitlər haqqında məlumat**

7.1. Dialektlərin əsas fonetik xüsusiyyətləri

Dialektlərin fonetik xüsusiyyətləri. Saitlər Azərbaycan dili şivələri fonetik xüsusiyyətlərinə görə ədəbi dillə ümumi və fərqli cəhətlərə malikdir. Fonetik dialekt fərqlərini aşağıdakı şəkildə qruplaşdırmaq mümkündür:

1) Saitlərin uzun, qısa və burun variantlannın mövcudluğu.

2) Ədəbi dildəki samitlərdən əlavə, velyar ŋ, dişarası, qovuşuq **dz**,

3) dilortası x, qoşadodaq b samit səslərinin işlənməsi.

4) Ahəng qanununun pozulması, bəzi şivələrdə dodaq ahənginin güclü olması.

5) Səslərin dəyişməsində qalınlaşma, incələşmə, labiallaşma, delabiallaşma, karlaşma, cingiltiləşmə, novlaşma və s. hadisələr meydana çıxır.

6) Assimilyasiya, dissimilyasiya, səsartımı, səsdüşümü, yerdəyişmə, söz köklərində samitlərin qoşalaşması və s. fonetik hadisələr dialekt fonetikasında əsas yer tutur.

Azərbaycan dili şivələrində işlənən saitlərin ədəbi dil tələffüzündən başqa, uzun, qısa və burunda tələffüz olunan variantları da vardır.

Türk dillərində uzun saitlər mənşə etibarı ilə iki növə aynlır: 1) ilkin uzanma, 2) sonrakı uzanma.

Azərbaycan dili şivələrində uzun saitlərin mövcudluğundan ilk dəfə N.İ.Aşmarin bəhs etmişdir. O, 1926-cı ildə çap etdirdiyi əsərində Nuxa (Şəki) şəhər şivəsində [qa:n'], [a:rı'], [sa:rı'], [ya:zı'], [ba:rı'] sözlərində uzun saitlərin mövcud olduğunu göstərmişdir. İlkin uzun saitlər (saitlərin pratürk və ya ümumtürk uzanması) ümumxalq Azərbaycan dilinə xas olan xüsusiyyət deyil, lakin onun izi bəzi şivələrdə təkhecalı sözlərdə qalır məs.: [çö:l, gö:l, dö:rt (Dmanisi), sa:n (Göyçay). İlkın uzanma hadısəsi müasir türkmən, yakut, xakas, Tuva və s. dillər üçün xarakterikdir.

Azərbaycan dili şivələrində sonrakı uzanma hadisəsi geniş yayılmışdır. Bu hadisə samıtin düşməsi nəticəsində əmələ gəlir. Şivələrdə g, n, ğ, h, y, g, q, k, d, v, r samitlərinin düşməsi ilə bütün saitlərin uzun variatları meydana çıxır: [ma:t], [hə:t], [sə:r], [ce:ran], [i:rmi], [yı:rdı], [do:şan], [so:x], [bö:g], [su:n], [şü:d] və s.

Bəzi şivələrdə, xüsusilə Şəki şivəsində səs düşümü hadisəsi baş vermədən ikihecalı sözlərdə a, ə, e, o, ö saitləri

uzun tələffüz olunur və sözlər də məna dəyişikliyi əmələ gəlmir: [qa:n], [sa:n], [a:n], [sə:rin], [də:li] və s. Şəki dialektinin tədqiqatçısı M.İslamov uzanmanın bu tipinin səslinin fonetik mövqeyindən asılı olduğunu qeyd edir.

Şivələrdə qapalı saitlər qısa tələffliz olunur. Qısa saitlərin əmələ gəlməsi vurğusuzluqla izah olunur. Belə saitlər aşağıdakı fonetik şəraitdə meydana çıxır: 1) sonor səslər arasında; 2) sonor səslərlə y səsi arasında; 3) iki y səsi arasında" 4) cingiltili səslərlə sonor səslər arasında; 5) kar səslərlə sonor səslər arasında; 6) kar samitlər arasında: qıfıl, kişmiş, bülax, tüşman və s.

7.2. Saitlər haqqında məlumat

Azərbaycan dili şivələrində saitlərin burun variantları barədə ilk məlumatı N.İ.Aşmarin vermişdir. O, Şəki şivəsində e, ö saitlərindən başqa, bütün saitlərin burun variantlarını aşkara çıxarmış, işlənmə mövqeyini və əmələ gəlmə səbəblərini izah etmişdir. Burun saitləri velyar ŋ (n) səsinin düşməsi nəticəsində əmələ gəlir. Velyar ŋ səsinin düşməsi ilə özündən əvvəl və ya sonra gələn sait burunda tələffüz olunur. Şəki və Sabirabadın Kolanı kənd şivələrində bütün saitlərin, Zaqatala, Qax, Naxçıvan və Ordubad şivələrində isə a, ı, y saitlərinin burun variantları vardır məs.: [maa], [söndi] ([sönmişdi]), [ətii], [boynuu] (Şəki); [yaduä], [didıız] (Naxçıvan) və s. Şəki şivəsində burun saitləri həm söz köklərində, həm də şəkilçilərdə, Zaqatala, Qax, Naxçıvan, Ordubad, Muğan və başqa şivələrdə yalnız

şəkilçilərdə özünü göstərir. Burun saitləri iki şəkildə meydana çıxır:

l) Velyar ŋ səsinin düşməsi nəticəsində ondan əvvəl və sonra gələn sait burunda tələffuz olunur: [oğlua]

2) Velyar ŋ səsinin düşməsi ilə iki sait uzanaraq burunda tələffüz edilir: [oğluu]

Lənkəran, Dərbənd və Meğri (Nüvədi) şivələrində a saitinin dodaqlanan [a°] variantına da rast gəlinir məs.: [ba°l], [qa°b], [ba°lduz] (Lənkəran), [qa°bağ] "alın" (Dərbənd), [a°vçi], [ya°ğış] (Meğri).

Azərbaycan xalq dilinin yarandığı dörvlərdən saitlərin uzanması hadisəsi ilə yanaşı, diftonqlaşma da mövcud olmuşdur. Şivələrdə diftonqlar v, y samitlərinin düşməsi nəticəsində əmələ gəlir. Diftonqların 2 növü var:

1) Alçalan diftonqlar; 2) Yüksələn diftonqlar.

Şivələrdə alçalan diftonqlarla müqayisədə yüksələn diftonqlara məhdud dairədə təsadüf edilir.

Alçalan diftonqlarda birinci sait dolğun, ikinci sait isə birinciyə nisbətən zəif tələffuz olunur. Birinci sait açıq (o, ö, a, ə), ikinci isə qapalı saitlərdən (u, ü, i) ibarət olur (ou, öü, au, öa, əi): houz, touğ, nöüt, söüt, dauşan, atoi, ələi və s.

Yüksələn diftonqlarda birinci səs zəif, ikinci səs dolğun, tələffüz olunur. Birinci səs dodaqlanan qapalı saitlərdən (u, ü), ikinci səs dodaqlanmayan açıq (a, ə) saitlərdən ibarət olur (ua, üə, oa, öə): sua, duax, düə, oa<ova, atoa, öə<evə, göəm<göyəm və s.

Saitlər şivələrdə eyni kəmiyyətdə yayılmamışdır. Açıq saitlər qərb və cənub ləhcələrində, qapalı saitlər isə şimal-şərq ləhcəsində tələffüzdə üstünlük təşkil edir.

Saitlərin dəyişməsi. Dialekt fonetikasının səciyyəvi xüsusiyyətlərindən biri saitlərin dəyişməsi hadisəsidir. Belə fonetik xüsusiyyət saitlər sistemində özünü göstərən incələşmə, qalınlaşma, labiallaşma və delabiallaşma hadisələrinin təsiri ilə yaranmışdır.

Azərbaycan dili şivələrində müşahidə olunan sait dəyişmələrini belə qruplaşdırmaq mümkündür.

1) Qalın saitlərin incə saitlərlə dəyişməsi.
2) İncə saitlərin qalın saitlərlə dəyişməsi.
3) Dodaqlanan saitlərin dodaqlanmayan saitlərlə dəyişməsi.
4) Dodaqlanmayan saitlərin dodaqlanan saitlərlə dəyişməsi.
5) Açıq saitlərin qapalı saitlərlə dəyişməsi.
6) Qapalı saitlərin açıq saitlərlə dəyişməsi.

Qalın saitlərin incə saitlərlə dəyişməsi:

a→ə dəyişməsinə bütün şivələrdə rast gəlinsə də, cənub və şimal-şərq ləhcələrinin xarakterik xüsusiyyətidir: xəlçə, ərəbə, qərə, qəmçi, qəymax və s.

ı→i dəyişməsi şimal-şərq ləhcəsi üçün səciyyəvidir: biçağ, qizil, qiz (Quba) sırə, xiş, çirağ (Muğan).

u→ü dəyişməsi Ordubad, Muğan, Qax, Zaqatala şivələ- rində məhdud dairədə qeydə alınmışdır: ücüz, çübıx, yün, armüt və s.

o→ö dəyişməsi şivələr üçün xarakterik deyildir. Qazax, Qarabağ, Gəncə, Ordubad, Qax, Zaqatala şivələrində bir neçə sözdə müşahidə edilmişdir: töyux, söyux, döyğa, kötən.

İncə saitlərin qalın saitlərlə dəyişməsi:

ə→a dəyişməsi qərb ləhcəsində geniş yayılmışdır: hayat, tuşman, xavar, ciyar, xamır və s.

i→ı dəyişməsi qərb ləhcəsı üçün səciyyəvidir: ıldırım, ışıx, ıbtı, ıldız, bıldırçın və s.

ö→o dəyişməsi şivələrdə məhdud areala malikdir: toyla, konul, komaxçı və s.

ü→u dəyişməsinə əsasən alınma sözlərdə Qazax, Muğan, Qax və Zaqatala şivələrində rast gəlmək mümkündür: cuma, quvva, zulum, sumbul, qul və s.

Dodaqlanan saitlərin dodaqlanmayan saitlərlə dəyişməsi:

o→a dəyişməsi cənub ləhcəsinin xarakterik xüsusiyyətidir: av, avçı, qavın, qavırma, qahım, malla və s.

ö→ə dəyişməsi cənub ləhcəsində v səsindən əvvəl müşahidə edilmişdir: kösəv, əvlad, kəvşən, təvlə və s.

u→ı dəyişməsi şimal-şərq və cənub ləhcələrində geniş yayılmışdır: bığda, bırın, bılıt, bılax və s.

u→i dəyişməsi şimal-şərq ləhcəsində geniş işləkliyə malikdir: ildiz, quri, quzi, yuxi, oğri və s.

ü→i dəyişməsi şimal-şərq ləhcəsinin səciyyəvi xüsusiy- yətidir: bilbil, tikan, dügi, tüsdi, körpi, tülki və s.

Dodaqlanmayan saitlərin dodaqlanan saitlərlə dəyişməsi:

a→o dəyişməsi Bakı şivəsinin xarakterik əlamətidir: boca, bobat, hova, boba, popağ, dova və s.

ə→ö dəyişməsi Bakı və Qazax şivələrində dodaq samitlərinin təsiri ilə əmələ gəlir: dövə, növə, hövəs, nöşün və s.

e→ö dəyişməsi şimal-şərq ləhcəsində və Qazax şivəsində özünü göstərir: öy, dögül, söyüt, çöyür və s.

ı→u dəyişməsi Quba, Zaqatala, Qax şivələrində geniş yayılmışdır: pambuğ, paxul, baluğ, aşuğ, qatuğ, yaylux, palçux və s.

i→ü dəyişməsi əsasən Naxçıvan şivəsində işləkdir: şəkül, bülürəm, çəküc, nüşar, büldür və s.

Açıq saitlərin qapalı saitlərlə dəyişməsi:

a→ı dəyişməsi əsasən qərb ləhcəsinə xasdır: yıvan, cıynax, qıymax, manıt, sımavar və s.

a→e dəyişməsi şimal-şərq ləhcəsində y səsinin təsiri ilə meydana çıxır: qeyiş, qeysi, qeymağ, qeyin və s.

ə→i dəyişməsi əksər şivələrdə özünü göstərir: şikil, yihər, zincir, incil, nənyə, meşiyə və s.

ə→e dəyişməsi şimal-şərq ləhcəsində və şimal-qərb şivələrində yayılmışdır: keklig, üreg, əleg, tuteg, çekme və s.

o→u dəyişməsinə əsasən Quba, qismən də Qax, Zaqatala, Bakı, Şəki, Ordubad, Muğan şivələrində təsadüf olunur: çuban, qunağ, kutan, utuz, quşun və s.

ö→ü dəyişməsi Quba şivəsinin xarakterik xüsusiyyəti olsa da, Bakı, Muğan, Qax, Zaqatala şivələrində bir neçə sözdə qeydə alınmışdır: üküz, ürdeg, güg, kürpi, güz və s. Qapalı saitlərirı açıq saitlərlə dəyişməsi: ı>a dəyişməsi şivələrdə assimilyasiya hadisəsi nəticəsində əmələ gəlir: aşağa, kağaz, şabalat, qarğadalı, xarman və s.

e→ə dəyişməsi Naxçıvan şivəsinin səciyyəvi xüsusiyyətidir: əv, səvgi, həylə, əvlənməx', çəşmə.

i→ə dəyişməsi Naxçıvan və Muğan şivələrində bir neçə sözdə qeydə alınmışdır: ənnab, nərdəfan, Cəngiz və s.

u→o dəyişməsi şimal-şərq ləhcəsinə aiddir: boğda, qom, bozo, otanmağ və s.

ü→ö dəyişməsi şivələr üçün qeyri-səciyyəvi xüsusiyyətdir: öreg, köbrə, möhüm və s.

VIII MÖVZU

AZƏRBAYCAN DİALEKTLƏRİNİN SAMİT SİSTEMİ. FONETİK HADİSƏ VƏ QANUNLAR

PLAN:

1. **Dialektlərdə samit səslər və onların əvəzlənmələri**
2. **Fonetik hadisə və qanunlar.**

8.1. Dialektlərdə samit səslər və onların əvəzlənmələri

Ədəbi dildə işlənən samitlərdən əlavə, şivələrə xas olan samit səslər də vardır. Bunlar müxtəlif şivələrdə işlənərək fonetik dialekt fərqi yaradır:

[k] – dilarxası, partlayan kar səsdir. Bu səsə ədəbi dildə və şivələrdə əsasən alınma sözlərdə təsadüf olunur. Türk dillərinin əksəriyyətində milli sözlərdə işlənən iç səsinə Azərbaycan dilində q və x səsləri uyğun gəlir. Zaqatala, Qax və Qazax şivələrində də [k’] səsi [q] səsinin mövqeyində özünü göstərir məs.: [k’onax], [k’ış], [kıfıl] və s.

Qərb ləhcəsində, eləcə də Gədəbəy, Çənbərək, Karvansaray, Dərbənd, Balakən, Zaqatala və Qax şivələrində [k] səsi [k’] səsinə uyğun gəlir: [k’uçə], [k’ol], [ok’uz] və s.

[x'] – dilortası, kar səsdir. Bu səs şimal-şərq ləhcəsi istisna olmaqla, bütün şivələrdə incə saitlərdən sonra işlənməkdədir: [kəhlix'], [çörəx'], [inəx'], [küləx’] və s.

[ŋ] – dilarxası, sonor, cingiltili səsdir. Türk dillərinin, o cümlədən də Azərbaycan dilinin qədim samitlərindəndir. Yazılı abidələrdə bu samit söz ortası və söz sonu mövqelərində həm söz köklərində, həm də şəkilçilərdə işlənmişdir. Velyar [ŋ] səsinin işlənib-işlənməməsinə görə şivələr üç qrupa bölünür. Birinci qrupa şimal-şərq şivələri daxildir, burada velyar [ŋ] səsi, demək olar ki, işlənmir. Bu səs Bakı şivəsində iki sözdə müşahidə olunmuşdur: [doŋuz], [dəŋiz].

İkinci qrupa qərb şivələri aiddir ki, burada velyar [ŋ] səsi geniş şəkildə işlənir. Qərb şivələrində [ŋ] səsi həm söz köklərində, həm də şəkilçilərdə (yiyəlik hal, II şəxs mənsubiyyət və şəxs şəkilçilərində) özünü göstərir: [soŋra], [təŋəx′], [qapınıŋ], [aldıŋ].

Üçüncü qrupa Şəki, Zaqatala, Qax, Oğuz, Naxçıvan,

Ordubad, Şərur şivələri daxildir ki, burada velyar [ŋ] səsi bəzən saxlanılır, çox hallarda isə tələffüzdən çıxaraq öz burunluq xüsusiyyətini özündən əvvəlki və ya sonra gələn saitə verir. Velyar [ŋ] səsinin saxlanması halları Şəkinin bəzi kəndlərində (Böyük Dəhnə, Kiçik Dəhnə, Suçma, Aşağı Göynük, Biləcik, Baqqal) Zaqatala, Oğuz rayonu şivələrində və Naxçıvan qrupu şivələrində müşahidə olunur: [ağlıŋa], yerŋiz (Şəki), [qoŋax], [özuŋa] (Oğuz), [alırsıŋız] (Naxçıvan) və s.

[ç] – dilönü, qovuşuq kar səsdir. Dilimizin Naxçıvan, Təbriz, Cəbrayıl (Sirik kənd şirəsi), Qarakilsə, Zəngibasar və ayrım şivələrində ən çox söz əvvəli, qismən söz ortası mövqelərində ədəbi dildəki ç samitinin yerinə [n] səsi işlənir: çay//[nay], çox//[nox] (Naxçıvan), çarx//[narx] (Təbriz), çörək//[nörəx'] (Cəbrayıl), qoçax//[qonax] (Qarakilsə), çənə//[nənə] (Ayrım) və s.

Türk dillərində [n]-laşma hadisəsinin mənşəyi mübahisəlidir. Tədqiqatçılann əksəriyyətinin fikrincə, Azərbaycan dili şivələrində [n]-laşma vaxtilə Azərbaycan ərazisində yaşamış sabir-xəzər tayfalarının dil xüsusiyyəti ilə bağlıdır. Azərbaycan dili şivələrində n samitinin işlənmə arealı məhduddur. Bu qovuşuq səs ancaq bəzi kənd şivələrində müşahidə edilir.

Cəbrayıl, Ordubad, Zəngibasar, İsmayıllı, ayrım şivələrində ədəbi dildəki [c] səsinin mövqeyində dilönü, qovuşuq, cingiltili [dz] səsi çıxış edir: [dzoraf], [dzanavar], [qodza], [dzan] və s.

[ş] – dişarası, sürtünən cingiltili səsdir. Bu səs Qazax, Gədəbəy, Çəmbərək, Karvansaray şivələrində d samitinin mövqeyində işlənir: [oşun], [aşam] (Qazax), [oş], [gəşə] (Gədəbəy), [saşıx], [yaş] (Çənbərək). Dişarası ş samiti müasir türkmən və başqırd dillərində ədəbi dil səviyyəsində işlənir.

[v] – qoşadodaq, kar, novlu səsdir. Bu səs Zaqatala şivəsində və Kərkük türkmanlannm dilində müşahidə

olunur: [var], [vatan], [ev] (Zaqatala), [qavırma], [davşan] (Kərkük).

Nəfəsli [k], [ç], [t], [p] səsləri ayrıca fonem kimi deyil, əsas fonemlərin variantları kimi özünü göstərir. Bu səslərin nəfəsli tələffüz olunmasını ilk dəfə N.İ.Aşmarın Şəki şivəsinin materialları əsasında müəyyən etmişdir. Şivələrdə nəfəsli [k], [ç], [t], [p] səsləri təkhecalı sözlərin sonunda müşahidə olunur: [tikʻ], [kökʻ], [açʻ], [otʻ], [itʻ], [ipʻ] və s.

Şivələrdə geniş yayılmış fonetik xüsusiyyətlərdən biri də samitlərin dəyişməsidir. Samitlərin dəyişməsi nəticəsində karlaşma, cingiltiləşmə, kipləşmə, novlaşma, affrikatlaşma kimi hadisələr meydana çıxır. Samit dəyişmələri söz əvvəlində, ortasında və sonunda özünü göstərir.

Karlaşma: b→p, b→f, d→t

Cingiltiləşmə: k→g, f→v [tüvək], t→d, k→h [kəhlix'], p→b [bamador];

Novlaşma: b→f, b→v, ç→ş, q→x Affıratlaşma: [dzorab], d→ç [çüş]; k→ç [çal]; g→c [cəl].

Qeyri-palatal: g→q, y→d ([dumru]), y→v ([gövərti]), y→q ([iqnə]), y→ğ ([iğdə]).

Samit səslər şivələrdə eyni kəmiyyətdə yayılmamışdır. Kar samitlər qərb və cənub şivələrində, cingiltili samitlər isə şimal-şərq şivələrində inkişaf etmişdir.

Söz əvvəlində samit dəyişmələri:

b→p dəyişməsi qərb, cənub və şimal-şərq şivələrində üstünlük təşkil edir: budaq//[putax]//[pıtax], bıçaq//[pıçax], biçin//[piçin] və s;

p→b dəyişməsi Qazax şivəsinin səciyyəvi xüsusiyyətidir: pomidor//[bamador], plan//[bilan], patron//[badron] və s;

f→p dəyişməsi şivələr üçün qeyri-xarakterik olub, Zaqatala və Qax şivələrində alınma sözlərdə rast gəlinir: fayton//[paytun], fındıq//[pundux], fənər/[/pənər]və s;

d→t dəyişməsi bütün şivələrdə özünü göstərir: diş//tiş, düşmən// tuşman və s;

t→d dəyişməsi Qazax şivəsində bir neçə sözdə qeyd almmışdır: tər//[dər], tüstü//[düsdü] və s;

k→ç, g→c dəyişmələri daha çox Naxçıvan qrupu şivələrinə xasdır: küçə//[çüçə], kömək//[çömək], köhnə//[çöhnə], göy//[cöy] və s.

k→g dəyişməsi cənub şivələri üçün xarakterikdir: keçi//[geçi], keçmiş//[geçmiş], keçdi//[geşdi].

g→q dəyişməsi Zaqatala, Qax və ayrım şivələrində yayılmışdır: gün//[qün], gördü//[qördi], göz//[qöz], gözəl//[qözəl] və s.

k→[k'], dəyişməsi də Zaqatala, Qax və ayrım şivələri üçün xarakterikdir: [k'or], [k'ol], [k'oca], [k'üçə] və s.

x→h dəyişməsi Ordubad şivəsinin xarakterik xüsusiyyəti olsa da, Cəbrayılın Horovlu kənd şivəsində də müşahidə olunmuşdur: xırman//[herman], xoruz//[horuz], xurcun//[hurcun], xəbər//[həbər] və s.

Söz ortasında samitlərin dəyişməsi

b→v dəyişməsi qərb şivələrinin əsas xüsusiyyətidir, lakin şimal-qərb şivələrində də yayılmışdır: [çovan], [arava], [bava], [xavar].

v→b dəyişməsi şimal-şərq şivələrinə xasdır: [xəlbət], [qabal], [heyba], [şalbar] və s.

f→p dəyişməsi Zaqatala və Qax şivələrində qeydə alınmışdır: [qıpıl], [səpər], [həpdə] və s.

t→d dəyişməsi bütün şivələrdə özünü göstərir. Bu hadisənin meydana çıxması Azərbaycan dilində iki kar samitin yanaşı işlənməməsidir: [dəsdə], [xəsdə], [bosdan], usda və s.

c→j dəyişməsi qərb şivələrinin fərqləndirici xüsusiyyətidir: [gejə], [hajı], [qoja], [bajı] və s.

y→g dəyişməsi şimal-şərq şivələrində geniş yayılmışdır. Bu hadisə intervokal mövqedə və ya saitlə sonor səslər arasında meydana çıxır: [ignə], [dügi], [dügün], [əgri] və s.

Söz ortasında [g] və [j] səslərinin işlənməsinə görə şivələr üç qrupa bölünür:

1) şimal-şərq şivələrində söz ortasında [g] səsinə,

2) qərb şivələrində [y] səsinə rastlanılır,

3) cənub və şimal-qərb şivələrində həm [g], həm də [y] səsləri üstünlük təşkil edir.

y→v dəyişməsi cənub şivələrinin səciyyəvi xüsusiyyəti olsa da, Cəbrayıl şivəsində də özünü büruzə verir: Bu dəyişmənin baş verməsi açıq dodaq saitlərinin

təsiri ilə izah olunur: [gövərti], [gövərçin], [sövüd], [sovux], [tovux] və s.

v→j dəyişməsinə Qazax şivəsində açıq dodaq saitlərindən sonra rast gəlinmişdir: [toyla], [doyğa], [öyşan], [noyruz] və s.

ğ→q dəyişməsi Naxçıvan və Qazax şivələrində aşağıdakı sözlərdə müşahidə edilmişdir: [yorqan], [yorqa], [qarqa], [damqa] (Nax.), [qayqanax] (Qazax) və s.

h→y dəyişməsi şimal-şərq şivələrinə xas olan xüsusiyyətlərdəndir: [şayid], [Meyti], [vəyşi], [söybət], [qoyum] və s.

Söz sonunda samitlərin dəyişməsi

b→p dəyişməsi əsasən cənub şivələrmə xasdır: [kitap], [corap], [hesap], [məktəp] və s.

b→f dəyişməsi dəyişməsi qərb şivələrinin səciyyəvi xüsusiyyətidir, lakin məhdud dairədə cənub və şimal-qərb şivələrində də yayılmışdır: [kitaf], [cavaf], [boşqaf], [kasıf].

d→t dəyişməsi bütün şivələrdə az və ya çox dərəcədə özünü göstərir: [armıt]//[armut], [qurt], [süt], [bulut] və s.

z→s dəyişməsi qərb şivələrində geniş yayılmışdır: [palas], [qarpıs], [uldus], [xorus].

c→ş dəyişməsi qərb və şimal-qərb şivələrində geniş dairədə işlənməkdədir: [ağaş], [qılış], [turaş], [Oruş] və s.

ç→ş təkhecalı sözlərin sonunda ç→ş dəyişməsi qərb şivələrinin xarakterik xüsusiyyətidir, qismən də Şərur və Şahbuz şivələrində müşahidə olunur: [köş], [üş], [uş], [aş], [qoş] və s.

c→j təkhecalı sözlərin sonunda c→j dəyişməsi qərb və cənub şivələrində qeydə alınmışdır: [aj], [gij], [gej], [güj] və s.

q→x dəyişməsinin işlənməsinə görə şivələr iki qrupa bölünür: 1) şimal-şərq şivələrində çoxhecalı sözlərin sonunda [ğ] səsinə, 2) qərb və cənub şivələrində isə [x] səsi üstünlük təşkil edir: [yarpağ], [torpağ], [qabığ (şimal-şərq), [çubux], [balıx], [torpax] (qərb) və s.

k→g, x , y dəyişməsinin işlənməsinə görə şivələr iki qrupa ayrılır: 1) şimal-şərq şivələrində çoxhecalı sözlərin sonunda [g] səsi, 2) qərb və cənub şivələrində isə [x] səsi geniş yayılmışdır. Bütün şivə qruplarında az və ya çox dərəcədə söz sonunda [y] səsinə rast gəlinir: [inəg], [çörəg], [küləg] (şimal- şərq), [çörəx], [inəx] (qərb, cənub), [ələy], [ürəy], [ördəy], [kürəy] (əksər şivə) və s.

8.2. Fonetik hadisə və qanunlar.

Fonetik qanunlar. Ahəng qanunu

Dialekt fonetikasında fonetik hadisələr əsas yer tıutur. Ləhcələr və şivələr bir-bırindən daha çox fonetik hadisələrin təzahür formalarına görə fərqlənir.

Şivələrdə ahəng qanunu ədəbi dilə nisbətən bir o qədər də möhkəm deyildir. Ayrı-ayrı şivələrdə ahəng qanununa eyni dərəcədə riayət olunmur. Saitlər ahənginin saxlanması və pozulması baxımından baxımından şivələr üç qrupa bölünür.

1) Ahəng qanununa ciddi riayət olunan şivələr. Bu qrupa Qazax, Qarabağ və Gəncə şivələri daxildir. Qazax və Qarabağ şivələrində dodaq ahəngi də ədəbi dilimizə nisbətən inkişaf etmişdir. Ədəbi dildə damaq ahənginə əsasən iki variantda işlənən şəkilçilərin Qazax və Qarabağ şivələrində dodaq variantları da özünü göstərir: otlayırdı (ədəbi dil) – [otdordu] (Qazax) – [otduyurdu] (Qarabağ). Ədəbi dildə ahəng qanununa tabe olmayaraq, sözün əvvəlində [i] səsi işləndiyi halda, Qazax, Gəncə və Qarabağın bəzi şivələrində [ı] səsi ilə işlənir: [ışıx], [ılxı], [ıldırım].

2) Ahəng qanununun tez-tez pozulduğu şivələr. Buraya Quba, Bakı, Şəki, Zaqatala, Qax, Ordubad, Culfa, Lənkəran və Təbriz şivələri aiddir. Bu şivələr də ahəng qanunu həm söz köklərində, həm də şəkilçilərdə pozulur. İncə saitli sözlərə qalm saitli şəkilçilər qoşulur: [gidax], [gəlmax], [günnux], [dedıx] və s. Bakı şivəsində əksər hallarda qalın saitli sözlərə incə saitli şəkiləilər əlavə olunur: alaceg, almeg, almani və s.

3) Ahəng qanunu bəzi hallarda pozulan şivələr. Bu qrupa Şamaxı, Naxçıvan və Muğan şivələri daxildir.

Ahəng qanununun pozulma məqamları:

1) Söz köklərində: qeymağ, qeytan, quzi, meyva, töyux, söyux və s.

2) İsmin yönlük halında: aniyə, qapiyə, çuxuyə və s.

3) İsmin təsirlik halında: bobani, almanu, ocağı və s.

4) Mənsubiyyət kateqoriyasında: coravim, coravin, coravi və s.

5) Sıra saylarında: altiminci, qırxınci, onunci və s.

6) Məsdərlərdə: almeg, yazmeg, getmax və s.

7) İndiki zamanda: alerex, oxiyir və s.

Şivələrlə dodaq ahəngi damaq ahəngi ilə müqayisədə zəifdir. Lakin qərb şivələrində, xüsusilə Qazax şivəsində açıq dodaq saitlərinin ardıcıllığı gözlənilir. Bu hadisəyə daha çox sözün iki hecasında riayət olunur. Qazax şivəsində açıq dodaq saitlərinin ardıcıllığı iki şəkildə təzahür edir:

1) Açıq dodaq saitlərinin ardıcıllığı: [olmor], [yoxlo:r], [ötö:r], [köçmör] və s.

2) Açıq və qapalı dodaq saitlərin ardıcıllığı: [quror], [düşör], [tutordu].

Bakı şivəsində bəzən açıq dodaq saitlərinin ardıcıllığın rast gəlinir: [bobon öydödü?]

Dodaq ahənginin pozulma məqamları:

1) [u] səsindən [ı] səsinin gəlməsi: [burın], [qurı], [qumlığ]

2) ü səsindən sonra [i] səsinin işlənməsi: [tüsdi], [tüki], [tülki] və s.

3) [o] səsindən sonra [ı] səsinin gəlməsi: [boyın], [oğlım], [qolım].

4) [ö] səsindən sonra [i] səsinin gəlməsi: [gördi], [özi], [sözdi] və s.

Şivələrdə damaq ahəngi qüvvətlidir. Lakin bəzi şivələrdə damaq ahənginin pozulması halları da mövcuddur:

1) [a] və [ı] səslərindən sonra [u] səsinin gəlməsi: [bığdanun], [alduz].

2) [a] və [ı] səslərindən sonra [o] səsinin gəlməsi: [aton], [anon].

3) [ə] və [i] səslərindən sonra [ü] səsinin gəlməsi: [ələün], [gəlsün].

4) [ə] və [i] səslərindən sonra [ö] səsinin gəlməsi: [nənön], [dədön].

5) [e] səsindən sonra [ü] və [ö] səslərinin gəlməsi: [belün], [yerün], [getsö].

Assimilyasiya və dissimilyasiya

Assimilyasiya hadisəsi şivələrdə geniş yayılmışdır. Təsir istiqamətinə görə assimilyasiyanın iki növü var:

1) İrəli assimilyasiya; 2) Geri assimilyasiya.

İrəli assimilyasiya da bir səs özündən sonra gələn səsə təsir edərək onu ya tamamilə öz məxrəcinə uyğunlaşdırır və ya başqa səsə çevirir. Aşağıdakı tipləri var:

1. rl→rr: [qarrı], [varrı], [narrar]
2. nl→nn: [oğlannar], [odunnar]
3. nd→nn: [mənnən], [sənnən]
4. zl→zz: [qızzar], [qazzar]
5. zd→zz: [bizzən], [Arazzan]
6. dl→dd: [arvaddar], [daddı]
7. st→ss: [dussağ], [tüssü]
8. zl→zd: [qızdar], [duzdu]
9. tl→>td: [otdar], [atdar] və s.

Geri assimilyasiyada isə bir səs özündən əvvəl gələn səsi ya tamamilə öz məxrəcinə uyğunlaşdırır və ya başqa səsə çevirir. Əsas tipləri bunlardır:

1. rl→ll: [alıllar], [gəlillər]
2. nm→mm: [qammaz], [dimməz], [oyammağ]
3. ts→ss: [yassın], [gessə]
4. zs→ss: [yassın], [görməssən]
5. nb→mb: [sümbül], [ambar] və s.

Dissimilyasiya hadisəsinə görə eyni cinsdən olan iki səsdən biri fərqli başqa səslə əvəz olunur və ya düşür. Dissimilyasiya da təsir istiqamətinə görə irəli və geri olur.

İrəli dissimilyasiyada eynicinsli səslərdən ikincisi başqa səsə çevrilir. Əsas tipləri bunlardır:

1) r→l: [qəral], [zərəl], [qurtal]
2) n→l: [fantal]
3) m→b: [əmbə]

Geri dissimilyasiyada eynicinsli səslərdən birincisi başqa səslə əvəz olunur:

1) r→l: [muldar]
2) r→n: [mundar]
3) n→l: [lərdivan]

Metateza, səsartımı, səsdüşümü

Yerdəyişmə də şivələrə xas olan fonetik hadisələrdəndir. Bu hadisə şivələrdə iki şəkildə özünü göstərir: 1) yanaşı yerdəyişmə 2) yanaşı olmayan yerdəyişmə.

Yanaşı yerdəyişmədə qonşu səslər dəyişir. Əsas tipləri bunlardır.

Yanaşı olmayan yerdəyişmə də müxtəlif mövqeli səslər dəyişilir. Aşağıdakı tipləri yayılmışdır:

1) ğd→dğ: qardığalı
2) ğn→nğ: yornuğ
3) lr→rl: partal
4) mn→nm: intaham
5) mh→hm: cahamat
6) m→nr: xuncur və s.

Səs artımı hadisəsinə şivələrdə tez-tez rast gəlinir. Bu hadisə həm saitləri, həm də samitləri əhatə etməklə sözün

bütün mövqelərində özünü göstərir.

Söz əvvəlində saitlərin artımı (proteza). Bu hadisə alınma sözlərdə [st], [sk], [sp], [şk], [ş], [r], [l] səslərindən əvvəl baş verir: Alınma sözlərdə [st], [sk], [sp], [şk] səslərindən əvvəl qapalı saitlərin artımı Azərbaycan dilində söz əvvəlində iki kar samitin yanaşı işlənməməsi və st, sk, sp, şk, r samitləri ilə başlayan heca tiplərinin olmaması ilə bağlıdır:

1) [i] səsinin artımı: [ispirt], [iskan]//[istikan], [isdansiya], [İrza], [ilanpa] (Salyan)

2) [ı] səsinin artımı: [ısdol]// [ıstol]

3) [u] səsinin artmı: [ustul]//[ustol], [usu] (Bakı, Qazax), [Urbaba], [uruh] və s.

Söz əvvəlində samitlərin artımı:

[y] səsinin artımı (Zaqatala, Qax, Naxçıvan, Qazax) şivələrdə qapalı saitlərdən və açıq [a] səsindən əvvəl müşahidə olunur: [yeniş] (Naxçıvan), [yıldız], [yıldırım], [yılxı], [yuca], [yüzük] (Zaqatala, Qax).

Şivələrdə söz önündə [y] səsinin işlənməsində özünü göstərən xüsusiyyətlərin XI əsrdə mövcud olduğu mənbələrlə təsdiq olunur. M.Kaşğarinin "türk" adlandırdığı tayfaların dilində adların və feillərin əvvəlində işlənən [y] səsinə oğuzların və qıpçaqların dilində ya "sıfır səs", ya da [c] səsi uyğun gəlmişdir. M.Kaşğariyə görə, türklər yelkin (səyahətçi), ilıq (ilıq), oğuzlar isə elkin, ılığ demişlər.

XI əsrdə türk tayfa dillərində söz önündə [y] səsinin işlənməsi Azərbaycan yazılı abidələrinin dilində də öz əksini tapmışdır. "Kitabi-Dədə Qorqud" abidəsindən XVIII yüzilədək yazılı mənbələrdə bu xüsusiyyət mövcud olmuşdur.

[h] səsinin artımı əksər şivələrdə, xüsusilə də Zaqatala və Qax şivələrində nəzərə çarpır: [haçar], [hindi], [hasan] (əksər şivələrdə), [herik], [ho], [honı]//[huna], [həmək] (Zaqatala, Qax).

M.Şirəliyev Mahmud Kaşğariyə əsaslanaraq söz önündə [h] səsinin işlənməsini türk tayfa dillərinə hind dilinin təsiri hesab edir. M.Kaşğari qeyd etmişdir ki, əsl türk dillərində boğazdan çıxan [h] səsi yoxdur. Onun fıkrincə, xotan və gəncək dillərində [h] səsi işlənsə də, bunlar əsl türklər deyil, türklər ölkəsinə son gələnlərdir. M.Kaşğari xotanların və gəncəklərin dilindən belə misallar verir:

[hata]/ata, [hana]/ana. Lakin dil faktları [h] səsinin bəzi türk dillərində daha qədimdən işləndiyini təsdiq edir. Dilin nisbətən qədim leksik təbəqəsi olan vokativ sözlərdə də [h] səsi xüsusi yer tutur.

Söz ortasında sait artımı (epenteza). Şivələrdə alınma sözlərdə iki samit arasına sait artımı nəzərə çarpır:

- [i] səsinin artımı: [əmir], [elim], [sədir];
- [ı] səsinin artımı: qırx/[qırıx];
- [u] səsinin artımı: [zulum], [turup];
- [ü] səsinin artımı: [ötürü], [höküm];
- [o] səsinin artımı: [oxoley] (Zaqatala)

Söz ortasında samitlərin artımı:

- [y] səsinin artımı əsasən qərb şivələrinə aid olub, alınma sözlərdə özünü göstərir: [fayız], [zayıf], [vayğun];
- [h] səsinin artımı: [sahat], [camahat];
- [n] səsinin artımı: [kilint], [sərhənd], [balanca].

Söz sonunda saitlərin artımı.

Şivələrdə bu hadisəyə az hallarda sonor səslərdən sonra rast gəlinir: [həmi], [qədərə], [metrə], [indiyənətənə] və s.

Söz sonunda samitlərin artımı.

- [n] səsinin artımı: kin4, kimin, ərəbcən, ötrün [m] səsinin artımı: [bərkəm];
- [y] səsinin artımı: [kiloy], [çantoy]

Səslərin düşümü hadisəsi də sözün əvvəlində, ortasında və sonunda müşahidə olunur. Saitlərin düşümü hadisəsi vurğusuzluqla bağlı və sözlərin birləşməsi

nəticəsində meydana çıxır: İsmail//[Smail], xəzinə//[xəznə], qəhrəman//[qəhrman], oğula//[oğla], qayaya//[qayya], quyuya//[quyya], qaraoğlan//[qaroğlan] və s.

Samitlərin düşümü:

- [h] səsinin düşümü : hörümçək//[ömürçəx'], hörük//[örüx'], vəhşi//[və:şi] (Qazax, Zaqatala) və s.
- [y] səsinin düşümü: yuxarı//[uxarı], yumrux//[umrux], yuxu//[uxu], yumurta//[murtda] (Qazax), yeməli//[iməli] (Zaqa tala), Yusuf//[Usup] (Naxçıvan), iyirmi//[i:rmi], göyərçin//[göərçin];
- [g] səsinin düşümü: qaragöz//[qaraö:z] (Qazax);
- [v] səsinin düşümü: dovşan//[do:şan], övlad//[ö:lad];
- [r] səsinin düşümü: qurtar//[qutar], gəlirsə//[gəlisə], yaxşıdır//[yaxşıdı], alırlar//[aleyla];
- [l] səsinin düşümü: altmış//[atmış], qalxdı//[qaxdı], gəl//[gə];
- [n] səsinin düşümü: sonra//[so:ra], qonşu//[qo:şi], könlüm/[gö:lüm], kənd//[kət] və s.
- [t] səsinin düşümü: dost//[dos], dəst//[dəs], vaxt//[vax] və s.

Söz köklərində samitlərin qoşalaşması türk dillərinə xas olan fonetik hadisələrdəndir. Bu hadisə Azərbaycan şivələrində həm kar, həm də cingiltili samitləri əhatə edir:

- [m] səsinin qoşalaşması: [hammı], [həmməşə];
- [r] səsinin qoşalaşması: [qarranquş], [kərrə];
- [z] səsinin qoşalaşması: [uzzun], [təzzə];
- [t] səsinin qoşalaşması: [tüttəg] (Qazax);

- [ç] səsinin qoşalaşması: [qoççağ], [kiççix'];
- [ş] səsinin qoşalaşması: [aşşağı], [qəşşəx'] (qərb şivələrində).

IX MÖVZU

AZƏRBAYCAN DİLİNİN DİALEKT LEKSİKASI

PLAN:

1. **Dialektizmlərin növləri**
2. **Dialekt leksikası**
3. **Dialektlərdə alınma sözlər və digər söz qrupları**

9.1. Dialektizmlərin növləri

Dialektlərin lüğət tərkibi qədim və zəngindir. Dialektlərin leksikası dedikdə, ədəbi dildə işlənməyən dialektlərə xas olan sözlər nəzərdə tutulur. Dialekt sözləri zaman-zaman ədəbi dilə keçmiş, norma səviyyəsinə yüksəlmiş, ədəbi dil leksikasını zənginləşdirən əsas mənbə olmuşdur. Dialekt sözləri işlənmə məqamlarına görə iki qrupa bölünür:

1) Ədəbi dillə ortaq leksika; 2) Spesifik leksika.

Ədəbi dillə ortaq leksika dialektlərdən ədəbi dilə keçmiş və norma hüququ qazanmış dialektizmlərdən ibarətdir: camış, kəl, kəlçə, dügə, yorğa, dolu, gülşad, giavar, şahmayı, köşək, ağ şanı, keçi əmcəyi və s.

Spesifik leksika dialekt sözlərinin işlənmə arealına görə iki qrupa bölünür:

a) yalnız bir dialektdə işlənənlər: baxım//halal (Şəki), bəqah//igid (Quba), qəzim//tənək basdırılan yer (Salyan), qətdəl//xain (Təbriz), kəpirli//daşlı (Zəngilan), kəryə//dost-tanış (Qazax), sar//böyük ağac (Ordubad) və s.

b) iki-üç və daha çox dialektdə və ya ləhcədə işlənənlər: törə//gödək (Şamaxı, Ordubad, Qazax, Şuşa, Bakı), ütüx//hiyləgər (Ağdam, Ordubad, Laçın, Cəbrayd), dağar//lovğa (Bakı, Şamaxı, Tovuz, Salyan, Sabirabad), dingə//başa bağlanan sarı parça (Şamaxı, Gəncə, Qazax, Ordubad), yava//pis (Sabirabad, Salyan, Şahbuz, Culfa, Kəlbəcər, Laçın, Kürdəmir) və s.

Dialekt sözlərinin əsas əlaməti məhdud ərazidə bir və ya bir neçə yaşayış məntəqəsində yayılmasıdır. Bu cəhətdən şivələrdə müxtəliflik mövcuddur. Bir şivədə və ləhcədə işlənən dialekt sözü digər şivələrdə başqa məna ifadə edir və ya fonetik cəhətdən ondan fərqlənir. Məs.: düşmə//təsadüfən əldə edilən əşya (Bakı), qararnal//sahibsiz (Ağdaş), ələngə//iri ağac (Quba), ziyrix//çirkin (Tovuz), qıvraq//zirək (Qazax) və s.

Ədəbi dilin leksikasına münasibətinə görə, dialektizmlərin müxtəlif növləri vardır:

a) fonetik dialektizmlər;

b) morfoloji dialektizmlər;

c) leksik dialektizmlər;

ç) semantik dialektizmlər

Fonetik dialektizmlər ədəbi dildən yalnız fonetik formasına görə fərqlənir. Bu zaman eyni semantikaya malik

olan söz ədəbi dildə və dialektlərdə fərqli şəkildə tələffüz olunur. Fonetik dialektizmlər səs dəyişmələri, səs artımı və düşümü, səslərin yerdəyişməsi nəticəsində meydana çıxır. Məs.: [hayat], [ciyar], [ışıx], [qavın], [bığda], [boba], [putax], [tükan], [çovan], [haçar], [murta] və s.

Morfoloji dialektizmlər ədəbi dildən morfoloji quruluşuna görə fərqlənir. Ədəbi dildə və dialektlərdə eyni mövqedə müxtəlif qrammatik formalar işlənir. Məs.: alır (ədəbi dil) – aladu (dialekt), gəlib (ədəbi dil) – gəlibən (dialekt) və s.

Assimilyasiya hadisəsi morfoloji dialektizmlərə uyğundur, məs.: [odunnar], [qızdar], [qıymatdı], [qardaşdıx], [naxışdı], [süddü], [quşdar] və s.

9.2. Dialekt leksikası

Leksik diaiektizmlər dedikdə, ədəbi dildə qarşılığı olan dialekt sözləri nəzərdə tutulur. Yəni eyni məna ədəbi dildə və dialektlərdə müxtəlif sözlərlə ifadə olunur: gödək (ədəbi dil) – mimig (Quba), tumurcuq – mıcır (Şamaxı), çovğun – silhan (Qərbi Azərbaycan), nəsil – turun (Şuşa), qoruq – xam (Qazax) və s.

Semantik dialektizmlər o zaman meydana çıxır ki, ədəbi dildəki söz fonetik tərkibini dəyişmədən dialektlərdə başqa mənalarda işlənir: zing//üzüm salxımının bir hissəsi (Bakı, Salyan), meşə//gön qurudulan yer (Şəki), hava//evin örtüyü (Balakən), ərik//alça (Quba) və s.

Dialekt leksikası ilə ədəbi dil leksikası yüzilliklər boyu bir-birinə qarşılıqlı təsir göstərmişdir. Ədəbi dilin lüğət tərkibinin formalaşmasında dialektlər əsas rol oynamış, daim onu zənginləşdirmişdir. Ədəbi dildə zərurət yarandığı halda dialekt sözləri ədəbi dilə keçmiş (daha çox bədii əsərlərin vasitəsilə), tədricən norma səviyyəsinə yüksəlmişdir: qaşqa//heyvanın alnında ağ ləkə, sayrışmaq//parlamaq, qiymə//tikə-tikə, qının//meyil, həvəs, qobu//dərə, çökək, qulun//at balası və s.

Müasir dövrdə ədəbi dilin dialektlərə təsiri güclənmişdir. Ədəbi dil dialektlərə nüfuz etdikcə, dialekt sözlərinin arealı məhdudlaşır. Bu təsirlər artdıqca dialektlərin quruluşunda dəyişikliklər baş verir. Milli ədəbi dilin formalaşması başa çatdıqda, dialektlər onun tərkibində relikt şəklində fəaliyyətini davam etdirir.

Şivələrin lüğət tərkibində növ anlayışı bildirən sözlər çoxluq təşkil edir. Yəni ümumi adlardan əlavə, şivələrdə təbiət hadisələrinin, alətlərin, heyvanların rənginə, yaşına və yerişinə, meyvələrin formasına və dadına görə müxtəlif adları geniş yayılmışdır:

At adları: qurt yeriş, yorğa, qarayorğa, çortağan, ağyal, ayğır, alapaça, qarayeriş, axaltəkə, alaşa, bədöy, bozdəmir, qaranal, qaşqa, qulan, dayça, dilbaz, zərgül, zilan, yavı, yezidi, kəkkir, kəmər, kəhər, kürən, göydəmir, laqqır, löhrəm, maydan, minək, mor, saqqar, siyirmə, xəfgir və s.

Araba və hissələrinin adları: dördçarxlı, dulğu//araba təkərində topun üstünə keçirilən dəmir halqa, kirşə//təkərsiz

araba, kötük//təkərin üstünə qoyulan ağac, ləgər//arabanın böyük təkəri, ox, paz//qının oxa keçirilən hissəsindəki ağac, sapılca//arabada dayanacağın keçirildiyi hissə, taytəkər, tiş//arabanın təkərinə bərkidilən ağac, top//arabada oxun keçirildiyi və təkərin fırlandığı hissə, uzanacax//arabanın qolu, şaraban//araba növü, şiragül//arabanın sağ və sol tərəfindəki ağac çərçivə, şornu//arabada arxa və qabaq təkərləri birləşdirən ağac və s. (Gəncəbasar)

Şivələrin əhatə etdiyi ərazinin iqtisadiyyatından asılı olaraq, dialekt sözləri coğrafi cəhətdən müxtəlif şəkildə yayılmışdır. Balıqçılığa və gəmiçiliyə aid terminlər Bakı, Muğan və Lənkəran şivələrində, bağçılığa aid terminlər Quba, Zaqatala və Qax şivələrində, maldarlığa aid terminlər Qarabağ və Gəncəbasar şivələrində, əkinçiliyə aid terminlər daha çox qərb şivələrində, ipəkçilik, baramaçılıq şimal-qərb şivələrində inkişaf etmişdir. Düzdür, bu sənət növləri ilə digər bölgələrdə də məşğul olsalar da, qeyd edilən ərazilərdən zəifdir.

Baramaçılığa və ipəkçiliyə aid terminlər: sarı barama, ağ barama, yaşıl barama, küm, kümdar, miz, künə, cabal, gər, zorapa, kitil, uludan durmax, xurex', kesişax, boş, köynəxˈ, tiyan, çeşmə, vaz, qans, modux, ayar, sərto, uydur və s. (Şəki)

Alma növlərinin adları: ağ tabağ, ağ şafran, apurd, aranat, bayramxan cıri, belfuruq, qəndabi, qəndi sinab, qızıl əhməd, quzgürən, qırmızı palast, eybalma, isgan alması, güg turş, mayıs güzəli, meytiquli cıri, mirabba alması,

Əhmədxan cıri, novaxcanı, pomajnı, sarı palast, sarı sinab, sarı turş, sarı şafran, sığınkə, tabağ alma, hacı, cibir alma, cırhacı, şanpan, şirvan gözəli, sixcanı və s. (Quba)

Pambıqçılıq terminləri: çiyid, ikiqulaqlı (pambığın təzə cücərən vaxtı), gülolma, daraqlanma, qoza, partlama, ağarmağ, malalama, kultivasiya, sovka, şırımlama, kətmənnəmək, seyrəltmək və s. (Muğan)

Şivələrin lüğət tərkibində tarixi təbəqələşmə. Şivələrin lüğət tərkibində keçmiş həyat tərzi, adət-ənənələr, qohumluq əlaqələri, köhnə təsərrüfatla bağlı sözlər qorunub saxlanmışdır. Belə sözlər şivələrdə müxtəlif şəkildə işlənməklə tayfa elementlərini özündə yaşadır.

Tayfa məfhumu bildirən sözlər. Şivələrdə tayfa, nəsil, ailə mənasında uruğ (Şamaxı, Muğan), com (Muğan), tabun (Zaqatala, Qax), şaqqa (Zaqatala), göbəklər-göbəylər, coğalar (Şamaxı), əqrəbələr, təbehlər (Quba, Şirvan), tirələr, oymaxlar (Ağdam), bəzəlli (Füzuli), kök, tağ, toxum (Qazax, Şəki), tayfa, bölük (Naxçıvan) sözləri işlənməkdədir. Belə sözlərin arealı şivələrdə məhdudlaşmış, daha çox məhlə, uşaq sözləri ilə əvəz olunmuşdur.

Qohumluq əlaqələrini bildirən sözlər iki qrupa bölünür:

l) qan qohumluğu ilə bağlı sözlər: ana, öyəana, ciyi, ənnə (Şəki), ciji, ciyi, adiy (Zaqatala), abay (Qax), nənə, aba (Təbriz), ata, dədə, öyəata (Şəki), dədə, qağa, əmi, aba (Qazax), ata, aba (Quba), qardaş, lələ, qədeş (Bakı), qardaş, çuçey, didey (Zaqatala), qərdəş, dadaş (Təbriz), bibi, büvü,

mama, əmə, həmşirə (Şəki), əmmə (Təbriz), bibi, mama (əksər şivə), xala, adiy (Zaqatala), baba, bava, ulu baba (Şəki), baba (atanın atası), qoca baba (ananın atası) (Zaqatala, Qax), böüy baba (atanın atası), ağacan (ananın atası) (Təbriz), nənə, nenə (Bakı), cicə (İrəvan), böynənə, böüynənə (Təbriz, Lənkəran) və s.

2) nigah qohumluğu ilə bağlı sözlər: arvat, xatın (Şəki), qayın, qeyin (Bakı), ini (Şəki), kürəkən, göy, yeznə (əksər şivə), giyov (Quba), əmi arvadı, betele, bada (Zaqatala), dayıdostı, dayıxatını (Qax), bibi oğlu, mama oğlu və s.

Köhnə həyat şəraiti, təsərrüfat fəaliyyəti və məişətlə bağlı sözlər şivələrdə mühafizə olunmuşdur. Belə sözlərin sırasına təsərrüfat alətlərinin, ölçü və çəki vahidlərinin, il, ay və gün adları daxildir:

Alət adları: xış, cüt, ulama, cəhrə, kirgirə (Qazax), əldegirmanı (Bakı), şadara Qazax, Gəncə, Qarabağ) və s.

Köhnə çəki və ölçü vahidlərinin adları: batman, tağar, istil, uruf, arva (ağırlıq ölçüsü), çərəx, qulac (Qazax), çanax, daqqa (Zaqatala, Qax), çanax (lkq), put (15,5kq.), xəlvər (ton), girvənkə (400q.), istil (300q.) tağar, ağaş, arşın (lm. 10sm.), batman (Təbriz batmanı 5kq, Qərədağ batmanı 6kq, Tehran batmanı 3kq, misqal 4,4q) (Təbriz) və s.

Köhnə təsərrüfatla bağlı olan, islam dini ilə əlaqədar gün və ay adlarının əksəriyyəti şivələrdə artıq işlənmir. Yalnız dini adət-ənənələrlə bağlı ramazan, məhərrəm və şaban adları şivələrdə işləkliyini saxlamışdır.

Qədim türk sözləri. Dialekt leksikası daim inkişaf edir, yeni sözlər hesabına zənginləşir. Cəmiyyətin dəyişməsi, yeni texnikanm kəşfı, yeni təsərrüfat formalarının əmələ gəlməsi ilə əlaqədar dialektlərin lüğət tərkibində neologizmlər işləklik qazanır. Bununla yanaşı, bəzi sözlərin fəaliyyət dairəsi daralır. Qədim türk sözlərinin bir qismi ədəbi dildə arxaikləşsə də, şivələrdə məhdud arealda fəaliyyətini davam etdirir. Şivələrdəki qədim türk sözlərinin bir hissəsi ilkin formasını və semantikasını olduğu kimi saxlamış, əksəriyyətinin tərkibində dəyişiklik baş vermişdir. Fonetik tərkibinə və mənasına görə, qədim türk sözləri aşağıdakı şəkildə qruplaşdırılır:

1) İlkin mənasını və fonetik tərkibini saxlayan sözlər: aba "ana" (Təbriz, Qax), aba "ata" (Ordubad, Zəngilan, Quba, Dmanisi), ay "demək" (Füzuli), baba "ata" (Bərdə, Təbriz, Dmanisi), becid "tez", "cəld" (Bakı, Şamaxı, Ordubad, Quba, Qazax, Ayrım), döşürmək "yığmaq", "dənləmək" (Tovuz, Şəmkir, Marneuli, Təbriz), sayrama "ötmək", "oxumaq" (Gədəbəy, Qazax, Şəmkir) və s.

2) İlkin mənasını saxlamaqla fonetik dəyişikliyə uğrayan sözlər: anğ "təmiz" (Qarabağ), sab "söz, nitq" (Qax), çözmək "açmaq" (Ağdam, Bərdə, Xanlar, Tovuz, Bolnisi, Cəbrayıl, Kəlbəcər), küdəgü "kürəkən" (Şərur, Culfa, Quba, Qazax, Tovuz, Göyçay) və s.

3) İlkin mənasına yaxın olan sözlər: ini "kiçik qardaş" (Şəki), ismarla "tapşırmaq" (Kəlbəcər), tanla "işıqlanmaq",

açılmaq” (Bakı, Göyçay), tayta “axsamaq” (Ağdam, Şuşa, Şəki, Ordubad) və s.

Dialektlərin lüğət tərkibi müxtəlif tematik qruplara bölünür. Maldarlığa, əkinçiliyə, bağçılığa, toxuculuğa, xalq təqviminə, məişət əşyalarına, tikililər və onların hissələrinə, təbii şəraitə və s. aid sözlər lüğət tərkibinin əsasını təşkil edir.

Əkinçiliyə aid sözlər: ana arx, qol arxlan, başqov “zəminin baş tərəfindəki arx”, mora “ən kiçik arx”, boğma “suyun qabağını tutmaq”, xəko suyu “birinci suvarma” “təzo suyu”, dilab “ikinci suvarma”, lənkov, çiçəx suyu “üçüncü suvarma” dənov, dəno: “dördüncü suvarma”, kərdi “soğan ləki”, tirə “ləkin kənarları”, armaza “suvarma ştrımları” (Naxçıvan).

Ev əşyalarının adları: bayda, kükü qabı, ləyən, simavər, çəkə “aşsüzən”, kəpgir, gilxizan, güyüm, qazança, qablama, mis qablama, roh qablama, cam, nimçə, teşt, mejmeji, bulut, goduş “su qabı”, ət goduşu, məlağa “çömçə”, sini, lüleyin, tiyənçə, çini qab, mis tava, dal “vedrə”, tavax “çörək saxlanan yer” ərsin “dəmir qab” və s. (Təbriz)

Qaramal adları: ağbaş, ağtəpəl, balaşələli, böyük-şələli, buğabasar, qaraçıl, qətdəl, qızılyelin, qırabuynuz, qısır, dilən, döylət, dölçə, dunux, düyə, ətyelin, yazabuğa, kəzi, kəvə, kələbuğa, kələkə, korməmə, malbuğa, oğursax, oyşan, sargız, sivri, sığırboğan, sığırbuğa, talxa, teytey, tulam- buynuz, haqqıyatına, haçadırnaq və s. (Gəncəbasar)

Corab növünü və çeşnisini bildirən sözlər: düymə corab, zincircorab, gəlin qaşı corab, qoçbuynuzu corab, üziyanuğ corab, şalpıta corab, üzisəpbə corab, əlibəg corab, isgəndəri corab, aşuğ çeşnisi, qəyçiqulpi corab, toyuğeşənəyi corab, pıçəgbırni corab, cəhrəpəri corab, körki, göl corab, üzgi corab, tərsəçor corab, xoyrat corab, tulbaşi corab, çit çeşnisi, kəklikdöşi corab, qaraüzdü corab, saya corab (Yardımlı)

Xalq təqviminə aid sözlər: böyüx çillə, kiçix çillə, xədir (böyük çillənin axınncı 4 günü ilə kiçik çillənin əvvəlinci 4 günü), yunqıxma (yazın 2-ci ayı), vədə (qışın son 17 günü), yalançı çərşənbə, xəbərçi çərşənbə, axır və ya gül çərşənbə, süt günü (3-cü gün), tək günü, duz günü (Təbriz), oğlaxqıran, leysan ayı, cilas ayı, qorabişən ay, quyruxdoğan ay, xəzan ayları, qo:s çilla, bo:g çilla, çiçik çilla (Ordubad)

Tikililər və onun hissələrinə aid sözlər: ayna "qapının xonçası", barata "palçıq lay", vərdic "tio", qapı "damsız eyvan", dərbəçə "balaca qapı", işkil "taxta cəftə", yanav "qapının iki tayı", yandamı, kəlləlix "qapının başı", kalafa "üstü açıq dam", pərdi "tavanın taxtalan", him "özül", küflə "təndirə hava yolu" (Naxçıvan).

Şivələrin lüğət tərkibində termin səciyyəsi daşımayan sözlər də çoxluq təşkil edir. Belə söz ya ədəbi dildə işlənmir, ya da başqa mənalar ifadə edir, məs.: ağruz "inəyin ilk südü", badağan "pilləkən", vala "duz", fışqa "fit", qəmbər "çay daşı", qadax "mismar", dağal "çəpər" (isim), xırsız "güclü", abi "göy", anqut "çox yeyən", ammır "acgöz", aşt

“sakit”, qolay “asan”, qarsov “axmaq”, qotemez “sınıq”, nanığ “aciz”, ufdan “yaxşı” (sifət), oxranmax “kişnəmək”, küməşmək “sıxlaşmaq”, yoncımağ “yalvarmaq”, dabanmağ “qaçmaq”, gənəşməx “məsləhətləşmək”, küpləməx “döymək”, iyəşməx “sözləşmək”, zoğallamax “boş-boş danışmaq” (feil), boylum “sonar”, haliyə “indi”, fırıl “dərhal”, qərəm “həmişə”, aran-saran “çox az”, becid “tez”, danna “sabah” (zərf).

Termin səciyyəsi daşımayan sözlərin bir qismi digər türk dillərində eyni mənada və ya müxtəlif fonetik tərkibdə işlənməkdədir, məs.: bəlgə (Gəncə) “nişan” sözü həmin mənada müasir türkmən, qırgız, qazax, özbək dillərində “belqi”, başqırd dilində “bilde” formasında təsadüf edilir; qondara (Qazax) “tufli” sözü türk dilində “kundura” şəklində işlənir; yassar (Zaqatala) “tənbəl” sözü özbək, başqırd dillərində də işlənir; meşmeşi (Salyan) “ərik” sözü tatar dilində “maşmaş” şəklində işlənir; manqay (Bakı) “alın” sözü özbək, qazax, türkmən dillərində də həmin mənanı ifadə edir və s.

9.3. Dialektlərin alınma leksikası

Dialektlərdə alınma sözlər. Azərbaycan dili yüzilliklər boyu fars, ərəb və Iber-Qafqaz dilləri ilə qarşılıqlı əlaqədə olmuş, bu dillərdən bir-birinə sözlər keçmişdir. Sovet dönəmində rus xalqı ilə siyasi və iqtisadi əlaqələr nəticəsində slavyan mənşəli xeyli söz dilimizdə işləklik qazanmışdır. Alınma sözlər dialektlərdə əslinə uyğun şəkildə

işlənməmiş, fonetik və semantik baxımdan dəyişikliyə uğramışdır. Dialektlərdə alınma leksikanın tərkibi müxtəlifdir. Şimal- şərq ləhcəsində və Güney Azərbaycan şivələrində ərəb-fars sözləri, şimal-qərb şivələrində İber-Qafqaz sözləri üstünlük təşkil edir. Slavyan mənşəli sözlər bütün şivələrdə yayılmışdır.

Ərəb və fars sözləri. Dialektlərin lüğət tərkibində ərəb-fars mənşəli sözlər iki şəkildə işlənir:

l) fonetik və semantik baxımdan dəyişikliyə uğrayanlar: asda-ahəstə, əceb-əcayib, muşqulat-məşquliyyət, irişğad-rişxənd, ma:nə~bəhanə (Bakı), qəfə~qəhfə "çay", ərə~ərre "mişar" səndəl~səndəli "stul" fəş~fərş "xalça" (Təbriz), vəsyət-vəsiyyət, xivət-xiffət, höysələ-hövsələ (Lerik), əkabur-əkabır "çox bilmiş adam", şemadet-şəmatət "tənə", "danlaq" (Abşeron), zayıf~zəif, tassığ-təsdiq, irəfdar-rəfdar, sahat~saət, tə:r~təhər, şə:r~şəhər, xəş~xərc (ək. şivə).

2) məna və fonetik cəhətdən əslinə uyğun şəkildə işlənənlər: səf "sıra", külfət "ailə", bərq "işıq", qəza "hadisə", miz "stol", bam "borc" (Təbriz), siv "künc", sos "ləkə", şip "səbət", ambır "kəlbətin" beybut "alət" (Lənkəran) və s.

Şivələrdə milli və ərəb-fars sözləri birgə işlənərək bir məna ifadə edir, məs.: çölli-biyaban, təxtəqapi "oturaq" (Təbriz), üzbəsurət, yığcəm, cuanəzən (Bakı), uzındıraz (əksər şivə.)

Talış dilindən keçən sözlər: Azərbaycan dilinin cənub-qərb şivələrində (Lənkəran, Astara, Masallı, Lerik,

Yardımlı) talış dilinin təsiri daha çox lüğət tərkibində özünü büruzə verir, məs.: qandımə “itdirsəyi”, kil “küt”, qədə “kiçik”, ker “daş”, çülə “çöp”, kijə “quş”, çərgül “yaylıq”, pılək “düymə” və s.

Tat dilindən keçən sözlər. Bakı, Abşeron və Dərbənd şivələrində məhdud dairədə tat mənşəli sözlərə də rast gəlinir; məs.: əng “arı”, qağla “gil qab”, kələ “yekəpər adam”, nüməxart “alaçıy, nimdaş”, vəlvələguş “yekəqulaq adam” (Abşeron), rişbaba “üzüm adı”, dambıl “gavalı”, cacu “kirpi”, kələ “böyük”, danku “hədik”, tov “baca”, dirix “çarıq”, xürş “ağız” (Dərbənd) və s.

Slavyan və Avropa mənşəli sözlər, məs.: naloğ, əsfal, ıradio, bankə, numra, maşoq, balxon, umbermaq (Bakı), naylon, trahdır, kaleskə, döhdür, isfalt, tilfun (Təbriz), >apkə~şabqa, işqaf, potılkə, poşt, aptek-əptek, duruba, usdul (ək. şıvə) sobraniya “iclas”, uşqulə “məktəb”, uçitel “müəllim”, karta “xəritə” (Dərbənd) və s.

İber-Qafqaz dillərindən keçən sözlər: Şimal-qərb və Dərbənd şivələrində İber-Qafqaz dillərinin (ləzgi, avar, çaxur, gürcü) təsiri ilə məhdud dairədə həmin dilə məxsus sözlər işlənməkdədir, məs.: adiy “ana”, beteley “əmi arvadı”, qamac “daş”, qoc “şalban”, daqoy “it”, xayma “pulaz” (Zaqatala, Qax, Oğuz), mərcəxər “armud növü”, qaç “dişi at”, qoc “şalban”, daqqay “it”, qumqumay “bayquş” (Dərbənd) və s.

Gürcü dilindən keçən sözlər. Borçalı şivələrində gürcü mənşəli sözlər məhdud arealda özünü göstərir; məs.:

cəcə “üzüm puçalı”, cincar “gicitkən”, mərə “çökək yer”, məngəl “oraq”, xımı “otun bir növü”, şeşamadi “yemək adı”, qod “ölçü”.

Dialekt leksikasında omonim və sinonim sözlər. Dialekt leksikasında omonimlər mühüm yer tutur. Sözlərin ədəbi dildəki və dialektlərdəki mənaları omonimləri əmələ gətirir və ya omonimlərin hər iki mənası dialektə məxsus olur; məs.: ayna-1) pəncərə, pəncərə şüşəsi; 2) əhval, vəziyyət; dağ-1) dağ; 2) heyvanlara vurulan nişan (Şəki); qatıx-1) ağartı növü, 2) payızdan qovrulub saxlanılan ət; xəşə-1) bitki adı, 2) böyük kisə (Naxçıvan); göy-1) xəsis, 2) kal, 3) kürəkən (Ordubad); yel-1) xəstəlik adı, 2) külək, bağ-l)bağ, 2) ot topası (Təbriz) və s.

Dialektlərdə sinonimlər aşağıdakı yollarla əmələ gəlir:

1) sinonim cərgə əmələ gətirən sözlərdən biri arxaik olur: suç~günah, yovurt-qatıx, yazı~çöl (Təbriz); becid-yegin-yügürmeçə (Abşeron)

2) dialekt sözləri ədəbi dildəki qarşılığı ilə sinonimlik əmələ gətirir: gilas~ba:li~bəhli, büvi~mama~həmşirə (Şəki), orax~məngələ, so:ra~boylum (Naxçıvan), xəsis~misqi~qeyməz~malyeməz~simic; zırrama~sarsağ~səmə~səfi (Quba); koma~tatı~yosma (Yardımlı); dəsmal~təlis (Lənkəran-Masallı-Astara); arığ~canəzi~zeyif~cılız~düşgin (Lerik) və s.

3) sinonimlərin tərkibi dialekt və alınma sözlərdən təşkil olunur: bağlama~məf-rəş, qonax-müsafır, av~şikar

(Təbriz), qoltuğaltı-mühəccər-sürahı, artırma~seyvan~seki (Şəki) və s.

Dialekt frazeologiyası. Frazeoloji ifadələr uzun yüzilliklərin məhsulu olub, qədim tarixə malikdir. Belə birləşmələrin bir qismi ədəbi dildə işləklik qazanmış, əksər hissəsi dialekt səviyyəsində qalmışdır. Dialektlərdə frazeolegizmlər müxtəlif şəkildə yayılmışdır. Bəzi frazeologizmlər əksər dialektlərdə işləndiyi halda, bir qismi məhdud ərazidə fəaliyyət göstərir, məs.: Əlvallah qoparmaq "qalmaqal salmaq" (Gədəbəy), əvniyə çıxmaq "nahara çıxmaq" (Füzuli), fısdırığı gəlmey "kefi kök olmaq" (Bakı), göz tüşməx "yetişməyə başlamaq" (Ağcabədi), pəl vurmaq "mane olmaq", pərgar olmaq "bacarmaq", şiltimi çıxmaq "köhnəlmək" və s.

X MÖVZU

AZƏRBAYCAN DİLİ DİALEKTLƏRİNİN QRAMMATİK XÜSUSİYYƏTLƏRİ. MORFOLOGİYA. İSİM VƏ İSMƏ AİD KATEQORİYALAR

PLAN:

1) Morfologiya.

2) Əsas morfoloji xüsusiyyətlər.

Azərbaycan dili şivələri özünəməxsus morfoloji xüsusiyyətləri ilə həm ədəbi dildən, həm də bir-birindən fərqlənir. Dialekt fərq yaradan morfoloji xüsusiyyətləri aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1) Şəkilçilərin təsiri ilə söz köklərinin fonetik formasının dəyişməsi: [aton], [mə:m], [mə:], [mağa], [sağa] və s.

2) Qərb şivələrində sonu saitlə bitən isimlərin təsirlik halda "-yı" şəkilçisi qəbul etməsi: qapıyı, quzuyu, arabıyı.

3) Mənsubiyyət kateqoriyasının II şəxsində müxtəlif formaların işlənməsi: [atag], [atav], [atayız], [atouz], [başoz].

4) Şəxs şəkilçilərinin II şəxs cəmdə müxtəlif şəkildə ifadəsi: [babasıqız], [babasu:z], [nənəsiyiz].

5) Sifətin dərəcələrinin müxtəlif şəkildə ifadə olunması: [ağıntul], [qaramtul], [cannırax], [saftəmiz], [dəsdəyirmi], [unuzun].

6) Sıra saylarının -minci şəkilçisi ilə əmələ gəlməsi: biriminci, ikiminci və s.

7) Şəxs əvəzliklərinin yönlük halda müxtəlif şəkildə işlənməsi: [maqa], [maä], [məyə], [mağa], [saqa], [saä], [sağa], [oa], [oya] və s.

8) İşarə əvəzliklərinin müxtəlifliyi: habu, budey, odey, odurana, budurana, otana, butana, onək, bunək, oqılıx, bıqılıx və s.

9) Feilin əmr şəklinin II şəxs təkinin -qınan//-ginən[2] şəkilçisi ilə ifadə olunması: yazgınan, algınan, gəlginən və s.

10) Nəqli keçmiş zamanın II və III şəxslərində -ıf[4], -ıtdı[2] formalannın işlənməsi: alıfsan, alıfsıqız, alıtdı, gəlitdi və s.

11) -ıban[2], -ıbannarı[2] feili bağlama şəkilçilərinin işlənməsi: baxıban, gəlibən, durubannarı və s.

İsmin hallanması: Şivələrdə ismin 6 halı vardır. Adlıq hal şəkilçisiz əmələ gəlir. Yiyəlik hal müxtəlif formalarla ifadə olunur: -ın şəkilçisi yiyəlik halın əsas ifadə vasitəsidir.

Bu şəkilçinin işlənmə kəmiyyətinə görə şivələr iki qrupa bölünür:

1) Dörd variantlı -ın şəkilçisinin işləndiyi şivələr. Bu qrupa Qazax, Qarabağ, Ağdam, Gəncə, Şəki, Naxçıvan, Zaqatala və Qax şivələri daxildir.

2) Yiyəlik hal şəkilçisinin dodaq variantının (-un, -ün) işləndiyi şivələr. Buraya Quba, Bakı, Şamaxı, Mərəzə və İsmayıllı şivələri aiddir.

-ıŋ[4]. Qərb şivələrində -ın şəkilçisinin verlyar [ŋ] səsli forması yayılmışdır: bulağıŋ, inəyiŋ, quzuŋuŋ, sürüŋün və s.

Müasir türk dillərinin çoxunda (tatar, başqırd, türkmən, özbək, qazax, uyğur, Tuva, Altay və s.) yiyəlik hal şəkilçilərində velyar [ŋ] səsi işləkdir.

-ik şəkilçisi Ayrım şivəsində qeydə alınmışdır: mənik, sənik və s.

-ıq[4], -nıq[4] şəkilçisi Şəmkir və ayrım şivələrində işlənməkdədir: atıq, körpünüq (Şəmkir), otunuq, ağaşdarınıq (Ayrım).

Qarakilsə, Zəngilan, Dmanisi, Cəlilabad (Şıxlar kənd), Bakı (Novxanı, Qobu, Güzdək kəndləri) şivələrində saitlə bitən sözlərə yiyəlik halda [y] səsi əlavə olunur: anayın, danayın və s.

Yönlük hal ikivariantlı -a, -ya şəkilçisi ilə ifadə olunur. Şəki, Quba, Bakı şivələrində sonu saitlə bitən sözlər birvariantlıya şəkilçisini qəbul edir: qapiyə, bobiyə və s.

Təsirlik hal şəkilçisinin işlənməsinə görə şivələr üç qrupa bölünür:

1) Dördvariantlı -ı[4], -m[4] şəkilçisinin işləndiyi şivələr. Bu qrupa Qarabağ, Gəncə, Zaqatala və Qax şivələri daxildir.

2) İkivariantlı -i, -nı, -ni şəkilçisinin işləndiyi şivələr. Buraya Şamaxı, Şəki, Naxçıvan, Muğan və İsmayıllı şivələri aiddir.

3) Birvariantlı -i, -ni şəkilçisinin işləndiyi şivələr. Bu qrupa Quba, Bakı, Lənkəran və İsmayıllı (Basqal kəndi) şivələri daxildir.

Qərb ləhcəsində, qismən də Cəbrayıl (Böyük Mərcanlı, Hovuslu, Sofiılu), Zəngilan (Şatarız, Ağbiz, Canbar, Sarılı, Xəştab), Sədərək, Şərur (Cağazir), Bakı (Hökməli, Qobu, Güzdək), Salyan (Beşdəli), Sabirabad (Kürkəndi) şivələrində saitlə bitən sözlər təsirlik halda -yı[4] şəkilçisi qəbul edir: qapıyı, dəriyi, quzuyu, sürüyü.

İsmin təsirlik halında "y" elementinin işlənməsi «Kitabi-Dədə Qorqud» abidəsindən başlayaraq XVIII əsrədək davam etmişdir. Hazırda -yı şəkilçisi oğuz elementlərinin güclü olduğu şivələrdə qorunub saxlanmışdır.

Yerlik hal -da, -də şəkilçisi ilə ifadə olunur. Bəzi şivələrdə -da[2] şəkilçisinin assimilyasiya nəticəsində əmələ gələn -za, -zə, -sa, -sə (Muğan), -na, -nə, -la, -lə (Şəkinin İncə və Zünüd kəndləri) variantlarına da təsadüf olunur: bizzə, iclassa (Muğan), dermanna, çöllə, balla (Şəki) və s.

Çıxışlıq hal bütün şivələrdə -dan, -dən şəkilçisi ilə ifadə olunur. Bəzi şivələrdə -dan, -dən şəkilçisinin -nan[2], -zan[2], - san[2] və -lan (Şəki) variantlarına rast gəlinir: atamnan qızzan, gilassan, ballan, dillən və s.

Halların mənaca əvəzlənməsi. Azərbaycan dili dialektlərinin təşəkkül dövründə hal sistemi o qədərdə sabit

olmamış, idarə əlaqəsinin tələbi ilə bir hal forması başqa halın mənasını ifadə etmişdir. Hal sistemində özünü göstərən bu xüsusiyyət müxtəlif dövrlərin yazılı abidələrində öz əksini tapmış, müasir şivələrdə öz izini saxlamışdır.

1) Adlıq hal yönlük və təsirlik halların yerində işlənir: -Bu dədəsinə məslə:t getdi (Qazax); Qız əmisi oğlunun əvəzinə Məhəmməd alat tərkinə (Bakı).

2) Yönlük hal təsirlik, yerlik və çıxışlıq hallarının yerində işlənir: -Uşağa niyə elə vuroysug? (Daşkəsən); - İdris öyə gizlənif (Gəncə); - Mənim ata xoşım gəlir (Salyan).

3) Təsirlik hal yönlük, yerlik halları mənaca əvəz edir: - Uşağı buyur, ardından yüyür (Marneuli); - Mən də gedib başdadım bağı işdəməyə (Bakı).

4) Yerlik hal yönlük və çıxışlıq halların yerində işlənir: - Hələ qabağda düşən mənəm? (Salyan); - Evdə gəlləm (Laçın).

5) Çıxışlıq hal yönlük və yerlik halların yerində işlənir: - Sizdən çox ümüdüm var (Salyan); - Keçmişdən qamış damnar olardı (Şəki).

İsmin kəmiyyət kateqoriyası.

Dilimizin dialekt və şivələrində isimlər kəmiyyət kateqoriyasına görə də bəzi səciyyəvi cəhətlərə malikdir. Azərbaycan dili də türk dillərindən biri kimi səciyyəvi kəmiyyət əlamətlərinə görə fərqlidir. Qədim dövrdə pratürklərdə -t, -z, -q/-k, -n formantlar olmuşdur. Müasir

dövrdə -lar, -lər cəm şəkilçisinin şivələrdə müxtəlif variantları işlənməkdədir:

1) -nar//-nər: gəlinlər-gəlinnər, şannar-nişanlılar, günnər-günlər, adamnar-adamlar və s. (Qazax, Dərbənd, Quba, Şamaxı, Muğan və s.)

2) -dar//-dər formasında; qızlar-qızdar, bizlər-bizdər, külfətlər-külfətdər və s. (Dərbənd, Naxçıvan, Qazax, Muğan, Mərkəzi qr. və s.)

3) -rar/-rər formasında; qarlar-qarrar, qavırlar-qavırrar (qəbirlər), pənirlər-pənirrər (pendirlər) (Qazax, Muğan, Naxçıvan, Təbriz, Ağdam və s.)

4) -zar/-zər formasında; öküzlər-öküzzər, əzizlər-əzizzər, kəhrizlər-kəhrizzər və s. (Muğan, Naxçıvan, Təbriz və s.) Bu formaya başqırd dilində də rast gəlinir, lakin başqırd dilində "z" samitinin dişarası variantı işlənir.

5) -sar/-sər variantı; dostlar-dossar (Muğan ş.).

6) -tar/-tər forması; buludlar-buluttar, kəndlər-kənttər (az işlənir).

7) -lar/-ler/-lər formasında kəmiyyət şəkilçisinə Altay, qırğız dillərində, başqırd dilində rast gəlinir.

-lar, -lər şəkilçisi cəmlik bildirdiyi kimi, semantik cəhətdən müxtəlif mənaları da ifadə etmişdir. Yəni bu şəkilçi bəzən nəsil, tayfa (Həsənlilər, Quşçular və s.), bəzən ailə mənsubluğu (bizlər, sizlər) kimi mənaları da ifadə edir.

Dilimizin Muğan şivəsindən başqa, bu formaya Altay, Tuva, xakas, şor, yakut dillərində də

Mənsubiyyət kateqoriyası. Şivələrdə şəxslər üzrə aşağıdakı mənsubiyyət şəkilçiləri işlənir:

Şivələrin əksəriyyətində I şəxsdə -m, -ım[4], -ımız[4] şəkilçisi dördvariantlıdır: atam, kəndim, bağımız və s. Şimal-şərq şivələrində isə I şəxs mənsubiyyət şəkilçisinin damaq variantı (-ım[2], -ımız[2]) üstünlük təşkil edir: qohımım, qolım, sürümiz və s.

İkinci şəxs müxtəlif formalarla ifadə olunur:

1) Şivələrin əksəriyyətində II şəxsdə -n, -ın[4], -ınız[4] şəkilçisi işlənir. Bu şəkilçinin işlənmə kəmiyyətinə görə şivələr iki qrupa bölünür: 1. Şivələrin əksəriyyətində -ın, -ınız şəkilçisi dördvariantlıdır (-ın, -in, -un, -ün); 2. Şimal-şərq şivələrində isə -ın şəkilçisinin dodaq variantı damaq variantını da əvəz edir: yerün, qardaşun, inegün, başüz, canüz və s.

2) Qərb və şimal-qərb şivələrində, qisməndə Naxçıvan, İmişli, Zəngilan, Cəbrayıl və digər şivələrdə II şəxsdə mənsubiyyət şəkilçisinin velyar q səsli variantına rast gəlinir: atıg, əliq, qoluguz və s.

3) Quba, Qax, Təbriz və Tabasaran şivələrində II şəxsdə şəkilçinin v samitli variantı (-v, -ıv[4], ıvız[4]) müşahidə olunur: xalav, başuv, bacıvuz, bağıvuz və s.

4) Gədəbəy və Şəmkirin bəzi şivələrində ikinci şəxs təkdə, Cəbrayıl və Zəngilanın bəzi şivələrində ikinci şəxs cəmdə q, ğ variantlı şəkilçi qeydə alınmışdır: atıq, yoluq (Şəmkir), babağız, gözüğüz (Zəngilan).

5) Cənub şivələrində və Zəngilan, Cəbrayıl və Zəngibasarın bəzi şivələrində II şəxs cəmdə -yız[4], -ıyız[4] şəkilçisi geniş yayılmışdır: talayız, əliyiz və s.

Üçüncü şəxs mənsubiyyət şəkilçilərinin işlənməsinə görə şivələr 3 qrupa bölünür: 1) Qərb, cənub, Zaqatala və Qax şivələrində -ı və -sı şəkilçiləri dördvariantlıdır; 2) Şamaxı, İsmayıllı, Sabirabad, Şirvan və Salyan şivələrində damaq variantı (-ı , -sı) üstünlük təşkil edir 3) Bakı, Quba və Lənkəran şivələrində birvariantlı şəkilçisi yayılmışdır.

Şivələrdə mənsubiyyət anlayışı sintaktik üsulla da ifadə olunur. Dərbənd, Balakən, Qax, Cəlilabad və Lerik şivələrində mənsubiyyət anlayışının sintaktik üsulla ifadəsində fərqli cəhətlər mövcuddur. Həmin şivələrdə hər üç şəxsdə ikinci tərəf şəkilçisiz işlənir: mənüm bacı, sənün bacı, unun bacı (Dərbənd), mənim məhlə, sənin məhlə, onun məhlə (Balakən). Qax və Dərbənd şivələrində hər üç şəxsdə ikinci tərəf -ı[4], -sı[4] şəkilçilərini qəbul edir: mənün atasi, sənün atasi, unun atasi (Dərbənd) və s.

Lənkəran şivəsində mənsubiyyətlə bağlı maraqlı xüsusiyyətlərdən biri də isti və soyuq sözlərinin birinci şəxs tək də mənsubiyyət şəkilçiləri qəbul etməsidir: istimdu<mənə istidir, soğumdu<ənə soyuqdur və s. Bu xüsusiyyət talış dilinin təsiri ilə əmələ gəlmişdir.

Mənsubiyyət şəkilçili isimlər hallanarkən şivələr arasında fərqli xüsusiyyətlər əmələ gəlir. Ədəbi dildə sonu samitlə bitən II və III şəxslərin mənsubiyyət şəkilçisini qəbul etmiş sözlər hallanma prosesində adlıq haldan başqa, digər

hallarda bir-birindən fərqlənmir. Onlar yalnız mətn daxilində aydınlaşır. Şivələrdə isə həmin şəxslər müxtəlif formalarla bir-birindən seçilir. Qərb ləhcəsində, Şəki və Ağcabədinin bəzi kənd şivələrində hallanma zamanı II şəxs təkdə velyar ŋ səsinin (haravanın, sürünün, atanın, elınm, elına və s.), Zəngilan (Şatarız və Ağbis), Cəbrayıl (Qaracalı), Urmiya, İrəvan, Zəngibasar şivələrində "y" ünsürünün (nənəyin, nənəyə, nənəyi), Bakı, Muğan, Təbriz, Quba, İmişli, Dərbənd, Lənkəran şivələrində v ünsürünün (babavun, başuva, ələvi, qoluva, atova), Cəbrayıl (Qaracalı) və Zəngilanın bəzi şivələrində ğ səsinin (xalağın, xalağa, xalağı), Bakı və Salyan şivələrində şəkılçinin dodaqlanan variantının (kitabun, kitabua, kitabun) işlənməsi ilə III şəxsdən fərqlənir.

Şəxs kateqoriyası. Bu kateqoriya həm isimləri, həm də feilləri əhatə edir. İsimlərlə müqayisədə daha çox feillərə aid olduğuna görə feilə xas kateqoriyadır. İsimlər isə xəbər vəzifəsində işlənərkən bu kateqoriyanın əlamətlərini qəbul edir.

I şəxsin təki şivələrin əksəriyyətində -am[2], ayrım şivəsində isə -ım[4] şəkilçisi ilə ifadə olunur: babayam, nənəyəm, almışım, gəlmişim və s.

I şəxs cəmdə şəxs şəkilçilərinin işlənməsinə görə şivələr 3 qrupa bölünür:

1) Qazax, Qarabağ, Gəncə və Naxçıvan şivələrində dördvariantlı -oc, -ix/ik, -ux, -üxV/ük şəkilçiləri işləkdir.

2) Şamaxı, İsmayıllı, Sabirabad və Şirvan şivələrində şəxs şəkilçisinin dodaq variantı (-uğ, -ux, üg, -üx və -ük) damaq variantın da əvəz edir.

3) Bakı, Quba, Şəki, Ordubad, Təbriz, Zaqatala, Qax və Lənkəran şivələrində birvariantlı -ıx, -ik, -uğ, -ux şəkilçiləri geniş yayılmışdır.

Ayrım şivəsində I şəxs cəm açıq, saitli -ax, -əx' şəkilçisi ilə ifadə olunur: bavayax, nənəyəx', almışax və s.

İkinci şəxsin təkində şivələrin əksəriyyətində -san[2], ayrım şivəsində isə -sın[4] şəkilçiləri işlənməkdədir: babasın, nənəsin.

İkinci şəxs cəmdə şəxs şəkilçilərinin işlənməsinə görə şivələr üç qrupa bölünür:

1) Qazax, Qarabağ və Gəncə şivələrində II şəxs cəm dördvariantlı -sıŋız şəkilçisi ilə ifadə olunur.

2) Bakı, Quba, Şamaxı, İsmayıllı və Muğan şivələrində dodaq variantı (-suz, -süz) üstünlük təşkil edir. Naxçıvan və İrəvan şivələrində ikivariantlı -sız, -siz şəkilçisi yayılmışdır.

3) Naxçıvan və Şəki şivələrində şəkilçi birvariatlıdır (-ız//-üz//äz//ız//sıüz).

Ayrım şivəsində II şəxs cəmdə -saŋız//sağız[2] şəkilçisi müşahidə olunur: bavasaŋız//bavasağız və s.

Üçüncü şəxsdə -dır[4] şəkilçisi -dı şəklində iki variantda işlənməkdədir:

1) Qazax, Qarabağ, Gəncə, Zaqatala və Qax şivələrində dördvariantlı -dı şəkilçisi ilə ifadə olunur.

2) Naxçıvan, Muğan, İsmayıllı, Şamaxı şivələrində həmin şəkilçi iki variantlıdır (-dı, -di).

XI MÖVZU

DİALEKTLƏRDƏ SİFƏT, SAY VƏ ƏVƏZLİKLƏR

PLAN:

1. Sifət.
2. Say.
3. Əvəzliklər.

11.1. Dialektlərdə sifət

Şivələrdə də sifətin üç dərəcəsi vardır: adi, azaltma və çoxaltma. Adi dərəcə əlamətin və keyfiyyətin norma səviyyəsini bildirir: qəlbi, güdə, alçağ, tünik «nazik», səydəş "əyri", sıpıx "kök", şeşə "dik" tavırğa" köçəri" və s.

Azaltma dərəcəsi aşağıdakı şəkilçilərlə əmələ gəlir:

1) -cıx, -cix', -cığ, -ciğ, -jıx, -jix': alçacıx, çiçicix', gödəjix';

2) -antur, -əntur, -ımtul, -umtul, -ümtül, -ümtul: sarımtur, qırmızımtıl, göyümtül və s.

-so, -ımso, -ımsul, -ımsul: uzunso, ağımso, göumsul

3) umsoy, -ümsöy (Qazax): ağumsoy, göyümsöy

4) şinni: qaraşinni (Şəki)

5) cavaz: ağcavaz (Şəki)

6) -rax // -rağ, -rək // -rəx'. Bu şəkilçi daha çox qərb və Təbriz şivələrində geniş yayılmışdır: qararax, sanrax,

köhnərəx', cantarax və s. Muğan şivələrində bu şəkilçiyə -rağ, -rək, Naxçıvan və Şəki şivələrində -ımtrax, ümtrax, Gəncə və Şəki şivələrində -artdax şəklində təsadüf olunur: cındırrağ, köhnərək (Muğan), ağımtrax, göyümtrax (Naxçıvan), qızartdax, bozartdax (Şəki) və s.

Azaltma dərəcəsində təhər//tə:r, turum (Təbriz), baxar, çalar, mayıl, səyağ sözlərindən də istifadə olunur: qaraturum, sarıya çalan, qırmızı səyağ, göyə mayıl və s.

Çoxaltma dərəcəsi aşağıdakı vasitələrlə əmələ gəlir:

1. -ca[2], -ja[2]: körpəcə körpəjə, xırdaca

2. Sifətin əvvəlinə çox, lap//yap//yaf, ən, tünd//tüt, düm, əng (Şəki), qır, zil, qırt, saf, illah, sap, tox//toq söz və hissəciklərin əlavəsi ilə düzəlir: yap yaxşı, yaf yaxşı (Qazax), əng yaxşı (Şəki), qırttəzə (Biləsuvar), saf təmiz (Qazax), illah yaxşı (Naxçıvan), sap balaca (Təbriz), tox yaşıl (Ağcabədi) və s.

3. Sifətin ilk hecasının və ya hissəsinə m, p, f, t, ş, r, s, l, m səslərini əlavə etməklə əmələ gəlir: taptaza, beşbetər, təmtəzə, safsarı, qəttəzə, şifşirin, dəsdəyirmi və s. Bəzi şivələrdə çoxaltma dərəcəsi balan//bələn hissəciyinin vasitəsilə də düzəlir: dümbələmdüz, bombalanboş (Qazax, Qax).

11.2. Dialektlərdə say və əvəzliklər

Say. Şivələrdə işlənən miqdar saylan ədəbi dildən fonetik cəhətdən fərqlənir: bir<bir, üş//uş, alti, yedi, seggiz. Şivələrin əksəriyyətində sıra sayılan -ımcı[4], Bakı və Şamaxı şivələrində -***minci*** şəkilçisi ifadə olunur.

Əvəzlik. Şivələrdə II və III şəxs əvəzlikləri fərqli şəkildə tələffuz olunur: süz (şimal-şərq), u<o (Bakı, Quba), ho//hu (Zaqatala, Qax), olar (şimal-şərq, qərb, Şəki, Naxçı van), ular (Quba), holar (Zaqatala, Qax), ollar (Qarabağ).

Şəxs əvəzliklərinin hallanmasında da müxtəlif formalar meydana çıxır: [mənə], [məə], [mə:], [məyə], [maqa], [maä], [mä:], [mağa], [maxa], [maha], [səə], [sə:], [seni], [səyə], [sarja], [saä], [sä:], [sağa], [saxa], [saha], [oya], [oa], [oyi], [oi], [menin], [mənin], [meni], [məni], [bizin], [bizi], (Zaqatala, Qax) [bizin], [bizi] (Quba), [sənuv], [sizuv], [onuv], [ollaruv] (Ağcabədi), [mənnə], [sənnə], [unna]//[hunna]//[onna] (Şəki), [bizzə], [sizzə], [bizzən], [sizzən] (Muğan).

İşarə əvəzlikləri: habu/habı (Qax, Zaqatala, Şəki), o, bu//be (hallananda [mının], [muna], [mını], [mında], [mınnan]), [budey], [odey], [belənçi], [belənçik] (Bakı, Şamaxı), [odua:], [budua:], [odurana], [budurana] (Qax), [bıdırana], [bıdıxana], [odurannı], [budurannı] (Naxçıvan), [habıdağa], [habıdırana] (Qax), [butana], [otana] (Gəncə), [a:na], [ə:nə] (qərb), [onək], [bunək] (Ağdam), [oğal], [bığal]//[buğal] (Bakı, Şamaxı, Naxçıvan), [oqılıx], [buqılıx], "elə" (Gədəbəy) və s.

Qayıdış əvəzlikləri: Mənsubiyyət şəkilçili öz əvəzliyi (əksər şivələrdə), gəndi (Qazax, Şəki), kəndi (Saatlı, Çənbərək), bilə (Təbriz, Zəncan, Meğri), men-mağa, sen-sağa (Qax).

Qeyri-müəyyən əvəzliklər:

kimsə//kimiysə//kimsənə, hərə//hər kəs//hər kes//hər kəsən//hər kəsdə//hər kişi, bənzi//bənziləri, fılan kəs//fılan-peşməkan//fılan-peşman (cansızlar), hamı//hamısı//hamıyı.

Sual əvəzlikləri: Kim-çim (Naxçıvan), nə//ne//na//nema (Qax), namağa «nə üçün» (Zaqatala), nəmənə (Təbriz), nöhün (Salyan), ha «nə, hansı», haçağ//haçan, haçax, havax, hağal (Qax), hancarı//hanjarı və s.

XII MÖVZU

FEİL. FEİLİN KATEQORIYALARI

PLAN:

1. **Feilin şəkilləri**
2. **Feilin zamanları**

12.1. Feilin şəkilləri

Feillər lüğət tərkibinin zənginliyi və qrammatik xüsusiyyətlərinin çoxluğu ilə digər nitq hissələrindən fərqlənir. Feillərin əksəriyyəti ədəbi dildə işlənsə də, bir qrup fellər yalnız şivələrin leksikasına xasdır; məsələn: zirzələməx' (Dmanisi) bağlamaq, zoğallamax (Şuşa), boş-boş danışmaq, iyəşməx' (Tovuz), sözləşmək, imrəmməx' (Qazax) alçaqdan mələmək, kəlimək (Cəbrayıl) kürümək, korşalmax (Qazax) kütləşmək, küpləməx' (Gəncə) döymək, gənəşməx' (Quba, Gəncə, Bakı) məsləhətləşmək və s. Şivələrdə işlək olan bəzi fellər digər türk dilləri ilə oxşarlıq təşkil edir; məs: almanlamax (Quba, Gəncə) bir şeyi alıb yemək, adamı altına almaq sözü türkmən dilində, dızıxmağ (Bakı) "qaçmaq" sözü müasir türk və Tuva dillərində, dabrımağ qaçmaq (Salyan) sözü türkmən dilində, yığlamax ağlamaq (Qax) sözü özbək dilində, oxranmax kişnəmək (Qazax) türkmən və qırğız dillərində də işlənməkdədir.

Ədəbi dildə olduğu kimi, şivələrdə də hərəkətin icra olunub-olmamasına görə feillər iki qrupa bölünür: təsdiq və inkar.

İnkar feillər əsasən -m, -ma, -mə şəkilçisi ilə ifadə olunur. Şivələrdə sonu [p] səsi ilə bitən feillərdən sonra şəkilçisinin -ba, -bə, b variantı işlənməkdədir; məs.: tapbadı, səpbədi və s.

Qazax, Ayrım, bəzən də Quba, Bakı və Şamaxı şivələrində əmr şəklində inkar şəkilçisinin -mo, -mö variantına da rast gəlinir: oxumoyun, üşümö.n (Qazax, Ayrım), oxumo: uz, yazmo:un, vurmo:un (Bakı, Quba) və s.

Feilin şəkilləri. Şivələrimizdə ən çox işlənən əmr, xəbər, arzu, şərt və bacarıq (bəzən bu şəkil ayrı verilir) şəkilləridir. Feilin bacarıq şəkli ədəbi dildə olduğu kimi, şivələrdə də -a, -ə feli bağlama şəkilçisi ilə bilmək köməkçi felinin vasitəsilə əmələ gəlir; məs.: ala bilmək, kəsə bilmək danışa bilmək və s. Bacarıq şəklinin inkarının işlənilməsinə görə şivələr 3 qrupa bölünür:

1) Bilmə feili ilə yanaşı olaraq, -mma, -mmə şəkilçisi ilə ifadə olunanlar, məs.: yaza bilmədi//yazammadı//yazəmmədi, gələ bilmir//gələmmir və s. Bu qrupa şimal-şərq ləhcəsi, Şəki, Zaqatala və Qax şivələri daxildir.

2) Qarabağ, Qazax, Gəncə, Naxçıvan, Ordubad, Təbriz və İrəvan şivələrində yalnız -mma, -mmə formaiarı işlənir; məs.: yazammadı//yazımmıyıf//yazammaz//yazammer, gələmmiyəjəx' və s.

3) Qarabağ, Bakı, Sabirabad, və İrəvanın bəzi şivələrində [e:lmə], [ə:lmə] [ilmə] formalarına təsadüf olunur; məs.: [yaze:lmədi], [gəle:lmədi], [yazailmir] və s.

Əmr şəkli. Əmr şəklinin I şəxs təki samitlə bitən sözlərdə əksər şivələrdə dördvariantlı -ım[4], şimal-şərşq ləhcəsində ikivariantlı -ım, -im, Qazax şivəsində -em, -om, -öm şəkilçisi ilə ifadə olunur.

II şəxsin təki şivələrdə iki şəkildə: 1) ədəbi dildə olduğu kimi, şəkilçisiz; 2) arxaik -qınan, -ginən şəkilçisi ilə əmələ gəlir. Bu şəkilçi iki hissədən -gıl, -gil və -an, -ən hissələrindən ibarətdir. -qıl, -qil şəkilçisinə qədim yazılı abidələrdə və qədim müasir Altay, yeni uyğur və Qaraqalpaq dillərində də rast gəlmək mümkündür. Əksər şivələrdə yalnız şəkilçinin -ginən variantı işləndiyi halda, Bakı, Şamaxı və Muğan şivələrində hər iki formasına -qınan, -ginən təsadüf olunur. Saitlə bitən sözlər II şəxsdə bəzən denən, deynən, dinə, oturnan şəklində ancaq şəxs şəkilçisi qəbul edir. Meğrinin Aldərə kənd şivəsində II şəxs təkdə -dınan, -dünən şəkilçisi geniş yayılmışdır; məs.: aldınan, verdinən.

Əmr şəklinin I şəxs cəmində şəxs şəkilçilərinin işlənməsinə görə şivələr üç qrupa bölünür: 1) Qarabağ, Qazax, Gəncə, Naxçıvan şivələrində iki variantlı -ax, -əx' şəkilçisi işlənir; 2) Bakı, Şamaxı və Muğan şivələrində -ağ, -əg şəkilçisi geniş yayılmışdır, 3) Quba, Ordubad, Şəki, Təbriz, Bakı, Qax və Zaqatala şivələrində birvariantlı -ax

(Ordubad), -eg (Bakı), -ax (Təbriz), -ağ (Quba) şəkilçiləri özünü göstərir.

Bəzi şivələrdə əmr şəklinin I şəxs cəmində eyün//egün, -egüz (Bakı), -ağun//-əgün, -əyün (Şamaxı), -ağun (Quba), -ağun//əgün-ağuz//əgüz (Muğan), ağın//əyin (Cəbrayıl, İrəvan) şəkilçisinə də təsadüf olunur, məs.: gedegün//gedeyün, alegün, qaçağun, gələgüz və s. Bu şəkilçinin mənşəyi barədə müxtəlif fıkirlər vardır. M.Şirəliyev, K.Ramazanov -ağun, -əyin şəkilçisini I şəxs cəmin II şəxs cəmə müraciət forması, R.Rüstəmov, Ə.Dəmirçizadə, A.Hüseynov və E.Əzizov qədim -ayın, -əyin şəkilçisinin izi hesab edirlər. M.Rəhimovun fıkrincə, -ayın, -əyin formalı türk dillərinin qədim dövrü üçün ümumi olan arzu məzmunlu - ğay şəkilçisindən törəmiş -ay və I şəxs əlaməti olan -ın formatından əmələ gəlmişdir.

R.Rüstəmov, A.Hüseynov, M.Rəhimov və E.Əzizov Bakı və Muğan şivələrində işlənən -ağuz, -əgüz formalarını mənşəcə dilimizin tarixində işlənmiş - avuz, -əvüz şəkilçisi ilə bağlı hesab edirlər.

Əmr şəklinin II şəxs cəm şəkilçisinin işlənməsinə görə şivələr iki qrupa bölünür: 1) Qərb ləhcəsində, Naxcıvan, Zaqatala və Qax şivələrində dörd variantlı -ın şəkilçisi işlənir.

2) Bakı, Şamaxı, Quba, Muğan və Qobustan şivələrində ikivariantlı -un, -ün, -uz, -üz şəkilçiləri üstünlük təşkil edir.

III şəxsin tək və cəmi qərb ləhcəsində, Naxcıvan, Şəki, Zaqatala, Quba və Qax şivələrində -sın[4], şimal-şərq ləhcəsində (Quba şivəsi istisna olmaqla) -sun, -sün, forması ilə ifadə olunur.

12.2. Feilin zamanları

Xəbər şəkli. Əbədi dildə olduğu kimi, şivələrdə də feilin üç zamanı var. Zaman formalannın və şəxs əlamətlərinin işlənməsinə görə şivələr həm ədəbi dildən, həm də bir- birindən fərqlənir. Şühudi keçmiş zaman şəkilçisinin işlənməsinə görə şivələr üç qrupa bölünür: 1) Qazax, Qarabağ, Gəncə və Ağdam şivələrində dördvariantlı -dı şəkilçisi işləkdir.

2) Bakı, Şamaxı və Muğan şivələrində ikivariantlı -dı, - di və ya -du, -dü şəkilçiləri üstün mövqeyə malikdir, məs:

a) ş. -dım, -dim -duğ, -düg

b) ş. -dun, -dün -duz, -düz

c) ş. -dı, -di -dı(lar), -di(lər)

3) Naxçıvan, Quba, Ordubad, Təbriz, Zaqatala və Qax şivələrində ayrı-ayrı şəxslər üzrə müxtəlif variantlı şəkilçilər işlənir: -duğ (Quba), -dıx, -dux, -dız, -dıuz (Naxçıvan), -dıx, - dux, -dox, -duz, -duz, -doz (Şəki), -dıx, -diz, -duz (Zaqatala, Qax) və s.

Şəkinin İncə və Zunud kənd şivələrində -di[4] şəkilçisi assimilyasiya nəticəsində -lı, Şamaxı, Göyçay, Ağdam və Muğan şivələrində -zı, -zi, -sı, -si variantlarında işlənməkdədir; məs.: qannım, cumnum, allim, billim (Şəki), yazzı, kəssi (Muğan) və s.

Nəqli keçmiş zaman şivələrində müxtəif formalarla ifadə olunur. Ədəbi dildə işlənən -mış[4] şəkilçisi əsasən I şəxsdə özünü göstərir. II şəxsdə -mi[4] (Bakı, Quba, İsmayllı, Qobustan, Qarabağ, Şəki, Naxçıvan), -ıb[4], -ıp[4] (Zaqatala, Qax, İrəvan) -ib[4] (şimal-şərq ləhcəsi) -if (qərb ləhcəsi, Zaqatala, Qax) şəkilçiləri işlənir. Göründüyü kimi, II şəxsdə nəqli keçmiş zaman şəkilçisində "ş" samiti işlənmir. Bu, Azərbaycan dilində iki kar samitin yanaşı işlənməməsi ilə əlaqədardır. Lakin Zəncan və Borçalı (Araplı, Aşağı Saral) şivələrində isə "s" samiti işlənmir, məs: vurmuşan, sürmüşən (Borçalı), gəlmişən (Zəncan) və s.

Ayrım şivəsində I və II şəxs təkdə digər şivələrdən fərqli olaraq, şəxs şəkilçilərinin qapalı variantları işlənir; məs.: yazmışım, gəlmişim, vurufsun, görüfsün və s.

III şəxsdə şivələrdə -ıb[4], -ıp[4] (Zaqatala, Qax, İrəvan, Naxçıvan, Ordubad, Təbriz), -ıb, -ib (şimal-şərq ləhcəsi), if (Qazax, Gəncə, Ağdam, Zaqatala, Qax) şəkilçiləri işlənir. Şəki, Zaqatala, Quba və Qaxın bəzi kənd şivələrində III şəxsdə -itdi[4] şəkilçisinə rast gəlinir; məs.: yazıtdı, oxuyutdi, giditdi və s. III şəxsdə müşahidə olunan -t, -it[4] şəkilçisinin təsiri ilə zaman şəkilçisinin [b] və [f] səslərinin [t] səsinə çevrilməsi nəticəsində meydana çıxmışdır.

İndiki zamanın formaları mənşəcə iki qrupa bölünür: 1) Qıpçaq tipli indiki zaman formaları; 2) Oğuz tipli indiki zaman formaları.

Qıpçaq tipli -a-di, ə-di, -a-du, -ə-dü şəkilçisi, əsasən Quba, qismən də Bakı, Qobustan, Şamaxı, Muğan qrupu

şivələrində yayılmşdır. Bu şəkilçi indiki zamanın analitik tipi olan a+durur formasından törəmişdir. a+durur forması hazırda Quba, Qax və Zaqatala şivələrində mühafizə olunmuşdur; məs.: Simavar horda qaynıya durur (Qax); Nə çux belə qəzeti uxıya durmısan? (Quba) və s.

a+durur forması daha çox III şəxsdə özünü büruzə versə də, Qax şivəsində bütün şəxslərdə işlənməkdədir; məs.: ala durıyam, ala durıysan, ala dırıy və s.

Bu şəkilçiyə M.Kaşğarinin «Divan»ında (aka turur), XV yüzilliyə qədər klassiklərin (Nəsimi, Xətai, Kişvəri) dilində də rast gəlmək mümkündür.

Quba və Bakının Corat kənd şivəsində qeyd olunan şəkilçinin a-tdı, ə-tdi variantı da müşahidə olunmuşdur; məs.: baxatdı, gedətdi və s.

-a, -ə. İndiki zamanın qıpçaq forması sayılır. Dərbənd, Tabasaran, Quba, Bakı və Şamaxının bəzi kənd şivələrində və Muğan qrupu şivələrində II şəxsdə işlənən -a, -ə şəkilçisi indiki zaman (bəzən də gələcək zaman) mənasım ifadə edir; məs.: alasan, gələsən, alasuz, gələsüz (Dərbənd), gidəsən, gidəsüz (Quba) və s.

Oğuz mənşəli indiki zaman şəkilçiləri: -ir. Şivələrin əksəriyyətində -ır[4] şəkilçisi dörd variantda, şimal-şərq ləhcəsində isə iki variantda (-ır, -ir) işlənir.

Azərbaycan dili şivələrində saitlə bitən bəzi feillər -yır[4] şəkilçisinin dəyişikliyə uğraması ilə əlaqədar olaraq indiki zaman şəkilçisi kimi -r formasını qəbul edir; məs.: tanıram, tanırsan. (Naxçıvan. Təbriz), başdıram, saxlar, oxı:

ram, işdi.rsən, oxu.r (İmişli, Cəlilabad, Şamaxı, Bakı, Tovuz) və s.

Cənubi Azərbaycan şivələrində və İraq türkmanların dilində indiki zamanın III şəxsində zaman şəkilçisindən sonra -i şəxs əlaməti işlənir; məs.: alıri, gəliri, yazıri və s.

-er, -or, -ör şəkilçisi Qazax şivəsində (ayrım şivəsi) geniş yayılmışdır; məs.: yateram, vurorsan, çüşörsn, oxuyor, sürüyor və s.

Qərbi Azərbaycanın Hallavar kənd şivəsində bu şəkilçinin -yo, -yö variantı da müşahidə olunmuşdur; məs.: alıyom, alıyon, alıyo, gediyö və s .

-ey, -oy, -öy şəkilçisi Ərdəbil, Muğan, Ordubad, Astara, aynm, Lerik və Biləsuvar şivələrində işləkdir; məs.: aliyəm, aleysən, gəley, buroyrum, buroylar və s. Cəlilabad şivəsində (Gülməmmədli və Xanəgah kəndləri) II və III şəxslərdə qalınsaitli feillərdə şəkilçi -yə, -ay, -əy şəklində təsadüf olunur; məs.: alayəm//alaysən, duray, biləy və s.

Ayrım və Ordubadın Kilid kənd şivəsində şəkilçiyə həm -ey, həm də -eyr formasında rast gəlinmişdir; məs.: gedeyrəm, gedeyrıx və s.

-iy şəkilçisi Şəki, Zaqatala. Qax, Ordubad və Cənubi Azəraycan şivələrinin xarakterik xüsusiyyətidir. Ordubadın bəzi kənd şivələrində iki variantda (-ıy, -iy), Zaqatala, Qax şivələrində dörd variantda (-ıy[4]), Şəki və Cənubi Azərbaycan şivələrində bir variantda (-ıy) özünü göstərir; məs.: aliyəm, yazıyam, görüy və s.

-ı[4]. İndiki zamanın ən qədim şəkli, formaca feili bağlama, lakin indiki zaman vəzifəsində işlənən bu şəkilçiyə Bakı, Şamaxı, Xanlar, Göyçay, Cəbrayl, Tovuz və Lənkəran şivələrində rast gəlinmişdir; məs.: olı, gəlü, alı, bili və s.

Bu şəkilçi şivələrdə II və III şəxslərdə müşahidə olunur. -ı[4] şəkilçisinin mənşəyini alimlər müxtəlif şəkildə izah edirlər. M.Şirəliyev, R.Rüstəmov, E.Əzizov bu şəkilçini tarixən mövcud olmuş feili bağlama şəkilçisi ilə əlaqələndirir, M.Rəhimov, H.Mirzəzadə isə -ır[4] şəkilçisinin "r" ünsürü düşmüş variantı hesab edirlər.

Bunlardan başqa, Dərbənd, Quba, Qax və Bakı (Hökməli, Qobu, Güzdək kənd şivələri) şivələrində indiki zamanın analitik formalarına da (ala var, ala yux, ala döğü) təsadüf edilir. Quba şivəsində *ala var, almıya var, ala yux,* Bakının bəzi kənd şivələrində *ala dögü,* Qax şivələrində isə *ala varkan* şəklində işlənməkdədir.

Qəti gələcək zaman şivələrin əksəriyyətində -acax, -acağ, -əcək, -əcəx' şəkilçiləri ilə, qərb ləhcəsində və bəzi keçid şivələrində -ayax', -əyəx' formaları ilə ifadə olunur. Feillərin şəxslər üzrə təsrifi zamanı bu şəkilçinin müxtəlif variantları meydana çıxır: -ac, -əc, -ay, -əy və s. Ağdam, Ayrım və Borçalı şivələrində alacan, alayan, alayanız və s. şəkildə işlənir.

II şəxsdə Naxçıvan, Ordubad, Göyçay, Laçın şivələrində -as, -əs, Qazax şivəsində isə -aş, -əş formalarına təsadüf edilir; məs.: tutassan, tutaassız (Naxçıvan), gedəşşən, gedəşşiniz və s. Qərb şivələrində gedəşsəŋ, gedəşsiŋiz və s.

(“Bəxt üzüyü” filmində Moşunun dilində: Gedəşsəŋmi, a qağa?).

Borçalı və Tovuzun Qovlar kənd şivələrində -aşdan, -əşdən, -aşdınız, -əşdiniz formaları da qeydə alınmışdır, məs.: alaşdan, gələşdən, alaşdınız, gələşdiniz və s.

M.Şirəliyevə görə, bu forma dissimilyasiyanın təsiri ilə [c] qovuşuq səsinin nəticəsi kimi meydana gəlmişdir.

Qazax, Şəki, Gəncə, Gədəbəy və İrəvan şivələrində qəti gələcək zaman -ası, -əsi, Cəbrayıl və Göyçayın bəzi kənd şivələrində -ey formaları ilə ifadə olunur; məs.: Hamı səni qınıyasıdı (Tovuz); Bunun da səbəbini aşağıda diyəsiyəm (İrəvan) və s.

Qeyri-qəti gələcək zamanın təsdiqi şivələrdə -ar şəkilçisi ilə ifadə olunur. Qaxın İlisu kənd şivəsində qeyri-qəti gələcək zaman feilləri təsrif olunarkən şəxs şəkilçiləri işlənmir, məs.: men bilər, sen bilər, ho bilər və s.

-ı[4] şəkilçisi Təbriz, Göyçay və Cəbrayılm bəzi kənd şivələrində qeyri-qəti gələcək anlayışı da ifadə edir, məs.: Diyan. indi Səfər gəli gedərux (Təbriz); Axşam dayıngilə getsəm, sən də gəlisən (Cəbrayıl) və s.

Qeyri-qəti gələcək zamanın inkarı şivələrdə müxtəlif formalarla əmələ gəlir. Bakı, Quba, Şamaxı, Naxçıvan, Ordubad, Şəki, Zaqatala, Qax, Muğan şivələrində I şəxsin inkarında -manam, -mənəm, -manığ, -mənig, manıx, -mənix formaları iş- lənir; məs.: baxmanam, gəlmənuğ (Quba), qavmanam, doğramanam, getmənıx (Ordubad) və s.

Bu şəkilçinin tarixi qədimdir. -manam^2 şəkilçisinin ilkin forması olan -man şəkilçisi XVIII yüzilliə qədər Azərbaycan dilində fəal işlənmişdir; məs.:

1) Bilmən neçün mənim qanimi asiman içər (Saib Təbrizi);

2) Məni görgəc bilmən neçün yaşinur (Vaqif) və s.

XIV-XIX yüzilliklər Azərbaycan ədəbi dilində həm indiki, həm də qeyri-qəti gələcək zamanın inkarını bildirmək üçün işlənmişdir; məs.:

Müşk iyləmənəm üzü qaradır,

Gül dəstələmən üzü paradır (indiki zaman, Xətai);

Dərd ilə əgər yüz il ölürsən,

Bir busə ilə ***qılmanam*** səni hey (qeyri-qəti gələcək zaman. Xətai) və s.

-man və manam şəkilçilərinə türk və türkmən dillərinin dialektlərində də təsadüf olunur.

Quba, Şamaxı, Ordubad, Şəki, Sabirabad, Ağsu, Lənkəran, Zaqatala, Gədəbəy və bəzi keçid şivələrində qeyri-qəti gələcək zamanın II və III şəxslərində -mar^2 şəkilçisinə rast gəlinir; məs.: yazmarsan, yazmar (Quba), gəlmərsən, gəlmərsiz (Ordubad) və s.

(N, L) samitləri ilə bitən feillərdə qeyri-qəti gələcək zaman şəkilçiləri I şəxsdə assimilyasiya nəticəsində -nam^2, -nığ, -niğ, -lam^2, -lıq, -lig formalarında özünü göstərir, məs.: öyrənnəm, öyrənnik, qallam, allam və s.

Arzu şəkli şivələrdə -a^2, -ya^2 şəkilçisi ilə ifadə olunur. Arzu şəklinin mürəkkəb formaları ədəbi dildən fərqlənir.

Naxçıvan, İrəvan və Ordubad şivələrində ədəbi dildə olduğu kimi -a^2, -ya^2 şəkilçiləri ilə bildirilir; məs.: alaydı, gələydi, başdıyaydı, işdiyəydi və s.

Şivələrin əksəriyyətində -e (-ey), Qazax və Gədəbəy şivələrində -e(-ye), -o(-yo), -u(-yu), -ö(-yö), -ü(-yü) Cəbrayıl şivəsində -e(ye), -ı(-yı), -i(-yi), -u(yu), - ü(-yü) formalarına təsadüf olunur; məs.: açeydıx, göröydün/Zgörüydün, oxuyoydunuz (Qazax), çatıydım, biçiydin, quruydux, görüyduz (Cəbrayıl) və s.

Mürəkkəb arzu şəklinin rəvayəti qərb ləhcəsində fərqli şəkildədir; məs.: qaçeymışam, tüşöymüşüx', qüroymuşsuŋuz (Qazax) və s.

Şərt şəkli şivələrdə -sa şəkilçisi ilə ifadə olunur. Şərt şəklinin əlamətinin işlənməsinə görə şivələr iki qrupa bölünür: 1) Cənub, qərb ləhcələrində, Zaqatala və Qax şivələrində bütün şəxslər üzrə -sa^2 şəkilçisi dəyişikliyə uğramır, məs.: atsam, getsən, vursa, atsax, getsəniz, vursalar və s.

2) Şimal-şərq ləhcəsində və Şəki şivəsində I şəxs cəmdə, II şəxsdə şərt şəkilçisi -so, -sö, -su şəklində özünü göstərir, məs.: alcoğ, bilsög (Bakı), atsoğ, gəlsuğ (Quba), atson, bilsön, atsoz, bilsöz (Bakı, Muğan).

Tabasaran şivəsində şərt şəklinin I şəxs cəmində -muz, -müz şəxs şəkilçisi işlənir, məs.: başlasamuz, işləsəmüz və s.

Quba və Xaçmazın bəzi kənd şivələrində, Tabasaran şivəsində II şəxsdə -v-vuz-vüz şəxs şəkilçisi işlənir; məs.: qursov, içsöv, otursav, baxsovuz, açsavuz, bilsəvüz və s.

Şərt şəklinin mürəkkəbi idi, köməkçi feili və şəxs şəkilçisinin vasitəsilə əmələ gəlir. Naxçıvan, İrəvan və Ordubad şivələrində şəxs əlaməti -sa[2], əksər şivələrdə -se şəklində işlənir; alseydim, alseydün (Bakı. Quba), qavsaydım, işdəsəydim (Naxçıvan).

Qazax şivəsində -se, -so, -sö şəkillərində müşahidə olunur; məs.: qırseydım, dursoydux, düşsöydiŋüz və s.

Şəki və Cəbrayılın bəzi kənd şivələrində -sı[4] şəkilçisinə təsadüf edilir; məs.: çıxsıydım, gessiydin, oxusuydux, üzsüydünüz və s.

Qazaxın Əli Bayramlı kənd şivəsində şəxs şəkilçisi iki dəfə işlənir; məs.: alsam idim, bilsən idin və s. Bu xüsusiyyət Qaraqalpaq, türkmən və yeni uyğur dilində də mövcuddur.

Lazım şəkli şivələrdə az işlənən şəkillərdən biridir. Bu şəklə daha çox qərb ləhcəsində, şimal-qərb, Göyçay, Ağdaş, İsmayıllı və Cəbrayıl şivələrində rast gəlinir.

Şimal-şərq (İsmayıllı şivəsi istisna olmaqla) və cənub ləhcələrində lazım şəkli, demək olar ki, işlənmir. İşin icrasının lazımlılığı həmin şivələrdə gələcək zamanla ifadə olunur. Şivələrdə lazım şəklinin şəkli əlaməti -ası (-yası[2]) şəkilçisidir. Bu şəkilçi Şəki şivəsində -as[2] (-yas[2]) şəklində yayılmışdır; məs.: baxasıyam, oturasısan (Qazax), alassınız, sürüyəssüz (Şəki). Lazım şəklinin mürəkkəbi idi, imiş

köməkçi fellərinin vasitəsilə əmələ gəlir; məs.: oxuyasıydıx, köçəsiydix (Qazax), baxasıydın, içəsiydüz (İsmaydlı), çalasıymışam, görəsiymişix" (Qazax) və s.

Vacib şəkli şivələrdə az işlənən şəkillərdəndir. Şivələrdə bu şəkil müxtəlif formalarla ifadə olunur. Gərək sözü ilə -a, -ə şəkilçisi arzu formasının vacib şəklinin məzmunu ifadə etməsi şivələrdə geniş yayılmışdır. Bu formaya Bakı, Qazax, Gədəbəy, İmişli, Şəki, Göyçay və Təbriz şivələrində rast gəlinmişdir; məs.: Gərək irayona gedəm, idarələri tanıyam (Göyçay).

Təbriz, Şəki və Oğuz şivələrində vacib şəkli məsdərlə gərək sözünün birlikdə işlənməsi vasitəsilə də ifadə olunur; məs.: Baba, gün çıhmamış yollanmax gərəx' (Təbriz) və s.

Feili bağlamalar. Şivələrdə tez-tez işlənən feili bağlama şəkilçiləri bunlardır:

-ıb[4] (əksər şivələrdə): alıb, gəlib, qurub, görüb və s. -ip[4] (Zaqatala, Qax, İrəvan): alıp, gəlip, qurup, görüp. -i (qərb ləhcəsi, Zaqatala, Qax, Şəki): alıf, gəlif, quruf, işdiyif və s.

-ifdan[4] (Tovuz, Ağstafa): aparıfdan, oxuyufdan və s. -iban[4] (Quba, Şamaxı, Qobustan, İsmayıllı, Zaqatala, Qax, Qarabağ);

-ibani, -übəni (Quba). -ibanı[4] (Zaqatala, Qax): alıban, gəlibən, alıbanı, gəlibəni və s.

-iban[4] şəkilçisi ilə əmələ gələn feili bağlamalar XI yüzillikdən XX yüzilliyin əvvəllərinədək ədəbi dilimizdə işlənmişdir.

Quba şivəsində bu şəkilçinin cəm şəkilçisi qəbul etmiş ibannarı[4] formasına da rast gəlinir, məs.: qışqırıbannarı, gidibənnəri və s.

-alı. Bu şəkilçi qərb ləhcəsində -alı, şimal-şərq ləhcəsində -anı[2] şəklində işlənir; məs.: olalı, gələli (qərb), alanı, oxuyanı (şimal-şərq) və s.

-inca[4] (əksər şivələr), -incan, -incən (şimal-şərq şivələri), -incax[4] (qərb şivələri): alıncan, görüncən, alınca, qurunca, alıncax, quruncax və s.

-anda[2] (əksər şivələr): alanda, başdıyanda və s. -dıxca, -dihcə, -duxca, -dühcə, -dıxsan[4] (qərb şivələri), -dıxca, -duxca (Təbriz, Ordubad, Şəki, Zaqatala, Qax); -dığcan (Quba), -dığca, -digcə, -dığcan, -digcən (şimal-şərq şivələri): aldıxca, aldıxcan, aldığcan, gördühcə, qorxduxca, gördığcan və s.

-annan sora, alannan sora, gələnnən sora və s. -dıxdan, -dihdən, -duxdan, -dühdən (sora) (qərb şivələri); -dıxdan sora (Təbriz, Ordubad, Quba, Zaqatala, Şəki); aldıxdan sora, gəldihdən sora və s.

Məsdər. Qazax, Qarabağ, Gəncə, Naxçıvan, İrəvan şivələrində məsdər şəkilçisi [-max'] [-məx'], Bakı, Şamaxı, Qobustan, İsmayıllı, Muğan şivələrində [-mağ], [-məg]. Bakı şivəşində [-meg], Quba şivəsində [-mağ], Təbriz, Ordubad, Qax, Şəki, Zaqatala şivələrində [-max] şəklində işlənir; məs.: [almax], [işdəməx'], [oxımağ], [işdəməg] və s

XIII MÖVZU

ZƏRF VƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ

PLAN:

1. **Zərf**
2. **Qoşma**
3. **Bağlayıcı**
4. **Ədat, modal və nidalar**

13.1. Zərf

Zərf spesifik leksik-qrammatik xüsusiyyətlərə malik əsas nitq hissəsidir. İndiyə qədər zərflər dialektoloji baxımdan ayrıca araşdırılmamış, tədqiqatlarda və dərs vəsaitlərində əsas nitq hissəsi kimi ondan ümumi şəkildə bəhs olunmuşdur. Bunun da səbəbi ədəbi dildə və şivələrdə eyni qrammatik xüsusiyyətlərin fəaliyyət göstərməsidir. Şivələrdə zərflər ədəbi dildən yalnız lüğət tərkibinə görə fərqlənir. Buna görə də dialekt leksikasında zərflər üç qrupa bölünür:

1) məna və formaca ədəbi dillə eyniyyət təşkil edənlər: tez, indi, birdən, hərdən, yanakı, çəpəki, dünən, aşağı, irəli, az, çox;

2) mənaca eyni, amma ayrı-ayrı şivələrdə müxtəlif fonetik formalarda işlənənlər; uxarı, biyax, həmməşə, xeylağ (Muğan), əxşəm, hindi, büldür, sabax (Naxçıvan), biyağ, bərkə, bərkəm, dayi, əxşəm (Bakı), çux, yaxşi, bərq, surə, saba (Dərbənd) və s.

3) Məna və forma cəhətdən fərqlənən səciyyəvi zərflər məhdud arealda işlənərək dialekt fərqləri yaradır; məs.: ifcin «səliqə ilə», mağıl «yaxşı», bruz «uzaq», peydər «həmişə», anon «bəri» (Qazax, Tovuz, Bolnisi), qərəm «həmişə, xuduru «boş», boylum «sonra» (Naxçıvan), usuli «yavaş», gallah «başlı-başına», siləvər «başdan-başa», sokki «sonra» (Bakı), art «sonra», açağ «səhərçağı», ög «qabaq» ögə «əwəl» (Dərbənd) və s.

Dialektlərdə zərfin mənaca tərzi-hərəkət, zaman, yer, kəmiyyət olmaqla dörd növü vardır. Bunlar şivələrdə qeyri-bərabər kəmiyyətdə yayılmışdır.

Tərzi-hərəkət zərfləri şivələrdə geniş yayılmışdır. Ədəbi dillə ortaq zərflərin əksəriyyəti fonetik cəhətdən fərqli tərkibə malikdir, məs.: kir-kirimiş «sakitcə», teyim-teyim «tez-tez», yübürə-yübürə, qaçarağı (Şəki), əsim-əsim, sayana «yaxşı», əyax «piyada», hənəx-hənəx «Azərbaycanaz», hərrəmə, birənti (Qazax, Bolnisi) mərmər «par-par», vərbərvər «tez-tez», bata-batda, naxoş-naxoş (Naxçıvan), düz, əgri, güzəl, asda-asda (Quba), yelli, kahal «ləng», yanpörti, lafdan «qəflətən», səllimi «sahibsiz», tələmtəh dili «tələsik», cireynən «norma ilə», dirit-dirit//diret-diret «hissə-

hissə», vəhlə-vəhlə «topa-topa», qolay (Quba), yaxçı, aram «sakit», bala-bala «yavaş-yavaş», çin-çin, bağ-bağ (Təbriz)

Nümunələr: -Ha soruşurux dimmir, kir-kirimiş durur (Şəki); -Sənin irahat sayana yaşamağın mə:m üçün xoşdu (Qazax); -Mən köhnədən ançı olmuşam, gedib vərbərvər göstəriş verərdim (Culfa); -Geçiləri səllimi bıraxdılar dəriyə (Qubadlı) və s.

Zaman zərfləri kəmiyyətcə az olsa da ünsiyyətdə əsas yer tutur.Bu zərflərin əksəriyyəti morfoloji və sintaktik üsullarla əmələ gəlir: əlvəhəl «dərhal», həməvax «həmişə», yenidə «gələn il» (Karvansaray), sabaynan, hindi-hindi, obaşdan, dünənnəri, günbəgünnən, səhərəcə (Dərbənd), so: ra, sə: r, sabahları, isreyin, hərdənbir, əğəl (Bakı), fərəş, binədən, yengi, haliyə «hal-hazırda», sohrə, sohrəmləri (Lerik), zol «həmişə», sirəngi-sıragün, inişil (Muğan), həyindi, öyralı «bir neçə gün əvvəl», soramnarım, bürsügün (Şəki), boylum, peydər «həmişə», nişil, bıldır, əzəldənnən (Qazax) və s.

Nümunələr: -İnnən belə həməvax gələjəm (Karvan-saray); -Dünənnəri gəlmişdi (Dərbənd); -Əğəldən Pir Şəfı kişi olıb (Bakı); -Öyralı didilər ki, isdansı işdi: r (Şəkı); -Zol kətdə olmışam (Biləsuvar); -Yengidə yaxşi taxılımız oləcəy (Lerik); -Onun qaydasıdı, adamın dalınnan peydər qıyvat qırar (Bolnisi) və s.

Yer zərfləri ədəbi dil formasından yalnız fonetik cəhətdən fərqlənir. Şivələrdə spesifık zərflərə nadir hallarda rast gəlinir: bırda, orda, uxarı, aşağa, yəxində (Bakı),

başşağı, başuxarı, annda, horda (Şəki), yoxun, uzağ, bəri, içəri, geri (Muğan), irax, yoxun, bəri (Təbriz), uxarı, tişqan, eşix, aşağı (Qazax), yavıx «yaxın», qənşər, iləri (Qubadlı), qəyşər, irax, gennən, a:rı-bəri, arabəsər, dəngül-dəngül «orada-burada» (Göyçay, Zərdab) və s.

Nümunələr: -Alçanı dənniyibən qutara bilmədim, gənə dəngül-dəngü qalıf (Ağdaş); -Bizim kət çox uzaxda dəyil, yavixdadı (Qubadlı); - Ordoydu, bir az uxarı bax, taparsan (Qazax); -İrax getdilə, fikir eli: rəm bı tezlıxda gəlip çıxmazla (Təbriz); -Annda çay var unnan ann bizim yerdi (Şəki) və s.

Kəmiyyət zərfləri az sayda məhdud arealda yayılmışdır: nanca, Azərbaycanküş, xeylax, accə (Şəki), oğarta, biro: r, bitgə, birez (Bakı), hoğarta, çux (Dərbənd), barhambar «çox «azmnqı, dınnajıx, accana (Karvansaray), dmnajıx, accana, birə:ləm (Qazax.), birhavır-birsamat «bir qədər», ərəsət-lığlama «çoxlu» (Quba), birhəmbir «tamamilə» (Ağsu), naxantana (Qarabağ) və s.

Nümunələr:

- Ə, möşöyləri birhəmbir dolduruf harya aparersan (Ağsu);

- Dınnajıx yemişdim, gəldi ki, bəsdi (Bolnisi);

- Barhambar yığmışam armıtdan turşu qaynassanıza (Karvansaray);

- Hoğarta sən yazmısa (Dərbənd);

-O, bitgə yidi (Bakı);

-Bir Azərbaycan küş olurdı əvvəl qartoflu, sora olmadı;

- Nancə didim xeyri olmadı (Şəki) və s.

Ədəbi dildə işlənən bəzi zərflər ayrı-ayrı şivələrin tələffuz şəklinə uyğunlaşaraq müxtəlif formalarla fəaliyyət göstərir; məs.: sonra (ədəbi dil); sora (əksər şivə); sohrə (Lerik); soram, soralar, su:ra (Quba.); sonra (Qazax), soura (Bakı), soramnan (Şəki); sorasına (Qərb) və s. Şivələrdə ədəbi dildəki zərflərin müxtəlif dialektizmlərlə ifadə olunmasına rast gəlinir; məs: həmişə-sürüzə (Ağsu), qərəm (Ordubad), ilmidama-ilmizam (Göyçay, Qubadlı), peydər (Bolnisi, Yardımlı), həməvax (Karvansaray.), zol (Biləsuvar), müdam (Şəki) və s.

13.2. Qoşma

Köməkçi nitq hissələri Qoşma. Şivələr qoşmalarla zəngindir. Qoşmaların əsas hissəsi ədəbi dillə adekvat olsa da fonetik cəhətdən fərqlənir. Bununla yanaşı, şivələrdəki spesifik qoşmalar ədəbi dil forması ilə sinonimlik əmələ gətirir. Azərbaycan dialektologiyasında qoşmalar semantikasına və ismin hallanmasına görə təsnif edilmişdir.Ədəbi dillə müqayisədə qoşmalar iki qrupa bölünür:

1) ədəbi dildən fonetik cəhətdən fərqlənənlər: ötrü-ötür, ötrün, ötəri, ötərin (Naxçıvan), örki, örti, ötüri, örtə (Göyçay, Zərdab, Ağdaş, Muğan), ötrün, ötərnə (Şəki), ötru (Lerik); üçün-üçin, içün, için, yiçin, çun, çün, çu, çü, içü, iyçü, çin,

içi (Dərbənd), çun, çün (Bakı), çm, çin, çun, çün (Qazax); savayı, safay, savay, safayı, safayın, səvayi (Naxçıvan), suvay, sıvay, sivayı, sıfay (Yardımlı), savayı, suvayı (Göyçay), savayi, sahvayi (Şəki), savıya, savayım (Qazax, Tovuz), sovayi (Dərbənd), sufay, sufayi (Lerik).

2) spesifik qoşmalar: həngi «kimi» (Karvansaray, Ağdaş), tana, tan «qədər, dək» (Naxçıvan, Karvansaray, Qazax, Şəki), ögə «başqa «tənni, damağ «kimi», artda «sonra», sayn «başqa» (Dərbənd), can «kimi» (Bakı), binəm «görə» (Bolnisi), çalı~çalıx «qədər», əfzəl «əvvəl», biyana «bəri», tənqat «kimi» (Ağdaş, Zərdab, Göyçay), əzələ «əvvəl» (Naxçıvan), alahi «başqa» (Bakı, Şamaxı, Mərəzə, Muğan) və s.

Nümunələr:

- Uşağdan alahi üydə adam yuxdu (Quba);
- Orda bir arvat var, sənə tənqat arvatdı (Göyçay);
- Sə:n həngi fıkirləşseydim, heş bura gəməzzim (Ağdaş);
- Onıncan danışa bilmirəm (Bakı);
- Məni tənni;
- Munnan sayn heş nəyim yoxdu (Dərbənd).

13.3. Bağlayıcı

Bağlayıcılar sözlər və cümlələr arasında tabelilik və tabesizlik münasibətləri yaradan köməkçi nitq hissəsidir. Şivələrdə qoşmalarla müqayisədə bağlayıcılar zəif mövqeyə malikdir. Qoşmaların müəyyən məna çalarları ifadə etməsi,

aid olduğu sözlə birlikdə cümlə üzvü olması onun cümlədə yerini möhkəmləndirir. Dialektdə ünsiyyət, əsasən, sadə cümlələr üzərində qurulur, buna görə də bağlayıcıların işlənməsinə ehtiyac qalmır, nəticədə buraxılır. Əksər hallarda bağlayıcıların funksiyasını intonasiya yerinə yetirir. Bütün bunlara baxmayaraq, ədəbi dildəki bağlayıcıların əksəriyyəti şivələrdə fonetik fərqlənmələrlə işlənməkdədir: amma~ama, əmma (Bakı), aman (Dərbənd), əmə, əmbə (Bolnisi, Qazax, Naxçıvan), amman (Quba), amba, hama (Şəki), hamma, hamba (Muğan, Göyçay); ki~ kı, ki, ku, kü, km, kin, kun, kün (Naxçıvan, Qazax), kına, kinə, kuna, künə, kını, kini, kunu, künü (Karvansaray), xı, xu (İmişli); əgər~əgən, egən, əgənə (Dərbənd), əyəm, begəm, begə (Bakı), [ə:m], [ə:r] (Qazax), əgənə (Quba), eyəm ki, əyəm ki, əyəmnəri (Şəki), əyər, həyə (Naxçıvan) və s.

Quba, Şəki, Dərbənd, Tabasaran, Şamaxı, Balakən, Qax, İmişli şivələrində ya, nə bağlayıcıları ədəbi dildəki mənasından əlavə, bir-birinin fiınksiyasını da yerinə yetirir, məs.: - Nə isdər gidər, nə isdər qalar (Quba);

- Ya ləzgi dögü, ya burdan dögü (Dərbənd) və s.

Şivələrdəki spesifik bağlayıcılara ədəbi dildə rast gəlinmir. Bunlar ədəbi dildəki bağlayıcılarla sinonimlik təşkil edir: məs.: ara «gah, gah da» (Karvansaray, Qubadlı), hay «ya, gah» (Dərbənd), hakəzə «həmçinin», (Lerik), gəl ki «amma, ancaq» (Zəngilan, Cəbrayıl) və s. Nümunələr:

- Ara tütün yığıram, ara taxıram;

- Qapı-qapı gəzdirədilər hay yumurta, hay şekər verədilər;

- Yaxşı barama verdix, gəl ki sortu aşağı oldu;

- Həmmımız yığışduğ getduğ, Kiçxanım də hakəzə (Karvansaray, Dərbənd, Cəbrayıl, Lerik) və s.

13.4. Ədat, modal və nidalar

Ədat. Şivələrdə də ədatlann əsas vəzifəsi sözlərin və cümlələrin mənasını qüvvətləndirməkdir. İndiyə qədər Azərbaycan dialektologiyasında ədatlar linqvistik baxımdan tam araşdırılmamış, bəzi dialektoloji tədqiqatlarda ümumi məlumat verilmişdir. Ədəbi dildəki ədatların əksəriyyəti şivələrdə fonetik cəhətdən fərqli variantlarda sabitləşmişdir. Bunlardan başqa, ayrı-ayrı şivələrdə spesifik ədatlarda işləklik qazanmışdır. Şivələrdə ədatlar iki qrupa bölünür:

1) ədəbi dil formasından fonetik cəhətdən fərqlənənlər: dahı, laf, məyə, yanı, bəyəm, dayı, pəs, əxi, keş, keşgə, keşgəm, bəgə, bəgəm, bəyəm, yap, dahi və s.

2) spesifik ədatlar ayrı-ayrı şivələrdə yayılmışdır: azı, azılı «heç», bı, bi, bu, bü «mı» cılız «lap», qa «mı», şırp, xud «lap», yaman (Karvansaray), qan, ğarı, dağı (Dərbənd); ca:z, cə:z (Göyçay); illap, illaf (Zəngilan, Qarakilsə); cılız «lap» (Bolnisi, Tovuz, Karvansaray); dana, dayna, dahna, dənə (əksər şivələr) və s.

Nümunələr:

- Murğusdan azı çən əysiy olmur;

- Hər afdoya ot gətmə: onca manat verdişqa;

- Gid qan, onu çağır;

- Bilitdi dağı gədə olanı;

- Sən məni illap dəng elədin;

- Vəli davışdıxcan cılız hirslənirdi (Karvansaray, Dərbənd, Zəngilan, Tovuz) və s.

Modal sözlər leksik-semantik, morfoloji və sintaktik prinsiplərə görə fərqlənən köməkçi nitq hissələrindən biridir. Şivələrdə modal sözlər zəif mövqeyə malikdir.

Son dövrlərdə dialekt nitqində onların rolu artmışdır. Şivələrdə tədricən spesifik modal sözlərin arealı məhdudlaşır, ədəbi dil formalarının fəaliyyəti genişlənir. İndiyə qədər ədəbi dilə uyğun olaraq, şivələrdəki modal sözlər də strukturu, semantikası və törəmə mənbələrinə görə qruplaşdırılmışdır. Sinxron baxımdan modal sözləri iki qrupa ayırmaq olar:

1) ədəbi dillə eyniyyət təşkil edənlər üstünlüyə malikdir. Bunların əksəriyyəti fonetik cəhətdən fərqli formada işlənir; məs.: bəkəm, gua, guva, guvayi, əcəf, mütlax (Şəki), doğirdən, həyqətən, həlbətdə (Lerik), gərəy, əyənə (Dərbənd), doğurdan, doğırdan, doğncan (Cəbrayıl, Zəngilan) və s.

3) spesifık modal sözlər bir və ya bir neçəsində yayılmışdır; məs.: hanna, hınqa «bəli», tapar «görünür», fərəzə (Şəki), ömrəsürə «əsla, qətiyyən» (Salyan), incəfara «xoşbəxtlikdən» (əksər şivə.), vaynəçəri «heç olmasa» (Zəngilan, Kəlbəcər), lamhala, lamahlama «heç olmasa» (Gəncə, Cəli- labad), ga: var «deyəsən» (Bakı, Quba, Salyan,

Cəlilabad), boylum, boyul «deməli» (Qazax, Gədəbəy, Naxçıvan), illah, illahım «xüsusən, xüsusilə» (Naxçıvan, Zəngilan, Cəlilabad, Cəbrayıl) və s.

Nümunələr:

- Hanna savax qadam gəliy;
-Tapar, işdən gəlmiyifdi hələ;
- Büyün gidir, fərəzə, sabax qəyidər;
-Bizzərdə, ömrəsürə, dəvə olmi:bdi;
- İncəfara, Əhməd ordeydi, yoxsa it bizi yə: ceydi;
- Pambıx suyuna getmirsən, vaynəçəri, ayrı işə get;
- Lamahlama, iki yüz qram da vermey;
- Əli, ga: var, kəndə gedib;
- Onnan so: ra, boylum, dərzinin nobatıdı;
- O çox danışandı, illahım da, Həsən (Şəki, Salyan, Cəbrayıl, Zəngilan, Cəlilabad, Bakı, Naxçıvan) və s.

Nida. Şivələrdə nidalar geniş yayılmışdır. Ədəbi dildəki nidaların əksəriyyəti şivələrdə müxtəlif variantlarda işlənməkdədir. Bunlarla yanaşı, spesfik nidalara da məhdud dairədə rast gəlinir; məs.: həvik (Culfa), le: (Salyan), arə (Dərbənd), nət, binət, bünət, minə (Zərdab) və s.

Nümunələr:

-Binət, nə görəcəxli günümüz var;
- Nət, mən sa: helə dedim:
- Arə, atovu adi nədi?;
- Qasımı maşın basdı
- Le?;

- Həvik, o taxda, yaxçı şeydi (Göyçay, Zərdab, Dərbənd, Salyan, Culfa) və s.

XIV MÖVZU

AZƏRBAYCAN DİLİ DİALEKTLƏRİNİN SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ

PLAN:

1. Söz birləşmələri
2. Sintaktik əlaqələr, cümlə üzvləri
3. Cümlənin məqsədə görə növləri.
4. Cümlənin quruluşca növləri

14.1. Söz birləşmələri

Dialekt sintaksisi dialektologiyanın az tədqiq olunan sahələrindəndir. Bunun da əsas səbəbi fonetika və morfologiya ilə müqayisədə sintaktik fərqlərin az olmasıdır. İndiyə qədər dialekt sintaksisinə dair ayrıca tədqiqat əsəri yazılmış (M. Cəfərzadə. Azərbaycan dilinin dialekt sintaksisi. Bakı, 1990), ayrı-ayrı dialektlərə aid yazılmış tədqiqat işlərində və monoqrafiyalarda fərqli sintaktik xüsusiyyətlərdən də bəhs olunmuşdur. Şivələrin sintaktik xüsusiyyətləri 3 qrupa bölünür:

1) Ədəbi dilə uyğun xüsusiyyətlər;

2) Bütün şivələrə xas olub, ədəbi dildən fərqlənən xüsusiyyətlər;

3) Hər hansı bir dialektə və ya ləhcəyə xas olub, digər dialektlərdən və ədəbi dildən fərqli xüsusiyyətlər.

Təyini söz birləşmələri. Ədəbi dildə olduğu kimi, şivələrdə də təyini söz birləşmələrinin 3 növü var:

1) I növ təyini söz birləşmələri. Bu söz birləşmələri digərlərinə nisbətən qədimdir; məs.: yaxşı üzim (Bakı), gümüş üzük' (Qarabağ), xeyləq uşağ (Salyan) və s.

2) II növ təyini söz birləşmələrinin birinci tərəfı şəkilçisiz olur, ikinci tərəfi mənsubiyyət şəkilçisi qəbul edir; məs.: su qabı, çöl işi, iş adamı, comuş balası və s. Əsasən, Zaqatala, Qax, Balakən şivələrində, qismən də Şəki, Zəngilan, Muğan, Dərbənd və Tabasaran şivələrində II növ təyini söz birləşmələrinin ikinci tərəfi şəkilçisiz işlənir, formaca I növ birləşmələrə uyğun gəlir; məs.: qalxoz idarə, çöl yer, boğaz ağrı, dağ ara, iş gün (Zaqatala, Qax) və s.

3) III növ təyini söz birləşmələrinin birinci tərəfi yiyəlik hal, ikinci tərəfi mənsubiyyət şəkilçisi qəbul edir; məs.: öyün qapsı, qızun atası, (Bakı, Quba), mənim gözüm, sənin gözün, onun gözü (qərb ləhcəsi) və s. Bir sıra hallarda II və III növ təyini söz birləşmələrinin ikinci tərəfınə ikiqat mənsubiyyət şəkilçisi əlavə olunur; məs.: Arvatdarın çöl işisi çoxdı (İmişli), Camatın çoxusu bağa köçüb hindi (Ağdaş) və s.

Bu xüsusiyyət cənub ləhcəsi və keçid şivələri üçün xarakterikdir, daha çox il, dal, iy, gün və s. sözlərində baş verir. Zaqatala, Qax və Salyanın bəzi kənd şivələrində hər iki tərəfı isimlə ifadə olunan III növ təyini söz

birləşmələrinin ikinci tərəfində mənsubiyyət şəkilçisi ixtisar olunur; məs.: Evin lampa, əsgərlərin analar (Qax) və s.

14.2. Sintaktik əlaqələr, cümlə üzvləri

Sintaktik əlaqələr. Şivələrdə tabelilik əlaqəsinin 3 növü var: uzlaşma, idarə, yanaşma. Əksər şivələrdə əsas sözlə asılı söz şəxsə və kəmiyyətə görə bir-biri ilə uzlaşır; məs.: mən yazıram, sən yazırsan, o yazır (Gəncə), mən getdim, sən getdün, o getdi, biz getdük, siz getdüz, olar getdi (Bakı) və s.

Bəzi şivələrdə, o cümlədən də Şamaxı, Ağdaş və Qaxın bəzi kənd şivələrində şəxsə görə uzlaşma pozulur, yəni asılı söz şəxs şəkilçisi qəbul etmir, məs.: mən çarhannı, sən çarhannı, o çarhannı (Şamaxı); mən (sən, o, biz, siz, olar) alatdı (Ağdaş); men (sen, ho, biz, siz, holar) ala varqan (Qax) və s.

Mənsubiyyət kateqoriyasında sahib şəxslə mənsub əşya arasında uzlaşma, əsasən, gözlənilir, məs.: mənim qızım, sənin qızın, onun qızı (Qarabağ) və s. Ədəbi danışıq dilində və şivələrin əksəriyyətində mənsub əşya I və II şəxs cəmlə ifadə olunan sahiblə uzlaşmır, məs.: bizim küçə, süzün məhlə və s. Zaqatala, Qax, Dərbənd, Balakən, Cəlilabad və Lerik şivələrində hər üç şəxsdə şəxsə görə uzlaşma baş vermir, məs.: menin//meni (senin//seni, onun//onu, bizim, sizin, onlann) qız (Zaqatala). Bu xüsusiyyət qədim yazılı abidərdə və müasir türk dillərində

də mövcuddur; məs.: biziŋ sü (Orxon abidə), bizim el (KDQ) və s.

Qax (İlisu kənd şivəsi) və Dərbənd şivələrində mənsub əşya bütün şəxslər üzrə III şəxs mənsubiyyət şəkilçisi qəbul edərək, I və II şəxslərdə uzlaşma yaratmır; məs.: menin (senin, onun, bizim, sizin, oların) atası (Qax) və s. Bu xüsusiyyətə karaim dilində də təsadüf olunur.

Şivələrdə kəmiyyətə görə uzlaşmanın olub-olmaması mübtədanın meydanda olmaması ilə bağlıdır. Cümlədə mübtəda olmadıqda şivələrdə onun tək və cəmliyi xəbərdə əks olunur; məs.: Atı mindilər, yola tüşdülər (Tovuz); Duruf gediflər ordan aşa: (Gəncə) və s. Əksər şivələrdə mübtədanın ifadə vasitəsindən asılı olmayaraq, xəbər kəmiyyətcə təkdə olur; məs.: Ollar çatdı getdi (Şəki); Eşiyə çıxıf görər kin, dağdan adamnar gələr (Dmanisi) və s. Az hallarda mübtəda ilə xəbər kəmiyyətə görə uzlaşır; məs.: inəx′lər gəldilər. İtdər dağa hürüllər (Şamaxı); Keçilər tökülüflər üzü oana (Qazax) və s.

Şivələrin əksəriyətində müəyyən miqdar saylarından sonra isimlərə -lar, -lər şəkilçisi əlavə olunur; məs.: İki Museyiblər su suvarırlar (Naxçıvan); İki xatunnar gəlib (Dərbənd), Əlli qoyunnarı var (Qazax) və s.

Bu xüsusiyyət qədim yazılı abidələrdə və müasir türk dillərində də qeydə alınmışdır. Belə birləşmələr ayrılıqda deyil, söyləmin tərkibində reallaşır və əsasən canlı varlıqlan əhatə edir. Fikrimizcə, -lar[2] şəkilçili isimlərin kəmiyyətini konkretləşdirmək üçün miqdar sayları sonradan əlavə

olunmuşdur. Miqdar saylarından sonra gələn numerativ sözlər bu xüsusiyyətin fəaliyyət dairəsini məhdudlaşdırmışdır.

İdarə əlaqəsi. İdarə əlaqəsinə görə dialektlər həm ədəbi dildən, həm də bir-birindən fərqlənir. Belə fərqlənmələr qərb ləhcəsində (xüsusilə Qazax və ayrım şivələrində), Dərbənd, Şəki, Zaqatala, Qax şivələrində daha çox nəzərə çarpır.

Bir halın digər halın əvəzinə işlənməsi, yəni idarə edən sözün, ədəbi dildən fərqli olaraq, ismin başqa halını tələb etməsi şivələrdə geniş yayılmış hadisələrdəndir. Dialektoloji tədqiqatlardan aydın olur ki, halların bir-birini əvəz etməsinin şivələrdə 30-a yaxın tipi vardır:

1.Ədəbi dildə və şivələrin əksəriyyətində soyuqdu, istidi felləri yönlük halı tələb etdiyi halda, Bakı (Türkan, Zirə, Mərdəkan, Qala) şivəsində təsirlik halla işlənir, məs.: Məni so:ğdu, məni istidü və s.

2.Ədəbi dildə və şivələrin əksəriyyətində söymək, vurmaq feilləri təsirlik halı tələb etdiyi halda, Qarabağ, Zaqatala, Qax şivələrində yönlük halla işlənir; məs.: Vəliyə söyürəm (Qarabağ), Məndə nə ixtiyar, kişiyə söyəm (Ağdam) və s.

3. Ədəbi dildə və şivələrin əksəriyyətində gizlənmək, daldalanmaq feilləri yerlik halı tələb etdiyi halda, Gəncə şivəsində yönlük halla işlənir; məs.: İdris öyə gizdənif və s.

4.Ədəbi dildə və şivələrin əksəriyyətində gəlmək feili çıxışlıq halı tələb etdiyi halda, Laçın rayonunun Qorçu,

Şəlvə kənd şivələrində yerlik halla işlənir; məs.: Şuşada gəlləm və s.

Halların qoşmalarla idarəsi. Şivələrdə bəzən görə qoşması deyilmir; məs.: Su çəkildiyinə təzədən kənd salıblar və s.

Ədəbi dildə qoşmalarla idarə olunan sözlər şivələrdə çox vaxt feillərlə idarə olunur; məs.: Də:rman kətdilərə işdir hindi (Biləsuvar).

Şivələrdə hal şəkilçisindən sonra işlənən so.ra qoşması bəzən düşür; məs.: Onnan kəndin Adı qalıb Daykənd (Salyan).

Yanaşma əlaqəsi. Ədəbi dildə olduğu kimi, şivələrdə də yanaşma əlaqəsi qrammatik əlamətsiz, yəni tabe sözün tabeedici sözə yanaşıb, mənaca ona bağlanması nəticəsində əmələ gəlir; məs.: qızıl balığ, təxtə qapı və s.

Cümlədə söz sırasının pozulması. Ədəbi dildə söz sırasına riayət olunduğu halda, bu qayda şivələrdə pozulur. Belə ki, mübtəda, tamamlıq, zərflik xəbərdən sonra, təyin təyin olunandan sonra gəlir.

a) Mübtədanın cümlənin sonunda gəlməsinə tez-tez təsadüf edilir. Bu hadisə Şəki şivəsində çox, şimal-şərq ləhcəsində az müşahidə edilir; məs.: Geditdi şərə qız (Şəki); Dəyəni tikərdi çobannar (Marneuli)

b) Vasitəsiz tamamlığın cümlənin sonunda işlənməsi; məs.: Yaxşı saxlarıx biz atı (Tərtər), Gətrif yanımıza uşaxları (Tovuz). Araşdırmalar göstərir ki, vasitəsiz tamamlıqların cümlənin sonunda işlənməsinə bütün

şivələrdə rast gəlinsə də, qərb ləhcəsi üçün daha səciyyəvidir.

c) Vasitəli tamamlığın cümlənin sonunda işlənməsi; məs.: Uşax tutdu ağaşdan (Xanlar), Cəlin atdı qıza (Naxçıvan), Gələndə mina pay qoyıblar qurban ətinnən (İmişli) və s. Bu xüsusiyyət şivələrin əksəriyyətində təzahür edir; yönlük halla ifadə olunan vasitəli tamamlıqlar çox, çıxışlıq və yerlik halla ifadə olunanlar isə nisbətən az işlənir.

d) Zaman zərfliyinin cümlənin sonunda işlənməsi; məs.: Gəlıb apardı məni ordan özü deyənnən (Gəncə); Çox razıyam onnan hindi (Salyan) və s.

e) Yer zərfliyinin cümlənin sonunda işlənməsi; məs.: Niyar xanım ağladı-ağladı, yatdı pəncərədə (Naxçıvan); Mən dəmini dağıddım bağa (Şamaxı) və s.

ə) Təyinin təyin olunan sözdən sonra gəlməsi; məs.: Həsən fağır dünənnən bı malların əlində hələx′di (Mərəzə); Bacım zalım heç fıkir vermiyədi (Mərəzə) və s.

Söz sırasında inversiya hadisəsi digər türk dillərində və dialektlərində də mövcuddur. Bu xüsusiyyət Orxon-Yenisey mətnlərində, «Dədə Qorqud kitabı»nda və digər yazılı mənbələrdə də müşahidə edilmişdir. Bəzi türkoloqlar inversiyanın yaranma səbəbini qeyri-qohum dillərin, xüsusilə slavyan və Çin dillərinin təsiri ilə izah edirlər. Söz sırasında sərbəstlik yazılı dillə müqayisədə şifahi nitq üçün xarak- terikdir. Bu cəhətdən də inversiya hadisəsi dialektlərdə geniş yayılmışdır. Dialekt nitqində cümlələr müəyyən trasformasiyalara uğrayır və ya məntiqi vurğudan

asılı olaraq, cümlə üzvlərinin sabit sırası pozulur, nəticədə inversiya hadisəsi baş verir.

14.3. Cümlənin məqsədə görə növləri

Şivələrdə sual cümləsinin üç tipi vardır:

a) sual intonasiyası ilə düzələnlər;

b) -mı sual ədatı ilə düzələnlər;

c) sual əvəzlikləri ilə düzələnlər.

Sual cümləsinin işlənməsinə görə həm şivələr bir-birindən, həm də ədəbi dildən fərqlənir, dialektlərin təsnifində bu cəhət nəzərə alınmışdır.

Sual intonasiyası ilə əmələ gələn cümlələr cənub və şimal-şərq ləhcələri (Quba və Dərbənd istisna olmaqla) üçün səciyyəvidir, məs.: Annon da gedib olara? (Ağsu); Axşama mən də gedə bilərəm ora? (Sabirabad); Deyif: qoca, qaz yollasam, yola bilərsən? (Naxçıvan) və s.

Sual ədatı ilə düzələn cümlələr qərb ləhcəsində və bəzi keçid şivələrində geniş yayılmışdırmı ədatı ilə qurulan sual cümlələri şimal-qərb şivələrində, Quba və Dərbənd şivələrində də işləkdir, məs.: Kiçix' qızı da köçürüfsənmi? (Quba, İmişli); Bizim bu kəndi görüfsənmi qavax? (Tovuz); Meni də apararmı? (Qax) və s.

Şivələrdə sual əvəzlikləri ilə quran cümlələr sual əvəzliklərinə görə fərqlənir. Şimal-şərq ləhcəsində, Şəki şivəsində və İraq-türkman ləhcəsində nə üçün sual əvəzliyi neyçün, niçün, nöşün, nöş, nəyşə şəklində işlənir, məs.: Əmi,

nöş yemeysən axı? (Cəlilabad); Süz niçün gitə varsüz ura? (Quba); Neşin çayırmıysan honu? (Şəki) və s.

Qərb və cənub ləhcələrində və şimal-qərb şivələrində sual cümlələri, əsasən niyə əvəzliyi ilə qurulur, məs.: Çovana qayıtdı kin, sən niyə vurdun yamşağımı? (Qazax); Niyə çüşübsən mənnən (Naxçıvan).

Cümlə üzvləri. Azərbaycan dili şivələrində şəxs əvəzlikləri ilə ifadə olunan mübtədalar, demək olar ki, işlənmir. Zəruri hallarda şəxs əvəzliklərinin üzərinə vurğu düşdükdə mübtədalar özünü göstərir, məs.: Ojağınızm başında bitif qalasan (Qazax); Hara əlmizi çaldıx dəsdəynən çubux (Şəki), Men çağırdım cama:tın ümum iclasın (Qax) və s.

Şivələrdə xəbərin tez-tez buraxılmasına rast gəlinir, məs.: Holar Şəkiyə, men burya (Zaqatala); Bəzən cümlənin xəbəri iş felləri əvəzinə, elə köməkçi feli ifadə olunur; məs.: Mən həyət- bacam eleyim (süpürüm), sen beş-altı çörəg elə (Şamaxı) və s.

Dərbənd şivəsində xəbərin analitik fellərlə ifadə olunmasına tez-tez rast gəlinir, məs.: Mən hər vaxtda Dərbəndə gidə uladam, Əli baxa durur; Mən sənü tanımiyə varam (Dərbənd) və s.

Bəzi şivələrdə feili bağlamalarda əmələ gələn mürəkkəb xəbərlər də işləkdir. "Ol" köməkçi feili xəbər şəkli ilə işlənir, mürəkkəb feil əmələ gətirir və sual mənası ifadə edir, məs.: Fatma xala öydədi ola? (İsmayıllı), Həsən qoyınnan gətirdi ola (Zərdab) və s.

Bəzən əmr cümlələrinin xəbəri iki müstəqil sözdən ibarət olur, məs.: var get burdan (Tovuz); Kitabı get gə vər mənə (Bakı)…

Şimal-şərq ləhcəsində təkrarlı xəbərlər də geniş yayılmışdır. Belə xəbərlər əsasən inkar məna ifadə edir; məs.: Nə qədər nəsiət elədim, adam olmadı ki olmadı (Şamaxı) və s.

Mürəkkəb cümlələrin işlənmə xüsusiyyətləri. Dialekt sintaksisində mürəkkəb cümlələr də mühüm yer tutur. Mürəkkəb cümlələrin işlənmə kəmiyyəti nitqin növü, mövzusu, həcmi, informatorların üslubu, mövcud şərait və s. bağlıdır. Şivələrdə mürəkkəb cümlələr daha çox monoloji nitqdə təsadüf olunur. Apardan müşahidələr göstərir ki, şivələrdə ən çox işlənən tamamlıq və şərt budaq cümlələridir. Bunlardan sonra zaman, yer və səbəb budaq cümlə- ləridir. Ən çox işlənən mürəkkəb cümlələr iki komponentdən, bəzən də 3-4 komponentdən ibarət olur, məs.: Hancan eliyim? - Yağsa ək, yağmasa əkmə, bitəmməz (Borçalı). Dialekt nitqində komponentlərin ixtisarına da tez-tez rast gəlinir. Bu, daha çox dialoqlarda özünü göstərir, məs.: Bəs kimə satax munu, ə:?-Kim işdəsə (ona satın) (Qazax).

14.4. Cümlənin quruluşca növləri

Ədəbi dildə olduğu kimi, dialekt sintaksisində də mürəkkəb cümlənin iki növü var:

1) Tabesiz mürəkkəb cümlələr;

2) Tabeli mürəkkəb cümlələr.

Tabesiz mürəkkəb cümlələr. Şivələrdə tabesiz mürəkkəb cümlələrin struktur cəhətdən 3 tipi işləkdir:

1) Sadə cümlələrdən ibarət tabesiz mürəkkəb cümlələr: məs.: Didi tez gəlləm, hancağ gəlib çıxmadı (Quba); Hehrəm suyu yaxçı sudu, mınnan adama zərəl cəlməz (Naxçıvan) və s.

2) Sadə və mürəkkəb cümlələrdən ibarət tabesiz mürəkkəb cümlələr; məs.: O niyət elədi ki, üzüf, çayın o biri tərəfmə keşsin, amma keçə bilmiyif boğuldu (Şəki).

3) Mürəkkəb cümlələrdən ibarət tabesiz mürəkkəb cümlələr, məs.: Qarı dedi kin, mən getmiyəjəm, əmbə pışqıçı yolla, ağacı pışqdasın (Gəncə) və s.

Şivələrdə tabesiz mürəkkəb cümlələrin komponentləri arasında, əsasən, qarşılaşdırma, zaman, səbəb-nəticə və aydınlaşdırma əlaqələri özünü göstərir.

a) Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələr; məs.: Ağacım çuxdu, hancağ qulluğ iliyə bilmiyədəm (Quba)

b) Zaman əlaqəli tabesiz mürəkkəb cümlələr; məs.: Üş gün toyçular çaldı, camahat pişmiş yedi (Tovuz)

c) səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr; məs.: Ət lilpar yağdı, kimyə (heçkim) ye:mədi (Kürdəmir); O ağaşı kəseylər də, bulax quryoy (Daşkəsən) və s.

ç) aydınlaşdırma əlaqəsi, məs.: Qahımı çoxdu: yarı dağdadı, yarı Gəncədə (Gədəbəy).

Tabeli mürəkkəb cümlələr: Şivələrdə tabeli mürəkkəb cümlələrin struktur-semantikası ədəbi dillə eyniyyət təşkil edir, lakin ədəbi dillə müqayisədə dialekt sintaksisində intonasiya vasitəsilə qurulan tabeli mürəkkəb cümlələr üstünlüyə malikdir. Bu, türkologiyada mürəkkəb cümlənin ən qədim tipi hesab olünur. Tabeli mürəkkəb cümlələrin strukturu və arealı şivələrdə eyni kəmiyyətdə deyildir. Ümumxalq danışıq dilinə xas olan cümlələr şivələrin əksəriyyətində işləkdir. Bununla yanaşı, ayrı-ayn şivələrdə və ya ləhcələrdə spesifik strukturlu cümlələr də işlənməkdədir.

Mübtəda budaq cümləsi. Ədəbi dildə olduğu kimi, şivələrdə də mübtəda budaq cümləsinin iki struktur tipi vardır: a) baş cümlədən əvvəl işlənənlər; b) baş cümlədən sonra işlənənlər. Budaq cümlələrin qurulmasında əvəzliklər, var, ol sözlərinin əlaməti və ki ədatı və bağlayıcısı mühüm rol oynayır; məs.: Kim ki qoçağıydı, bir tə:r dolandınrdı başın (Sabirabad); Hər kim orya tüşsə, çıxası döyl (Tovuz); Nədən qorxırdım, başıma gəldi (Salyan). Neçə ki uşağı var oxudufdu hamısın (Tərtər); O ku burda oğlan oloydu, gedifdimi (Gədəbəy).

b) baş cümlədən sonra işlənən budaq cümlələr. Mübtəda budaq cümləsinin bu tipi intonasiya, əvəzliklər və ki bağlayıcısı ilə qurulur; məs.: Bizdərdə qaydadu, xüregdən qabağ çay içəduğ (Quba); İnsaf döy kün, mən yarı bölüm (Qazax); Necə oldu, tapbadız əvi? (Naxçıvan), Harda görüküb, qoca işdiyə, cavan öydə otura? (Ağsu)

Mübtəda budaq cümlələrinə tapmacalarda tez-tez rast gəlinir; məs.: Nə meyvədü güli yox, nə heyvandu dili yox (Oğuz), O nədü ki, başın kəsməsən yeriməz (Bakı) və s.

Xəbər budaq cümləsi. Belə budaq cümlələrin komponentləri daha çox intonasiya və ki bağlayıcı ilə əlaqələnir; məs.: Dedi, yaxşıdı bıdı, gedim imarata (Böyük Qarakilsə); Mə:də qalan odı ki, oları oxudum bir yana çıxsınnır (Naxçıvan). Şivələrdə baş cümlənin mübtədası bu, xəbəri isə o işarə əvəzlikləri ilə ifadə olunur; məs.: Bı da odı ki, naxoş oldum gəlmədün (Salyan). Baş cümlənin xəbəri elə, belə, eləsi, burası, necə əvəzliyi ilə ifadə olunur; məs.: Qızın yiyəsi necədi, qoyur qalsın dəli oğlun yanmda? (Şamaxı). Baş cümlədən əvvəl işlənən xəbər budaq cümlələri az yayılmışdır. Belə cümlələr kim, nə, necə hancarı sual əvəzlikləri ilə qurulur. Bəzi cümlələrin xəbəri daha çox var, yox sözlərindən ibarət olur; məs.: Uşax nə defsə, düzü odu (Tərtər); İncə dərəsi yoxdumu, ordadı öyü (Qazax) və s.

Tamamlıq budaq cümləsi. Baş cümlədən əvvəl işlənən tamamlıq budaq cümlələri bağlayıcı sözlər və -sa[2] əlaməti vasitəsilə qurulur; məs.: Kim ilanı accə (açsa), qızımı ona verəcəyəm (Cəlilabad); Neçə atı olub, şıkas eləyib (Kürdəmir) və s.

Baş cümlədən sonra işlənən tamamlıq budaq cümlələri ki bağlayıcı və ya bağlayıcısız işlənir. Qərb ləhcəsində daha çox bağlayıcısız, şimal-şərq ləhcəsində isə bağlayıcılı tipi geniş yayılmışdır; məs.: Oğlan görədi ki,

başının üstündə bir keçəl qız uturub (Quba); Gördim, yuxarıdan su tökülir, gördim göbələkdü (Oğuz) Dalağım sanjdı, gedib dij durmayajax (Şamaxı).

Təyin budaq cümləsi. Baş cümlədən sonra işlənən təyin budaq cümlələri intonasiya və ki bağlayıcısı ilə bağlanır. İşarə əvəzliklərinin işlənməsinə görə təyin budaq cümlələrinin müxtəlif növləri meydana çıxmışdır; məs.: Həmən adamdı ki, qonax saxladı bizi (Ağdaş); Bir bağımız var, gəzməx'nən qurtarmaz (Zərdab); Munun cijisi bir elə pişmiş pişerer kin, yeməx'nən doymax olmor (Tovuz).

Tərzi-hərəkət budaq cümləsinin şivələrdə müxtəlif növləri işlənməkdədir; a) Baş cümlə əvvəl, budaq cümlə sonra işlənir. Baş cümlədə elə, belə, o qədər, necə əvəzlikləri təyinin «qəlibi» kimi çıxış edir; məs.: Yetimi (şüşəsiz lampa) elə apar, küləx' söndürməsin (Zərdab).

c) baş cümlənin xəbəri sintaktik təkrarlar əsasında qurulur; məs.: Bu bir kökəlməx' kökəlif, gəl görəsən (Şəmkir).

Zaman budaq cümləsi. Baş cümlədən sonra işlənən zaman budaq cümlələri şivələrdə az yayılmışdır; məs: Onda çatdım ki, su dolub öyə (Ağsu) və s.

Baş cümlədən əvvəl işlənən zaman budaq cümlələri baş cümləyə müxtəlif bağlayıcı sözlərlə bağlanır. Buna görə də şivələrdə müxtəlif tipləri yaydılmışdır; məs.: Haçağ uşaq olara gedir; ya arvad qabağına qatıb gətirir, ya kişi, ya gəlin (Ağsu); Haçan gerux sizə, bağlı oluy qapı (Şəki); Kentə

gəldimi, bizin evdə oluy (Qax); Gənə qayıdacağ-qayıdacağ, çaxnaşma düşəcək kəndə (Şamaxı) və s.

Yer budaq cümləsi. Şivələrdə yer budaq cümləsi bağlayıcı sözlərin vasitəsilə qurulur; məs.: Harda su durdu ha, horda biticax qamış (Şəki); Ha tərəfə deyir, ora aparun malı (Sabirabad).

Kəmiyyət budaq cümləsi şivələrdə məhdud arealda işlənir. Belə budaq cümlələr bağlayıcı sözlərlə baş cümləyə bağlanır; məs.: Kim nağada hördi, o ğədə haqq aldı (Şamaxı); Nə qədər kin lazımıydı, Sirəfd işdədi qızd verdilər muna (Kürdəmir).

Səbəb budaq cümləsinin müxtəlif tipləri yayılmışdır.

Budaq cümlə baş cümlə ilə intonasiya və səbəb bağlayıcıları ilə əlaqələnir. Baş cümlədən sonra işlənən səbəb budaq cümlələri daha çox intonasiya vasitəsilə əmələ gəlir; məs.: Mən doxdurun yanma cedəmmirəm, əhvalım xarapdı (Culfa); Söylətmə məni, çışım ağreir (Qazax); Mağd söz danşammeyrım mən, niyə ki oxumamışım (Daşkəsən) və s.

Baş cümlədən əvvəl işlənən səbəb budaq cümlələri bağlayıcılarla (deyin;deyə, ki) və bağlayıcı sözlərlə qurulur; məs.: Yaram yoxuydu de:n, mən durdum özümü sazladım (Tovuz); Uşağ nə dedisə, kişi düşdi üssinə (Ağsu) və s.

Məqsəd budaq cümləsi intonasiya və bağlayıcılarla qurulur; məs.: Qarı nənə durup dəpyə çıxıy, qorsın hənirti hardan gəliy (Qax); Selin qorxusundan adam içərdə öy tikitdi ki, sel tutmasın (Şəki) və s.

XV MÖVZU

DİALEKTOLOJİ TƏDQİQATLARIN METODLARI VƏ ÜSULLARI. DİALEKTOLOGİYADA OBYEKT SEÇMƏ VƏ İŞLƏMƏ ƏMƏLİYYATI

PLAN:

1. **Dialektoloji tədqiqatların metodları**
2. **Dialektologiyada obyekt seçmə və işləmə əməliyyatı**
3. **Tələbələrin topladığı materiallar üzərində iş**

15.1. Dialektoloji tədqiqatların metodları

Dialektoloji tədqiqatların aparılması olduqa mürəkkəb və məsuliyyətli məsələdir. Eyni zamanda müasir dilçiliyin aktuallıq kəsb edən məsələlərindən də biridir. Dialektoloji tədqiqatlar, əsasən, mərhələlərlə aparılmalıdır. Belə ki, tədqiqatların aparılması üçün, ilk növbədə, ixtisaslı kadrların hazırlanması vacibdir. Müasir dilçiliyimizin ən mühüm məsələsi də elə məhz budur. Elmi cəhətdən mükəmməl hazırlıqlı kadrlar Azərbaycanın müxtəlif bölgələrinə göndərilməli, orada yerli əhali ilə ünsiyyət yaradaraq məlumat toplamalıdırlar. Göndərilən mütəxəssislər yaşlı insanlarla informatorlarla əlaqə yaratmalı,

fonetik, leksik, morfoloji dialektizmlər toplanmalıdır. Bütün bunlar dialektoloji tədqiqatların tədqiqinin birinci mərhələsinə aiddir.

İkinci mərhələdə toplanmış materiallar qruplaşdırılmalı və ayrı-ayrı qovluqlarda yerləşdirilməlidir. Sonra həmin materiallar dilçiliyin tədqiqat üsulları ilə saf-çürük edilməlidir. Dilçiliyin əsas tədqiqat üsulları isə, əsasən, aşağıdakılardan ibarətdir:

1. tarixi-müqayisəli metod;
2. qarşılaşdırma metodu;
3. təsviri metod;
4. areal metod;
5. üslubi metod və s.

Bunların hər biri haqqında ətraflı məlumat verilməlidir.

15.2. Dialektologiyada obyekt seçmə və işləmə əməliyyatı.

Dialektlərin tədqiqinin mərhələləri haqqında

Dialektologiya məsələlərinin həllində dialektoloji araşdırmalarda tədqiqatçı müxtəlif mərhələdən Həmin mərhələlərdə problemlərdən biri ən əsası tədqiqat üçün obyektin seçilməsidir. Dialektoloji tədqiqat aparan şəxs ilk növbədə hansı dialekti, hansı ərazini tədqiq edəcəyini düşünməlidir. İlk növbədə çox zaman tədqiqatçı elə ərazini seçir ki, ora ilə birbaşa əlaqəsi olsun. Ya həmin ərazidə yaşasın, ya da uzun müddət həmin ərazidə qalma imkanı əldə etsin. Tədqiqat obyekti üçün seçilən dialekt və ya

dialektlər üzrə fonetik, leksik, qram. Nümunələr toplanılır, qruplaşdırılır və işləmə əməliyyatlarına başlanılır. Deməli, tədqiqata başlamazdan əvvəl tədqiqatçı xam materiallannın toplanması məsələsini düşünməlidir:

1. Tədqiqatçı özü həmin bölgəyə, əraziyə gedə bilər.

2. Həmin ərazilərə sorğu göndərib, sorğu vasitəsilə topladığı məlumatları tədqiqata cəlb edə bilər

3. Mövcud elmi-nəzəri ədəbiyyatdan, dialektoloji lüğətlərdən istifadə edə bilər.

4. Qohum dillərin dialektal araşdırmalarına müraciət edə bilər. Bu zaman tədqiqatçı müqayisələr aparıb areallıq xüsusiyyətlərinə malik olan dialektik vahidlər seçmək imkanı əldə edir. Daha sonra həmin areal dialektik vahidlərin semantikası müəyyənləşdirilir. Müqayisələr nəticəsində əldə edilən məlumatlar ümumiləşdirilir, yekun nəticələr çıxardılır.

Toplanmış materialın seçilib işlənməsi

Dialektoloji tədqiqatİar zamanı konkret ərazi dialektləri ilə yanaşı qədim, yazılı abidələrin dilini də araşdırmaya cəlb etmək məqsədəuyğundur. Bu zaman abidələrdə qorunub saxlanan dil vahidlərinin dialektlərdə izlərinin olub olmaması yoxlanılır.

1. XVIII əsrdən sonra ədəbi dilimizdə "-caq" "-cək" variantında.

2. Qərb şivələrində ilkin formasında uyğun olaraq gəclərini gəlgəcin, görgəcin və yerdəyişmə ilə gəlcənin, görcənin variantlarmda işlənmişdir.

Müasir ədəbi dilimiz üçün bəzi leksik vahidlər də müasir şivələrdə işlənməkdədir. Məsələn: al-hiylə, ayıtmaq-demək, yağı-düşmən, küz-payız, yazı-çöl, suç-günah sayru-xəstə və s.

Bir çox sözlərin ilkin formasının bərpa edilməsində şivə leksikasının rolu əvəzedilməzdir. Məs: baqır-paxır(mis), bunalmaq-kədərlənmək kimi sözlər sözün semantikasına uyğun şəkildə dialektlərdə işlədilir. Ə.Dəmirçizadə yazırdı: "Yazılı abidələrdə dustaq sözü vaxtilə "tutsaq" şəklində işlənmişdir ki, onun ***tutmaq*** feilindən əmələ gəldiyini əsaslandırmaq üçün Gürcüstan rayonunun Azərbaycan şivələrində işlənən"tutuq" sözü tədqiqatçılara kömək edib".

Qədim yazılı abidələrimizdə olduğu kimi şivələrimizdə də quruluşca mürəkkəb olan tabeli və tabesiz mürəkkəb cümlələr işlənməkdədir. Sözün intonasiya ilə bağlanan tabesiz mürəkkəb cümlələr intensi V işlənməsilə seçilir.

Azərbaycan yazılı abidələrinin dili və şivə materiallarmın qarşılaşdırılması göstərir ki, dil tariximizlə bağlı bir çox məsələlərin həllində dialekt və şivələr əsas yardımçı vasitələrdən biridir.

Tədqiqat üçün bəzən eyni dilin müxtəlif dialektləri müqayisə edilə bilər. Bu istiqamətdə Azərbaycanın cənubu ilə uzun müddət əlaqələr kəsilsə də, son illər geniş təhlillər aparılır. Monoqrafıyalar meydana çıxır. Belə əsərlərdən biri də Məhərrəm Məmmədlinin "Azərbaycan dilinin Təbriz dialekti" (Bakı.2008) əsəridir. Onun müşahidələrinə görə,

Təbriz dialektində Azərbaycanın cənub şivəsində rast gəldiyimiz bütün cəhətlər özünü göstərir. Lakin Təbriz dialektində Azərbaycan-nın qərb qrupu dialekt şivələrinə aid əlamətlər də vardır:

1. b-v əvəzlənməsi: xiyaban-xiyavan
2. v-y əvəzlənməsi: evlənmək-öylənmək
3. Məsdər şəkilçisindən sonra "-lıx" şəkilçisinin izlənməsi: Getmaxlıx, Görməxlıx və s.

Ahəng qanunu Təbriz dialektində fərqli şəkildə özünü göstərir. Sait ahənginin pozulması xarakterikdir. Məsələn: görməyə-görməğa, gəzməyə-gəzmağa. Təbriz dialektinin təhlillər əsasında maraqlı morfoloji xüsusiyyətləri də meydana çıxmışdır:

1. Feillərdə cəm şəkilçisi -la, -lə şəklində işlənir. Məs: qarışırlar- qarışırla, görəcəxla.
2. Mənsubiyyət şəkilçili isimlər hallandıqda yiyəlik, yönlük, təsirlik hallarda n-v ilə əvəzlənir.
3. İndiki zamanda -ır4 şəkilçisindən sonra "i" saiti işlənir. Məs: alıri, gəliri.
4. Feilin vacib şəkilində "***-max şkilçisi və gərək***" formasından istifadə olunur. Məs: getmax gərək
5. -ıb feili bağlama şəkilçisinin -ıp[4] şəkilində işlənməsi. Məs: ölüb-ölüp, gəlib-gəlip.

Bütün bu saydıqlarımız ayrıca tədqiqat obyekti kimi seçilmiş Təbriz dialektinin səciyyəvi cəhətlərindəndir.

*Əlavə şifahi məlumat, tələbələrin fikirlərinin ümumiləşdirilməsi.

5.3. Tələbələrin topladığı materiallar üzərində iş

Dialektoloq topladığı xam materialı seçdiyi üsullarla tədqiqata cəlb edə bilər. Bəzən mütəxəssis bir deyil, bir neçə tədqiqat metodundan və üsullarından birlikdə istifadə edə bilər.

Daha sonra dialektlərin öyrənilməsinin dövlətimiz üçün əhəmiyyətindən danışır, qədim yazılı mənbələrdə işlənmiş və bu günə qədər dialektlərimizdə qorunub saxlanılan, fəal şəkildə işlənən dil ünsürləri nümunə göstərilir.

Tələbələrin aid olduqları Azərbaycan bölgələrinin dialektlərindən nümunələr soruşur və onları müzakirə edirik.

Müasir dövrdə belə, dialektlərimizin tamamilə öyrənilmədiyi, bu sahədə ixtisaslı kadrlara ehtiyac olduğunu da tələbələrin diqqətinə çatdırırıq. Onlarda bu sahəyə maraq yaradırıq. Nümunələr üzrə iş aparmaqla dərs sona çatdırılır.

Rayonun digər bölgələrdən fərqli adətləri:

1. Toy və yas mərasimlərinin keçirilməsi;
2. Milli geyim növləri- baş örtüləri;
3. Ərazinin milli yeməkləri;
4. Ərazinin məşğuliyyəti ilə bağlı spesifik terminlər;
5. Ev heyvanlarına verilən adlar;
6. Təbiət hadisələrinə verilən adlar və s.

Qeyd: Göstərilən istiqamətlər üzrə tələbələr öz rayonları haqqında məlumatlar toplayıb, seminar dərslərində təqdim edirlər.

AZƏRBAYCAN DİALEKTLƏRİNİN TƏDQİQİ İLƏ MƏŞĞUL OLMUŞ DİALEKTOLOQLAR

MİRZƏ KAZIM BƏY



(1802-1870)

Dilimizin ilk elmi qrammatikasını yaratmış Mirzə Kazım bəy XIX yüzilliyin görkəmli alimlərindən biri olmuşdur. O, şərqşünas, filosof, tarixçi, arxeoloq, tərcüməçi və gözəl dilçi idi. Gənc yaşlarından Kazan şəhərində yaşayan Mirzə Kazım bəy Rusiyada yeni bir elm sahəsinin – şərqşünaslığın əsasını qoymuşdur. Böyük şərqşünas V.Bartold yazır ki, rus şərqşünaslığını təmsil edən görkəmli

alimlərin hamısı Kazım bəy və Senkovskinin bilavasitə şagirdləridirlər, ya da onların şagirdlərinin şagirdləridirlər.

Mirzə Kazım bəyin, bütün əsərləri ingilis, fransız dillərinə tərcümə olunaraq London və Parisdə çap edilmişdi. O, ABŞ, Böyük Britaniya, Fransa, Almaniya, Danimarka, Rusiya və bir çox başqa ölkələrin elmi cəmiyyətlərinin üzvü olmuşdur. Mirzə Kazım bəy üç dəfə çarın elm sahəsində ən dəyərli hesab olunan "Demidov" mükafatına layiq görülmüşdür. İran şahı Mirzə Kazım bəyi ordenlərlə təltif etmiş, İngiltərə kraliçası isə onu medalla dəyərləndirmişdir.

Azərbaycan xalqının bütün dünyada məşhur olan dahi şəxsiyyətləri olmuşdur. Bu sözlər həm də elm xadimlərimizə aiddir. Biz həmin dahi şəxsiyyətlərimizlə, alimlərimizlə fəxr edirik. Böyük hörmətə malik alimlərdən biri də Mirzə Kazımbəydir. M.Kazımbəy 1802-ci ildə Rəşt şəhərində anadan olmuş, 8 yaşından etibarən isə Dərbənddə yaşamağa başlamışdır. Bir çox mənbələr onun azərbaycanlı olduğunu bildirsə də, alimlər onun tatar mənşəli olduğunu bildirmişdir. İlk təhsilini Dərbənd mollaxanasında alan Mirzə Kazım Bəy sonrakı təhsilini görkəmli ruhanilərin yanında almışdır. Mirzə Kazımbəy artıq 12 yaşına çatanda ana dilimiz ilə yanaşı ərəb-fars dillərinə də yiyələnmişdir. 1819-cu ildə Mirzə Kazım Bəy "Ərəb dili qrammatikası təcrübəsi" adlı ilk elmi işini yazmış, 1820-ci ildə isə ərəb və fars dillərində lüğət tərtib etmişdir. Bu görkəmli şəxsiyyət az bir müddətdə elmi ictimaiyyət tərəfindən tanınmışdır. Mirzə Kazım bəyin görkəmli rus alimi, Kazan Universitetinin

rektoru L.İ.Lobaçevski ilə dostluğu ona universitetin elmi və ictimai həyatında yaxından iştirak etmək imkanı yaratmışdır. L.İ.Lobaçevskinin elmi fəaliyyətində Şərqin riyaziyyat alimlərinin əsərləri mühüm rol oynamışdı. Rus alimi bu əsərlərlə Mirzə Kazım Bəyin Şərq dillərindən etdiyi tərcümələr vasitəsilə tanış olurdu. Mirzə Kazım Bəy böyük Azərbaycan alimi Nəsirəddin Tusinin riyaziyyata dair əsərlərini Lobaçevskinin istifadəsi üçün tərcümə etmişdi. Mirzə Kazım bəy Şərq mədəniyyətini dərindən bilməklə yanaşı həm də, onun ən böyük təbliğatçılarından idi. O, Azərbaycandan uzaqda yaşasa da, vətəni ilə əlaqəsini heç vaxt kəsməmişdir. Azərbaycan dilinin tədqiqində, öyrənilməsində, elmi qrammatikasının yaradılmasında Kazım Bəyin əvəzsiz xidmətləri olmuşdu. Onun yazmış olduğu "Azərbaycan dilinin qrammatikası" əsəri 1839-1840-cı illərdə iki dəfə nəşr edilmiş, Azərbaycan dilini öyrənənlərə, təbliğ edənlərə böyük hədiyyə olmuşdu. Böyük alimin Azərbaycan dilinin ilk elmi qrammatikasını tərtib və nəşr etdirməsi, xarici dillərə tərcümə etməsi və daim onu təbliğ etməsi onun Vətən qarşısında göstərdiyi böyük xidmətlərdən idi. 1845-ci ildən sonra o, öz ömrünü Peterberq Universiteti ilə bağlamış, məhz burada dünya şöhrəti qazanmış, rus şərqşünaslıq elminin əsasını qoymuşdur. Akademik V.V. Bartold göstərirdi ki, Mirzə Kazım bəy və O.İ.Senkovski öz mühazirələri ilə rus şərqşünaslığını yaratmışlar. O dövrün görkəmli rus mütəfək- kirləri ilə tanışlığı, onlarla ünsiyyətdə olması, Mirzə Kazım bəyin

yaradıcılığına təsir etdiyi kimi, Mirzə Kazım bəyin də onların həyatında, xüsusilə, Şərq ədəbiyyatı ilə tanışlığında, Şərq dillərinin öyrənilməsində böyük köməyi olmuşdu. Onun L.N.Tolstoya və N.Q.Çernişevskiyə Şərq dillərini öyrətməsi dediklərimizi bir daha təsdiq edir. Böyük iftixar hissi ilə deyə bilərik ki, Mirzə Kazım Bəyin Şərqin böyük dahilərinin, Şərq ədəbiyyatının və tarixinin Rusiyada öyrənilməsi, yayılması və təbliğində çox böyük xidmətləri olmuşdur. Mirzə Kazım Bəy Azərbaycan dilinin ilk elmi qrammatikasının yaradıcısı, Sədinin "Gülüstan" əsərinin rus dilinə ilk tərcüməçisidir. O, Azərbaycan tarixinin öyrənilməsində də mühüm işlər görmüşdü. "Dərbəndnamə"ni ingilis dilinə tərcümə və şərhlə nəşr etdirmişdi. Həmçinin özünün yazdığı "Azərbaycan dilinin qrammatikası" əsərini alman dilinə tərcümə etmişdir. Mirzə Kazım Bəyin yazmış olduğu elmi əsərlərinin əksəriyyəti müxtəlif dünya dillərinə tərcümə edilmişdir. Ümumən doğma torpağının şərəfini yüksəklərə qaldıran Mirzə Kazım Bəy hələ sağlığında dünya şöhrəti qazanan, əsərləri müxtəlif dillərdə, müxtəlif xalqlar tərəfindən maraqla oxunan və yüksək qiymətləndirilən alimlərdən biri idi. Rus şərqşünaslıq elmini zənginləşdirən əsərlərinə görə O, üç dəfə yüksək "Demidov" mükafatına layiq görülmüşdür. Mirzə Kazım Bəy 1870-ci ildə Peterburqda vəfat etmişdir. M.Kazım bəy Azərbaycanın orta əsrlər tarixinə aid mühüm mənbə olan "Dərbəndnamə" əsərinə xüsusi diqqət yetirmiş və bu sahədə uzun müddət araşdırmalar aparmışdır. "Dərbəndnamə"

əsərinin kim tərəfindən qələmə alınması, kimə həsr olunması, hansı dildə yazılması və yazılma tarixi elm aləmi üçün qaranlıq qalan məsələlərdən biri olmuşdur. Bu sahədə on iki il gərgin və məhsuldar elmi araşdırma aparan Mirzə Kazımbəy mənbələri ətraflı tədqiq edərək əsərin müəllifini müəyyən etməyə çalışmışdır. O, müxtəlif tarixçilərin Dərbəndlə bağlı tədqiqat və araşdırmalarını tənqid edərək Azərbaycan tarixinə qiymətli xəzinə bəxş etmişdir. Alimin bu əsəri araşdırmasının əsas səbəbi o idi ki, M.Kazımbəyin uşaqlıq və gənclik illərinin yarısı Dərbənddə keçmişdir və o buranı çox sevirdi. Məhz Dərbənd mühitində fəlsəfə, məntiq, incəsənət, şərq dili və ədəbiyyatını öyrənmişdir. Ömrünün sonrakı illərini vətəndən kənarda keçirsə də, o, daim vətən həsrətilə yaşamış və həyatının məhsuldar dövrünü doğma torpağının tarixini araşdırmağa həsr etmişdir. Mirzə Kazımbəy Dərbəndin tarixini çox gözəl bilirdi və atasının Dərbənd tarixi haqqında söhbətləri onun beyninə ömürlük həkk olunmuşdu. Dərbənd haqqında söhbətlər əsnasında onda belə bir təsəvvür yaranmışdı ki, sanki onun yaşadığı, boya-başa çatdığı Dərbənd kimi ikinci bir qədim tarixə malik şəhər olmamışdır. Roma, Bizans, Sasani və başqa xalqların onun vətəninə qarşı apardığı müharibələrdən yana-yana danışır və bütün varlığı ilə öz möhtəşəm şəhərinə daha da çox bağlanırdı. Dünyanın ən məşhur alimləri, şairləri Dərbəndi vəsf etmişlər. Antik yunan Roma müəllifləri, orta əsr ərəb, fars, türk müəllifləri də öz əsərlərində Dərbənddən bəhs etmişlər. Mirzə Kazımbəy bu

əsər üzərində 1839-cu ildən işləmişdir, lakin 1842-ci ildə Kazanda baş vermiş yanğın nəticəsində əsərin birinci hissəsi məhv olmuşdur. 1843-cü ildə müəllif bu hissəni bərpa etmişdir. Bu əsər üzərində apardığı tədqiqat işinin ümumi planını akademik Frenə göndərmiş, 1851-ci ildə əsər Peterburqda nəşr olunmuşdur. Əsər dəyərinə görə Peterburq Elmlər Akademiyasının "Demidov" mükafatına layiq görülmüş, müəllifin əldə etdiyi mənbələr əsasındakı araşdırmaları əsərə dünya şöhrəti gətirmişdir. O, "Dərbəndnamə" əsərinin meydana gəlməsi ilə bağlı yazırdı: "... "Dərbəndnamə" mənim öz vətənimə olan münasibətimin nəticəsi və hisslərimin təcəssümüdür... Mən qış gecələrində Dərbəndin qədim tarixinə dair əlyazmaları oxuyan gənclərini çox yaxşı xatırlayıram. Həmin gənclər bir neçə gün vətənimin qədim tarixinə dair yazıları oxudular. Əldən-ələ keçərək oxunan bu əlyazmanın şöhrəti tez bir zamanda yayılmağa başlasa da, onun ilk mənbəyini heç kəs müəyyən edə bilmədi. Bu əlyazma çoxlarının diqqətini yalnız kitab rəflərini zənginləşdirmək baxımından cəlb etmişdi. Əlyazma haqqında belə bir məlumat var ki, bu Dərbəndin üç nəfər savadsız tacirinə məxsus idi və Dərbənddə qoyulan xüsusi adətə görə, onun üzünün köçürülməsi və oxumaq üçün başqalarına verilməsi qadağan idi. Bu qadağaya baxmayaraq, əsər bir nəfər tərəfindən ələ keçirilərək arzusunda olanlara oxumaq üçün verilmiş, lakin əlyazma tez bir zamanda yoxa çıxmışdır". Dərbəndnamə sözünün unudulduğu bir zamanda yenidən bu əlyazma yada düşür. Bu

haqda Mirzə Kazımbəy yazırdı: “O vaxt ki, mən elmin dəyərini bildim, onda mənim həyatımda çox dərin dəyişikliklər oldu və mütəmadi olaraq “Dərbəndnamə” haqqında çoxlu material topladım. Əsər Avropanın elm aləminə yol açdı. Dərbəndi tərk edərkən bu əlyazmanı almadığım üçün mən indiyə qədər özümü bağışlaya bilmirəm”.

Azərbaycan dili şivələri haqqında ilk məlumata M.Kazımbəyin “Türk-tatar dilinin qrammatikası” kitabında təsadüf edilir. M.Kazımbəy Azərbaycan dili feillərindən danışarkən Dərbənd şivəsində işlənən indiki zaman formasına aid nümunələr vermişdir: sevedem, sevesen, sevedi, sevedik, sevesiz, sevedilər.

Mirzə Kazımbəy əsərdə Azərbaycanın şimal və cənub hissələri arasındakı fərqi görmək üçün feilin sadə və mürəkkəb formalarını; feil zamanlarının düzəldilməsi qaydalarını, vacib şəklinin düzəlməsi yollarını müqayisə etmişdir. Göstərmişdir ki, Cənubi Azərbaycanda – Təbriz dialektində II şəxsin təkində feillər “gəlirsə” və ya “geliren” şəklində və III şəxsdə isə “gelir” və ya “geliri” formasında işlənə bilir.

Böyük dilçinin Azərbaycan dialektləri, şivələri haqda fikirlərinə mühazirə mətnlərində, yeri gəldikcə, istinad edilmişdir.

NİKOLAY İVANOVİÇ AŞMARİN



(1870-1933 Kazan)

A.N. Aşmarin Çuvaş türkoloqu, folklorşünas və dilçi olmuşdur. 1929-cu ildə sovet postməkanında Elmlər Akademiyasının üzvü olmuşdur. 1919-31-ci illərdə ali məktəblərin, o cümlədən indiki Bakı Dövlət Universitetinin professoru olmuşdur. Çuvaş dilinə, folkloruna dair əsərləri olmuşdur. 1928-1958-ci illərdə "Çuvaş dilinin lüğəti" adlı məşhur əsərini yazmışdır. Bakıda çağırılmış Birinci Türkoloji Qurultayda dünya şöhrətli türkoloqlardan a kademik Vasili Vladimiroviç Bartold, akademik Aqafangel YefimovKrımski, akademik Sergey Fyodoroviç Oldenburq, professorlardan Aleksandr Samoyloviç, ***Nikolay Aşmarin***, S

ergey Malov, İlya Borozdin, Aleksandr Miller, Lev Jirkov, eləcə də keçmiş SSRİ-nin türkdilli xalqlar yaşayan bütün respublikaları, vilayətləri, bölgələri ilə yanaşı, Qərbi Çinin Uyğur vilayətindən, İran Azərbaycanından, Alm aniyadan, Avstriyadan, Macarıstandan və Türkiyədən tanınmış alimlər və mütəxəssislər iştirak etmişlər".

Qurultayda iştirak edərkən Aşmarin demişdir ki, türkülərin dili insanların duygu, düşüncə ve xəyallarını anladan, cəmiyyətdə iz buraxan hadisələri ifadə edən; adət-ənənələrini, inam və inanclarını ehtiva edən önəmli xalq ədəbiyyatı növüdür.

N.İ.Aşmarinin Çuvaşistan sərhədləri kənarında, Kazanda, Simbirskdə və Ufa ərazilərində yaşayan Çuvaşlardan topladığı iki yüz türkü qələmə alınmışdır. Bu türkülər, Çuvaş xalqının duygu və düşüncələrini, baş verən ictimai-siyasi şəraitdə duruş gətirmələrini, fərqli xalqların inkişafını, adət-ənənələrini, ictimai-siyasi görüşlərini, mədəniyyətlərini əks etdirir. Çuvaşlara məxsus olan türkülər Çuvaşıstandan kənarda yaşayan xalqların dil xüsusiyyətlərini öyrənmək baxımından dəyərli mənbələrdir (http://katalog.marmara.edu.tr/veriler/yordambt/ cokluortam/5BB44954-B9F1-EA4B-A888-D6364EF50510/D0BBCD5F-DCA7-CC48-9F8C-14E4DD47B037.pdf http://hdl.handle.net/11424/35833).

Aşmarin uşaqlığını çuvaş türkləri arasında keçirmişdir. Mənsub olduğu xalqın dilinə folkloruna dərin maraq göstərmiş, sonra Moskvada təhsil alarkən Şərq dillərini öyrənmişdir. Türk dilləri üzrə dissertasiya müdafiəsi

etmiş, Kazan Universitetində fəaliyyət göstərmişdir. Bir neçə dəyərli əsərin müəllifidir:

1) Çuvaş dilinin tədqiqi üçün materiallar, 1898

2) Müasir Kazan-tatar ədəbiyyatı haqqında bir neçə söz, 1905

3) Azərbaycan dilinin Nuxa şivəsi, 1926

4) Çuvaş dili sözlüyü. Rusca-Çuvaşca, çuvaşca-rusca. Lüğət, 12 cild, 1941.

ALEKSANDR MİXAYLOVİÇ ŞERBAK



(1926-2008)

Azərbaycan dilinin dialekt və şivələrinin tədqiqi sahəsində A.M.Şerbakın da xidmətləri olmuşdur. 1983-cü ildə A.M.Şerbakın redaktəsi ilə rus dilində nəşr edilmiş "Azərbaycan dilinin dialekt və şivələri" əsərində şivələrin şərq qrupu xüsusiyyətlərindən saitlərin qapalılaşmasına (o→u, ö→ü), saitlər ahənginin pozulmasına, şəkilçilərin dodaq variantlarının işlənməsinə, qeyri-qəti gələcəyin inkarında I şəxsdə -man, -mən, II şəxsdə isə -mar, -mər şəkilçilərinin işlənməsinə, -uban, -übən feili bağlama şəkilçisinə aid olan xüsusiyyətləri (5 əlamət), şivələrin qərb

qrupu xüsusiyyətlərindən ə→a, v→y səs dəyişmələrinə, II şəxs tək mənsubiyyət şəkilçili isimlərin yiyəlik halda -yın//-yin//, -yun//-yün şəkilçisini qəbul etməsinə, sifətin müqayisə dərəcəsində -rax, -rəx' şəkilçisinə, feilin bacarıq şəklinin inkarında –amma//-əmmə şəkilçisinə, sual cümlələrinin sual ədatı ilə ifadəsinə aid olan xüsusiyyətləri, şivələrin şimal qrupu xüsusiyyətlərindən ə→e səs dəyişməsinə, təyini söz birləşmələrinin ikinci tərəfinin mənsubiyyət şəkilçisiz işlənməsinə aid olan xüsusiyyətləri (2 əlamət), şivələrin cənub qrupu xüsusiyyətlərindən ə səsinin daha açıq tələffüzünə, a→ə, i→ü, o→a, ö→ə, k→g səs dəyişmələrinə, qəti gələcək zamanın II şəxsində -as, -əs şəkilçisinə aid olan xüsusiyyətləri (7 əlamət) dialekt qruplarını səciyyələndirən əlamətlər sırasından çıxarılmışdır (Müqayisə et: 152, s.16-21; 410, s.6-9).

CEYHUN HACIBƏYLİ



(1891 Şuşa-1962 Paris)

Ədəbiyyatımızın, tariximizin, publisistikamızın inkişafında və təbliğində müstəsna xidmətləri olan C.Hacıbəyli 1891-ci il fevralın 3-də Şuşa şəhərində anadan olmuşdur. Ceyhun bəy ilk təhsilini əvvəl Şuşada almış, sonra Bakıda rus-tatar məktəbində davam etdirmişdir. C.Hacıbəyli "Leyli və Məcnun" əsərini yazarkən Ü.Hacıbəyova yaxından kömək etmiş, hətta İbn Səlam və Nofəl rollarında çıxış etmişdir. Bu haqda C.Hacıbəyli "İlk Azərbaycan operası necə yaranmışdır?" məqaləsində bəhs etmişdir. 1962-ci ildə Ceyhun bəy musiqi ilə maraqlanmış, Parisdə musiqi təhsili almağa çalışmışdır. Lakin maddi sıxıntılar üzündən təhsili yarımçıq qalmışdır.

Ceyhun bəy bədii yaradıcılıqla məşğul olmağa da üstünlük vermişdir. Turgenevin "Pulsuzluq" komediyasını 1909-cu ildə Azərbaycan dilinə tərcümə etmişdir.

Ceyhun bəyin istedadını görən məşhur milyonçu Murtuza Muxtarov öz vəsaiti hesabına onu Peterburq Universitetinə oxumağa göndərir. Ceyhun bəy qəbul imtahanlarını müvəffəqiyyətlə verib universitetin hüquq fakültəsinə daxil olur. Bir il oxuduqdan sonra Fransaya gedir və Parisin məşhur Sarbonna Universitetində təhsilini davam etdirir. Ceyhun bəy burada jurnalistlik fəaliyyəti ilə də məşğul olur. Onun Parisdən göndərdiyi məqalələr "Baku", "Kaspi" qəzetlərində dərc edilir.

Təhsilini başa vurub Bakıya qayıdan C.Hacıbəyli mühərrirliklə məşğul olmuşdur. 1918-ci ildə Gəncədə Azərbaycan Xalq Cümhuriyyəti qurulduğu elan edilməsinə baxmayaraq, Bakı düşmənlərdən hələ də tam təmizlən-məmişdi. 1918-ci sentyabrın 15-də Qafqaz İslam Ordusunun şücaəti sayəsində erməni daşnaklarının vəhşiliyinə son qoyulandan, ingilis əsgərləri ölkədən getmiş, Cümhuriyyət hökuməti Bakıya köçmüşdür.

Yeni qurulan Azərbaycan hökumətinin 3 sentyabr 1918-ci il tarixli qərarına əsasən, bir çox çətinliklərlə dörd nömrəsi Gəncə şəhərində çıxan "Azərbaycan" qəzeti oktyabr ayının 3-dən fəaliyyətini Bakıda davam etdirir. Qəzet oktyabr ayının 8-nə kimi redaksiya heyəti adından, sonra isə 1919-cu ilin yanvar ayının 16-na kimi Ceyhun bəyin

müdirliyi ilə çap edilmiş, yəni Ceyhun bəy Hacıbəyli "Azərbaycan" qəzetinin ilk redaktoru olur.

O, Avropa dillərini sərbəst bildiyi üçün 1919-cu ilin yanvar ayının 6-da Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Parisdə keçiriləcək Versal Sülh Konfransı üzrə "müşavir" təyin olunur. Həmin gün Ceyhun bəyə Sülh konfransında iştirak etmək üçün şəhadətnamə də verilir. Versal Sülh Konfransı respublikamız üçün ciddi əhəmiyyət daşıdığından 1919-cu ilin yanvar ayının 7-də orada iştirak edən Ceyhun bəylə birgə bütün heyətə Nazirlər Şurasının sədri Fətəli xan Xoyski və Adil xan Ziyadxanovun imzası ilə "General" mandatı təqdim olunur.

Ceyhun bəy yeni qurulmuş Azərbaycan hökumətinin tapşırığı ilə 1919-cu ilin yanvar ayında Əlimərdan bəy Topçubaşovun başçılığı ilə Məmmədhəsən Hacınski, Əkbər ağa Şeyxülislamov, müşavirlər Məhəmməd Məhərrəmov və Mir Yaqub Mir Mehdiyevdən ibarət heyətlə Parisdə-Versal Sülh Konfransında iştirak etmişdir. Səfərdə əsas məqsəd Azərbaycan Xalq Cümhuriyyətini beynəlxalq aləmdə tanıtdırmaq olmuşdur. Həmin konfransda (1919) Antanta Azərbaycan Respublikasının istiqlaliyyətini tanıdı. Lakin elə məhz bu məsələ sovet Rusiyasının qəzəbinə səbəb oldu. Bu səbəbdən də Ceyhun bəy ailəsini Parisə, öz yanına çağırır.

Lakin qürbətdə mühacir həyatı yaşamaq asan deyildi. İşsizlik Ceyhun bəyi ağır vəziyyətə salmışdı. Üzeyir Hacıbəyov ona müəyyən qədər pul göndərsə də, ehtiyaclarını ödəmirdi. Təhsil haqqını ödəyə bilmədiyi üçün

oğlunu liseydən kənarlaşdırırlar. Üzeyir bəy onun Bakıya qayıtması üçün çalışsa da, buna nail ola bilməmişdi. İkinci Dünya müharibəsinin ağrıları Ceyhun bəyin ailəsindən də yan keçməmişdir. Ceyhun bəyin oğlu 1937-ci ildə Paris Hərbi Akademiyasını müvəffəqiyyətlə bitirəndən sonra alman faşizminə qarşı vuruşmaq üçün cəbhəyə getmiş, qeyri-bərabər səma döyüşündə (təyyarəçi olmuşdur) qəhrəmanlıqla həlak olmuşdur.

C.Hacıbəyli hələ gənclik illərindən Azərbaycan ədiblərinin əsərlərini fransız, ingilis dillərinə çevirmiş, Üzeyir bəyin məşhur "Arşın mal alan" komediyası məhz Ceyhun bəyin tərcüməsində ilk dəfə 1925-ci ildə Parisin "Femino" teatrında tamaşaya qoyulmuşdur.

1933-cü ilin yanvar-mart aylarında Parisdə nəşr olunmuş "Asiya" jurnalının əlavə xüsusi buraxılışında C.Hacıbəylinin 144 səhifədən ibarət olan "Qarabağ dialekti və folkloru" əsəri dərc edilmişdir.

C.Hacıbəyli 1940-cı ildə fars şairi Ə.Firdovsinin həyat və yaradıcılığı haqqında da məqalə yazmışdır. Onun Azərbaycan muğamları və musiqi klassikləri haqqında yazıları da maraqlıdır.

C.Hacıbəylinin maraqlı yazılarından biri də "Azərbaycan şairələri" adlı məqaləsidir. Bu yazı təxminən 1950-ci illərdə qələmə alınmışdır. Burada Ceyhun bəy Aşıq Pəri, İbrahim xanın nəvəsi, Mehdiqulu xanın qızı Xurşud Banu Natəvan, İbrahim xanın qızları "Ağabacı" təxəllüsü ilə

yazan Ağabəyim ağa və Gövhər ağanın həyat və yaradıcılığı haqqında fransız oxucularını tanış edir.

Azərbaycan ədəbiyyatını, incəsənətini, tarixini yetərincə təbliğ edən Ceyhun bəy Hacıbəyli 1962-ci ildə Fransada vətən həsrəti ilə gözlərini əbədi yumub Parisin Sen-Kulu qəbiristanlığında torpağa tapşırılıb.

Qarabağ dialekti həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Dialektoloji monoqrafiyalarda, dissertasiyalarda qarabağlıların nitqindən müqayisə məqsədi ilə istifadə edilmişdir. Həmin dialektə daxil olan şivələr fərdi və monoqrafik yolla tədqiq olunmuşdur. Bu baxımdan C.Hacıbəylinin görkəmli türkoloq A.N.Samoyloviçin məsləhəti və köməyi ilə yazdığı və1933-cü ildə "Aziatik" jurnalında çap edilən "Qarabağ dialekti və folkloru" ("La Dialecte et la folk-lore du Karabagh") adlı dərin məzmunlu məqaləsi böyük tarixi əhəmiyyət kəsb edir.

Əsər, əsasən, Qarabağ ərazisindən toplanmış folklor nümunələrindən ibarət olsa da, "Giriş"də dialektin fonetik xüsusiyyətləri barədə qısa məlumat verilmişdir. Yerli əhalinin tələffüzünə yaxından bələd olan müəllif Qarabağ dialektini Fransanın cənub dialekti ilə müqayisə etmişdir. Məsələn, C.Hacıbəyli Qarabağ dialektinin Azərbaycan ədəbi dilindən və başqa dialekt və şivələrindən fərqini göstərmək üçün "gəlibdir" feilinin ədəbi dildə "gəlibdir", Qarabağda "gəlifdi", Bakıda və Şamaxıda "gəlibdü", Şəkidə "gəlitdi", Quba və Dərbənddə "gələtdi" şəklində işləndiyini, "gedibdir" feilinin də həmin qaydada tələffüz olunduğunu

qeyd etmişdir. Qarabağ dialektinin səciyyəvi xüsusiyyətlərindən bəhs edərkən C.Hacıbəyli bir neçə cəhəti diqqətə çatdırmışdır:

1) Bəzi hərflərdə vurğunun yerini dəyişdirməklə "b" "f" kimi, işlənir. Məsələn, gəlib – [gəlif] və s.

2) Ayrı-ayrı hərfləri nəzərə çatdırmaqla edilən dəyişikliklərdir. Məsələn, Qarabağda "mana", "sana" sözləri başqa regionlarda "mənə, sənə" kimi tələffüz edilir.

3) Son hərf əvvəlinci hərf ilə birləşdirilir. Məsələn, ora gedib→ora gedif→ ora eydif şəklində işlədilir[1].

C.Hacıbəylinin araşdırmasından belə bir nəticə çıxır ki, üçüncü cəhət yalnız kəndlərdə yaşayan əhalinin dilində işlədilir və müəllif bəzi adamların dilində sözlərin tələffüzü zamanı ədəbi dil qaydalarına əməl edildiyini də vurğulamışdır.

Ön sözdə müəllif yazmışdır ki, Qarabağda keçirdiyi günlər zamanı öz tədqiqatlarını tamamlayırmış. Lakin müharibənin və sonradan inqilabın nəticələri ona öz tədqiqatını sistemləşdirməyə və bitirməyə mane oldu və şərqşünaslıqdan uzaqlaşdırdı.[2]

Əsərdə Qarabağ dialektinə dair bəzi məsələlərə də toxunan C.Hacıbəyli yazırdı: Qarabağ dialekti səslənməsinə görə çox zəngin , formasına görə çox cazibədardır. Fransanın

[1] https://anl.az/el/q/qarabag_2/q-34.htm
[2] Yenə orada

cənub dialekti Fransa üçün necədirsə, Qarabağ dialekti də Azərbaycan üçün elədir".[1]

Qarabağ dialekti zəngin lüğət tərkibinə malikdir. Burada xalqımızın qədim adət-ənənələri, keçmiş ictimai quruluş, həyat, məişət, ailə və təsərrüfatla bağlı saysız-hesabsız sözlər işlənir. C. Hacıbəyli dialektin leksikasına aid topladığı sözləri aşağıdakı kimi qruplaşdırmışdır: Ambır, Sambır, Qaflan və s.[2]

C.Hacıbəylinin fransız dilində çap olunmuş "Qarabağ dialekti və folkloru" kitabı filologiya elmləri namizədi B.Ağayevin tərcüməsində Bakıda nəşr olunmuşdur.

Belə əsərlərdən biri də "Qarabağ: folklor da bir tarixdir" (Bakı.2013) kitabıdır. "Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması" adlı layihə əsasında çap olunan kitabın V və VI cildləri sırf Qarabağın ağız ədəbiyyatına, folklor nümunələrinə həsr edilmiş və çox böyük zəhmətin nəticəsidir. Kitabın V cildində Qarabağın Bərdə. Füzuli, Şuşa, Ağdam, Zəngilan rayonlarından toplanmış mifoloji mətnlər, rəvayət lər, bu ərazilərdə yerləşən pirlər, türbələr, tayfa və nəsillər, tarixi şəxsiyyətlər, etnoqrafik mətnlər, hətta nağıllar belə öz ifadəsini tapmışdır. VI cilddə isə Cəbrayıl, Kəlbəcər və Tərtər rayonlarından toplanmış materiallar öz ifadəsini tapmışdır.

Məlumdur ki, tarixi inkişaf boyunca dilin ən çox dəyişikliyə uğrayan hissəsi dilin leksik sistemidir. Dialekt və

[1] https://anl.az/el/q/qarabag_2/q-34.htm
[2] Yenə orada.

şivəlrin leksik sistemində baş verən dəyişiliklər, milli və alınma dil vahidləri, arxaizmlər, omonim, sinonim, antonim və digər sözlər-leksik-semantik qruplar sistemli şəkildə tədqiq edilərsə, dilin ümumi mənzərəsi aydın şəkildə meydana çıxar. Qarabağ dialekt və şivələrində bir çox leksik-semantik, leksik-tematik qruplar var ki, biz onların areallığı ilə qarşılaşırıq. Onlar bəzən cüzi məna dəyişikliyi ilə, cüzi fonetik dəyişmələrlə, bəzən də heç bir dəyişiklik olmadan digər dialekt və şivələrdə də işlənməkdədir.

ƏLƏKBƏR BABAZADƏ



(1893-1943)

Əliəkbər Abbas oğlu Babazadə Azərbaycan sovet dilçiliyinin banilərindən biridir. Təəssüf ki, cəmi 50 il yaşamış, 2023-ci ildə doğumunun 130 illiyini qeyd edəcəyimiz bu görkəmli dilçimiz haqqında çox az şey bilirik. Şəxsiyyətə pərəstiş dövrünün yaratdığı sərt iqlimin qurbanı olan Ə.Babazadə haqqında ilk yazıları qələmə almaq şərəfi bizə nəsib olub.

Gəncə dövlətlilərindən Hacı Əli Hüseynovun açdığı və müdirlik etdiyi "Tovfiq" məktəbində 1912-ci ildə müəllimliyə başlayan Əliəkbər bir il sonra bu məktəb

bağlandıqda imtahan verərək müəllimlik rütbəsinə yiyələnib. O, 17 saylı prixod məktəbinə keçib və 1918-ci ilədək orada dərs verib, elə işləyə-işləyə də 3 aylıq müəllimlik kurslarını bitirib.

1918-ci ilin oktyabrında Gəncə ali ibtidai məktəbinə müəllim göndərilən Ə.Babazadə burada vur-tut 28 gün işləyəndən sonra Azərbaycan Cümhuriyyəti maarif nazirinin əmri ilə Gəncə kişi gimnaziyasına türk dili müəllimi təyin edilib və 1920-ci ilədək burada çalışıb. Sovet hakimiyyətinin ilk ilində gimnaziya 3 sovet əmək məktəbinə bölünüb. 28 saylı məktəbdə qalan Ə.Babazadə burada müəllim, eləcə də Gəncə Qəza İcraiyyə Komitəsi şöbələrində kargüzar işləyib.

1924-cü ilin başlanğıcında Bakıya gələn Əliəkbər Babazadə Azərbaycan Mərkəzi Yeni Türk Əlifba Komitəsində, Azərnəşrdə müxtəlif vəzifələrdə çalışıb. Nəşriyyatdakı işi onda elmə dərin maraq oyadıb. 1926-cı ildə Nuxa (Şəki) dialektinə aid dəyərli əsərini nəşr etdirən görkəmli çuvaş alimi N.İ.Aşmarinlə tanış olub və onun məsləhəti ilə *“Azərbaycan türk xalq şivələri lüğəti”* üçün material toplamağa başlayıb, Gəncə şivəsinə aid zəngin dil faktları yığıb (*prof. dr., Bakı Avrasiya Universiteti. Ədalət Tahirzadə.* “Mərmərdə ot bitməz”//“Elm”qəzeti, 03.09.1988, №35, s.4; *yenə onun:* Yaşanılmamış ən xoşbəxt gün.// “Azərbaycan” jurnalı, 1990, №7, s.148-152; (PROF. DR. MEHMAN MUSAOĞLU ARMAĞANI)

1927-ci il onun həyatında dönüş yaradıb: Birinci fəhlə fakültəsini bitirərək tam orta təhsil alıb və “Niyə

Azərbaycan yeni əlifbaya keçdi" adlı məqaləsini yazıb. Bəkir Çobanzadə ilə yazdığı ikinci məqalə isə belə adlanırdı: *"Dövlət Elmi Şurası və Maarif Komissarlığı Kollegiyası tərəfindən bəzi kiçik tədillər ilə təsdiq olunmuş Birinci imla konfransı qərarları"*. Bu uğurlar onu qanadlandırıb.

Təhsilini artırmaq istəyərək Azərbaycan Dövlət Pedaqoji İnstitutuna girib, ancaq xəstəliyi üzündən 2-ci kursdan çıxmalı olub (1930). Elmi işdə çalışmaq arzusu onu 1930-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna (AzDETİ) aparıb. Burada elmi işçi – I dərəcəli redaktor, nəzarətçi redaktor işlədiyi vaxt *"Azərbaycan türk xalq şivələri lüğəti"*nin "A", "B, "C", "Ç", "D" hərfləri üzrə cildlərini redaktə edib (onlardan yalnız ilk ikisi nəşr edilib), "B" hərfindən ibarət buraxılışının isə tərtibçilərindən olrub.

Təxminən eyni vaxtda AHİŞ-in həmkarlar ittifaqı məktəbində (1931-1933), Dəmiryolu Texnikumunda (1934-1935) dərs deyən Ə.Babazadə AzDETİ aspiranturasının hazırlıq şöbəsini də bitirib (1931-1932). AzDETİ Marksizm-Leninizm İnstitutu ilə qovuşduqdan sonra (01.09.1932) Xalq Maarif Komissarlığı yanında yaradılmış Azərbaycan Dil-Ədəbiyyat və Sənət Elmi-Tədqiqat İnstitutuna (AzDƏSİ) keçirilən Ə.Babazadə həmin İnstitutun ləğvindən (01.01.1933) sonra isə yeni yaradılmış SSRİ EA Zaqafqaziya Filialı Azərbaycan Bölməsi (EAZFAB) Dil və Maddi-Mədəniyyət Bölümünə elmi işçi götürülüb. (AzDETİ də, AzDƏSİ də, EAZFAB da "İsmailiyyə" binasında

yerləşirdi). Sonunda "20/XI-1933" tarixi qoyulmuş *"Sağır nun haqqında"* məqaləsi onun elmi işçi kimi tam yetişdiyini göstərdi. Ə.Babazadə 1935-ci ilin oktyabrında EAZFAB-nin aspiranturasına girib.

Doğrudur, ali təhsil diplomu yox idi, ancaq ana dilində və ruscadan savayı alman, ərəb, fars, özbək, tatar dillərini müəkəmməl bilən dilçi bu vaxtadək diplomdan da kəsərli olan *"Türk dili. (Qramer və yazı qaydaları)"* (iki hissədə; 1-ci hissə: 2-ci tədris ili, 2-ci hissə: 3-cü təd ris ili) (Bakı, Azərnəşr, 1933, 1934, 1935) kitabının, dostu İdris Həsənovla yazdığı eyni adlı ikinci əsərin (4-cü tədris ili. Bakı, Azərnəşr, 1933, 1934), Abdulla Şərifzadə (A.Şərif) və İdris Həsənovla birlikdə hazırladığı *"Qramerdən iş kitabı"* (üç hissədə; Bakı, Azərnəşr, 1932, 1933), şərikli yazdığı *"Qramer"* (VI sinif üçün, 1933) dərsliklərinin (Azərbaycan ibtidai və orta məktəb üçün ilk dərsliklərin) müəllifi, *"Azərbaycan türk xaq şivələri lüğəti"*nin (1931-1932) redactor və tərtibçilərindən biri, *"İzahlı türk dili sözlüyü"*nün "İ", "I" və "Y" hissələrinin tərtibçisi, AzDETİ və AzDƏSİ-də çıxan (1930-33) 15-dən artıq terminoloji lüğətin redaktoru və nəzarətçisi, iki ən yaxın dostu olan İdris Həsənov və Abdulla Tağızadə ilə üçlükdə gördükləri yeganə işin *"Azərbaycan türk dilinin imlası"* layihəsinin (əlyazması hüququnda, Bakı, 1934) yaradıcılarından biri kimi tanınmışdı (M. Fatih Kirişçioğlu – Cemile Kınacı Baran – Orhan Baldane 91).

1936-cı ildə Ə.Babazadənin *“Türk dili. Qrammatika və yazı qaydaları”* dərsliyi çapdan çıxıb. Bu, türk dili ilə son “görüş” oldu aradan bir il keçəndən sonra kitab yeni adla (*“Azərbaycan dili”*) və 107 səhifədən 60 səhifəyə düşərək xeyli “incəlmiş” halda nəşr edilib. Son nəşr məzmunca şəxsiyyətə pərəstiş ruhuna uyğunlaşdırılıb.

Aspiranturada oxuduğu vaxt 1937-ci ilin sentyabrında ixtisas fənlərini keçmək üçün Leninqrada, SSRİ EA Marr adına Dil və Təfəkkür İnstitutuna göndərilib. 1938-ci ilin iyununda xalq şairi Səməd Vurğuna indi Əlyazmalar İnstitutumuzda saxlanılan bir məktub göndərərək “Vaqif” pyesinin “Kommunist” qəzetində dərc edilən hissəsinə aid 10 qeydini bildirib. Bu qeydlərin çoxunu şair sonralar nəzərə alıb.

1988-ci ildə ömür-gün yoldaşı Qumru xanım demişdir ki, Leninqradda yaşadığımız dövr Ələkbərin həyatında ən şirin xatirə kimi qaldı. (Özü də təkcə ona görə yox ki, elə Leninqradda yaşaması onu 1937-1938-ci illərin kəshakəsindən qurtardı). 1939-cu ildə Bakıya döndükdən sonra isə əzabına dözülməyəcək günlər başladı. Burada Əliəkbərin aspirantura müddətini 1938-ci ilin iyulundan 1939-cu ilin 1 martınadək uzatmışdılar. Həmin illərdə Babazadəni “aparmağa” gələnlər olmasa da (özü bunu hər gün gözləyirmiş), əslində onun qalması ilə getməsi arasında fərq çox da kəskin olmamışdır...

...Dissertasiya mövzusu kimi Ə.Babazadə Azərbaycan dilinin ayrum//ayrım şivəsini götürübmüş. Bu

məqsədlə o, 1936-cı ildə Dəstəfur (indiki Daşkəsən) və Gədəbəy rayonlarının 13 kəndinə ekspedisiyaya gedib. 1938-ci ilin 10 oktyabrından 1939-cu ilin 7 yanvarınadək çəkən 78 günlük ikinci səfərində isə Azərbaycanın Kəlbəcər, Laçın, Xanlar, Dəstəfur, Ermənistanın Kirovakan, Dilican, Krasnoselsk (Çəmbərək), Basarkeçər rayonlarının ayrumlar yaşayan 22 kəndindən zəngin dil materialı toplayıb.

Bu ekspedisiyalar onun sağlamlığına mənfi təsir göstərib. "Ədəbiyyat qəzeti"ndə çıxan (01.12.1938) *"Qondarma tərif və terminlər haqqında"* böyük rəyi isə bütün həyatında dərin iz buraxmışdır. Dil Bölümünün rəhbəri Davud Quluyevin və aparıcı alimlərdən Əbdüləzəl Dəmirçizadənin "Qrammatika" (I hissə. Morfologiya. Bakı, Azərnəşr, 1938) əsərini kəskin tənqid edən müəllif ömrünün sonunadək bunun altını çəkmişdir...

Ə.Babazadə aspiranturanı qurtararkən SSRİ EA Azərbaycan Filialının (EAAzF) Rəyasət Heyəti qərar çıxarmışdı ki, o yalnız öz dissertasiyası üzərində işləsin, başqa mövzu ilə yüklənməsin, ancaq Rəyasət Heyətinin bu qərarı gözardı edildi və onun vaxtında dissertasiya müdafiə edə bilməməsi üçün müxtəlif əngəllər törədildi. İlk bəhanə *"Orfoqrafiya lüğəti"* oldu. 1939-cu ildə o, yeni qəbul ediləcək rus əlifbası əsasındakı orfoqrafiya lüğətinin tərtibinə cəlb edildi. Bu iş gündə azı 16 saat vaxtını alır və dissertasiya (prof. dr. Mehman Musaoğlu Armağan) ilə məşğul olmağa qoymurdu. Şikayət etdi, ancaq əvəzində yeni

tapşırıq aldı – rus qrafikası əsasında yaradılacaq yeni Azərbaycan əlifbasının tərtibində iştirak etməlisən.

Doğrudur, hər iki işdə vicdanla çalışdı, çoxlu ağıllı təkliflər verdi, ancaq bunları o, könüllü deyil, məcburi yerinə yetirdiyindən, onlardan öz dissertasiyası üzərindəki iş qədər zövq almırdı. 1939-cu ilin oktyabrında elmi rəhbəri H.K.Dmitriyevdən məsləhət almaq üçün bir aylığa Moskvaya gedib, ancaq səfəri uğursuz olub. Qayıdaraq evdə işləməyə başlayıb. Alim Stalinin şəxsində kommunist irticasının yaratdığı ağır vəziyyəti görür, hər bir sahədə (elm, kadr) törənmiş və törənə biləcək faciələrin qarşısını almağa çağırırdı.

Azərbaycan dialektləri atlasını yaratmaq üçün Xalq Komissarları Şurası vasitəsi ilə Azərbaycan, Gürcüstan, Ermənistan, Dağıstan, Türkmənistan respublikaları Xalq Təsərrüfat Uçotu idarələrindən və başqa qurumlardan bu gərəkli məlumatların əldə edilməsini birinci dərəcəli vəzifələrdən sayırdı: hansı respublikada nə qədər azərbaycanlı yaşayır, azərbaycanlıların yaşadığı şəhər və kəndlərin adları, oradakı azərbaycanlıların ümumi sayı, yaş üzrə bölgüləri, yaşayış yerlərində azərbaycanlıların oxuduğu məktəblərin sayı, təmayül və dərəcələri.

Ə.Babazadə 1939-cu ildə *“Azərbaycan dilinin orfoqrafiya lüğəti”*ni hazırlamaq üçün təlimat yaradıb və lüğətin həmin təlimata uyğun tərtibində özü də gərgin işləyib. O, Kiril qrafikasındakı yeni Azərbaycan əlifbasının, *“Azərbaycan dilinin orfoqrafiya qaydaları”*nın

yaradıcılarından biri, *“Azərbaycan dilinin ayrım şivəsinin öyrənilməsi”, “Yeni Azərbaycan əlifbası haqqında”* məqalələrin müəllifi idi. Sonrakı vaxtlarda onu *“Azərbaycan dilinə daxil olmuş əcnəbi sözlər lüğəti”*ndə (K, F, H, N, Ö, T hərfləri), *“Rusca-azərbaycanca lüğət”*də (dördcildlik), *“Rusca-farsca-azərbaycanca lüğət”*də işlətdilər, redaktədə çalışdırdılar.

Dissertasiyasını 1940-cı ilin 23 dekabrında başa vurub. Ədəbiyyat və Dil İnstitutunun Elmi Şurası isə əsəri yalnız 12 yanvar 1942-ci ildə müdafiəyə buraxıb. Müdafiə yeri Azərbaycan Dövlət Universiteti təyin edilib, ancaq filologiya elmləri namizədi, dosent Əbdüləzəl Dəmirçizadə əsərə 26 maddədən ibarət tənqidi qeydlər verərək dissertasiyanın bu şəkildə müdafiəyə buraxmasını məsləhət bilməmişdir.

Ə.Babazadənin elmi rəhbəri H.K.Dmitriyev dissertasiya ilə tanışlıqdan sonra gözlərinə inanmamış, əsərə belə qiymət vermişdi: “...O, (M.Fatih Kirişçioğlu – Cemile Kınacı Baran – Orhan Baldane) elə bir mühüm material toplayıb ki, həcmcə üç namizədlik dissertasiyasına yetərdi.”

Filologiya elmləri doktoru, dosent M.Şirəliyevin rəyində isə müəllif və əsər yüksək qiymətləndirilmişdi, ancaq onun tənqidi qeydlərini düzəltmək üçün də Ə.Babazadəyə xeyli vaxt lazım idi.

Onsuz da artıq hər şeydən bezmiş alim Bakıdan qaçmaq, hətta dilçilikdən uzaqlaşmaq istəyib.

İ.İ.Meşşaninova yazıb ki, daha burada işləyə bilmirəm, yanınızda mənə yer düzəltsəniz gələrəm...

1942-ci ilin mayında S.S.Çikiyaya məktub yazaraq Tiflis Universitetində müdafiə etmək istədiyini bildirib. Çikiya da cavab göndərib ki, can-başla hazırıq, birinci opponentin də özüm olaram, ancaq sən Bakıdan ikinci opponent tap, yerdə qalan hər şeyi özümüz edərik. Doğrudur, ikinci opponent də (dostu M. Şirəliyev) tapılıb, Tiflisdə də hər cür şərait yaradılıb, ancaq indi də uzun illərin əsəb gərginliyi özünü göstərib – alim yatağa düşüb.

1942-ci ilin avqustunda o, məzuniyyətə buraxılıb. Xəstəni Gəncəyə aparıblar. Oktyabrda özünü yaxşı hiss edib, Tiflisə göndərmək üçün sənədlərini qaydaya salıb. İndiyədək təkcə ciyərləri xəstə olan Ə.Babazadəyə oktyabrda həkim komissiyası "mədə şişi" (başqa sözlə, mədə xərçəngi) diaqnozu qoyub. Birinci dərəcəli əlilliyi qeydə alınıb...

Həmin ilin noyabrında o yazırdı: "İndi mən yorğan-döşəkdə xəstə..., yiyəsiz və unudulmuş halda yatıram. Mən və 5 başlıq ailəm hədsiz ehtiyac içindəyik. Hər halda, minimum yaşayış üçün heç bir gəlirimiz yoxdur. Bu, onun öz əli ilə yazdığı son sənəd idi...

1943-cü ilin sentyabrında sağlamlığını müəəyyən qədər itirmiş Ə.Babazadəni Bakıya gətiriblər. Dekabrın 4-dən 5-nə keçən gecə bu amansız dünyaya gözlərini əbədi olaraq yumdu. Böyük intizarında olduğu, "həyatımın ən xoşbəxt günü" adlandırdığı müdafiə gününü yaşaya bilmədi...

Ədəbiyyat və Dil İnstitutundan gələn əməkdaşlar 1947-1949-cu illərdə evindən kitablarını aparıblar ki, İnstitutda həmin kitablardan ibarət guşə yaradacağıq.

1961-ci ildə isə *"Azərbaycan dilinin ayrım dialekti"* dissertasiyasının tarixi xülasə, fonetika, morfologiya, lüğət hissələrini, 60 səhifəlik *"Nida"* məqaləsini və başqa xeyli yazısını aparıblar ki, nəşr edəcəyik. İndiyədək həmin əsərlərin nə yeri bilinir, nə də "gördüm" deyən var...

Böyük alimin, Ə.Babazadənin *"Sağır nun (ŋ) haqqında"* olduqca əhəmiyətli bir məqaləsi olmuşdur. Həmin məqaləni prof. Ə.Tahirzadə tərəfindən "Prof. Dr. Mehman Musaoğlu Armağanı" adlı kitabda Ankarada 2022-ci ildə nəşr edilmişdir.

prof. Ə.Tahirzadə

İDRİS HƏSƏNOV



(1897- 1950)

Professor İdris Həsənov 2 sentyabr 1897-ci ildə Gəncədə papaqçı ailəsində doğulub. 1930-cu ildə həyata göz yummuş atası Məşədi Zaman Həsən oğlu şəhərin sayılan şəxsiyyətlərindən olmuşdur.

Balaca İdris ibtidai təhsilini başa vurandan sonra 1907-1911-ci illərdə Gəncədə altıillik şəhər məktəbində oxuyub. Buranı uğurla bitirsə də, gimnaziyaya girmək arzusu gözündə qalıb, çünki atasının onu oxutmağa gücü çatmayıb. Belə olduqda əlinə sənət almaq istəyən İdris 1912-ci ildə Tiflisdəki mühasib siniflərinə girib, oranı "əla" qiymətlərlə başa vurub. Heç olmazsa, müstəqil təhsil almağa çalışan gənc bu məqsədlə 10 may 1912-ci ildən Gəncədə

Ticarət Qarşılıqlı Borc Cəmiyyətinə girib və ayda 20 manat donluqla 1917-ci ilin 1 martınadək burada hesablayıcı işləyib. Artıq çoxdan sərbəst həyata atılmış İ.Həsənov 1917-ci ilin 5 noyabrından 1918-ci ilin 7 martınadək Gəncə Şəhər İdarəsində mühasiblik edib.

Bütün bu illərdə o, Peterburqdan kitab və jurnallar gətirdərək savadını artırıb. Sonra isə ayrıca müəllim tutaraq kamal attestatı almağa hazırlaşıb, ancaq 1918-ci ildə Gəncədə Cümhuriyyət hökumətinin yaranması bu işi yarımçıq qoyub. Orduya əsgər aparılan İdris ana dilindən başqa rus və fars dillərini də bildiyi üçün onu korpus qərargahına tərcüməçi götürüblər. 1919-cu ilin ortalarında qərargahla birgə Bakıya gəlib. Həmin ilin dekabrında burada universitet açılanda Şərq bölməsinin azad dinləyicisi olub.

Azərbaycanda sovet hakimiyyəti qurulanda İ.Həsənov Xalq Hərbi Komissarlığında kassir işləməklə yanaşı, universitetin Şərq fakültəsində də oxuyub. 1920-ci ilin mayında Gəncədə üsyan baş verərkən çıxılmaz vəziyyətə düşmüş valideynlərinə hayan olmaq istəyən İdris Gəncədə quberniya hərbi komissarlığında tərcüməçiliyə dəyişdirilib. Burada ildən artıq qalandan sonra təhsilini bitirmək üçün yenə Bakıya gəlib və 1924-cü ildə universiteti bitirib. Rektor A.Qulyayev, dekan B.Çobanzadə və fakültə katibi Ə.Haqverdiyevin imzaladıqları diplomda oxuyuruq ki, İdris Həsənov 1919-1924-cü illərdə Azərbaycan Dövlət Darülfununu Şərq fakültəsinin lisaniyyat şöbəsinin tələbəsi ikən aşağıdakı imtahanları verib: psixologiji, lisaniyyata

mədxəl, türk dili, ərəb dili, fars dili, alman dili, Qərbi Avropa ədəbiyyatı tarixi, rus ədəbiyyatı tarixi, fars ədəbiyyatı, ərəb ədəbiyyatı tarixi, türk ədəbiyyatı tarixi, türkolojiyə mədxəl, poetika, müsəlman Şərqi tarixi, türk ləhcələrinin müqayisəli qrameri, türk qövmləri və İran tarixi, sosializm tarixi, islamşünaslıq, fəlsəfəyə mədxəl, yunan fəlsəfəsi tarixi, Orxon kitabələri, əski fars dili. Bütün imtahanların qarşısında da yalnız bir qiymət yazılıb – "əla!".

"Gəncə şivəsində ismin halları" mövzulu namizədlik əsəri (diplom işi) "əla" hesab edilib (həmin əsər 1926-cı ildə nəşr olunub). Buna görə Azərbaycan Dövlət Darülfununu nizamnaməsinin 29-cu maddəsi üzrə İdris Məşədi Zaman oğlu Həsənov Şərq fakültəsi tərəfindən birinci dərəcəli diploma layiq görülüb.

Bacarıqlı tələbənin darülfünundan buraxmamışlar; o, 1925-ci ilin yanvarından 1930-cı ilin oktyabrınadək doğma fakültədə elmi əməkdaş kimi çalışdı.

İ.Həsənov hələ Şərq fakültəsində oxuyan vaxtlarda – 1922-ci ilin mayından Yeni Türk Əlifba Komitəsində katib, mühasib və kassir işləyirdi. Komitə latın əlifbasında "Yeni yol" qəzeti və "Gələcək" jurnalı buraxırdı. İdris Həsənov onlarda öz məqalələri ilə fəal iştirak edirdi. (Məsələn, "Gələcək" jurnalı, 1925, №2). Həmin vaxtlar Komitə xətti ilə yaradılan fəhlələr üçün axşam kurslarında, Türk qadınları üçün açılan makinaçılıq kurslarında yaxından çalışan İdris 1925-ci ilin payızında "Kəndli qəzetəsi"ndə kənd təsərrüfatı şöbəsinin müdirliyinə çağırıldı. Burada onun kənd

təsərrüfatının inkişaf yollarına, kəndlilərin maariflənməsi məsələlərinə həsr olunmuş çoxlu yazıları çıxdı.

İ.Həsənov 1922-ci ildən 1930-cu ilədək (Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu – Azərb. DETİ yaradılanadək) "Xalq şivələrinin izahlı sözlüyü"nü hazırlamaq üçün material (12 mindən artıq) toplayan lüğət dil komissiyasına 1927-ci ilədək sədrlik etmiş, Yeni Türk Əlifbası Ümumittifaq Mərkəzi Komitəsinin I plenumunun (1927) iştirakçısı olmuşdur.

1927-ci ildə İdris Həsənov Moskvaya – Elmi-Tədqiqat SSRİ Şərq Xalqları İnstitutunun aspiranturasında oxumağa göndərildi. 3 il burada akademik N.Y.Marrın dil haqqında ümumi təliminə, professor Sokolovun türk-tatar dillərinin, folklorunun öyrənilməsinə... dair mühazirələrini dinləyib, özü də məruzələr oxuyub ("Gəncə şivəsinin fonetikası", "Marks və Leninə görə kəndli məsələsi" və b.).

O, 1927-ci ilin 29 mayından 28 iyulunadək Özbəkistanın dialektoloji xəritəsini (atlasını) tərtib etmək məqsədilə keçirilən dilçilik ekspedisiyasında olub, 10 özbək şivəsinin morfoloji və fonetik xüsusiyyətlərini üzə çıxarıb.

1928-ci ilin yayında Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti (Azərbaycanı Öyrənən Cəmiyyət) onu Qazax rayonu şivəsini öyrənməyə göndərdi. Toplanmış materialdan ilk ciddi fərdi elmi işində – "Azərbaycan dili Qazax şivəsinin fonetik təsviri" əsərində istifadə edib (24 may 1929-cu ildə dil və ədəbiyyat bölməsində oxuyub). İkinci fərdi işi – "Azərbaycan dilində vurğu haqqında" əsəri isə

1929-cu ilin 1 iyununda həmin bölməyə yazılı şəkildə təqdim edilib.

Moskvada oxuduğu illərdə gənc aspirant eyni zamanda institut kitabxanasına SSRİ-nin müxtəlif kitabxanalarından gələn Şərq ədəbiyyatını qaydaya salıb, elmi işçilər şürası bürosunun katibi kimi ictimai işlər aparıb, 1927-ci ilin oktyabrından 1930-cu ilin oktyabrınadək Şərq Əməkçilərinin Kommunist Universitetində ana dilimizdən dərs deyib.

Dincəlmək bilməyən işgüzar aspirant 1930-cu ilin yayında iki respublikada eyni vaxtda keçirilən dilçilik ekspedisiyalarında fəal iştirak edib. SSRİ EA-nın Qaraçay Muxtar Respublikasına akademik N.Y.Marrın başçılığı altında göndərdiyi 5 nəfərlik birinci ekspedisiyada İ.Həsənov gərgin işləyib (20 avqust – 20 sentyabr), Qaraçay dili sözlüyünü tərtib etmək üçün 6-7 min söz toplayıb. Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun (Azərb. DETİ) Moskva dilçisi R.İ.Şorun başçılığı altında Nuxa (Şəki) və Zaqatala şəhərlərinə göndərdiyi yenə 5 nəfərlik ikinci ekspedisiyada isə (30 avqust-15 sentyabr) o, dulusçuluq, çilingərlik və başqa istehsal sahələrinə, eləcə də ipək və ipək yaylıqlar istehsalına, çörəkbişirməyə, saatsızlığa aid terminlər toplayaraq İnstituta verib. Unutmamaq gərəkdir ki, bu işlər Azərbaycan və Özbəkistanda dialektoloji araşdırmalar yolunda atılan ilk ciddi addımlardan idi.

1 oktyabr 1930-cu ildə aspiranturanı bitirib ümumi dilçilik ixtisası üzrə dosent dərəcəsi alan İdris Həsənov Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutuna (ADAPİ; indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) müəllim göndərildi. O, bu institutda fasiləsiz olaraq ilk gündən 1938-ci ilin aprelinədək (həbs olunanadək) ümumi dilçilik, Azərbaycan dilinin qrammatikası, 1936-1938-ci illərdə qrammatik üslubiyyat, 1938-ci ilin yanvarından isə Azərbaycan türk dili dialektologiyası fənlərindən mühazirələr oxuyub. Azərbaycan dilçiliyində adı çəkilən ixtisasların formalaşmasında İdris Həsənovun əməyi ölçüyəgəlməzdir. Alim 1934-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitunun dillər kafedrasında "Dil və ədəbiyyat kabineti" yaradıb, tələbələrə kömək məqsədilə institutun "Lenin tərbiyəsi uğrunda" qəzetində maraqlı məqalələrlə çıxış edib.

İşə ürəkdən can yandırmasının və artıq nüfuzlu elmi işçi kimi yetişməsinin məntiqi nəticəsi olaraq 1935-ci ilin 22 noyabrında İnstitutun dilçilik və dillər kafedralarının birləşmiş iclasında professor Bəkir Çobanzadənin, eləcə də Abdulla Tağızadə, Xalid Səid Xoçayev və başqalarının rəyi ilə İdris Həsənova professor rütbəsi və dissertasiya müdafiə etmədən filologiya elmləri namizədi alimlik dərəcəsi verilməsi qərara alındı.

İdris Həsənov heç vaxt alimliyi müəllimlikdən (ya da əksinə) ayırmayıb – ustad müəllimi həm də həmişə axtarışda olan elm işçisi kimi tanıyırdılar. İnstitutda mühazirələr

oxuya-oxuya 1930-cu ilin oktyabrından "Azərbaycan xalq şivələri sözlüyü"nün (2 buraxılışı çıxıb) baş redaktoru və Azərbaycan Dövlət Terminologiya Komitəsinin üzvü, ştatlı katibi, sonralar isə ictimaiyyat-iqtisadiyyat bölməsinin katibi işləyən İ.Həsənov 1 yanvar 1932-ci ildən Azərb. DETİ dil bölməsinin başçısı təyin edildi (bu vəzifədə çox az – 1 martadək işləyib).

Alim 1931-ci ildə Bakıda çağrılan II Azərbaycan Orfoqrafiya Konfransında iştirak edib, burada, eləcə də mətbuatda dilimizin imla islahatı probleminə toxunub, "Azərbaycanda terminologiyanın vəziyyəti" haqqında məruzə edib.

İndi heç kim bilmir ki, Azərbaycanda və SSRİ-nin başqa respublikalarında yeni (latın) əlifba əsasında korlar üçün nöqtəli hərflərin layihəsini 1932-ci ildə İdris Həsənov yaradıb.

Professoru 1 fevral 1933-cü ildə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan bölməsinə (EAZFAB) elmi mütəxəssis vəzifəsinə dəvət etdilər. Alim burada elmi sintaksis, ədəbi dilin, onun imlasının yaranması, dilçilik terminlərinin tərtibi, Azərbaycan əlifbasının tamamlaşdırılması, əcnəbi sözlər lüğətinin tərtibi və redaktəsi, eləcə də dil bölməsində "Dil kabineti"nin yaradılması, Azərbaycanın rayonlarına elmi ekspedisiyaların təşkili və başqa gərəkli məsələlər üzərində yorulmadan, özü də məhsuldar çalışıb. O, 1933-cü ilin yayında EAZFAB-ın Şamaxı rayonuna göndərdiyi dilçilik ekspedisiyasına

başçılıq edib. Bu səfər zamanı rayonun 12 kəndinin şivə xüsusiyyətləri araşdırıldı.

1935-ci ildə İdris Həsənov müvəqqəti olaraq EAZFAB-ı tərk etdi. Ancaq aradan iki il keçəndən sonra – 1937-ci ilin aprelində o, SSRİ EA Azərbaycan filialı Dil və Ədəbiyyat İnstitutuna böyük elmi işçi götürüldü, eyni zamanda Azərbaycan dili şöbəsinə başçı qoyuldu. Həmin ilin 19 iyunundan 1938-ci ilin 17 fevralına kimi isə birləşmiş Tarix, Dil və Ədəbiyyat İnstitutunda müvəqqəti direktor işlədi. Bu vaxt institut əməkdaşlarının böyük qismi həbs olunmuşdu və direktorun məsuliyyəti ən yüksək həddə çatmışdı. Uzun illər yel xəstəliyindən əzab çəkən alim bir yandan da gərgin əsəb sıxıntılarına uğradı, ərizə ilə direktorluqdan boyun qaçırdı və fevral ayında direktor müavini vəzifəsinə keçirildi. Ancaq bunların heç biri onu qaçılmaz bəladan qurtara bilmədi – 1938-ci il aprelin 3-ü gecəsi uydurma ittihamlarla həbs edildi. O, düz 8 il sonra – 1946-cı ilin 3 aprelində dustaqlıqdan buraxıldı. Ancaq həmin ilin 8 aprelindən 6 noyabrınadək SSRİ Daxili İşlər Nazirliyinin Uzaq Şərq Baştikinti İdarəsində ("Dalstroy") saxlandı. Həyat yoldaşı Asya xanım, bir yaşında qoyub getdiyi qızı Ulduz onunla 1947-ci ilin 5 yanvarında görüşə bildilər. Ancaq Azərbaycana qayıdan alimi Bakıdan sürgün etdilər. O, ana yurdu Gəncədə yaşamalı oldu. Orta məktəblərdə rus dilindən dərs dedi. Özünə qarşı edilmiş haqsızlıqların səbəbini öyrənmək üçün Stalinin, Bağırovun

adına ərizələr yazdı və işdən çıxarıldı. 1949-cu ilin sonlarında isə alimi ikinci dəfə "apardılar".

Həyat yoldaşı Asya xanım Krasnoyarsk şəhərində 1957-ci ildə imzalanmış ölüm şəhadətnaməsi aldı. Burada yazılmışdı ki, İdris Həsənov 3 noyabr 1950-ci ildə miokard infarktından vəfat edib. Həkim Asya xanım gözəl bilirdi ki, Azərbaycan Tibb İnstitutunda ona dərs demiş müəllimi İdrisin ürəyi 1938-ci ilə kimi necə sağlam idi və onu yalnız və yalnız ədalətin şərə qul olması sarsıda bilərdi! (Sonralar xəbər çatdı ki, İdris intihar edib).

27 sentyabr 1957-ci ildə professor İdris Həsənov bütünlüklə təmizə çıxarıldı, ancaq bu, məhkəmə bəraəti idi. Elmi ictimaiyyətin bəraətini isə o bugünədək gözləməkdədir.

prof. Ədalət Tahirzadə
Əlyazmalar İnstitutunun aparıcı elmi işçisi,
filologiya elmləri namizədi.
("Elm" qəzeti, 18 iyun 1988, №24).

AKADEMİK MƏMMƏDAĞA ŞİRƏLİYEV



(1909 Şamaxı – 1991 Bakı)

Görkəmli alim, akademik, əməkdar elm xadimi, Türk Dil Qurumunun üzvü M.Ş.Şirəliyev Bakı Dövlət Universitetini bitirmiş, 1927-31-ci illərdə şərq fakültəsinin dilçilik şöbəsində təhsil almışdır. Bundan sonra bütün ömrünü pedaqoji işə və dilçiliyin inkişafına sərf etmişdir. Ağdamda və Azərbaycan Pedaqoji İnstitutunda müəllimlik etmiş, 1941- ci ildən Azərbaycan Dövlət Universitetində çalışmışdır. 1941-42-ci illərdə Azərbaycan dili kafedrasının müdiri, 1942-45-ci illərdə filologiya fakültəsinin dekanı, 1945-49-cu illərdə elmi işlər üzrə prorektor, 1949-60-cı illərdə kafedra müdiri vəzifələrində işləmişdir. Bundan sonrakı həyatı və fəaliyyəti Elmlər Akademiyası ilə bağlı olmuş, 1949-cu ildən 1987-ci ilədək Dilçilik İnstitutunun direktoru, Azərbaycan dialektologiyası şöbəsinin müdiri,

1968-1969-cu illərdə Azərbaycan EA-nın ictimai elmlər bölməsinin akademik-katibi olmuşdur.

Dilçiliyin dialektologiya sahəsinin Azərbaycanda inkişafı M.Şirəliyevin adı ilə bağlıdır. XX yüzilliyin əvvəllərində dialektlərə dair müəyyən araşdırmalar (K.Foy, N.Aşmarin, İ.Həsənov, Y.Mirbabayev və b.) aparılsa da, elmi əsaslarla ardıcıl şəkildə tədqiqi M.Şirəliyevin tədqiqatları ilə başlanır. Buna görə də bir çox alimlər (ilk dəfə N.Dmitriyev) M.Şirəliyevi Azərbaycan dialektologiyasının banisi adlandırırlar. O, 1938-40-cı illərdə Bakı dialektinə aid material toplamış, 1941-ci ildə ADU-da "Bakı dialekti" mövzusunda dissertasiya müdafiə etmiş, elmi şura bu əsəri yüksək qiymətləndirərək elmlər namizədi əvəzinə elmlər doktoru elmi dərəcəsi vermişdir.

Görkəmli dialektoloqun Azərbaycan xalq şivələrini öyrənməsi sahəsindəki fəaliyyəti onun "Azərbaycan dialektologiyası" adlı dərs vəsaitində ümumiləşdi- rilmişdir. Kitab yalnız Azərbaycan dilçiliyində deyil, türkologiyada dialektlərin öyrənilməsində dəyərli əsər hesab edilmişdir. Əsər dəfələrlə Azərbaycan dilində (1942, 1962, 1967, 2008), 1983-cü ildə rus dilində nəşr olunmuşdur, rus dilindəki nəşr "Диалекты и говоры азербайджанского языка" adlanır. Bu nüsxə əvvəlkilərdən fərqli olaraq, təkmilləşdirilmiş, girişdə Azərbaycan dilinin tarixi, əhatə dairəsi, dialektlərin xaricdə tədqiqi haqqında da məlumat verilmişdir.

Dialektlərin bölgüsünə Göyçay, Ağdaş və Cəbrayıl keçid şivələri daxil edilmişdir. Kitabın sonunda dialektlərin

mənşəyinə, fonetik, morfoloji və leksik xüsusiyyətlərinə aid dialektoloji xəritələr verilmişdir. Keçən əsrin 80-ci illərinə qədər yeni tədqiq olunmuş şivələrin materiallarından istifadə edilmişdir. "Azərbaycan dialektologiyasının əsasları" (2008) kitabında öncə birinci və ikinci nəşrlər barədə məlumat verilmişdir. İkinci nəşr birinciyə nisbətən daha mükəmməl hesab edilmişdir. Burada birinci nəşrə daxil olmayan bir sıra yeni dialektoloji materiallar verilmiş, bəzi məsələlər dəqiqləşdirilmişdir. Öncə bəzi araşdırmalar aparılmış Cəbrayıl, Gədəbəy, Qax, Bərdə, Yevlax, Ağcabədi və Tərtər şivələrinin materiallarından istifadə edilmişdir. Əsərdə dialektologiyanın nəzəri məsələlərinə diqqət yetirilmiş, Azərbaycan dili dialektlərinin tədqiqi nəzərdən keçirilmiş, fərdi və kollektiv yolla öyrənilən şivələr haqda məlumat verilmişdir.

Tədqiqatçı-alim dialektoloji tədqiqatların iki istiqamətini müəyyən etmişdir:

1) Azərbaycan dili şivələrinin monoqrafik tədqiqi;

2) Azərbaycan dili şivələrinin dilçilik coğrafiyası əsasında öyrənilməsi.

Əslində həmin dövrdə dialektoloji lüğətin tərtibi də dilçilərin diqqət mərkəzində olmuşdur. Nəticədə 1964-cü ildə "Azərbaycan dilinin dialektoloji lüğəti" çap olunmuşdur. Kitabın rus dilindəki variantında tədqiqatların üçüncü istiqaməti kimi dialektoloji lüğətlərin tərtibi də göstərilmişdir.

Kitabda şivələrin tarixi-coğrafi prinsip əsasında təsnifatı verilmişdir. Müəllif şivələri dörd qrupa bölmüş və hər qrupun səciyyəvi xüsusiyyətlərini qeyd etmişdir. Ali məktəblər üçün Azərbaycan dialektologiyası fənnindən ilk dəfə proqram və dərs vəsaiti də M.Şirəliyev tərəfindən yazılmışdır.

Alim "Azərbaycan dialektologiyası" kitabının I hissəsini 1942-ci ildə, II hissəsini isə 1943- cü ildə çap etdirmişdir. Kitabın birinci hissəsində Azərbaycan dialektlərinin səs tərkibi, fonetik hadisələr, morfoloji xüsusiyyətlər elmi əsaslarla şərh edilmiş, ədəbi dildən fərqli cəhətlər müəyyənləşdirilmişdir.

İkinci hissədə Qazax dialektinin materialları əsasında qərb qrupu şivələrinin ümumi xülasəsi verilir. Qazax dialektində açıq dodaq saitlərinin ahəngi, ismin təsirlik halında -yı şəkilçisinin işlənməsi, indiki zamanın "-er, -or,-ör" şəkilçisi ilə ifadəsi və s. səciyyəvi dialekt xüsusiyyətləri qeyd olunmuşdur. Alim şivələrdən materialların toplanmasını dialektoloji tədqiqatların vacib mərhələsi hesab etmişdir. Buna görə də tədqiqatlarında istifadə etdiyi praktik materialların əksəriyyətini şəxsən özü toplamışdır. Bakı dialektindən sonra Muğan, Zaqatala, Qax, Şamaxı, Naxçıvan, Salyan, Şahbuz, Qazax, Gədəbəy, Daşkəsən, Qarabağ və s. bölgələrdə olmuş, informatorlarla söhbət etmiş, dialektoloji material toplamış, dövrü mətbuatda ekspedisiyanın nəticəsi barədə elmi ictimaiyyətə məlumat vermişdir.

M.Şirəliyev 1941-ci ildə rus dilində çap olunan məqaləsində ilk dəfə dilimizin dialektlərinin coğrafi prinsip əsasında təsnifini verdi. Bu bölgü 1959-cu ildə YUNESKO-nun nəşr etdiyi "Fundamental tursisa" kitabında da nəşr olunmuş, səciyyəvi dialekt xüsusiyyətləri qeyd olunmuşdur. Coğrafi cəhətdən aparılmış bölgülərin ən mükəmməli M.Şirəliyevə məxsusdur. Alim ilk təsnifatında (1941) şivələri beş qrupa ayırmışdır:

1. Şərq qrupu: Quba, Dərbənd, Bakı, Şamaxı, Salyan, Lənkəran;
2. Qərb qrupu: Qazax, Borçalı, ayrım;
3. Şimal qrupu: Nuxa (indi Şəki), Zaqatala, Qutqaşen (indi Qəbələ);
4. Cənub qrupu: İrəvan, Naxçıvan, Ordubad;
5. Orta qrup: Kirovabad (indi Gəncə), Qarabağ.

M.Şirəliyev sonrakı illərdə təsnifata əlavələr edərək təkmilləşdirmişdir. Onun son bölgüsü keçən yüzilliyin 60-cı illərinə qədər tədqiq olunan şivələri əhatə edir:

1. Şərq qrupu: Quba, Bakı, Şamaxı dialektləri, Muğan, Lənkəran şivələri;
2. Qərb qrupu: Qazax, Qarabağ, Gəncə dialektləri, ayrım şivəsi;
3. Şimal qrupu: Nuxa (Şəki) dialekti, Zaqatala-Qax şivəsi;
4. Cənub qrupu: Naxçıvan, Ordubad, Təbriz dialektləri, İrəvan şivəsi.

Bölgü ilə bağlı mübahisələr yaransa da, alim fikrini tutarlı faktlarla sübut edərək dəyişməmişdir. Mübahisələrin əsas predmeti bölgünün yalnız Azərbaycan Respublikası ərazisindəki şivələri əhatə etməsi, İran, Gürcüstan, Rusiya (Dağıstan) və keçmiş Ermənistan ərazilərindəki dialektlərin tam əhatə olunmaması idi. Bundan başqa, bəzi alimlər israr edirdilər ki, Azərbaycan dilində dialekt deyil, şivələr qrupu mövcuddur. Çünki bölgüdə dilimizin bütün şivələri deyil, dialektlər ümumiləşdirilmiş şəkildə şivə qruplarına uyğundur. Lakin alim iradlarla razılaşmamış və göstərmişdir ki, "Azərbaycan dili üçün bu müddəa kökündən səhvdir, çünki feodalizm dövrünü keçmiş Azərbaycan xalqının qədim ədəbi dili vardır və o, qədim şəhər mədəniyyətinə malik olmuşdur" (M.Ş.Şirəliyev biblioqrafiya, Bakı, 1969, s.17). Alim təsnifatla bağlı fikirlərini məqalələrində şərh eləmiş və bir çox türkoloqlarla bölüşmüşdür (Проблема диалектного членения языка. ВДТЯ, II т. Баку, 1960; О проблеме языка и диалекта.ВДТЯ, III т. Баку, 1963).

1950-ci ildən sonra müqayisəli-tarixi metodun tətbiqi ilə bağlı olaraq alim dialektlərimizlə müasir türk dilləri arasında ümumi və fərqli cəhətləri müəyyən- ləşdirməyə çalışmışdır. O, dialektlərin fonetik, qrammatik və leksik xüsusiyyətlərini qədim və müasir türk dilləri ilə müqayisə edərək oğuz və qıpçaq dillərinin üstünlüyü qənaətinə gəlmişdir. 1957-ci ildə Ankarada keçirilən Türk Dili Qurultayında "Azərbaycan dili dialektlərinin türk dili dialektləri ilə müqayisəli öyrənilməsi (fonetik materiallar

əsasında)” mövzusunda məruzə ilə çıxış etmişdir. Bundan sonra Azərbaycan dialektologiyasında qədim və müasir türk dilləri və dialektləri ilə müqayisələr tədricən genişlənmişdir. Naxçıvan, Quba, Şəki və s. dialektlərə dair aparılan tədqiqatlarda türk dilləri ilə ümumi və fərqli xüsusiyyətlər müəyyənləşdirilir.

Azərbaycan dili dialektlərinin xüsusiyyətləri tarixi baxımdan ilk dəfə M.Şirəliyev tərəfindən araşdırılmışdır. Azərbaycan dilində dialekt fərqlərini Orxon- Yenisey kitabələri, M.Kaşğarinin “Divan”ı, “Kitabi- Dədə Qorqud” və digər yazılı abidələr və klassiklərin dili ilə müqayisəli şəkildə araşdırmış, dialektlərdəki qədim xüsusiyyətləri aşkara çıxarmış, onların mənşəyini aydınlaşdırmışdır. Dialektlərdə işlənən samit səslərin variantları, fonetik hadisələr (söz əvvəlində y və h səslərinin artımı), mənsubiyyət və şəxs şəkilçilərində v.q,y, ğ ünsürlü formaların işlənməsi, feilin əmr şəkli , indiki zaman, qeyri-qəti gələcək zamanın inkarında və feili bağlamalarda qədim formaların işlənməsi bu üsulla müəyyənləşdirilmişdir. M.Şirəliyev dialekt materialları əsasında dilimizdə mühafizə olunan qıpçaq xüsusiyyətlərini də müəyyən etmiş, qədim qıpçaq yazılı abidələri və müasir qıpçaq dilləri ilə müqayisələr aparmışdır. Həmin problemlə bağlı Varşava Universitetindəki məruzəsi mütəxəssislər tərəfindən rəğbətlə qarşılanmışdır. Onun bu məruzəsi rus və özbək dilərində də nəşr olunmuşdur.

Dialektlərdəki sintaktik fərqlərdən də ilk dəfə M.Şirəliyev bəhs etmişdir. Alim ilk dəfə Bakı dialektində, sonra digər şivələrdə təyini söz birləşmələrində, uzlaşma və idarə əlaqələrində, cümlə üzvlərində, söz sırasında, sadə və mürəkkəb cümlələrdə sintaktik fərqləri aşkara çıxarmış və əmələgəlmə səbəblərini izah etmişdir.

M.Şirəliyev dialektləri ədəbi dillə əlaqəli şəkildə araşdırmış, ədəbi dillə dialektlərin qarşılıqlı təsirini aydınlaşdırmışdır. Həmçinin ədəbi dilin təşəkkülündə dialektlərin rolu, dialekt əsası məsələsini həll etmişdir. Azərbaycan ədəbi dili XIII-XIV əsrlərdə Şirvan dialektinə, XV-XVII əsrlərdə Təbriz dialektinə, XVIII əsrdə Qarabağ dialektinə, XIX-XX əsrlərdə isə bütün dil nümayəndələrinin daxil olduğu Bakı şəhəri əhalisinin danışığına istinad edilmişdir. Müasir ədəbi dilimizin kökü barədə müxtəlif fikirlər olsa da, M.Şirəliyevə görə, əsasən, Bakı və Şamaxı dialektlərinə istinad edilmişdir. Bununla bağlı alim 1956-cı ildə Bakıda dialektoloji məsələlərə həsr olunmuş müşavirədə məruzə etmiş, türkoloqlar onun fikirlərini qəbul etmişlər. Ədəbi dillə bağlı fikirləri isə indi də daha çox istinad olunan «К вопросу развития азербайджанского литературного языка в советский период” (1957) adlı məqaləsində geniş işıqlandırılmışdır.

Azərbaycan dili şivələrinin dilçilik coğrafiyası metodu ilə öyrənilməsi məsələsi də M.Şirəliyevin adı ilə bağlıdır. Keçən yüzilliyin 50-60-cı illərində alim bu istiqamətdə aparılan tədqiqatlara rəhbərlik etmişdir.

Türkologiyada bu sahədə təcrübə olmadığından onun məsləhəti ilə mütəxəssislər monoqrafik tədqiqatların nəticələrindən istifadə edərək dialektlərimizin səciyyəvi izoqloslarını müəyyənləşdirirlər. 1957- ci ildən dialektoloji atlasın tərtibinə başlanılmış, 1975- ci ildə başa çatdırılmışdır. Həmin dövrdə alim həm də türk dilləri dialektlərinin ümumi atlasının hazırlanmasına da rəhbərlik etmişdir. Dilçilik coğrafiyası sahəsindəki nailiyyətlərlə bağlı M.Şirəliyev 1966-cı ildə Ankarada XI Türk Dili Qurultayında məruzə etmişdir. Lakin alimin vaxtsız vəfat etməsi ilə əlaqədar olaraq bu iş yarımçıq qalmışdır.

Alimin fəaliyyəti Azərbaycan dili dialektlərinin tədqiqi ilə məhdudlaşmamışdır. M.Şirəliyev dilçiliyin ədəbi dil, dil tarixi, qrammatika, orfoqrafiya, orfoepiya, əlifba, terminologiya, üslubiyyat, nitq mədəniyyəti, türkologiya və s. sahələrin problemləri ilə də məşğul olmuş, respublika və beynəlxalq səviyyəli konfranslarda məruzələrlə çıxış etmişdir.

Akademik M.Şirəliyev Azərbaycanda dialektologiya sahəsində elmi məktəb yaratmışdır. Fəaliyyəti boyu bu sahədə xeyli ixtisaslı kadrlar yetişdirmişdir.

Dilimizin Quba, İsmayıllı, Mərəzə, Ordubad, Qazax, Ağdam, Füzuli, Tovuz, Şəki, Cəbrayıl, Zəngibasar, Zəngilan, Gədəbəy, Kərkük, Qax, Karvansaray, Çənbərək, Qarakilsə, Cəlilabad, Ağcabədi (əfşar) və s. şivələr onun birbaşa rəhbərliyi, məsləhətləri ilə tədqiq edilmişdir. Qaqauz, bolqar, qaraqalpaq, özbək, başqırd və digər dillərin

dialektoloji tədqiqində alimin böyük rolu olmuş, bir neçə misertasiyanın müdafiəsində opponent kimi çıxış etmiş, rəy vermişdir.

Məhərrəm Məmmədli
filologiya elmləri doktoru, professor.

M.Şirəliyev, əsasən, türkologiya, onun maraqlı sahələrindən biri olan dialektologiya ilə məşğul olmuşdur. Lakin M.Şirəliyev Azərbaycan dilinin başqa sahələri ilə də məşğul olmuşdur. Alimin professor M.Hüseynzadə ilə birgə yazdığı "Azərbaycan dilinin qrammatikası. Sintaksis" dərsliyi uzun illərdir ki, ali məktəblərdə müəllim və tələbələrin mühüm dərs vəsaiti kimi istifadə edilməkdədir.

M.Şirəliyev eləcə də Azərbaycan dilinin morfologiya, orfoqrafiya, orfoepiya, əlifba, terminologiya durğu işarələri, üslubiyyat, nitq mədəniyyəti, türkologiyanın nəzəri problemləri və s. tədqiqatların, monoqrafiyaların müəllifidir. Alimin "Azərbaycan dili orfoepiyasının əsasları" əsəri bu gün də həmin sahədə öz aktuallığını qoruyur. M.Şirəliyev daha çox Azərbaycan dialektologiya elminin banisi və dialektologiya məktəbinin yaradıcısı kimi şöhrət qazanmış, türkologiya tarixində öz layiqli və əbədi yerini tutmuşdur.

Təsadüfi deyildir ki, hələ 1945-ci ildə SSRİ EA-nın müxbir üzvü N.Dmitriyev yazmışdır ki, Məmmədağa Şirəliyevi çəkinmədən Azərbaycan dialektologiyasının banisi adlandırmaq olar.

Akademik M.Şirəliyevin “Bakı dialekti”, “Azərbaycan dialektologiyasının əsasları”, təkmilləşdirilmiş nəşri, “Azərbaycan dilinin dialekt və şivələri” (rusca), türkoloqların ən çox istifadə etdiyi əsərlər olmuşdur. Demək olar ki, dialektologiyanın mövcud nəzəri məsələləri ümumi şəkildə bu kitablarda ifadə edilmişdir.

Akademik M.Şirəliyev Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülmüş fundamental “Azərbaycan dialektologiyasının əsasları” əsərində türk dillərinin dialektlərinə dair o vaxta qədər yazılmış əsərlərdən fərqli olaraq, ilk dəfə təsviri, müqayisəli və tarixi-müqayisəli üsullardan geniş istifadə etmiş, Azərbaycan dili dialekt və şivələrinin təsnifini vermiş, özünün şəxsən iştirak etdiyi dialektoloji ekspedisiyalar zamanı toplanan faktiki materiallar əsasında ümumiləşmələr aparmış, Azərbaycan dili dialekt və şivələrinin 4 qrupa – şərq, qərb, şimal, cənub qruplarına bölündüyünü inkar olunmaz faktlarla isbat etmişdir. Alim Azərbaycan dialektlərini belə müəyyənləşdirmişdir:

1. Quba, Bakı, Şamaxı (şərq qrupu),
2. Qazax, Qarabağ, Gəncə (qərb.qrupu),
3. Şəki (şimal.qrupu),
4. Naxçıvan, Ordubad, Təbriz (cənub qrupu).

Bu kitabda Azərbaycan dili dialekt və şivələrinin fonetik, leksik və qrammatik xüsusiyyətləri tam əhatə olunur. Onu da deyək ki, son vaxtlar aparılan tədqiqatlar göstərir ki, Dərbənd dialekti də şərq qrupuna daxildir.

M.Şirəliyevin dilçilik tarixindəki xidmətlərinə aşağıdakı məsələləri də daxil edə bilərik:

1) 1941-ci ildə M.Şirəliyev rus dilində çap etdirdiyi bir məqaləsində ilk dəfə olaraq Azərbaycan dialektlərinin təsnifini coğrafi prinsip əsasında aparıb və bu bölgü sonralar, 1959-cu ildə YUNESKO-nun "Fundamental turcica" əsərində öz əksini tapıb.

2) Akademik M.Şirəliyevin türkologiyada ilk dəfə dialekt və şivələrin təsnifinə dair bölgüsü türkoloqlar tərəfindən qəbul olunmuşdur. Bu münasibətlə görkəmli qazax dilçisi Ş.Sarıbayev yazırdı: "Qazax dialektologiyasında mübahisəli məsələlər çoxdur. Onların biri dialektlərin təsnifidir. Bu məsələnin türkoloji aləmdə obyektiv yolunu Azərbaycanın görkəmli türkoloqu M.Şirəliyev müəyyənləşdirmişdir".

3) Akademik M.Şirəliyevin ən böyük xidmətlərindən biri də türkologiya tarixində ilk olaraq "Azərbaycan dilinin dialektoloji atlası"nı yaratmasıdır. M.Şirəliyevin təşəbbüsü, rəhbərliyi və iştirakı ilə hazırlanan atlas türkoloji aləmdə bu sahədə atılan ilk və uğurlu addımdır. Məhz buna görədir ki, başqa türkdilli xalqlar dialektoloji atlaslarını tərtib edərkən Azərbaycan dialektoloqlarının təcrübəsinə əsaslanırdılar.

Türkmənistan EA-nın prezidenti, akademik P.Əzimov bu münasibətlə yazırdı: "Türkmənlər dialektoloji atlasın tərtibi işlərini M.Şirəliyevin məktəbindən əxz etmişlər".

4) Türkologiyada dilçilik coğrafiyasının əsasını qoyan da akademik M.Şirəliyev olmuşdur. Bu baxımdan Ural-Altay cəmiyyətinin sədri İ.Qunnarın fikri maraq doğurur: "Türk dillərinin dilçilik coğrafiyası üsulu ilə öyrənilməsi sahəsində M.Şirəliyevin xidmətləri danılmazdır".

5) Akademik M.Şirəliyevin türkologiya sahəsində gördüyü qlobal işləri, Bakını türkoloji mərkəzə çevirməsini tanınmış türkoloqlar görür və yüksək qiymətləndirirdilər. "Voprosı yazıkoznaniya" jurnalında (15, 1967) "Keçən 50 il ərzində Sovet İttifaqında dilçiliyin inkişafı" adlı baş məqalədə qeyd edilirdi ki, sovet dövründə türk dilləri dialektlərinin tədqiqində əldə edilmiş nailiyyətlərdə akademik M.Ş.Şirəliyevin böyük xidmətləri olmuşdur.

6) Professor Bolqarıstanda türk kəndlərini gəzərək zəngin material toplamış və həmin materiallar əsasında "Türk dialektologiyası" əsərini, eyni zamanda "Dilçiliyə giriş" dərsliyini yazmışdı. Onun fəaliyyəti istər bolqar, istərsə də sovet alimləri tərəfindən yüksək qiymətləndirilmişdir. Bolqar alimi Emil Boyev 1966-cı ildə Ankarada XI Türk Dili qurultayında "Bolqarıstanda türk dialektlərinin araşdırılması" mövzusunda məruzə edərkən xüsusi vurğulamışdır: "Bolqarıstanda türk dialektlərinin araşdırılmasının əsasını professor M.Şirəliyev qoymuşdur (https://Azərbaycanwikipedia.org/wiki/M%C9%99mm%C9%99da%C4%9Fa_%C5%9Eir%C9%99liyev).

Akademik M.Şirəliyevin yaradıcılığına həm beynəlxalq səviyyədə, həm də Azərbaycanda yüksək qiymət verilmişdir.

ABDULLA HÜSEYN OĞLU VƏLİYEV



(1910–1986)

Abdulla Hüseyn oğlu Vəliyev 1910-cu ildə Bakı şəhərində anadan olmuşdur.

O, 1917-ci ildə 4 illik şəhər məktəbinə daxil olmuş, 1920-ci ildə birinci dərəcəli 10-cu şura məktəbinə və 1923-cü ildə II dərəcəli şura məktəbinə, yəni A.Şaiq adına pedaqoji texnikumuna daxil olmuşdur. 1927-ci ildə həmin məktəbi qurtarmış və 1927-ci ildə Azərbaycan Dövlət Universitetinin şərq fakültəsinin lisaniyyat şöbəsinə daxil

olub, 1930-1931-ci tədris ilində dil və ədəbiyyat müəllimi ixtisası üzrə ali təhsil almışdır.

1937-ci ildən 1939-cu ilə qədər 5 (37) nömrəli orta məktəbdə, 1939-cu ildən 1941-ci ilə qədər Azərb. Pedaqoji İnstitutunda müəllim və xarici dillər fakültəsinin dekan müavini, 1941-ci ildə Xarici dillər institutunda müəllim, Azərbaycan və rus dilləri kafedrası müdiri, ikillik xarici dillər institutunda və 160 №-li orta məktəbdə müəllim olmuşdur.

1943-cü ilin sentyabr ayından S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində müəllim, sonra baş müəllim vəzifəsində işləmişdir. O, 1952-ci ildə "Abşeron yarımadasının qərb rayonu şivələri" adlı əsəri müdafiə etmiş və filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1954-cü ildə dosent adı verilmiş və həmin ildən 1960-cı ilə qədər Azərbaycan dili kafedrası müdiri vəzifəsində çalışmışdır. Eyni zamanda ümumi dilçilik, sonralar isə Azərbaycan dilçiliyi kafedralarında Azərbaycan dialektologiyası fənni üzrə tədris işləri aparmağa başlamışdır.

1954-56-cı illərdə Azərb.SSR EA Ədəbiyyat və Dil İnstitutunda lüğət, sonra isə Azərbaycan dialektologiyası şöbəsində baş elmi işçi vəzifələrində çalışmışdır. Onun 25-dən artıq elmi əsəri çap edilmişdir.

KAMİL TAĞI OĞLU RAMAZANOV



(1913-1994)

1913-cü il noyabr ayının 7-də Bakıda qulluqçu ailəsində doğulmuşdur. O, 1921-ci ildə I dərəcəli 10 №-li məktəbə daxil olub, 1926-cı ildə oranı bitirmişdir. 1927-1929-cu illər ərzində Bakıda 37№-li yeddiillik məktəbdə oxumuşdur. 1929-cu ildə Bakıda Mərkəzi Pedaqoji Texnikumuna daxil olub, 1932-ci ildə oranı bitirmişdir. 1932-1933-cü dərs ilində Masallı rayonunun Xıl kənd 7 illik məktəbində direktor vəzifəsində çalışmışdır. 1933-1940-cı illərdə Bakıdakı 132 №li məktəbdə müəllimlik etmişdir. 1938-1940-cı illərdə M.F.Axundov adına Azərbaycan

Dövlət Müəllimlər İnstitutunda oxumuşdur. O, 1941-ci ildə Sovet Ordusu sıralarına səfərbərliyə alınıb, həmin ildə də xəstəliyə görə ordu sıralarından azad edilmişdir. 1941-1945-ci illərdə Bakıdakı 134 №-li məktəbdə dərs demişdir.

1941-ci ildə Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutuna daxil olub, 1946-cı ildə həmin institutun dil və ədəbiyyat fakültəsini bitirmişdir.

1945-ci ildən 1956-cı ilədək Azərbaycan SSR Elmlər Akademiyasının Dil İnstitutunda (1950-ci ildən sonra Nizami adına Ədəbiyyat və Dil İnstitutu), hazırda Dilçilik İnstitutunda baş elmi işçi vəzifəsində çalışır.

1956-cı ildə "Azərbaycan dilinin Salyan dialekti" adlı namizədlik əsərini müdafiə edib, filoloji elmlər namizədi alimlik dərəcəsi almışdır.

K.T.Ramazanov "Azərbaycan dilinin Muğan qrupu şivələri", "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri" I cildlik monoqrafik tədqiqat əsərinin müəlliflərindən biridir. K.T.Ramazanov "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri, III cild" (Ağcabədi, Bərdə, Yevlax, Mirbəşir, və Şuşa rayonları) monoqrafiyasının və eləcə də 3 cildlik "Azərbaycan dilinin dialektoloji lüğəti"nin tərtibi işi ilə məşğul olmuşdur.

RƏSUL ƏLİABBAS OĞLU RÜSTƏMOV



(1914-1966)

Rəsul Əliabbas oğlu Rüstəmov 1914-cü ildə Bakı şəhərində dəmirçi ailəsində anadan olmuşdur. 1923-cü ildə I dərəcəli məktəbə daxil olmuş və 1928-ci ildə oranı bitirmişdir. 1928-1930-cu illərdə yeddillik məktəbdə, 1930-1932-ci illərdə isə mərkəzi Bakı Beynəlmiləl Pedaqoji texnikumunda təhsil almışdır.

1932-1937-ci illərdə Bakının müxtəlif orta məktəblərində Azərbaycan dili və ədəbiyyat müəllimi işləmiş, 1937-1941-ci illərdə V.İ.Lenin adına APİ-də təhsil almış, 1941-ci ildə (IV kursda oxuyarkən) ordu sıralarına

çağrılmış, ordudan təxris olunmamış M.S.Kirov adına ADU-da təhsilini davam etdirmiş və 1945-ci ildə oranı bitirmişdir.

1946-1948-ci illərdə M.S.Kirov adına ADU-nun aspirantı olmuş və 1948-ci ildə "Quba dialekti" mövzusunda dissertasiya müdafiə edərək filoloji elmlər namizədi alimlik dərəcəsi almışdır.

1948-1951-ci illərdə universitetdə şərqünaslıq fakültəsinin dekanı olmuş, 1951-1952-ci illərdə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunda Azərbaycan dilinin tarixi şöbəsinin müdiri, 1952-1960-cı illərdə isə direktorun elmi işlər üzrə müavini işləmişdir.

1960-cı ildən ömrünün sonuna qədər Nizami adına Ədəbiyyat və Dil İnstitutunda dialektologiya şöbəsinə rəhbərlik etmişdir.

1964-cü ildə "Azərbaycan dili dialekt və şivələrində fel" mövzusunda dissertasiya müdafiə edərək filoloji elmlər doktoru alimlik dərəcəsi almışdır.

R.Ə.Rüstəmovun 40-dan artıq elmi əsəri nəşr olunmuşdur: "Quba dialekti", "Azərbaycan dili dialekt və şivələrində feilin arzu və lazım şəkilləri", "Azərbaycan dili dialekt və şivələrində fel".

R.Ə.Rüstəmov 1966-cı ildə vəfat etmişdir.

TEYYUB BEHBUD OĞLU HƏMZƏYEV



(1916- ?)

Teyyub Behbud oğlu Həmzəyev 1916-cı ildə Göyçay rayonunun Bığır kəndində anadan olmuşdur. O, ilk təhsilini kənd yeddiillik məktəbində almış, 1933-34-cü dərs ilində orta məktəbi bitirmişdir.

T.B.Həmzəyev orta məktəbi bitirdikdən sonra Göyçay rayonunun Molla-Şıxlı kənd yeddillik və 1936-cı ildə Bığır kənd orta məktəbində müəllimlik etmişdir.

T.B.Həmzəyev təhsilini artırmaq məqsədi ilə 1939-cu ildə Bakıya gəlmiş, S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filoloji fakültəsinə daxil olmuş, üç il

oxuduqdan sonra 1942-ci ildə ordu sıralarına gedərək Böyük Vətən müharibəsində iştirak etmişdir. Ordu sıralarından təxris edildikdən sonra Bakıya qayıtmış, təhsilini davam etdirmək üçün təkrar olaraq universitetə daxil olmuş və 1948-ci ildə oranı bitirmişdir.

T.B.Həmzəyev 1948-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasının Dil İnstitutunda kiçik elmi işçi vəzifəsində işləmiş, 1950-ci ildə dil ixtisası üzrə aspiranturaya daxil olmuş və aspiranturanı qurtarmışdır. T.B.Həmzəyev 1955-ci ildən Nizami adına Ədəbiyyat və Dil İnstitutunda elmi işçi olmuşdur. O, 1960-cı ildə cı ildə "Ordubad dialekti" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. T.B.Həmzəyevin bir sıra məqalələri çap olunmuşdur.

T.B.Həmzəyev Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı tərəfindən çap edilmiş "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri" adlı monoqrafiyanın, "Azərbaycan dilinin Şərq qrupu dialekt və şivələrinin dialektoloji atlası" adlı tədqiqat əsərlərinin müəlliflərindən biri olmuşdur.

ƏLİ KAMİL OĞLU CƏFƏROV

(1918-?)

Əli Kamil oğlu Cəfərov 1918-ci ildə Qazax rayonunun Daş Salahlı kəndində anadan olmuşdur. 1939-cu ildə Daş Salahlı kənd orta məktəbini, 1944-cü ildə isə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filoloji fakültəsini bitirmişdir. Universiteti bitirdikdən sonra Qazax və Nuxa Müəllimlər İnstitutunda, İrəvan Pedaqoji İnstitutunda, sonra isə V.İ.Lenin adına APİ-də, H.Zərdabi adına Gəncə (o zamankı Kirovabad) Dövlət Pedaqoji İnstitutunda dosent vəzifəsində işləmişdir.

1962-ci ildə "Azərbaycan dilinin Qazax dialekti" mövzusunda dissertasiya müdafiə edərək, filoloji elmlər namizədi alimlik dərəcəsi almışdır.

AZƏR ƏLİŞ OĞLU HÜSEYNOV



(1922-2008)

Azər Əliş oğlu Hüseynov 1922-ci il avqust ayının 8-də Qarabağın Xankəndi (keçmiş Stepanakert) şəhərində qulluqçu ailəsində anadan olmuş, ibtidai və natamam orta təhsilini orada almışdır.

1936-cı ildən 1939-cu ilədək Şuşa şəhərində əvvəlcə M.Əzizbəyov adına pedaqoji texnikumunda, sonra isə Şuşa İkiillik Müəllimlər İnstitutunda (dil və ədəbiyyat fakültəsində) oxumuş, buranı bitirdikdən sonra 2 №-li orta məktəbində Azərbaycan dili dərsi demişdir.

1942-ci ildən 1944-cü ilin may ayına qədər Sovet Ordusu sıralarında hərbi xidmətdə olmuş, 1944-cü ildən 1945-ci ilin iyun ayınadək Xankəndidə, orta məktəblərdə Azəbaycan dili müəllimi işləmişdir.

1945-ci ilin sentyabrında Bakıya gələrək təhsilini davam etdirmək üçün Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (əvvəlki V.İ.Lenin adına APİ) dil və ədəbiyyat fakültəsinin III kursuna daxil olmuşdur. İnstitutu bitirdikdən sonra aspiranturaya daxil olmuşdur.

1948-ci ildən başlayaraq rəşr olunmudur. A.Hüseynov "Azərbaycan dilinin şimal-qərb şivələri" adlı monoqrafiya üzərində işləsə də, onu başa çatdıra bilməmişdir.

MUSA İSA OĞLU İSLAMOV



(1923/24-1999)

Musa İsa oğlu İslamov 1924-ci ildə Şəki rayonunun Baş Göynük kəndində anadan olmuşdur. İbtidai təhsilini həmin kəndin məktəbində, orta təhsilini isə Şəki şəhərindəki 11 №-li orta məktəbdə almışdır. O, 1944-cü ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filoloji fakültəsinə daxil olaraq, 1949-cu ildə oranı bitirmişdir.

M.İ.İslamov 1948-ci ildə "Azərbaycan pioneri" qəzeti redaksiyasında ədəbi işçi vəzifəsində işə qəbul edilmişdir; bir neçə aydan sonra isə şöbə müdiri vəzifəsinə irəli çəkilmiş və 1955-ci ilə qədər orda işləmişdir.

M.İ.İslamov 1954-cü ildə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun aspiranturasına daxil olmuşdur. Aspiranturanı bitirdikdən sonra həmin institutun Azərbaycan dialektologiyası şöbəsində kiçik elmi işçi vəzifəsinə keçmişdir. 1961-ci ildə "Nuxa dialekti" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1967-ci ilin fevral ayından indiyə kimi Azərbaycan dialektologiyası şöbəsinin müdiri vəzifəsində işləyir.

M.İ.İslamov dialektologiyanın müxtəlif məsələlərinə həsr olunmuş 30-a yaxın elmi məqalənin və bir monoqrafiyanın müəllifi olmuşdur. Onun "Azərbaycan dilinin Nuxa dialekti" kitabı 1968-ci ildə çap edilmişdir.

Bunlardan başqa, M.İ.İslamov dialektologiya şöbəsinin hazırlayıb çapa təqdim etdiyi "Azərbaycan dili şərq qrupu dialekt və şivələri" (II və IV cildlər) monoqrafiyasının müəlliflərindən və redaktorlarından biri olmuş, Azərbaycan dilinin bütün dialekt və şivələrinin əhatə edən ümumi dialektoloji atlasın tərtibi ilə məşğul olmuşdur.

MƏMMƏD MƏMMƏD OĞLU CƏFƏRZADƏ



(1925-?)

Məmməd Məmməd oğlu Cəfərzadə 1925-ci ildə Şamaxı rayonunda anadan olmuşdur. 1942-ci ildən pedaqoji fəaliyyətə başlamışdır. 1944-1948-ci illərdə Sovet ordusu sıralarında olmuş, hərbi məktəbdə oxumuşdur.

1955-ci ildə V.İ.Lenin adına APİ-nin (ADPU) qiyabi şöbəsinə daxil olmuş, 1960-cı ildə institutun dil və ədəbiyyat fakültəsini bitirmişdir.

O, 1969-cu ildə "Azərbaycan dilinin İmişli rayonu şivələri" adlı namizədlik dissertasiyası müdafiə edərək,

filoloji elmlər namizədi alimlik dərəcəsi almışdır. Dialektologiya ilə bağlı məqalələri nəşr edilmiş, Şamaxının Birinci Udulu orta məktəbinin direktoru vəzifəsində çalışmışdır.

QASIM MEHDİ OĞLU HƏSƏNOV

(1926-?)

Qasım Mehdi oğlu Həsənov 1926-cı il may ayının 1-də Kürdəmirdə anadan olmuşdur. O, orta təhsilini əvvəllər Kürdəmir rayonundakı şəhər orta məktəbində, sonralar isə Bakı şəhərindəki 190 nömrəli məktəbdə almışdır.

Q.M.Həsənov 1943-cü ildə ordu sıralarına getmiş, 1943-1944-cü illərdə Böyük Vətən Müharibəsi döyüşlərində iştirak etmiş və 1944-cü il oktyabr ayının 5-də Budapeşt şəhəri yaxınlığında gedən vuruşmalarda ağır yaralanmışdır.

O, 1947-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinə daxil olub, 1953-cü ildə oranı bitirmişdir. Bir müddət S.M.Kirov adına ADU-nun qiyabi şöbəsində məsləhət məntəqəsinin müdiri vəzifəsində çalışmış, 1955-ci ildə universitetin ümumi dilçilik kafedrasının aspirantı olmuşdur. Aspiranturanı bitirdikdən sonra, əvvəllər ADPU-də (o zamanlar V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda) elmi işlər üzrə prorektor köməkçisi, sonralar isə Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat və Dil İnstitutunda elmi işçi vəzifəsində çalışmışdır.

Q.M.Həsənov 1963-cü ildə "Dəhnamə"nin sintaksisi" adlı namizədlik dissertasiyasını müdafiə edərək, filoloji elmlər namizədi alimlik dərəcəsi almışdır.

Q.M.Həsənov 1967-ci ildə Nizami adına Ədəbiyyat və Dil İnstitutu Azərbaycan dialektologiyası şöbəsinin baş elmi işçisi vəzifəsində çalışmışdır. O, 1968-cı ildən S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (hazırkı BDU) Azərbaycan dilçiliyi kafedrasında işə başlamışdır. Q.M.Həsənovun bir sıra əsərləri çap olunmuşdur.

Q.M.Həsənov "Azərbaycan dilinin dialektoloji lüğəti" kitabının və "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri" monoqrafiyasının II və IV cildlərinin müəlliflərindən biri, "Dəhnamə"nin sintaksisi" monoqrafiyasının müəllifi olmuşdur.

BUTA PƏNAH OĞLU SADIQOV

(1929-2011)

Buta Pəhah oğlu Sadıqov 1929-cu ildə Gədəbəy rayonunun Fərzalı kəndində anadan olmuşdur. B.Sadıqov 1937-ci ildə İsalı kənd yeddiillik məktəbinə daxil olub, 1944-cü ildə oranı bitirmişdir, həmin ildə Çayrəsullu kənd orta məktəbinin VIII sinfinə daxil olmuşdur. 1946-cı ildə həmin məktəbin IX sinfini bitirmiş, X sinfi isə Bakı şəhərinin 132 №li orta məktəbində eksternat yolu ilə başa çatdırmışdır.

1947-ci ildə V.İ.Lenin adına APİ-nin (indiki ADPU) dil və ədəbiyyat fakültəsinə daxil olub, 1951-ci ildə oranə fərqlənmə diplomu ilə bitirmişdir. O, 1951-ci ildən 1954-cü ilə kimi Gədəbəy rayonunun Çayrəsullu kənd orta məktəbində, 1954-cu ildən 1960-cı ilə kimi isə Gədəbəy qəsəbə orta məktəbində müəllim vəzifəsində çalışmışdır.

1960-cı ildən 1961-cı ilə kimi M.A.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunda ədəbiyyat tarixi müəllimi, 1961-ci ildən 1967-ci ilə kimi Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunda elmi işçi vəzifəsində işləmişdir. 1967-ci ildən ömrünün sonuna qədər ADPU-da işləmişdir.

1964-cü ildə "Azərbaycan dilinin Gədəbəy şivələri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, bir sıra məqalələri çap edilmişdir.

SƏYYARƏ MƏMMƏD QIZI MOLLAZADƏ



(1933-2015)

Səyyarə Məmməd qızı Mollazadə 1933-cü ildə Qax rayonunun İlisu kəndində anadan olmuşdur. O, 1939-cu ildə Bakının 132 №li orta məktəbinə daxil olmuş və 1949-cu ildə oranı bitirmişdir. 1949-cu ildə S.Mollazadə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filoloji fakültəsinə daxil olmuş və buranı 1954-cü ildə qurtarmışdır.

S.Mollazadə bir müddət orta məktəbdə dərs dedikdən sonra V.İ.Lenin adına APİ-nin (indiki ADPU) dilçilik kafedrasının aspirantı olmuş və "Azərbaycan SSR Qax rayonu şivələri" adlı namizədlik dissertasiyasını müdafiə etmiş, bir sıra məqalələri çap olunmuşdur.

S.Mollazadə Azərbaycan dilinin şimal qrupu dialekt və şivələrində toponimik adlar məsələləri üzərində işləmişdir.

Dosent S.M.Mollazadə uzun müddət N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Azərbaycan və rus dilləri kafedrasına rəhbərlik etmişdir.

SEFİ BAXIŞ OĞLU BEHBUDOV

(1933-?)

Sefi Baxış oğlu Behbudov 1933-cü ildə Cəbrayıl rayonunun Maralyan kəndində anadan olmuşdur. O, natamam orta təhsilini Maralyan yeddiillik məktəbində, orta təhsilini isə Cəbrayıl qəsəbəsindəki M.Qorki adına məktəbdə almışdır.

S.Behbudov 1951-ci ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (BDU) filoloji fakültəsinə daxil olmuş və buranı 1956-cı ildə bitirmiş və Cəbrayıl rayonuna müəllim göndərilmişdir. 1956-57-ci tədris ilindən 1960-cı ilə kimi Cəbrayıl rayonunun Maralyan yeddiillik məktəbində dərs hissə müdiri və dil-ədəbiyyat müəllimi vəzifəsində işləmişdir.

S.Behbudov 1960-cı ildə Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinə aspirant götürülmüş və aspiranturanı qurtardıqdan sonra həmin şöbəyə baş laborant təyin edilmişdir.

O, 1966-cı ildə "Azərbaycan dilinin Zəngilan şivəsi" adlı namizədlik dissertasiyasını müdafiə edib, filoloji elmlər namizədi alimlik dərəcəsi almışdır.

HƏSƏN MİRZƏYEV



(Dərələyəz 1927-2015 Bakı)

Çoxşaxəli elmi yaradıcılıq yolu olan professor Həsən Mirzəyevin dilimizin dialektlərinin öyrənılməsi sahəsində xidmətləri əvəzedilməzdir.

Hər bir dilçiyə məlumdur ki, dilimizin dialekt və şivələri haqqında tədqiqatların aparılması, problemli məsələlərə aydınlıq gətirilməsi ilə dialektoloq-dilçilər məşğul olmuş, artıq Azərbaycan dialektologiyası özünün yüksək inkişaf mərhələsinə çatmışdır. Lakin məlumdur ki, dövr, zaman inkişaf etdikcə məsələlərə yanaşma tərzi də dəyişir, yeni müddəalar meydana çıxır, müqayisəli təhlillər aparılır. Azərbaycan Respublikasının Prezidenti İlham

Əliyevin 9 aprel 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın 6.3.5 bəndində Azərbaycan dilinin müxtəlif dialekt və şivələrinin müasir dövrün tələblərinə uyğun olaraq öyrənilməsinin təmin edilməsi məsələsi də nəzərdə tutulmuşdur.

"Dövlət Proqramı"nda nəzərdə tutulmuş həmin bəndin həyata keçirilməsi istiqamətində həm dilçilik nöqteyi-nəzərindən, həm tarixi, həm də strateji baxımdan əhəmiyyətli olan Qarabağ ərazisinin və Qarabağ ərazisinin dialekt sisteminin müasir dövrün tələblərinə uyğun olaraq tədqiq edilməsi müasir dilçiliyin ən aktual məsələlərindən biridir

Bu sahədə geniş elmi araşdırmalar Həsən Mirzəyevin elmi fəaliyyətinin mühüm mərhələsini təşkil edir. Elmi vacib məsələlərdən biri olan dialekt və şivələrimizin öyrənilməsi məsələsi böyük dilçi-türkoloq Həsən Mirzəyevin diqqətindən kənarda qalmamış, Qərbi Azərbaycanın, xüsusilə də Dərələyəz mahalının şivə sözlərini araşdırmış, dilimizin tarixini özündə qoruyub saxlayan şivələrin araşdırılmasını dilçiliyin aktual problemlərindən biri hesab etmişdir. Alim özü bu məsələnin vacibliyini nəzərə alaraq demişdir: "Bu mövzu xüsusi olaraq geniş şəkildə tədqiq olunmalıdır, çünki bu, Qərbi Azərbaycanın tarixi və

ümumən Azərbaycanın gələcək taleyi ilə bağlı olan bir məsələdir”[1]

Qərbi Azərbaycanın Dərələyəz mahalının şivələri ilk dəfə olaraq professor Həsən Mirzəyev tərəfindən tədqiqata cəlb edilmişdir. Dərələyəz mahalının tərkibinə daxil olan iki rayonun: Yeğeqnadzor (Keşkənd) və Vayk (Paşalı) rayonlarının şivələrini geniş elmi tədqiqata cəlb etmişdir. O, Dərələyəz şivələri ilə bağlı bir neçə məqalə, “Dərələyəz mahalının toponimləri və şivə sözləri” adlı kitab çap etdirmişdir. “Qərbi Azərbaycanın Dərələyəz mahalı” və “Azərbaycanın toponimləri və şivə sözləri” monoqrafi-yalarında da həmin mövzuya xüsusi diqqətlə yanaşmışdır. Həsən Mirzəyev Dərələyəz şivələrinin leksikasını yeddi hissəyə ayırmışdır. O, onları arxaikləşmiş sözlər, qohumluq əlaqələrini bildirən sözlər, terminoloji leksika və s. kimi qruplaşdırmışdır. Alim ilk dəfə olaraq Dərələyəz şivələrinin lüğətini tərtib etmişdir, altı yüz 3 sözün izahını təqdim etmişdir. “Seçilmiş əsərləri”nin III cildində (Bakı.2006) böyük alim Dərələyəz mahalına aid şivə sözlərin geniş təsnifatını aparmışdır.

[1] Mirzəyev H. Dərələyəz mahalının toponimləri və şivə sözləri, Bakı, “Ağrıdağ” nəş., 2003, 360s.//s.266



1. Arxaikləşən və arxaikləşmə ərəfəsində olan sözlər.

Oğuzların qədim yurd yerlərindən olan Dərələyəz mahalının şivəsinin olduqca maraqlı leksik sistemi vardır. Bu sözlər Azərbaycan xalqının tarixi inkişafını əks etdirir. Alimin fikirlərinə görə, ərazinin şivə leksikası hələ də tam, sistemli şəkildə öyrənilməmişdir. E.Əzizov bu şivənin Azərbaycan dilinin qərb və cənub ləhcələri arasında keçid xarakterli olduğunu söyləmişdir.[1]

H.Mirzəyevin gəldiyi qənaət belə olmuşdur ki, Dərələyəzin dialekt leksikası türk leksikasının qədim qatını mühafizə edir. Buna görə də həmin leksik vahidlərin bir qismi artıq arxaikləşmiş, bir qismi isə arxaikləşmə prosesindədir. Bəzi nümunələrə baxaq:

[1] Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı.1999//s.105

1) Yaşmax-qadınların ağzını, burnunu və üzünün bir tərəfini örtmək üçün başlarına saldıqları yaylıq, örtüyün bir hissəsi, örtük...[1]

Alimin qeydlərinə görə, bu söz geniş areala malikdir və Qovuşuq, Gülüdüz, Qaraqaya, Ələyəz, Qabaqlı və digər kəndlərdə *yaşməx*; Ağakənd, Heşin, Qozluca, Yelpin kəndlərində *yaşməx;* Kömür, Axta, Köşbək kəndlərində isə *yaşmək* formasında işlənmişdir.

"Kitabi-Dədə Qorqud" dastanında ***yaşmaq*** şəklində işlənən həmin söz "yad kişilərdən yaşınmaq üçün qadınların gözdən aşağı hissəsinin örtüyü" mənasını ifadə etmişdir (KDQ-un izahlı lüğəti. Bakı.1999. s.105). Həmin dil vahidinə XVIII-XX əsr Azərbaycan şairlərinin yaradıcılığında da rast gəlinir.

2) Ələm (tuğ) – dini bayraq. Bu söz Dərələyəz mahalının bir çox kəndlərində işlənmişdir. ***Tuğ*** sözü qədim türk sözüdür, M.Kaşğarinin "Divan"ında da işlənmişdir. Tuva, türk, qazax dillərində *tu,* qırğız dilində *tuu,* başqırd dilində *tiu* şəklində işlənmişdir. Azərbaycan toponimiyasında Tuğ adlı kəndin olması da məlumdur.

3) Ün – səs mənasında Dərələyəzin bir çox ərazilərində (Gülüdüz, Horbadıq və s) işlənmişdir. "Kitabi-Dədə Qorqud"da da işlənmiş bu sözün Azərbaycan dilinin digər dialekt və şivələrində də işlənməsilə rastlaşırıq. Məsələn; Laçın, Şamaxı, Şuşa, Oğuz, İsmayıllı və s.

[1] Mirzəyev H. Dərələyəz mahalının toponimləri və şivə sözləri, Bakı, "Ağrıdağ" nəş., 2003, 360s.//s.266

4) Küz – quzu saxlanan yer mənasında Dərələyəzin Yelpin, Heşin, Qovuşuq, Ələyəz, Sallı, Axta, Köşbək və digər ərazilərində işlənmişdir. Həmin söz haqqında E.Əzizov yazırdı: "Dialekt leksikasında geniş işlənən küz//güz//quz sözü (quzu salınan yer) payız mənalı küz sözü ilə bağlıdır (8. s. 249).

2. Qohumluq bildirən sözlər.

Tirə, uşağı, nəcabət, nənə, ata-aba-əpə, yeznə, kəv, kürəkən, yengə, dədə, qağa, dadaş, nəvə, nəticə, kötücə, əvlat, bibi, mama və s. sözləri bu qrupa aid etmişdir.

3. Çəki, ölçü, pul vahidlərinin adlarını bildirən sözlər.

Bu qrupa çanax, girvənkə, batman, çetver, çod içi, türə içi, yük, xəlvər, qulac, səjin, çərək. Çüyəcə, axca və s. sözlər daxil edilmişdir.

4. Vəzifə, rütbə bildirən sözlər.

Xan, bəy, pristav, yüzbaşı, qlava, katda, meşəbəyi və s.

5. köhnə vergi adlarını bildirən sözlər.

Toycü, odun pulu, tüstü pulu, saldat pulu və digər.

6. Bitki adlarını bildirən sözlər-fitonimlər.

Ağ ot, qara ot, kicirkan, gicirtkən, xatınbarmağı, yemilih, yemlix, yemlik, qırxbuğum, üçqulax, gülxətmi, kəkotu, keçi baldırqanı və s.

7. Termin səciyyəli sözlər.

Həsən Mİrzəyev bu qrupa aid olan sözlərin öz daxilində də təsnifat aparmışdır.

a) məişət, əkinçilik və biçinçiliklə bağlı sözlər: kotan, cüt, kürək, mala, şilaver, kərənti və s.

b) cütün, kotanın hissələrinə aid olan sözlər: maj, köbal, həvəndə, işgil və s.

c) maldarlığa aid olan sözlər: naxır, naxırçı, xalxal, kələ, qısır, ərəmik və s.

ç) ay, gün, fəsil adları ilə bağlı olan sözlər: böyük çillə, kiçik çillə, keçiqıran, bozay, qorabişirən ay, quyruq doğan ay, cəmlələr və s.

Hər hansı bir dilin leksik sistemi, leksik-semantik və leksik-tematik söz qruplarının birliyindən yaranmış semantik mühitini özündə əks etdirir. Həmin söz layları ümumi semantik cəhətlərinə və ya əşyanın təsnif edildiyi spesifik cəhətlərə əsasən, fərqləndirilən leksik vahidləri özündə ehtiva edir. Dildə mövcud olan sözlər mənsub olduğu dilin bir-biri ilə kontaktda olan nominativ sisteminə daxil olur.

Prof. H.E.Hüseynova

AFAD QURBANOV



(Qərbi Azərbaycan 1929 - 2009 Bakı)

Görkəmli türkoloq, Azərbaycan MEA-nın üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Afad Qurbanovun Azərbaycan dilçiliyinin inkişafnda böyük rolu olmuşdur. Milli dilçiliyimizin bütün sahələri ilə bağlı olaraq alim öz sözünü demiş, fikir bildirmişdir. Müasir Azərbaycan dilinin fonetikası, leksikologiyası, frazeologiyası, leksikoqrafiyası, derivatologiyasının sistemli tədqiqi A.Qurbanov tərəfindən həyata keçirilmişdir. Azərbaycan onomalogiyasının tədqiqi isə məhz Afad Qurbanovla başlamışdır. Alim Azərbaycanda "Onomalogiya" məktəbinin, Poetik onomalogiyanın bünövrəsini qoymuşdur.

Azərbaycan dialektologiyası da alimin diqqətindən kənarda qalmamış, bu sahədə də dəyərli fikirlərini söyləmişdir. Afad Qurbanovun "Cucikənd şivəsi" əsəri onun dialektoloji araşdırmalarının nəticəsi kimi meydana

gəlmişdir. Professorun fikrincə, dilimizin dialekt və şivələri araşdırılarkən, ilk növbədə, ərazidə yaşayan əhalinin etnik tərkibinə diqqət yetirilməlidir. Əvvəllər belə bir vacib məsələyə diqqət edilmədiyi üçün bəzi yanlış nəticələr meydana çıxmışdır. İlk dəfə A.Qurbanov bu ideyanı irəli sürməklə həmin yanlışlıqların düzəldilməsinə nail olmuşdur. Alimin fikrincə, dialektoloji araşdırmalar zamanı araşdırılan ərazinin milli və etnik tərkibi müəyyən edilməli, miqrasiya etmiş insanların keçdiyi coğrafiya, tarixi inkişaf nəzərə alınmalıdır.

Prof. Afad Qurbanov dialektoloji araşdırmaların yeni istiqamətlərini də müəyyən etmişdir. Yəni əvvəlcə sistemli şəkildə dialekt və şivələrin fonetikası, lüğət tərkibi, sonra isə qrammatikası araşdırılmalıdır. Çünki tədqiqat zamanı dil vahidləri kiçikdən böyüyə doğru istiqamətlənməli, əvvəl səs, söz, sonra isə cümlələr, mətnlər tədqiq edilməlidir. Bu araşdırmalar zamanı alim daha çox fonetikaya, sonra isə leksika və qrammatikaya önəm vermişdir.

Afad Qurbanov eyni zamanda əvvəlki illərdə dialektoloji terminlər sahəsində yol verilmiş dolaşıqlığı da aradan qaldırmağa səy göstərmiş, onların düzgün, yerində işlənməsinə nail olmuşdur.

A.Qurbanov açıq şəkildə izah etmişdir ki, Azərbaycan dilində dialekt və şivələrin təsnifində dəqiqləşmələrə ehtiyac vardır. Çünki bu sahədə səhvən hələ də ləhcə termini əvəzinə şivə termini işlədilir. Alim

dialektoloji anlayışları həcminə görə belə bir istiqamətdə sıralamağı məqsədəuyğun bilmişdir: şivə-dialekt-ləhcə-dil.

1989-cu ildən etibarən Qərbi Azərbaycandan – öz ata-baba torpaqlarından qovulmuş soydaşlarımızın yaşadıqları ərazilərlə bağlı problemlər Afad müəllimi həm ictimai xadim, həm də tədqiqatçı-alim kimi daim düşündürmüşdür. Bu da təsadüfi deyil. Çünki onun ömrünün gənclik illəri Qərbi Azərbaycanın Qızıl Şəfəq kəndi ilə bağlı olmuşdur. Gənclik dövründə topladığı materiallar əsasında Afaq Qurbanov 2007- ci ildə "Qərbi Azərbaycanın Cüci kəndi yazılı abidələrinin kəşfi" və "Qərbi Azərbaycanın Cüci kənd şivəsi" adlı kitablarını nəşr etdirmişdir.



Alimin 2001-ci ildə çap olunmuş “Cücəkənd şivəsi” və 2007-ci ildə işıq üzü görmüş “Qərbi Azərbaycanın Cucikənd şivəsi” kitablarında Cucikənd şivəsi təhlil olunaraq onun səciyyəvi xüsusiyyətləri açıqlanmış, bu şivəyə məxsus özəl dialektizmlərdən nümunələr verilmiş, həmin şivənin fonetik dil xüsusiyyətləri, leksik səciyyəsi aydınlaşdırılmışdır.

Professor Afad Qurbanovun elmi irsi bundan sonra da Azərbaycan elminə xidmət göstərəcək.

ELBRUS ƏZİZOV



(1947)

Əzizov Elbrus İslam oğlu (d.25.11.1947, Bərdə rayonunun Lənbəran k.) – Azərb dilçisi, türkoloq, filologiya e.d. (1991), prof. (1994), əməkdar müəllim (2009). Azərb. Dövlət Un-tinin filologiya fakültəsini bitirmişdir (1970). 1974–2011 illərdə həmin fakültədə müəllim, baş müəllim, dosent, prof., dekan vəzifələrində işləmiş, 2011 ildən türkologiya kafedrasının prof.-udur. Tədqiqatları Azərb. dialektologiyası, dil tarixi, onomastika və ümumi türkologiya problemlərinə həsr edilmişdir.

2 monoqrafiyanın, 100-dən çox məqalənin müəllifidir.

Əsərləri: Söz xəzinəsi (Söz haqqında araşdırmalar). Bakı, 1995; Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı, 2016.

Elbrus Əzizov 1947-ci il noyabrın 25–də Azərbaycan Respublikası Bərdə rayonunun Lənbəran kəndində anadan olub. 1965-1970-ci illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb. 1971-1974-cü illərdə Azərbaycan Dövlət Universitetinin türkologiya kafedrasının aspirantı olub. 1974-cü ildə "Azərbaycan dili dialekt və şivələrində saitlər ahəngi" mövzusunda namizədlik, 1990-cı ildə "Azərbaycan dilinin tarixi dialektologiyası (Dialekt sisteminin təşəkkülü və inkişafı)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.



Alimin Bakıda keçirilmiş Birinci Türkoloji qurultayla bağlı məqaləsini diqqətinizə çatdırmaq istərdim.

Qeyd: "Azərbaycan dilinin tarixi dialektologiyası" əsərindən mühazirə mətnlərində geniş məlumat verilmişdir.

BİRİNCİ TÜRKOLOJİ QURULTAY (1926-BAKI)

Xülasə, 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayda müzakirə edilən dil məsələləri içərisində türk dillərinin tarixi və inkişafı ilə bağlı olan nəzəri məsələlər xüsusi yer tutur. Bu məsələlərin şərhi qismən V.V.Bartoldun məruzəsində, geniş şəkildə isə B.Çobanzadənin, N.N.Poppenin, A.N.Samoyloviçin, N.İ.Aşmarinin və M.F.Köprülüzadənin məruzələrində öz əksini tapmışdır. Məqalədə qurultaydakı məruzə və çıxışlarda çuvaş dilinin mənşəyi və türk dilləri içərisində onun mövqeyi, türk və monqol dillərindəki rotatsizm və lamdaizm hadisələri, Altay dillərinin qohumluğu məsələsi, türk dillərinin yaxın qohumluğu, qədim türk dilləri, türk xalqlarmda ədəbi dilin inkişafı, türk dillərinin və onlarm dialektlərinin tədqiqinin əsas istiqamətləri haqqında söylənilən fikir və mülahizələr təhlil edilmişdir.

1926-cı ilin 26 fevral-6 mart günlərində Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay türk xalqlarının həyatında iz qoyan, büffin türk xalqlarının elmi və mədəni inkişafı üçün perspektiv əhəmiyyət daşıyan mühüm bir hadisə oldu. Stenoqrafik hesabatın titul səhifəsində

qurultayın sonuncu günü kimi 5 mart göstərilsə də, qurultay öz işini martın 6-da da davam etdirmiş, 16-cı və 17-ci iclaslar məhz həmin gün keçirilmişdir. Qurultayın açılışında 6 nəfər – Əli bəy Hüseynzadə, V.Banq, Mustafa Quliyev, N.Y.Marr, A.V.Lunaçarski və V.Tomsen rəyasət heyətinin fəxri üzvlüyünə seçildi. Bundan başqa, qurultayın adından bir sıra təşkilatlara və şəxslərə, o cümlədən türk dillərinin Orxon kitabələrini ilk dəfə oxumuş, onların türk xalqlarının yazılı abidəsi olduğunu sübut etmiş görkəmli Danimarka alimi Vilhelm Tomsenə təbrik teleqramlarnının göndərilməsi də qərara alınır. 131 nəfər nümayəndənin iştirak etdiyi Birinci Türkoloji Qurultayda 9 gün ərzində 17 iclas keçirilmiş, türk xalqlarınm tarix, etnoqrafıya, dil, ədəbiyyat və mədəniyyət məsələlərini əhatə edən həm nəzəri, həm də əməli xarakterdə olan çoxlu məsələlər geniş müzakirə edilmişdir[1], Qurultayda müzakirə edilən məsələlər içərisində dil məsələləri daha çox idi: türk dillərinin yaxın qohumluğu məsələsi; Altay dillərinin qohumluğu məsələsi; qədim türk dillərinin öyrənilməsi məsələsi; türkologiyanın tarixi və müasir vəziyyəti məsələsi; orfoqrafıya məsələsi; terminologiya məsələsi; əlifba məsələsi; türk xalqlarında ədəbi dilin inkişafı məsələsi; dilin tədrisi metodikası məsələsi. Birinci Türkoloji Qurultayda müzakirə edilən dil

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926.//s.2

məsələləri, xüsusilə əlifba, orfoqrafiya və terminologiya məsələləri haqqında çox yazılmışdır.[1]

Ancaq bütün bunlarla yanaşı, biz hesab edirik ki, türk dillərinin tarixi ilə bağlı olan, türkologiyanın inkişafı baxımından maraq doğuran bir sıra fikir və mülahizələrin də nəzərdən keçirilərək təhlil edilməsinə ehtiyac var. Qurultayda türkologiyanın tarixi və inkişafı ilə bağlı olan məsələlər qismən akad. V.V.Bartoldun məruzəsində, geniş şəkildə isə prof. B.Çobanzadənin, prof. N.N.Poppenin, prof. A.N.Samoyloviçin, prof. N.İ.Aşmarinin və prof. M.F.Köprülüzadənin məruzələrində öz əksini tapmışdır. Türkologiya tarixində şərəfli yer tutan bu alimlərin məruzələrində türkologiyanın müxtəlif sahələri üzrə əldə edilmiş nailiyyətlər nəzərə çarpdırılır, həllini gözləyən məsələlərin tədqiqi bir vəzifə kimi qarşıya qoyulur.

[1] 1926-el il Birinci Bakı Türkoloji Qurultayı. Stenoqram materialları, biblioqrafıya və foto-sənədlər. Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri: K.V.Nərimanoğlu, Ə.Ağakişiyev. Bakı, Çinar-çap, 2006.//s.459-481;
Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi. 2-ci hissə. Bakı, Maarif, 1987.//s.254-272;
Abdullayev Ə.Z. Azərbaycan dilçiliyi məsələləri. Bakı, Bakı Universiteti nəşriyyatı, 1992//s.52-57;
Babayev A. Bəkir Çobanzadə. Bakı, Şərq-Qərb, 1998.//s.56-58;
Xəlilov B. Türkologiyanın intibah dövrü. Bakı, Adiloğlu, 2001.//s.104-170;
Hacıyev T.İ. Birinci Türkoloji Qurultayda dil məsələləri//Bakı Universitetinin xəbərləri, humanitar elmlər seriyası. Bakı, 2006, № 2.//s.18-26;
Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi. 2 hissədə. 2-ci hissədə. Bakı, Elm, 2012. 10. Əzizov E.İ. Çuvaş dili haqqında // Bakı Universitetinin xəbərləri, humanitar elmlər seriyası. Bakı, 2006, № 2.//s.329-349

V.V.Bartoldun məruzəsi türk xalqları tarixinin araşdırılmasını ən yaxın vəzifələrinə həsr olunsa da, burada yeri gəldikcə ayrı-ayrı türk dilləri ilə bağlı olan, ümumiyyətlə, türkoloji dilçilik üçün mühüm olan mülahizələrə də rast gəlirik. Məlum olduğu kimi, türk dilbri arasında yakut dili ilə yanaşı xüsusi yer tutan və digər türk dillərindən kəskin fərqlənən çuvaş dilinin mövqeyi məsələsi türkologiyada mübahisələr doğurmuşdu. V.V.Bartold həmin məsələyə diqqət yetirərək qeyd edir ki, bəzi türkoloqlar çuvaş dilinin digər türk dillərindən bütün fərqlərini türklərin finlərlə qarışması ilə izah etməyə cəhd göstərir, digərləri isə bu fərqlərdə türk dillərinin özlərinin inkişafının daha erkən mərhələsinin qalıqların görürlər. Altayşünas N.N.Poppenin tədqiqatlarına istinad edən Bartold ikinci nöqteyi-nəzəri məqbul sayır və bu barədə deyir: "Bu linqvistik faktı tarixi faktlarla qarşılaşdırarkən, yəqin ki, çuvaşları Orta Asiyadan ilk köç hərəkatı dövrünün qalıqları kimi qəbul etməliyik ki, həmin hərəkatın əsas nümayəndələri hunlar idi"[1], Çuvaşların ən qədim tarixi əcdadları haqqında Bartoldun gəldiyi nəticə müasir türkologiyada da mötəbər fıkir sayılır. Görkəmli şərqşünas alim məruzəsində türklərin öz dilini qoruyub saxlamasını, başqa dillərlə toqquşarkən türk dilinin, adətən, qələbə çalmasını xüsusi olaraq qeyd edir: "İran mədəni təsirinə tabe olmalarına baxmayaraq, türklər böyük həyati qüvvə nümayiş etdirən öz dillərini qoruyub saxlamışlar.

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926//s.23

Başqa dillərlə toqquşarkən türk dili, adətən, qələbə çalır və indiyədək Türküstan, İran və Qafqazda nüfuz dairəsini genişləndirməkdədir".[1]

V.V.Bartold türklərin tarixinə aid müsəlman mənbələrindən danışarkən M.Kaşğarinin türk ləhcələrinə həsr olunmuş "Divanü lüğat-it-türk" əsərinin adını çəkir və onun Bağdadda tərtib edildiyini göstərir. Sonralar bu əsərin Bağdadda deyil, Kaşğarda yazıldığını söyləyənlər olsa da (P.K.Jüze, H.Hasanov), Bartoldun 1926-cı ildə söylədiyi fıkir müasir türkologiyada öz qüvvəsini saxlayır. Birinci Türkoloji Qurultayın fevralın 27-də keçirilən 3-cü iclasında prof. Bəkir Çobanzadə "Türk ləhcələrinin yaxın qohumluğu haqqında" mövzusunda məruzə edir. O, məruzəsinin əvvəlində türk dillərinin tarixinə qısa nəzər salır, bu dillərin Orxon yazılarından əvvəl də mövcud olduğunu qeyd edir və diqqəti türk adının işlənməsi məsələsinə yönəldir. Onun qənaətinə görə, tukyuların özlərini "türk" adlandırmaları şübhə doğurmur və bütün tarix boyu buna aid sanballı sübutlar var: "Müxtəlif dövrlərə məxsus olan bir sıra əsərlərə, məsələn: "Kutadqu bilik", "Divani-hikmət", "Divanü lüğat-it-türk", dərindən fıkir versək, görərik ki, onlar müxtəlif ləhcələrdə yazılıb, müəlliflər öz əsərlərini "türk" əsərləri və özlərini də "türk" adlandırıblar"[2], Burada vacib olan bir məsələni qeyd etmək lazımdır ki,

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926.//s.28
[2] Yenə orada.//s.96

B.Çobanzadə istər məruzəsinin adında, istərsə də məruzənin mətnində türk dillərini "türk ləhcələri" kimi təqdim edir. Bu köhnə dilçilik məktəbləri köhnə dilçilik təsəvvürləri ilə bağlı olan bir məsələdir və əlbəttə, aydındır ki, müasir dilçilik baxımından qəbul edilməzdir, çünki ləhcə termini məhəlli dialektə aid olan bir anlayışı bildirir. Ancaq biz istifadə etdiyimiz mənbəyə – stenoqrafik hesabata müdaxilə etməyib B.Çobanzadəyə aid olan fikirlərdə ləhcə terminini olduğu kimi saxladıq. Türk dillərinin "türk ləhcələri" kimi təqdim edilməsinə Birinci Türkoloji Qurultaydakı digər məruzə və çıxışlarda da təsadüf edilir. B.Çobanzadə Orxon yazılarına, "Kutadqu bilik" və "Divanü lüğat-it-türk" əsərlərinə türk dillərinin XIII əsrə qədərki tarixini öyrənmək üçün əsas mənbələr kimi yanaşır və XI əsrdə mövcud olan türk ləhcələri haqqında təsəvvür yaratmaq üçün Mahmud Kaşğarinin lüğəti üzərində dayanır. O, Mahmud Kaşğarini kifayət qədər hazırlıqlı, son dərəcə hərtərəfli və dərin biliklərə, geniş dünyagörüşünə malik bir adam kimi səciyyələndirir və öz fikrini onun aşağıdakı sözləri ilə əsaslandırır: "Türk ləhcələrində leksikanın əsası vahiddir, birdir. Orada fərq yoxdur. Əgər fərq varsa da, yalnız müxtəlif hərflərdə (səslərdə) və onların dəyişməsindədir"[1], B.Çobanzadə M.Kaşğarinin bu qənaətində hərtərəfli tədqiqat və dərin təhlilin nəticəsini görür. Məruzəçi XI əsrdə mövcud olan türk ləhcələri arasında M.Kaşğarinin göstərdiyi doqquz

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926.//s.97

səs fərqini konkret misallar əsasında təhlil edərək belə bir nəticə çıxarır: “Hər halda M.Kaşğarinin əsərindən görürük ki, bu günün canlı türk-tatar ləhcələri ümumi əlamətlərə görə hələ XI əsrə qədər müəyyənləşmişdir. Bu ləhcələrdə ən çox bəzi səs xüsusiyyətləri nəzərə çarpır və bu gün də onları şimal və cənub ləhcələrində fərqləndirici əlamətlər kimi tapa bilərik”[1], B.Çobanzadənin məruzəsində türkologiyanm müxtəlif sahəbrini tədqiq etmiş O.Bötlinq, V.V.Radlov, V.Tomsen, H.Vamberi, Budents, Q.İ.Ramstedt kimi alimlərin fəaliyyəti yüksək qiymətləndirilir, onların xidmətlərinin çox böyük və şübhəsiz olduğu göstərilir. Görkəmli alim türk dillərinin qohumluğu məsələsindən danışarkən türk dillərinin təsnifatı məsələsi üzərində dayanır: “Bu məsələdə, yəni türk ləhcələrinin qohumluğu məsələsində biz əsas kimi akadem izlər Korş və Radlova məxsus olan, sonralar isə prof. Samoyloviç tərəfindən tamamlanan, daha doğrusu, bir qədər genişləndirilən və çox böyük əhəmiyyət daşıyan təsnifatı götürə bilərik”[2], B.Çobanzadə rus alimlərinin (Berezin, Korş, Radlov, Samoyloviç) özbək və Şərqi Türküstan ləhcələrinin Şimalla Cənub arasında aralıq yer tutması barədəki fıkirlərini həqiqətə uyğun sayır və bu məsələyə dair öz mülahizələrini də söyləyir.

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926.//s.99
[2] Yenə orada.//s.101

O, türk dillərinin öyrənilməsinin istiqamətlərindən danışarkən haqlı olaraq qeyd edir ki, "indi fantastik düşüncələri bir kənara qoymaq və ayrı-ayrılıqda hər bir türk ləhcəsinin öyrənilməsinə başlamaq, yaxud hansısa ləhcələr qrupuna dair müqayisəli tədqiqatların aparılması ilə məşğul olmaq daha məqsədəuyğun olardı[1], B.Çobanzadə türk dillərinin müqayisəli qrammatikasının yaradılması zərurətindən danışır və ümid edir ki, türkoloqların qələmindən çıxan belə bir əsər Ural-Altay nəzəriyyəsini kifayət qədər işıqlandıracaq və onun aydınlaşdırılmasına yardımçı olacaq.

Birinci Türkoloji Qurultayda böyük maraqla qarşılanan məruzələrdən biri altayşünas N.N.Poppenin "Altay dillərinin qarşılıqlı qohumluğu məsələsinin tarixi və müasir vəziyyəti" mövzusundakı məruzəsi olmuşdur.

Türk dillərinin monqol dillərinə qohumluğu məsələsinə həsr olunan bu məruzədə məsələnin tarixindən və onun müasir vəziyyətindən bəhs olunur. N.N.Poppe Altay müqayisəli dilçiliyinin əsası XVIII əsrdə qoyulan Ural-Altay dilçiliyinin içindən sonralar yarandığını, Ural-Altay dilçiliyinin əsasının isə Rusiyanın şərq hissəsində və Sibirdə uzun illər hərbi əsir kimi yaşamış Filip İohan Stralenberqin 1730-cu ildə Stokholmda nəşr olunmuş "Avropa və Asiyanın şimal və şərq hissəsi" əsəri ilə qoyulduğunu göstərir (Birinci Türkoloji Qurultaydakı digər məruzələrdən fərqli olaraq,

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926.//s.102

N.N.Poppenin məruzəsində istinad edilən əsərlərə çıxarışlar verilir). F.İ.Stralenberq öz əsərində dil baxımından yaxın saydığı xalqları təsnif edərək onları 6 qrupa bölmüşdü.

N.N.Poppe Stralenberqin təsnifatının qüsurlu olduğunu göstərir və onun yalnız ilk təsnifat kimi diqqətəlayiq olduğunu qeyd edir. Məruzədə deyilir: "...Bu təsnifat daha sonralar verilən təsnifatlara müvafiq gəlmir və bir çox hissələri düz deyil, çünki burada bir neçə qrupda, əslində, müxtəlif qruplara aid edilməli xalqlar birləşdirilib. Bununla belə, o, ilk təsnifat kimi diqqətə layiqdir.

Stralenberq Ural-Altay problemini qaldırdı və onun xidməti də elə bundadır"[1].

N.N.Poppe Ural-Altay dilləri qrupunun müəyyən edilməsində Rasmus Raskın və Maks Müllerin cəhdlərini tama- milə uğursuz hesab edir. O, Ural-Altay dilçiliyi tarixində M.A.Kastrenin xidmətlərinə yüksək dəyər verir, onun haqqında "dahi tədqiqatçı" ifadəsini işlədir və qəti şəkildə söyləyir ki, "elmi doğru yola Kastren yönəltdi". Məruzəçiyə görə, bütün həyatını Ural-Altay dillərinin tədqiqinə həsr edən Kastren araşdırdığı dillərin qarşılıqlı münasibətləri məsələsinə hamıdan yaxşı bələd idi. Kastren "Altay" adlandırdığı dillərin çevrəsini beş dil ailəsi ilə (fin,

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926.//s.105
1926-el il Birinci Bakı Türkoloji Qurultayı. Stenoqram materialları, biblioqrafıya və foto-sənədlər. Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri: K.V.Nərimanoğlu, Ə.Ağakişiyev. Bakı, Çinar-çap, 2006.//s.109

samoyed, türk, monqol, tunqus) məhdudlaşdırır[1], N.N.Poppenin məruzəsində Ural-Altay dilçiliyi, sonralar isə müstəqil Altay dilçiliyi sahəsində çalışmış alimlərdən V.Şott, H.Vinkler, Q.İ.Ramstedt və Y.Nemetin mülahizələrinin təhlilinə geniş yer verilir, türkologiya üçün çox əhəmiyyətli olan məsələlərə xüsusi diqqət yetirilir. Poppe V.Şottun xidmətlərindən danışarkən qeyd edir ki, o, Altay dilləri ailəsi üçün son dərəcə səciyyəvi olan r~z və l~ş səs uyğunluqlarını tamamilə düzgün müəyyənləşdirmiş, bəzi Altay dillərinin, məsələn, çuvaş dilinin yerini tamamilə doğru təyin etmiş, bu dilin türk dili (yəni türksistemli dil - E.Ə.) olduğunu göstərmişdi.[2] O, fın alimi Q.İ.Ramstedtin o dövrdəki tədqiqatlarından bəhs edərkən onun monqol və türk dillərinin bir sıra mühüm fonetik qanunlarını müəyyənləşdirməyə nail olduğunu qeyd etdikdən sonra misal olaraq onun türklərdə işlənən "z" və "ş" səsləri haqqında təklif etdiyi nəzəriyyəni nəzərə çarpdırır: "...Türklərdə "z" və "ş" monqol və çuvaş dillərində qalan və daha qədim olan "r" və "p"nın inkişaf etmiş formalarıdır. Bu sonuncu nəzəriyyə hazırda yeganə məqbul nəzəriyyədir".[3] Yeri gəlmişkən qeyd edək ki, türkologiyada çuvaş dilindəki rotatsizm hadisəsi ilə əlaqədar başqa fikir də var.

Q.İ.Ramstedt və N.N.Poppedən fərqli olaraq, V.A.Boqoroditski, İ.Bentsiq, B.A.Serebrennikov,

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926.//s.107
[2] Yenə orada.//s.109
[3] Yenə orada.//s.113

A.M.Şerbak və A.Rona-Taş belə hesab edirlər ki, çuvaş dilindəki rotatsizm hadisəsi sonradan meydana çıxmışdır.[1]

B.A.Serebrennikova görə, çuvaş dilindəki "z" rotatsizminin ən ehtimal olunan səbəbi maneənin novunun zəifləməsi nəticəsində ilkin z samitinin r-ə çevrilməsidir[2], Bu məsələ ilə bağlı olaraq A.M.Şerbakın gəldiyi nəticə belədir ki, rotatsizm hadisəsi samitin artikulyasiyasının maksimum zəifləməsi nəticəsində s→z→r keçidi şəklində meydana çıxmışdır[3], hətta B.A.Serebrennikov və S.S.Xarkovanın birgə tədqiqatına görə, rotatsizm və lamdaizm hadisələri monqol dillərində sonralar əmələ gəlmişdir.[4]

N.N.Poppenin məruzəsində çuvaş dilinin mənşəyi haqqında müasir türkologiya üçün əhəmiyyətli olan fikirlər də yer almışdır. Məruzəçi Q.l.Ramstedin belə bir fikrini məqbul hesab edir ki, çuvaş dili türk dilinin (yəni qədim türk dilinin - E.Ə.) qanunauyğun inkişafının nəticəsidir, həm də bu zaman monqol dili tərəfindən heç bir birbaşa təsir olmamışdır. Həmin məsələ ilə bağlı Poppenin bir qeydi

[1] Əzizov E.İ. Çuvaş dili haqqında // Bakı Universitetinin xəbərləri, humanitar elmlər seriyası. Bakı, 2006, № 2.//s.41-42
[2] Серебренников Б.А. Что было первичным г или z? // Советская тюркология. Баку, 1971, № 1.//s.18
[3] Щербак А.М. Проблема ротацизма и перспективы дальнейшего изучения тюркско-монгольских языковых связей // Советская тюркология. Баку, 1987, № 3//s.4
[4] Серебренников Б.А., Харькова С.С. О некоторых эффективных методах исследования проблемы родства тюркских и монгольских языков // Советская тюркологоия. Баку, 1983, № 5.//s.52-54

xüsusilə diqqətəlayiqdir: "...Volqa bulqar dili, çox güman ki, indiki çuvaş dilinin əcdadı olub".[1]

Birinci Türkoloji Qurultayda prof. A.N.Samoyloviç, prof. S.Y.Malov və prof. N.İ.Aşmarinin məruzələri də ümumtürkoloji istiqamətdə olmuşdur.

A.N.Samoyloviçin "Türk dillərinin tədqiqinin müasir vəziyyəti və ən yaxın vəzifələri" adlı məruzəsində canlı türk dillərinin tədqiqi sahəsində türkologiyada görülmüş işlər yekunlaşdırılır, türk şivələrinin öyrənilməsi yolları göstərilir. Onun fikrinə görə, ilk növbədə hər bir respublikada yerli diyarı onun canlı dialektləri baxımından öyrənən mərkəzlər yaratmaq və həmin mərkəzləri hazırlıqlı, öz xalqlarını dil baxımından da öyrənə bilən əməkdaşlarla təmin etmək lazımdır. A.N.Samoyloviç gələcəkdə aparılacaq tədqiqatların istiqamətlərini də göstərir: hər bir ayrıca şivənin fonetika, morfologiya və sintaksisinin daxil olduğu təsviri qrammatikanın tərtibi; ayrı-ayrı lüğətlərin, ümumi-etimoloji, ümumtürk lüğətinin hazırlanması; türk xalqlarının və onların dillərinin tədqiqinə dair xüsusi biblioqrafiyanın yaradılması.[2]

S.Y.Malov "Qədim türk dillərinin öyrənilməsi" mövzusundakı məruzəsində türk dillərinin Orxon-Yenisey və uyğur yazısı abidələrinin dil xüsusiyyətləri ilə əlaqədar diqqətəlayiq fikirlər söyləyir. Onun qənaətinə görə, Yenisey abidələrinin dili qırğızlara, Orxon və Selenqa çayı

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926.//s.115
[2] Yenə orada.//s.139

abidələrinin dili isə qədim oğuzlara məxsusdur. Görkəmli türkoloq uyğur yazılı abidələrinin dilini "süni kitab dili" hesab edən V.V.Radlovla razılaşır və bu dilin, əsasən, tərcümə kitab dili olduğunu, sarı uyğurların indiki dilinin bu kitab dili ilə uyğun gəlmədiyini göstərir: "Sarı uyğurların indiki dili, şübhəsiz, çox qədim olsa da, yenə də bu kitab dili ilə, ədəbi dillə uyğun gəlmir. Samoyloviçin təsnifatı ilə tanış olanlar üçün bircə nümunə gətirmək olar ki, bu dil "z" dialekt dilidir, yazıların dili, kitab uyğur dili isə adak qrupunun "d" dialekt dilidir".[1]

N.İ.Aşmarin "Türkologiyanın keçmişi və onun hazırkı vəziyyəti haqqında bəzi məlumatlar" adlı məruzəsində türkologiyanın inkişaf tarixinə nəzər salır, O.Bötlinqk, V.V.Radlov, V.Tomsen və N.F.Katanovun müstəsna xidmətlərindən bəhs edir. Məruzəçi Otto Bötlinqkin 1851-ci ildə Sankt-Peterburqda alman dilində nəşr olunmuş "Yakutlarm dili haqqında" (Über die Sprache der Yakuten) əsərini yüksək qiymətləndirərək qeyd edir ki, o, təkcə dil hadisələrinin təsviri ilə kifayətlənmədi, eyni zamanda yakut dilinin formalarının aydınlaşdırılması üçün türk ləhcələri üzrə sələfləri tərəfindən toplanan materialları da cəlb etdi və beləliklə, onun klassik əsəri sanki türk dillərinin gələcək müqayisəli qrammatikasının bünövrəsinə qoyulan ilk təməl

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926.//s.141

daşı oldu”[1], N.İ.Aşmarin türk dialektlərinin öyrənilməsi sahəsindəki nöqsanları da diqqətə çatdırır və onları səkkiz maddədə ümumiləşdirir. O, məruzəsinin sonunda özlərini yerli dialektlərin öyrənilməsinə həsr edən tədqiqatçıların vacibliyi məsələsinə toxunur və belə hesab edir ki, əyalətlərdəki əməkdaşlara lazımi diqqət yetirilərsə, türkologiya sürətli addımlarla irəliləyə bilər.

Birinci Türkoloji Qurultayda dialektlərin dilçilik coğrafiyası metodu ilə öyrənilməsi ilə bağlı təklif də olmuşdur. Görkəmli dilçi alim L.V.Şerba prof. A.N.Samoyloviçin məruzəsi ib əlaqədar olan çıxışında Qərbi Avropanın bir sıra ölkələrində linqvistik coğrafiya metodunun geniş yayılmasından, dilçilik atlaslarının hazırlanmasından söhbət açır, türk dillərinin, bütün türk filologiyasının tədqiqi üçün mərkəzi bir orqanın yaradılması təklifini irəli sürür və hesab edir ki, həmin orqan belə bir atlasın nəşri üçün hazırlıq işinə başlaya bilər, XX əsrdə dilçilikdə çox aktual olan bu məsələ ilə bağlı qeyd etməliyik ki, Azərbaycan dili dialektlərinin dilçilik coğrafiyası metodu ilə öyrənilməsi işinə 1957-ci ildə Azərbaycan Elmlər Akademiyası Nizami adına Ədəbiyyat və Dil İnstitutunda başlanılmış, Azərbaycan dilinin dialektoloji atlasının tərtibi üçün toplanan materialların proqramı 1958-ci ildə nəşr olunmuşdur.

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926.//s.143

Dilimizin 128 xəritədən ibarət ilk dialektoloji atlası isə 1990-cı ildə "Elm" nəşriyyatında işıq üzü görmüşdür. Birinci Türkoloji qurultayın stenoqrafik hesabatında prof. M.F.Köprülüzadənin "Türk xalqlarında ədəbi dilin inkişafı" mövzusunda türk dilində etdiyi məruzənin rus dilində qısa məzmunu verilmişdir. Alimin qənaətinə görə, İslamın qəbulundan əvvəl də türklər arasında bəzi əlifbalar mövcud idi və həmin əlifbalardan istifadə edən bəzi ləhcələr "ədəbi" dillər adlandırıla bilər. Onun Orxon abidəbrinin dili haqqında fıkri olduqca dəyərlidir: "Orxon abidələrinin dili artıq inkişaf etmiş ədəbi dildir".

M.F.Köprülüzadə Mahmud Kaşğarinin əsərinin yazıldığı dövrdə "artıq iki türk ədəbi ləhcəsinin - şərq və qərb ləhcələri"nin mövcud olduğunu dəqiqliklə göstərir. O, birinci ləhcəni, yəni şərq ləhcəsini xaqaniyyə ləhcəsi, yaxud sadəcə "türk" ləhcəsi, ikinci ləhcəni - qərb ləhcəsini isə "oğuz ləhcəsi" adlandırır.[1] Bu qısa xülasədən göründüyü kimi, nəzərdən keçirilən fıkir və mülahizələr türkologiyanın tarixi və inkişafı baxımından çox əhəmiyyətlidir.

Birinci Türkoloji Qurultayda türkologiyanın müxtəlif sahələri üzrə müzakirə edilən məsələlər və qəbul edilmiş qətnamələr türkologiyanın tarixində yeni dövrün başlanğıcı olmuşdur.

prof. Elbrus Əzizov

[1] Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926.//s.325

MAHİRƏ HÜSEYNOVA



(1960)

Qədim və ortaq kökə malik türk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiya məsələləri bu günədək türkologiyada, demək olar ki, əsaslı və fundamental şəkildə araşdırma obyektinə çevrilməmiş, bu sahədə hələ də bəzi problemli məsələlər öz həllini gözləməkdədir. Türk xalqları tarixin müəyyən dönəmlərində bir-birindən ərazi cəhətdən müəyyən qədər uzaq yaşasalar da, öz etnik mənsubiyyətlərinə görə dil, dialekt və şivə baxımından bir-birini anlaya bilir və dillərinin yaxınlığı ilə eyni kökə mənsub olduqlarını sübut edirlər. Qeyd etmək yerinə düşər ki, ümumtürk dillərinin dialekt və şivələrinin hər biri ayrı-ayrılıqda öz ilkinliyinə, miqyasına, tarixi-linqvistik faktlarına görə olduqca zəngindir və bu dillərin dialektlərində fonetik, leksik, qrammatik xüsusiyyətlərin

hərtərəfli araşdırılması türkologiyanın ən aktual vəzifələrindən biridir.

Filologiya elmləri doktoru, professor Mahirə Nağı qızı Hüseynovanın "Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası" (Bakı, 2020) kitabı bu baxımdan xüsusi maraq kəsb edir. Müəllif Azərbaycan dilçiliyi tarixində ilk dəfə olaraq, 20-ci əsrin ikinci yarısından başlayaraq bugünkü dövrümüzə qədər aparılmış tədqiqatları çox diqqətlə nəzərdən keçirir və müqayisəli şəkildə həmin tədqiqatları ardıcıllıqla araşdırmaya cəlb edir. Monoqrafiyanın I fəslində Azərbaycan dilçiliyində ümumtürk dilləri dialekt və şivələrinin müqayisəli aspektdə tədqiqi məsələlərindən bəhs edən müəllif keçən əsrin 50-ci illərindən türk dillərinin dialekt və şivələrində burun samitlərinin mövcudluğunu ilk dəfə akademik Məmmədağa Şirəliyevin müşahidə etdiyini yazır və türkologiyada burun samitlərinin tədqiq edilmədiyini nəzərə alaraq bunları əmələ gətirən fonetik şərait, deyiliş yeri haqqında fikir bildirir. M.Hüseynovanın araşdırmalarına əsasən demək olar ki, M.Şirəliyevin həm Azərbaycan, həm digər türkcələrin dialekt və şivə materialları üzrə apardığı araşdırmaların hər biri ayrı-ayrılıqda təqdirəlayiqdir. Əsərdə akademik Ağamusa Axundovun da tədqiqatlarına xüsusi diqqət yetirilir. Alimin iki məqaləsində iki problemə dair mülahizə irəli sürülüb: dialekt sistemlərinin bir-birinə münasibəti və dialekt sistemlərinin aborigenlərin - ölkənin qədim əhalisinin dil sistemi faktlarına münasibəti. Akademik A.Axundov

məqalələrində ümumtürk dilləri dialekt və şivələrində mövcud dil hadisələrinə dialektoloqların meyarlarından yanaşmış, inteqrasiya məsələləri üçün əhəmiyyətli fikirlər söyləmişdir ki, bunlarsız sözügedən problemlərin düzgün, elmi dəlillərlə əsaslandırılmış şərhini vermək mümkün deyil. M.Hüseynova Azərbaycanın, o cümlədən, ümumtürk dillərinin dialekt və şivələrinin tədqiqində akademik Tofiq Hacıyevin böyük xidmətləri olduğunu qeyd edir və yazır ki, ümumtürk dillərinin dialekt və şivələrinin qarşılıqlı inteqrasiya məsələlərinin tədqiqində T.Hacıyevin "Cəbrayıl şivəsi" monoqrafiyası ciddi əhəmiyyət kəsb edir.

Ümumtürk dilləri dialekt və şivələrinin tədqiqi tarixində görkəmli türkoloq Fərhad Zeynalovun da müstəsna xidmətlərini nəzərə çatdıran müəllif bu barədə yazır ki, professor F.Zeynalov "Türkologiyanın əsasları" əsərində ümumtürk dilləri dialekt və şivələrinin əmələ gəlməsi, inkişafı, təsnifi, tədqiqi və onları səciyyələndirən leksik, fonetik, qrammatik əlamətlər barədə məlumatlar verərək, türk dillərinin qəbilə, tayfa, tayfa birlikləri, xalq və milli ədəbi dillərə yüksələnə qədərki inkişaf mərhələlərinin dolğun bir şəkildə inkişafını izləyə bilib. Kitabda qeyd olunur ki, F.Zeynalov ümumtürk dilinin dialekt və şivələrinin tədqiqatçısı kimi, türkdilli xalqların dialekt və şivələrini bir-birindən fərqləndirən spesifik cəhətləri fonetik, leksik və qrammatik cəhətləri şərh edib.





Ümumtürk dilləri dialekt və şivələrinin müqayisəli təhlili professor Həsən Mirzəyevin də yaradıcılığında xüsusi yer tutur. Onun uzun illər apardığı araşdırmalar nəticəsində Qərbi Azərbaycanın Dərələyəz mahalının toponimlərinin və dialektlərinin toplanılması kimi mühüm iş həyata keçirilmiş, məhz Həsən Mirzəyevin fəaliyyəti nəticəsində dialekt və şivələrimizin öyrənilməsi xalqımızın dil tarixi, dilimizin arxaik leksik qatı, eləcə də dilçiliyimizin qohum türk dilləri ilə əlaqəsi ətraflı şəkildə araşdırılaraq monoqrafiya şəklində nəşr edilmişdi. Monoqrafiyada H.Mirzəyev Dərələyəz şivələri üçün səciyyəvi olan bir çox fonetik və leksik xüsusiyyətləri üzə çıxarmış, onun dialekt və şivələrimiz içərisində yerini, mövqeyini müəyyənləşdirmişdi.

M.Hüseynova, haqlı olaraq, professor H.Mirzəyevin Dərələyəz mahalının şivə sözlərinə həsr etdiyi tədqiqatı bütöv və sistemli araşdırma kimi qiymətləndirir. Professor H.Mirzəyev Dərələyəz mahalı şivələrində qohum türk dilləri ilə paralellik təşkil edən şivə sözlərini müqayisəli şəkildə araşdırmaqla türkologiyamızda dilimizin tarixinin gizli şivələrini üzə çıxarıb. Onu da nəzərə almalıyıq ki, Dərələyəz mahalına aid olan şivə sözlərini əhatə edən, bu sözlərin mənalarının dəqiq izahını verən bir lüğətə böyük ehtiyac var idi.

M.Hüseynovanın tədqiqatında professor Elbrus Əzizovun bu sahəyə aid çoxlu sayda məqalə, monoqrafiya və dərs vəsaiti yazdığını qeyd edərək yazır ki, onun "Azərbaycan dilinin tarixinin leksikologiyası" adlı dərsliyi xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatçı alim əsərin müvafiq bölmələrində ümumtürk dilləri dialekt və şivələrinin fonetik, leksik və qrammatik xüsusiyyətləri barədə müqayisələrə də geniş yer ayıraraq, maraqlı fikirlər söyləyib.

Müəllif əsərində dialektoloq Bayram Əhmədovun tədqiqatlarına da xüsusi yer verib. B.Əhmədov "Azərbaycan dili söz yaradıcılığında sadələşmə meyli" adlı dərs vəsaitində şivə sözlərinin tarixi-etimoloji təhlilini verərək, Azərbaycan dili ilə bərabər, türk, qaraçay-balkan, kumuk, karaim, Krım tatarları, noqay, başqırd, altay, tatar, çuvaş və sair türkcələrin ədəbi dil və ya dialekt materiallarına da müraciət edib, olduqca əhəmiyyətli mənbələrdən istifadə edərək qənaətlərini əsaslandırıb.

Monoqrafiyada pofessor İsmayıl Kazımovun, Məhərrəm Məmmədlinin, Hüseyn Əsgərovun, Əzizxan Tanrıverdiyevin, Buludxan Xəlilovun, Kamil Bəşirovun yaradıcılığında ümumtürk dialekt və şivələrinin müqayisəli təhlili, həmçinin, qarşılıqlı inteqrasiya məsələlərindən bəhs edilir, məqalə və əsərləri təhlil olunur.

M.Hüseynova "Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri", "Naxçıvan MSSR-in dialekt və şivələri" əsərlərinin də təhlilini verib, ümumtürk dilləri dialekt və şivələrinin müqayisəli aspektdə tədqiqində dialektoloji lüğətlərin elmi əhəmiyyətini əsaslı nümunələrlə şərh edib. Müəllif ümumtürk dillərində bəzi yemək adlarının tarixi-etimoloji təhlilini də aparıb.

II fəsildə ümumtürk dialekt və şivələrinin qarşılıqlı inteqrasiyasını təhlil süzgəcindən keçirən M.Hüseynova III fəsildə ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyasını Azərbaycan, türk, qırğız, qumuq, yakut, kaşğar, özbək, karaim, şor, tuva, türkmən və s. dillərin dialekt və şivələri əsasında əhatəli olaraq daha dərindən araşdırıb, sonrakı fəsillərdə uyğunlaşdırılmış sözlərin fonetik, morfoloji xüsusiyyətlərini müqayisəli şəkildə tədqiq edib, leksik-semantik yöndə izahlar verib.

Ümumtürk leksik bazası əsasında müxtəlif peşələrlə bağlı leksik vahidləri, tayfa, nəsil adlarını, qohumluq münasibətini bildirən sözləri, təsərrüfat, atçılıq terminlərini və onların ümumtürk dillərinin dialektlərinə qarşılıqlı inteqrasiyasını, həmçinin toy mərasimi leksikası və onların

ümumtürk dillərinin dialektlərində qarşılıqlı əksini zəngin nümunələr əsasında şərh edən müəllif qədim və müasir türk ləhçələrində yemək və içki adlarını, habelə söz-cümlə modelli onomastik vahidləri də nəzərdən qaçırmayıb. Monoqrafiyada uyğunlaşdırılmış sözlərin fonetik, qrammatik, leksik-semantik yöndə tarixi-genetik və struktur-funksional xüsusiyyətləri zəngin dialektoloji və türkoloji mənbələr əsasında ustalıqla nəzərdən keçirilib.

Müəllif əsərində türk dilləri dialektlərinin (Oğuz və Qıpçaq qrupu) bu və ya digər türk dillərinin ədəbi dillərə inteqrasiyasında əsas rol oynayan dialektləri müəyyənləş-dirib və bununla qədim türk protodilləri rekonstruksiya edilib.

Professor Mahirə Hüseynovanın Azərbaycan dilçiliyində ümumtürk dillərinin dialekt və şivələrinin müqayisəli aspektdə tədqiqi və qarşılıqlı inteqrasiyasına həsr etdiyi "Ümumtürk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası" (Bakı, 2020) adlı bu kitab ümumtürk dialekt və şivələrimizin fonetik, leksik və qrammatik yaxınlığı, oxşar və fərqli cəhətləri, onların qarşılıqlı inteqrasiyası barədə son dövrdə yazılmış çox qiymətli əsərdir.

Türkoloji dilçiliklə bağlı tədqiqat aparan hər bir şəxs bu kitabdan bəhrələnə bilər.

Məqalə müəllifi:
İbrahim BAYRAMOV

MƏHƏRRƏM MƏMMƏDLİ



(1958)

Görkəmli dilçi alim, tanınmış türkoloq, Bakı Dövlət Universitetinin Türkologiya kafedrasının professoru, filologiya üzrə elmlər doktoru Məhərrəm Əvəz oğlu Məmmədov 1958-ci il oktyabrın 10-da Zərdab rayonunun Əlvənd kəndində anadan olmuşdur. 1975-ci ildə Göyçay şəhərində 6 saylı orta məktəbi, 1980-ci ildə isə Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirmişdir. 1980-1986-ci illərdə İsmayıllı rayonunun İstisu və Aşağı Cülyan kəndlərində Azərbaycan dili və ədəbiyyatı müəllimi vəzifəsində işləmişdir. 1986-1989-cu illərdə "Azərbaycan dili" ixtisası üzrə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun əyani aspirantı olmuş, 1989-cu ildə görkəmli dialektoloq Musa İslamovun rəhbərliyi altında yazdığı "Azərbaycan dilinin Təbriz dialekti" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1989-1997-ci illərdə Azərbaycan Milli Elmlər

Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsində elmi işçi vəzifəsində çalışmış, 1998-ci ildən Bakı Dövlət Universitetinin Türkologiya kafedrasında baş müəllim kimi fəaliyyətini davam etdirmişdir. M.Məmmədov 2006-cı ildə "Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları" mövzusunda elmlər doktorluğu dissertasiyası müdafiə etmişdir. 2009-cu ildə dosent, 2012-ci ildə professor elmi adlarını almışdır. Professor M.Məmmədov 2007-2015-cu illərdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Filologiya bölməsində ekspert olmuşdur. 2015-ci ildən AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən Dissertasiya Şurasının üzvüdür. O, 2008-cu ildən 2022- ci ilə kimi BDU-nun Filologiya fakültəsinin Tədris Metodiki Şurasının sədri olmuşdur.

M.Məmmədovun elmi fəaliyyətinin əsas istiqamətini Azərbaycan dili şivələ rinin müasir vəziyyətinin öyrənilməsi təşkil edir. Bu baxımdan onun qələminə məxsus "Azərbaycan dilinin Təbriz dialekti" (2008), "Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları" (2003) adlı monoqrafik tədqiqatları özünün yüksək elmi keyfiyyəti ilə seçilir. "Azərbaycan dilinin Təbriz dialekti" əsəri Azərbaycan dilinin bu dialektinə həsr olunmuş ilk monoqrafik tədqiqatdır. Burada tədqiq olunan şivənin fonetik, leksik, morfoloji və sintaktik xüsusiyyətləri barədə

müfəssəl məlumat verilir. Keçən əsrin 80-ci illərində belə mövzu üzərində işləmək həddindən artıq çətin bir iş idi. Təbrizə gedib material toplamaq imkanı olmayan tədqiqatçı Təbrizdən Şimali Azərbaycana gəlmiş mühacirlərin danışığı, Təbriz dialektinə aid xarici türkoloqların çap etdirdiyi dialektoloji materiallar əsasında araşdırma aparmış, Azərbaycan dilinin bu dialektinin xarakterik xüsusiyyətlərini aşkara çıxara bilmişdir. "Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları" əsəri isə tədqiqat metodunun fərqli olması ilə diqqəti çəkir. Bu əsərdə təsviri metod tarixi-müqayisəli, bəzən də tipoloji metodlarla birgə tətbiq olunur, Azərbaycan dilinin dialekt materialları Ural-Altay dillərinin materialları ilə müqayisədə verilir. Bu, Azərbaycan dialektologiyasında yeni istiqamətdir və M.Məmmədovun adı ilə bağlıdır. Bu əsər eyni zamanda dil materiallarının təsvir olunması deyil, müqayisə olunaraq ümumiləşdirilməsini də özündə əks etdirdiyindən sonrakı dialektoloji tədqiqatlar üçün də xüsusi əhəmiyyətə malikdir. Onun əsərlərində Azərbaycan dili şivələrində müşahidə olunan ikiqat hallanma, mənsubiyyət şəkilçisinin ikiqat işlənməsi, qədim cəmlik və hal şəkilçilərini özündə hifz edən relikt formalar və digər bir çox dil təzahürlərinin mənşəyi izah olunmuşdur. M.Məmmədov Azərbaycan dilinin ayrı-ayrı şivələrinin dialektoloji atlasının və lüğətlərinin hazırlanmasında da yaxından iştirak edir. Onun həmmüəllif olduğu "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" (2015), "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur atlası"

(2022), “Azərbaycan dilinin Naxçıvan dialektoloji lüğəti” (2017) Azərbaycan dilçiliyinin müasir səviyyəsini əks etdirir. Azərbaycan dialektologiyasına həsr etdiyi əsərlər içərisində “Gəncədə yaşa yan təbrizlilərin bəzi dil xüsusiyyətləri” (1989), “Azərbaycan dili şivələrində ikiqat mənsubiyyət şəkilçisinin işlənməsi” (1998), “Qarabağ dialekti mənbələrdə” (2003), “Zərdab şivəsinin morfoloji xüsusiyyətləri” (2011), “Güney Azərbaycan şivələrinin tədqiqi, təsnifi və əsas xüsusiyyətləri” (2014), “Azərbaycan dialektologiyasının inkişaf mərhələləri” (2015), “Azərbaycan dialektologiyası: son nailiyyətlər və problemlər” (2015), “Zaqatala-Şəki bölgəsi şivələrində qərb elementləri (fonetik xüsusiyyətlər)” (2016), “Cənubi Azərbaycan şivələrində feilin zaman formaları” (2017) məqalələri yüksək elmi keyfiyyətinə görə xüsusi seçilir.

M.Məmmədovun əsərlərinin müəyyən qismi Azərbaycan dili tarixinin bir sıra mübahisəli məsələlərinə həsr olunmuşdur. Onun “Gəncə–Yelizavetapol–Kirovabad–Gəncə” (1998), “Kitabi-Dədə Qorqud” abidəsində mənsubiyyət anlayışının ifadəsi” (1999), “Kitabi-Dədə Qorqud” və Azərbaycan şivələri (ismin qrammatik kateqoriyaları nümunəsində)” (2000), “Etnoqrafik yaddaşımızı yaşadan sözlər” (2005), “M.Kaşğarinin “Divani lüğat-it-türk” əsəri və Azərbaycan dili” (2009), “Əkinçi” qəzetində dil məsələləri” (2013), “Y.Seyidov və dil tarixi məsələləri” (2017) adlı əsərləri buna nümunə ola bilər.

Bir sıra əsərləri müasir türk dillərinə, həmçinin Ural-Altay dillərinin türk dilləri ilə qohumluğu probleminə həsr olunmuşdur. Qeyd olunmalıdır ki, M.Məm mədov az tədqiq olunmuş türk dillərini öyrənir, bu dillərin türk dilləri içərisində tutduğu yeri müəyyənləşdirir. Onun Krım-tatar və urum dillərinə həsr etdiyi əsərləri məhz bu baxımdan öz aktuallığı ilə seçilir: "Krım-tatar dilində oğuz xüsusiyyətləri" (2010), "Azərbaycan və Krım-tatar dillərinin ortaq xüsusiyyətləri" (2013), "Urum dilinin mənşəyi, mövqeyi və əsas xüsusiyyətləri" (2017). Müasir türkoloji dilçiliyin aktual problemləri (ortaq türk ədəbi dili, türk əlifbalarının unifikasiyası, türk dillərinin müqayisəli öyrənilməsinin xüsusiyyətləri və s.), Altay dilləri fərziyyəsinin tarixi və perspektivləri kimi məsələlər də onun diqqət mərkəzində olmuşdur: "Türk dilçiliyinin müasir problemləri" (2004), "Ural-Altay dillərində velyar n səsi" (2006), "I Türkoloji qurultayda Altay dilləri məsələsi" (2009), "Evenk dilinin əsas xüsusiyyətləri" (2010) və s.

M.Məmmədov 35 ildən artıq bir müddətdə səmərəli pedaqoji fəaliyyətlə məşğuldur, Azərbaycan dialektologiyası, Cənubi Azərbaycan dialektləri, Türkolo giyaya giriş, Qədim türk dili, Altayşünaslığın əsasları fənlərindən dərs deyir. Onun hazırladığı "Azərbaycan dilinin Təbriz dialekti" (2008), "Azərbaycan dili şivə lərində ismin mənsubiyyət kateqoriyası" (2000) dərs vəsaitləri, "Azərbaycan dialektologiyasına dair mühazirələr" (2011) adlı metodik vəsait, "Azərbaycan dili şivələrində ismin

qrammatik kateqoriyaları” (2002), “Türkologiyaya giriş (qiyabi təhsil alan tələbələr üçün)” metodik göstərişləri, “Mətnşünaslıq fənninin proqramı” (2003), “Linqvistik mətnşünaslıq fənninin proqramı” (2008), “Türk dilçiliyinin əsasları fənninin proqramı” (2016), “Cənubi Azərbaycan dialektləri fənninin proqramı” (2016), “Altayşünaslığın əsasları fənninin proqramı” (2016) və “Azərbaycan dialektologiyası” (2019) dərsliyi həm metodik, həm də elmi baxımdan böyük əhəmiyyət kəsb edir. “Azərbaycan dialektologiyası” kitabında dilimizin respublikamızda və onun hüdudlarından kənarda olan dialektlərindən bəhs olunur. Kitabda dialektologiyanın ümumi məsələləri, yəni əsas terminlərin və anlayışların mahiyyəti, məhəlli və sosial dialektlər, vəzifə və metodlar, respubkikamızda və xaricdə tədqiqi, şivələrin təsnifi, həmçinin dialektlərin səciyyəvi fonetik, qrammatik və leksik xüsusiyyətləri, qədim dialekt faktlarının tarixi inkişafı, digər türk dilləri ilə ortaq cəhətləri barədə geniş məlumat verilir**.**

M.Məmmədovun dialektologiya və türkologiyanın müxtəlif problemlərinə həsr olunmuş dərin nəzəri əsasa malik əsərləri onu respublikamızın hüdudlarından kənarda da tanıtmış, ona nüfuz qazandırmışdır. Onun əsərləri Amerika, Türkiyə, İran, Ukrayna, Başqırdıstan və b. ölkələrdə çap olunmuşdur.

M.Məmmədov ixtisaslı elmi kadrların hazırlanmasında da yaxından iştirak edir. Onun rəhbərliyi altında iki fəlsəfə doktoru dissertasiyası müdafiə olunmuşdur. 11

dissertasiya işinin müdafiəsində o, rəsmi opponent kimi çıxış etmişdir.

İBRAHİM BAYRAMOV



(1954)

1954-cü ildə Qərbi Azərbaycanın (indiki Ermənistan) Göyçə mahalının Toxluca kəndində dünyaya gəlib.

İbrahim Məhəmməd oğlu Bayramov 1975-ci ildə Ermənistan Dövlət Pedaqoji İnstitutunun Filologiya fakültəsinin Azərbaycan bölməsini bitirmişdir. 1986-cı ildə "Müasir Azərbaycan ədəbi dilinin xalq danışıq dili hesabına zənginləşməsi yolları (leksika və frazeologiya)" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi, 2007-ci ildə "Ermənistanın türk mənşəli toponimlərinin tarixi-linqvistik təhlili" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya elmlər doktoru elmi dərəcəsi almışdır.

Prof. İ.Bayramov Azərbaycan dialektologiyası sahəsində tədqiqatlar aparır. Onun Azərbaycan dialektologiyasına həsr edilmiş "Azərbaycan dialektologiyasının əsasları" (2015), "Azərbaycan dili şivələrinin fonetikası" (2016), "Azərbaycan dili şivələrinin morfologiyası" (2019), "Azərbaycan dialektologiyası (frazeologiya, leksikoqrafiya, söz yaradıcılığı)" (2019), "Azərbaycan dili şivələrinin sintaksisi" (2020), "Azərbaycan dili şivələrinin leksikologiyası" (2020) əsərləri çap olunmuşdur.



Bununla yanaşı İ.Bayramov Qərbi Azərbaycan şivələrini də tədqiq etmiş və bununla bağlı "Qərbi Azərbaycan şivələrini leksikası" (2011) kitabı nəşr olunmuşdur. 1920-ci ildə A.Bədəlova ilə birlikdə çap

olunmuş “Türk dillərinin müqayisəsi (şivə və ədəbi dil materialları əsasında)” kitabında uyğur dili şivələri ilə Azərbaycan dili müqayisə edilmişdir. Əsərdə uyğur dili şivələrində işlənən sözlərin müasir Azərbaycan ədəbi dilində fərqli fonetik formada eyni və ya yaxın məna ifadə etməsi araşdırılmışdır. Müəllifin “Azərbaycan dilinin dialekt leksikası” (2011) kitabında müasir Azərbaycan ədəbi dili lüğət tərkibinin dialektizmlər hesabına zənginləşməsi, dialekt və şivələrimizdə öz izini qoruyub saxlayan qədim türk sözləri araşdırılmışdır. “Azərbaycan dili şivələrini morfologiyası” əsəri isə 2022-ci ildə Ankarada çap olunmuşdur.

ASLAN ƏHMƏDXAN OĞLU BAYRAMOV



(1947)

Aslan Bayramov 1947-ci ildə qədim Ağbaba mahalının Amasiya rayonundakı Təpəköy kəndində anadan olmuşdur.

1978-ci ildə BDU-nun filologiya fakultəsini bitirmiş və doğma Ağbaba mahalına qayıtmışdır.

Bir müddət Amasiyada orta məktəbdə pedeqofi fəaıiyyətlə məşğul olmuşdur. Sonra yenidən Bakıya gəlmiş, pedoqofi fəaliyyətini ADPU, AMİ-nin Sumqayıt filialında davam etdirmişdir. 1995-ci ildə filologiya

üzrə **namizədlik,** 2012-ci ildə idə **doktorluq** dissertasiyası müdafiə etmişdir.

Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. **"Tərəqqi"** medalı ilə təltif edilmişdir.

Professor Aslan Bayramov Azərbaycan dili, dil tarixi, dialektologiya, etnonimiya, onomastika, toponimiya və folklorşünaslıq və s. mövzulara aid **8 kitab**ın (1. "Qədim Oguz ellərinin - Agbaba, Şörəyel, Pəmbək bolgələrinin yer-yurd adları", Sumqayit, 1996; 2. "Oguz elindən, Ozan dilindən" (folklor toplusu). Bakı, 2002; 3. "Kitabi-Dədə Qorqud və Qafqaz". Bakı 2003; 4. "Kitabi-Dədə Qorqud"da adlar və Qafqaz ərazisində onların toponimləşməsi, 2007; 5. "Söz ürəkdən gələndə". 2007; 6. "Agbaba şivəsi sözlüyü". Sumqayıt, 2014; 7. "Tarixi faciələrimiz: deportasiya, repressiya və soyqırmı". Bakı, 2015; 8. "Azərbaycan onomastikası". Bakı, 2015), **25 fənn proqramı**nın, **150-dən cox elmi məqalə**nin müəllifidir. O, eyni zamanda "Kitabi-Dədə Qorqud ensiklopediyası"nın / Bakı 2002, 1-ci və 2-ci cildlər/həmmüəlliflərindən biridir.

Elmi məqalələri Azərbaycan, İran, Türkiyə və Rusiyada cap olunmuşdur.

NÜMUNƏLƏR

ŞƏHRİYAR: “Heydərbabaya salam”

Azərbaycan dilinin Cənub dialekti – Güney Azərbaycan

HEYDƏRBABAYA SALAM
(ixtisarla)

Heydərbaba, ildırımlar şaxanda,
Sellər, sular şaqqıldayıb axanda,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövkətüzə, elüzə,
Mənim də bir adım gəlsin dilüzə.

Heydərbaba, kəhliklərin uçanda,
Kol dibindən dovşan qalxıb qaçanda,
Baxçaların çiçəklənib açanda,
Bizdən də bir mümkün olsa yad elə,
Açılmayan ürəkləri şad elə.

Bayram yeli çardaxları yıxanda,
Novruz gülü, qar çiçəyi çıxanda,
Ağ buludlar köynəklərin sıxanda,
Bizdən də bir yad eləyən sağ olsun,
Dərdlərimiz qoy dikəlsin, dağ olsun.

Heydərbaba, gün dalıvı dağlasın,
Üzün gülsün, bulaqların ağlasın,
Uşaqların bir dəstə gül bağlasın,

Yel gələndə, ver gətirsin bu yana,
Bəlkə mənim yatmış bəxtim oyana.

Heydərbaba, sənin üzün ağ olsun,
Dörd bir yanın bulaq olsun, bağ olsun,
Bizdən sonra sənin başın sağ olsun,
Dünya qəzöv-qədər, ölüm-itimdi,
Dünya boyu oğulsuzdu, yetimdi.

Heydərbaba, yolum sənnən gəc oldu,
Ömrüm keçdi, gələmmədim, gec oldu,
Heç bilmədim gözəllərin nec oldu,
Bilməz idim döngələr var, dönüm var,
İtkinlik var, ayrılıq var, ölüm var.

Heydərbaba, igid əmək itirməz,
Ömür keçər, əfsus bərə bitirməz,
Namərd olan .ömrü başa yetirməz,
Biz də vallah,unutmarıq sözləri,
Görəmməsək, halal edin bizləri.

Xəzan yeli yarpaqları tökəndə,
Bulud dağdan yenib kəndə çökəndə,
Şeyxül-İslam gözəl səsin çəkəndə,
Nisgilli söz ürəklərə dəyərdi,
Ağaclar da Allaha baş əyərdi.

Daşlı bulaq daş-qumunnan dolmasın,
Baxçaları saralmasın-solmasın,
Ordan keçən atlı susuz olmasın.

Deynə, bulaq xeyrin olsun, axarsan,
Üfüqlərə xumar-xumar baxarsan.

Heydərbaba, dağın, daşın, sərəsi
Kəklik oxur, dalısında fərəsi,
Quzuların ağı, bozu, qərəsi,
Bir gedəydim dağ-dərələr uzunu,
Oxuyaydım "Çoban, qaytar quzunu"

Heydərbaba, sulu yerin düzündə,
Bulaq qaynar çay-çəmənin gözündə,
Bulaqotu üzər suyun üzündə,
Gözəl quşlar ordan gəlib keçərlər,
Xəlvətləyib bulaqdan su içərlər.

Biçin üstü sünbül biçən oraqlar,
Elə bil ki, zülfü darar daraqlar,
Şikarçılar bildirçini soraqlar,
Biçinçilər ayranların içərlər,
Bir huşlanıb, sondan durub biçərlər.

Heydərbaba, kəndin günü batanda,
Uşaqların şamın yeyib yatanda,

Ay buluddan çıxıb qaş-göz atanda
Bizdən də bir sən onlara qissə de,
Qissəmizdə çoxlu qəmü qüssə de.

Qarı nənə gecə nağıl deyəndə,
Külək qalxıb qap-bacanı döyəndə,
Qurd keçinin şəngülüsün yeyəndə
Mən qayıdıb bir də uşaq olaydım,
Bir gül açıb ondan sora solaydım.

Əmməcanın bal bələlsin yeyərdim,
Sondan durub üs donumu geyərdim,
Baxçalarda tiringəni deyərdim,
Ay özümü o əzdirən günlərim,
Ağac minib, at gəzdirən günlərim.

Heydərbaba, kəndin toyun tutanda,
Qız-gəlinlər həna, piltə satanda,
Bəy gəlinə damnan alma atanda,
Mənim də o qızlarında gözüm var,
Aşıqların sazlarında sözüm var.

Heydərbaba, bulaqların yarpızı,
Bostanların gülbəsəri, qarpızı,
Çərçilərin ağ nabatı, saqqızı
İndi də var damağımda, dad verər,
İtkin gedən günlərimdən yad verər.

Bayram idi gecəquşu oxurdu,
Adaxlı qız bəy corabın toxurdu,
Hər kəs şalın bir bacadan soxurdu,
Ay nə gözəl qaydadı şal sallamaq,
Bəy şalına bayramlığın bağlamaq.

Şal istədim mən də, evdə ağladım,
Bir şal alıb tez belimə bağladım,
Qulamgilə qaçdım, şalı salladım,
Fatma xala mənə corab bağladı,
Xan nənəmi yada salıb ağladı.

Bayram olub, qızıl palçıq əzərlər,
Naxış vurub otaqları bəzərlər,
Taxçalarda düzmələri düzərlər,
Qız-gəlinin fındıqçası, hənası,
Həvəslənər anası, qaynanası.

Bakıçının sözü, sovu, kağızı,
İnəklərin bulaması, ağızı,
Çərşənbənin girdəkanı, mövizi,
Qızlar deyər: "Atıl-matıl. çərşənbə,
Ayna təkin bəxtim açıl, çərşənbə"

Yumurtanı göyçək, güllü boyardıq,
Çaqqışdırıb sınanları soyardıq,

Oynamaqdan bircə məgər doyardıq?
Əli mənə yaşıl aşıq verərdi,
İrza mənə novruzgülü dərərdi.

Heydərbaba, Nənəqızın gözləri,
Rəxşəndənin şirin-şirin sözləri
Türkü dedim, oxusunlar özləri,
Bilsinlər ki, adam gedər, ad qalar,
Yaxşı-pisdən ağızda bir dad qalar.

Heydərbaba, dünya yalan dünyadı,
Süleymandan, Nuhdan qalan dünyadı,
Oğul doğan, dərdə salan dünyadı,
Hər kimsəyə hər nə verib alıbdı,
Əflatundan bir quru ad qalıbdı.

Heydərbaba, yaru yoldaş döndülər,
Bir-bir məni çöldə qoyub çöndülər,
Çeşmələrim, çıraqlarım söndülər,
Yaman yerdə gün döndü, axşam oldu,
Dünya mənə xərabəyi-Şam oldu.

Heydərbaba, göylər bütün dumandı,
Günlərimiz bir-birindən yamandı,
Bir-birizdən ayrılmayın, amandı,
Yaxşılığı əlimizdən alıblar,
Yaxşı bizi yaman günə salıblar!

Bir uçaydım bu çırpınan yelinən,
Bağlaşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydim ayrılığı kim saldı?
Ölkəmizdə kim qırıldı, kim qaldı?

Mən sənintək dağa saldım nəfəsi,
Sən də qeytər, göylərə sal bu səsi,
Bayquşun da dar olmasın qəfəsi,
Burda bir şir darda qalıb bağırır,
Mürüvvətsiz insanları çağırır.

Heydərbaba, qeyrət qanın qaynarkən,
Qaraquşlar səndən qopub qalxarkən,
O sıldırım daşlar ilə oynarkən,
Qovzan mənim himmətimi orda gör,
Ordan əyil, qamətimi darda gör.

Heydərbaba, sənin könlün şad olsun
Dünya varkən ağzın dolu dad olsun,
Səndən keçən tanış olsun, yad olsun,
Deynə mənim şair oğlum Şəhriyar,
Bir ömürdür qəm üstünə qəm qalar.

Heydərbaba, gəldim səni yoxlayam,
Bir də yatam, qucağında yuxlayam,

Ömrü qovam, bəlkə burda haxlıyam,
Uşaqlığa deyəm: bizə gəlsən bir,
Aydın günlər, ağlar üzə gülsən bir!

Heydərbaba, alçaqların köşk olsun,
Bizdən sora qalanlara eşq olsun,
Keçmişlərim gələnlərə məşq olsun,
Evladımız məzhəbbin danmasın,
Hər içiboş sözlərə aldanmasın!



LƏTİFƏLƏR

ŞƏKİ LƏTİFƏLƏRİ



Hacı Dayı qocalıb lap elden düşmüşdü. Bir gün o Ezrayılı qapının ağzında görüb celd stolun üstündeki butulkanın ağzına bir emzik keçirib aparır öz ağzına. Ezrayıl soruşur:

-A kişi, nağarırsan?

- Nem-nem yiyirem.

- Onda nem-nemini yi qutar, seni oppalara aparıcam.

- Axı nem-nem yiyennen sonra bir az bay-bay elemeliyem! Ezrayılı gülmek tutur ve üzünü çevirib yoxa çıxır.

***

Dostu Hacı dayının yanına gəlib məsləhət istəyir:

- Ay canoo yiyim, Hacı, maa yol göstər. İdarədə bi qol saatı, bi də üç yüz manat pul verib təqaüdə göndərmək

istiyillər. Habı şeyləri götürüb irazılaşım, yoxsa razılaşmayım. Bilmirəm…

Hacı dayı onu bir altdan yuxarı süzüb deyir:

- İrazılaşma!

- Niyə, a başaa dönüm, hoları əldən çıxardım?

- Səən canoo yeyim, ağloo başaa yığ, get onnardan bi motosklet, üstündə də 500 manat pul istə! Ə, elə zülümsən ki, səni başdarınnan eləməkdən ötrü başqa əlacları yoxdu, mütləq vericəhlər.

***

Bir gün dostlardan biri Tahiri evlərinə qonaq aparır. Dostu da görməmiş kimi televizorun pultundan ikiəlli yapışıb başlayır onu dala-qabağa fırlatmağa. Acından sino gedən Tahir dözə bilməyib axır ki dillənir:

- A qaqaş,öyrətmək olmasıno pultu ciyaa tərəf tuşla ki,yimağımızı bir az tez gətirsin.

***

Bir dəfə Tahiri əli-ayağı çirkli-paslı,üst-başı tozlu-torpaqlı görən qonşuları təəccüblə ondan soruşurlar:

- A qonşu, bu nə sir-sifətdir belə? Hardan gəlirsən bu fasonda?

Tahir cavab verir ki, qavırısannıxdan. Qaynanamı basdırmaxdan.

Qonşuları ona deyirlər ki, bəyəm adamı basdıranda belə sir-sifət alırlar?

Tahir zarafatından qalmayıb cavab verir ki, ə, adam kimi basdırmağa qoyurdu ki...

***

Qəbirstanlıqda "əldəqayırma" molla bir oğlanın dədəsinə dua oxuyası olur. Onlardan bir az aralı Mercedes maşınının dayandığını görən molla tələm-tələsik oxuduğunu qurtarır. Oğlan molladan o biri oğlanın dədəsinə oxunan duanın niyə uzun-uzadı olduğunun səbəbini soruşduqda o, cavab verir:

- Səən dədaa bir-iki ağız diyəndə başa düşür, amma onun dədəsinə səhərdəndi elə hey döşüyürəm, bir şey anlamır ki, anlamır.

***

Bir gün Molla Nəsrəddin Hacı dayıdan soruşur:

- Siz şəkililər niyə başqa yerə qız vermirsiniz?

Hacı dayı deyir:

- Şəkililər haqq-hesablarını bilən adamlardır. Yaxşısını vermirlər ki, hayıfdı, pisini də vermirlər ki, ayıfdı.

***

QARABAĞ LƏTİFƏLƏRİ



Bunlar daha çox Abdal Qasım və Tağı-Nağı qardaşlarının adı ilə bağlıdır.

Abdal Qasım Qarabağ regionunun ən ünlü şəxsiyyətlərindən olmuşdur. Ayrı-ayrı mətbuat səhifələrində, folklor toplularında çoxsaylı lətifələri çap olunmuş Abdal Qasımın şəxsiyyəti haqqında ən dolğun məlumatı fil. elm. namizədi B.Məmmədov vermişdir. Sənətkarın bir sıra rəvayət və lətifələrini çap edən müəllif yazır: Abdal Qasım (1873-1921) Ağdamın Abdal-Gülablı kəndindəndir. Əvvəl əkinçiliklə, sonra xırda alış-verişlə məşğul olmuş, hətta gülməli səhnə hərəkətləri, əyləncəli sirk oyunları ilə çıxış etmişdir. O, hər yerdə zəhmətkeş kütlələrin mənafeyini qorumuş, ictimai haqsızlığa, sinfi ədalətsizliyə dərindən nifrət bəsləmişdir.

Sağlam ruha və bədənə malik olan bu adam, məqsədinə çatmaq üçün nəinki iti təfəkkürünə arxalanmış, hətta yeri gələndə fiziki gücündən də istifadə etmişdir. Onun gülüş və istehza doğuran mənalı sözləri, maraqlı dialoqları xalqın söz yaddaşında qalmış, dildən dilə keçərək zəmanəmizə qədər gəlib çıxmışdır."

Nümunə:

Yayın cırhacırında Abdal Qasım oturubmuş, görür iki erməni bərkdən danışa-danışa gəlir.

Yanındakı dostuna deyir:

- Ə, bu köpəy uşağları bu istidə bu dildə nətəhər danışırlar ey?!

***

ABDAL QASIMLA ERMƏNİ AŞIĞI

Saz aşığı erməni gəlir. Deyir ki, gedif Avdal Qasımı bağlıyajam.

Avdal Qasım da, deyir, yolun qırağında qolunu yayıf söykənif ağaca. Erməni Avdal Qasımı görməmişdi, tanımırdı, amma eşitmişdi ki, Qasım belə hazırcavab adamdı. Deer gəlif keçəndə Avdal Qasım görür ki, bir erməni çiynində saz kəndə tərəf gedir. Deyir:

- Ə, hara gedirsən?

Deyir:

- Qasım kirvənin yanına.

- Ə, nəə gedirsən?

Deyir ki, gedirəm onu bağlıyajam.

Deyir:

- Nətər bağlıyajan? Bir de görüm, nə deyif bağlıyassan?

- Deyəjəm ki, Əziziyəm, bəndə səni, Salaram bəndə səni. Qoymaram gələsən, Bizim kəndə səni.

- Bəs onda Avdal Qasım dinməz durajax?

Deyir:

- Məə nə deyəjəh bu sözün qabağında?

Deyir:

- O da deyəjəh ki, Əziziyəm bəndə səni, Salaram bəndə səni. Yıxaram harsınını, Qoymaram kəndə səni.

Elə orda da erməni qayıdır dala. Deyir:

- Ə, bunun çobanı belə danışanda indi gör Qasım nağarajax da. Gör mana nə deyəjəh?

***

BİR QARINGAH OXUYUN

Deyir bir gün Qarabağ bəylərindən biri ətraf kəndlərdən varlı-hallı adamları toplayıb qonaqlıq verirmiş. Qonaqlığa gələn bəylərdən biri yolda Avdal Qasımla rastlaşır. Ordan-burdan söhbətləşirlər. Məlum olur ki, hər ikisi eyni yerə qonaq gedir. Bəy deyir:

- Bı qonaqlıqda indi məndən soruşajaxlar ki, sənin üçün nə oxunsun. Vallah mənim muğamnan-zatdan elə də

başım çıxmır. Heç bilmirəm nə cavab verəcəyəm. Avdal Qasım da arif adam idi. O saat məsələni başa düşür, deyir:

- Heç fikir eləmə, bəy. Sənin orda gözün məndə olsun. İki barmağımı qaldırsam, de ki, xanəndə "Dügah" oxusun. Üç barmağımı qaldırsam, "Segah" sifariş edərsən, olar, bitər.

Bəy çıxış yolu tapdığı üçün çox sevinir. Birlikdə gəlib çatırlar ziyafət verilən evə. Yeyib-içdihdən sonra ev yiyəsi bir-bir qonaqların arzusu ilə xanəndəyə sifarişlər verir. Növbə bəyə çatanda Avdal Qasım tez iki barmağını göstərir, bəy də "Dügah" sifariş eləyir, xanəndəyə pul bağışlayır. Bir müddət sonra yenə də bəyin arzusunu soruşurlar. Bu dəfə də Avdal Qasım üç barmağını göstərir. Bəy bu dəfə "Segah" sifariş verir. Bəyin səxavətindən ruhlanan xanəndə bir müddət sonra yenə də bəyin arzusunu rica edir. Bəy qalır çıxılmaz vəziyyətdə. Çar-naçar yenə də baxır Avdal Qasıma. Bu dəfə də Avdal Qasım dörd barmağını yuxarı qaldırır və məclis əhli duyuq düşməsin deyə tez həmin əlini belinə doladığı kəmər yerinə keçirir. Avdal Qasımın qarnına işarə etdiyini düşünən bəy üzünü xanəndəyə tutub deyir:

- İndi də bir qarıngah oxuyun.

***

NAXÇIVAN LƏTİFƏLƏRİ



Bir dəfə Bakıdan Naxçıvana uçan təyyarədə bir nehrəmli keçib 1-ci sıradan deputatın yerində oturur. Təyyarədə oturan adamlar nə qədər edirsə, onu durquza bilmir. Bir uşaq deyir icazə verin mən onu durquzum. Yaxınlaşıb nə deyirsə nehrəmli keçib tez ikinci sırada oturur. Hamı təəccüblənir uşaqdan soruşurlar:

- Sən ona nə dedin ki?

Uşaq:

- Heç dedim ki, birinci sıra Naxçıvana getmir.

***

QORXUZDUM Kİ…

Qəssaboğlunun bir tüfəngi olur. Bu tüfəng ilə heç nə vura bilmir. Bir gün qəssaboğlu yenə də tüfəngi götürüb ova gedir. Nə qədər əlləşirsə, heç nə vura bilmir. Axırda əlacsız qalıb bərə qurur. Bərəyə bir neçə kəklik düşür. Qəssaboğlu bərəyə düşmüş kəkliklərin ayağını bağlayıb söyüddən asır ki, tüfənglə vursun və kəndə aparıb desin ki, o da tüfənglə ov vura bilir.

Qəssaboğlu kəklikləri söyüddən asır. Güllə açılanda kəkliyə yox, iplərə dəyir, kəkliklərin ayağı açılır pırıltı ilə üçüb gedirlər.

Kəkliklərə baxıb deyir:

– Gedin köpək oğlunun kəklikləri, vura bilməsəm də, heç olmasa bir qorxuzdum ki.

***

ATI ÖLDÜRƏNİN ÜSTÜNƏ...

Qəssaboğlunun qoca, əldən düşmüş bir atı olur. Atı azarlamışdı. Qonşusuna deyir ki, heç olmazsa başını kəsin, dərisindən istifadə edək.

Qonşusu Qəssaboğlunun evinin dalında atın əl-ayağını bağlayıb yerə yıxır ki, başını kəssin. Bu zaman Qəssaboğlu orada yox imiş. Kişi atın başını kəsir. Qəssaboğlu gəlib çıxır, kişiyə deyir ki, mənim atımın başını

niyə kəsibsən? Mənim min manatlıq atımın başını kəsib, məni atsız qoymusan. Bütün qonşuları çağırıb yığır həyətə ki, kişi mənim atımın başını məndən icazəsiz kəsib.

Kişi deyir:

- Qəssaboğlu, insafın olsun, özün dedin kəs, mən də kəsdim. Qonşular kişini qınayırlar. Kişi isə deyir ki, atın başını kəsməyi o dedi, mən kəsən zaman harasa çıxıb getdi. Indi deyir ki, atın başını məndən icazəsiz kəsmisən. Qəssaboğlu atılıb çıxır atın cəmdəyinin üstünə və qışqırır:

- Ay Əzrayıl, ay Mikayıl, deyin, atı öldürənin üstünə.

Qonşular Qəssaboğlunun bu sözlərinə gülüşürlər, bilirlər zarafat edirmiş.

***

SƏN HƏKİM DEYİLSƏN...

Bir gün Qəssaboğlunun uşaqları ac olur. Qəssaboğlu Naxçıvana yemək dalınca gedir. Lakin heç nə tapa bilmir. Alaqaranlıqda bir kəndə çatır. Axşam düşdüyünə görə burada gecələməli olur. Qəssaboğlu kəndin meydançasına gedir, görür ki, kənd camaatı bu meydançada oturub söhbət edir. O da bir tərəfdə əyləşir. Bir qədər söhbətdən sonra heç kəs evə getməyi təklif etmir. Hamı öz evinə gedir. Meydançada iki nəfər qalır. Qəssaboğlu deyir:

- Əşi, həkim olasan səni heç kəs qonaq etməsin. Heç belə dərd olar?

O biri deyir:

- Əmi, həkimsən? Qəssaboğlu deyir:

- Bəs necə, məndən böyük həkim var?

Oğlan deyir ki, indi ki, həkimsən, gedək mənə qonaq ol, anamın gözləri xəstədir, onu sağalt. Qəssaboğlu oğlanla onlara gedir. Evə çatanda deyir ki, mənə çörək gətirin. Mən acam. Bir az çörək yeyim, huşum başıma gəlsin, sonra ananın gözlərinə baxaram. Qəssaboğluna yemək gətirirlər. Yeyib-içdikdən sonra deyir ki, dörd-beş ildən qalma kərmə gətirin, evin ortasında ocağı qalayın, tüstü olsun, arvadın gözlərini tüstüyə verək. Ocağı qalayırlar, ev bütün tüstü olur. Arvadı gətirib ocağın qırağında oturdurlar. Qəssaboğlu arvadın yanına gəlir, deyir ki, ana, indi sənin gözlərini sağaldacağam. Arvad tüstüdən nəfəs ala bilmir, qışqırır ki, başına dönüm, ay həkim, axı mən tüstüdən boğuluram.

Qəssaboğlu deyir:

- Hələ vaxt var, bir qədər də döz. O qədər tüstü olur ki, arvad tamamilə huşunu itirib yıxılır. Qəssaboğlu ev sahibini çağırıb deyir ki, indi arvadı götürün, qoy yatsın. Arvadı götürüb yer salırlar və yatağa uzadırlar. Arvad o yatmış yatır. Evdəkilər də çörəkdən-zaddan yeyib yatırlar. Hamı yatır, amma Qəssaboğlu yata bilmir, canına qorxu düşür ki, birdən arvad ölər, səhər ev sahibinə nə cavab verər?

Səhər ala qaranlıqdan ayılır, baxır ki, hava ağarır, bilir ki, səhərə az qalır. Qulaq asır, qulağına həzin bir səs gəlir. Görür ki, bu deyəsən arvadın səsidir, nə isə öz-özünə danışır. Qəssaboğlu səsini içinə çəkib diqqətlə qulaq asır ki, görsün arvad nə danışır. Eşidir ki, arvad öz-özünə deyir:

- Allah, sənə çox şükür, bu nə təhər həkimidi gəldi, mənim gözlərimi açdı, məni bəladan qurtardı.

Qəssaboğlu deyir:

- Ana, sənsən, deyəsən, axı, gözlərin açılıb?

Arvad deyir:

- Bala, sən həkim deyilsən, mələksən, mənim gözlərimi açdın.

Qəssaboğluna buğda, un çuvalları verib yola salırlar.

***

KİMİN ADIN MÜRDƏŞİR YUSUN...

Bir kətcisiyiynən Qəssaboğlu Kırnıya gəlir. Əlincəçaya xeylax su gəlirmiş. Məjbur olullar tullansınnar.

Qəssaboğlu tullanıp düşür bu qırağa. Kətcisi də zarafatca: "Ya Qəssaboğlu" deyip atdanır. Əmə düşür suya. Qəssaboğlu onu çaydan çıxarınca hər ikisi islanır.

Kətcisi deyir:

- Səən adıı çəkdim, belə oldu. Səən adı mirdəşir yusun.

Qəssaboğlu dözəmmir:

- Düz deyirsən. Kimin adın mirdəşir yusun, kimin də özün.

***

KÜFLƏNİ TIX

Qış imiş, təndirlər qalanmış, kürsülər işə düşmüşmüş. Qəssaboğlunun qonağı gəlir. Qəssaboğlu da üz tutur arvada, der:

- Küfləni aç, təndir qızışsın, qonax yoldan gəlipdi. Arvadın da üzünnən zəhər–zoqqum yağırmış. Arvad tənbəl-tənbəl dizdərini vırır yerə, hersdi-hersdi birtəhər açır küfləni.

Qəssaboğlu der:

- Sağ ol, arvad! Çox əziyyət çəkdin.

Arvad da qaldırır əllərini göyə ki:

- Bu zülümü mən götürdüm, sən götürmə. Mən küfləni açıp qurtarmamış bu kişi deyəcək ki, bəsdi, indi də küfləni tıx.

***

EŞŞƏYİN QIÇI SINAYDI

Qəssaboğlu eşşəyin belində gedirmiş. Bir oğlannan raslaşır. Bının salam-kalamı kişiyə xoş gəlir, oğlanı alır tərkinə.

Axşamüstü qayıdanda özü hersdiymiş, eşşəyi də yorqun. Həmən oğlannan yenə raslaşır. Bı dəfə oğlan salamsız-kalamsız atılır onu tərkinə. Qəssaboğlu bozarır:

- Bə indi hara?

- Necə hara? Mindiyim yerə.

Qəssaboğlu onu itələyib salır yerə, sora da qışqırır:

- Düş aşağı qanacaxsız!

- Düşürmüsən da bə, ta niyə qışqırırsan?

- Ə, sən ayrı dil bilirsən? Ay səhər sənə rast gələndə eşşəyin qıçı sınaydı.

***

YAZAN YAZIBDI

Bir yolcu gedirdi. Görür şər qarışıp, qarannıx düşüp, qapılardan birin döyür. Şirin dilli, xoş sifətti bir arvad açır qapını. Der, Allaha da qurban, qonağına da, keçillər evə. Qonax elə təzəcə oturmuşdu ki, sifətinnən zəhər yağan, bədheybət ev sahabı özün yetirir. Arvad yeriyir qabağa, isti su gətirir, ərinin ayaqlarını yuyur. Gülə-gülə sıfra salır. Əmə ərinin qaşqabağı açılmır. Yeyip, içillər. Ev sahabı çıxır eşiyə. Qonax der:

Əzizinəm çil qazı
Çil qazı gözəl qazı.
Gəldi bir kor yapalax,
Apardı gözəl qazı.

Arvad o saat bilir qonağın nə dediyini. Cavabı belə verir:

Əzizinəm çil qazı,
Çil qazı, gözəl qazı.
Gözəl qazı neyləsin
Yazıpdı yazan yazı.

***

(Naxçıvan Folklor Antologiyası. I hissədən)

DAŞ QAVIŞDI

Bir gün Molla Mərdan ava gedir. Davşanın rəddinə düşüb gedib çıxır bir daşın cabına. Mərdan nəqqədir gözdüyür, davşan cabdan çıxmır ki, çıxmır. "Ya Allah" deyib zornan soxulur daşa. Davşanı əliynən tutub ordan çıxmax isdiyir, əmə işi düşür əngələ. Cabdan geri çəkilərkən əynindəki qalın sırıxlı sıxılıb qalınnaşır və Mərdan qalır orda.

Qahım-qəbilə günortuya qədər gözdüyür. Mərdanın gəlmədiyini görüb cavannarı bının dalınca yolluyullar. Cavannar gəlib görüllər ki, Mərdan daşın cabında ilişib qalıb. Bınnan soruşullar:

- Ə, Mərdan, bırda niyə yatmısan?

Mərdan deyir:

- Vallah, tamah güjdədi, davşanı bırdan çəhmək üçün bıra girdim, əmmə çıxanda, dəəsən, daş qavışdı.

***

MOLLA HƏSƏNİN DUVASININ HİKMƏTİ

Molla Həsən kişi işi müşgülə düşənnərə duva yazarmış, camahat da onnan çox razı qalarmış. Bir gün qonşunun arvadı gəlib ona deyir ki, molla, qadaa alım, axı mənim ocağım səhərdəndi qızışmır. Molla Həsən deyir ki, ay arvat, bırda nə var axı. Bəyaxdı götürüb bir yekə kağızın üstünə yazır ki:

Ocağa odunu qoy beş-beş,
Yanmasa, qəyit altını deş.

Arvat səvinə-səvinə gəlir ocağın başına və başdıyır mollanın dediyi kimi eləməyə. Elə kağızı ocağa qoyan sahat odunnar alavlanır. Qonşu vaxt itirmədən gəlib Molla Həsənə dil-ağız eliyir.

***

İKİ PÜLƏYƏ, BİR SƏBRƏ...

Bir gün bir kişi birinə qonaq gedir. Xoş–beşdən sora ortuya xörəh gəlir. Qonax da ac olur. Tez qaşığı doldurup xörəyin suyunu çəkir başına. Sən demə arvat xörəyi elə təzəcə oddan götürübmüş. Ağzı porşələnən qonax cınqırını çıxarmır, ağrıdan başını qaldırıb göyə baxır. Ağzı yana–yana ev yiyəsindən soruşur:

- Qardaş, bu dam-daşı neçəyə tikipsən?

Ev yiyəsi məsələni başa düşür, deyir:

- "İki püləyə, bir səbrə", yəni üfff elə, bir də səbr elə, keçər.

***

PULSUZ ƏTİR VURDU...

Bir gün də bir uşaq gəlir Məhəmməd kişinin yanına ki, mənim saçımı qırx. O vaxt da kəntdə az–az adamda saç vuran maşın vardı. Məhəmməd kişi uşağın saçını qırxannan sora suyu doldurur ağzına, püskürür uşağın keçəl başına. Deyir:

- Dədənə deyərsən, Məhəmməd dayım başıma pulsuz ətir də vurdu.

***

DİRİLƏRƏ NƏ QALACAX?

Bəzən Qəssaboğluna yaxınnaşıp dərdilər:

- Qəssaboğlu, filankəs də ömrünü sa bağışdadı.

- Bınnan ma nə?

- Necə ma nə? Sən ölmiyəssən?

- Çox da öləcəm. Noossun?

İllər bı qaydaynan ötüp keçirdi. Bir gün kəndə xəbər yayıldı ki, Qəssaboğlu xəstələnip, ölüm yatağına düşüpdü.

Kəndin bamәzə adamları yığışıp onun yanına gəlillər. Onnardan biri üzünü Qəssaboğluna tutup soruşur:

- Kişi, necəsən?

- Ölürəm!...

- Axı, mən çoxlarının ölüm xəbərin sa demişdim, cavapların yadında?

- Hə, yadımda. Çox da Qəssaboğlu ölür, bınnan dirilərə nə qalacax ki?

Qəssaboğluyla məzələnməyə gələnnər hiss etdilər ki, onun ölüsünə də qalib gələ bilmiyəcəyhlər. O vaxdan kətdə bir məsəl yayıldı: Qəssaboğlunun ölümünnən dirilərə nə qalacax?

***

BİZİM KƏTDƏNSƏN...

Qəssaboğlunu şəhərə, məylislərdən birini idarə eləməyə çağırdılar. O, həmkətdilərinnən birini hayladı:

- Bala, eşitmişəm ki, sən də sabah şəhərə gələssən? Zəhmət çəyh, qəyitməyə məm üçün də at gətır.

Məylisi yola salıp qutaran Qəssaboğlu kətdisinin məlul–müşgül dayandığın gördü.

- Nə var, nolup? Bə at hanı?

- At gətirdim, təzəcə Ərəzinə çatmışdım ki, tökülüşüp əlimnən aldılar.

- Demədin ki, Qəssaboğluya aparıram?

- Qoxdum ki, deyəm, bir az da betər ola.

- Mən atın üstündə idim ki, betər ola? Doğurdan da, elə bizim kətdənsən.

***

SƏN DEYƏNDİ

Qəssaboğlu özünü yaxşı hiss eləmirdi. O, ömründə ilk dəfə idi ki, həkim yanına gəlip arğıdan gileyləndi və böyrünü göstərdi.

Həkim diqqətiynən onu dinnədi və böyrünü nəzərdən keçidip, qayğıynan dilləndi:

- Heş narahat olma! Qocalıxdandı, keçər...

Qəssaboğlu bir söz demiyip evə qəyitdi. Bir az yatıp, dincəldi. Böyrünün arğısı yenicə keşməyə başdamışdı ki, çiyinnəri arğımağa başdadı. Təzdən həkimin yanına gəldi.

Bı dəfə həkim onu soyux qarşıladı və candərdi dedi:

- Dedim ki, narahat olma axı! Qocalıxdandı, keçip gedər.

Qəssaboğlu həkimin yanınnan çıxanda özdüyündə and işdi ki, ölsə də həkimin yanına gələsi deyil...

Bir dəfə də başının ağrısınnan Qəssaboğlu daha dözə bilmədi. Çar–naçar həkimin yanına gəldi. Yazıx–yazıx gözünü həkimin ağzına diyhdi.

Həkim xala–xətrin qalmasın deyə, onu müayinə edip handan–hana dilləndi:

- Qorxulu bir şey yoxdu, keçər!

Bı sözdən cin vırdı Qəssaboğlunun beyninə. Ağzın açıp, gözün yumdu. Həkimi biyabır eləmək isdədi. Dili keyləşdi və kəkələməyə başdadı:

- Yalançının, vağ... vağ...

Həkim artıx söz eşitməməyh üçün onun kəkələməyinnən istifadə etdi:

- Gördün, Qəssaboğlu! Elə onnandı!?

- Hə, bala, sən deyəndi. Bağışda, elə bı da qocalıxdandı.

***

HARA BAXIRDIN

Qəssaboğlu yenicə süfrə başında oturmuşdu, şirin-şirin çörəyh yeyirdi. Elə bu zaman arvadı təəccüblə soruşur:

- Bay, evim yıxıldı, kişi! Bəs sənin başının tükü hanı?!

Əvvəlcə Qəssaboğlu kırıxdı. Soyra isə əliylə keçəl başını sığalladı. Özünə məxsus sakitliyinən dilləndi:

- Mən ki, anadan gəlmə keçələm. Bu iyirmi ildə heş görməmisən?!

- Yox, vallah ki, görməmişəm.

- Bə hara baxırdın, a gorbagorun qızı?

- Sənin ələa.

***

QAZAX LƏTİFƏLƏRİ



Qazaxın məzəli əhvalatlarını çox zaman xalq şairi Hüseyn Arifin adı ilə bağlasalar da, Molla Mədəd, Kor Mədəd, Çoban İrvam, Əsgər dayı, Yusif müəllim, Xurroy Musa kimi lətifə qəhrəmanları da var.

Xurroy Musa bazara gedibmiş. Bazardan xeyli ayın-oyun alıb yaxınlaşır lobya satan arvada:

- A bajı, bu lovyalar neçəyədi?

Lobya satan arvad başını qaldırmadan:

- Qardaş, bax bu lovya bir manatadı, bunlar isə səhsən qəpiyə. Musa kişi lobyalarda bir fərq görməyib bir də soruşur:

- Ağrın aleem, bunlar eyni şey döymü, niyə bu lobyanı baha sateersən?

Satıcı arvad başını qaldırib kişiyə baxır:

- Ay qardaş, bir manata olan atlı lobyadı, səhsən qəpiyə olan piyada lobyadı, hansından çəkim?

- A bala, lovyanı minif səyirdəsi deyiləm ki, o piyada lovyadan bəri elə.

***

Gənc şairlərin birinin toyunda Hüseyn Arif tamada olur. Bir az yeyib-içəndən sonra bəyin sağlığına badə qaldırır.

- Başınıza and olsun, belə oğul yoxdur dünyada. Mən onu çox yaxşı tanıyıram. Bakıda gəzmədiyi qız qalmayıf. Lap yaxşı eləyib başını bağlayırsınız. Bunun ipini açıq qoymaq olmaz.

***

Bir zamanlar İncəlidə elektrik qıtlığı yaşanırmış. Ancaq axşam tərəfi işıqları yanarmış, onu da tez-tez söndürərmişlər. Artıq adət halını almışdı, işiq sönən kimi hamı – "bıy çıraan keşsin, ay işığı söndürən", - deyib qarğayarmışlar. Kəndin montyoru "Mantyor Xalıl"ın bu işdə günahı olmasa da, hamı ona gileylənərmiş. Günlərin birində Həmzə kişi arvadı Xədicəylə Bakıya gəliblərmiş. Metroya düşəndə necə olursa işıqlar sönür. Özündən aslı olmayaraq Xədicə arvad bərkdən qışqırır:

- Gözün işıq görməsin, a Xalıl, gəlib burdadamı işığı keçirtdin?...

***

LAÇIN LƏTİFƏLƏRİ



Sovet dövründə ucqar dağ kəndindən varlı bir şəxs Laçının milis rəisinin yanına gəlib xahiş edir ki, oğlunu milisdə işə götürsün.

- Milisdə işləmək üçün gərək diplom ola – deyib rəis kişini başından eləmək istəyir. Fikrindən dönmək istəməyən kişi:

- Rəis, bu da olmasın on qoyun, satıb uşağa diplom alaram – deyir.

- Gərək iş yerindən yaxşı xasiyyətnaməsi də ola – rəis ikinci şərti deyir.

- Rəis, o asan məsələdi, iki qoyuna həll olar – kişi yenə fikrində israr edir.

Nə isə, rəis kişini fikrindən daşındırmaq üçün nə şərt irəli sürürsə, kişi hamısını həll edəcəyini deyir. Rəis axırıncı şərti deyir:

- Gərək xaricdə qohumunuz olmasın.

Bu şərti eşidəndə bayaqdan ana bülbül kimi dil-dil ötən kişinin gözü dirənir.

Bikef halda dillənir:

- Düzələn olmadı.

- Niyə, a kişi? – rəis maraqla sual edir. Kişi qayıdır:

- Ona görə ki, rəis, bizim qohumların hamısı Qubadlıda yaşayır.

***

Qarakeşdən İrəcəb oğlu Əliş yaylaqda yol gedən zaman görür ki, bir uşaq qaçaraq ona tərəf gəlir. Uşaqdan hara getdiyini soruşur. Uşaq deyir ki, ölü düşüb, molla dalınca gedir. Əliş molla olduğunu və indi də yas yerindən gəldiyini deyir. İşin düzəldiyinə sevinən uşaq Əlişi yas yerinə gətirir. Əliş kürd dilində və Qurandan eşitdiyi bəzi ifadələrlə yas məclisini aparır. Bu vaxt Əlişi tanıyan Musa gəlib Əlişin yas apardığını görüb heyrətini gizlədə bilmir.

Əliş kürd dilində ona deyir ki, dinməsin, aldığı pulun yarısını ona verəcək. Yas sahiblərindən biri Musanın "molla"nı tanıdığını görüb soruşur:

- Bu necə molladı?

Musa cavab verir: "And olsun onun oxuduğu Qurana, biz tərəfdə belə molla yoxdu".

***

Oğuldərədə ot biçini vaxtı hər gün qoyun otarmağa göndərilən Balakişi qardaşlarına gileylənir ki, çətin işə məni göndərirsiniz. Səhəri gün qardaşları onu da özləriylə kövşənə gətirirlər. Səkkiznömrə kərəntini əlinə verəndən sonra qardaşın biri Balakişidən irəliyə düşür, o biri ardınca. Hay-harayla dal-qabağını kəsib onu əməlli-başlı işlədirlər. Ot işini belə görən Balakişi səhər tezdən qalxıb qoyunu otarmağa gedir. Uzaqdan qardaşlarının hay-harayını eşidən

Balakişi yana-yana deyir:

- Pah, yəqin yenə namərdlər araya adam salıb.

***

TƏKRAR ÜÇÜN TEST TAPŞIRIĞI NÜMUNƏLƏRİ

1. Uyğunluğu müəyyən edin:

1. “Türk tatar dilinin qrammatikası”
2. Azərbaycan dialektologiyasının əsasları
3. Azərbaycan dialektologiyası
4. Azərbaycan dilinin tarixi dialektologiyası
5. Azərbaycan dialektlərinin tarixi qrammatikası

A) B.Sadıqov
B) A.Hüseynov
C) E.Əzizov
D) M.Şirəliyev
E) M. Kazımbəy

A) 1-e; 2-c; 3-b; 4-c; 5-a
B) 1-a; 2-b; 3-c; 4-d; 5-e
C) 1-b; 2-c; 3-d; 4-e; 5-a
D) 1-c; 2-b; 3-a; 4-d; 5-e
E) 1-d; 2-a; 3-e; 4-b; 5-c

2. Uyğunluğu tapın:

1. Dialektlərdə saitlərin əyilməsi.
2. Şəki dialektində saitin ilkin uzlaşması.
3. ŋ-in Azərbaycan əlifbasından çıxarılmasına etiraz

a) A.Axundov
b) Aşmarin
c) A.Qurbanov

A) 1-c; 2-b; 3-a
B) 1-a; 2-c; 3-b
C) 1-b; 2-a; 3-c
D) 1-b; 2-c; 3-a
E) 1-c; 2-a; 3-b

3. **Uyğunluğu təyin edin**

1. səsin burunda tələffüzü
2. səsin uzun tələffüzü
3. səsin düşməsi
4. səsin çox qısa tələffüzü
5. səs əvəzlənməsi

a) ˜	A) 1-a; 2-b; 3-c; 4-d; 5-e
b) ¯	B) 1-e; 2-b; 3-d; 4-c; 5-a
c) ( )	C) 1-b; 2-d; 3-c; 4-a; 5-e
d) ˘	D) 1-d; 2-e; 3-b; 4-a; 5-c
e) →	E) 1-c; 2-a; 3-d; 4-e; 5-b

4. Uyğunluğu müəyyən edin:

1. uruğ
2. tənək
3. pilək
4. araqut
5. ayaqçı

a) nəsil, tayfa	A) 1-a; 2-e; 3-c; 4-b; 5-d
b) qadın	B) 1-b; 2-d; 3-a; 4-d; 5-e
c) düymə	C) 1-c; 2-b; 3-e; 4-a; 5-d
d) elçi	D) 1-d; 2-c; 3-b; 4-a; 5-e
e) üzüm	E) 1-e; 2-a; 3-b; 4-a; 5-b

5. Uyğunluğu təyin edin

1. bəlkəvçin
2.eyməmək
3. bejvan
4. kimgə
5. daqac

a) quş
b) meşəçi
c) it
d) iclas
e) qorxmaq

A) 1-a; 2-e; 3-b; 4-d; 5-c
B) 1-b; 2-c; 3-a; 4-e; 5-d
C) 1-c; 2-b; 3-e; 4-a; 5-d
D) 1-d; 2-a; 3-b; 4-c; 5-e
E) 1-e; 2-a; 3-c; 4-b; 5-d

DİLİMİZİN MÜXTƏLİF MƏHƏLLİ XÜSUSİYYƏTLƏRİ – LEKSİK NÜMUNƏLƏR

(Filologiya fakültəsinin tələbələri tərəfindən toplanmış material – 2021)

1) Şükürova Pəri, kurs: 1, qrup: 2007B
Naxçıvan dialekti və şivələrinə aid sözlər.

1. Aba - ata
2. Acıxamra - xəmir üçün maya
3. Acıtmax - hirsləndirmək
4. Aquşqa - pəncərə
5. Ala - sahə suvarılan zaman arada qalmış suvarılmamış kiçik yer
6. Artırma - evin qabağında evi böyütmək üçün tikilən yer
7. Alay-qolay - bir işi necə gəldi görmək,başdansovdu etmək
8. Alışqan - kibrit
9. Avaragor - işsiz,boş-bekar
10. Babalın yumax - böhtan atmaq
11. Başmax - ayaqqabı
12. Bayramçalıq - bayram payı
13. Bekara - yararsız
14. Bulamac - xəmir mayası
15. Böyün - bu gün
16. Cında - stol əskisi
17. Cılız - arıq

18. Cılxa - tamamilə
19. Cırhacır hava - çox isti hava
20. Cecim - tut çıparkən yerə sərilən parça
21. Cuma - cümə
22. Cəviz - qoz
23. Çakkala - kal ərik
24. Çapacax - dəhrənin bir növü
25. Çıqqılı - balaca
26. Çimçəşmək - ürpəşmək
27. Çərrətmək - boğaza yığmaq
28. Dadaş - ata
29. Damdaş - ev-eşik
30. Dənə - tum
31. Dəstərxan - süfrə
32. Dişdəmə çay - ağıza qənd qoyulub içilən çay
33. Domba - şiş
34. Ehmal - yavaş
35. Əppək - çörək
36. Əyləmək - yavaşıtmaq, saxlamaq
37. Əvvam - avam
38. Fısı yatmaq - sakitləşmək
39. Gəbə - xalça
40. Gəc - əhəng daşı
41. Hax-naxaq - nahaq yerə
42. Havıc - aş qarası
43. Həlbət - yəqin ki
44. Həqqi - həqiqətən

45. Hətərəm- pətərəm - ikili danışmaq
46. Helləmə - əl arabası
47. Xapamax - qapamaq
48. İcəşmək - mübahisə etmək
49. İskəm - stol
50. Kadoy - balqabaq
51. Kalafa - uçuq- sökük,köhnə yer
52. Kərdi - Əkilmək üçün müəyyən hissələrə bölünmüş yer
53. Kəfkir - ətin, mürəbbənin üzərindəki köpüyü yığmaq üçün iri, deşikli qaşıq
54. Kərki - balaca toxa
55. Kükü - yumurta və göyərtinin bir yerdə qayğanaq bişirilməsi
56. Qahım - qohum
57. Qalın - təndir çörəyi
58. Qaragöz - reyhan
59. Qara-qırmızı kababı - badımcan pomidor kababı
60. Qara pomidor - badımcan
61. Qasturka - qazan
62. Qavırqa - Xıdır Nəbi bayramında müxtəlif çərəzlər, buğda, küncüt və.s qovrulub qarışdılıraq hazırlanır
63. Qavıt - qovrulub əl dəyirmanında çəkilərək un halına gətirilmiş buğda
64. Qodem - vəzəri
65. Lavaşa - lavaş şəklində qurudulmuş alça
66. Lecan - çox,bol
67. Ləvin - forma

68. Lumu - limon
69. Mahna - bəhanə
70. Mayıf - şikəst,kor
71. Mığmığ – ağcaqanad
72. Miçətkən - milçəklərdən qorunmaq üçün tənzifdən örtük
73. Mərəndi - ot çalan alət
74. Mısmax - qorxudan susmaq,sakit durmaq
75. Mitil - yorğanın, döşəyin əsas üzünün altındakı üz
76. Oyma - don
77. Öddək - qorxaq
78. Ömürbillah - ömrünün sonuna qədər
79. Pazı - çuğundur
80. Penir - pendir
81. Pəyə - tövlə
82. Popullanmax - böyümək
83. Salma çay - şirin çay
84. Sevələmək - əzizləmək
85. Səki - guya
86. Sifdə - ilk,əvvəl
87. Şıdırqı - şiddətli
88. Şümal - düz,hamar
89. Taykeş - tayı düz olmuyan
90. Urvat - hörmət,xətir
91. Üzbəsurat - üzüzə
92. Üz-göz - aş qarası
93. Vırnıxmaq - daim hərəkətdə olmaq
94. Yanımlı - can yandıran,qayğıkeş

95. Yanperti - əyri,yanı üstə
96. Yuxa – lavaş

2) Nurcan Xəlilzadə, kurs: 1, qrup: 2004B
Rəqsanə Fəttayeva, kurs: 1, qrup: 2008B
Masallı rayonuna məxsus dialektlər

1. Ayranaşı - dovğa
2. Ban - çardaq; arabanın gövdəsi
3. Bəllə - çox duzlu
4. Biləng - yaba
5. Bili - ördək
6. Boraşum - bel ilə edilən şum
7. Bülül - lampa şüşəsi
8. Busağa - astana
9. Buyxursu - bu dəfə
10. Cəro - quyruqsuz qoyun
11. Cılxa - tamamilə
12. Cılız - arıq
13. Ciyəci - kisə
14. Cüng - künc
15. Çınqır - nadinc
16. Çibin - bal arısı
17. Çölməy - xörək bişirilən saxsı qab
18. Dalısürə - ardınca
19. Danqaz - loğva, ədabaz
20. Dır - aralı
21. Dızıxmax - qaçmaq

22. Donnux - dəyirmanda taxıl tökülən yer, təknə
23. Əlcəg - dəstə, dəstək
24. Əlçim - əl boyda təmiz daranmış yun
25. Əmiri - çox yaxşı, misilsiz
26. Əməyçani - yöndəmsiz
27. Ərə - mişar
28. Farş - suqabı, güyüm
29. Gapat- paltar
30. Gahvar - gərək ki, deyəsən
31. Girdəkan- qoz
32. Güdə - qısa, gödək
33. Hamar - çöl, düzənlik
34. Havasat - iqlim, ab-hava
35. Hənirti - istilik
36. Hələbi - ağ dəmirdən neft qabı
37. Hındıl - böyürtkən
38. Him - qaş-gözlə edilən işarə
39. İsdil - kiçik göl, su anbarı
40. İstil - çəltik əkilən sahə
41. Kalah - güc, qüvvə
42. Keyvəni - qarı, yaşlı qadın
43. Kələkə - yeni balası olmuş heyvanın ilk südündən bişirilən yemək
44. Kort - iri bıçaq
45. Köçə - qoyun salmaq üçün düzəldilmiş üstüaçıq yer
46. Köndələn - yanakı, maili
47. Küançılığ - qarovulçuluq

48. Küf - yelləncək
49. Küm - evin üstü
50. Külmə - balıq növü
51. Küləfrəngi - külək tutan yer
52. Kütünbel - qozbel
53. Qapışmağ - güləşmək
54. Qarpız - çıraqda neft tökülən hissə
55. Qorapalan - aşsüzən
56. Qulaban - evin yanında yardımçı yer, tikinti
57. Lama- təpitmə
58. Lələ - ata
59. Ləm - talvar
60. Lıntır - kobud
61. Lümürtdan - qısa
62. Masqura - balaca saxsı kasa
63. Mayıf - şikəst
64. Məkəbuğda - qarğıdalı
65. Mələfə - döşəkağı
66. Möhrə - palçıq divar
67. Nalça - döşəkçə
68. Nal - artırmanın döşəməsi
69. Nehrəgülü - lalə
70. Nırnıs- xəsis
71. Oxur - suqabı
72. Pələmə - bağda, bostanda düzəldilən çardaq
73. Pələt - həyət qapısı
74. Pilək - düymə

75. Pıtın - çürük
76. Pitbala - qaz balası
77. Potuğ - biryaşar camış balası
78. Püfə - çəltik qabığı, kəpəyi
79. Selinti - selin və ya suyun yığıb gətirdiyi şeylər
80. Sinəçülə - samı
81. Sital- nadinc, dəcəl
82. Siv - künc
83. Siyəzi- kisə
84. Suval - kirəmit
85. Süləngəc - sülənən, avaralanan
86. Şəpkülah - gecəpapağı
87. Şirinqız - əmiarvadı
88. Tabağca - içərisində qənd doğramaq üçün ağacdan hazırlanan xüsusi çanaq
89. Tamasa - tavan
90. Təlis - əl-üz dəsmalı
91. Tənəbi - qonaq otağı
92. Tiyança - kiçik qazan
93. Uyuf - ağılsız
94. Vurux - bağlı
95. Yeddilik - qızlarquşu
96. Yelçək - ləçək
97. Yeralması - kartof
98. Zağar - dikbaş, sözə qulaq asmayan
99. Zəhəndə - çoxdanışan, zəhlətökən

100. Zingilə - üzüm salxımının bir hissəsi, üzərində bir neçə gilə olan hissə
101. Ziyanxab - bədxərc

3) Adışlı Fidan. Kurs: 1, qrup: 2003B.
Yardımlı rayonu üzrə dialekt sözlər.

1. Çibin - milçək
2. Təlis - dəsmal
3. Teyxa - tamamilə
4. Nalça - döşəkçə
5. Qıvraq - cəld
6. Boranı - balqabaq
7. Nöyüt - neft
8. Naxarta - nə qədər
9. Girdəkan - qoz
10. Qənşər - qarşı tərəf, ön
11. Yerpənək - xiyar
12. Lapdan - qəfildən
13. Cıqqılı - lap balaca , az
14. Çatı - ipdən hörülmüş kəndir
15. Çıl-çırpı - ağac qırıntıları
16. Xeylaq (xeylax) - cins (kişi, qadın)
17. Od-yaloy – qoçaq , zirək
18. Baca – pəncərə
19. Taxça – rəf (pəncərə rəfi)
20. Aynabənd – şüşə bənd
21. Çağırmağ – mahnı oxumaq

22. Çalıxlamax – çapalamaq
23. Dabalaq – badalaq vurmaq
24. Dadaş – dayı
25. Ellig(elliy,ellik) – hamı
26. Zir – nəlbəki
27. Qəflətin – mağaza
28. Dənzəməg – qızarıb-bozarmaq
29. İncar – hal, taqət
30. Gilftə - külbə , koma
31. [Ə:ağaltı] - pilləkən
32. Qərə - qara
33. Namaluma -heç olmasa
34. [Kö:üz] - 12 kq.
35. Gürşat - leysan
36. Gəyişmək - məsləhətləşmək
37. Oxşey - görünür, deyəsən
38. Cicə - nənə
39. Ölətə - aciz, zəif
40. Əvədimək - ölmək
41. Arba - eyni, bərabər
42. Dindo - külüng
43. Gəzdik - bıçaq
44. Pocə - yamac
45. Qərəbağır - qaraciyər
46. Çəpi - çığ
47. Cürələşməğ - savaşmaq
48. Bircitməg - əymək

49. Sağır - yetim
50. Sağal - alaquyruq
51. Saf duşməx’ - arxayın olmaq
52. Riğə - ədəd, dənə
53. Rıxdım - möhkəm
54. Rucah etmək - calamaq,rast gəlmək
55. İfal - utancaq
56. Rədə vermək - soyuq münasibət
57. Civmək - sürüşmək
58. Qabariməg - cavab qaytarmaq
59. İgəşmək - mübahisə etmək
60. Hagidə - cəld , tez
61. Gahgir - hərdən bir , arabir
62. Gafa - bəlkə
63. Əbrəş - təpəl , başında ağ xal olan heyvan
64. Əbür - allergiya
65. Ədəli-dədəli - hər şeyi qaydasında olan

4) İbrahimli Səma, kurs: 2, qrup: 1902B
Beyləqan dialektləri

1. Hünü - ağcaqanad
2. Teyxa - bütünlüklə
3. Nöyüd - neft
4. Cıqqar, cıqqır - səs (fonetik dəyişmə baş verdiyi üçün bəzən a, bəzən ı ilə deyilir)
5. Mozu - cırcırama
6. Ditdili - ağcaqanad

7. Sərtov - pencək
8. Faraş - yetişmiş
9. Qəlbi - hündür
10. Çılxa - hamısı, bütünlükdə
11. Masqura - kasa
12. Nimdər - döşək
13. Əppək - xörək
14. Mama - bibi, (atanın bacısı)
15. Dədə - ata, baba
16. Daxal, çəkəcək - çəkməcə (şkafda və s.-də olur)
17. Urvatlı- ürəyəyatan, normal
18. Qəməlti- bıçaq
19. Təşər-təşər(baxmaq)- paxıllıqla baxmaq
20. Çıqqılı- xırda, kiçik

5) Ələkbərzadə Hüsna, kurs: 1, qrup: 2007B
Bakı dialektləri

1. Qeynər - qaynar(Bülbülə-Əmircan tərəf)
2. Çərx - təkər(Bülbülə)
3. Əgibdü - ayıbdı(Əmircan)
4. Mömə - ana(Əmircan)
5. Bobə - baba(Əmircan)
6. Abgərdən - çömçə
7. Xurtxəşil - əzilmiş
8. Xərəngə - çoxdanışan
9. Deşdəbokul - tısbağa(Şüvəlan,Novxanı tərəf)
10. Əndərbadi - qeyri-adi(Bülbülə)

11. Cüvəllağı - fırıldaqçı(Bülbülə)
12. Beləncíynə-belə deməkdir(Bülbülə)
13. Maskura - balaca kasa
14. Qərəgün - baxtsız
15. Miçetkən - milçək
16. Qeynər - qaynar;
17. Xərəb - xarab;
18. Gögərti - göyərti(Bülbülə,Əmircan)
19. Nəməkdan - duzqabı(nəmək farsca duz deməkdir)
20. Abgərdən - çömçə
21. Hövzəki - səliqəsiz
22. Nöşün? - nə üçün? (Əmircan)
23. Titrəquş - həssas (Bülbülə)
24. Dəstəfərman - nəsə bir iş gördürəndə qocalar tərəfindən deyilir.
25. Peyğəmbəri - qarğıdalı (Bülbülə)
26. Pisməgilov - dozanqurdu (qara qurda deyilir)
27. Külafərəngi - istirahət yeri
28. Fərzənd - oğlan uşağı
29. Tifillər, heyvənlər - uşaqlar (Bülbülə)
30. Xeyrat - həyətdə saxlanılan heyvanat
31. Höcətdeşmək -mübahisə etmək
32. Qəfəqoran - tava
33. Xatayi - çay yarpaqlarının istifadədən sonrakı vəziyyəti
34. Samalyot – aeroplan (Bülbülə)
35. Cağbacağ - əla vəziyyətdə
36. Cannığ - jilet

37. Heybə - xurcun
38. Şomu - ispanaq
39. Cinbala - fərasətli
40. Girgirə - yula - ləvazimat
41. Amanabənd - qəzalı
42. Ağbacı - gəlin
43. Guna - yanaq
44. Qeysi - ərik (Əmircan,Bülbülə)
45. Circovul, corat - siçovul
46. Cuvanəzən - bacarıqlı xanım
47. Pələmə - rəf
48. Daş-baş - əlavə qazanc
49. Zən - qadın (Suraxanı)
50. Piyər - ata (Suraxanı)
51. Şüvər - ər (Suraxanı)
52. Zühün - dil (Suraxanı)
53. Xənd - gül (Suraxanı)
54. Düta - 2 (Suraxanı)
55. Dəta - 10 (Suraxanı)
56. Çülta - 40 (Suraxanı)
57. Mən türə bəxostüm - mən səni sevirəm.
58. Kuk - oğul (Suraxanı)
59. Düşənbə - bazar ertəsi
60. Yekşənbə - bazar (Suraxnı)
61. Arinə - cümə
62. Pəncşənbə - Cümə axşamı (Suraxanı)
63. May – ana (Dağlılar, Balaxanılılar, Suraxanlılar)

64. Bürar - qardaş
65. Qunşi - qonşu
66. Dümər - yeznə
67. Əyəl - uşaq
68. Ənbüru - armud
69. Nümük - duz
70. Xəndüstan - gülmək
71. Üşun - onlar
72. Umu - biz
73. Üşmu - Siz
74. Tü - sən
75. Xuvar - bacı
76. Kələmay - nənə (dağlı tərəf)

6) Ramilə Şahmuradova, kurs 2, qrup: 1901B
Astara bölgəsinə aid dialektlər

1. Təlis – dəsmal
2. Boranı - balqabaq
3. Məkə - qarğıdalı
4. Nimdar - döşəkçə
5. Pələt - qapı
6. Alaydan - tezeden
7. Gavar - belke
8. Yerpenek - xiyar
9. Bulama - inəyin ilk südü
10. Bellegilə - palıd qozası
11. Kümə - anbar, artıq esyaların qoyulduğu yer

12. Ciye - kəndir
13. Bir oxur su - bir parç su mənasında
14. Leyen - derin qab
15. Nimçə - dayaz şüşə qab
16. Tas - dəmir dərin balaca qab
17. Peşməy - şirin pambıq
18. Şüşəbənd - çox pəncərəli koridor, eyvan
19. Birəlli - dəmir çömçə kimidir, çalo, hələbi də deyirlər
20. Hampa - el obada hörmətli adam
21. Lijman - evin damından su damcılayan yer
22. Kəmsər - işinin təhərini bilməyən adam
23. Filfor - tezbazar mənasında dialekt
24. Ləçək - balaca, nazik yaylıq
25. Fakün - o da anbar kimi evin arxası
26. Hin - toyuq saxlanılan yer
27. Dəmşəy - dəngül adam
28. Nəynor - çoxdanışan adam
29. Gülün qıtasi - qönçəsi mənasında
30. Hındamora - xurma
31. Hındıl - böyürtkən
32. Gəndalaş - yabanı otdur
33. Pələmə -rəf
34. Pəjmürdə - qəmgin
35. Küf - yelləncək
36. Peyzəvəng - nəhəng, iri cüssəli adam
37. Dəvədəlləyi - biraz kobud qız
38. Talaşa - kiçik odun parçası

39. Sülənmək - boş-boş gəzmək
40. Avaragor - xeyirsiz adam
41. Camaxodan - kohnə palcıq evlərdə olur, otaqda qapı boyda açılan deşikdir üstünə pərdə asırlar, içinə yorğan, döşək, nəsə artıq əşyalar yığırlar)
42. Qəqol - pinti adama deyirlər, bilmirəm bəlkə də t alışcadır
43. Qətifə - can qurulayan dəsmal
44. Şoxum - şum
45. Zıl - ev ve çöl quşlarının ifrazatı
46. Pələt - həyət qapısı
47. Pəltə - tutqac
48. Namala - heç olmasa
49. Şeşəllənmək - özünü sevincək aparmaq, kef eləmək
50. Buroz - ağacın kəsilmiş hissələrindən biri
51. Yarmaça - ağacın balta ilə xırdalanmış kiçik hissəsi
52. Bürün - burozun iki hissəsindən biri. Feil kimi də işlənir(bürünləmək)
53. Şalapara - yer silən əsgi və ya pinti
54. Şallamaq - silmək və ya kimisə vurmaq
55. Cəməkə - pol silməyə parça
56. Sileyin - natəmiz, pinti
57. Hoza - uzun böyük ağac
58. Girdəkan - qoz
59. Qorapalan - aşsüzən

7) Hüseynli Fatimə, kurs: 1, qrup: 2006B
Naxçıvan dialektlərindən

1. Çöçə - kökə
2. Bombu - bazar çörəyi
3. Almaxara - gavalı
4. Mığmığ - ağcaqanad
5. Başmax - ayaqqabı
6. Badoş - üzsüz
7. Dəyir - deyil (bunu hələ də tergidəmmirəm məncə bunu daha çox Ordubad rayonun Əndəmic kəndi deyir)
8. Cek - sevgili
9. Gədə - pis oğlan
10. Həylə - elə
11. İşgənə - ətin bulyonu
12. Kuf - yelləncək
13. Pıspıs - qara böcək
14. Rəsmi - az qala
15. Qələ - dəfə
16. Tabax - xonça
17. Zıvmaq - sürüşmək

8) Bayramova Günay, kurs: 1, qrup: 2010B
Ağdam dialektləri

1. Qağa - böyük qardaş
2. Bajı - ana
3. Əppək - çörək

4. Həqqi? - doğrudan?
5. Karıxmaq - çaşmaq
6. İlmanqı - ilıq
7. Doqqaz - darvaza
8. Mama - atanın bacısı
9. Nəməhdan - duzqabı
10. Artırma - aynabənd
11. Düy vurmaq - hamıya xəbər çatdırmaq

10) Məmmədova Əfşan, kurs: 1, qrup: 2004B
Salyan rayonu dialektləri

1. Qorapalan - aşsüzən.
2. Qülənqəş - zal
3. Aylabənd - şüşəbənd
4. Nöhün- necə
5. İlmanqı - ilıq
6. Qabçağ - pambığı dərilmiş qoza,qutu,su içilən qab
7. Qadağ - mıx
8. Qart - lovğa, çoxbilmiş
9. Qirnis - Xəsis
10. Lappadan - Lapdan
11. Lələpəto - Pəltək
12. Lərtvan - Nərdivan
13. Loşaloş - Ağzına qədər
14. Lələöün - Acgöz
15. Qıntır - Arıq, zəif.

11) Rəşidova Elnarə, kurs: 1, qrup: 2002B
Şimal qrupu dialektləri (Daha çox Qəbələdə işlənən dialekt sözlər)

1. Şəl - xəzəl
2. Zuqqun - Şabalıdı və ya döyüb salmaq üçün ağac
3. Ürk - şabalıdı və ya qozu döyüb salmaq üçün ağac
4. Qələməc - ağacdan özü tökülən şabalıd
5. Gilə - ağacdan özü tökülən şabalıd
6. Mət - meyvənin bişirəndə olan şirəsi
7. Cıbırıq - Büsbütün
8. Bəhli - gilas
9. Qirə - meyvə yIğanda ağaca keçirilən dəmir
10. Xötək - balaq
11. Tərəkə - sahibsiz, yiyəsiz
12. Bilbil - istiot (Qəbələnin Bum qəsəbəsində istiota belə deyilir.)
13. İncəvara - yaxşı ki
14. Danqabaş - ağılsız
15. Feşəlləmək- qızışdırmaq

12) Cəfərova Günel, kurs: 1, qrup: 2005B
Gədəbəy dialektləri

1. Doqqaz - dar yol
2. Ziri, bölmə - nəlbəki
3. Hancarı - necə?
4. Nimdər - döşəkcə
5. Maş - lobya

6. Məhrəba - əl dəsmalı
7. Kökür - kəf süzən
8. Sütül - qarğıdalı
9. Anarı - o yana, kənara
10. Suç - günah
11. Ertə - tezdən
12. İsmarıc - göndərilən xəbər

13) Məmmədova Gülxar, kurs: 1, qrup: 2003B
Tovuz rayonu dialektləri

1. Doqqa - küçə
2. Çaxcağ - qapı
3. Əpbəh - çörək
4. Bılıx - inəyin yeni doğulmuş balası
5. Cələ - çayın kənarındakı bağ
6. Hənd - üzüm bağı
7. Şenniy - kənd
8. Fətir - lavaş
9. Firəngi - bıçaq
10. Mayızdanmaq - heç bir işlə məşğul olmamaq, boş-boş uzanmaq
11. Ciji - ana
12. Qağa - ata
13. Faraş - tez
14. Sütül - qarğıdalı
15. Lələ - dost
16. İştiy - jilet

17. Tana - sırğa
18. Teşt - ləyən
19. Kora - mismar
20. Yüyürgək - beşik

14) Abbasova Mehriban
Qarabağ dialektləri

1. Dədə - ata
2. Nənə - ana
3. Mama - bibi
4. Qocanənə - nənənin və ya babanın anası
5. Körükcə - nəticənin övladı
6. Məhraba/Məhrava - əl-üz dəsmalı
7. [So:rux] - Döşək ağı
8. Ayıbalası - Çiy kərpic
9. Usdufla davranmaq - təmkinli hərəkət etmək
10. Puçur - tumurcuq
11. İsmarramax - sifariş göndərmək, xəbər çatdırmaq
12. Quzulamaq - qopuqlanıb tökülmək
13. Çilə - əzab, əziyyət
14. Böyük Çilə - 22 Dekabır - 22 fevral aralığındakı qış dönəmi
15. Kiçik Çilə -22 Fevral -14 mart aralığındakı dönəm
16. (Qış fəsli yaya və yaza nisbətən daha quraq, çətin və qıt keçdiyi üçün bu dönəmləri "Çilə"(əziyyət) adlandırırlar)
17. Qəmətli - bıçaq
18. Tini gəlmək - təbi gəlmək

19. Bəzək vermək - qafiyələndirmək
20. Ağı başı - yas mərasimləri üçün gətirilən qadın
21. Qəhərə qoymaq - əziyyət vermək
22. Darvaza - həyət qapısı
23. [Sa:] - sənə
24. Xeylax - çox,bir çox
25. Səhər gendənnən - sübh çağı (gecədən,səhər olmamış,sabaha lap az qalmış)
26. Nağayrax? - Nə edək?
27. Sərniş - süd sağmaq üçün xüsusi 2 qulplu qab
28. Ləngər - boşqab
29. Teşt - böyük metal ləyən
30. [Yönü əynə] - o tərəfə doğru
31. Day - artıq (gəl day - gəl artıq)
32. Mejmaha - çox böyük, toylar üçün isdifadə olunan sini
33. Cəfdə/rəzə - qapı kilidi
34. Kuz/ağıl - qoyunların saxlandığı yer
35. Taya - heyvan üçün yığılan ot
36. Koğa - çobanın çomağı
37. Ojax - seyidlərin yaşadıqları məkan, evləri, müqqədəs sayılan yerlər
38. Bərə - su arxlarının kəsişdiyi künc
39. Tirə - suyun qabağına süni yaradılmış təpə
40. Yelmə - atın saçı

15) Mustafayeva Sevda, kurs: 1, qrup: 2005B

Quba dialekti

1. Meşmeşi - ərik
2. Nalça – döşəkçə (Lənkəran zonasında da işlənir)
3. Qəhvədan - çaydan
4. Bəhri//bəhli – gilas
5. Gəvəzə - boşboğaz
6. Naxarta? – nə qədər?
7. Nöyüt – neft

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Abbasova R. Azərbaycan dilinin Qubadlı şivələri, Bakı:“Çinar-Çap”,2006, 204 s.
2. Abdullayev Ə.Z. Azərbaycan dilçiliyi məsələləri. Bakı, Bakı Universiteti nəşriyyatı, 1992.
3. Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. I, II, III, IV c. Bakı, 2005. 600-700s.
4. Allahverdiyev E. Qarabağ dialektinin Əfşar şivəsi, fil. elm. namzədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 1995, 30 s.
5. Alekseyev V. Türk xalqlarının əcdadları. Rus dilindən tərcümə. Azərbaycan məktəbi, 1971, №8, s. 51-57.
6. Amanoğlu G. E. Naxçıvan ağızları söz varlığı, “Kültür Ajans Yayınları”, Ankara, 2010, 95 s.
7. Aslanov V. XII əsrəqədərki Azərbaycan dili // Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, 1983, s. 73-83.
8. Azərbaycan dilinin dialektoloji lüğəti (A-Z), Bakı:“Şərq-Qərb”, 2007. 566 s.
9. Azərbaycan dilinin dialektoloji lüğəti. Azərbaycan. SSR EA nəşriyyatı, Bakı, 1968.
10. Azərbaycan dili dialekt və şivələrinin monoqrafik tədqiqinə aid proqram. Azərbaycan. SSR EA nəşriyyatı, Bakı, 1956 (tərtib edənlər: ŞirəliyevM., Ramazanov K., Rüstəmov R.)

11. Azərbaycan dilinin qərb qrup dialekt və şivələri. Azərbaycan SSR EA. Azərbaycan tarixi. 3 cilddə. 1-ci cild. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1961.
12. Azərbaycan dilinin Muğan qrup şivələri. Azərbaycan. SSR EA nəşriyyatı, Bakı, 1955.
13. Azərbaycan toponimləri. Ensiklopedik lüğət. Bakı, 1999, 584 s.
14. Azərbaycan türk xalq şivələri lüğəti. Rusca, almanca tərcümələrilə. 1-ci c., 1-ci buraxılış. Bakı, 193047.
15. Babayev A. Bəkir Çobanzadə. Bakı, Şərq-Qərb, 1998.
16. Bayramov A., Bayramova A., Ağbaba şivəsi sözlüyü, Sumqayıt, 2014, 280 s.
17. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları, Bakı, 1978
18. Bayramov İ. Qərbi Azərbaycan şivələrinin leksikası. Bakı, 2011.
19. Behbudov S.M. Azərbaycan dilinin Zəngilan şivəsi. Fil elm.nam dis.407 səh. Bakı:1966. s.24
20. Behbudov S.M. "Azərbaycan dili şivələrinin frazeologiya lüğəti", Bakı, "Elm və təhsil", 2011, 292 s.
21. Budaqova Z. Azərbaycan dili haqqında qısa oçerklər. Bakı: Елм.1982. 186 s.
22. Cəfərova A. Azərbaycan xalq təbabəti terminləri. nam.dis. B.1994. s.133
23. Cəfərzadə M. Azərbaycan dilinin dialekt sintaksisi, 2016, 380 s.

24. Cəlilov F.A. Azərbaycan türklərinin islamaqədərki tarixi. Doqquz bitik/I bitik, Bakı. Ağrıdağ, 2014. 368 s.
25. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. 1-ci hissə. Bakı: Maarif, 1979.
26. Dəmirçizadə Ə. "50 söz" . Bakı 1968. səh. 54
27. Ergin M. Azəri türkcəsi. İstanbul. 1981.
28. Əbu Həyyan Əl-Əndəlusi. Kitab əl-idrak li-lisan əl-ətrak. Bakı: Azərnəşr. 1992. 115 səh.
29. Əhmədov B. Dialektologiyadan çalışmalar. Bakı, 1977.
30. Əhmədov B. Dialektologiya-çalışma və tapşırıqlar. APİ-nin nəsri, 1979
31. Əliyeva S. Məhəmməd Füzulinin Azərbaycan –türk divanında tam arxaikləşmiş feillər. Dil tarixi və dialektologiya məsələləri. "Tədqiqlər", 2008, №3-4.
32. Əlizadə S. Oğuznamə. Bakı:Yazıçı. 1987.227 səh. S.144
33. Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı.1999.
34. Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı, 2015.
35. Əzizov E.İ. Azərbaycan dilinin tarixi dialektologiyası. Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı: BDU, 2016, 347 s.
36. Əzizov E.İ. Çuvaş dili haqqında//Bakı Universitetinin xəbərləri, humanitar elmlər seriyası. Bakı, 2006, №2
37. Hacıyev T. Azərbaycan dilinin Cəbrayıl şivəsi, nam.dis., Bakı, 1967, 436 s.

38. Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi (Təşəkkül dövrü). Bakı: ADU nəşri, 1976, 156 s.
39. Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi. 2-ci hissə. Bakı, Maarif, 1987.
40. Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi. 2 hissədə. Bakı, Elm, 2012.
41. Hacıyev T.İ. Birinci Türkoloji Qurultayda dil məsələləri//Bakı Universitetinin xəbərləri, humanitar elmlər seriyası. Bakı, 2006, №2
42. Hacıyev T.İ., Vəliyev K.N. Azərbaycan dili tarixi. Oçerklər və materiallar. Bakı: Maarif, 1983
43. Həsənova N. Azərbaycan dilinin Yevlax şivələrinin leksikası, nam.dis., Bakı, 2010, 140 s.
44. Hüseynov A. Azərbaycan dialektologiyası. Bakı. APİ. 1958. 127 s.
45. Hüseynov A. Azərbaycan dialektologiyası (dərs vəsaiti). Bakı, APİ-nin nəşri, 1979.
46. Xəlilov B. Birinci Beynəlxalq Türkoloji Qurultay. Bakı, Elm, 1999.
47. Xəlilov B. Türkologiyanın intibah dövrü. Bakı, Adiloğlu, 2001.
48. İbrahimov B. Naxçıvan şivələri qrupunun leksik xüsusiyyətləri. V.İ.Lenin adına APİ-nin nəşriyyatı, Bakı, 1960.
49. İslamov M.İ., Ağayev E.G., Behbudov S.M., Əhmədov T.M., Məmmədov N.H., Tağıyev B.M., Xasıyev Z.A.,

Azərbaycan dilinin dialektoloji atlası, Bakı, “Elm”, 1990. 284 s.
50. Kaşğari M. Divani luğat-it-türk. Dörd cildə/Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər, Bakı, “Ozan”, I c., 2006, 512 s.
51. Kaşğari M. Divani luğat-it-türk. Dörd cildə/Tərcümə edən və nəşrə hazırlayan: Ramiz Əskər, Bakı, “Ozan”, II c., 2006, 400 s.
52. Kazımov İ. Axısqa türklərinin dili. Bakı: 2002
53. Kitabi-Dədə Qorqud. (əsl və sadələşdirilmiş mətnlər). Bakı, “Öndər nəşriyyatı”, 2004, 376 s.
54. Köçərli F., C.Hacıbəylinin ömründən yarpaqlar. Mədəniyyət qəzeti. Bakı. 1995. Yanvar.
55. Qarabağ: folklor da bir tarixdir V kitab (Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri). Bakı, “Elm və təhsil”, 2012, 468 s.
56. Qukasyan V.L. Azərbaycan dilinin təşəkkül tarixinə dair qeydlər // Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, 1983, s.35-62
57. Quliyev İ. Azərbaycan dilinin Ağcabədi rayonu şivələri.Bakı.1978. 186 s.
58. Qurbanov A. Cücəkənd şivəsi. Bakı, 2001.
59. Mehdiyeva S. Folklor abidələrinin linqvo-poetik tədqiqi. Bakı, 2003
60. Məmmədli M. Azərbaycan dialektologiyasına dair mühazirələr. Metodik vəsait. Bakı. 2011.

61. Məmmədli M. Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları. Bakı, 2003.
62. Məmmədli M. Azərbaycan dilinin Təbriz dialekti. Bakı, 2008.
63. Mirzəyev H. Dərələyəz mahalının toponimləri və şivə sözləri, Bakı, "Ağrıdağ" nəş., 2003, 360s.
64. Musaoğlu M. Azərbaycan dilinin dialektoloji lüğəti. Ankara. 2003.
65. Naxçıvan MSSR-in dialekt və şivələri. Azərbaycan. SSR EA nəşriyyatı, Bakı, 1962.
66. Nehru C. Ümumdünya tarixinə nəzər. Bakı: Gənclik, 1986.
67. Rüstəmov R. Azərbaycan dili dialekt və şivələrində fel. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1968
68. Rüstəmov R. Quba dialekti. Azərbaycan. SSR EA nəşriyyatı, Bakı, 1961
69. Sadıqov B. Azərbaycan dilinin qrammatikasından xüsusi kurs (dialekt materilları əsasında). Bakı, 1977.
70. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı "Şərq-Qərb", 2008, 416 səh.
71. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. "Maarif", Bakı, 2008.
72. Şirəliyev M. Azərbaycan dialektologiyası (Qazax dialekti). 1941.
73. Şirəliyev M. Bakı dialekti. Azərbaycan SSR EA nəşriyyatı, Bakı, 1957.

74. Tanrıverdiyev Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm və təhsil, 2012. 464 səh.
75. Vəliyev A.H. Azərbaycan dialektologiyası. ADU, Bakı, 1976.
76. Vəliyev A.H. Azərbaycan dialektologiyası (Keçid şivələrin morfologiyası və sintaksisi). Bakı. ADU. 1975.118 səh.
77. Yunusova Ş. Azərbaycan dili dialekt və şivələrində arxaizmlər. Nam.dis., Sumqayıt, 2005, 154 səh.
78. Zeynalov F. Azərbaycan dilinin mənşəyi məsələsinə dair//Azərbaycan filologiyası məsələsi. II buraxılış. Bakı: Elm, 1984, s.22-30.
79. Zeynalov F., S.Əlizadə. "Kitabi-Dədə Qorqud". Bakı: Yazıçı. 1988. 265 səh.
80. XIII-XVI əsrlər /Azərbaycan şeri: 20 cilddə.III c. Bakı: Elm.1983. 544səh.
81. 1926-cı il Birinci Bakı Türkoloji Qurultayı. Stenoqram materialları, biblioqrafiya və foto-sənədlər. Ruscadan tərcümə, ön söz və şərhlərin müəllifləri: K.V.Nərimanoğlu, Ə.Ağakişiyev. Bakı, Çinar-çap, 2006.

Türk dilində

82. Atalay B. "Divanü luğat it türk". İstanbul. 1939-1943. 5 c. 462 s.
83. Bilgehan A. Selmas ağzı.Karadeniz araşdırma merkezi. 2006. 260 s.

84. Erbay F. W. Radloff'un "Opıt Slovarya Tyurkskih Nareçiy" Adlı Eseri ve Eserde Geçen Çagatay Türkçesine Ait Kelimelerin incelenmesi, dok.tezi., Konya, 2008, 940 s.
85. Karaman E. Ermenistan türklerinin ağızları. Bakü/Ahmedli. 2011. 506 s.
86. Karaman E.Karabağ ağızları. I-II cild.Bakü. 2011. 350 s.400 s.
87. Togan A. Zeki Velidi. Azerbaycan//İslam Ansiklopedisi. C.2. İstanbul, 1970, s.91-118.

Rus dilində

88. Алиев К. Этюды о населении древнего Азербайджана // К проблеме этногенеза азербайджанского народа. Баку: Элм, 1984, с.40- 68.
89. Ашмарин Н.И.Общий обзор народных тюркских говоров города Нухи. Баку,1926
90. Баскаков Н.А. Тюркские языки. М.: Изд-во восточной литературы, 1960.
91. Брук С.И. Население мира. Этнодемографический справочник. М.: Наука, 1986
92. Будагова З. Азербайджанский язык. Краткий очерк. Баку: Елм.1982
93. Вопросы диалектологии тюркских языков (ВДТЯ), М. 1958,1960, 1963, 1966.

94. Гейбуллаев Г.А. Топонимия Азербайджана (Историко-этнографическое исследоване). Баку: Элм, 1986.
95. 16) Гукасян В.Л. Об азербайджанско-грузинских языковых контактах // Сов. тюркология, 1980, №4, с.22-33.
96. 17) Гукасян В.Л. Об одной древнетюркской письменности // Сов. тюркология, 1981, №5, с.76-84.
97. Джангидзе В.Т. Дманисский говор казахского диалекта Азербайджан -ского языка. АН. Азерб. ССР, Баку, 1965.
98. Древнетюркский Словарь, Л., «Наука», 1969, 676 s.
99. Ермеев Д.Е. На стыке Азии и Европы. Очерки о Турции и турках. М.: Наука, 1980.
100. История Азербайджана. Под. ред. Дж.Б.Гулиева. Баку: Элм, 1979.
101. История народов Восточной и Центральной Азии с древнейших времен до наших дней. М.: Наука, главная редакция восточной литературы, 1986.
102. Касимова Р.М. Антропологические исследования современного населения Азербайджан- ской ССР. Баку: Элм, 1975.
103. Касимова Р.М. К изучению антропологии иранских азербайджанцев//Азербайджанский этнографический сборник. Вып. III. Баку: Элм, 1977, с.212-217.

104. Насыров Д.С. Становление каракалпакского общенародного разговорного языка и его диалектная система. Нукус-Казань: Каракалпакстан, 1976
105. Первый Всесоюзный Тюркологический съезд. 26 февраля - 5 марта 1926 г. Стенографический отчет. Баку, АССР, 1926
106. Рагимов М.Ш. Значение неродственных языков на территории Азербайджана в сравнительно-историческом изучении тюркских языков огузской группы // Сов. тюркология, 1971, №2, с.50- 58.
107. Радлов В.В. Опыт словаря тюркских наречий. Т.1-4, СП6. 1893. Ч1, 968 с. С.471
108. Серебренников Б.А., Харькова С.С. О некоторых эффективных методах исследования проблемы родства тюркских и монгольских языков//Советская тюркологоия. Баку, 1983, № 5
109. Серебренников Б.А. Что было первичным “r” или “z”? // Советская тюркология. Баку, 1971, № 1.
110. Тер-Мкртичян Л.Х. Армянские источники о Средней Азии V-VII вв. М.: Наука, 1979.
111. Тер-Мкртичян Л.Х. Армянские источники о Средней Азии VIII-XVIII вв. М.: Наука, 1985.
112. Техов Б.В. Скифы и Центральный Кавказ в VII-VI вв. до н.э. М.: Наука, 1980.
113. Трофимова А.Г. Азербайджанцы // Советская историческая энциклопедия. Т.1. М., 1961, с.265-266

114. Шаниязов К.Ш. К этнической истории узбекского народа (Историко-этнографическое исследование на материалах кипчакского компонента). Ташкент: Фан, 1974.
115. Щербак А.М. Названия домашних и диких животных в тюркских языках. Историческое развитие лексики тюркских языков).Москва. АН. СССР.1961. с.82-172.
116. Щербак А.М. Проблема ротацизма и перспективы дальнейшего изучения тюркско-монгольских языковых связей // Советская тюркология. Баку, 1987. №3
117. Ширалиев М.Ш. Закономерности развития азербайджанского языка // Сов. тюркология, 1985, №5, с.3-8
118. 32) Ямпольский З.И. Древнейшие сведения о тюрках в зоне Азербайджана // Уч. зап. Азерб. гос. ун-та, сер. яз. и лит., 1966, №2, с.62-64.
119. Ямпольский З.И. О тюрках V века до нашей эры // Уч. зап. Азерб. гос. ун-та, сер. яз. и лит., 1970, №5-6, с.10-13.

İnternet resursları

120. https://azertag.az/xeber/Dilchilik_Institutunun_emekdaslariBeyleqanda_dialektoloji_materiallar...
121. http://medeniyyet.az/page/news/36587/Azerbaycan-dilinin-Qarabag-dialektoloji-atlasinin...
122. http://ndu.edu.az/cgi-sys/suspendedpage.cgi

123. http://www.azadliq.az/xeber/95310/qarabag-geyimleri-kitab-kataloqunun-teqdimati.
124. www.kaspi.az. -30. X.2018
125. www.folklor.az/arasdirmalar/nubar-hekimov
126. https://ru.wikipedia.org/wiki/Arçax
127. http://anl.az/el/latin_qrafikasi/axe/kd-q.pdf
128. https://obastan.com/az/dict/dialect/word/561725%C6%8FRD%C6%8F
129. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_dilinin_dialektl%C9% 99ri

MÜNDƏRİCAT

GİRİŞ 3

ŞİVƏLƏRİN AREALLIĞI. DİALEKTLƏRDƏ –QARABAĞ ŞİVƏLƏRİNDƏ QORUNAN QƏDİM TÜRK ELEMENTLƏRİ 6

QARABAĞ DİALEKTİ HAQQINDA 30

DİALEKTAL LEKSİKANIN ETNOQRAFİK LAYI 44

QARABAĞ DİALEKTİNİN ETNOQRAFİK LEKSİKASI ... 51

ETNOQRAFİK DİALEKTİZMLƏR. 51

QARABAĞ MƏTBƏXİ 51

GEYİM ADLARI 66

XALQ TƏBABƏTİ LEKSİKASI 74

MƏİŞƏT LEKSİKASI 78

OYUN ADLARI 81

MƏRASİM LEKSİKASI 83

QARABAĞ ŞİVƏLƏRİNİN TERMİNOLOJİ LEKSİKASI: TƏSƏRRÜFAT LEKSİKASI- HEYVANDARLIQ, ƏKİNÇİLİK, BOSTANÇILIQ LEKSİKASI 85

MÜHAZİRƏ MƏTNLƏRİ 97

I MÖVZU 98

“DİALEKTOLOGİYA” FƏNNİ HAQQINDA ÜMUMİ MƏLUMAT. DİALEKTOLOGİYA FƏNNİNİN OBYEKTİ ,

MƏQSƏDİ, VƏZİFƏLƏRİ, ƏLAQƏLƏRİ, ƏSAS ANLAYIŞLARI. AZƏRBAYCAN DİALEKTOLOGİYASININ TARİXİNDƏN 98

II MÖVZU 129

ÜMUMXALQ DİLİ, ƏRAZİ DİALEKTLƏRİ, ƏDƏBİ DİL 129

III MÖVZU 134

AZƏRBAYCAN DİALEKTLƏRİNİN TƏDQİQİ TARİXİNDƏN 134

IV MÖVZU 166

AZƏRBAYCAN XALQININ VƏ DİLİNİN FORMALAŞMASINDA İŞTİRAK ETMİŞ TAYFALAR ... 166

V MÖVZU 188

AZƏRBAYCAN DİLİNDƏ DİALEKTOLOJİ FƏRQLƏRİN YARANMASI VƏ İNKİŞAFI 188

VI MÖVZU 219

AZƏRBAYCAN DİALEKTLƏRİNİN TƏSNİFİ MƏSƏLƏLƏRİ 219

VII MÖVZU 256

AZƏRBAYCAN DİALEKTLƏRİNİN FONETİK XÜSUSİYYƏTLƏRİ 256

VIII MÖVZU 264

AZƏRBAYCAN DİALEKTLƏRİNİN SAMİT SİSTEMİ. FONETİK HADİSƏ VƏ QANUNLAR 264

IX MÖVZU 281

AZƏRBAYCAN DİLİNİN DİALEKT LEKSİKASI 281

X MÖVZU 296

AZƏRBAYCAN DİLİ DİALEKTLƏRİNİN QRAMMATİK XÜSUSİYYƏTLƏRİ. MORFOLOGİYA. İSİM VƏ İSMƏ AİD KATEQORİYALAR..... 296

XI MÖVZU 307

DİALEKTLƏRDƏ SİFƏT, SAY VƏ ƏVƏZLİKLƏR 307

XII MÖVZU..... 311

FEİL. FEİLİN KATEQORIYALARI 311

XIII MÖVZU 326

ZƏRF VƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ 326

XIV MÖVZU 337

AZƏRBAYCAN DİLİ DİALEKTLƏRİNİN SİNTAKTİK XÜSUSİYYƏTLƏRİ..... 337

XV MÖVZU 352

DİALEKTOLOJİ TƏDQİQATLARIN METODLARI VƏ ÜSULLARI. DİALEKTOLOGİYADA OBYEKT SEÇMƏ VƏ İŞLƏMƏ ƏMƏLİYYATI 352

AZƏRBAYCAN DİALEKTLƏRİNİN TƏDQİQİ İLƏ MƏŞĞUL OLMUŞ DİALEKTOLOQLAR..... 358

MİRZƏ KAZIM BƏY 359

NİKOLAY İVANOVİÇ AŞMARİN 366

ALEKSANDR MİXAYLOVİÇ ŞERBAK 369

CEYHUN HACIBƏYLİ 371
ƏLƏKBƏR BABAZADƏ 379
İDRİS HƏSƏNOV 389
AKADEMİK MƏMMƏDAĞA ŞİRƏLİYEV 398
ABDULLA HÜSEYN OĞLU VƏLİYEV 412
KAMİL TAĞI OĞLU RAMAZANOV 414
RƏSUL ƏLİABBAS OĞLU RÜSTƏMOV 416
TEYYUB BEHBUD OĞLU HƏMZƏYEV 418
ƏLİ KAMİL OĞLU CƏFƏROV 420
AZƏR ƏLİŞ OĞLU HÜSEYNOV 421
MUSA İSA OĞLU İSLAMOV 423
MƏMMƏD MƏMMƏD OĞLU CƏFƏRZADƏ 425
QASIM MEHDİ OĞLU HƏSƏNOV 427
BUTA PƏNAH OĞLU SADIQOV 429
SƏYYARƏ MƏMMƏD QIZI MOLLAZADƏ 430
SEFİ BAXIŞ OĞLU BEHBUDOV 432
HƏSƏN MİRZƏYEV 433
AFAD QURBANOV 440
ELBRUS ƏZİZOV 444
BİRİNCİ TÜRKOLOJİ QURULTAY (1926-BAKI) 446
MAHİRƏ HÜSEYNOVA 461

MƏHƏRRƏM MƏMMƏDLİ 468
İBRAHİM BAYRAMOV 475
ASLAN ƏHMƏDXAN OĞLU BAYRAMOV 478
NÜMUNƏLƏR 480
LƏTİFƏLƏR 489
ŞƏKİ LƏTİFƏLƏRİ 490
TƏKRAR ÜÇÜN TEST TAPŞIRIĞI NÜMUNƏLƏRİ 515
DİLİMİZİN MÜXTƏLİF MƏHƏLLİ XÜSUSİYYƏTLƏRİ – LEKSİK NÜMUNƏLƏR 518
ƏDƏBİYYAT 542

Korrektor və dizayner: X.V.Quliyeva

Çapa imzalanmış --. --.2022-ci il

Kağız formatı 70x100 1/16, çap vərəqi 23

Sifariş 342, sayı 100

----- -nun nəşriyyatı

Bakı, Ü.Hacıbəyli küçəsi, 68

Tel: (+912) 493-74-10

E-mail: poliqrafiya@mail.ru[1]